# HƏZRƏT NİZAMİ GƏNCƏVİNİN MERACNAMƏLƏRİNİN ŞƏRHİ

SİRACƏDDİN HACI

4-CÜ KİTAB

***Elmi redaktorlar*:**

*Professor, doktor* **Abdullah Kahraman**
*Sivas Cumhuriyyət Universitetinin professoru*

*Filologiya elmləri doktoru* **Mahirə Quliyeva**
*AMEA-nın Nizami adına Ədəbiyyat*
*İnstitutunun baş elmi işçisi*

***Rəyçilər*:**

*Filologiya elmləri üzrə fəlsəfə doktoru* **Leyli Əliyeva**
*AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun*
*baş elmi işçisi*

*Fəlsəfə elmləri üzrə fəlsəfə doktoru* **Yadulla Paşayev**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar*
*İnstitutunun böyük elmi işçisi*

*Filologiya elmləri üzrə fəlsəfə doktoru* **Vəfa Muradxanqızı**
*AMEA-nın Folklor İnstitutunun elmi işçisi*

***Ədəbi redaktor*:**

***Sürəyya Əlizadə***
*AMEA-nın Folklor İnstitutunun elmi işçisi*

ISBN 9952-437-35-5

Monoqrafiyada İslam dinində peyğəmbərlik anlayışının başlıca prinsipləri göstərilir, İslam dininin müqəddəs kitabı Qurani-Kərim və mübarək hədislər işığında peyğəmbərliyin mahiyyəti açıqlanır. Kitabda din və ədəbiyyat, ərəb, fars, türk ədəbiyyatında nət mövzusu öyrənilir, həzrət Nizami Gəncəvinin «Xəmsə»sində olan bütün meracnamələr beyt-beyt şərh olunur.

$S\frac{4603020000-4}{071-2010}$ Qrifli nəşr

© Siracəddin Hacı, 2010

**Kitabın nəşrinə maddi yardım göstərmiş Küveytin Beynəlxalq İslam Xeyriyyə Təşkilatı Asiya Müsəlmanları Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri doktor cənab Xalid Əbu Nəhləyə təşəkkürümüzü bildiririk.**

# İ Ç İ N D Ə K İ L Ə R

HZ. MƏHƏMMƏD (s.a.s.) AZADLIQ VƏ
NUR PEYĞƏMBƏRİDİR.......................................................................................23
BÜTÜN PEYĞƏMBƏRLƏR MÜSƏLMANDIRLAR..................................28
ALLAH (c.c) PEYĞƏMBƏRLƏ ELM GÖNDƏRMİŞDİR……….................34
QALDIRIB BARMAQ GƏTİRMİŞ ASİMAN İMAN SANA.......................35
HƏZRƏT NİZAMİDƏN NUR DAMLALARI: UCA
ALLAH (c.c) QADİRDİR. ............................................................................37
G İ R İ Ş: DƏYƏR BİZİM SƏRHƏDİMİZDİR............................................38
HZ. NİZAMİYƏ GÖRƏ DÜŞÜNCƏMİZİN QAYNAQLARI......................39
İMANIN ƏSASLARI......................................................................................39
HAQQ DİNİNİN ÖZƏLLİKLƏRİ.................................................................41
İSLAM DİNİNİN ƏSASLARI.......................................................................42
PEYĞƏMBƏRLİK ANLAYIŞI.....................................................................45
PEYĞƏMBƏRLƏRİN SAYI VƏ ÖZƏLLİKLƏRİ…………......................49
PEYĞƏMBƏRLƏRİN VƏZİFƏLƏRİ .........................................................54
PEYĞƏMBƏRLƏRİN TƏBLİĞ METODLARI ...........................................57
HƏZRƏT MƏHƏMMƏDİ (s.a.s.) BAŞQA PEYĞƏMBƏRLƏR-
DƏN AYIRAN ÖZƏLLİKLƏR....................................................................58
HƏZRƏT MƏHƏMMƏDİN ADLARI .........................................................60
HƏZRƏT NİZAMİNİN DİLİ HƏR AN UCA ALLAHI (c.c)
ZİKR EDİR: «MƏNİ MÖHTAC OLANLARA MÖHTAC ETMƏ».............65
ƏRƏB, FARS VƏ TÜRK ƏDƏBİYYATINDA NƏT ...............…………..66
ƏRƏB ƏDƏBİYYATINDA NƏT................................................................69
FARS ƏDƏBİYYATINDA NƏT..................................................................73
TÜRK ƏDƏBİYYATINDA NƏT.................................................................75
NƏTİN QURULUŞU ....................................................................................82
HZ. NİZAMİ GƏNCƏVİNİN NƏTİNİN ŞƏRHİ………………. .............83
HƏZRƏT PEYĞƏMBƏRƏ SALAVAT QURAN BUYURUĞUDUR.........85
HƏZRƏT NİZAMİ GƏNCƏVİYƏ GÖRƏ ALLAHDAN ELM
ÖYRƏNMƏYİN YOLU.................................................................................87
HƏZRƏT NİZAMİ: «HZ. MƏHƏMMƏD (s.a.s) MERAC GECƏSİ
TÜRK KİMİ AT ÇAPDI».............................................................................96
MERACNAMƏLƏRİN TARİXİ VƏ İDEYASI ...........................................96
TÜRK ƏDƏBİYYATINDA MERACNAMƏLƏR........................................98
TÜRK DİNİ MUSİQİSİNDƏ MERAC........................................................103
MİNİATÜRLƏRDƏ MERAC MOTİVİ .....................................................104
XƏTT SƏNƏTİNDƏ MERAC ...................................................................106
HƏZRƏT NİZAMİ: «MƏNİM VƏZİFƏM BƏNDƏLİK
ETMƏKDİR» ..............................................................................................107

HZ. NİZAMİNİN İSLAM PEYĞƏMBƏRİNİN MERACINA MÜNASİBƏTİ ....................................................107
«SİRLƏR XƏZİNƏSİ»NDƏ OLAN MERACNAMƏNİN BAŞLICA ÖZƏLLİKLƏRİ ....................................................107
HZ. NİZAMİNİN «XOSROV VƏ ŞİRİN» DASTANINDA OLAN MERACNAMƏNİN ÖZƏLLİKLƏRİ....................................................113
NİZAMİNİN DUASI.................................................... 114
«LEYLİ VƏ MƏCNUN» DASTANINDA OLAN MERACNAMƏNİN ÖZƏLLİKLƏRİ ....................................................119
«YEDDİ GÖZƏL» DASTANINDA OLAN MERACNAMƏNİN ÖZƏLLİKLƏRİ....................................................127
«İSGƏNDƏRNAMƏ» DASTANINDA OLAN MERACNAMƏNİN ÖZƏLLİKLƏRİ ....................................................134
HZ. NİZAMİDƏN NUR DAMLALARI....................................................144
BİR NEÇƏ SÖZ ....................................................145
MERACA DOĞRU BİRİNCİ ADDIMIN ŞƏRHİ: «HZ. MƏHƏMMƏD (s.a.s) CƏNUB ŞAHIDIR»....................................................146
İKİNCİ ADDIM: «YEDDİ GÖYÜN QAPISINI SƏN AÇDIN» ....................................................149
YEDDİ GÖYÜN QAPISINI SƏN AÇDIN ....................................................151
YEDDİ GÖY ANLAYIŞI ....................................................153
DÖRD GÖVHƏRƏ QƏDƏM BASDIN ....................................................155
DAR ZƏMANƏNİN CƏNGİNDƏN QURTARDIN ....................................................155
ÜÇÜNCÜ ADDIM: «GECƏ QARA BAYRAĞINI QALDIRDI»....................................................156
GECƏ GÜNDÜZ OLMAQ İDDİASINDADIR ....................................................158
DÖRDÜNCÜ ADDIM: «ÜMMİ-HANİ EVİNİN ÖVCÜNƏ YÜKSƏLDİN»....................................................159
ÜMMİ-HANİ KİMDİR? ....................................................160
ÜMMİ-HANİ: «SƏNİN KİMİ ŞƏRƏFLİ QONAĞA CANIM FƏDA OLSUN» ....................................................160
ÜMMİ-HANİ SƏHƏRƏDƏK ONUN KEŞİYİNİ ÇƏKDİ....................................................161
«GET HƏBİBİMİ GƏTİR!»....................................................161
O, MƏKKƏNİN FƏTHİ GÜNÜ İSLAM NURU İLƏ ŞƏRƏFLƏNDİ ....................................................161
ÜMMİ-HANİNİN SÖYLƏDİYİ HƏDİS ....................................................162
MERACNAMƏLƏRDƏ ÜMMİ-HANİNİN ADI ....................................................163
BEŞİNCİ ADDIM: «MERAC ONUN TAXTINI ƏRŞƏ QALDIRDI»....................................................168
ALTINCI ADDIM: «ONUN BAŞI ALÇAQ MƏRTƏBƏDƏN UCALDI»....................................................170
YEDDİNCİ ADDIM: «SƏN XİLAS KEŞİKÇİSİSƏN» ....................................................171
SƏKKİZİNCİ ADDIM: «BURAQ NURDAN YARANMIŞDI» ....................................................174
DOQQUZUNCU ADDIM: «BURAQIN BAŞINDA YÜYƏN YOX İDİ»....................................................177

ONUNCU ADDIM: «BURAQ İNCİ SƏPİRDİ» ....................................... 178
ON BİRİNCİ ADDIM: «YƏHƏRİ GÖVHƏRDƏN OLAN BİR DƏNİZ KİMİ İDİ» ....................................... 180
ON İKİNCİ ADDIM: «BURAQ AĞIR NALLI, YÜNGÜL QAÇIŞLI İDİ» ....................................... 181
ON ÜÇÜNCÜ ADDIM: «CƏBRAİL (ə.s) YEDDİ GÖYÜN DARGÖZ OĞLANIDIR» ....................................... 182
BÖYÜK ƏRŞİN ÖZƏLLİKLƏRİ ....................................... 185
BÖYÜK ƏRŞİN ƏTRAFINDA OLAN ÇAYLAR ....................................... 186
MƏLƏKLƏRİN ÖZƏLLİKLƏRİ ....................................... 187
KÜRSÜNÜN ÖZƏLLİKLƏRİ ....................................... 188
LÖVHİ-MƏHFUZ VƏ QƏLƏMİN ÖZƏLLİYİ ....................................... 188
SİDRƏTÜL-MÜNTƏHA VƏ TUBA AĞACI ....................................... 190
ON DÖRDÜNCÜ ADDIM: «BU GECƏ KEŞİK SƏNİNDİR ....................................... 192
ON BEŞİNCİ ADDIM: «KEŞİK ÇƏKMƏK İQBALINI SƏNƏ GƏTİRMİŞƏM» ....................................... 194
ON ALTINCI ADDIM: «ÖZ KƏCAVƏNİ ÇƏRXƏ SÜR» ....................................... 197
AYIN ÖZƏLLİKLƏRİ ....................................... 197
ON YEDDİNCİ ADDIM: «DOQQUZ FƏLƏYİ ÇARMIXA ÇƏK» ....................................... 199
ALTI CƏHƏTİN YEDDİ KÖKÜ ....................................... 200
DOQQUZ FƏLƏK ANLAYIŞI ....................................... 209
BİRİNCİ FƏLƏK ....................................... 209
İKİNCİ FƏLƏK ....................................... 209
ÜÇÜNCÜ FƏLƏK ....................................... 211
DÖRDÜNCÜ FƏLƏK ....................................... 213
BEŞİNCİ FƏLƏK ....................................... 214
ALTINCI FƏLƏK ....................................... 215
YEDDİNCİ FƏLƏK ....................................... 216
SƏKKİZİNCİ FƏLƏK ....................................... 216
DOQQUZUNCU FƏLƏK ....................................... 217
HZ. NİZAMİ: «ÖNCƏ ŞÜKÜR, SONRA SƏRVƏT» ....................................... 219
ON SƏKKİZİNCİ ADDIM: «MƏLƏKLƏRİN BAŞINI ÖZ KƏMƏNDİNƏ SAL» ....................................... 220
AY İLİ ....................................... 223
AY TƏQVİMİ ....................................... 223
HİCRİ-QƏMƏRİ TƏQVİMİ ....................................... 223
ŞAİRİN BEYTƏ YÜKLƏDİYİ MƏNA ....................................... 224
ON DOQQUZUNCU ADDIM: «YAŞIL GEYİMLİLƏR SƏNİ GÖZLƏYİRLƏR» ....................................... 225
İYİRMİNCİ ADDIM: «MİSİR NAZƏNİNLƏRİ YUSİF KİMİ SƏNƏ AŞİQ OLUBLAR» ....................................... 227

İYİRMİ BİRİNCİ ADDIM: «QOY ONLAR SƏNƏ TAMAŞA ETSİNLƏR» ....230
İYİRMİ İKİNCİ ADDIM: «GÖYÜN TÜRRƏLƏRİNİ TƏZƏLƏNDİR» ....232
İYİRMİ ÜÇÜNCÜ ADDIM: «MƏLƏKLƏRİN EYVANINI ÖZ KƏMƏNDİNƏ ÇƏK» ....233
İYİRMİ DÖRDÜNCÜ ADDIM: «ÜZÜN BAĞ ÇİÇƏKLƏRİ KİMİ TƏZƏ-TƏR OLSUN» ....234
İYİRMİ BEŞİNCİ ADDIM: «UCA ALLAHDAN (c.c) NƏ İSTƏSƏN, ALACAQSAN» ....236
MERAC HALI ....236
İYİRMİ ALTINCI ADDIM: «MƏLƏKLƏRİN XALILARINI TƏZƏLƏ» ....240
İYİRMİ YEDDİNCİ ADDIM: «ƏRŞİN GÖZLƏRİNİ NURLANDIR» ....241
İYİRMİ SƏKKİZİNCİ ADDIM: «TACDAR SƏN OLDUN» ....243
İYİRMİ DOQQUZUNCU ADDIM: «HƏR İKİ CAHANI COVLAN ÜÇÜN ÖZÜNƏ XAS ET» ....246
OTUZUNCU ADDIM: «O ƏBƏDİNİN DƏRGAHINA YÖNƏL» ....247
OTUZ BİRİNCİ ADDIM: «HƏR İKİ ALƏMDƏ BAYRAĞIN RƏVAN OLSUN» ....249
OTUZ İKİNCİ ADDIM: «ƏRŞİN XƏLVƏTXANASI SƏNİN YERİN OLDU» ....251
OTUZ ÜÇÜNCÜ ADDIM: «GÖY SƏNİN QULLUĞUNA HAZIRDIR» ....252
OTUZ DÖRDÜNCÜ ADDIM: «HAMI SƏNİN TAMAŞANA DURMUŞDUR» ....254
OTUZ BEŞİNCİ ADDIM: «AY SƏNİN İNTİZARINDADIR» ....256
OTUZ ALTINCI ADDIM: «UTARİDİN DƏFTƏRİNDƏ DƏVƏTİNİN RƏMZİ YAZILMIŞDIR» ....258
OTUZ YEDDİNCİ ADDIM: «ZÖHRƏNİN BAŞINDA HƏDİYYƏ TABAĞI VAR» ....260
OTUZ SƏKKİZİNCİ ADDIM: «GÜNƏŞ HİLAL ŞƏKLİNƏ DÜŞƏRƏK SƏNİN YOLUNU TƏMİZLƏMİŞDİR» ....261
OTUZ DOQQUZUNCU ADDIM: «MƏRRİX GÖZƏTÇİLƏRİNDƏN BİRİDİR» ....262
QIRXINCI ADDIM: «MÜŞTƏRİ: «YAMAN GÖZDƏN İRAQ!» – DEDİ» ....264
QIRX BİRİNCİ ADDIM: «KEYVANIN ÇİYNİNDƏ QARA BAYRAQ VAR» ....265
QIRX İKİNCİ ADDIM: «SƏNİN BELƏ XİDMƏTÇİLƏRİN VAR» ....266

QIRX ÜÇÜNCÜ ADDIM: «BU GECƏ SƏNİN QƏDR GECƏNDİR».....267
QIRX DÖRDÜNCÜ ADDIM: «BU GECƏ ƏBƏDİYYƏT BƏZƏYİDİR».....270
QIRX BEŞİNCİ ADDIM: «BU GECƏ XOŞBƏXTDİR».....272
QIRX ALTINCI ADDIM: «O, RUHOXŞAYAN XƏBƏR EŞİTDİ».....273
QIRX YEDDİNCİ ADDIM: «O, HUŞUNU İTİRDİ».....274
QIRX SƏKKİZİNCİ ADDIM: «CƏBRAİL (ə.s) VƏ HZ. MƏHƏMMƏD (s.a.s) BİR ƏMANƏTİN XƏZİNƏDARIDIRLAR».....275
ŞAH VƏLİYULLAH DƏHLƏVİYƏ GÖRƏ, ƏMANƏT VƏ MƏSULİYYƏT.....282
MÖVDUDİYƏ GÖRƏ «ƏMANƏT» ANLAYIŞI.....284
TƏSƏVVÜFƏ GÖRƏ ƏMANƏT ANLAYIŞI.....285
QIRX DOQQUZUNCU ADDIM: «BİRİ KƏLAMI YERƏ ENDİRƏN, O BİRİ İSƏ AĞIL ƏMİNİDİR».....287
HZ. NİZAMİ : «MƏN HƏR ELMİ ÖYRƏNDİM».....292
ƏLLİNCİ ADDIM: «O, KƏLAMIN SİRRİNƏ QULAQ ASIR».....293
ƏLLİ BİRİNCİ ADDIM: «O, MURAD GÜNƏŞİ İLƏ NAXIŞLANDI».....298
ƏLLİ İKİNCİ ADDIM: «QIZIL HALQANI ANCAQ BELƏ TAXMAQ OLAR».....299
ƏLLİ ÜÇÜNCÜ ADDIM: «O, ƏRƏB ATININ ÜSTÜNDƏ İDİ».....301
ƏLLİ DÖRDÜNCÜ ADDIM: «BURAQ KƏKLİK KİMİ YERİNDƏN SIÇRADI».....301
ƏLLİ BEŞİNCİ ADDIM: «KAVUS KƏCAVƏSİ KİMİ AYA TƏRƏF ÇAPDI».....302
ƏLLİ ALTINCI ADDIM: «DOQQUZ FƏLƏK ÖZ GÖZLƏRİNDƏN ONA KƏCAVƏ DÜZƏLTDİ».....304
ƏLLİ YEDDİNCİ ADDIM: «O, KAİNATIN HƏRƏMXANASINI TƏRK ETDİ».....306
ƏLLİ SƏKKİZİNCİ ADDIM: «GECƏ ONUN GƏLİŞİNDƏN VƏCDƏ GƏLDİ».....308
ƏLLİ DOQQUZUNCU ADDIM: «O, YUXUNUN ÜZƏNGİSİNİ ÇƏKDİ».....309
ALTMIŞINCI ADDIM: «RUHU DİNCLİK MƏKANINA UÇDU».....310
ALTMIŞ BİRİNCİ ADDIM: «MƏLƏKLƏRİN QOL-QANADI SINDI».....314
ALTMIŞ İKİNCİ ADDIM: «ONUN CİSMİ QƏLBDƏN DƏ YÜNGÜL OLMUŞDU».....315
ALTMIŞ ÜÇÜNCÜ ADDIM: «DÖRD ŞAHİN QANAD SINDIRDI».....319
ALTMIŞ DÖRDÜNCÜ ADDIM: «AY CİLOVUNU ÇƏKDİ».....320

ALTMIŞ BEŞİNCİ ADDIM: «XƏYAL ONUN SƏYİRMƏYİNİ GÖRƏ BİLMƏZ»........321
ALTMIŞ ALTINCI ADDIM: «RUHUN HƏRƏKƏTİ COMƏRDLİKDƏ ONA ÇATA BİLƏRDİMİ?» ........322
ALTMIŞ YEDDİNCİ ADDIM: «O, ALLAHIN TƏBƏRRÜKÜ İLƏ MİL-MİL UCALIRDI»…........323
ALTMIŞ SƏKKİZİNCİ ADDIM: «HƏR İKİ CAHANIN GÖZÜ ONA DİKİLMİŞDİ» ........325
ALTMIŞ DOQQUZUNCU ADDIM: «ONUN BAŞI BÜTÜN RÜTBƏLƏRDƏN UCA İDİ» ........326
YETMİŞİNCİ ADDIM: «RƏXŞ YƏHƏRİNİ ATDI» ........330
YETMİŞ BİRİNCİ ADDIM: «BİR QUŞ KİMİ MƏDİNƏDƏN UÇDU» ........332
YETMİŞ İKİNCİ ADDIM: «PEYĞƏMBƏRLƏR ONU ÖZLƏRİ ÜÇÜN QİBLƏ ETDİLƏR» ........334
YETMİŞ ÜÇÜNCÜ ADDIM: «ALLAHIN YOLUNU TUTMUŞDU» ........336
YETMİŞ DÖRDÜNCÜ ADDIM: «YAŞIL GEYİMLİLƏRİN GÖY ÇADIRINDAN BAYIRA ÇIXMIŞDI» ........339
YETMİŞ BEŞİNCİ ADDIM: «QÜTBÜN SAHİLİNƏ GƏMİ GƏTİRMİŞDİ» ........340
YETMİŞ ALTINCI ADDIM: «FƏLƏYİN QƏLBİNİ ƏQRƏBDƏ SÖKMÜŞDÜR» ........341
YETMİŞ YEDDİNCİ ADDIM: «PƏRGARI YERƏ SANCDIN» ........343
YETMİŞ SƏKKİZİNCİ ADDIM: «BURAQI SƏNİN HİLMİN RAM ETDİ» ........344
YETMİŞ DOQQUZUNCU ADDIM: «ƏL TOXUNULMAMIŞ GÖYLƏRƏ YÜKSƏLDİN»… ........351
SƏKSƏNİNCİ ADDIM: «İKİ ATLI DÖVRANI ARXADA QOYDU» ........352
SƏKSƏN BİRİNCİ ADDIM: «YER DƏRYASI MƏDƏN OLDU» ........353
SƏKSƏN İKİNCİ ADDIM: «FƏLƏK ÖKÜZÜ YER ÖKÜZÜNDƏN ALDI» ........354
SƏKSƏN ÜÇÜNCÜ ADDIM: «FƏLƏYİN BAĞI SƏNİN MƏRHƏMƏTİNDƏN BƏHƏR VERDİ» ........356
SƏKSƏN DÖRDÜNCÜ ADDIM: «O BAĞIN BƏHƏRİ SƏNİN BAXIŞINDAN İŞIQ ALDI» ........359
SƏKSƏN BEŞİNCİ ADDIM: «YEDDİ DAMIN ZİRVƏSİNDƏ TAC VƏ BAYRAQ QALMADI» ........360
SƏKSƏN ALTINCI ADDIM: «FƏLƏYİN BAYRAĞINI QIRDIN, AYIN TACINI BÖLDÜN» ........361
SƏKSƏN YEDDİNCİ ADDIM: «MAVİ FƏLƏYİN TAVUS QANADLILARI QANAD SALDI» ........364

SƏKSƏN SƏKKİZİNCİ ADDIM: «CƏBRAİL (ə.s): «ALLAH SƏNİNLƏ OLSUN» - DEDİ» ........ 365
SƏKSƏN DOQQUZUNCU ADDIM: «SƏRƏTANIN TACINI, CÖVZANIN KƏMƏRİNİ ALDI» ........ 366
DOXSANINCI ADDIM: «XUŞƏ TƏZƏ SÜNBÜL DÜZƏLTDİ» ........ 368
DOXSAN BİRİNCİ ADDIM: «ZÖHRƏ TƏRƏZİ ƏLİNDƏ QULLUĞA DURMUŞDU» ........ 371
DOXSAN İKİNCİ ADDIM: «TƏRƏZİ SƏCDƏ ETMİŞDİ» ........ 373
DOXSAN ÜÇÜNCÜ ADDIM: «O, ƏQRƏBİN QUYRUĞUNA ŞƏRBƏT TÖKDÜ» ........ 374
DOXSAN DÖRDÜNCÜ ADDIM: «O, YAYDAN ŞİKAR YIXAN BİR OX ATDI» ........ 376
DOXSAN BEŞİNCİ ADDIM: «O, GÜNƏŞ KİMİ DOLÇANIN YUSİFİ OLDU» ........ 380
DOXSAN ALTINCI ADDIM: «O, SÜRƏYYA TAXTINI HƏMƏLDƏ QURDU ........ 388
DOXSAN YEDDİNCİ ADDIM: «YERİN O BAŞI BAHAR RƏNGİNƏ BOYANDI»… ........ 390
DOXSAN SƏKKİZİNCİ ADDIM: «SƏRV GÜL AÇMIŞDI» ........ 390
DOXSAN DOQQUZUNCU ADDIM: «ONUN GÖZLƏRİ «MA ZAĞ» SÖZÜ İLƏ SÜRMƏLƏNDİ» ........ 391
HƏZRƏT NİZAMİ : «BİR ÇARƏ VAR, O DA YARATMAQ» ........ 395
YÜZÜNCÜ ADDIM: «YEDDİ QAT GÖYLƏRDƏN ON ƏDƏB ÖYRƏNDİ» ........ 396
YÜZ BİRİNCİ ADDIM: «MƏLƏKLƏR ONUN BAYRAĞINI ÇİYİNLƏRİNDƏ APARIRDILAR»… ........ 405
YÜZ İKİNCİ ADDIM: «GECƏNİN GÖBƏYİ ONUN DODAQLARINDAN TÖKÜLƏN MÜŞKLƏ DOLDU» ........ 406
YÜZ ÜÇÜNCÜ ADDIM: «BURAQ ŞİMŞƏYƏ BƏNZƏYİRDİ»… ........ 407
YÜZ DÖRDÜNCÜ ADDIM: «BURAQ FAXTA QUŞU KİMİ YEYİN GEDİRDİ» ........ 412
YÜZ BEŞİNCİ ADDIM: «BURAQIN QARŞISINDA MƏCƏRRƏ SAMAN DAŞIYAN İDİ» ........ 414
YÜZ ALTINCI ADDIM: «QÖVSÜN SÜMÜYÜNÜ XƏZİNƏYƏ ATMIŞDIR» ........ 415
YÜZ YEDDİNCİ ADDIM: «MÜŞTƏRİYƏ TAC BAĞLAMIŞDI» ........ 417
YÜZ SƏKKİZİNCİ ADDIM: «CƏBƏDƏN CÖVZAYA BİR OX BAĞIŞLAMIŞDI» ........ 419
YÜZ DOQQUZUNCU ADDIM: «YUNİS KİMİ BALIQDA BİR QƏDƏR DAYANMIŞDI» ........ 427
YÜZ ONUNCU ADDIM: «DÜNYA ANALARININ RƏHMİNİ BAĞLAMIŞDI» ........ 434

YÜZ ON BİRİNCİ ADDIM: «ONUN ALTINDA NƏSRİ-TAİR QANAD TÖKÜRDÜ» ....................................................436
YÜZ ON İKİNCİ ADDIM: «ÖZ GÖZÜNƏ «MA ZAĞ» MÖHRÜ VURMUŞDU»…....................................................438
YÜZ ON ÜÇÜNCÜ ADDIM: «SÜRƏYYA ÇİYNİNƏ HƏMAYİL SALMIŞDI»… ....................................................441
YÜZ ON DÖRDÜNCÜ ADDIM: «SƏHRADAN SƏHRAYA ATINI SÜRDÜ»…....................................................442
YÜZ ON BEŞİNCİ ADDIM: «ONLAR AXSAYIRDILAR» ....................442
YÜZ ON ALTINCI ADDIM: «O, QÜTB SEYRİNİ KEÇDİ»....................443
YÜZ ON YEDDİNCİ ADDIM: «GAH RAMİH GÖRÜNDÜ, GAH DA ƏZƏL»… ....................................................444
YÜZ ON SƏKKİZİNCİ ADDIM: «O, BU YOLUN KİTABININ VƏRƏQLƏRİNİ YAZIB QURTARDI»… ....................................................445
YÜZ ON DOQQUZUNCU ADDIM: «YEDDİ SULTANIN QƏSRİNDƏN PƏRDƏ ASILMIŞDI» ....................................................446
YÜZ İYİRMİNCİ ADDIM: «CƏNNƏT BAĞININ YAŞIL DON GEYƏNLƏRİNİN BAŞÇISI»....................................................447
YÜZ İYİRMİ BİRİNCİ ADDIM: «YERİN GÖBƏYİNDƏN ƏQSAYA BAŞ QOYDU»....................................................452
YÜZ İYİRMİ İKİNCİ ADDIM: «MƏLƏKLƏRİN SEVİMLİSİ OLDU»....................................................453
YÜZ İYİRMİ ÜÇÜNCÜ ADDIM: «SARAYINI YEDDİNCİ GÖYDƏ QURDU»....................................................454
YÜZ İYİRMİ DÖRDÜNCÜ ADDIM: «GÖYDƏKİ DOQQUZ HÜCRƏYƏ TƏRƏF YÖNƏLDİ» ....................................................455
YÜZ İYİRMİ BEŞİNCİ ADDIM: «DÖRDQIFILLI BƏNDDƏN ÇIXDI»....................................................456
YÜZ İYİRMİ ALTINCI ADDIM: «BURAQ NURA QƏRQ OLMUŞDU» ....................................................458
YÜZ İYİRMİ YEDDİNCİ ADDIM: «O, SÜHEYL ULDUZU KİMİ ƏRƏB SƏMASINDA UCALDI»....................................................459
YÜZ İYİRMİ SƏKKİZİNCİ ADDIM: «İPƏK ÜSTÜNDƏ İNCİ AXIRDI» ....................................................459
YÜZ İYİRMİ DOQQUZUNCU ADDIM: «GÖBƏYİ MÜŞKLƏ DOLU İDİ» ....................................................460
YÜZ OTUZUNCU ADDIM: «OX KİMİ SÜRƏTLİ İDİ»..........................461
YÜZ OTUZ BİRİNCİ ADDIM: «TƏXƏYYÜL ONDAN YETMİŞ ADDIM GERİ QALIRDI» ....................................................462
YÜZ OTUZ İKİNCİ ADDIM: «O, MƏLƏK KİMİ İDİ»............................462
YÜZ OTUZ ÜÇÜNCÜ ADDIM: «ONUN ƏLİNDƏ AY KİMİ İŞIQLI ŞƏBÇIRAQ VAR İDİ»....................................................463

YÜZ OTUZ DÖRDÜNCÜ ADDIM: «ONUN DAYANMASI SIÇRAYIŞINDAN QABAĞA DÜŞÜRDÜ» ............................................ 464
YÜZ OTUZ BEŞİNCİ ADDIM: «ONUN SÜRƏTİ BAXIŞI TAPDALAYIRDI»… ................................................................ 464
YÜZ OTUZ ALTINCI ADDIM: «PEYĞƏMBƏR XÜTTƏLİ ATIN BELİNDƏ İDİ» ................................................................ 465
YÜZ OTUZ YEDDİNCİ ADDIM: «ÖZÜ YOLBİLƏN, ATI YOLGEDƏN İDİ» ...................................................................... 466
YÜZ OTUZ SƏKKİZİNCİ ADDIM: «ASİMAN ONUN ƏLİNDƏN TƏZƏ XİRQƏ GEYDİ» ...................................................... 467
YÜZ OTUZ DOQQUZUNCU ADDIM: «ULDUZLARIN GÖZÜ ONUNLA İŞIQLANDI» ......................................................... 468
YÜZ QIRXINCI ADDIM: «TƏMİZ PƏRDƏYƏ ƏTƏYİ TOZLU YAXINLAŞMAQ OLMAZDI» ................................................ 469
YÜZ QIRX BİRİNCİ ADDIM: «ORADA AYAĞININ TOZ-TORPAQLARINI YUDU»… ........................................................ 469
YÜZ QIRX İKİNCİ ADDIM: «AYA YUXU BEŞİYİ VERDİ» ................. 470
YÜZ QIRX ÜÇÜNCÜ ADDIM: «UTARİDİN QƏLƏMİNİ QIRDI» .................................................................... 472
YÜZ QIRX DÖRDÜNCÜ ADDIM: «SƏDƏQƏ ÜÇÜN GÜNƏŞƏ ÇÖRƏK VERDİ»… ....................................................................... 473
YÜZ QIRX BEŞİNCİ ADDIM: «ÖZ QƏZƏBİNİN ATƏŞİNİ MƏRRİXƏ VERDİ» ..................................................................... 474
YÜZ QIRX ALTINCI ADDIM: «TƏKƏBBÜRÜ MÜŞTƏRİYƏ VERDİ» ........................................................................................ 476
YÜZ QIRX YEDDİNCİ ADDIM: «SƏYYAR GƏMİNİ KEYVANA TAPŞIRDI»… ............................................................................... 477
YÜZ QIRX SƏKKİZİNCİ ADDIM: «VARLIĞINDAN ANCAQ ÜRƏYİ QALMIŞDI»…… ......................................................... 479
YÜZ QIRX DOQQUZUNCU ADDIM: «PEYĞƏMBƏRLƏRİN CANI ONUN (AYAĞININ) TORPAĞI OLDU» ....................................... 479
YÜZ ƏLLİNCİ ADDIM: «DAĞLARI BİR-BİR ÖTÜB KEÇDİ» .............. 480
YÜZ ƏLLİ BİRİNCİ ADDIM: «MUSA VƏ XIZIR QASİD KİMİ QAÇIRDI» ..................................................................................... 481
YÜZ ƏLLİ İKİNCİ ADDIM: «BUNLAR GÖZ QIRPINCA O GETDİ» ................................................................... 483
YÜZ ƏLLİ ÜÇÜNCÜ ADDIM: «MƏKAN VƏ ZAMAN VƏRƏQİNİ OXUYUB BAŞA VURDU»… ................................................ 483
YÜZ ƏLLİ DÖRDÜNCÜ ADDIM: «ONUN HEÇ TOZUNU DA GÖRMƏDİLƏR»… ................................................................... 486
YÜZ ƏLLİ BEŞİNCİ ADDIM: «FƏLƏK ONUN UÇUŞUNDAN GERİDƏ QALDI»…… ............................................................... 487
YÜZ ƏLLİ ALTINCI ADDIM: «CAHAN DARVAZASINA YÖNƏLDİ»…. .......................................................................... 487

YÜZ ƏLLİ YEDDİNCİ ADDIM: «MƏLƏK ONA YOL AÇIRDI»………..488
YÜZ ƏLLİ SƏKKİZİNCİ ADDIM: «O, AYA FƏZİLƏTİNDƏN TƏRAVƏT BƏXŞ ETDİ»………………………………………………………….489
YÜZ ƏLLİ DOQQUZUNCU ADDIM: «O, UTARİDƏ RƏNG BAĞIŞLADI»……………………………………………………………………491
YÜZ ALTMIŞINCI ADDIM: «ZÖHRƏNİN BAŞINA ÖRTÜK SALDI»………………………………………………………………………492
YÜZ ALTMIŞ BİRİNCİ ADDIM: «GÜNƏŞİN BAŞINA QIZIL TAC QOYDU»……………………………………………………………….493
YÜZ ALTMIŞ İKİNCİ ADDIM: «GECƏNİN XƏLİFƏSİNƏ YAŞIL GEYİNDİRDİ»….. …………………………………………………………493
YÜZ ALTMIŞ ÜÇÜNCÜ ADDIM: «MÜŞTƏRİNİN BAŞINA SƏNDƏL SÜRTDÜ»… ……………………………………………………………495
YÜZ ALTMIŞ DÖRDÜNCÜ ADDIM: «KEYVANIN BAYRAĞINI QARAYA BOYADI»…………………………………………………………….495
YÜZ ALTMIŞ BEŞİNCİ ADDIM: «O, ŞİRƏBƏNZƏR KÖHLƏN BELİNDƏ SÜZÜRDÜ»….. ……………………………………………………….496
YÜZ ALTMIŞ ALTINCI ADDIM: «TAVUS QANADINI SINDIRDI»………………………………………………………………497
YÜZ ALTMIŞ YEDDİNCİ ADDIM: «RUHANİ ALƏMDƏKİLƏRƏ NUR BAĞIŞLADI»… ………………………………………………………………497
YÜZ ALTMIŞ SƏKKİZİNCİ ADDIM: «O, GÜL KİMİ ƏLDƏN-ƏLƏ VERİLDİ»..………………………………………………………………501
YÜZ ALTMIŞ DOQQUZUNCU ADDIM: «YOL YOLDAŞI YORULDU»…………………………………………………………………………502
YÜZ YETMİŞİNCİ ADDIM: «ƏRŞİN YAXASI ONUN ƏTƏYİNƏ TOXUNDU»……………………………………………………………503
YÜZ YETMİŞ BİRİNCİ ADDIM: «YOLDAŞLARININ QOLLARI QIRILDI»……………………………………………………………….505
YÜZ YETMİŞ İKİNCİ ADDIM: «UCA ALLAHIN (c.c) SARAYININ HALQASINI VURDU»………………………………………………506
YÜZ YETMİŞ ÜÇÜNCÜ ADDIM: «MƏLƏKLƏR ONU KƏCAVƏDƏ TƏK QOYDULAR»….. ………………………………………………507
YÜZ YETMİŞ DÖRDÜNCÜ ADDIM: «YOLÇUSU OLMAYAN YOLA DÜZƏLDİ»… ……………………………………………………………………507
YÜZ YETMİŞ BEŞİNCİ ADDIM: «HEÇ KİM O SİRLİ QAPININ AĞZINA ÇATMAMIŞDI»…… ……………………………………………………508
YÜZ YETMİŞ ALTINCI ADDIM: «ONUN QƏDƏMLƏRİ VARLIĞIN BAŞINA TAC OLMUŞDU»……………………………………………509
YÜZ YETMİŞ YEDDİNCİ ADDIM: «ƏRŞİN QOLUNDA BAYRAĞINI UCALTDI»…………………………………………………………………509
YÜZ YETMİŞ SƏKKİZİNCİ ADDIM: «ORADAN İRƏLİ GETMƏMƏK CƏBRAİLƏ ƏMR OLUNMUŞDU»….. ……………………….510

YÜZ YETMİŞ DOQQUZUNCU ADDIM: «MİKAİL ONU QANADLARINA ALDI»… ........................................................................510
YÜZ SƏKSƏNİNCİ ADDIM: «İSRAFİLİN SURUNUN RƏSƏDXANASINA DAXİL OLDU»…....................................................511
YÜZ SƏKSƏN BİRİNCİ ADDIM: «HƏM YÜKÜ QALDI, HƏM DƏ MİNDİYİ ATI»….........................................................................513
YÜZ SƏKSƏN İKİNCİ ADDIM: «O YOLDA CƏBRAİLİN QANADI TÖKÜLMÜŞDÜ»…….................................................................513
YÜZ SƏKSƏN ÜÇÜNCÜ ADDIM: «İSRAFİL AYAQLARINA DÖŞƏNDİ»….. ..........................................................................................514
YÜZ SƏKSƏN DÖRDÜNCÜ ADDIM: «CƏBRAİL ATLANIB GERİ QAYITDI»… ....................................................................................515
YÜZ SƏKSƏN BEŞİNCİ ADDIM: «RƏFRƏF ONU GƏRDƏYİNƏ YETİRDİ»…. .....................................................................514
YÜZ SƏKSƏN ALTINCI ADDIM: «RƏFRƏF SƏNİ SİDRƏGAHIN TAXTINA APARDI»…....................................................516
YÜZ SƏKSƏN YEDDİNCİ ADDIM: «O, PƏRDƏDƏ AHƏNGLƏR OXUDU»….........................................................................517
YÜZ SƏKSƏN SƏKKİZİNCİ ADDIM: «O, HƏMİN TAXTDAN BAŞ GÖTÜRÜB GETDİ»… ......................................................................518
YÜZ SƏKSƏN DOQQUZUNCU ADDIM: «MƏN»LİK YOX OLAN DƏRYANIN YOLUNA DÜZƏLDİ»….........................................518
YÜZ DOXSANINCI ADDIM: «ONUN YOLUNA ADDIM-ADDIM FƏRŞ DÖŞƏNMİŞDİ»…. ..........................................................................519
YÜZ DOXSAN BİRİNCİ ADDIM: «TUBA BAYRAQ QALDIRDI»…....520
YÜZ DOXSAN İKİNCİ ADDIM: «HƏDİS TƏBƏQƏLƏRİNİ AŞDIN»...521
YÜZ DOXSAN ÜÇÜNCÜ ADDIM: «VƏRƏQ-VƏRƏQ NAXIŞLARI OXUYURDU»….................................................................521
YÜZ DOXSAN DÖRDÜNCÜ ADDIM: «O, MƏLƏKLƏRİN DİVANGAHINI KEÇDİ»…......................................................................522
YÜZ DOXSAN BEŞİNCİ ADDIM: «ƏRŞİN DARISQAL QÜLLƏSİNƏ ÇATDI»…. ..........................................................................522
YÜZ DOXSAN ALTINCI ADDIM: «OKEANDAN DAMLA-DAMLA KEÇDİ»….....................................................................523
YÜZ DOXSAN YEDDİNCİ ADDIM: «DUALARININ KƏMƏNDİNDƏN NƏRDİVAN DÜZƏLTDİ»….......................................524
YÜZ DOXSAN SƏKKİZİNCİ ADDIM: «ƏRŞİN BAŞI ONU QARŞILAMAĞA GƏLDİ»…....................................................................524
YÜZ DOXSAN DOQQUZUNCU ADDIM: «MƏLƏKLƏR ONUN NURUNDA QÜSL ETDİLƏR»……...........................................525
İKİ YÜZÜNCÜ ADDIM: «VARLIĞIN BƏDƏNİ CANIN NƏFƏSİNİ SAYDI»…. ................................................................................526
HƏZRƏT NİZAMİ: «BAKİRƏ SÖZ CAN ƏRİTMƏKDİR»…..................528

İKİ YÜZ BİRİNCİ ADDIM: «ÜRƏK VƏ CANIN İŞİ ÜRƏK VƏ CANA YETİŞDİ»…...........................................................................529
İKİ YÜZ İKİNCİ ADDIM: «ONUN VARLIĞI ÖZÜNÜ ƏSL GÖVHƏRXANASINA YETİRDİ»………..............................................529
İKİ YÜZ ÜÇÜNCÜ ADDIM: «CİSM LİBASINI ÇIXARDI» ...........……530
İKİ YÜZ DÖRDÜNCÜ ADDIM: «BAŞINI TƏBİƏTİN YAXASINDAN ÇIXARDI»… .................................................................531
İKİ YÜZ BEŞİNCİ ADDIM: «HİMMƏTİ ONU TANRININ MƏNZİLİNƏ YETİRDİ»………............................................................531
İKİ YÜZ ALTINCI ADDIM: «QEYRƏT ONUN QURŞAĞINDAN YAPIŞDI»… ..............................................................................534
İKİ YÜZ YEDDİNCİ ADDIM: «O, CAN ALƏMİNƏ ATILDI»… ...........536
İKİ YÜZ SƏKKİZİNCİ ADDIM: «ATI BÜTÜN VARLIQDAN BAYIRA SIÇRATDI»….............................................................................537
İKİ YÜZ DOQQUZUNCU ADDIM: «MƏKANIN ÜZÜNƏ ÖRTÜK ÇƏKDİLƏR»… ..........................................................................538
İKİ YÜZ ONUNCU ADDIM: «YETMİŞ PƏRDƏNİ YIRTDIN»…...........539
İKİ YÜZ ON BİRİNCİ ADDIM: «PALTARIN AĞIRLIĞINDAN AZAD OLDUN».. .....................................................................................540
İKİ YÜZ ON İKİNCİ ADDIM: «CƏHƏTLƏRİN BAZARINI POZDUN»…. ........................................................................541
İKİ YÜZ ON ÜÇÜNCÜ ADDIM: «ŞAH ÇADIRINI QABƏ QÖVSEYN GƏRDƏYİNDƏ QURDUN»…...............................................542
İKİ YÜZ ON DÖRDÜNCÜ ADDIM: «KAİNATIN QARŞISINDAN ÖRTÜK GÖTÜRÜLDÜ»…. ..........................................542
İKİ YÜZ ON BEŞİNCİ ADDIM: «O, ÖZLÜYÜNDƏN SÖZ KİMİ XARİC OLDU»……….............................................................................544
İKİ YÜZ ON ALTINCI ADDIM: «BURADA CƏHƏTLƏRİN HÖKMÜ SONA YETDİ»…….....................................................................545
İKİ YÜZ ON YEDDİNCİ ADDIM: «YERDƏ DOĞULMUŞ GÖYLƏRDƏ GƏZDİ»..................................................................................545
İKİ YÜZ ON SƏKKİZİNCİ ADDIM: «ARTIQ ONUN (CİSMANİ) VARLIĞINDAN HEÇ BİR ŞEY QALMADI»….....................................546
İKİ YÜZ ON DOQQUZUNCU ADDIM: «ÖZ VARLIĞINDAN KƏNARA ÇIXDI»… .................................................................................547
İKİ YÜZ İYİRMİNCİ ADDIM: «ONUN AYAĞI İLƏ BAŞI BİLİNMİRDİ»…. .......................................................................................547
İKİ YÜZ İYİRMİ BİRİNCİ ADDIM: «O, CƏSARƏTLƏ İRƏLİLƏDİ»…..........................................................................................548
İKİ YÜZ İYİRMİ İKİNCİ ADDIM: «VÜSAL ƏLİ PƏRDƏNİ ATDI»… ..548
İKİ YÜZ İYİRMİ ÜÇÜNCÜ ADDIM: «AYAQ GEDİB-GƏLMƏYİ BAŞIN ÜSTÜNƏ ATDI»…...................................................549
İKİ YÜZ İYİRMİ DÖRDÜNCÜ ADDIM: «İLAHİ SİRRİNİN HEYBƏTLİ SƏHNƏSİNƏ DAXİL OLDU»………. ................................550

İKİ YÜZ İYİRMİ BEŞİNCİ ADDIM: «O, HEYRƏTDƏN DƏHŞƏTƏ GƏLDİ»…..................................................................................550
İKİ YÜZ İYİRMİ ALTINCI ADDIM: «HÜCRƏ YADLARDAN BOŞALDI»…...........................................................................................551
İKİ YÜZ İYİRMİ YEDDİNCİ ADDIM: «HZ. MƏHƏMMƏD (s.a.s) DUA OXUDU, UCA ALLAH (c.c) QƏBUL ETDİ»…..............................552
İKİ YÜZ İYİRMİ SƏKKİZİNCİ ADDIM: «ONA YAXINDAN DAHA DA YAXIN OLDU»… ....................................................................552
İKİ YÜZ İYİRMİ DOQQUZUNCU ADDIM: «NUR AYƏSİNİ XƏYALA SIĞMAYAN BİR BAXIŞLA SEZDİ»…. ................................559
İKİ YÜZ OTUZUNCU ADDIM: «NURU PƏRDƏSİZ GÖRDÜ»…..........562
İKİ YÜZ OTUZ BİRİNCİ ADDIM: «O, TANRINI GÖRDÜ VƏ TANRI GÖRÜLMƏLİDİR»….............................................................562
İKİ YÜZ OTUZ İKİNCİ ADDIM: «O, ÖZ VARLIĞINDAN BİR ADDIM DA YÜKSƏLDİ»…… ..........................................................568
İKİ YÜZ OTUZ ÜÇÜNCÜ ADDIM: «ÖZ MƏBUDUNU DOĞRU GÖRDÜ»…....................................................................................569
İKİ YÜZ OTUZ DÖRDÜNCÜ ADDIM: «ONUN GÖZÜ BİR CƏHƏTDƏ DAYANA BİLMİRDİ»…......................................................572
İKİ YÜZ OTUZ BEŞİNCİ ADDIM: «ALTI CƏHƏT ARADAN QALXDI»… ..............................................................................573
İKİ YÜZ OTUZ ALTINCI ADDIM: «HƏM CƏHƏT, HƏM DƏ CAHAN (ONDAN) QAÇARLAR»…. ......................................................574
İKİ YÜZ OTUZ YEDDİNCİ ADDIM: «O PƏRGAR CƏHƏTSİZ OLDU»…..................................................................................574
İKİ YÜZ OTUZ SƏKKİZİNCİ ADDIM: «O, MƏKAN VƏ ZAMANDAN ÇOX UCADIR»…................................................................575
UCA ALLAHIN (c.c) SÜBUTİ SİFƏTLƏRİ………...............................…578
İKİ YÜZ OTUZ DOQQUZUNCU ADDIM: «O SÖZ Kİ AĞZINDAN ÇIXMAMIŞDI, EŞİTDİ»……. ............................................580
İKİ YÜZ QIRXINCI ADDIM: «ONDAN O TƏRƏFƏ NƏ MƏKAN VAR, NƏ DƏ TƏSƏVVÜR»………….....................................................581
İKİ YÜZ QIRX BİRİNCİ ADDIM: «O, HAQQ KƏLAMININ SİRRİNİ EŞİTDİ»….. ...................................................................583
İKİ YÜZ QIRX İKİNCİ ADDIM: «HƏM GÖRMƏYİ, HƏM DƏ EŞİTMƏYİ PAK İDİ»……….....................................................................584
İKİ YÜZ QIRX ÜÇÜNCÜ ADDIM: «ÜRƏYİ TƏŞVİŞ VƏ İZTİRABDAN AZAD OLA BİLMƏDİ»………......................................585
İKİ YÜZ QIRX DÖRDÜNCÜ ADDIM: «CƏHƏT GÖZDƏN İTDİ»……...................................................................................586
İKİ YÜZ QIRX BEŞİNCİ ADDIM: «NİŞANSIZLIĞIN NİŞANINI GÖRDÜ»… ..............................................................................587

İKİ YÜZ QIRX ALTINCI ADDIM: «İLAHİ KƏLAMI VASİTƏÇİSİZ EŞİTDİ»… ....................................................................589
İKİ YÜZ QIRX YEDDİNCİ ADDIM: «BƏDƏNİNİN HƏR ÜZVÜ TİTRƏDİ»… .................................................................................591
İKİ YÜZ QIRX SƏKKİZİNCİ ADDIM: «VÜCUDU NƏRGİZ KİMİ NƏZƏRƏ ÇEVRİLDİ»……. ..........................................................592
İKİ YÜZ QIRX DOQQUZUNCU ADDIM: «ONUN GÖZÜNDƏ «MA ZAĞ» MÖHRÜ VAR»…...................................................................593
İKİ YÜZ ƏLLİNCİ ADDIM: «KÖNLÜ ÜRƏYİNDƏ, ÜRƏYİ KÖNLÜNDƏ İDİ»…………........................................................595
İKİ YÜZ ƏLLİ BİRİNCİ ADDIM: «ONU GÖRMƏK MÜMKÜN DEYİL», - DEYƏNLƏRİN ÖZLƏRİ KORDUR»…..................................597
İKİ YÜZ ƏLLİ İKİNCİ ADDIM: «İBADƏT ETDİYİMİZİ GÖRMƏK SƏADƏTDİR»…......................................................................598
İKİ YÜZ ƏLLİ ÜÇÜNCÜ ADDIM: «O PƏRDƏNİ GÖRMƏYİN MƏKANI YOXDUR»……......................................................................599
HZ. NİZAMİ ŞEİRİNİN NUR DAMLASI…………… ..............................600
İKİ YÜZ ƏLLİ DÖRDÜNCÜ ADDIM: «ONA CƏHƏTSİZ CƏHƏTDƏN YOL TAPDILAR»……. ...................................................601
İKİ YÜZ ƏLLİ BEŞİNCİ ADDIM: «ONUN CƏHƏTLƏRİNİ TƏYİN ETMƏK CƏHALƏTDİR»………. ............................................603
İKİ YÜZ ƏLLİ ALTINCI ADDIM: «O, VARDIR, ANCAQ BİR YERDƏ QƏRAR TUTMAYIB»………. ..........................................613
İKİ YÜZ ƏLLİ YEDDİNCİ ADDIM: «O VARLIQ ÇEŞMƏSİNİ İDRAK GÖZÜ İLƏ GÖRDÜ»….................................................................618
İKİ YÜZ ƏLLİ SƏKKİZİNCİ ADDIM: «ORADA PEYĞƏMBƏRİN NƏFƏSİNDƏN BAŞQA BİR ŞEY YOX İDİ»…….................................619
İKİ YÜZ ƏLLİ DOQQUZUNCU ADDIM: «HƏR ŞEYİ ƏHATƏ EDƏNƏ CƏHƏT SIĞARMI?» ....................................................................620
İKİ YÜZ ALTMIŞINCI ADDIM: «ONA XİTAB OLUNDU»…...............621
İKİ YÜZ ALTMIŞ BİRİNCİ ADDIM: «BAĞIŞLAMAQ XƏZİNƏSİNİN MÜJDƏSİNİ İSTƏDİ»……. ..........................................622
İKİ YÜZ ALTMIŞ İKİNCİ ADDIM: «ONDAN XİLAS FƏRMANI ALDI»…. ...................................................................................625
İKİ YÜZ ALTMIŞ ÜÇÜNCÜ ADDIM: «ÜMMƏTİN MÜQƏSSİRLƏRİ ÜÇÜN DUA ELƏDİ»….................................................630
İKİ YÜZ ALTMIŞ DÖRDÜNCÜ ADDIM: «İSTƏKLƏRİN ADINA XAS OLDU»… ..........................................................................................632
İKİ YÜZ ALTMIŞ BEŞİNCİ ADDIM: «SONRA O, İXLAS SÜFRƏSİNƏ YÖNƏLDİ»…… .....................................................................633
İKİ YÜZ ALTMIŞ ALTINCI ADDIM: «O, HAQQIN HAZIRLADIĞI ŞƏRABI İÇDİ»………......................................................635
İKİ YÜZ ALTMIŞ YEDDİNCİ ADDIM: «ALLAHIN (c.c) ƏZƏL LÜTFÜ ONUN NƏFƏSİ İLƏ HƏMSÖHBƏT İDİ»…...............................640
İKİ YÜZ ALTMIŞ SƏKKİZİNCİ ADDIM: «DODAQLARINI ŞİRİN TƏBƏSSÜM BƏZƏDİ»…… ............................................................641

İKİ YÜZ ALTMIŞ DOQQUZUNCU ADDIM: «ONUN HİMMƏTİ XƏZİNƏLƏRDƏN DAHA QÜDRƏTLİ OLDU»…..................................642
İKİ YÜZ YETMİŞİNCİ ADDIM: «ONUN ÜRƏYİ ALLAHIN FƏZİLƏTİ, NURU İLƏ DOLDU»……......................................................643
İKİ YÜZ YETMİŞ BİRİNCİ ADDIM: «ALLAHIN (c.c) YANINDAN İSTƏDİYİN KİMİ QAYITDIN»…...........................................................645
İKİ YÜZ YETMİŞ İKİNCİ ADDIM: «ÜZÜNÜ BU EMALATXANAYA TUTDU»…..............................................................646
İKİ YÜZ YETMİŞ ÜÇÜNCÜ ADDIM: «ALNINDA NAR GÜLÜ QAYITDI»…...................................................................................647
İKİ YÜZ YETMİŞ DÖRDÜNCÜ ADDIM: «BAĞIŞLANMAQ BARATINI GƏTİRDİ»…..........................................................................650
İKİ YÜZ YETMİŞ BEŞİNCİ ADDIM: «ÖZ KÖLGƏSİNDƏ BİZƏ SIĞINACAQ VERİR»…. .................................................................651
İKİ YÜZ YETMİŞ ALTINCI ADDIM: «SƏN PARLAQ GÜNƏŞSƏN»…..............................................................652
İKİ YÜZ YETMİŞ YEDDİNCİ ADDIM: «YERİN PEYĞƏMBƏRLİK SƏMASIDIR»….........................................................653
İKİ YÜZ YETMİŞ SƏKKİZİNCİ ADDIM: «SƏN PEYĞƏMBƏRLİYİN QAPISINI BAĞLADIN»…….................................654
HZ. MƏHƏMMƏDİN (s.a.s) SON PEYĞƏMBƏR OLMASI İLƏ BAĞLI MÜBARƏK HƏDİSLƏR…….. .............................................656
HZ. MƏHƏMMƏDİN (s.a.s) SON PEYĞƏMBƏR OLMASI İLƏ BAĞLI SƏHABƏNİN VAHİD FİKRİ………. ................................658
HZ. MƏHƏMMƏDİN (s.a.s) SON PEYĞƏMBƏR OLMASI İLƏ BAĞLI İSLAM ALİMLƏRİNİN VAHİD FİKRİ…………................659
SON PEYĞƏMBƏR VƏ BİZİM ETİQADIMIZ………. ..........................662
YENİ BİR PEYĞƏMBƏRƏ EHTİYAC VARMI?.................. ...................662
İKİ YÜZ YETMİŞ DOQQUZUNCU ADDIM: «SƏNİN QƏDƏMİNDƏN BOYUN QAÇIRANLARIN DÖVLƏTİNƏ QƏLƏM ÇƏKİLMİŞ»…...................................................664
İKİ YÜZ SƏKSƏNİNCİ ADDIM: «SƏNİN VƏFANA BEL BAĞLAYAN ƏBƏDİYYƏT SEYRƏNGAHINDA ƏYLƏŞMİŞDİR»…..665
İKİ YÜZ SƏKSƏN BİRİNCİ ADDIM: «İRƏM BAĞI SƏNİN NƏSİMİNİN ƏTRİNƏ BAC VERİR»……….............................................667
İKİ YÜZ SƏKSƏN İKİNCİ ADDIM: «MƏRİFƏT CAMININ DİBİNDƏ BİR DAMLA DA QALMADI»…............................................669
İKİ YÜZ SƏKSƏN ÜÇÜNCÜ ADDIM: «MEHRİBAN SALAMLARLA AŞAĞI ENDİ»……….......................................................673
İKİ YÜZ SƏKSƏN DÖRDÜNCÜ ADDIM: «SEVGİ XƏZİNƏSİ İLƏ GERİ QAYITDI»……….. .........................................................................676
İKİ YÜZ SƏKSƏN BEŞİNCİ ADDIM: «HİLAL KİMİ GETDİ, BƏDR OLUB GƏLDİ»…….....................................................................678
İKİ YÜZ SƏKSƏN ALTINCI ADDIM: «BÜTÜN ALƏMİN ELMİNİ VƏ HİKMƏTİNİ ÖYRƏNMİŞDİ»………..................................679
İKİ YÜZ SƏKSƏN YEDDİNCİ ADDIM: «ONUN GEDİŞ VƏ GƏLİŞİNİ HEÇ KƏSİN TƏSƏVVÜRÜ QAVRAYA BİLMƏZ»..............682

İKİ YÜZ SƏKSƏN SƏKKİZİNCİ ADDIM: «ONUN YATAĞININ İSTİLİYİ HƏLƏ DƏ GETMƏMİŞDİ»……..............................................683
İKİ YÜZ SƏKSƏN DOQQUZUNCU ADDIM: «BU BİR GECƏ İDİ, YOXSA BİR İL?»………........................................................684
İKİ YÜZ DOXSANINCI ADDIM: «ONUN VÜCUDU BİZİM CANIMIZDAN SAFDIR»…….....................................................................684
İKİ YÜZ DOXSAN BİRİNCİ ADDIM: «O, BU SƏFƏRƏ EŞQİN CAZİBƏSİ İLƏ GETDİ»………..............................................................685
İKİ YÜZ DOXSAN İKİNCİ ADDIM: «TÖHFƏLƏRİ YOLDAŞLARINA BAĞIŞLADI»……......................................................688
İKİ YÜZ DOXSAN ÜÇÜNCÜ ADDIM: «YERƏ XƏZİNƏ KİMİ QAYITDI»…..............................................................................................690
İKİ YÜZ DOXSAN DÖRDÜNCÜ ADDIM: «CƏHƏNNƏMDƏN AZAD OLMAQ VƏSİQƏSİ GƏTİRDİ»……….........................................690
İKİ YÜZ DOXSAN BEŞİNCİ ADDIM: «NİZAMİYƏ BİR SİRR AÇ» .....691
İKİ YÜZ DOXSAN ALTINCI ADDIM: «NİQABDA NƏ QƏDƏR QALACAQSAN?»….. ..........................................................692
İKİ YÜZ DOXSAN YEDDİNCİ ADDIM: «ŞAHSAN, İKİ-ÜÇ SİRRİ ÜZƏ ÇIXART»……. ....................................................................696
İKİ YÜZ DOXSAN SƏKKİZİNCİ ADDIM: «BU SÜFRƏNİN YÜKÜNÜ ÜSTÜNDƏN GÖTÜR»………..............................................696
İKİ YÜZ DOXSAN DOQQUZUNCU ADDIM: «DÖRD TƏBDƏKİ TƏZADI AÇ»….........................................................................................697
ÜÇ YÜZÜNCÜ ADDIM: «BU İKİ VƏFASIZI HƏMƏHD ELƏ» .............702
HƏZRƏT NİZAMİ: «MƏNİM ŞEİRLƏRİM AĞILI NURLANDIRIR, RUHU TƏZƏLƏYİR» .................................................................................704
ÜÇ YÜZ BİRİNCİ ADDIM: «HƏYATI TƏRBİYƏ ETDİN».....................705
ÜÇ YÜZ İKİNCİ ADDIM: «BİZƏ DƏ BİR PAY ÇATSIN» ......................706
ÜÇ YÜZ ÜÇÜNCÜ ADDIM: «LÖVHİ ƏVVƏLDƏN OXUMUSAN»......707
ÜÇ YÜZ DÖRDÜNCÜ ADDIM: «BİZİM DƏFTƏRİMİZƏ BİR HƏRF YAZ»…......................................................................................708
ÜÇ YÜZ BEŞİNCİ ADDIM: «BİZƏ NƏ ADLANDIĞIMIZI GÖSTƏR!» ...................................................................709
ÜÇ YÜZ ALTINCI ADDIM: «SƏNİN ƏTRİN BİZİM CANIMIZIN CAN DƏRMANIDIR»….............................................................................710
ÜÇ YÜZ YEDDİNCİ ADDIM: «MƏN CANIMIN GÖVHƏRİNİ ONUN AYAĞINA ATIM»…. ....................................................................711
ÜÇ YÜZ SƏKKİZİNCİ ADDIM: «GÖVHƏR ALAN DÖRDDÜR, GÖVHƏR DƏ DÖRDDÜR»…...................................................................713
ÜÇ YÜZ DOQQUZUNCU ADDIM: «ƏLİNİN EŞQİNDƏ MÖHKƏMƏM, ÖMƏRİN EŞQİNDƏN XALİ DEYİLƏM»……...............713
HZ. ƏLİ (r.a) …….......................................................................................714
HZ. ÖMƏR (r.a) ……. ................................................................................718
ÜÇ YÜZ ONUNCU ADDIM: «ƏBU BƏKİR ŞAMDIR, OSMAN ÇIRAQDIR»………...................................................................720
HZ. ƏBU BƏKİR (r.a) ..................................................................................721
HZ. OSMAN (r.a).........................................................................................722

ÜÇ YÜZ ON BİRİNCİ ADDIM: «ONLAR DƏRVİŞ XİSLƏTLİ DÖRD SULTANDIR»……..........................................................................724
ÜÇ YÜZ ON İKİNCİ ADDIM: «PEYĞƏMBƏRLƏRİN ÖNÜNDƏ GEDƏNƏ ALQIŞ»…….................................................................................725
ÜÇ YÜZ ON ÜÇÜNCÜ ADDIM: «DÖVRANIN AXIRINDA SONUNCU AYƏ SƏNSƏN»……..........................................................726
ÜÇ YÜZ ON DÖRDÜNCÜ ADDIM: «HƏR İKİ ALƏMİN SEÇDİYİ SƏNSƏN»…...................................................................................727
ÜÇ YÜZ ON BEŞİNCİ ADDIM: «XƏZİNƏLƏR QIFILININ AÇARI SƏNSƏN»………..........................................................................728
ÜÇ YÜZ ON ALTINCI ADDIM: «MƏNİM ÜMMƏTİM» MÖHRÜNÜ BİZƏ VURDU………… ......................................................728
ÜÇ YÜZ ON YEDDİNCİ ADDIM: «ONA AFƏRİNLƏR OLSUN»..........730
ÜÇ YÜZ ON SƏKKİZİNCİ ADDIM: «ÖZ SƏXAVƏTİNİN DÖVRƏSİNİ AXIRA ÇATDIR»................................................................731
ÜÇ YÜZ ON DOQQUZUNCU ADDIM: «SƏNİN ÜMMƏTİNDƏN MƏN ALÇAQ TORPAĞINAM»................................................................732
ÜÇ YÜZ İYİRMİNCİ ADDIM: «NİZAMİNİN QƏLBİNİN QÜVVƏTİ SƏNDƏNDİR».........................................................................734
ÜÇ YÜZ İYİRMİ BİRİNCİ ADDIM: «ALLAH XATİRİNƏ MƏNƏ ŞƏFAƏT ET»..............................................................................................734
ÜÇ YÜZ İYİRMİ İKİNCİ ADDIM: «QOY PƏRDƏNİ BİZƏ ÇOX GÖRMƏSİNLƏR».............................................................................737
ÜÇ YÜZ İYİRMİ ÜÇÜNCÜ ADDIM: «NİZAMİ SƏNİN «SALAMINDAN» FAYDASIZ QALMASIN» ...........................................739
ÜÇ YÜZ İYİRMİ DÖRDÜNCÜ ADDIM: «EY NİZAMİ, YÜKSƏKLƏRƏ UCAL» .............................................................................739
ÜÇ YÜZ İYİRMİ BEŞİNCİ ADDIM: «ÇALIŞ Kİ, ƏBƏDİYYƏT MÜLKÜNÜ TAPASAN» ....................................................740
ÜÇ YÜZ İYİRMİ ALTINCI ADDIM: «ƏZABDAN XİLAS OLMAĞI ŞƏRİƏT İŞIĞINDA GÖR» .........................................................741
HZ. NİZAMİNİN UĞUR QAZANMAQ ÖLÇÜLƏRİ: HALAL TİKƏ, ZƏHMƏT, SƏXAVƏT ......................................................743
MERAC GÖRMƏ HADİSƏSİDİR..............................................................744
QAYNAQLAR ...........................................................................................754

# HƏZRƏT NİZAMİ GƏNCƏVİNİN MERACNAMƏLƏRİNİN ŞƏRHİ

## HZ. MƏHƏMMƏD (s.a.s.) AZADLIQ VƏ NUR PEYĞƏMBƏRİDİR

مُحمد رسولُ الله والذين معه أَشداء على الكُفار رحماء بينَهم تَراهم ركعاً
سجداً يبتَغُون فَضلاً من الله ورِضواناً سيماهم في وجوههم من أَثَرِ
السجود ذَلِك مثَلُهم في التوراة ومثَلُهم في الإِنجِيل كزرعٍ أَخْرَج شَطْأَه
فَآزره فَاستَغْلَظَ فَاستَوى على سوقه يعجِب الزراع لِيغيظَ بِهم الكُفار وعد
الله الذين آمنُوا وعملُوا الصالِحات منْهم مغْفرةً وأَجراً عظيماً

(əl-Fəth, 48/29)

«Məhəmməd (əleyhissəlam) Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların nişanəsi üzlərində olan səcdə yeridir. (Qiyamət günü onlar üzlərindəki möminlik nuru ilə tanınırlar). Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxar-

mış, onu bəsləyib, cana-qüvvətə gətirmiş, o da (o cücərti də) möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. (Allahın bu təşbehi) kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman gətirib yaxşı əməllər edənlərə Allah məğfirət (günahlardan bağışlanma) və böyük mükafat (cənnət) vəd buyurmuşdur!»

لَقَدْ كَانَ فِي قَصَصِهِمْ عِبْرَةٌ لِّأُولِي الأَلْبَابِ مَا كَانَ حَدِيثاً يُفْتَرَى وَلَـكِن
تَصْدِيقَ الَّذِي بَيْنَ يَدَيْهِ وَتَفْصِيلَ كُلَّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً لِّقَوْمٍ يُؤْمِنُونَ

(Yusuf, 12/111)

«(Peyğəmbərlərin) hekayələrində ağıl sahibləri üçün, sözsüz ki, bir ibrət var. (Bu Quran) uydurma bir söz deyil. Ancaq özündən əvvəlkilərin (ilahi kitabların) təsdiqi, (Allahın bəndələrindən ötrü) hər bir şeyin (bütün hökmlərin, halal-haramın) müfəssəl izahıdır. O, iman gətirən bir tayfa üçün hidayət (doğru yolu göstərən rəhbər) və mərhəmətdir!».

أُولَـئِكَ الَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ وَالْحُكْمَ وَالنُّبُوَّةَ فَإِن يَكْفُرْ بِهَا هَـؤُلاءِ
فَقَدْ وَكَّلْنَا بِهَا قَوْماً لَّيْسُواْ بِهَا بِكَافِرِينَ

(Ənam,6/89)

«Onlar Bizim kitab, hökm və peyğəmbərlik verdiyimiz kimsələrdir. Əgər onlar bu dəlilləri dansalar, Biz onlara həmin dəlilləri inkar etməyən bir tayfanı müvəkkil edərik (onların yerinə dəlillərimizi inkar etməyəcək bir zümrə gətirərik)».

الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ الَّذِي يَجِدُونَهُ مَكْتُوباً عِندَهُمْ فِي
التَّوْرَاةِ وَالإِنْجِيلِ يَأْمُرُهُم بِالْمَعْرُوفِ وَيَنْهَاهُمْ عَنِ الْمُنكَرِ وَيُحِلُّ لَهُمُ
الطَّيِّبَاتِ وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَآئِثَ وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَالأَغْلاَلَ الَّتِي

كَانَتْ عَلَيْهِمْ فَالَّذِينَ آمَنُواْ بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُواْ النُّورَ الَّذِيَ
أُنزِلَ مَعَهُ أُوْلَـئِكَ هُمُ الْمُفْلِحُونَ

(Əraf, 7/157)

«O kəslərə ki, əllərindəki Tövratda və İncildə (adını, vəsfini və əlamətlərini) yazılmış gördükləri rəsula – ümmi (heç kəsin yanında oxuyub elm öyrənməmiş, ya da məkkəli) Peyğəmbərə tabe olurlar. (O Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar. Pis işləri qadağan edər, təmiz (pak) nemətləri halal, murdar (pak olmayan) şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar (şəriətin çətin hökmlərini götürər). Ona (o Peyğəmbərə) iman gətirən, yardım göstərən və onunla (onun peyğəmbərliyi sayəsində) endirilmiş nurun (Quranın) ardınca gedənlər, məhz onlar nicat tapanlardır!»

قُلْ يَا أَيُّهَا النَّاسُ إِنِّي رَسُولُ اللّهِ إِلَيْكُمْ جَمِيعاً الَّذِي لَهُ مُلْكُ السَّمَاوَاتِ
وَالأَرْضِ لا إِلَـهَ إِلاَّ هُوَ يُحْيِـي وَيُمِيتُ فَآمِنُواْ بِاللّهِ وَرَسُولِهِ النَّبِيِّ
الأُمِّيِّ الَّذِي يُؤْمِنُ بِاللّهِ وَكَلِمَاتِهِ وَاتَّبِعُوهُ لَعَلَّكُمْ تَهْتَدُونَ

(Əraf, 7/158)

«De: «Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş Peyğəmbəriyəm. (O Allah ki) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir Tanrı yoxdur. O, dirildir və öldürür. Buna görə də, Allaha, Allahın sözlərinə inanan və ümmi Peyğəmbər olan Rəsuluna iman gətirin və Ona tabe olun ki, doğru yolu tapa biləsiniz!» .

وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِّلنَّاسِ بَشِيراً وَنَذِيراً وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

(Səbə, 34/28)

«Ey Məhəmməd! Şübhəsiz, Biz səni (təkcə öz qövmünə deyil) bütün insanlara (möminlərə Cənnətlə) müjdə verən, (kafirləri isə Cəhənnəm əzabı ilə) qorxudan bir Peyğəmbər olaraq göndərdik. Ancaq insanların çoxu bunu bilmir!».

يا أَيها الذين آمنُواْ آمنُواْ بِاللّه ورسوِله والْكتَابِ الذي نَزلَ علَى
رسوِله والْكتَابِ الذي أَنزلَ من قَبلُ ومن يكْفُر بِاللّه وملاَئِكَته وكُتُبِه
ورسله والْيومِ الآخرِ فَقَد ضلَّ ضلاَلاً بعيداً

(Nisa, 4/136)

«Ey iman edənlər! Allaha, Peyğəmbərinə endirdiyi kitaba və daha öncə endirdiyi kitaba iman edin. Kim Allahı, mələklərini, kitablarını, Peyğəmbərlərini və axirət gününü inkar edərsə, son dərəcə böyük bir azğınlığa düşmüş olar».

إِن الذين يكْفُرون بِاللّه ورسله ويرِيدون أَن يفَرقُواْ بين اللّه ورسله
ويقُولُون نُؤْمن بِبعضٍ ونَكْفُر بِبعضٍ ويرِيدون أَن يتخذُواْ بين ذَلك
سبِيلاً . أُولَـئِك هم الْكَافرون حقّاً وأَعتَدنَا لِلْكَافرِين عذَاباً مهِيناً

(Nisa, 4/150-151)

«Allahı və Peyğəmbərlərini inkar edənlər, Allah və Peyğəmbərlərin arasını açmaq istəyənlər, bir qisminə inanıb, bir sırasını inkar edənlər və (iman ilə küfr) arasında bir yol tutmaq istəyənlər. Kafir olanlar məhz bunlardır. Biz belə kafirlər üçün zəliledici bir əzab hazırladıq».

والذين آمنُواْ بِاللّه ورسله ولَم يفَرقُواْ بين أَحد منْهم أُولَـئِك سوفَ
يؤْتيهِم أُجورهم وكَان اللّه غَفُوراً رحيماً

(Nisa, 4/152)

«Allah və Peyğəmbərinə iman edənlərə, Peyğəmbərlərdən heç biri arasında fərq qoymayanlara isə mükafatları veriləcəkdir. Allah çox bağışlayıcıdır, çox mərhəmətlidir».

يا أيها النبي إنا أرسلناك شاهداً ومبشراً ونذيراً. وداعياً إلى الله بإذنه وسراجاً منيراً

(Əhzab, 33/45-46)

«Ey Peyğəmbər! Biz səni şahid, müjdəçi, uyarıcı, Allahın izni ilə ona dəvətedici və aydınladıcı bir işıq olaraq göndərdik».

وإذ قال عيسى ابن مريم يا بني إسرائيل إني رسول الله إليكم مصدقاً لما بين يدي من التوراة ومبشراً برسول يأتي من بعدي اسمه أحمد فلما جاءهم بالبينات قالوا هذا سحر مبين

(Saf, 61/6)

«Bir vaxt Məryəm oğlu İsa belə demişdi: «Ey İsrail oğulları, mən Allahın elçisiyəm. Məndən öncə gələn Tövratı təsdiqedici, məndən sonra gələcək bir Peyğəmbərin də müjdəçisi olaraq gəldim. O Peyğəmbərin adı Əhməddir». Ancaq O, onlara açıq dəlillərlə gələndə, «bu açıq bir sehrdir», dedilər».

إن الله وملائكته يصلون على النبي يا أيها الذين آمنوا صلوا عليه وسلموا تسليماً

(Əhzab, 33/56)

«Sözsüz, uca Allah və onun mələkləri Peyğəmbərə səlat edərlər. Ey möminlər! Siz də Ona salavat gətirin, Onun şanına yaraşan şəkildə Ona salam göndərin».

## BÜTÜN PEYĞƏMBƏRLƏR MÜSƏLMANDIRLAR

Hz. Nizamiyə görə, doğru həyat düşüncəsi və yolu ancaq islamdır, yəni uca Allaha (c.c) təslim olmaqdır. Uca Allahın (c.c) yaratdığı insanların islamdan başqa həyat tərzi olmamalıdır. İnsanlığa doğru yol göstərmək üçün göndərilmiş peyğəmbərlər hər zaman islam həyat tərzini təbliğ etmişlər, onlar müslimlər, onlara inananlar da müsəlmanlar olmuşlar. Kim peyğəmbərlərin gətirdiyi ilahi əmrə, buyruqlara inanırsa, əməl edirsə, o, müsəlmandır. Bütün peyğəmbərlər bu həqiqəti insanlara çatdırmışlar. Bu, onların uca Allah (c.c) tərəfindən müəyyənləşdirilmiş müqəddəs vəzifəsidir. Uca Quran bütün peyğəmbərlərin müsəlman olduğunu və bu mübarək insanların eyni idealı, hədəfi gerçəkləşdirdiklərini ayələrində belə təsdiq edir:

**Allah yanında haqq olan din, əlbəttə, islamdır.**

إِن الدين عند اللّه الإِسلاَم وما اخْتَلَفَ الذين أُوتُواْ الْكتَاب إِلا من بعد ما
جاءهم الْعلْم بغْياً بينَهم ومن يكْفُر بِآيات اللّه فَإِن اللّه سرِيع الْحساب

(Ali-İmran, 3/19)

«Allah yanında (haqq olan) din, əlbəttə, islamdır. Kitab verilmiş şəxslər (yəhudilər və xaçpərəstlər) ancaq (bu dinin həqiqi olduğunu) bildikdən sonra aralarındakı paxıllıq üzündən

ixtilafa (ayrılığa) başladılar. Allahın hökmlərini inkar edənlərlə, şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəcəkdir».

ومن يبتغ غير الإسلام ديناً فلن يقبل منه وهو في الآخرة من الخاسرين

(Ali-İmran, 3/85)

«Kim islamdan başqa bir din ardınca gedərsə, (belə bir din) heç vaxt ondan qəbul olunmaz və o, axirətdə zərər çəkənlərdən olar!»

**Hz. Nuh (s.a.s) belə buyurur:**

فإن توليتم فما سألتكم من أجر إن أجري إلا على الله وأمرت أن
أكون من المسلمين

(Yunus, 10/72)

«Əgər siz (mənim öyüd-nəsihətimdən, dəvətimdən) üz çevirsəniz, (bilin ki) mən (bunun müqabilində) sizdən heç bir mükafat (əvəz, muzd) istəmirəm. Məni mükafatlandırmaq yalnız Allaha aiddir. **Mənə müsəlmanlardan (özünü Allaha təslim edənlərdən) olmaq əmr edilmişdir**».

**Hz. İbrahim (s.a.s) belə buyurur:**

إذ قال له ربه أسلم قال أسلمت لرب العالمين . ووصى بها إبراهيم
بنيه ويعقوب يا بني إن الله اصطفى لكم الدين فلا تموتن إلا وأنتم
مسلمون . أم كنتم شهداء إذ حضر يعقوب الموت إذ قال لبنيه ما
تعبدون من بعدي قالوا نعبد إلـهك وإلـه آبائك إبراهيم وإسماعيل
وإسحاق إلـها واحداً ونحن له مسلمون

(əl-Bəqərə, 2/131-133)

«Rəbbi İbrahimə: «(Əmrimə) təslim ol!» - dedikdə, O: «Aləmlərin Rəbbinə təslim oldum (müsəlman oldum)!» - deyə

cavab vermişdi. İbrahim və (sonra da) Yəqub bunu (müsəlman olmağı) öz oğlanlarına vəsiyyət edib (hər biri dedi): «Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün (belə bir) din (islam dini) seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz! (Ey yəhudilər!) Yoxsa Yəqubun ölümü yetişdikdə siz Onun yanında idiniz?! O: «Məndən sonra nəyə ibadət edəcəksiniz?» – deyə oğlanlarından soruşduğu zaman onlar: «Sənin Allahına və ataların İbrahimin, İsmailin və İshaqın Allahı olan tək Allaha təslim olacağıq (Ona ibadət edəcəyik)!» - dedilər».

**Uca Allah (c.c) buyurur ki, hz. İbrahim (s.a.s) müsəlmandır:**

ما كان إبراهيم يهودياً ولا نصرانياً ولكن كان حنيفاً مسلماً وما كان من المشركين

(Ali-İmran, 3/67)

«İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O ancaq hənif (batildən haqqa tapınan, haqqa yönəlmiş olan) müsəlman (Allaha təslim olan) idi və (Allaha) şərik qoşanlardan da deyildi».

**Hz. İbrahim (s.a.s) və hz. İsmail (s.a.s) belə dua etdi:**

ربنا واجعلنا مسلمين لك ومن ذريتنا أمة مسلمة لك وأرنا مناسكنا وتب علينا إنك أنت التواب الرحيم

(əl-Bəqərə, 2/128)

(«İbrahim və İsmail dedilər): «Ey Rəbbimiz! Bizim hər ikimizi Sənə itaətkar (müsəlman), nəslimizdən yetişənləri Sənə təslim olan ümmət (müsəlman) et, bizə (həcc) əməllərimizi (ibadət qaydalarımızı) göstər, tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, mərhəmətlisən!».

**Hz. Lut (s.a.s) qövmü ilə bağlı uca Allah (c.c) belə buyurur:**

فَمَا وَجَدْنَا فِيهَا غَيْرَ بَيْتٍ مِّنَ الْمُسْلِمِينَ

(əz-Zariyat, 51/36)

«Ancaq orada bir evdən (Lutun ailəsindən) başqa, müsəlman (tövhid dinində olan) tapmadıq».

**Hz. Yusif (s.a.s) uca Allaha (c.c) belə yalvardı:**

رَبِّ قَدْ آتَيْتَنِي مِنَ الْمُلْكِ وَعَلَّمْتَنِي مِن تَأْوِيلِ الأَحَادِيثِ فَاطِرَ السَّمَاوَاتِ وَالأَرْضِ أَنتَ وَلِيِّي فِي الدُّنُيَا وَالآخِرَةِ تَوَفَّنِي مُسْلِماً وَأَلْحِقْنِي بِالصَّالِحِينَ

(Yusuf, 12/101)

«Ey Rəbbim! Sən mənə səltənətdən (istədiyimdən də artıq) bir pay verdin. Mənə yuxu yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim ixtiyar sahibimsən. Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!»

**Hz. Musa (s.a.s) qövmünə bunları söyləyir:**

وَقَالَ مُوسَى يَا قَوْمِ إِن كُنتُمْ آمَنتُم بِاللّهِ فَعَلَيْهِ تَوَكَّلُواْ إِن كُنتُم مُّسْلِمِينَ

(Yunus, 10/84)

«Musa dedi: «Ey qövmüm! Əgər Allaha iman gətirmisinizsə və təslim olmusunuzsa (əgər müsəlmansınızsa), Ona təvəkkül edin!»

**İsrail oğullarının gerçək dini dost və düşmənlərinin bildiyi kimi, yəhudilik deyil, islam dini idi. Fironun boğularkən söylədiyi son sözlər bunu təsdiq edir:**

وَجَاوَزْنَا بِبَنِي إِسْرَائِيلَ الْبَحْرَ فَأَتْبَعَهُمْ فِرْعَوْنُ وَجُنُودُهُ بَغْياً وَعَدْواً حَتَّى إِذَا أَدْرَكَهُ الْغَرَقُ قَالَ آمَنتُ أَنَّهُ لا إِلِـهَ إِلاَّ الَّذِي آمَنَتْ بِهِ بَنُو إِسْرَائِيلَ وَأَنَاْ مِنَ الْمُسْلِمِينَ

(Yunus, 10/90)

«İsrail oğullarını dənizdən (sağ-salamat) keçirtdik. Firon və əsgərləri zalımcasına və düşməncəsinə onların arxasınca düşdülər. (Firon) batacağı anda: «İsrail oğullarının inandıqlarından başqa heç bir tanrı olmadığına iman gətirdim. Mən artıq (Ona) təslim olanlardanam!» – dedi (yəni müsəlmanlardanam)».

**İslam dini bütün israil peyğəmbərlərinin həyat tərzi idi.**

إِنا أَنزلْنَا التوراةَ فيها هدى ونُور يحكُم بِها النبِيون الذين أَسلَموا
لِلذين هادوا والربانيون والأَحبار بِما استُحفِظُوا من كتَابِ اللّه
وكانُوا عليه شُهداء فَلا تَخْشَوا الناس واخْشَونِ ولا تَشْتَروا بِآياتي
ثَمناً قَليلاً ومن لم يحكُم بِما أَنزلَ اللّه فَأُولَـئِك هم الْكافرون

«Şübhəsiz ki, Tövratı Biz nazil etdik. Onda haqq yol və nur vardır. (Allaha) təslim olan (müslim) peyğəmbərlər yəhudilər arasında onunla, din alimləri və fəqihlər isə kitabdan qorunub saxlanılanlarla (Tövratdan ələ gəlib çatan ayələrlə) hökm edərdilər. Onlar (peyğəmbərlər, din alimləri və fəqihlər) ona (Tövratın ilahi bir kitab olmasına) şahiddirlər. (Ey yəhudi alimləri və rəisləri!) İnsanlardan qorxmayın, Məndən qorxun. Mənim ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi (kitab və şəriət) ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər!»

**Hz. Süleyman (s.a.s) da bir müsəlman idi. Səbə məlikəsi Bəlqis Ona belə demişdi:**

قِيلَ لَها ادخُلي الصرح فلَما رأَتْه حسبتْه لُجةً وكَشَفَتْ عن ساقَيها

قَالَ إِنه صرح ممرد من قَوارِير قَالَتْ رب إِني ظَلَمتُ نَفْسي

وَأَسلَمتُ مع سلَيمان لِله رب الْعالَمين

(ən-Nəml, 27/44)

«(Bəlqisin əqlini, zəkasını yoxlamaq məqsədilə) ona belə deyildi: «Saraya daxil ol!» (Süleymanın sarayı) büllurdan tikildiyi və altına su buraxıldığı üçün (Bəlqis) sarayı gördükdə onu dərin bir gölməçə hesab etdi və (paltarı islanmasın deyə) ətəyini qaldırdı. O (Süleyman): «Bu (su deyil) büllurdan tikilmiş (şəffaf) bir saraydır!» – dedi. (Bəlqis) dedi: «Ey Rəbbim! Mən (günəşə sitayiş etməklə) özümə zülm etmişdim. Mən artıq Süleymanla (Süleyman sayəsində) aləmlərin Rəbbi olan Allaha təslim oldum (müsəlman oldum)».

**Hz. İsanın (s.a.s) həvarilərinin dini islam idi:**

وَإِذْ أَوحيتُ إِلَى الْحوارِيين أَن آمنُواْ بِي وبِرسولي قَالُواْ آمنا واشْهد

بِأَننَا مسلمون

(Maidə, 5/111)

«Xatırla ki, o zaman həvarilərə (İsanın on iki əshabəsinə): «Mənə və peyğəmbərimə iman gətirin!» – deyə əmr etmişdim. Onlar isə: «Bizim (Sənə və peyğəmbərinə) itaətkar (müsəlman) kəslər olmağımıza şahid ol!» – deyə cavab vermişdilər».

## ALLAH (c.c) PEYĞƏMBƏRLƏ ELM GÖNDƏRMİŞDİR

İslamın şanlı Peyğəmbəri mübarək hədislərində belə buyurur:

«… Səxavətli bir adam bir qonaqlıq verər, böyük bir ziyafət süfrəsi açar. O, bir dəvətçi göndərərək hər kəsi ziyafətə çağırar. Dəvət edənin çağırışına qulaq asanlar qonaqlığa gələr və ziyafət süfrəsindəki gözəl nemətlərdən yeyər. Dəvətçinin çağırışına qulaq asmayanlar isə qonaqlığa gəlməz və ziyafət süfrəsindəki gözəl nemətlərdən yeməzlər. **Kim Məhəmmədə itaət edərsə, Allaha itaət etmiş olar. Kim də Məhəmmədə üsyan edərsə, Allaha üsyan etmiş olar».**

«Allahın mənimlə göndərdiyi hidayət və elm bir yerə yağan yağışa bənzəyər. O yerin bir hissəsi gözəldir, suyu canına çəkər, ot və bol çəmənlik bitirər. Bu torpağın bir qismi də münbit deyil, ancaq bu torpaq da suyu saxlayar. Allah bu torpağın saxladığı su ilə insanlara fayda verər, bu torpaqda yığılan sudan insanlar içərlər, heyvanları, əkin-biçini bu su ilə suvararlar. Yerin başqa bir hissəsinə də yağış yağar. Ancaq bu yer çox sərtdir və münbit deyil. Bu yer nə su saxlayar, nə də ot bitirər. Elə Allahın dinində fakih olan (və Allahın mənimlə göndərdiyi şeydən faydalanan, öyrənən, öyrədən) bir şəxsin misalı ilə, dinə münasibətdə təkəbbürdən başını qal-

dırmayan və mənimlə göndərilən Allahın doğru yolunu qəbul etməyənin misalı da belədir».

## QALDIRIB BARMAQ GƏTİRMİŞ ASİMAN İMAN SANA

O, ümmidir, ümmihatın mayasıdır,
O, yer üzünün nuru, ərşə kölgədir.

***Hz. Nizami***

Mən sağ olduğum müddətdə Qurani-Hakimin qulu, köləsi, xadimiyəm. Məhəmməd Mustafa (s.a.s.) yolunun tozu, torpağıyam.

***Hz. Mövlana***

Sen Ahmed ü Mahmud u Muhammedsin Efendim,
Haktan Bize sultani-mueyyedsin Efendim.

***Şeyx Qalib***

Dərdli beynimə dərman et, onun
Dərmanını Mustafanın ayağının torpağından et.

***Hz. Nizami***

Hüsni-Kurani görür insan olur hayran sana,
Desti-kudretle yazılmış hilyedir Kuran sana.

***Müəllim Naci***

Gül Məhəmməd təridir.

***Yunis Əmrə***

Ey vücudun əsəri-xilqəti-əşya səbəbi,
Nəbi ol vaxt ki, bilfel gərəkməzdi Nəbi.

***Füzuli***

Ey olub merac bürhani-ulüvvi-şan sana,
Yerə enmiş göydən istiqlal üçün Furkan sana.

***Füzuli***

Ebediyyen sevecek can Onu, canan olarak,
Şart-ı peyman olarak, huccet-i iman olarak,
Şeb-i Miracda simasını seyretti diye,
Kapanır yerlere gök secde-i şükran olarak.

***Kemal Edip Kürkçüoğlu***

Gel, ey Muhammed, bahardır…
Dudaklar ardında saklı
Aminlerimiz vardır!...
Hacdan döner gibi gel;
Miractan iner gibi gel;
Bekliyoruz yıllardır!...

***Arif Nihad Asya***

## HƏZRƏT NİZAMİDƏN NUR DAMLALARI: UCA ALLAH (c.c) QADİRDİR

***Allah «yağ» deməyincə göy yağdırmaz,***
***Allah «gətir» deməyincə torpaq məhsul gətirməz.***

***Allahın ucaltdığı baş,***
***Heç kəsin əyməsi ilə ayağa düşməz.***

***Onun qəhrindən əyilən baş,***
***Heç kimin köməyi ilə ucala bilməz.***

## G İ R İ Ş: DƏYƏR BİZİM SƏRHƏDİMİZDİR

«Hz. Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və hz.Məhəmməd (s.a.s.)» mövzusunun dərindən öyrənilməsi bir-birindən asılı olan bir neçə məsələnin araşdırılmasına bağlıdır. Bu mövzunu doğru qavramaq, doğru dəyərləndirmək üçün ilk sırada klassik Azərbaycan türk ədəbiyyatının xarakteri, bu ədəbiyyatın qaynaqları və hədəfləri doğru müəyyən edilməlidir.

İslam mühitində yaranan, böyük ədəbi əsərlər ortaya qoyan qədim və orta yüzilliklər Azərbaycan türk ədəbiyyatının başlıca qaynaqlarından biri İslam dini və mədəniyyətidir. Bu mədəniyyətin ölməz dəyərlərini doğru öyrənmədən klassik Azərbaycan türk ədəbiyyatının mahiyyətini, mövzularını, başlıca dəyərlərini olduğu kimi qavramağın yolu bağlıdır. **Təbiidir ki, dəyər yoxdursa, azad, öz kimliyini anlayan fərqli bir millət də yoxdur. Çünki dəyər bizim sərhədimizdir, dəyər bizim ölçümüzdür, dəyər bizi başqalarından ayıran, seçən cövhərdir. Azərbaycan xalqını tanımağın, tanıtmağın, onu sevməyin yolu da bu xalqın dəyərlərini bilməyə bağlıdır. Dəyər insanı, toplumu daimi müsbət yöndən yeniləşdirir, onu köhnəlməyə qoymur, insani və milli düşüncəni diri saxlayır, cəhalətin yolunu bağlayır, azad və ədalətli insanın, toplumun başlıca dayaqlarına, güc qaynağına çevrilir. Bu ölməz dəyərlər unudulanda, təhrif olunanda, doğru anlaşılmayanda köləliyə gedən yolun qapısı açılmış olur.**

Hz.Nizami Gəncəvi kimi ölməz sənətkarlar azad, ədalətli insan olmağın, barış içində yaşayan bir toplumun ölçülərini, dəyərlərini müəyyənləşdiriblər. **Nizami Gəncəvi irsinin başlıca hədəfi uca Allahı insana tanıtmaqdır, qadir Allahı (c.c.) və Onun aciz qulunu bir-birinə sevdirməkdir.** Uca Allahı (c.c.) tanımağın yolu da onun göndərdiklərini öyrənmək, onun buyruqlarını (əmr və yasaqlarını) yerinə yetirməklə

mümkündür. Bu, insan və toplum olaraq diri qalmağın, xilasın, azad və ədalətli olmağın tək yoludur.

## HZ. NİZAMİYƏ GÖRƏ DÜŞÜNCƏMİZİN QAYNAQLARI

**Hz.Nizami Gəncəviyə görə, bizim düşüncəmizin, varlığımızın qaynaqları üçdür: islami dəyərlər, milli dəyərlər, bəşəri dəyərlər. Diqqətlə düşünsək, görərik ki, bu dəyərlər pozulanda ilahi nizamdan uzaqlaşma baş verir və insan köləliyə yuvarlanır, yadların və nəfsinin köləsinə çevrilir. Bu dəyərlərin pozulması sonda insanı fitrətindən uzaqlaşdırır, ədalətsiz, kölə, sevgidən uzaq bir insan tipi və başıpozuq bir toplum yaranır.**

Deməli, bu gün hz.Nizaminin, eləcə də bütün böyüklərimizin yaratdığı ölməz dəyərləri olduğu kimi öyrənmək və öyrətmək bir milli və təxirəsalınmaz vəzifədir.

## İMANIN ƏSASLARI

«Hz. Nizami Gəncəvi yaradıcılığında peyğəmbərlik anlayışı və Hz.Məhəmməd (s.a.s.)» mövzusunu diqqətlə araşdırmaq üçün öncə bu məsələlərin müqəddəs kitabımız Quranda qoyuluşuna baxmalıyıq.

**İslam dininə görə, imanın əsasları bunlardır: Allahın varlığına və birliyinə inanmaq, mələklərə inanmaq, kitablara inanmaq, peyğəmbərlərə inanmaq, axirət gününə inanmaq, xeyir və şəri ilə birlikdə qədərə inanmaq.** Böyük İslam alimi Əhməd bin Hənbələ görə, «İslam aşkar və meydanda olandır. İman isə qəlbdədir».[1]

İslam Peyğəmbəri həzrət Məhəmməd (s.a.s) bir hədisində imanı belə tərif etmişdir: «İman, Allaha, mələklərinə,

1. «el-Müsned», III, 134-135.

kitablarına, peyğəmbərlərinə, axirət gününə və bir də xeyir və şəri ilə birlikdə qədərə inanmaqdır».[2]

Buradan da göründüyü kimi, iman bir könül işidir, könüldən bir şeyə inanmaqdır. İslam alimləri kamil imanla bağlı çeşidli düşüncələr irəli sürmüşlər. Bu dəyərləndirmələr sırasında aşağıdakı ölçü demək olar ki, bütün alimləri birləşdirmişdir: «İman, kalp ile tasdik, dil ile ikrar ve uzuvlarla amel etmekdir»[3].

İman və imanla əməlin bağlılığı məsələsi Qurani-Kərimin ayrı-ayrı ayələrində də özünə yer tutmuşdur. Bu ayələrdən bir neçəsinə baxaq:

لكُم وطَعامكُم حل لهم والْمحصنَاتُ من الْمؤْمنَات والْمحصنَاتُ من
الذين أُوتُوا الْكتَاب من قَبلكُم إِذَا آتَيتُموهن أُجورهن محصنين غَير
مسافحين ولا متخذي أَخْدانٍ ومن يكْفُر بِالإِيمانِ فَقَد حبِط عملُه
وهو في الآخرة من الْخَاسرِين

(Maidə, 5/5)

«Bu gün pak nemətlər sizə halal edilmişdir. Kitab əhlinin yeməkləri sizə, sizin yeməkləriniz isə kitab əhlinə haladır. Möminlərin, həmçinin sizdən əvvəl kitab verilmişlərin (yəhudilərin və xaçpərəstlərin) azad və isməttli (özlərini zinadan və nəfslərini haram şeylərdən qoruyan) qadınları mehrlərini verdiyimiz, namuslu olub zina etmədiyiniz və aşna saxlamadığınız təqdirdə (evlənmək üçün) sizə halaldır. İmanı dananın bütün işləri boşa çıxar və o, axirətdə zərər çəkənlərdən olar!».

---

2. Müslim, «İman», I.
3. «İslamda İnanc Esasları», İstanbul, 2002, s. 36.

وَمَن يَعْمَلْ مِنَ الصَّالِحَاتِ مِن ذَكَرٍ أَوْ أُنثَى وَهُوَ مُؤْمِنٌ فَأُوْلَئِكَ
يَدْخُلُونَ الْجَنَّةَ وَلاَ يُظْلَمُونَ نَقِيراً

(Nisa, 4/124)

«Kişi olsun, qadın olsun, hər kim mömin olaraq xeyirli işlər görərsə, beləlləri cənnətə girərlər və zərrəcə haqsızlığa uğramazlar».

فَمَن يَعْمَلْ مِنَ الصَّالِحَاتِ وَهُوَ مُؤْمِنٌ فَلَا كُفْرَانَ لِسَعْيِهِ وَإِنَّا لَهُ كَاتِبُونَ

(Ənbiya, 21/94)

«Bu etibarla hər kim mömin olaraq xeyirli işlər görərsə, onun əməli inkar edilməyəcəkdir. Biz bunu onun əməl dəftərinə yazmaqdayıq».

Göründüyü kimi, imanın şərtləri sırasında peyğəmbərlərə iman da var və onların gətirdiklərinə uyğun hərəkət etmək bir hökmdür.

## HAQQ DİNİNİN ÖZƏLLİKLƏRİ

İslam dini son dindir və haqq dinidir**. Haqq dini olmağın özəllikləri də bunlardır: haqq dininin ilahi qaynağı var, dini göndərən, onu yaradan Allahdır (c.c.), insanların birbaşa Allahla danışmağı mümkün olmadığına görə uca Allah (c.c.) dinini qullarına çatdırmaq üçün insanlar arasından peyğəmbərlər seçir, din peyğəmbərlərin təbliğatı ilə öyrənilir, peyğəmbərlər təbliğ mətnini Allahdan (c.c.) alırlar, bu mətnlər kitablardır, Allahın (c.c.) dininin məqsədi insanı xoşbəxt etməkdir.** (Bütövlükdə İslam dininin məqsədi, hədəfi beşdir: həyatı qorumaq, ailəni qorumaq, insan ağlını qorumaq, dini qorumaq, malı qorumaq. Yeri gəlmişkən, onu da deyək ki, Qurani-Kərimdə bu hədəflərə çatmağın yolları və ilahi ölçüləri bir-bir göstərilib). Haqq dini olmağın bir özəlliyi də axirətə inanmaqdır. Dinə görə, gerçək xoşbəxtlik axirətdədir.

Bütün peyğəmbərlər bu ilahi dəyərləri təbliğ etmişlər. Kitabı olan (Zəbur, Tövrat, İncil, Quran) dinlər (Yəhudilik, Xristianlıq, İslam) bu müqəddəs dəyərlər üzərində qurulmuşdur. Yuxarıda sadalanan dinlərdən üçü (Yəhudilik, Xristianlıq, İslam) səmavi dindir. Ancaq Yəhudilik və Xristianlıq da təhrif edildiyinə görə haqq dini özəlliyini itirmişdir.

## İSLAM DİNİNİN ƏSASLARI

Deyildiyi kimi, İslam dini son və haqq dinidir. İmanın əsasları olduğu kimi, İslamın da əsasları var və bu əsaslar sırasında peyğəmbərlərə inanmaq da yer tutur. **İslam dininin əsasları bunlardır: Allahdan (c.c.) başqa Tanrı yoxdur və Məhəmməd (s.a.s.) onun elçisidir, namaz qılmaq, zəkat vermək, Ramazan orucu tutmaq, imkan olduqda Kəbəni ziyarət edib həcc vəzifəsini yerinə yetirmək.**

İslam dini, bu dünya və axirət dini olmaqla bir sıra özəlliklərə sahibdir. Öncə bu din son və ən mükəmməl (yetkin) dindir, bu din hz. Məhəmməddən (s.a.s) öncə olan peyğəmbərləri və kitabları təsdiq edir, bütün haqq peyğəmbərlərə və ilahi kitablara inanmağı əmr edir:

آمن الرسولُ بِما اُنزِلَ إِلَيه من ربه والْمؤْمنُون كُل آمن بِاللّه
وملآئِكَته وكُتُبِه ورسله لاَ نُفَرقُ بين أَحد من رسله وقَالُواْ سمعنَا
وَأطَعنَا غُفْرانَك ربنَا وإِلَيك الْمصير

(Bəqərə, 2/285)

«Peyğəmbər də Rəbbindən özünə endirilənə iman etdi, möminlər də. Bunların hamısı Allaha, onun mələklərinə, kitablarına və peyğəmbərlərinə inandı. Onun peyğəmbərlərindən heç birini başqalarından ayıra bilmərik, dedilər. (Allahın hökmlərini) eşitdik (anladıq) və itaət etdik. Ey

Rəbbimiz, bizi bağışla, (axırda) Sənin dərgahına (hüzuruna) qayıdacağıq!».

Ancaq yəhudilər yalnız İsrail övladlarından olanları və təkcə Tövratı qəbul edirlər. Xristianlar da İsrail övladlarından olan peyğəmbərlərə, Tövratla birgə İsa peyğəmbərə və İncilə inanırlar. **İslam isə bütün səmavi dinləri və haqq peyğəmbərlərini tanıyır. İslam bəşəri bir dindir. O, onun peyğəmbəri bir millətə, bir topluma deyil, bütün insanlığa göndərilmişdir:**

قُلْ يا أَيها الناس إني رسول الله إليكم جميعاً الذي له ملك السماوات والأرض لا إلـه إلا هو يحيـي ويميتُ فآمنُوا بالله ورسوله النبي الأمي الذي يؤمن بالله وكلماته واتبعوه لعلكم تهتدون

(Əraf, 7/158)

«(Ey Rəsulum!) De: «Ey insanlar! Mən Allahın sizin, hamınıza göndərilmiş peyğəmbəriyəm. (O Allah) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir Tanrı yoxdur. O dirildir və öldürür. Buna görə də, Allaha, Allahın sözlərinə inanan və ümmi peyğəmbər olan Rəsuluna iman gətirin və ona tabe olun ki, doğru yolu tapa biləsiniz!».

وما أرسلناك إلا كافةً للناس بشيراً ونذيراً ولكن أكثر الناس لا يعلمون

(Səbə, 34/28)

«(Ey Rəsulum!) Biz səni (təkcə öz qövmünə deyil) bütün insanlara (möminlərə Cənnətlə) müjdə verən, (kafirləri isə Cəhənnəm əzabı ilə) qorxudan bir peyğəmbər olaraq göndərdik. Ancaq insanların çoxu bunu bilməz!».

Qurana görə peyğəmbər cinlərə də göndərilmişdir:

قُلْ أُوحِيَ إِلَيَّ أَنَّهُ اسْتَمَعَ نَفَرٌ مِنَ الْجِنِّ فَقَالُوا إِنَّا سَمِعْنَا قُرْآنًا عَجَبًا.
يَهْدِي إِلَى الرُّشْدِ فَآمَنَّا بِهِ وَلَنْ نُشْرِكَ بِرَبِّنَا أَحَدًا

(Cin, 72/1-2)

«Ey Məhəmməd! De ki, mənə belə vəhy olundu: «Cinlərdən bir zümrə (mənim Quran oxumağımı) dinləmiş və belə demişdir: Biz heyranlıq verən və doğru yola yönəldən bir Quran dinlədik. Biz də ona iman etdik və biz bir daha heç kəsi Rəbbimizə şərik qoşmayacağıq».

İslam dini insan yaradılışına, insan fitrətinə ən uyğun olan bir dindir. Belə ki, insan varlığı maddədən (insan torpaqdan yaradılıb) və ruhdan ibarətdir. **İslam dini də insanın maddi varlığına və ruhuna üz tutur, onlarla bağlı ilahi qaydalar müəyyənləşdirir. İslam insan xoşbəxtliyini bu iki təməlin ölçülü bir biçimdə, bir arada tutulmasında görür və bununla bağlı ilahi ölçülər buyurur. İslam dini insan ağlına böyük önəm verir, onu qorumağın yollarını göstərir. İslamda ağılla vəhy arasında uyğunsuzluq yoxdur, vəhylə gələn ilahi mesajlar ağılla da təsdiq olunur.** İslam insan fitrətinə uyğundur və bu dünya ilə axirət arasında tarazlıq yaradır:

وَابْتَغِ فِيمَا آتَاكَ اللَّهُ الدَّارَ الْآخِرَةَ وَلَا تَنْسَ نَصِيبَكَ مِنَ الدُّنْيَا وَأَحْسِنْ كَمَا
أَحْسَنَ اللَّهُ إِلَيْكَ وَلَا تَبْغِ الْفَسَادَ فِي الْأَرْضِ إِنَّ اللَّهَ لَا يُحِبُّ الْمُفْسِدِينَ

(Qəsəs, 28/77)

«Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et). Dünyadakı nəsibini də unutma. Allah sənə (sərvət verməklə) yaxşılıq etdiyi kimi, sən də (varından yoxsullara, qohum-əqrabaya xərcləməklə) yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah, fitnə-fəsad törədənləri sevməz!».

İslam Peyğəmbəri bu dünya ilə axirət arasındakı tarazlığı bir mübarək hədisində belə anladır: «Mən yəhudilik, ya da xristianlığı təbliğ etmək üçün göndərilmiş bir peyğəmbər deyiləm. Əksinə, mən orta yolu seçən, sağlam yaradılışa uyğun olan, asan və yaşanması mümkün olan bir dini öyrətmək üçün göndərildim. Məhəmmədin varlığı qüdrət əlində olan Allaha and içirəm ki, Allah yolunda və İslamı yaymaq uğrunda bir sabah yüyürüşü, bir axşam gəzintisi dünyadan və onun içində olan hər şeydən dəyərlidir. Yenə and içirəm ki, sizdən birinizin savaş sırasında yer tutması altmış illik (nafilə) namazından xeyirlidir»[4].

## PEYĞƏMBƏRLİK ANLAYIŞI

Biz, «Hz.Nizami Gəncəvi yaradıcılığında peyğəmbərlik anlayışı və hz. Məhəmməd (s.a.s.)» mövzusunun daha dərindən anlaşılması üçün bütövlükdə İslam dinində peyğəmbərlik institutunun yeri və önəmi üzərində durmağı da doğru sayırıq. Hər şeydən öncə onu deməliyik ki, peyğəmbərlər Allaha (c.c.) yaxın ən uca zirvələrdir. İslam dinində peyğəmbərliklə bağlı bir neçə qavram var: **nübüvvət, vəhy, nəbi, rəsul.**

«Nübüvvət» ərəbcə «bilinməyən bir şeyi xəbər vermək» deməkdir. «Dini kültürümüzde peygamberlik diye intikal eden nübüvvet terim olaraq şöyle tanımlanır: Kainatı yaratan Allahın, dini ve dünyevi konularda insanları bilgilendirip buyruklarını haber vermək üzere seçtiyi bir insani elçilikle görevlendirmesidir. Yüce Allah elçilik yapmakla görevlendirdiği kişiye başta kendi varlığı, nitelikleri, canlı-cansız bütün yaratıkları barındıran kainatın yaratılışı, oluşumu, yaratılış amacı, işleyişi ve sonu, ahiret alemi, varlıklar içinde insanın yeri, önemi ve görevleri, bilgi üretme yöntemleri, fert ve toplumun mutlu-

4. Ahmed bin Hanbel, «el-Müsned», V, 266.

luğu için dünya hayatında uyulması gereken belli başlı kurallar olmak üzere insanı ilgilendiren hemen her konuda vahiy yoluyla bilgiler öğretmiş ve bunları diger insanlara tebliğ etmesini emr etmişdir. Şu halda Allah ile yaratıkları arasında ilişki ve iletişimi ifade eden nübüvvet müessesesinde vehy aslı bir unsur olaraq karşımıza çıkar».[5]

İslam dinində peyğəmbərlik institutu ilə bağlı başqa bir önəmli məsələ vəhy anlayışıdır. «Gizlice söylemek ve bildirmek, ya da gizlice söylenen söz» anlamında işlənən bu söz termin olaraq «... Allah Tealanın çeşitli konulara ilişkin bilgileri söz ve ya mana şeklinde, doğrudan doğruya, yaxut melek vasitasiyla peygamberlere gizlice bildirmesidir».[6]

Peyğəmbərlik anlayışı-institutu ilə bağlı terminlərdən biri də «Nəbi-Rəsul» qavramıdır. «Nəbi», ərəbcə «xəbər verən», «xəbər verilən insan» deməkdir. «Rəsul» isə «xəbər gətirən elçi» anlamındadır. Bu iki termin yerinə daha çox «peyğəmbər» qavramı işlədilir. İslam dinində «nəbi» və «rəsul» terminləri çox zaman bir-birinin yerinə işləndiyi kimi, alimlər bu iki qavram arasında fərq olduğunu da irəli sürmüşlər: «...«resul» yeni bir şeriatla gönderilen peygamber», «nebi» ise önceki bir peygamberin getirdiyi şeriatı tebliğ eden peygamber diye tanımlanmıştır»[7].

Qurani-Kərimdə «rəsul» qavramı «mələk», ya da «mələklər» anlamında da işlədilmişdir:

الْحمد لله فاطر السماوات والأرض جاعل الْملَائكة رسلاً أولي أجنحة
مثنى وثلاث ورباع يزيد في الْخلْق ما يشاء إن الله على كل شيء قدير

(Fatir, 35/1)

5. «İslamda İnanc Esasları», İstanbul, 2002, s. 162.
6. «İslamda İnanc Esasları», İstanbul, 2002, s.162.
7 «İslamda İnanc Esasları», İstanbul, 2002, s. 165.

«Həmd göyləri və yeri yoxdan var edən, mələkləri iki, üç və dördqanadlı elçilər edən, yaratmaqda dilədiyi qədər də artıran Allaha məxsusdur. Allah şübhə yoxdur ki, hər şeyə qadirdir».

**İslam dininə görə, peyğəmbərlik uca Allahın (c.c.) insanlara rəhmətinin, sevgisinin, ədalət və hikmətinin göstəricisidir. Peyğəmbərlik institutunu zəruri edən şərt uca Allahın (c.c.) insanları bu dünyada və axirətdə xoşbəxt etmək istəyidir. İnsan təkbaşına, ağlı və duyğuları ilə Allahı (c.c.) doğru tanımaq gücündə deyil. Onun həmişə çaşmaq, yolunu azmaq ehtimalı var. Ona görə də, uca Allah (c.c.) insanı yaratdı, ona doğrunu açıqlayan bir kitab, bu kitabı insanlara öyrədəcək müəllimlər-peyğəmbərlər göndərdi. Peyğəmbərlik, kitabı, müəllimi, məktəbi olan, hədəfi Allahın (c.c.) razı qalacağı insan yetişdirmək olaraq müəyyənləşdirilmiş bir sistemdir.**

Yuxarıda deyildiyi kimi, peyğəmbərlərə iman İslamın və imanın əsaslarından biridir:

ما كَان اللّه لِيذَر الْمؤْمنين علَى ما أَنتُم علَيه حتى يميز الْخَبِيثَ من
الطيبِ وما كَان اللّه لِيطْلعكُم علَى الْغَيبِ ولَكن اللّه يجتَبِي من سله
من يشَاء فَآمنُواْ بِاللّه ورسله وإِن تُؤْمنُواْ وتَتقُواْ فَلَكُم أَجر عظيم

(Ali-İmran, 3/179)

«Allah pisi yaxşıdan ayırmadan möminləri yaşadığınız bu hal üzrə buraxacaq deyildir. Allah sizə qeybi bildirəcək də deyildir. Ancaq Allah peyğəmbərlərindən dilədiyini seçər (ona qullarının qəlblərində olanları bildirir). Bu halda Allaha və peyğəmbərlərinə iman edin. Əgər inansanız və qorxsanız, ən böyük mükafat sizindir».

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ آمِنُواْ بِاللّهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِي نَزَّلَ عَلَى رَسُولِهِ
وَالْكِتَابِ الَّذِيَ أَنزَلَ مِن قَبْلُ وَمَن يَكْفُرْ بِاللّهِ وَمَلاَئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ
وَالْيَوْمِ الآخِرِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيداً .

(Nisa, 4/136)

«Ey iman edənlər! Allaha, peyğəmbərinə endirdiyi kitaba və daha öncə endirdiyi kitaba iman edin. Kim Allahı, mələklərini, kitablarını, peyğəmbərlərini və axirət gününü inkar edərsə, son dərəcə böyük bir sapıqlığa düşmüş olar».

إِنَّ الَّذِينَ يَكْفُرُونَ بِاللّهِ وَرُسُلِهِ وَيُرِيدُونَ أَن يُفَرِّقُواْ بَيْنَ اللّهِ وَرُسُلِهِ
وَيقُولُونَ نُؤْمِنُ بِبَعْضٍ وَنَكْفُرُ بِبَعْضٍ وَيُرِيدُونَ أَن يَتَّخِذُواْ بَيْنَ ذَلِكَ
سَبِيلاً . أُوْلَـئِكَ هُمُ الْكَافِرُونَ حَقّاً وَأَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَاباً مُّهِيناً.

(Nisa, 4/150-151)

«Allahı və peyğəmbərlərini inkar edənlər, Allah və peyğəmbərləri arasını açmaq istəyənlər, bir qisminə inanıb, bir qismini inkar edənlər və (iman ilə küfr) arasında bir yol tutmaq istəyənlər. Kafir olanlar məhz bunlardır. Biz belə kafirlər üçün zəliledici bir əzab hazırladıq».

وَالَّذِينَ آمَنُواْ بِاللّهِ وَرُسُلِهِ وَلَمْ يُفَرِّقُواْ بَيْنَ أَحَدٍ مِّنْهُمْ أُوْلَـئِكَ سَوْفَ
يُؤْتِيهِمْ أُجُورَهُمْ وَكَانَ اللّهُ غَفُوراً رَّحِيماً .

(Nisa, 4/152)

«Allaha və peyğəmbərlərinə iman edənlərə, onlardan heç biri arasında fərq qoymayanlara isə mükafatları veriləcəkdir. Allah çox bağışlayıcıdır, çox mərhəmətlidir».

Bu ayələrdən aydın göründüyü kimi, uca Allah (c.c.) bir neçə önəmli məsələni bir yerdə vurğulayır. **Bu məsələlərdən biri peyğəmbər seçiminin insanların əlində olmamasıdır. Peyğəmbərləri uca Allah (c.c.) seçir. Uca Allah (c.c.) seçdiyi**

**peyğəmbərlərin səlahiyyətlərinin sınırını da özü bəlli edir. Bu ayələrdə önə çıxan ikinci məsələ Allaha (c.c.) imanla peyğəmbərə imanın yanaşı, bir-birinə bağlı olaraq verilməsidir. Qadir Allahın (c.c.) peyğəmbərlərə iman etmədən Allaha (c.c.) imanın mümkünsüzlüyünü buyurması, əmr etməsi bir yandan Allahın (c.c.) birliyi inancının qorunub saxlanmasının hədəf olduğunu, başqa yöndən isə peyğəmbərlik institutunun və peyğəmbərlərin önəmini göstərir.**

Uca Allah (c.c.) seçdiklərinə yetki verir, onları qoruyur və insanlara uca Allaha (c.c.) qovuşduracaq yolun peyğəmbər öndərliyində gediləcəyini bildirir. Peyğəmbər öndərliyindən, ona iman etməkdən imtina isə küfrə gedən yolun önünü açır. Ona görə də, uca Allah (c.c.) yuxarıdakı ayələrdə peyğəmbərlərə imandan imtinanın ağır cəzasını da göstərdiyimiz önəmli məsələlərlə birgə xatırlatmağı zəruri sayır. Mərhəmətli Allah (c.c.) bu yanlış yola girənlərin «azacağını», «kafir olacağını», «zəliledici bir əzaba düçar olacağını» israrla bildirir. Allaha (c.c.) və peyğəmbərə inananların isə «mükafatlandırılacağı» bəyan edilərək, bunun ardından uca Allahın «bağışlayıcı və mərhəmətli» olduğu önə çəkilir. **Deməli, peyğəmbərlik və peyğəmbərlər Allahın (c.c.) birliyi inancının ayrılmaz tərkib hissəsidir və bu məsələnin yanlış yozumuna Allahın (c.c.) heç bir güzəşti yoxdur.**

## PEYĞƏMBƏRLƏRİN SAYI VƏ ÖZƏLLİKLƏRİ

İslam alimləri peyğəmbərlərin sayı ilə bağlı çeşidli rəqəmlər göstərmişlər. Qurani-Kərimdə peyğəmbərlərin sayı ilə bağlı dəqiq bir bilgi yoxdur. Qurani-Kərimdə bir sıra peyğəmbərlərin adı çəkilmiş, başqalarından isə danışılmamışdır[8]. Qurani-Kərimdə adı çəkilən peyğəmbərlər bunlardır:

---

[8] «Nisa», 4/164; «Nəhl», 16/36; «Fatır»,35/24; «Mömin», 40/78.

Adəm, Davud, İlyas, Əyyub, Harun, Hud, İbrahim, İdris, İlyas, İsa, İshaq, İsmayıl, Lut, Musa, Nuh, Saleh, Süleyman, Şuayb, Yaqub, Yəhya, Yunis, Yusif, Zəkəriyyə, Zülqifl və həzrət Məhəmməd. Uzeyir, Loğman və Zülqərneynin peyğəmbərlikləri isə mübahisəlidir.

**Peyğəmbərlər Allahın (c.c.) seçdiyi mübarək insanlar olduqları üçün onların bir sıra özəllikləri var. Bu özəllikləri aşağıdakı kimi sıralamaq olar: onlar insandırlar, onlar da adi insanlar kimi doğular, yeyər, içər, sevər, evlənər, işləyər, qəmlənər, xəstələnər, ölər.** Qurani-Kərimdə peyğəmbərlərin insan olmaları, yəni bəşəri yönü dönə-dönə vurğulanır:

ما الْمسيح ابن مريم إِلا رسولٌ قَد خَلَتْ من قَبله الرسلُ وأُمه صديقَةٌ
كَانَا يأْكُلاَنِ الطعام انظُر كَيفَ نُبين لَهم الآيات ثُم انظُر أَنى يؤْفَكُون

(Maidə, 5/75)

«Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişdir. Onun anası isə çox pak (Allahın hökmlərini sidq ürəkdən təsdiq edən) bir qadın idi. Onların hər ikisi (adi insanlar kimi) yemək yeyirdi. Gör, Biz ayələri onlara necə başa salırıq, onlar (bu ayələrdən) gör, necə üz çevirirlər».

ولَقَد أَرسلْنَا رسلاً من قَبلك وجعلْنَا لَهم أَزواجاً وذُريةً وما كَان
لِرسولٍ أَن يأْتي بِآية إِلا بِإِذْنِ اللّه لِكُل أَجلٍ كتَاب .

(Rəd, 13/38)

«Səndən öncə də peyğəmbərlər göndərmiş və onlara xanımlar və uşaqlar vermişdik. Heç bir peyğəmbərin Allahın izni olmadan bir möcüzə göstərməsi mümkün deyildir. Hər surənin (yazıldığı) bir kitab vardır».

وما أرسلنا قبلك إلا رجالاً نوحي إليهم فاسألوا أهل الذكر إن كنتم لا تعلمون. وما جعلناهم جسداً لا يأكلون الطعام وما كانوا خالدين

(Ənbiya, 21/7-8)

«Səndən öncə də özlərinə vəhy etdiyimiz bir sıra adamları göndərmişdik. Əgər bilmirsinizsə, (inanan) kitab əhlindən soruşun. Onlar yemək yeməz bir cəsəd deyildilər. Əbədi də deyildilər».

وما جعلنا لبشر من قبلك الخلد أفإن مت فهم الخالدون .

(Ənbiya, 21/34)

«Səndən öncə heç bir insanı ölümsüz etmədik. Sən ölüb də onlar əbədi qalacaqlarmı?».

وقالوا مال هذا الرسول يأكل الطعام ويمشي في الأسواق لولا أنزل إليه ملك فيكون معه نذيراً .

(Furqan, 25/7)

«Dedilər: «Bu necə peyğəmbərdir ki, yemək yeyir, bazarları gəzib dolaşır? Məgər ona özü ilə birlikdə (insanları Allahın əzabı ilə) qorxudan (və onun həqiqi peyğəmbər olduğunu təsdiq edən) bir mələk göndərilməli deyilmi?».

وما أرسلنا قبلك من المرسلين إلا إنهم ليأكلون الطعام ويمشون في الأسواق وجعلنا بعضكم لبعض فتنة أتصبرون وكان ربك بصيراً .

(Furqan, 25/20)

«Səndən öncə heç bir peyğəmbər göndərmədik ki, yemək yeməmiş və küçələrdə gəzməmiş olsun. Ey insanlar! Biz sizin bəzinizi başqası üçün sınaq vasitəsi etdik. Heç səbir etmirsinizmi? Rəbbim hər şeyi haqqıyla görəndir».

إنك ميت وإنهم ميتون.

(Zumər, 39/30)

«(Ey Məhəmməd!) Əlbəttə, sən də öləcəksən, onlar da öləcəklər».

**Təbiidir ki, uca Allahın peyğəmbərləri insanlar arasından seçməsinin də bir hikməti var. İnsanların öz cinsindən olmayan bir varlığın vasitəsi ilə Allahın insanlarla bağlı bəlli etdiyi dəyərlərə inanması, onun ardınca getməsi inandırıcı deyil. Allahın verdiyi müqəddəs bir yükü, əmanəti insanlar arasından seçilmiş bir peyğəmbər daşıya bilirsə, deməli, başqa insanlar da onun ardınca gedə bilər. Peyğəmbərlərin insanlar arasından seçilməsi insanların düşüncəsində şübhəyə, etiraza, inkara və suala yer qoymur. Peyğəmbərlər mələk olsa idi, insanlar onun dediklərini yerinə yetirməyə gücü çatmayacaqlarını asanlıqla irəli sürə bilərdilər.**

Ancaq peyğəmbərlər insan olsalar da, başqa insanlardan üstün ağlı, iti zəkası, gözəl əxlaqı, qüsursuz bədənləri ilə seçilirlər. İnsanlarla ünsiyyətdə, cəhalətlə mübarizədə bunlar çox önəmli üstünlüklərdir. «Hz. Yusufun cezbedici güzelliyi, hz. İbrahimin Nemrudu tartışmada mağlub eden deliller getirmesi ve puta tapmanın anlamsızlığını göstermek üzere zekice bir plan kurması bu konudan çarpıcı örneklerdendir».[9]

**Peyğəmbərlərin başqa bir özəlliyi vəhy ala bilmək gücündə olmaları və vəhy almalarıdır.** Bilindiyi kimi, vəhyin alınması çox ağır bir işdir. Adi insan bədəninin bu gücü yoxdur. Qaynaqların yazdığına görə, hz. Məhəmməd (s.a.s.) vəhy alarkən tərləyir, vəhyin gəlişi peyğəmbər dəvənin üstündə olarkən baş verirdisə, dəvə çökür, bir sıra hallarda yaxınlıqda olanlar arı vızıltısı kimi səslər eşidirdi[10].

---

[9] «İslamda İnanç Esasları», İstanbul, 2002, s. 183.
[10] Buxari, «Müsnəd», I 34, II 176.

**Peyğəmbərlərin bir özəlliyi də kişi cinsindən olmalarıdır.** Bunun səbəbi isə peyğəmbərlərin çox ağır bir missiya daşıyıcısı olmaları ilə bağlıdır. Qadın bu ağır yükü daşımaq gücündə deyil.

**Peyğəmbərləri başqalarından seçən özəlliklərdən biri də onları Allahın seçməsidir. Peyğəmbərlik vərasət yolu ilə verilməz.**

**Peyğəmbərlərin günahdan qorunmaları da onların özəllikləri sırasında yer tutur. Heç bir peyğəmbər ilahi yükün daşıyıcısı olduğu dönəmdə günah işləməmişdir. Peyğəmbərlər inanılan, etibarlı insanlardır. Peyğəmbərlər əmanətə xəyanət etməz. Peyğəmbərlərin bir özəlliyi də vəhyi təbliğ etmələridir:**

يا أيها الرسولُ بلغْ ما أُنزلَ إليك من ربك وإن لم تَفْعلْ فما بلغْتَ رسالتَه واللّه يعصمك من الناس إن اللّه لا يهدي الْقَوم الْكافرين .

(Maidə,5/67)

«Ey Peyğəmbər! Rəbbindən sənə endirilən (ayələri) təbliğ et. Əgər bunu etməsən, Rəbbinin peyğəmbərliyini təbliğ etməmiş olarsan. Allah səni insanlardan qoruyar. Allah, şübhəsiz, kafir qövmə hidayət etməz».

الذين يبلغُون رسالات الله ويخْشَونَه ولا يخْشَون أحداً إلا الله وكفَى بالله حسيباً.

(Əhzab, 33/39)

«Peyğəmbərlər (peyğəmbərlik vəzifəsi olaraq) Allahın əmr və yasaqlarını təbliğ edərlər və Ondan qorxarlar. Ondan başqa da heç kimdən qorxmazlar. Allah özü haqq-hesab çəkməyə kifayətdir».

**Peyğəmbərlər uca Allahın sevimli, seçilmiş, ayrıca ilahi missiya ilə vəzifələndirilmiş qulları olmaqla birgə,**

**dərəcələrinə görə bir-birindən fərqlənirlər.** Bu, Quranda da açıqca bildirilmişdir:

تِلْكَ الرسلُ فَضلْنَا بعضهم على بعض منْهم من كلم اللّه ورفَع
بعضهم درجات وآتَينَا عيسى ابن مريم الْبينَات وأَيدنَاه بروح الْقُدس
ولَو شَاء اللّه ما اقْتَتَلَ الذين من بعدهم من بعد ما جاءتْهم الْبينَاتُ
ولَـكن اخْتَلَفُواْ فَمنْهم من آمن ومنْهم من كَفَر ولَو شَاء اللّه ما
اقْتَتَلُواْ ولَـكن اللّه يفْعلُ ما يريد .

(Bəqərə, 2/253)

«Bəli, bu peyğəmbərlər. Onlardan bəziləri başqalarına üstün qılınmışdır. Allahın danışdığı, bəzilərinin də dərəcələrini yüksəltdiyi kimsələr onlardır. Məryəm oğlu İsaya açıq dəlillər vermiş və onu Ruhul-Qüds ilə dəstəkləmişdir. Əgər Allah diləsəydi, bu peyğəmbərlərdən sonra gələn (millətlər) özlərinə açıq dəlillər gəldikdən sonra bir-birilərini öldürməzdilər. Ancaq ixtilafa düşdülər. Onlardan bir qismi iman etdi, bir qismi də küfr etdi. Əgər Allah diləsəydi, bir-birilərini öldürməzdilər. Ancaq Allah istədiyini edər».

## PEYĞƏMBƏRLƏRİN VƏZİFƏLƏRİ

**Peyğəmbərlərin bir sıra vəzifələri də var. Bunları aşağıdakı kimi sıralamaq olar: İnsanları bir olan Allaha inanmağa dəvət etmək, İlahi buyruqları (əmr və yasaqları) açıqlamaq, tətbiq etmək və insanlara örnək olmaq, bütün məsələlərdə ilahi hökmləri ölçü götürmək və nəfsi arzularına uymamaq, insanlara gözəl əxlaq aşılamaq, Allahın dəlili olmaq.** Biz bu vəzifələri qavramlarla versək, peyğəmbərin vəzifəsinin Təbliğ, Bəyan (açıqlama), Dəvət,

Təlim, Təmizləmə olduğunu görərik. Bu beş ilahi vəzifə Quran ayələri ilə təsbit olunmuşdur.

**Təbliğ vəzifəsi:**

قُلْ أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ فَإِنْ تَوَلَّوْا فَإِنَّمَا عَلَيْهِ مَا حُمِّلَ وَعَلَيْكُمْ
مَا حُمِّلْتُمْ وَإِنْ تُطِيعُوهُ تَهْتَدُوا وَمَا عَلَى الرَّسُولِ إِلَّا الْبَلَاغُ الْمُبِينُ .

(Nur, 24/54)

«De: «Allaha itaət edin, peyğəmbərə itaət edin. (Çünki Peyğəmbərə itaət etmək elə Allaha itaət etməkdir). Əgər (Peyğəmbərin əmrindən) üz döndərsiniz, (bilin ki) onun vəzifəsi ancaq ona tapşırılanı, sizin də vəzifəniz ancaq sizə tapşırılanı yerinə yetirməkdir. Əgər ona itaət etsəniz, doğru yolu tapmış olarsınız. Peyğəmbərin öhdəsinə düşən isə yalnız (dini, risaləti) açıq-aşkar təbliğdir».

**Bəyan (açıqlama) vəzifəsi:**

بِالْبَيِّنَاتِ وَالزُّبُرِ وَأَنْزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ

(Nəhl, 16/44)

«Onlara açıq dəlillər və kitabları göndərdik. Sənə də insanlara endiriləni onlara açıqlayasan deyə Quranı endirdik. Bəlkə onlar da düşünərlər».

**Dəvət vəzifəsi:**

ادْعُ إِلَى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُمْ بِالَّتِي هِيَ
أَحْسَنُ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَنْ ضَلَّ عَنْ سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ

(Nəhl, 16/125)

«Ey Məhəmməd! Rəbbinin yoluna hikmətlə və gözəl öyüdlə dəvət et. Onlarla ən gözəl bir şəkildə mübahisə et.

Şübhəsiz, öz yolundan azanları ən yaxşı bilən Rəbbindir. Doğru yolda olanları da ən yaxşı o bilir».

**Təlim (öyrətmək) vəzifəsi:**

ربنَا وابعثْ فيهم رسولاً منْهم يتْلُو علَيهم آياتك ويعلمهم الْكتَاب والْحكْمةَ ويزكيهم إِنك أَنتَ العزِيز الحكيم .

(Bəqərə, 2/129)

«Rəbbimiz! Onlara öz içlərindən sənin ayələrini oxuyan, kitab və hikməti öyrədən və onları (şirkdən) arındıran bir peyğəmbər göndər. Şübhəsiz, əziz və hakim olan ancaq sənsən».

**Təmizləmə vəzifəsi:**

Peyğəmbərin vəzifəsi insanları, toplumu pisliklərdən arındırmaqdır. İbadət və əməllə gerçəkləşən bu vəzifə insanda uca Allaha (c.c.) sonsuz bir inam yaradır. Peyğəmbər (s.a.s.) bu vəzifəni gözəl sözlə, gözəl davranışla, gözəl işlə gerçəkləşdirib:

هو الذي بعثَ في الْأُميين رسولاً منْهم يتْلُو علَيهم آياته ويزكيهم ويعلمهم الْكتَاب والْحكْمةَ وإِن كَانُوا من قَبلُ لَفي ضلَالٍ مبِينٍ .

(Cümə, 62/2)

«Ummi ərəblər içindən onlardan olan, onlara Allahın ayələrini oxuyan, onları təmizləyən və onlara kitabı, hikməti öyrədən bir rəsul göndərən Odur. Halbuki, öncədən bu ərəblər açıq bir sapıqlıq içində idilər».

**Peyğəmbərlər vəhyi yaşanan bir dinə çevirmişlər.** Ona görə də Fəxrəddin Yıldıza görə, «Peygamberlik daha çok praktikle ilgili bir müessesedir»[11].

---

[11] «Altınoluk» dərgisi, sayı,184, Haziran, 2001, s. 7.

## PEYĞƏMBƏRLƏRİN TƏBLİĞ METODLARI

Peyğəmbərlər təbliğ görəvlərini sonadək yerinə yetirmişlər. Onlar üzərilərinə düşəni gerçəkləşdirmək üçün bir sıra metodlardan yararlanmışlar. Məsələn, hz. Məhəmməd (s.a.s.) təbliğin ilk mərhələsini gizli gerçəkləşdirmiş, bu mərhələdə təbliğdə **xəbərdarlıq metoduna** üstünlük vermiş, Allahın əzabı ilə qorxutmuşdur.

Peyğəmbərin təbliğdə ən güclü silahı səbir və dözüm idi. O, təbliğ siyasətində **mərhələli olmaq prinsipini** əsas götürmüşdür.

Peyğəmbərlərlə bağlı olan bir sıra xüsusiyyətlər onlara ilahi vəzifələrini yerinə yetirməkdə yardım etmişdir. Məsələn, bütün peyğəmbərlər risalətdən öncə xalq içində seviliblər, onlara böyük inam olub (risalətdən öncə Məkkədə insanlar hz.Məhəmmədi (s.a.s.) «Məhəmməd Əmin» adlandırırdı). Peyğəmbərlərin həyatı xalqın gözü qarşısında keçib, xalq onları tanıyıb, onlarla ünsiyyət qurub. (Hz. Məhəmmədin (s.a.s.) ömrünün bütün yönləri bəllidir). Bütün bunlar onlara inam yaradıb.

**Təbliğdə də başlıca məsələlərdən biri təbliğ edən insanın şəxsiyyətinə inamın olmasıdır.** Peyğəmbərlər **inandırma və çəkindirmə** yolu ilə insanları yaradan Allahın (c.c.) buyruqlarına yönəldiblər.

**Qurani-Kərimin təliminə görə, cəhalətlə mübarizədə aşağıdakı metod tətbiq olunmalıdır: Təbliğdə önəmli olan məsələlərdən biri ardıcıllıqdır.** Peyğəmbərlər bu təbliğ yoluna sonadək sadiq qalmışlar. Burada ardıcıllıq deyilərkən iki məsələ nəzərdə tutulur. Birincisi, təbliğdə nədən başlayıb nədə qurtarmaq önəmlidir. Məsələlərin doğru sırası ideyanın qəbulunda ayrıca yer tutur. Təbliğdə kimdən başlamalı sualı da önə keçir. Məsələn, hz. Məhəmməd (s.a.s.) İslamı təbliğ edərkən öz ailəsindən və

yaxınlarından başlayıb. Təbliğdə ardıcıllıq deyilərkən bir də ideya uğrunda ardıcıl olmaq, dönməzlik, sonadək mübarizə nəzərdə tutulur. Hz. Məhəmmədin (s.a.s.) şərəfli ömür yolu bunun gözəl örnəyidir.

**Quran təliminə görə, ardıcıl, çox, doğru çalışmaq da təbliğin önəmli məsələlərindən biridir.** Təbliğdə səbir, pisliklərə qarşı müqavimət gücü, fədakarlıq, yaxşılıqları təqdir də əsaslar sırasındadır. Düşünən, azad, imanlı, əxlaqlı insan yetişdirməyin tək yolu da budur.

## HƏZRƏT MƏHƏMMƏDİ (s.a.s.) BAŞQA PEYĞƏMBƏRLƏRDƏN AYIRAN ÖZƏLLİKLƏR

Biz, son peyğəmbər olan hz. Məhəmmədi (s.a.s.) başqa peyğəmbərlərdən ayıran özəlliklər üzərində də qısaca durmaq istəyirik.**Qurani-Kərimdə hz.Məhəmmədin (s.a.s.) peyğəmbər olduğu açıq bildirilmişdir:**

يا أيها النبي إنا أرسلْنَاك شَاهداً ومبشراً ونَذيراً . وداعياً إلى الله بإذْنه وسراجاً منيراً.

(Əhzab, 33/45-46)

«Ey peyğəmbər! Biz səni şahid, müjdəçi, uyarıcı, Allahın izni ilə ona dəvətedici və aydınladıcı bir işıq olaraq göndərdik».

**Qurana görə, Məhəmməd Peyğəmbərə iman Allah (c.c.) əmridir:**

آمنُوا بالله ورسوله وأَنفقُوا مما جعلَكُم مستَخْلَفين فيه فَالذين آمنُوا منكُم وأَنفَقُوا لَهم أَجر كَبير.

(Hədid, 57/7)

«Allaha və Rəsuluna iman edin. Allahın sizə verdiyi maldan Allah yolunda xərcləyin. İçinizdən iman edənlər və Allah yolunda sərf edənlər üçün böyük mükafat vardır».

**Qurana görə, hz.Məhəmmədin (s.a.s.) peyğəmbərliyinə inanmamaq küfrdür:**

ومن لم يؤمن بالله ورسوله فإنا أعتدنا للكافرين سعيراً .

(Fəth, 48/13)

«Kim Allaha və Rəsuluna iman etməsə, doğru budur ki, biz kafirlər üçün alovlu bir atəş hazırlamışıq».

**Hz.Məhəmmədin (s.a.s.) peyğəmbərliyi ümumbəşəridir.** Yəni o, bir topluma, insan qrupuna deyil, bütün insanlığa göndərilmişdir:

وما أرسلناك إلا كافةً للناس بشيراً ونذيراً ولكن أكثر الناس لا يعلمون

(Səbə, 34/28)

«Ey Məhəmməd! Biz səni ancaq bütün insanlara müjdəçi və uyarıcı olaraq göndərdik. Ancaq onların çoxu bilmir».

**Hz. Məhəmmədin (s.a.s.) peyğəmbərliyinin dəlili Qurandır, onun üstün əxlaqıdır, onun möcüzələridir.** Qurandan öncəki ilahi kitablarda onun peyğəmbərliyi müjdələnmişdir:

وإذ قال عيسى ابن مريم يا بني إسرائيل إني رسول الله إليكم
مصدقاً لما بين يدي من التوراة ومبشراً برسولٍ يأتي من بعدي
اسمه أحمد فلما جاءهم بالبينات قالوا هذا سحر مبين.

(Saf, 61/6)

«Məryəm oğlu İsa da belə demişdi: «Ey İsrail oğulları! Mən, məndən öncə göndərilmiş olan Tövratdakı şeyləri təsdiqedici və məndən sonra gələcək olan Əhməd adındakı peyğəmbəri də müjdələyici olaraq Allahın sizə göndərdiyi peyğəmbəriyəm. Ancaq İsanın müjdələdiyi peyğəmbər açıq dəlillərlə gələndə də «bu bəlli bir sehrdir» demişlər».

وَإِنَّكَ لَعَلى خُلُقٍ عَظِيمٍ

(Qələm, 68/4)

«Və sən böyük bir əxlaq üzərindəsən».

**Hz.Məhəmmədi (s.a.s.) başqa peyğəmbərlərdən ayıran bir özəlliyi də onun son elçi olmasıdır:**

ما كان محمد أبا أحد من رجالكم ولكن رسول الله وخاتم النبيين

وكان الله بكل شيء عليماً

(Əhzab, 33/40)

«Məhəmməd adamlarınızdan hər hansı birinin atası deyil, ancaq Allahın rəsulu və Peyğəmbərlərin də sonuncusudur. Allah hər şeyi haqqıyla biləndir».

## HƏZRƏT MƏHƏMMƏDİN (s.a.s) ADLARI

Şairlər uca Allahın (c.c.) və onun sevimli dostu hz. Peyğəmbərin adlarını, sifətlərini öymək, bu mübarək adlardan yardım, şəfaət ummaq məqsədi ilə çoxsaylı şeirlər yazmışlar. Bu adların yazıldığı lövhələr divarlardan asılmış, onlara toxunulmaz əmanət kimi baxılmışdır. Mövzumuz birbaşa Peyğəmbərlə (s.a.s.) bağlı olduğu üçün öncə onun **Qurani-Kərimdə olan adlarını sadalayaq:** Əhməd, Əmin, Bəşir, Bürhan, Hatəm, Dai, Rəsul-ür-Rəhmə, Sirac, Münir, Sirati-Müstəqim, Ta-Ha, Ya-Sin, Ha-Mim, Əbd, Ürvətül-Vüsqa, Qədəmüs-Sidq, Məhəmməd, Müddəssir, Müzəmmil, Mustafa, Müctəba, Nəbiyyül-Ümmi, Nemətullah, Hadi.

**Hz. Peyğəmbərin (s.a.s.) başqa dini kitab və səhifələrdə olan adları:** İncildə: Əhməd, Baraklit (Faraklit), Hanbata, Ruhul-Haqq, Ruhul-Qüds, Səhihül-Qədib, Sahibün-Naleyn; Tövratda: Əhyed, Bidbid, Dahuk, Mütəvvəkkül, Muxtar; Zəburda: İklil, Cabbar, Hamyata, Hathat, Qayyim, Muqimus-Sünnə; başqa Peyğəmbərlərə endirilən səhifələrdə: Əhunah Tabtab, Müşəffih, Əcir, Hatəm, Mazmaz, Muhaminna.

**Hədislərdə bilinən adlar:** Əhməd, Ahyəd, Əmin, İmamül-Müttəqin, Həşir, Həbibullah, Rəkibül-Burak, Rəsulür-Rəhmə, Rəsulür-Rahə, Rəsulül-Məlahim, Seyyidül-Mürsəlin, Seyyidi-Vələdi-Adəm, Sabiq, Şəfi, Şafi, Müşəffa, Sahibül-Hatəm, Ta-Ha, Zahir, Akib (Akıb), Abdullah, Kaidül-Gurril-Muhaccelin Kusem, Mahi, Məhəmməd, Müddəssir, Müzəmmil, Müktəfi, Mükaffa, Nəbiyyüt-Tövbə, Nəbiyyür-Rəhmə, Nəbiyyül-Məlhəmə, Ya-Sin.

**Əsmai-Hüsna ilə ortaq olan adları:** Əvvəl, Axir, Cəbbar, Həmid, Hamid, Haqq, Xəbir, Rauf, Rəhim, Şahid, Şəhid, Şəkur, Sadiq, Əziz, Əzim, Əvf, Alim, Fəttah, Quddis, Qəvi, Zu-Qüvvə, Kərim, Əkrəm, Mübəşşir, Mübin, Mahmud, Mömin, Müheymin, Nur, Vəli, Mövla, Hadi, Ya-Sin.

Başqa Peyğəmbər və din böyükləri ilə ortaq olan adları: hz. Məhəmmədin (s.a.s.) Əhməd, Məhəmməd, Aqib, Həşir, Mukaffa, Nəbiyyül-Məlhəmə kimi adları yalnız onundur. Rəsulallah, Nəbiyyullah, Abdullah, Şahid, Mübəşşir, Nəzir, Nəbiyyür-Rəhmə, Nəbiyyüt-Tövbə kimi adları isə başqa Peyğəmbərlərə də verilmişdir. Bununla birgə, hz. Adəmin (s.a.s.) Safiyullah, hz. İbrahimin (s.a.s.) Xəlilullah, hz. Musanın Kəlimullah, hz. İsanın (s.a.s.) Ruhul-Qüds, hz.Əlinin (r.a.) Mürtəza və Müctəba, İmam Qazalinin (r.a.) Höccətil-İslam kimi adları həm də hz. Peyğəmbərin (s.a.s.) adıdır.

**Ancaq Peyğəmbər (s.a.s.) üçün deyilən ifadələr:** fəxri-kainat, fəxri-Aləm, məfxari-Aləm, Əbül-Möminin, Xeyrül-Mürsəlin, kani-Şəfaət, məhbubi-Haqq, Muini-Bəşər, Rəsulüs-Sakaleyn, seyidüs-Səadət, seyidül-mürsəlin, sultanı-ənbiya kimi adlar ancaq hz. Məhəmmədə (s.a.s.) bağlı deyimlərdir.

**Bədii ədəbiyyatda Peyğəmbər (s.a.s.) üçün işlədilən ifadələr:** mehri-bürci-fəzail, bədri-düca, mahi-munir, sədri-bədri-kainat, ayimeyi-əzəl, mirati-xuda, cövhəri-zat, dürreyi-beyza, dürri-yetim, dəryayi-istifa, şəmsi-kövneyn, şəmsi-sübhan, afitabı-övci-din, nəyyiri-əzəm, səhabi-rəhmət, qibleyi-

nümayi-əhli-taət, kilidi-məhzəni-gəncineyi-din, loğman, təbibi-mərizi-üsyan, məqsədi-cahan, mənbeyi-ənvar, mənbeyi-abi-həyat, nizamül-aləmin, ruhi-əzəm, sərçeşmeyi-kərəm, sərvi-bostani-din, sərvəri-mülki-hidayət, sultani-müəyyəd, şahi-zəmin, şahənşahi-Asfiya, uqde-güşa.

Bütün bunlardan başqa, alimlərin bilgilərinə görə, hz. Məhəmməd (s.a.s.) cənnət əhli arasında Əbdül-Kərim, cəhənnəmdəkilərin dilində Əbdül-Cəbbar, ərş mələklərinin dilində Əbdül Həmd, başqa mələklər arasında Əbdül-Məcid, Peyğəmbərlər arasında Əbdül-Vəhhab, cinlərin dilində Əbdür-Rəhim, şeytanların dilində Əbdül-Qəhhar, dağda Əbdül-Xəllaq, okeanda Əbdül-Qadir, balıqların dilində Əbdül-Muqis, vəhşilər arasında Əbdür-Rəzzaq, yırtıcı heyvanların dilində Əbüs-Səlam, dördayaqlı heyvanlar arasında Əbdül Mömin, quşların dilində Əbdül Qaffar adı ilə tanınmaqdadır.[12]

Bu mübarək adlarla bağlı bir-iki misala baxaq:

**Nəbi:**

Sakın tərki-edebden, kuyi-mahbubi-Hudadır bu,
Nazargahi-İlahidir, makami-Mustafadır bu.[13]

(Ədəbi tərk etməkdən çəkin, Allahın (c.c.) sevdiyinin yurdudur bu. Allahın (c.c.) baxdığı, Mustafanın (s.a.s.) yeridir bu)

**Şeyx Qalib:**

Sultanı-Rusül, şahi-mümeccedsin Efendim,
Biçarelere dövleti-sermedsin Efendim,
Divani-İlahide seramedsin Efendim,
Sen Ahmed-u Mahmud u Muhammedsin Efendim.[14]

**Arif Nihat Asya:**

Gel, ey Muhammed (s.a.s.) bahardır,
Dudaklar ardında saklı aminlerimiz vardır,

---

[12]Emine Yeniterzi, göstərilən qaynaq, s. 165.
[13] Abdülkadir Karahan, Nabi, Ankara, 1987, s. 207.
[14] Divani-Qalib Esad, göstərilən qaynaq, N. 2419.

Hacdan döner gibi gel, Meracdan iner gibi gel,
Bekliyoruz yıllardır.[15]

«Peyğəmbər ədəbiyyatı» belə gözəl, ətirli, təzə güllərlə-şeirlərlə doludur. Bu şeirlər düşüncəmizin, ruhumuzun, əxlaqımızın nur qaynaqlarıdır. Bu şeirlər təkcə Peyğəmbər öygüsü (s.a.s.) də deyil, daha böyük hədəfləri müəyyənləşdirən, bu hədəflərə gedən doğru yolları göstərən tükənməz sərvətdir, Allahın (c.c.) verdiyi nemətdir. Bu şeirlərin hədəfi Peyğəmbərin (s.a.s.) əxlaq ölçülərinə uyğun insan yetişdirməkdir.

Hz.Nizami Gəncəvi də nətini başlayarkən Peyğəmbərin (s.a.s.) mübarək adları sırasından «Əhmədi» seçib. Bunun bir sıra səbəbi var. İslami inanışa görə, hz. Peyğəmbərə (s.a.s.) «Əhməd» adı dünyaya gəlməmişdən öncə, «Məhəmməd» adı sağ olarkən, «Mahmud» adı da ölümündən sonra verilib. «Əhməd» ən çox həmd edən mənasındadır. Peyğəmbər (s.a.s.) hər an uca Allahı (c.c.) öyüb, ona gözəl sözlər deyib.

Hz.İsa (s.a.s.) islam Peyğəmbərinə «Əhməd» adı verildiyini, onun bu adla şərəfləndirildiyini müjdələyir. Quran bu müjdəni belə çatdırır:

وإِذْ قَالَ عيسى ابن مريم يا بني إِسرائِيلَ إني رسولُ الله إِلَيكُم
صدقاً لما بين يدي من التوراة ومبشراً بِرسولٍ يأْتي من بعدي
اسمه أَحمد فَلَما جاءهم بِالْبينَات قَالُوا هذَا سحر مبِين

(Saf, 61/6)

«Məryəmin oğlu İsa da belə demişdi: «Ey İsrail oğulları! Mən, məndən öncə göndərilmiş olan Tövratdakı şeyləri doğrulayıcı və məndən sonra gələcək olan Əhməd adındakı Peyğəmbəri də müjdələyici olaraq Allahın sizə göndərdiyi Peyğəmbəriyəm» Ancaq İsanın müjdələdiyi Peyğəmbər açıq dəlillərlə gələndə də «bu bəlli bir sehrdir» dedilər».

---

[15] Arif Nihat Asya, Şeirlər, Ankara, 1990, səh. 26.

Bu ayədən açıq görünür ki, «Əhməd» adı Peyğəmbərə (s.a.s.) o doğulmazdan öncə verilib. Hz. Nizami Gəncəvi beytdə «Əhməd» adını seçməklə öncə bu ayəyə işarə edib. İkincisi, hz. Nizami Gəncəvi «Əhməd» adı üzərində başlanğıcdan dünyanın yaradılışını şərh edib. Hz. Nizami böyük alim və şair olaraq varlığın yaradılışının mərhələli olduğunu «Əhməd» sözünü hərf-hərf təqdim etməklə açıqlayıb. Sonrakı beytlərdə də görəcəyimiz kimi ardıcıl olaraq «əlif», «ha», «mim» hərfləri mənalandırılıb.

## HƏZRƏT NİZAMİNİN DİLİ HƏR AN
## UCA ALLAHI (c.c) ZİKR EDİR:
## «MƏNİ MÖHTAC OLANLARA MÖHTAC ETMƏ»

***Gecələr yuxuya getməzdən əvvəl,***
***Təsbehlə Sənin adını zikr etməyə tələsirəm.***

***Gecəyarısı yuxudan oyanaramsa,***
***Səni çağırıram, göz yaşı tökürəm.***

***Ya da səhər çağıdırsa, yolum Sənədir,***
***Gecə də, gündüz də pənahım Sənədir.***

***Gündüz də, gecə də Səndən kömək istəyirəm,***
***Məni bu işdə utandırma.***

***Ey hər işi öz qaydasına salan Allah, elə et ki, mən***
***Möhtac olanlara möhtac olmayım.***

## ƏRƏB, FARS VƏ TÜRK ƏDƏBİYYATINDA NƏT

«Nət» termini ərəbcədir. Lüğətlərdə söz olaraq: «Bir kimsədə olan şeyləri vəsf etmək, onu təriflməkdə mübaliğə etmək»[16], «Bir şeyi vəsf eləmək, ona aid olan sifətləri irad ilə nişan vermək»[17], «Vəsf, mədh və səna ilə birgə tərif və tövsif»[18], «Bir şeyi mədh edərək anlatmaq, vəsfləndirmək»[19] kimi izah olunmuşdur. Bir termin olaraq isə «Nət»: «Peyğəmbərimizin tərifi üzərinə söylənən şeir», «mövzusu Peyğəmbər olan qəsidənin adı», «Hz. Məhəmmədi öyən şeylər» «Divan edebiyyatında bilhassa Hz.Peygamber ve Hülefayi-Raşidin vasfında yazılan manzumelerdir».[20]

Ədəbiyyatda Hz.Peyğəmbəri (s.a.s.) mədh edən nətlər «Nəti-şərif», «Nəti-Nəbəvi», «Nəti-Peyğəmbər», «Nəti-rəsul» adlanmış, dörd xəlifə üçün yazılanlara «nəti-çahar yar» («dörd dostun tərifi»), Hz.Əli (r.a.) üçün yazılanlara isə «nəti-Əli» deyilmişdir. Bununla birgə, başqa Peyğəmbərlərə, əsri-səadət dönəmində sağ olarkən Hz.Peyğəmbərin (s.a.s.) cənnətlə müjdələdiyi on səhabəyə: Hz.Əbu Bəkir (r.a.) (öl.634), Hz.Ömər (r.a.) (öl.644), Hz.Osman (r.a.) (öl.656), Hz.Əli (r.a.) (öl.660), Hz.Əbu Ubeydə b. əl-Cərrah (r.a.) (öl.639), Hz.Əbdürrəhman b.Avf (r.a.) (öl. 651), Hz.Talha b. Ubeydullah (r.a.) (öl.656), Hz.Zubeyr b. əl-Avvam (r.a.) (öl. 656), Hz.Sad b. Əbi Vakkas (r.a.) (öl.674), Hz.Səid b. Zeyd (r.a.) (öl.671), dörd xəlifəyə, Hz.Həsən (r.a.) və Hz.Hüseynə (r.a.), Hz.Həmzəyə (r.a.),

---

[16] İbn Manzur, «Lisanül-Arab», Mısır, 1308, c. II, s. 405
[17] Mütərcim Asim Əfəndi, «Kamus Tercemesi», İstanbul, 1305, c. I, s. 331.
[18] Şemseddin Sami, «Kamusi-Türki», İstanbul, 1978, s.331.
[19] Ferit Devellioğlu, «Osmanlıca-Türkce Ansiklopedik Luqat», Ankara, 1970, s.969.
[20] «Türk Ansiklopedisi», Ankara, 1946-1961, c. 25, s. 146; «Kamusi-Türk», I, s. 1464; «Türkce-Osmanlıca Ansiklopedik Luğat», s. 969; Mehmed Salahi, «Kamusi-Osman», 1322, c. IV, s. 585; Tahirül-Mevlevi, «Edebiyet Luqati», İstanbul, 1973, s. 113.

Hz.Abbasa (r.a.), Əbu Hənifəyə (r.a.), İmam Şafiyə (r.a.), İmam Malikə (r.a.), İmam Əhmədə (r.a.), İmam Buxariyə (r.a.), İmam Müslimə (r.a.), Şeyx İbnil-Vəfaya (r.a.), Əbdülqadir Geylani (r.a.) kimi islam böyüklərinə yazılmış şeirlərə də nət deyilmişdir.

Hz.Məhəmmədin (s.a.s.) ömrünün hər anı, mübarək şəxsiyyətinin bütün yönləri şeirlərə mövzu olmuş, bütöv bir «Peyğəmbər ədəbiyyatı» yaranmışdır. Ona olan sonsuz sevgi nəticəsində «mövlud», «əsmai-nəbi» adı ilə təqdim olunmuş saysız əsərlər yazılmışdır. Qısaca onu da deyək ki, bunların arasında mövludnamələrin ayrıca yeri var. «Mövlud» ərəbcə «doğum-doğmaq», «doğum zamanı», «doğum yeri» deməkdir. Hz.İsanın (s.a.s.) doğum günü «Milad» adlandırıldığı kimi, Hz.Məhəmmədin (s.a.s.) doğum günü də «Mövlud» adlanır. Bununla birgə «Mövlud» sözü həm hz. Peyğəmbərin (s.a.s.) doğum gününün hər il qeyd edilməsini, həm bu günlə bağlı mərasimləri, həm də mərasimlərdə oxunan əsərləri bildirir.

İslam ənənəsində Ramazan və Qurban bayramlarından başqa beş mübarək gecə var: Rəqaib gecəsi (Rəcəb ayının ilk cümə gecəsi), Merac gecəsi (Rəcəb ayının 27-ci gecəsi), Bəraət gecəsi (Şaban ayının 15-ci gecəsi), Mövlud gecəsi (Rəbiül-əvvəl ayının 12-ci gecəsi), Qədr gecəsi (Ramazan ayının 27-ci gecəsi).

Mövlud xarakterli əsərlərdə nuri-Məhəmmədin yaradılışı, hz. Peyğəmbərin (s.a.s.) doğumu, doğumundan öncə və sonra baş verənlər gözəl bir üslubla anladılır.

«Nət» termininin leksik, qrammatik anlamı ilə yanaşı bir də ədəbi – bədii mənası var. «… Net insanın kendini Peygamberde araması, gerçeyi onun çevresinde dolaşaraq bulmağa çalışması, ona yaklaşmaya çalışarak yaratılışın sırrına erilecegini idrak edişidir. Net Peygamberin şeirle yapılmak istenen bir portresidir. Her şair durduğu yerden ve görme kabiliyeti ölçüsünde Ona bakar. O büyük mükemmelliyin karşısın-

dakı duyqularını zapt etmeye çalışır. Bütün netler adeta, tarih boyunca yapılan tek bir portrenin farklı cephelerden birer örnegi gibidir ve tek bir portre içindir. Bir portre ki, tarih ve insan devam ettikce bitmeyecektir. Bütün netler bir meşale ormanı gibi pırıldar, insanlığın üstünde ve insanlık Peygambere doğru bir işıkların altında sevincle, aşkla, güvenle yürür. Net en ileri ve en mükemmel bir sevgi abidesidir»[21].

Biz nətin quruluşunu və məzmununu diqqətlə araşdırdıqda görürük ki, nət sadəcə divan ədəbiyyatında tövhid və münacatlardan sonra yer tutan və ənənə xatirinə yazılmış şeirlər deyil. **Bizə görə, nət mədəniyyəti islam mədəniyyətinin, islami dünyagörüşün ayrılmaz tərkib hissəsidir. Nətin yazılmasında məqsəd tövhid inancını (Allahın varlığı və birliyi) öyrətmək, qorumaq və yaymaqdır. Nət islami dünyagörüşün dəyərlərinin yerləşdirildiyi bədii məkandır. Bu mədəni məkan bizim mənəvi sərhədimizdir. Nət müsəlman toplumunu bu dini-mədəni məkana bağlayan vasitələrdən biridir. Ona görə də, nət türk-islam, ərəb-islam, fars-islam ədəbiyyatının quruluş vahididir. Nət ədəbiyyatla din arasında bir körpüdür. Nət ilahi ölçülərin daşıyıcısıdır, şeirləşmiş şəklidir. Bu ilahi ölçülərin məqsədi, Allahın (c.c.) sevgisini qazanacaq bir toplum tərbiyə etməkdir. Nət eyni zamanda onu yazan sənətkarın dünyagörüşünün ifadəçisidir. Deməli, Azərbaycan islami-türk ədəbiyyatının hədəfi ədalətli, azad, Allahın (c.c.) müəyyən etdiyi ölçülər içərisində yaşayan insan, toplum yetişdirmək, bu hədəfə gedən yolu və vasitələri müəyyən etməkdir. Bu baxımdan nət bu ilahi hədəfi gerçəkləşdirmək vasitə və formalarından biri kimi dəyərləndirilməlidir.**

---

[21]Sezai Karakoç, «Bir kaç söz», Abdullah Öztemiz Hacıtahiroğlu, «Hazreti-Peygambere Şiirler Antolojisi (Natlar)», İstanbul, 1966, s. 6-7.

Ədəbiyyatda nət bütün nəzm şəkillərində yazılıb. Nətdən türk dini musiqisində istifadə olunub. Ona görə də, musiqi ilə bağlı sözlüklərdə, ensiklopediyalarda nətə ayrıca tərif verilib: «ilahi usulleriyle bestelenen, ilahiden daha uzun, daha tantanalı, daha tumturaklı, daha ağır ve daha yüksek olmasına diqqet edilen»[22] ve edebiyyatımızdakı manzum natların bestelenmiş şekline verilen bir isimdir».[23]

Nətlə bağlı, ondan törəyən bir sıra başqa sözlər də var. Məsələn, «nətiyyə», «nətqu» (nət söyləyən), «nətxan» (nət oxuyan). Çox nət yazan şairlərə də «nəti» deyilmişdir. Ərəb ədəbiyyatında «nət» ancaq «mədh» sözü, fars ədəbiyyatında isə «sitayiş» kəlməsi ilə ifadə olunmuşdur. Göründüyü kimi, «nət» və onunla bağlı deyimlər türk ədəbiyyatında daha çoxdur.

## ƏRƏB ƏDƏBİYYATINDA NƏT

Bilindiyi kimi, islamadək olan ərəb ədəbiyyatında şeir, bəlağət ayrıca yer tuturdu. Ərəblər arasında şeir yazmaq, bəlağətli danışmaq hünər sayılırdı, hər il şeir yarışmaları keçirilirdi. Bu yarışmalarda bəyənilən şeirlər qızıl mürəkkəblə yazılıb Kəbənin divarına asılırdı. «Bu şeirlerin Kebe duvarına asılan yeddi şeire «mullaka-i seba» (yedi askı) adı verilir. Bu şeirler cahiliye döneminin mahsulleridir. Şairlerden yalnızca Lebid müselman olmuşdur».[24]

Qurani-Kərim də bu mühitdə nazil oldu. Ərəb şairləri Quranın bəlağətini eşidəndə heyrətə düşdü. «Muallaka şairlerinden İmri-ul-Kaysın kız kardeşi «Hud» suresinin kırk dördüncü ayetini işitince: «Kardeşimin şiri övünme meyda-

[22] Yılmaz Öztuna, «Türk Musikisi Ansiklopedisi», İstanbul, 1974, c. II, s. 64.
[23] Nuri Özcan, «XVIII asırda Osmanlılarda dini musiqi», İstanbul, 1982, c. I, s. 40.
[24] Ahmed Turan Arslan, «Asri-Saadet Arefesinde İslami Edebiyata Basamak olan Arap Edebiyatı», İslami Edebiyat, c.I, Mayıs, 1988, s. 12-13.

nında duramaz»,- deyərək İmri-ul-Kaysın kasidesini Kabe duvarından indirmiştir»[25].

Buradan ortaya çıxan ilk nəticə odur ki, İslam Peyğəmbərini öymək, onun üstünlüklərini tərənnüm etmək ənənəsinin ilk qaynağı Qurani-Kərimdir. Quranda yaradan Allah (c.c.) sevimli Peyğəmbəri (s.a.s.) ilə bağlı belə buyurur, onu insanlara belə təqdim edir:

وما أرسلناك إلا رحمةً للعالمين

(Ənbiya, 21/107)

«Biz səni aləmlərə ancaq rəhmət üçün göndərdik».

لقد كان لكم في رسول الله أسوةٌ حسنةٌ لمن كان يرجو الله واليوم الآخر وذكر الله كثيراً

(Əhzab, 33/21)

«Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!».

لقد جاءكم رسولٌ من أنفسكم عزيز عليه ما عنتم حريص عليكم بالمؤمنين رؤوفٌ رحيم

(Tövbə, 9/128)

«And olsun sizə içinizdən bir Peyğəmbər gəldi ki, əziyyət çəkməyiniz Onu incidir və üzür. Sizə çox bağlıdır, möminlərə çox mərhəmətlidir, çox şəfqətlidir».

Uca Allah, Quran boyu çoxsaylı ayələrdə hz. Məhəmmədi (s.a.s.) ayrı-ayrı yönlərdən göstərmişdir.

---

[25] Ahmed Turan Arslan, «Asri-Saadette Edebiyat», İslami Edebiyat, s. 12.

Ərəb şairləri də Qurani-Kərimə uyaraq Allahın (c.c.) elçisi ilə bağlı bir-birindən gözəl şeirlər yazmışlar. Ancaq qaynaqların verdiyi bilgiyə görə, bu mövzuda ilk şeir hz. Məhəmməddən (s.a.s.) yeddi əsr öncə yaşamış Əsad Əbu Kərib əl-Himyerinindir. O, alimlərdən hz. Məhəmmədin (s.a.s.) gələcəyini öyrənib bu şeiri yazmışdır:

**«Şübhesiz, yaratıkları yoktan var eden Allah tarafından bir resul, bir elçi olan Ahmede şehadet ederim.**

**Ömrüm onun ömrüne yetişse, Ona verir (yardımçı olur), aynı zamanda amcaoğlu olurdum.**

**Düşmanlarına karşı kılıcla savaşır, sinesinden bütün elem ve kederi siler, ferahlatırdım».**[26]

Peyğəmbər (s.a.s.) vəfat edəndən sonra onunla bağlı çoxsaylı şeirlər yazılmış və bu şeirlər nət deyil, «mədhiyyə» adlandırılmışdır. Ərəblər ölümdən sonra yazılmış şeirlərə «resa» (ağı, mərsiyə) desələr də, Peyğəmbərlə bağlı yazılanlara «mədhiyyə» adı vermişlər. Bu mədhiyyələrdən birini və ən qədimini Əl-Aşa yazıb:

«Sevgilinin gözlerinin ağrıdığı gece, sen de gözlerini yummadınmı? Ki yılan sokmuş kimsenin uykusuz kaldığı gibi sen de uykusuz kaldın. Bu dert kadınlara duyulan aşktan degildir, ancak Sen önceden de Mehdedin (isimli kadın) sevgisini unutmuşdun… Muhammed öyle bir peygamberdir ki, sizin görmediklerinizi görür.

Ve Onun anısı bütün ülkeleri kaplar.

Onun iyilikleri aralıksızdır, kesilmez, eksilmez.

Bu gün vermesi de yarın vermesini engellemez» [27]

Hz. Məhəmmədə (s.a.s.) mədhiyyə yazmış ən məşhur şairlərdən biri də Kaab Bin Züheyrdir. O, öncə Peyğəmbərə qarşı olmuş, daha sonra isə bir mədhiyyə yazaraq onun

---

[26] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s.4

[27] Emine Yeniterzi, göstərilən qaynaq, s.4

hüzuruna gəlmişdir. Bu mədhiyyə Peyğəmbərin çox xoşuna gəlmiş və o, xirqəsini şairə vermişdir. Sonrakı dönəmlərdə bu şeir «Qəsideyi-Bürdə» adı ilə tanınmışdır. Bu qəsidədə hz.Məhəmmədlə (s.a.s.) bağlı çox güclü bənzətmələr var:

**«Şübhəsiz ki, Allahın elçisi Allahın nuruyla haqq və hidayətə ulaşılan kəskin qılınclardan bir qılıncdır»**[28].

Sonrakı dönəmlərdə bu qəsidə nətin inkişafına güclü təkan verdi. Bu qəsidə ilə bağlı çoxsaylı şərh və nəzirələr yazıldı, qəsidə türk, fars, urdu, latın, alman, fransız dillərinə çevrildi.

Ərəb ədəbiyyatında nətin ustadları sırasında Hassan bin Sabit, İbn Abbas, Abdullah ibn Rəvah, Kaab bin Malik, Amr bin Sinanil-Əkva və Enceşenin adı ayrıca yer tutur.

Hz.Əlinin sərbəst ölçüdə səcli nəsrlə yazdığı mədhiyyələrdə də Peyğəmbər (s.a.s.) sevgisi dərindən duyulur:

**«Allah Peyğəmbəri məşhur din ilə,**
**Əldə edilməsi savab sayılan elmlə,**
**Hər yeri tutan islam nuruyla,**
**Parlaq işıltılarla,**
**Yerinə yetirilməsi zəruri olan əmrlərlə göndərdi».**[29]

Ərəb ədəbiyyatının sonrakı dönəmlərində Kummeyt bin Zeyd-əl-Əsəd, Dağbel, Fərazdak-əş-Şərifür-Radiy, Mihyarəd Deyləmin yazdığı mədhiyyələrdə Peyğəmbər sevgisi bədii bir üslubla dilə gətirilmişdir. Sonrakı dönəmdə Misirdə yaşayan Məhəmməd bin-Səid əl-Busrinin yazdığı nət çox məşhur olmuşdur. Deyilənlərə görə, Busri bu qəsidəni yazanda bir tərəfi iflic imiş. O, yuxusunda hz. Peyğəmbəri (s.a.s.) görmüşdür. Peyğəmbər (s.a.s.) mübarək xirqəsini şairin çiyinlərinə atmış və nəticədə şair bu xəstəlikdən qurtulmuşdur. Bu hadisəyə görə, Busrinin mədhiyyəsinə «qəsideyi-Bürdə», ya da «qəsi-

---

[28] Emine Yeniterzi, göstərilən qaynaq, s.6.
[29] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s.9.

deyi-Bürə» deyilmişdir. Busrinin qəsidəsi islam dünyasında böyük ad qazanmış, ona çoxsaylı şərh, nəzirə yazılmış, tərcümə edilmişdir. «Türkcedeki meşhur tercümeleri de Ahmed Mekki, Şemseddin Sivasi, Abdurrahim Karahisari, Şeyh Esasi, Marmara müftüsü Hululi, Seyyid Ahmed Leali ve Kemal Paşazadeye aittir. Ayrıca yine hastalığı esnasında Babür Şah tarafından teberrüken manzum olaraq türkceye çevrilmiştir. Müsülmanlar arasında bu kasidenin kerametine inanılmış, cenaze defn ederken oxunması adet olmuştur».[30]

Ərəb ədəbiyyatı tarixində İbn Haccətil-Həməvinin, İbn Nəbatə əl- Mısrının mədhiyyələri də önəmli yer tutur.

## FARS ƏDƏBİYYATINDA NƏT

İslam mühitində yaranan fars ədəbiyyatında divan tərtibində tövhid, münacat, nət ayrıca yer tutmuşdur. Fars şairləri divan və məsnəvilərdə nəti «sitayiş» adı ilə vermişlər. XI yüzillik fars ədəbiyyatının ünlü şairi **Nasir Xosrovun** «Səadətnamə» adlı məsnəvisində Hz. Peyğəmbərin (s.a.s.) öygüsünə ayrıca yer ayrılmasa da, şair iki beytində Allahın (c.c.) elçisinə sevgisini bildirmişdir:

«Bir söz söyləmək istəyirsən, dindən danış,
Hər zaman sağlam bir ipdən tut.
Hər işdə yardımçın Tanrıdır,
Din yolunun dəlili Mustafadır» [31]

Tanınmış mütəsəvvif fars şairi hakim Sənainin divanında iki nət var. Bu nətlərdə hz.Peyğəmbər (s.a.s) incə bir üslubla öyülmüşdür.

Burada bir məsələyə də toxunmaq istəyirik. Klassik fars şairləri divan tərtibində tövhid, nət və övliya öygüsünə yer vermişlər. **Ancaq Peyğəmbərin (s.a.s.) ömrünün bir**

---

[30] İslam Ansiklopedisi, «Bürde maddesi», c. II, s. 137.
[31] Nasiri-Husrev, «Saadetname», İstanbul, 1958, s.2.

**sıra dönəmlərini (tərif, möcüzə, merac, şəfaət, hicrət, savaşlar, başqa Peyğəmbərlərlə müqayisə, dörd xəlifə) sistemli şəkildə nət mövzusuna çevirən, bu yöndə ənənə yaradan Azərbaycan şairi Nizami Gəncəvidir.**

X yüzillik fars rübai şairi Ömər Xəyyam da yaradıcılığında hz.Peyğəmbərə (s.a.s.) yer ayırmışdır. «Məntiqüt-teyr», «Əsrarnamə», «Pəndnamə» əsərlərinin müəllifi Fəriddin Əttar, Peyğəmbər (s.a.s.) sevgisini belə ifadə edir: «İki cahanın ulusu, Peyğəmbərlərin sonu olan uca Peyğəmbər o birilərindən sonra gəldi. Ancaq öncə gələnlərə iftixar örnəyi oldu. O, cahana gəlincə doqquz fələk özünə merac, nəbilərlə vəlilər ona möhtac oldu. Varlığı aləmlərə rəhmət gətirdi. Bütün yer üzü ona məscid oldu. Dostları Əbu Bəkir ilə Ömər oldu. Barmağının ucu ilə ayı iki parça etdi».[32] Fəridəddin Əttar nətində dörd xəlifəyə, hz.Peyğəmbərin (s.a.s.) əmisi hz. Həmzə (r.a.) ilə hz.Abbasın (r.a.) tərifinə də yer ayırmışdır.

Fars ədəbiyyatında yazılmış nətlər sırasında Şeyx Sədi Şirazinin «Bustan»ın da olan nət ayrıca yer tutur. O, hz. Peyğəmbərin (s.a.s.) ömrünün ayrı-ayrı anlarını incə bədii üslubla canlandırmış, Peyğəmbərə olan sonsuz sevgisini dilə gətirmişdir[33].

Şeyx Sədinin «Gülistan» adlı əsərində Peyğəmbərlə (s.a.s.) bağlı yazılmış olan beytlər dillər əzbəri olmuş, gözəl xətlə lövhələrə yazılaraq divarlardan asılmışdır: «Səfaətçidir, sözü dinlənilir, hökmü tutulur, Peyğəmbərdir, comərddir, gözəl vücudludur, gülərüzlüdür, nübüvvət möhrü ilə nişanlanmışdır»[34]. «Kamalı ilə ucalığa çatdı, cəmalı ilə qaranlıqları açdı. Bütün əxlaqı gözəl oldu. Ona və alinə salavat gətiririk».[35]

---

[32] Feridüddin Attar, «Pendname», İstanbul, 1985, s. 5.
[33] Şeyh Sadi Şirazi, «Bostan», İstanbul, 1942, s. 13-14.
[34] Şeyh Sadi Şirazi, «Gülistan», İstanbul, 1941, s. 14.
[35] Şeyh Sadi Şirazi, «Gülistan», İstanbul, 1941, s. 14.

Fars ədəbiyyatında Molla Caminin yazdığı nətlər də məşhurdur. Onun divanında iki qısa, bir uzun nət var.[36] Bu nətlərdə Molla Caminin Peyğəmbərə (s.a.s.) olan sevgisi, ona içdən bağlılığı açıqca duyulur. Bu nətlərdən görünür ki, Molla Cami bir peyğəmbər aşiqidir.

## TÜRK ƏDƏBİYYATINDA NƏT

Türk ədəbiyyatında böyük bir «Peyğəmbər ədəbiyyatı» var. Yusif Xas Xacib «Qutadqu Biliq» adlı əsərinin müqəddiməsində tövhid, nət, dörd xəlifənin tərifinə yer vermişdir. Buradakı nət on beş beytdir. Yusif Xas Xacib nətində Rəbb, İlahi, ümmət, rəhmət, qiyamət terminləri ilə birgə, bunların türkcə qarşılığını da işlətmişdir: Bayat, Tanrı, Yalavac. [37]

XII yüzillik ədibi Ədib Əhməd Yüqnəqin «Atabətül-Həqayiq» adlı əsərində beş beytlik bir nət var[38].

Dini, təsəvvüfi düşüncələriylə XII yüzillik türk ədəbiyyatında ayrıca yeri olan Əhməd Yəsəvi «Divani-Hikmət»də Peyğəmbəri (s.a.s.) bütün yönləri ilə anlatmışdır. O, «hikmət»lərində Peyğəmbəri insanlara tanıdır, onunla bağlı bütün məsələlərə aydınlıq gətirir. Ona görə, Peyğəmbər «on səkkiz min aləmin şahı, dinin dirəyi, Allahın həbibi, insanların öyüncü, rəhbəridir. Peyğəmbər bu dünyada və axirətdə ancaq ümmətini düşünür».[39]

Əhməd Yəsəvinin nətləri başqa nətlərdən seçilir. Bu nətlər «hikmət» formasında yazılmışdır. Əhməd Yəsəvinin məqsədi sadəcə Peyğəmbəri (s.a.s.) öymək deyil. Onun məqsədi Peyğəmbəri az tanıyan bir topluma tanıtmaq, onu sevdirmək, xalqı islam düşüncəsinin içinə gətirmək, islam dəyər-

---

[36] Cami, «Baharistan», İstanbul, 1985.
[37] «Kutadqu Biliq», I, Mətin, Ankara, 1979.
[38] Edib Ahmed bin Mahmud Yükneki, «Atabetül-Hakayık», İstanbul, 1951, s. 42-43.
[39] Ahmed Yesevi, «Divani-Hikmetten Seçmeler», Ankara, 1983, s. 33.

ləri ilə bağlı bir mədəniyyət, bir düşüncə yaratmaqdır. Əhməd Yəsəvi nətlərində sıx-sıx Quran ayələrindən də yararlanmışdır. O, nətlərində toplumun bütün təbəqələrinin anlayacağı bir üslub seçmişdir. Yəsəvi dərvişləri bu hikmətlərlə yola çıxaraq islamı türk torpağına yaymışlar. «Qul Süleyman, Azim Hace, Halis, Meşreb, Hace Hamid, Kul Şerifi, Ubeydi, Kani, Derviş Ali, Şems kibi Yesevi dervişlerinin hikmetleri də zamanla «Divani-Hikmet» nüshalarına dahil olmuştur».[40]

Bizcə, Əhməd Yəsəvinin nətləri, onların dili, üslubu, poetikası, başqa nətlərlə müqayisəsi, məzmun özəllikləri ayrıca bir araşdırma mövzusudur.

Əhməd Yəsəvinin dərvişlərindən Əzim Xacə, Xalis də ustadlarının yolunu davam etdirərək Peyğəmbəri (s.a.s.) və onun soyundan gələnləri mədh etmişdir. Türk ədəbiyyatında nətin inkişafında yeri olan Heydər Tilbənin, Mövlana Lütfünün, Seyid Əhməd Mirzənin, Gədainin, Hafizi-Xarəzminin, Sultan Hüseyn Mirzə Baykaranın adlarını çəkə bilərik.

Türk ədəbiyyatında Əlişir Nəvainin nətləri seçilir. O, «Xəmsə»sində olan məsnəvilərin hamısında nətə yer vermişdir. Təkcə şairin «Heyrətül-Əbrar» əsərində beş nəti var. Nəvai «Münacat», «Vəqfiyyə», «Nəzmül-Cəvahir», «Mühakəmətül-Luğateyn», «Məhbubi-Qulub» adlı nəsr əsərlərində də Peyğəmbəri (s.a.s.) səmimi sözlərlə öymüşdür. Sonrakı dönəmlərdə Cığatay ədəbiyyatında Seybani, Ubeydullah xan, Məhəmməd Saleh, Babur şah, Kamran Mirzə gözəl nətlər yazmışlar.

Türk xalq ədəbiyyatında da nətlərə ayrıca yer verilmişdir. «Daneşməndnamə»də, «Kitabi-Dədə Qorqud» dastanlarında Peyğəmbər (s.a.s.) sevgisi dərindən duyulur. Şifahi ədəbiyyatın demək olar ki, bütün janrlarında Peyğəmbər (s.a.s.) mədh edilmişdir.

---

[40] Ahmed Yesevi, «Divani-Hikmetten Seçmeler», Ankara, 1983, s.5.

**Manilərdə deyilir:**
Bir tanedir,
Bir sümbül bir tanedir,
Peygamberler içinde,
Muhammed bir tanedir.[41]
Hey hurundan hurundan,
At su içer kurundan,
Yedi yerden ay doğmuş,
Muhammedin nurundan. [42]
**Tapmaca:**
Erenler, erenler,
Dünyaya gelenler,
Dünyaya gelmeden,
Ezan sesi duyanlar.[43]
**Uşaq duası:**
Yattım Allah, kalkarım inşallah,
Kalksam da, kalkmasam da,
La ilahe illallah,
Şefaet, ya Resulullah. [44]

Türk aşıq ədəbiyyatında da nət geniş yayılmışdır. Bu aşıqlardan **Qaracaoğlan** bir dördlüyündə Peyğəmbərin (s.a.s.) «Allahın dostu» olduğunu bildirmişdir:

Evvel Allah, axır Allah,
Andan ulu gelmemişdir,
Hak Muhammedden sevgili,
Hakkın kulu gelmemişdir.[45]
**Aşıq Ömər:**

---

[41] Sami Akalın, «Türk manileri», İstanbul, 1932, c. II, s. 450.
[42] Sami Akalın, göstərilən qaynaq, s. 411.
[43] Amil Çelebioğlu, Yusuf Ziya Öksüz, «Türk Bilmeceler Hazinesi», İstanbul, 1979, s.49.
[44] Amil Çelebioğlu, «Kültürümüzde yatak duaları», Ankara, 1987, s. 99.
[45] Ahmed Yüzendağ, «Karacaoğlanda Allah sevgisi ve İslami motifler», Milli Kültür, c. I, s. 7.

Ey Habibi ehli-isyanın Şefiyi-Mustafa,
Hürmetinle on sekiz bin alem oldu pür ziya,
Sirri-esrari-hakayık gencinin gencurusun,
Hemdemin, hemmeşrebindir çar-yarı-basafa.[46]

**Gövhəri:**

Geşt ittim bir zaman cenneti haylı,
Ta «elest» bezminde eyledim meyli,
Cemali «Ved-Duha» saçı «Vel-Leyli»,
Nuri-kibriyaya uğradım geldim.[47]

**Kuloğlu:**

Gözüm nuru fahri-cihan,
Yetiş, ya Muhammed, yetiş,
Aleme gün gibi doğan,
Yetiş, ya Muhammed, yetiş.[48]

**Dərdli:**

Dertli çok hikmetden irşad olmadı,
Sensiz mahşer yiri güşad olmadı,
Çok nebiye vardım imdad olmadı,
Şefaet kanısın, Mustafa didim.[49]

**Seyrani:**

Ey mürüvvet kanı şahi-risalet,
Bilmişim olduğun mahbubu Mövla,
Dilim ikrar eder kalbim şehadet,
Mefhar-i alemsin kadrin mualla.[50]

**Aşık Şenlik:**

Ol Həbibi-Fahr-i-Alem Mustafanın aşkına,
Buyurdu «levlake levlak» lütf ilə ihsanımız,
Yüz dört suhuf kelimatta külli nefsin mövti var

---

[46] Sadettin Nüzhet Ergun, «Aşık Ömer, hayatı ve şiirleri», s. 129.
[47] Şükrü Elçin, «Gevheri divanı», Ankara, 1984, s. 194.
[48] Sadettin Nüzhet Ergun, «Kuloğlu», İstanbul, 1933, s. 43-44.
[49] «Aşık Derdli, Hayatı, Divanı», Bolu, 1928, s. 36-37.
[50] Hasan Ali Kasır, «Develili Seyrani, Hayatı, sanatı,şiirleri», İstanbul, 1984, s. 36.

Otuz cüz ayetin kalbi Yasini-Kuranımız.[51]

Türk aşıq ədəbiyyatında Peyğəmbərlə (s.a.s.) bağlı yazan aşıqların və şeirlərin sayı olduqca çoxdur. Biz yalnız onlardan bir qisminin adlarını sadaladıq.

**Peyğəmbər (s.a.s.) sevgisi türk təsəvvüf ədəbiyyatında da başlıca yer tutur.** Təsəvvüf ədəbiyyatında Peyğəmbərlə (s.a.s.) bağlı yazılmış şeirlərin bir neçə özəlliyi var: bu şeirlərdə peyğəmbər sevgisi, peyğəmbər obrazı, peyğəmbər əxlaqı ana mövzulardan biridir, bu mövzu təsəvvüf təliminin ayrılmaz tərkib hissəsidir, təsəvvüf şeirlərinin dili çox sadədir, təsəvvüf şairlərinin məqsədi islami dəyərləri, Peyğəmbər əxlaqını yaymaqdır, bu şeirlərin üslubunda nəsihət ruhu hakimdir, onların təlim, təbliğ yönü çox güclüdür.

Təsəvvüf şairləri içərisində Yunus Əmrə Peyğəmbərlə (s.a.s.) bağlı yazılmış şeirləri ilə seçilir. O, bir Peyğəmbər aşiqidir. Yunis Əmrə demək olar ki, Peyğəmbərlə (s.a.s.) bağlı bütün məsələləri şeirlə, incə bir üslubla anlatmışdır:

***Arayı-arayı bulsam izini,***
***İzinin tozuna sürsəm yüzümü,***
***Mövlam nasip etse, görsem yüzünü,***
***Ya Muhammed, canım arzular seni.***
***Bir mubarek sefer olsa da gitsem,***
***Kabe yollarında kumlara batsam,***
***Mah cemalın bir kez düşte seyretsem,***
***Ya Muhammed, canım arzular seni.***
***… Yunus meth eyledi seni dillerde,***
***Sevilirsin bütün bu gönüllerde,***
***Arayı-arayı qurbet illerde,***
***Ya Muhammed, canım arzular seni.***[52]

[51] Ensar Aslan, «Çıldırlı Aşık Şenlik», Ankara, s. 92-93.
[52] Yunus Emre, «Divan», İstanbul, 1972, s.153.

XV yüzillikdə Hacı Bayram Vəli, Qayğısız Abdal, Ağ Şəmsəddin, Şeyx Muhyiddin, Eşrefoğlu Rumi, Kamali Ümmi, Aşıq Yunus nətin gözəl nümunələrini yaradırlar. Aşıq Yunus bir ilahisində deyir:

***Canım kurban olsun Senin yoluna,***
***Adı güzel, kendi güzel Muhammed,***
***Şefaet eylesen kemter kuluna,***
***Adı güzel, kendi güzel Muhammed.*** [53]

Türk təsəvvüf ədəbiyyatının Dədə Ömər Rövşəni, Haləti-Gülşəni, Üftadə, Ərşi, Qul Himmət, Seyid Seyfullah Nizamoğlu, Şəmsəddin Sivasi, Muhyi, Əziz Mahmud Xüdayı, Abdullah Nuri, Nəqşi, Sunullah Qeybi, Zakirzadə Abdullah Biçarə, Əbdülhay, Himmətzadə Abdullah, Həsən Kənzi, Şeyx Həsən Vuslat, Dərviş Əhməd, Niyazi Misri, İsa Məhvi, Mehdi, Əzbi, Əhməd Mürşidi, Zəkayi, Bursalı Kayğılı, Gəribi, Ləli, Şeyx Zati, Nasihi, Sezayi-Gülşəni, İsmayıl Haqqı Bursevi, Ərzurumlu İbrahim Haqqı, XIX yüzillikdə Hafiz Sədi, Əbdülqadir Qulami, Hafiz Ülvi, Hafiz Məhəmməd Səbatəddin, Muştaq Baba, Quddisi, Ərzurumlu Kətançızadə Mehmed Rüşdi Əfəndi kimi şairləri sevgi dolu nətlər yazmışlar.

XX yüzildə Şeyx Əli Fəqri, Şeyx Əsad Əfəndi, Kazım Baba və bir sıra başqa şairlər nət yazmaq ənənəsini davam etdirmişlər.

**Türk divan ədəbiyyatında da gözəl nət nümunələri var.** «… gerek halk, gerek divan, bütünüyle Türk edebiyyatı tövhid, münacat, nat, esmai-hüsna, Kurani-Kerim tercüme ve tefsirleri, mevlid, miraciye, ahvali-kiyamet, akaid, fikih, menasikül-hac, Kabename gibi konularda üç-beş beytten binlerce

[53] Yunus Emre, «Divan», İstanbul, 1972, s.172.

beyte kadar aruzla ve ya heceyle yazılmış, manzum dini eserler yönünden son derece zengindir»[54].

Türk divan ədəbiyyatında Şeyx Qalib, Sünbülzadə Vəhbi, Əhməd Paşa, Nəcati, Nəbi, Rizayı, Cəzmi, İsməti, Şərəf xanım nətin ölməz nümunələrini yaratmışlar.

**Şeyx Qalib:**
***Senin medhinde şirket eylesem Mevlaya mazurum,***
***Bu babda cürmü isyana bakılmaz, ya Resulullah.***[55]

(Sənin tərifində həddi aşsam, Allah qarşısında cavabdehəm, Bu məsələdə günah və üsyana baxılmaz, ey Rəsulullah)

Türk ədəbiyyatı tarixində bir sıra nət məcmuələri də var. Bu məcmuələrdə Peyğəmbərlə (s.a.s.) bağlı yazılmış şeirlər bir araya gətirilmişdir. Türk alimi Emine Yeniterzi araşdırmasında yeddi belə nət məcmuəsinin adını çəkmişdir: «Nuuti-Nebeviyye mecmuası», «Nuuti-Nebeviyye Mecmuası», «Nuuti-Nebeviyye mecmuası», «Miraciye ve Nati-Şerifler Mecmuası», «Nuuti-Nebeviyye Mecmuası», «Mecmuai-Kasaid və Nuut», «Mecmua-i-Əşar».[56]

Türk divan ədəbiyyatında Şeyx Qalibin nəti Füzulinin «Su» qəsidəsindən sonra ən məşhur nətlər sırasında yer tutur:

***Sultani-Rüsül şahi-mümecceddsin efendim,***
***Biçarelere devleti-sermedsin efendim.***
***Divani-İlahide seramedsin efendim,***
***Menşuri-«le-amruk» le müeyyedsin efendim.***
***Sen Ahmedü Mahmudu Muhammedsin efendim,***
***Hakdan bize sultani-müeyyedsin efendim.***[57]

---

[54] Emine Yeniterzi, «Divan Şiirinde Nat», Ankara, 1993, s. 38.
[55] «Divani-Galib Esad», Mevlana Müzesi Kitab, N 24.
[56] Emine Yeniterzi, «Divan Şiirinde Nat», Ankara, 1993, s. 53-54.
[57]Ekrem Karadeniz, «Türk musikisinin nazariye ve esasları», Ankara, 1982.

(Sən peyğəmbərlərin sultanı, şanı böyük olan şahsan, Kimsəsizlərə arxa, ilahi divanda başçısan, öndərsən. Sən Allahın «le amrük» («şübhəsiz sən qalib olacaqsan») buyruğu ilə gücləndirilmisən. Sən Əhməd, Mahmud, Məhəmmədsən. Sən Haqdan bizə göndərilmiş güclü sultansan).

**Türk xətt və musiqi sənətində də nət geniş yayılmışdır.** Alimlər dini musiqini cami musiqisi, təkkə musiqisi və bu ikisi arasında yer tutan, hər ikisinin özəlliklərini daşıyan musiqiyə ayırmışlar.[58] Bu musiqi növlərinin şəkilləri sırasında «Sala» (Peyğəmbərə səlat və salam gətirmək), «Salati-Ümmiye» (dini törənlərdə oxunur), «Nət», «İlahi» və başqalarını göstərə bilərik.

**Nətlərin ayrıca şəkillərindən biri də gözəl xətlə lövhələrə yazılmış olanlardır.** Türk mədəniyyətində Peyğəmbərə (s.a.s.) öygülər yazılmış saysız-hesabsız belə lövhə var.

## NƏTİN QURULUŞU

Qısa olsa da, nətlərin quruluşu ilə bağlı bilgi vermək istəyirik. Nətlər ən çox bu başlıqlar altında yazılmışdır: «Nəti-şərif», «Mədhi-Rəsul», «Mədhün-Nəbi», «Nətün-Nəbi», «Nətür-Rəsul», «Nəti-Peyğəmbəri». Bir sıra başlıqlarda Peyğəmbərlə (s.a.s.) bağlı olan sifətlər də göstərilmişdir: «Dər Nəti-Seyyidül-Mürsəlin və Xatəmin-Nəbiyyin Məhəmməd Mustafa», «Dər nəti-Seyyidi-kainat əleyhi əfdalüs-salavat», «Ol fəsihül-məqal və məlihül-cəmal və kərimül-hisal və ədimül-misal şahi-risalət pənah olan həbibullahın nəti munir və midhəti-binəzirləridür».

Belə başlıqlarda Peyğəmbər (s.a.s.) «əfdali-məxluqat», «əsadi-mövcudat»,«fəxrül-mürsəlin»,«məfxari-mövcudat», həz-

---

[58] Nuri Özcan, «On sekkizinci asırda Osmanlılarda dini musiki», İstanbul, 1982, c. I, s. 16-17.

rəti-cənabi-risaləti-pənah», «seyyidi-kainat», «seyyidül-mürsəlin», «sultani-ənbiya», «sənədül-əsfiya», «həbibi-xuda», «nəbiyyi-əkrəm», «məhbubi-rəbbi-aləm», «cənabi-şahi-mülki-bəqa», «şafiyi-ruzi-qiyamət» və bu xarakterli adlarla yad edilmiş, onun adı çəkilən yerdə salavat söylənilmişdir.

Bilindiyi kimi, nətlər daha çox qəsidə şəklində yazılır. Ancaq qəzəl, məsnəvi, tərkibbənd, mürəbbe, müxəmməs, müsəddəs, qitə, rübai, tuyuq, müstəzad və başqa şeir şəkillərində də nətlər yazılmışdır. Nətlərdə əruz vəzninin həzəc, rəməl, müctəs, xəfif, səri ölçülərindən istifadə olunmuşdur. Nətlər daha çox lirik ruhdadır, dili elə də çətin deyil. Nətlər müraciət üslubunda yazılır. Nətlərdə Quran ayələrindən, hədislərdən, Peyğəmbərin (s.a.s.) ad və sifətlərindən, Quran və hədislərdə keçən adlarından, ancaq Peyğəmbər (s.a.s.) üçün olan ifadələrdən, Peyğəmbərin (s.a.s.) bədən özəlliklərindən, əxlaq ölçülərindən, möcüzələrindən və başqa bir sıra Peyğəmbərlə (s.a.s.) bağlı məsələ və anlayışlardan istifadə olunmuşdur.

Nət ümummüsəlman mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Nət yazmaq sənətkardan istedad, dini məsələlərdə dərin bilik, Peyğəmbər (s.a.s.) sevgisi tələb edir.

Biz bu əsərdə Azərbaycan ədəbiyyatında nətlə bağlı bölmə ayırmadıq. Bilindiyi kimi, Azərbaycan folkloru, aşıq ədəbiyyatı, ayrıca olaraq divan ədəbiyyatı nətlərlə zəngindir. Bu məsələni ayrıca araşdırmağı düşündüyümüzdən nətlə bağlı ümumi bilgini burada yekunlaşdırırıq.

## HZ. NİZAMİ GƏNCƏVİNİN NƏTİNİN ŞƏRHİ

Hz.Nizami Gəncəvinin «Xəmsə»sində olan hər bir əsərində nət var. «Sirlər xəzinəsi»ndə bu nətlər «Peyğəmbərlərin axırıncısı Məhəmmədə- Allah ona rəhmət etsin və onu salamlasın!-sitayiş», «Peyğəmbərin – Allah ona rəhmət etsin və onu salamlasın! Meracı haqqında», «İkinci sitayiş»,

«Üçüncü sitayiş», «Dördüncü sitayiş», «Beşinci sitayiş» adı ilə[59], «Xosrov və Şirin»də «Peyğəmbərlərin sonuncusunun tərifində, ona salam və salavat» adı ilə[60], «Leyli və Məcnun»da «Sonuncu Peyğəmbərin-ona salavat və salam olsun-mədhində», «Allahın Peyğəmbərinin meracı haqqında. Allahın salavat və salamı ona olsun!» adı ilə[61], «Yeddi gözəl»də «Peyğəmbərə sitayiş», «Kəramətli Peyğəmbərin meracı» adı ilə[62], «İsgəndərnamə»də isə «Sonuncu Peyğəmbərin tərifi», «Peyğəmbərin meracı» adı ilə verilmişdir.[63]

Göründüyü kimi, hz. Nizami Gəncəvi nətlərini «sitayiş», «tərif», «mədh» adı ilə vermiş, Peyğəmbərin (s.a.s.) meracına ayrıca yer ayırmışdır. Bu, bir yandan nət ənənəsindən qaynaqlanırsa, başqa yöndən də merac hadisəsinin islam tarixində çox önəmli yer tutması ilə bağlıdır. Nizami Gəncəvinin nətlərinin başlıqlarında görünən bir özəllik də onun Peyğəmbərə (s.a.s.) salavat gətirməsidir. Peyğəmbərin (s.a.s.) mübarək adı çəkilərkən ona salavat deyilməsi həm Quranla təsbit olunmuş buyruqdur[64], həm də ənənədir. Müsəlmanlar Peyğəmbərin (s.a.s.) şərəfli adı çəkilərkən ona salavat deyir və gündəlik beş vaxt namazlarında bu duaları oxuyurlar:

«Allahım! Məhəmmədə və Məhəmmədin ümmətinə rəhmət et, şərəfini yüksəlt. İbrahimə və İbrahimin ümmə-

---

[59] Nizami Gəncəvi, «Sirlər Xəzinəsi», (filoloji tərcümə, izahlar, şərhlər və lüğət professor Rüstəm Əliyevindir), Bakı, 1981, s. 25-42.
[60] Nizami Gəncəvi, «Xosrov və Şirin», (filoloji tərcümə, izahlar, qeydlər professor Həmid Məmmədzadənindir), Bakı, 1981, s. 31-33.
[61] Nizami Gəncəvi, «Leyli və Məcnun», (filoloji tərcümə, izahlar, qeydlər professor Mübariz Əlizadənindir), Bakı, 1981, s. 22-28.
[62] Nizami Gəncəvi, «Yeddi gözəl», (filoloji tərcümə, izahlar, qeydlər professor Rüstəm Əliyevindir), Bakı, 1983, s. 18-24.
[63] Nizami Gəncəvi, «İsgəndərnamə», (filoloji tərcümə, izahlar, qeydlər professor Qəzənfər Əliyevindir), Bakı, 1983, s. 29-34.
[64] Quran, «Əhzab», 33/56.

tinə rəhmət etdiyin kimi. Sözsüz, öygüyə layiq yalnız Sənsən, şan və şərəf sahibi də Sənsən».

«Allahım! Məhəmmədə və Məhəmmədin ümmətinə xeyir və bərəkət ver. İbrahimə və İbrahimin ümmətinə verdiyin kimi» .

## HƏZRƏT PEYĞƏMBƏRƏ SALAVAT QURAN BUYURUĞUDUR

Qurani-Kərim Peyğəmbərə (s.a.s.) salavat deməyi buyurur:

إِن الله وملَائِكَتَه يصلون علَى النبِي يا أَيها الذين آمنُوا صلوا علَيه وسلموا تَسليماً

(Əhzab, 33/56)

«Allah və mələkləri Peyğəmbərə səlat etməkdədirlər. Ey iman edənlər! Siz də ona səlat və salam edin».

Hz. Məhəmmədə (s.a.s.) salat və salam söyləmək uca Allahın (c.c.) buyruğu olduğu kimi, bu savab əməllə bağlı hədislər də var. Abdullah ibni Amr ibni As (r.a.) rəvayət edir. «Rəsulullah (s.a.s.) belə buyurdu: «Kim mənə bir dəfə səlat və salam söyləsə, bu səbəblə uca Allah ona on misli mərhəmət edər».[65]

İbni Məsud (r.a.) rəvayət edir. «Rəsulullah (s.a.s.) belə buyurdu: «Qiyamət günündə insanların mənə ən yaxın olanları mənə ən çox səlat və salam söyləyənlərdir».[66]

Evs İbni Evs (r.a.) rəvayət edir. «Rəsulullah (s.a.s.) belə buyurdu: «Günlərinizin ən fəzilətlisi cümə günüdür. Bu səbəblə o gün mənə çox səlat və salam deyin. Sizin səlat və salamlarınız mənə çatdırılır.

---

[65] «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 250.
[66] «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 251.

Əshabi-Kiram:

– Ey Rəsulullah! Vəfat etdiyin və səndən heç bir əsər qalmadığı zaman səlat və salamlarımız sənə necə çatdırılır?

– Uca Allah peyğəmbərlərin bədənlərini çürütməyi torpağa haram etdi».[67]

Əbu Hüreyrə (r.a.) rəvayət edir. «Rəsulullah (s.a.s.) belə buyurdu: «Yanında adım anıldığı halda mənə səlat və salam söyləməyən kimsə pərişan olsun».[68]

Hz. Əli (r.a.) rəvayət edir. «Rəsullah (s.a.s.) belə buyurdu: «Xəsis, yanında adım anıldığı halda mənə səlat və salam söyləməyəndir».[69]

Bu hədislərdən də göründüyü kimi, müsəlmanların hz. Məhəmmədə (s.a.s.) səlat və salam söyləməsinin səbəbi ilk sırada qadir Allahın (c.c.) onun adını sevərək uca tutması, ona salam verməsi, sonra mələklərin Peyğəmbərə (s.a.s.) dua etmələri, bir də insanlığın onu qaranlıqdan işığa çıxarmış Peyğəmbər (s.a.s.) qarşısındakı borcudur. «Efendimize salatü selam getirirken Cenabi-Hakka şöyle dua etmiş oluyoruz: «Ya Rabbi! Resuli-Ekreminin namını, şanını hem dünya, hem de ahirette yüce kıl! Onun getirdigi İslam dinini bütün cihana yay ve bu dini dünya durdukça yaşat. Ona ahirette ümmetine şefaat etme hakkı ver ve kendisine saysız sevab ihsan eyle!».[70]

Hz. Nizami islam Peyğəmbərinə (s.a.s.) salam, səlat deyilməsi ilə bağlı uca Allahın (c.c.) buyruğuna sevərək əməl etmişdir. O, nətlərinin başlığında azadlıq Peyğəmbərinə (s.a.s.) salam söyləmişdir.

---

67 «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 203.
68 «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 205.
69 «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 210.
70 «Riyazüs Salihin», İstanbul, 2004, c. VI, s. 217.

## HƏZRƏT NİZAMİ GƏNCƏVİYƏ GÖRƏ ALLAHDAN ELM ÖYRƏNMƏYİN YOLU

Hz. Nizami Gəncəvi ona verilən nemətin-istedadın, Allahdan (c.c.) olduğuna inanmış və Allahın (c.c.) bu ən dəyər verdiyi nemətin şükrünü ancaq Allahın (c.c) razı olacağı işlər görməklə ödəməyin mümkün olacağını düşünmüşdür. Hz.Nizami, Allahın (c.c.) ona sirlər açmasının səbəblərini belə dəyərləndirib:

همی تا زو خط فرمان نیاید
به شخص هیچ پیکر جان نیاید
نه هرک ایزدپرست ایزد پرستد
چو خود را قبله سازد خود پرستد
ز خود برگشتن است ایزد پرستی
ندارد روز با شب هم نشستی

خدا از عابدان آن را گزیند
که در راه خدا خود را نبیند
نظامی جام وصل آنگه کنی نوش
که بر یادش کنی خود را فراموش

***«... Ancaq ondan (yəni Allahdan (c.c.) fərman xətti gəlməyincə,***
***Heç bir vücuda can gəlməz.***
***Hər bir Allaha pərəstiş edən Allahı sevən deyil,***
***Özünü qiblə etdiyi üçün xudpərəstdir.***
***Allahpərəstlik özündən üz döndərməkdir,***
***Gündüzlə gecənin ülfəti olmaz.***
***Allah ibadət edənlərdən o adamı sevir ki,***
***Allah yolunda özünü unutsun.***
***Nizami, vüsal şərabını o gecə içərsən ki,***
***Onun (yəni Allahın (c.c.) yadı ilə özünü unutmuş olarsan».***[71]

[71] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 27.

Hz.Nizami bu misraları «Xosrov və Şirin» əsərində «Sübuta yetirmək və tanımağa nail olmaq haqqında söz» başlığı ilə verib. O, bu bölmədə Allahı (c.c.) tanımağın, Allahdan (c.c.) elm öyrənməyin yolunu və ölçülərini göstərib. Hz. Nizamiyə görə, bu yollar və ölçülər aşağıdakılardır:

**- könlünü təmizləmək («bütxanəni bütdən təmizlə»)** [72]

**- bütləri tapdalamaq («bütə ayaq bassan, tapdalasan, nicat taparsan»)**[73]

**- ilahi xəzinəni tapmaq üçün çox çalışmaq («bağlı tilsimi zəhmətlə tapa bilərsən»)**[74]

**- nəfsi öldürmək («nəfsin gözlərini bir-bir kor elə»)**[75]

**- sirr təsadüflə açılmaz («fələyin naxşına aldanma, o, xəyaldır»)**[76]

**- hər şeyin sahibinin və onları yaradıb hərəkət etdirənin Allah (c.c.) olduğunu bilmək və buna tam inanmaq («dolananı bir dolandıran var»)**[77]

**- hər şeyi Allahdan (c.c.) bilmək, hər şeyi Allahla (c.c.) bilmək, hər şeyi Allah üçün bilmək. («Onunla axtarsan, şəvədən nur taparsan, Ondan istəməsən, Aydan nur tapa bilməzsən»)**[78]

**- Allaha (c.c.) gedən yolda Peyğəmbəri (s.a.s.) özünə öndər seçmək, ona uymaq, («Dərdli beynimə dərman et, Onun dərmanını Mustafanın ayağının torpağından et»)**[79]

Hz.Nizami Gəncəvinin Allahı (c.c.) tanımaq, Allahın (c.c.) elmini öyrənmək yolları və ölçülərinin ilahi qay-

---

[72] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[73] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[74] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[75] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[76] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 31.
[77] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[78] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.
[79] Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 28.

naqları var. Bu qaynaqlar Quran və hədislərdir. Bu düşüncəmizi əsaslandırmaq üçün yuxarıda verdiyimiz şeir parçasını şərh edək.

(«Ancaq Ondan (Allahdan (c.c.)fərman xətti gəlməyincə, Heç bir vücuda can gəlməz»)

Nizami Gəncəvi bu şeir parçasının birinci beytində Allahın (c.c.) qadir sifətinə (qüdrət sahibi, hər şeyə gücü yetən, kimsəyə möhtac olmadan istədiyini yaradan) və Malikül-mülk sifətinə (mülkün sahibi) işarə etmişdir. Yaradan Allah (c.c.) Quranda öz Qadir sifətini belə təqdim edir:

أَوَلَيس الذي خَلَقَ السماوات والْأرض بِقَادِرٍ علَى أَن يخْلُقَ مثْلَهم بلَى وهو الْخَلَاقُ الْعليم . إِنما أَمره إِذَا أَراد شَيئاً أَن يقُولَ لَه كُن فَيكُون

(Yasin, 36/81-82)

«Göyləri və yeri yaradan Allah onların bənzərini yaratmağa qadir olmazmı? Əlbəttə, olur. O, hər şeyi haqqıyla bilən yaradıcıdır. Bir şeyin olmasını istədiyi zaman Onun işi ona «ol» deməkdən ibarətdir. O da o an olar».

**Hz. Nizami birinci beytdə «hər bir vücuda can gəlməsi üçün Allahın (c.c.) fərmanı olmalıdır» - deyir. Şair bundan sonra uca Allaha (c.c.) yalandan, inanmadan ibadət edənlərlə, doğrudan iman edənləri bir-birindən ayırır. İnsan hər şeyi özündən bilirsə, «özünü qiblə edirsə», hər şeyə çıxarları ölçüsündən baxırsa, o, özünü aldadır, onunla Allah (c.c.) arasında qalın pərdələr var. Hz. Nizami gerçək ibadətin ölçüsü olaraq bunu göstərir: «Allahpərəstlik özündən üz döndərməkdir», «Allah (c.c.) yolunda özünü unutmaqdır». Burada «özündən üz döndərmək» nəfsin istəklərindən qurtulub, Allaha (c.c.) yönəlmək, yalnız Allaha (c.c.) itaət etmək anlamındadır. Bir sözlə, hz. Nizaminin «özündən üz döndərmək» ölçüsü Allaha (c.c.)**

**təslimiyyət, duyğu və düşüncələri Allah (c.c.) yolunda səfərbər etmək deməkdir. Uca Allah (c.c.) bu ölçünü Qurani-Kərimdə sıx-sıx təkrarlayır:**

ذَلِكَ الْكِتَاب لا ريب فيه هدى لِلْمتقين .الذين يؤْمنُون بِالْغَيبِ ويقيمون الصلاةَ

ومما رزقْنَاهم ينفقُون .والذين يؤْمنُون بما أُنزِلَ إِلَيكَ وما أُنزِلَ من قَبلك

وبِالآخرة هم يوقنُون . أُولَـئِكَ علَى هدى من ربهم وأُولَـئِكَ هم الْمفْلحون

(Bəqərə, 2/1-5)

«Bu kitab, şübhə olmayan bir kitabdır. Allahdan çəkinənlər (təqva sahibləri) üçün bir rəhbərdir. Təqva sahibləri qeybə inanır, namazlarını dosdoğru qılır («özündən üz döndərmək», «Allah yolunda özünü unutmaq»), bizim onlara verdiyimiz ruzidən başqalarına da verir, sənə endirilən (kitaba), həm də səndən öncələrə (Peyğəmbərlərə) endirilənlərə (kitablara) inanırlar, heç şübhə etmədən axirətə də inanırlar. Bunlar Rəbblərindən gələn hidayət üzərindədirlər. Qurtulanlar da bunlardır».

Yuxarıda göstərilən parçada verilən ibadət anlayışı hz. Nizamiyə görə çox genişdir. Hz. Nizamiyə görə, bu anlayışa Allahın (c.c.) razı olduğu bütün işlər daxildir. **Hz. Nizami nəfsin istəkləri ilə Allah (c.c) sevgisinin bir arada yaşamasının mümkünsüzlüyünü bildirir. O, bu mümkünsüzlüyü bədii bir biçimdə «gündüzlə gecənin ülfəti olmaz» deyərək ifadə edir. Bu misrada «gündüz» Allah (c.c.) sevgisini, «gecə» isə nəfsin istəklərini təmsil edir. Hz. Nizami iki zidd anlayışın bir arada yaşamayacağını son dərəcə uğurlu bədii yolla çatdırmışdır.**

**Hz. Nizami Gəncəvi istedadlı, ağıllı, imanlı bir sənətkar olaraq yaradan Allahdan (c.c.) elm almağın ölçü və yollarını göstərərək bunun ancaq Allaha təslimiyyətlə**

**mümkünlüyünü və başqa bir yol olmadığını bədii sözün imkanları ilə inandırıcı bir biçimdə gözəl ifadə etmişdir.**

**O, yuxarıdakı şeir parçasında zidd mənalı anlayışlarla inandığı ideyanı, ölçünü açıqlamışdır: «vücud» (torpaqdan olan bədən), «can» -ruh (Allahdan olan – anlamını ancaq Allahın bildiyi nəsnə) - bunlardan biri çürüyən, torpağa qarışan, o birisi əbədi, ölməyəndir, «özünü qiblə etmək», «özündən üz döndərmək», birincisi həsəd, paxıllıq doğurur, ikincisi Allah (c.c.) və insan sevgisi yaradır, «gecə», «gündüz» - biri ölümdür, o biri həyat, «Allahı yad etmək-anmaq», «özünü unutmaq» bu isə əbədi hüzur halıdır, aralıqsız uca Allahın (c.c.) hüzurunda olmaqdır, bütün işlərində yaradan Allahın (c.c) razı olduğu ölçüləri əsas götürməkdir, kəsintisiz zikr halıdır, davamlı elmdir.**

Bundan sonra hz.Nizami Gəncəvi Allahın (c.c.) sevdiyi insanların göstəricilərini, ölçülərini verir: «Allah ibadət edən (birinci ölçü) o adamı sevir ki, Allah (c.c.) yolunda özünü unutsun (ikinci ölçü)».

Bu ölçünü şərh edək. Biz yuxarıda ibadətin İslamda geniş bir anlam daşıdığını demişdik. Allahın (c.c.) ibadətdə – bütün işlərdə istədiyi şey ixlasdır-xalis olaraq Allahın (c.c.) razılığını qazanmaq niyyətidir. Görülən işə başqa bir niyyət qarışmamalıdır. **Hz. Nizami Gəncəvi «özünü unutmaq» deyəndə bütün şəxsi çıxarlardan sıyrılaraq bir könül təmizliyi ilə Allaha (c.c.) yönəlməyi nəzərdə tutur. Bu isə Allaha (c.c.) aşiq olmaqla ola bilər. Allaha (c.c.) aşiqlik varsa, təslimiyyət də var. Təslimiyyət varsa, Allahın (c.c.) elmini öyrənməyin, bilməyin, bir sözlə Allahı (c.c.) tanımağın yolunu kəsən pərdələrin qalxmaması, bəsirət gözünün açılmaması üçün bir səbəb qalmır.**

Yuxarıda verdiyimiz şeir parçasının sonunda hz. Nizami özünə (Allahı (c.c.) tanımaq, bilmək istəyənlərin hamısına) üz tutur. O, «vüsal şərabı» içməkdən danışır. Bu

məcazi ifadənin həm dini, həm də ədəbi yükü var. İslam ədəbiyyatında «vüsal» qovuşmaq anlamındadır, «şərab» isə Allah (c.c.) sevgisi yolunda aşiqi özündən keçirən içkidir. O içildikcə sevgini, susuzluğu daha da artırır, bir yanğıya çevrilir, aşiq «özünü unudur», sevgilisi ilə baş-başa, üz-üzə qalaraq ilahi bir həzz duyğusu içində rahatlıq tapır. Yəni «qovuşmağın» yolu «şərabı» içməkdir. Biz burada «şərab» sözünü təsəvvüfi anlamdan fərqli bir biçimdə «elm» mənasında da təfsir edə bilərik. Bu anlamda Allaha (c.c.) qovuşmağın yolu onu tanıdacaq elmi öyrənməkdir.

Uca Allah (c.c.) Qurani-Kərimdə insanı yaratmaqda məqsədin insanın Allaha (c.c.) ibadət etməsi olduğunu buyurmuşdur.[80] Alimlər buradakı «ibadət» sözünü «tanımaq» kimi təfsir etmişlər. Bir şeyi tanımaq da elmlə ola bilər. Uca Allah (c.c) başqa bir ayədə ondan ən çox qorxanların alimlər olduğunu buyurmuşdur.[81] Başqa ayələrə baxaq:

يا أيها الذين آمنُوا إِذَا قيلَ لَكُم تَفَسحوا في الْمجالِسِ فَافْسحوا يفْسحِ الله لَكُم وإِذَا قيلَ انشُزوا فَانشُزوا يرفَعِ الله الذين آمنُوا منكُم والذين أُوتُوا الْعلْم درجات والله بِما تَعملُون خَبِير

(Mücadələ, 58/11)

«Ey iman gətirənlər! Sizə: «Məclislərdə (mömin qardaşlarınıza) yer verin!,-deyildiyi zaman (onlara) yer verin ki, Allah da sizə (cənnətdə) geniş yer versin. Eləcə də sizə: «Qalxın!»,-deyildikdə qalxın ki, Allah da sizdən iman gətirənlərin və (xüsusi ilə) elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah etdiyiniz əməllərdən xəbərdardır!»

---

[80] «Zariyat», 51/56.
[81] «Fatır», 35/28.

يقُولُون لَئِن رجعنَا إِلى الْمدينَة لَيخْرِجن الْأعز منْها الْأذَل ولله الْعزةُ

ولرسوله وللْمؤْمنين ولكن الْمنَافقين لَا يعلَمون

(Münafiqin, 63/8)

«Onlar: «Əgər biz Mədinəyə qayıtsaq, ən güclülər ən zəifləri, əlbəttə, oradan çıxaracaqlar!», – deyirlər. Halbuki, şərəf-şan yalnız Allaha, onun Peyğəmbərinə və möminlərə məxsusdur, ancaq münafiqlər bilməzlər!».

ولا تَنكحوا الْمشْركَات حتى يؤْمن ولأمةٌ مؤْمنَةٌ خَير من مشْركَة

ولَو أَعجبتْكُم ولا تُنكحوا الْمشركين حتى يؤْمنُوا ولَعبد مؤْمن خَير

من مشْرِك ولَو أَعجبكُم أُولَـئك يدعون إِلَى النارِ واللّه يدعو إِلَى

الْجنة والْمغْفرة بِإِذْنه ويبين آياته للناسِ لَعلهم يتَذَكرون

(Bəqərə, 2/221)

«Allaha şərik qərar verən (Onu inkar edən) qadınlar imana gəlməyincə onlarla evlənməyin! Əlbəttə, Allaha iman gətirmiş bir cariyə gözəlliyinə heyran olduğunuz bir müşrik qadından daha yaxşıdır. Həmçinin müşrik kişilər Allaha iman gətirməyənə qədər mömin qadınları (onlara) ərə verməyin! Əlbəttə, Allaha iman gətirən bir kölə xoşunuza gəlməsə belə, müşrik bir kişidən daha xeyirlidir. Onlar sizi cəhənnəmə çağırdıqları halda, Allah sizi Öz izni ilə cənnətə, bağışlanmağa çağırır və yaxşı düşünüb ibrət almaları üçün insanlara hökmlərini aydınlaşdırır».

Bizim burada «elm», «ibadət», «iman» qavramlarına açıqlıq gətirən ayələri seçməyimizin əsasları var. Bu anlayışların arasında sıx bir bağlılığın olması aydın gerçəklikdir. **İnsanı Allaha (c.c.) yönəldəcək elm, bu faydalı elmin nəticəsi olaraq uca Allahı (c.c.) tanımaq, bilmək, sevmək,**

**təslim olmaq və bunların sonucu da sarsılmaz bir iman. Deməli, elmsiz tanıma, tanımasız iman yoxdur.** Bu anlamda hz. Nizaminin yorumunda «şərbət»in imana aparan elm olduğu qəbul oluna bilər. Başqa yöndən hz. Nizami bütün yaradıcılığı boyu elmə yüksək dəyər vermişdir:

«… Bu əyri cizgilər cədvəlində sən,
Özünü şərh edib, özünü öyrən!
Ol öz vicdanının sirrinə açar,
Çünki bu mərifət qəlbə nur saçar.
Elmlər elmidir demiş Peyğəmbər,
Din elmi, təbabət elmi müxtəsər.
Hərçənd sənətin çox rütbəsi var,
Həyata faydalı bir elm axtar».[82]

Doğrudur, hz. Nizami Gəncəvinin təsəvvüf düşüncəsini, təsəvvüf mədəniyyətini dərindən bildiyi, onun məzmunundan, forma özəlliklərindən sıx-sıx yararlandığı aydın görünür, ancaq o, təsəvvüf şairi deyil.

**Hz. Nizami Gəncəvi «vüsal şərbətini» «içmək» feli ilə vermişdir. Biz «şərbət» sözünü «elm» kimi yozsaq, bu yükdə anlasaq, bir məna uyğunsuzluğu yaranmırmı? Bizcə, yox. Ona görə ki, hz. Nizami burada çətinliklərlə öyrənilən elmi nəzərdə tutduğu kimi, daha çox mücadilə, sıxıntılara dözmək, nəfsi məğlub etmək yolu ilə aramsız olaraq Allahın (c.c.) hüzurunda dayanmaq səadətini əldə etmiş insanın könlünə axan, onun könlündə doğulan, göylərdən süzülərək duyğu və düşüncələrinə hopan elmi nəzərdə tutur. Artıq hüzura qovuşmuş, pərdələri götürülmüş möminin (Nizaminin) qəlbinə elm nuru axmaqdadır. O, «elm içməkdən» sərxoşdur və bu səadəti heç nəyə dəyişmək istəmir.**

---

[82] Nizami Gəncəvi, «Leyli və Məcnun», Bakı, 1981, s. 52.

Bu beytdə diqqəti çəkən sözlərdən biri də «gecə» sözüdür. Bilindiyi kimi, Allah (c.c.) aşiqləri üçün gecənin ayrıca yeri var. Onlara görə gecə ibadət, göz yaşları içində yalvarış, içdən gələn dua, elm öyrənmək vaxtıdır. Gecə oyaq qalmaq aşiqin vəfa borcudur. Gecə bir də «vüsal şərabı»nın içildiyi, elm nurunun axdığı toxunulmaz bir zaman kəsiyidir. Hz. Nizami də bu sözü təsadüfən seçməyib. Beytdə «o gecə» «vüsal şərabı» içməyin şərti kimi dəyərləndirilib («Nizami, vüsal şərabını o gecə içərsən ki»), yəni «vüsal şərabını» içmək o şərtlə olar ki, «Onun (yəni Allahın (c.c.) yadı (yad edilməsi) ilə özünü unutmuş olarsan». Deməli, hz. Nizami Gəncəvinin təqdimində «o gecə» ibadət edilən, Allahla (c.c.) baş-başa qalınan, hər şeydə və hər an Allahın (c.c) düşünüldüyü, Allah (c.c) sevgisi ilə, yalvarışla göz yaşlarının sel kimi axdığı, pərdələrin açıldığı, ilahi nemətin – elmin, imanın qəlbə yerləşdiyi gecədir.

## HƏZRƏT NİZAMİ: «HZ. MƏHƏMMƏD (s.a.s) MERAC GECƏSİ TÜRK KİMİ AT ÇAPDI»

***Onun meraca çıxıb türk kimi at çapdığı gecə,***
***Mələklər göylərdə bəzənmiş idi.***

## MERACNAMƏLƏRİN TARİXİ VƏ İDEYASI

İslam Peyğəmbərinin meracı elə böyük bir hadisə və dəyərdir ki, bu hadisə islam mədəniyyətinin bütün sahələrində özünə yer tutmuşdur. Ədəbiyyatda, musiqidə, miniatürdə, xətt sənətində merac hadisəsi başlıca mövzulardan birinə çevrilmiş, bu mövzuda gözəl əsərlər yazılmışdır. Bu mövzu ilə bağlı yazılmış əsərlər türk və fars ədəbiyyatında «meraciyyə», «meracnamə» adı ilə tanınmış, türk və fars ədəbiyyatı bu mövzuya geniş yer ayırmış, miniatür, xətt, kitab sənətində merac ayrı-ayrı yönlərdən təqdim olunmuşdur. Osmanlı türk-islam mədəniyyətinin musiqi qolu da bu mövzuya ayrıca yer vermiş və gözəl mövlud nümunələri ortaya çıxmışdır.

Bu mövzu ərəb ədəbiyyatında geniş yayılmamışdır. Kab bin Züheyrin «Qəsidətül-bürdə» əsərində islam Peyğəmbərinin meracına on bir beyt həsr edilmişdir. Ərəb islam mədəniyyətində islam Peyğəmbərinin meracı daha çox elmi-dini baxımdan təqdim edilmişdir.[83]

Fars ədəbiyyatında isə bu mövzu daha çox Molla Cami və Hüseyn Vaiz Kaşifinin əsərlərində özünə yer tutur. Müəllifi bilinməyən və tutumu 671 beyt olan bir meracnamə də fars ədəbiyyatı nümunəsi kimi çap olunmuşdur.[84]

---

[83] Akar, «Türk edebiyatında manzum miracnameler», s. 91-93.
[84] Akar, «Türk edebiyatında manzum miracnameler», s. 91-93.

Türk ədəbiyyatında islam Peyğəmbərinin meracına geniş yer verilmişdir. Çoxsaylı müstəqil əsərlər yazılmış, siyər, Peyğəmbərin mövludu ilə bağlı yazılmış əsərlər və hz. Məhəmmədin (s.a.s) möcüzələrinə aid yazılmış əsərlərin bir bölümü, «Məhəmmədiyyə» və «Qəribnamə» kimi kitabların ayrıca bir fəsli bu mövzu ilə bağlıdır. «Ayrıca divanlarla dindışı mesnevilerde bu konuda şiirlere yer verilmesi bir gelenek halini almış, zamanla kasidelerin miraciyye, mesnevilerin ise miracname adıyla anıldığı zengin bir edebi tür oluşmuştur. Konunun genellikle dini kaynaklara dayanarak didaktik bir şekilde ele alındığı eserlerde müellifin sanatkar yönünün ikinci planda kaldığı, tasavvufi açıdan işlenen mesnevi ve kasidelerde ise daha lirik ve sanatkarane bir üslubun ön plana çıktığı, şairlerin hayal dünyalarının zenginliğine göre olaya şahsı yorumlar getirdiği görülmektedir».[85]

Meracnamələr əruz vəzninin ən çox «failatün, failatün, failün» və «məfailün, məfailün, failün» bəhrlərində yazılmışdır. Qəsidə janrında yazılan meracnamələr orta hesabla əlli-altmış beyt, məsnəvi formasında olanlar isə iki min beytə qədər olur. Belə meracnamələrdə merac hadisəsi ilə bağlı daha geniş bilgi verilir və şərhlər yazılır. «… Kasidenin nesib kısmı mirac gece meydana geldiyinden bu manaya gelen arabça ve farsça kelimeler üzerinde kurulmuş söz sanatlarıyla başlar. Hadise küfür karanlıklarını ortadan kaldıran nurani ve ilahi bir mucize şeklinde takdim edilerek gecenin önemi vurğulanır. Ardından gecenin ve gökyüzünün tasvirine geçilir…».[86] Sonra sujet xətti belə davam edir: Ümmi Haninin evindən yolçuluq başlayır, Cəbrail (ə.s) cənnətdən Buraq adlı minik gətirir, Buraq gözəl təsvir edilir, islam Peyğəmbəri Əqsa məscidinə gedir, orada peyğəmbərlərə namaz qıldırır,

---

85 Mustafa Uzun, «Miraciyye», «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», İstanbul, 2005, c. 30, s. 136.

86 Mustafa Uzun, «Miraciyye», «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», İstanbul, 2005, c. 30, s. 136.

onlardan üstün olduğu bildirilir, Əqsadan səmaya yüksəlir (uruc). Meracnamələrdə göy üzünün, səma qatlarının gözəl təsviri verilir, islam Peyğəmbərinin başqa peyğəmbərlərlə görüşməsi, cənnət, tuba ağacı, hurilər, köşklər, bulaqlar və cəhənnəm həyatı bədii dilin yüksək təsvir imkanları ilə təqdim olunur. Sonra islam Peyğəmbəri «kabe kavseyn» məqamına yüksəlir, Onun uca Allaha (c.c) müraciəti, uca Allah (c.c) yanındakı dəyəri, dualarının qəbul olunması təsvir edilir. Meracda namaz fərz buyurulur, islam Peyğəmbəri geri dönür, əshabını merac möcüzəsi və neməti ilə müjdələyir, möminlər sevinir, müşrik və kafirlər Ona inanmır. «… Mesnevilerde ise tevhid, nat ve munacatın ardından yukarıdakı konuların her biri bir kaside hacmine ulaşan bölümler halinde bazan israiliyata dayanan (əsası olmayan – S.H.) rivayetlerle anlatılır. Bu arada nat ve münacatlara, kaside ve gazellere de yer verildiyi, namaz ve diger ibadetler haqqında bilgiler aktarıldığı dikkat çeker…».[87]

## TÜRK ƏDƏBİYYATINDA MERACNAMƏLƏR

Merac türk ədəbiyyatında ilk dəfə bir motiv kimi Saltuk Buğra Xan Dastanında özünü göstərir. Cığatay ədəbiyyatında XII yüzildə Hakim Ata yüz iyirmi iki beytlik «Meracnamətül-həzrət» adlı müstəqil bir əsər yazmışdır. Bu əsər heca vəzni ilə sadə bir dillə yazılmışdır.[88]

Mir Heydərin uyğurca yazdığı başqa bir meracnamə də fransız dilinə tərcümə olunmuş və orijinalı ilə birlikdə 1982-ci ildə Parisdə çap olunmuşdur.[89]

Anadoluda ilk müstəqil meracnamə XV yüzillikdə (808/1405) Əhmədi tərəfindən yazılmışdır. Bu meracnamə

---

[87] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 136.

[88] Kemal Eraslan, «Hakim Ata ve meracnamesi», EFAD, Ahmet Caferoğlu özel sayısı, sayı 10, 1979, s. 243-304.

[89] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 136.

«Təhqiqi-Meraci-Rəsul» adlanır və dörd yüz doxsan yeddi beytdir.[90] Şairin bu meracnaməsi divanındakı qısa meracnamələrdən və «İsgəndərnamə» adlı əsərindəki mövluddan fərqlənir.[91]

Abdülvasi Çələbinin «Meracnameyi-Seyyidül-bəşər həzrət Rəsulullah aleyhi əfdalüs-salavat» adlı əsəri 817/1414-cü ildə yazılmışdır. Bu meracnamə beş yüz altmış yeddi beytdir.[92]

Aksaraylı İsa adlı bir şairin yazdığı və XIV-XV yüzilə aid olduğu güman edilən üç yüz qırx bir beytlik «Meracnamə»də meracdan daha çox meracda fərz qılınan namaz, qəbir sorğu-sualı, oruc, zəkat, həcc haqqında məlumat verilmişdir.[93] Eyni yüzillikdə yazıldığı güman edilən və müəllifi bəlli olmayan dörd yüz altmış səkkiz, bir sıra nüsxələrə görə, altı yüz yetmiş səkkiz beytlik başqa bir məsnəvi də İbn Abbasın rəvayəti əsasında yazılmışdır.[94]

XV yüzillikdə Arif adlı bir şair də 841/1437-ci ildə min yeddi yüz qırx beş beytlik «Meraci-Nəbi» adlı əsər yazmışdır.[95] XV yüzillikdə İbrahim Bəyin yazdığı iki yüz yetmiş beş beytlik məsnəvinin dili çox sadədir.[96] «Zaman içinde belirgin özellikler kazanan miracnameler XV yüzyıl-

---

[90] Yaşar Akdoğan, «Mirac, Miracname ve Ahmedinin Bilinmeyen Miracnamesi», Osm. Ar, IX, 1989, s. 263-310.

[91] Yaşar Akdoğan, «Mirac, Miracname ve Ahmedinin Bilinmeyen Miracnamesi», Osm. Ar, IX, 1989, s. 263-310.

[92] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 136.

[93] Hayati Develi, «Eski Türkiye türkçesi devresine aid manzum bir miracname», TDED, XXVIII (1998), s. 81-228.

[94] Hayati Develi, «Eski Türkiye türkçesi devresine aid manzum bir miracname», TDED, XXVIII (1998), s. 81-228.

[95] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 136.

[96] Musa Duman, «İbrahim Beyin Miracnamesi», TDED, XXVII (1997), s. 169-238.

dan itibaren daha fazla rağbet bulmuş, manzum, mensur, yahut çoğu manzum karma metinler halinde gelişimini sürdürmüştür. Dini-tasavvufi manzum eserlerin içinde mirac hadisesine bir bölüm ayrılması da yine XV yüzyılda yaygınlık kazanmıştır».[97]

Bu yöndə yazılmış əsərlər sırasında Aşıq Paşanın «Qəribnamə», Yazıçıoğlunun «Məhəmmədiyyə», Amasyalı Müniri Çələbinin «Siyəri-Nəbi», Süleyman Çələbinin «Vəsilətün-necat», Ağşəmsəddinzadə Hamidullah Hamdinin «Əhmədiyyə», Arif Fətullah Çələbinin «Şahnameyi-Ali-Osman» adlı əsərinin «Ənbiyanamə» adlı I cildi, Abdurrahman Ubeydinin «Evsaf ve Mucizati-Nəbi», Hakani Mehmet Beyin «Hilye» adlı əsərində meraca yer verilməsi ayrıca deyilməlidir.[98]

XV yüzillikdə birbaşa dinlə bağlı olmayan əsərlərdə də islam Peyğəmbərinin meracına yer verilmişdir. Bu əsərlərin sırasında Məhəmməd Füzulinin «Leyli və Məcnun», Ahmedinin «Cemşid ü Hurşid», Əlişir Nəvainin «Xəmsə»sindəki merac fəsillərini ayrıca göstərmək olar. Türk alimi Metin Akar belə əsərlərin ayrıca siyahısını tərtib etmişdir.[99]

XVI yüzildən başlayaraq şairlərin divanlarında meracnamələrin sayı artdı. XVII və XVIII yüzilliklərdə isə demək olar ki, bütün şairlər divanında bir, ya da bir neçə meracnaməyə yer verdilər. Lamii Çələbi, Ganizadə Mehmed Nadiri, Azimzadə Mustafa Haləti, Halimi Çelebi, Nevizade Atai, Naili Kadım, Neşati Sabit, Nazim, Salim Mehmed Emin Efendi, Ali Nutku Dede, İzzet Molla, Lebib, Adile

---

[97] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 136.
[98] Akar, «Türk edebiyatında manzum miracnameler», s. 112-114.
[99] Akar, «Türk edebiyatında manzum miracnameler», s. 125-127.

Sultan kimi şairlər XVI-XVII yüzilliyin gözəl meracnamə yazmış şairləridir.

XVIII yüzildə Abdülbaki Arifin yazdığı üç yüz on doqquz beytlik məsnəvi öz dövründə bəstələnmişdir. İsmayıl Hakkı Bursevinin dörd yüz yetmiş səkkiz beyt olan meracnaməsi isə təsəvvüfi xarakter daşıyır. Nayi Osman Dedenin merac kandillərində oxunmaq üçün yazdığı və bəstələdiyi «Miracün-nebi aleyhisselam» adlı meracnamə yüz iki beytdir.

Nahifinin «Miracün-nebi» adlı min yüz əlli yeddi beytlik məsnəvisində meracla bağlı ayələr, səhih hədislər, bir sıra rəvayətlər və alimlərin meracla bağlı görüşləri şərh edilmişdir. Bu əsərin didaktik yönü güclüdür, şairin islam Peyğəmbərini öydüyü beytlərdə lirizim var. Bu da əsərin təsir gücünü artırmışdır.

Şair və xəttat Arif Süleyman Bəyin meracnaməsi də XVIII yüzilin uğurlu ədəbi nümunələrindən biridir.[100]

Vakanəvis Hakim Mehmed Efendinin dörd yüz otuz iki beytlik meracnaməsi müstəzad şəklində yazılmışdır. Mecidi isə «Meraciyye-i Risalet-penah aleyhisselam» adlı iki yüz səksən doqquz beytlik məsnəvisində mövzunu təsəvvüf anlayışı baxımından və lirik bir üslubda qələmə almışdır.

Yenişehir Fenerli Hafiz Ömer 1204/1790-cı ildə qələmə aldığı üç yüz on səkkizlik beytlik meracnaməsində islam Peyğəmbərinin uca Allah (c.c) ilə danışmasına ayrıca yer vermiş, zühd, təqva, namaz kimi mövzuları şərh etmişdir. Onun meracnaməsi bir nəsihətnamə xarakteri daşıyır.

XIX yüzil Mövləvi şeyxlərindən Kilisli Aşkı Mustafa Əfəndinin «Bahçe-i Letaif ve Lehçe-i Maarif» adlı külliya-

---

[100] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 136-137.

tındakı yüz səksən doqquz beytlik və Seyidinin yüz qırx üç beytlik «Dər beyani-qissa-i merac» adlı meracnaməsi bu növ əsərlərin həcmi az olan nümunələrindəndir.[101]

Süleyman Nazifin atası Səid Paşaya aid yüz on doqquz beytlik mənzumə o dövrün din əleyhdarlarının peyğəmbərliyi, möcüzələri, meracı inkar etməsinə qarşı yazılmış bir əsərdir.[102]

Ədirnə müftüsi Mehmed Fevzi Əfəndinin «Küdsiyyüs-sirac fi nazmil-merac» adlı məsnəvisi yüz səksən üç beytdir. Müəllif «Kudsiyyül-minhac fi icmali bahşil-mirac» adlı əsərini isə ərəbcə yazmışdır.[103]

Rəcəb Vahyinin beş yüz qırx iki beytlik «Minhacül-mirac» adlı məsnəvisi hər biri fərqli bir vəzndə yazılmış səkkiz ana başlıq altında toplanmışdır.

Kərküklü Seyyid Abdüssəttarın «Miriciyye Divanı» və Şeyx Muslihuddin Vahyinin «Miracül-beyanı» da meracnamələr sırasında yer tutur. «Son devirde Mehmed Bahaeddin ile Mehmed Lütfi de meraciyye yazmışdır. Enver Tuncaip, Ali Genceli, Necip Fazil Kısakürek ve Mustafa Asım Köksal mirac konulu yeni tarz şiirler kaleme alan şairlerin başlıcalarıdır. Miraciyyeler natlar gibi derlenerek miraciyye ve ya nati-miraciyye mecmuaları düzenlenmiştir. Süleymaniye Kütüphanesinde bulunan «Mecmuai-Nuuti-Nebeviyye» bu tür derlemelerin güzel bir örneğidir».[104]

---

[101] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 137.

[102] Kenan Erdoğan, «Klassik miraciyyelerden farklı bir miracciyye: Said Paşa ve Miraciyyesi», Atatürk Universitesi Türkiyat Araştırmaları Enstitüsü dergisi, sayı, 12, Erzurum, 1999, s. 163-185.

[103] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 136.

[104] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 137.

## TÜRK DİNİ MUSİQİSİNDƏ MERAC

Mübarək merac gecələrində meracnamə oxumaq adəti XVIII yüzillikdən başlamışdır. Merac qəndilində oxunan ilk meracnamənin də Nayi Osman Dədəyə aid olduğu bilinir. «Ancak türk edebiyatında ilk miraciyyenin XII asırda kaleme alındığı, ilk müstakil mevlid ve meraciyyenin de XV yüzyılda yazılıp okunduğu düşünülürse, bu tarih epey geçtir. Ayrıca XIV yüzyılda «Muinül-mürid» ile Harizminin «Muhabbetnamesi» dini toplantılarda okunmaktaydı. Yazıcızade Mehmedin «Muhammediyye»si de yazılışından itibaren mevlid gibi okunduğuna göre bu eserdeki mirac faslının da mirac kandillerinde okunmuş olması mümkündür…»[105]

Abdülbaki Arif Əfəndinin meracnaməsini də XVIII yüzil bəstəkarlarından olan Nizam Yusuf Çələbi bəstələmiş və bu meracnamə Əyyub Sultan türbəsində oxunmuşdur. Edirnə müftisi Mehmed Fevzi Əfəndinin əsəri də bəstələnib oxunmuşdur.[106]

Merac musiqisinin özünəməxsus oxunma qaydası olmuşdur. Nayı Osman Dədənin meracnaməsi merac qəndilində, ya da ertəsi gün cami, mövləvixana və təkkələrdən başqa, bir sıra yerlərdə də icra edilirdi. Namazdan sonra bir hafiz «İsra» surəsinin əvvəlini oxuyardı. «Fatihə» surəsinin oxunmasından sonra iki meracxan bir-birinə bitişik olan iki kürsüyə çıxaraq əsəri birlikdə oxuyurdular. Bu zaman kürsülərin altında oturan zakirlər (zikr edənlər) hər misranın sonunda «sallu aleyh» deyərdilər. Altıncı bəhrin hər misrasının sonunda isə «minnas-səlat» deyilir, münacat bölümündə də «ikbel ya mucib» təkrarlanır. Meracnamənin münacat

---

[105] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 137.

[106] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 138.

bölümü icra edilərkən dinləyicilərə gül suyu səpilir, meracda hz. Məhəmmədə (s.a.s) təqdim edilən içəcəkləri xatırladan şərbət və süd paylanılırdı, mövlud törənlərində olduğu kimi şəkər verilirdi. Meracnamə tamamlananda isə «Nəcm» surəsinin meracla bağlı ayələri oxunar, məclis merac duaları ilə tamamlanardı.[107]

## MİNİATÜRLƏRDƏ MERAC MOTİVİ

Merac hadisəsi islama bağlı türk mədəniyyətinin ayrılmaz bir parçası olan miniatürlərdə də geniş yer tutur. Bunlar «… siyer-i nebi, kısas-ı enbiya ve miracnamelerle Reşidüddinin «Camiut-tevarih» gibi eserlerde, ayrıca içinde miraciyye bulunan divan, hamse ve mesnevilerde, acaibülmahlukat ve falnamelerde yer almaktadır. Hint bölgesinde hz. Alinin hayatına dair «Havername» ve «Hamle-i Hayderi» gibi kitablarda da mirac konulu minyatürlere rastlanmaktadır…»[108]

XV yüzildən başlayaraq miniatür sənətində merac mövzusu geniş yer tutur, XVIII yüzilədək gözəl örnəklər təqdim olunur. Sünni qaynaqlarında olan miniatürlərdə hz. Məhəmmədin (s.a.s) üzü çox zaman niqabla örtülür, İran miniatür məktəbində isə Peyğəmbərin üzünün örtülməsinə çox diqqət yetirilmir. Şiə miniatür məktəbində Buraq aslan quyruqlu təsvir edilir, miniatürlərdə hz. Əlini (r.a) təmsil edən bir aslan şəkli çəkilir, islam Peyğəmbəri əlindəki üzüyü bu aslana uzadaraq hz. Əlini (r.a) göstərir.[109]

---

[107] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 138.
[108] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 139.
[109] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 139.

Merac miniatürlərinin ən qədimi «Camiut-təvarix»də olan hz. Peyğəmbərin (s.a.s) Buraqın üzərində mələklərlə birgə göy üzündə uçarkən təsvir edildiyi miniatürdür. Nizami Gəncəvinin «Sirlər xəzinəsi» əsərinin miniatürlü nüsxələrində merac motivləri də var. Molla Caminin «Divan», «Həft evrəng», «Yusif və Züleyxa» adlı əsərlərinin bəzi nüsxələrində də merac miniatürləri var. Merac motivi monqollar dönəmində yazılmış, ancaq mətni bizə çatmamış bir meracnamədə də var. Topqapı Sarayı muzeyinin kitabxanasında on lövhə şəklində Bəhram Mirzə albomunda olan miniatürlər Əhməd Musa adlı bir sənətkara aid edilir.[110]

Meracı bütün yönləri ilə çəkən, mətni ilə birlikdə dövrümüzədək gəlib çatmış ən qədim meracnamə Heratda Şahruhun sarayında 840/1436-cı ildə hazırlanmış əlli yeddi miniatürün olduğu uyğur dilində olan bir əsərdir.[111]

Merac miniatürləri arasında diqqəti çəkən ən önəmli əsərlərdən biri də Daririn «Sirətün-nəbi» adlı əsərinin Osmanlı nüsxəsidir. Əsərin üçüncü cildində beş miniatür var.[112] «Mirac halk resmine de konu olmuştur. En çok resm edilen insan yüzlü, tavus kuyruklu, yeşil kanatlı, başında ayyıldızlı bir tac bulunan Qırat suretindeki Buraktır. Miracla ilgili ayet ve hadislerle bezenmiş Levhaların bir tarafında Mekke, diger tarafta Mescidi-Aksa resm edilmiş, arasına da Burak yerleştirilmiştir».[113]

---

[110] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 139.

[111] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 139.

[112] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 139.

[113] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 139.

## XƏTT SƏNƏTİNDƏ MERAC

Merac motivi xətt sənətində də var. Xətt sənətində daha çox meracın anladıldığı «İsra», «Nəcm» surələrinin uyğun ayələri, ya da bu ayələrin bir qismi, başqa surələrdə olan meracla bağlı ayələr, bu hadisə ilə bağlı olan hədislər gözəl xətlə yazılmışdır. Yaqut əl-Müstasimi, Abdullah Sayrafi, Məhəmməd Tuğrai, Mir Abdülkadir Hüseyni, Mir Əli Təbrizi, Əlaəddin Təbrizi, İbnül-Bəvvab, Şah Mahmud Nisaburi, Əhməd Şəmsəddin Karahisari, Şeyx Həmidullah Əfəndi, Abdullah Amasi, Hafiz Osman və Kadırqalı kimi xəttatlar merac ayələrini gözəl xətlə yazmışlar.[114]

[114] «Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi», göstərilən qaynaq, c. 30, s. 139.

**Qeyd:** Meracnamələrlə bağlı geniş bilgi üçün bu qaynaqlara baxmaq olar: Aşık Paşa, «Garibname» (hazırlayan, Kemal Yavuz), İstanbul, 2000, s. 21-41; Yazıcıoğlu Mehmed, «Muhammediye» (hazırlayan, Amil Çelebioğlu), İstanbul, 1996, II, s. 131-151; Sadettin Nüzhet Ergün, «Türk Musikisi Antolojisi, İstanbul, 1942-1943, c. I, s. 125; 308-317; c. II, s. 519, 559, 708-709; «Türk sanatı Tarihi araştırma ve İncelemeleri», İstanbul, 1963, c. I, s. 658-676; Filiz Çağman-Zeren Tanındı, «Topkapı Sarayı İslam minyatürleri», İstanbul, 1979, s. 13; Zeren Tanındı, «Siyeri-Nebi: İslam Tasvir Sanatında hz. Muhammedin hayatı», İstanbul, 1984; Nuri Özcan, «On sekkizinci Asırda Osmanlılarda Dini Musiki», İstanbul, 1982; Metin Akar, «Mirac Hadisesinin Türk Halk şiirine yansıması», Milletlerarası Türk Folklor Konqresi Bildirileri, Ankara, 1986; «Türk Edebiyatında manzum miracnameler», Ankara, 1987; Mustafa Uzun, «Dini Edebiyatımızın son temsilçilerinden Mehmed Fevzi Efendi ve Dini mesnevileri», İstanbul, 1996; Mustafa Kara, «Miraç, Miraciye ve Bursalı Safiye Hatunun Vakfiyesi», Uludağ Üniversitesi İlahiyat Fakültesi Dergisi, VII/7, Bursa, 1998, s. 25-40; Kemal Yavuz, «Anadoluda başlayan türk edebiyatında görülen ilk miraçnameler: Aşık Paşa ve Miraçnamesi», İlmi araştırmalar, sayı, 8, İstanbul, 1999.

## HƏZRƏT NİZAMİ: «MƏNİM VƏZİFƏM BƏNDƏLİK ETMƏKDİR»

***Bəli, Sənin işin bəndə yaratmaqdır,***
***Mənim işim də bəndəlik etməkdir.***

## HZ. NİZAMİNİN İSLAM PEYĞƏMBƏRİNİN MERACINA MÜNASİBƏTİ

Merac hadisəsi islam dini və peyğəmbərlik tarixində çox önəmli yer tutur. Merac elə böyük bir hadisədir ki, bu hadisə baş verəndən indiyədək onunla bağlı çoxsaylı araşdırmalar yazılmış, bu hadisə ayrı-ayrı yönlərdən şərh edilmişdir və meracın şərhi indi də davam edir. Bədii ədəbiyyat da merac möcüzəsinin şərhindən kənarda qalmamış və nəticədə, merac ədəbiyyatı yaranmışdır. Merac ədəbiyyatı bu möcüzənin dəyərini, din və peyğəmbərlik tarixindəki yerini bədii biçimdə təsvir və şərh etmiş, merac dəyərlərinin insanların düşüncə və əxlaqına yerləşməsinə yardım etmişdir.

Böyük iman şairi hz. Nizami də islam Peyğəmbərinin meracına ayrıca önəm vermiş, yazdığı beş dastanın hər birində merac möcüzəsinə yer ayırmışdır. Şair ilk böyük əsəri olan «Sirlər xəzinəsi»ndə «Peyğəmbərin – Allah Ona rəhmət eləsin və Onu salamlasın – meracı haqqında» adlı bir məsnəvi yazmışdır.[115]

## «SİRLƏR XƏZİNƏSİ»NDƏ OLAN MERACNAMƏNİN BAŞLICA ÖZƏLLİKLƏRİ

Hz. Nizami islam Peyğəmbərinin meracı ilə bağlı yazdığı bu məsnəvini birinci nətlə (sitayiş) ikinci nətin

---

[115] Nizami Gəncəvi, «Sirlər xəzinəsi» (filoloji tərcümə, izahlar, şərhlər və lüğət professor Rüstəm Əliyevindir), Bakı, Elm, 1981, s. 27-32.

(sitayişin) arasında ayrıca başlıqla vermişdir. Birinci nətdə peyğəmbərlik anlayışının başlıca prinsipləri açıqlanmış, islam Peyğəmbərinin peyğəmbərlik tarixindəki yeri göstərilmiş, hz. Məhəmmədin (s.a.s) bağlı olduğu və təbliğ etdiyi dəyərlər, Onun əxlaq ölçüləri, mübarək şəxsiyyətinin başlıca cizgiləri bədii biçimdə təqdim olunmuşdur. Şair bundan sonra Peyğəmbərin merac möcüzəsinə ayrıca yer vermişdir.

Bu meracnamənin bir sıra özəllikləri var. Hər şeydən öncə onu deməliyik ki, şair merac möcüzəsinin məzmunu ilə bu hadisəni təqdim etmə üslubu arasında uyğunluq yaratmışdır. Seçilən obrazlar, bədii təsvir və ifadə vasitələri meracın məzmununa tam uyğundur. Bu meracnamə altmış səkkiz beytdir və hər bir beyt məzmun və forma baxımından bir-birini tamamlayır.

**Birinci meracnamənin başlıca özəlliklərindən biri budur ki, şair merac hadisəsinin məzmununa uyğun olaraq nur, işıq obrazından çox istifadə etmişdir. «O, nur ayəsini sezdi», «cahanı işıqlandıran məşəl», «gecə heyrətəngiz günorta çağlı gündüzə çevrilmişdi» və başqa bu kimi işıqlı deyimlər merac möcüzəsinin dəyərini gözəl ifadə edir.**

Şair bu məsnəvidə səma cismlərinin adlarına geniş yer vermişdir. Merac bir gecə yolçuluğu olduğu üçün məsnəvidə səma cismlərinin adlarının çəkilməsi təbiidir və bu üslub merac ideyasının anlaşılmasına yardım etmişdir. «Fələklər vəcdə gəldi», «Sərətanın tacı», «Cövzanın kəməri», «Sünbüləni Şirin üstünə atdı», «Zöhrə Tərəzi əlində qulluğa durmuşdu», «Əqrəbin quyruğu», «Günəş», «Dolça», «Balıq», «Sürəyya», «Həməl», «Yeddi qat göy», «Ərş» və başqa belə obrazlar merac möcüzəsinin məzmununa uyğundur.

**Şair birinci meracnamədə gül obrazından çox istifadə etmişdir. Ümumiyyətlə, hz. Nizami, uca Allahı (c.c), islam dinini, islam Peyğəmbərini təqdim edərkən gül**

**obrazından çox istifadə etmişdir. Şair meracı şərh edərkən də ənənəsinə sadiq qalmışdır. «Nilufər rəngli Əqrəb (bürc)», «Güllər ordusu öz çadırlarını Həməl səhrasında qurdu», «cənnətə bənzər bağın gülləri», «Yer üzü bahar rənginə boyandı», «möcüzəli bahar», «sərv gül açmışdı», «nərgiz göz», «sənin ətrin canımızın can dərmanıdır» kimi güllə hörülmüş bədii çələnglər meracın ətrini, gözəlliyini insanlara çatdırır.**

Merac qeyri-adi bir hadisə olduğu üçün şair bu möcüzəni şərh edərkən qeyri-adi bədii təsvir və ifadə vasitələri seçmişdir. Şair çox fərqli anlayışlar arasında inanılmaz məna bağlılığı yaratmış və bu yolla da meracın bir möcüzə olduğunu möcüzəli dillə ifadə etmişdir. «Doqquz fələk öz gözlərindən ona kəcavə düzəltdi», «Zöhrə və Ayı (bürc) Ona məşəl tutdu», «Fələklər öz xirqələrini çıxarıb atdılar», «Onun çəki daşı önündə Tərəzi səcdə etmişdi», «Onun qədəmləri ulduzların pərdəsini cırdı», «Mələklər Onun bayrağını çiyinlərində aparırdılar», «Gecənin göbəyi Onun dodaqlarından tökülən müşklə doldu», «Burağın ayaq çapması şimşəyə bənzəyirdi», «göylərin firuzə rəngli fərşləri», «Onun qədəmləri varlığın başına tac oldu», «Qeyrət Onun qurşağından yapışıb bu pərdədən irəli çəkirdi», «Tanrı Onun nazını çəkir, O isə nazlanırdı» kimi qeyri-adi obrazlılıq merac möcüzəsini gözəl anladır.

**Şair merac möcüzəsini şərh etmək üçün zaman ölçüsü kimi bahar fəslini seçmişdir. Şairin təqdimatında baharın gözəlliyi ilə meracın gözəlliyi bir-birinə qarışmışdır. Merac hadisəsi islam tarixinin yaz fəslidir.** Bu hadisə islam dini uğrunda mübarizə aparan Peyğəmbərə bir yeni bahar nəfəsi verdi, Onu gücləndirdi, merac hadisəsinin hədəfi də ümid verən yaz fəslinin, iman çiçəyinin ətrini, bağışlanma müjdəsinin sevincini, namaz nemətinin gözəlliyini insanlığa çatdırmaqdır: «Yer üzü bahar rənginə boyan-

dı», «Sərv gül açdı», «Nə möcüzəli bahar idi», «bağ gül və nərgizlərlə doldu», «Onun ətri hər yerə yayıldı». Bu obrazlardan baharın və meracın ətri duyulur. **İnsan merac möcüzəsini tam anlasa, ona inansa, könlü, düşüncəsi, əməlləri çiçək açar, yer üzü gül bağçasına çevrilər.**

Şair birinci meracnamədə meracı şərh edərkən dini anlayışlara və dini şəxsiyyətlərin adlarına da yer vermişdir. Bu anlayışlar da meracın məzmununu anlamağa yardım etmişdir. «Allahın təbərrükü», «iki cahan», «Dolçanın Yusifi», «Balığın Yunisi», «Cənnət», «Ma zağ», «Yeddi qat göy», «Mələk», «Buraq», «Sidr ağacı», «Ərş», «varlıq çeşməsi», «Haqqın hazırladığı şərbət», «eşq», «vəhdət» və başqa bu kimi dini anlayışlar şairin meracı anlatmaq üslubunda öz yerini tutmuşdur.

Hz. Nizami birinci meracnamədə islam Peyğəmbərini başında tac olan bir hökmdar, peyğəmbərlərin sultanı kimi təqdim etmişdir. Bu təqdimat da merac möcüzəsinin məzmun və məqsədinə uyğundur. **Belə ki, merac uca Allahın (c.c) peyğəmbərliyi bir təntənəli mərasimlə hz. Məhəmmədə (s.a.s) təqdim etmək, son peyğəmbərlik tacını onun başına qoymaq hadisəsidir.** Yəni uca Allah (c.c) Onu Peyğəmbər seçmişdi, merac möcüzəsi ilə də son Peyğəmbər tacını Ona təqdim etdi. Şair, Ona «cənub şahı» deyir, peyğəmbərlərdən öz gəlişi üçün üzr istədiyini bildirir, «Başına tac qoymaq üçün (daha yuxarılara) aparıldığını» söyləyir, «Onun qədəmlərinin varlığın başına tac olduğunu» göstərir, «Ərşin bu nemətə böyük ehtiyacı olduğunu» vurğulayır.

**Şair birinci meracnamədə merac hadisəsinin xarakterinə uyğun olaraq hərəkət, uçmaq, yüksəlmək, ucalmaq anlayışını incə bir üslübla vermişdir, islam Peyğəmbəri sevdiyinə doğru can atır, tez Ona qovuşmaq istəyir.** Burada hərəkət həm meracın məzmununa uyğundur, həm də islam Peyğəmbərinin uca Allah (c.c) sevgisini

tam ifadə edir. Şairin hərəkət anlayışını ifadə biçimlərinə baxaq: «Yuxunun üzəngisini çəkdi», «Yeddi iqlimi, dörd cəhəti, altı tərəfi tərk etdi», «Onun ürək quşu dinclik məkanına uçdu», «Onun ilahi quşunun qəfəsi də qanada çevrilmişdi», «Onun cismi qəlbdən də yüngül olmuşdu», «O, mil-mil ucalırdı», «Ayağı bir mənzil əvəzinə yüz mənzil irəliləyirdi», «Burağın ayaq çapması şimşəyə bənzəyirdi», «Onun atının dırnaqları aypara nallarını çıxarıb atdı», «Gözü elə iti oldu ki, xəyal onu tuta bilmədi», «O irəliləyir, ancaq ayaqlarının zəhmətini hiss etmirdi», «Onun bu qədəminin o qədəmindən xəbəri yox idi».

**Şair birinci meracnamədə bitkin bir süjet xətti yaratmışdır.** Beytlərdə ifadə olunan hadisələr bir-birini tamamlayır. Bu əsərin süjet xəttini bir neçə yerə ayırmaq olar. İlahi dəvət və bu dəvətə uyğun olaraq merac səfərinin başlanması, Göyün qatlarını keçərkən qarşılanma, peyğəmbərlərlə görüş, yalnız Peyğəmbərin yüksəldiyi məqam, uca Allahı (c.c) görməsi, ümmətinə uca Allahdan nicat istəməsi, dualarının qəbul olunması, böyük bir merac neməti ilə güclənərək, tam ilahi dəstək alaraq, başına son peyğəmbərlik tacı qoyularaq yerə enməsi.

**Hz. Nizami birinci meracnamədə uca Allahın (c.c) varlığına münasibət bildirib.** Uca Allahı (c.c) doğru tanımağın insanlıq üçün önəmini açıqlayıb. Şair deyir ki, uca Allah (c.c) var, ancaq O, bir yerdə qərar tutmayıb, hər kim belə deyilsə, tanrı ola bilməz. Onun sabitliyini inkar etmək küfrdür, Onun istiqamətini (cəhətlərini) təyin etmək cəhalətdir.

Hz. Nizami bu əsərində merac möcüzəsi və bütövlükdə din üçün önəmli məsələlərdən biri olan uca Allahın (c.c) görülməsinin mümkün olub-olmadığına münasibətini açıqlamışdır. O, deyir ki, merac gecəsində hz. Məhəmməd (s.a.s) mütləq Tanrını gördü və Tanrı görülməlidir. Şair son-

ra merac gecəsində islam Peyğəmbərinin uca Allahı (c.c) görmək hadisəsinin ölçülərini, keyfiyyətini açıqlayıb. O deyir ki, uca Allahı (c.c) görməyin məkan və zamanı yoxdur, çünki O, məkan və zamandan çox ucadır. Şair uca Allahı (c.c) görməyin mümkün olmadığını irəli sürənlərə etiraz edir. «Onu görmək mümkün deyildir» deyənlərin kor olduğunu bildirir. Şairə görə, islam Peyğəmbəri o varlıq çeşməsini başqa gözlə deyil, ancaq idrak gözü ilə gördü.

**Şair bu meracnamədə merac möcüzəsinin hədəfini də açıqlayıb.** Şair deyir ki, bu mübarək gecədə uca Allah (c.c) insanlar, inananlar üçün hazırladığı çox dəyərli neməti islam Peyğəmbərinə verdi, hz. Məhəmməd (s.a.s) o gecə nemətdən-şərbətdən içdi və bir damcı da bizim ürəyimizə tökdü. İslam Peyğəmbəri Tanrıdan ümmətinin nicatını istədi, Onun duaları qəbul olundu, uca Allah (c.c) Onu gücləndirdi, Ona son peyğəmbərlik tacı verildi.

Şair bu meracnamədə islam Peyğəmbərinin merac möcüzəsi ilə şərəfləndirilməsinin şərtini də açıqlayıb. Şairə görə, bu çətin və şərəfli səfərin baş tutmasının tək bir səbəbi var. Bu səbəb də islam Peyğəmbərinin uca Allaha (c.c) olan sonsuz sevgisidir, O, bu yolu ancaq eşq cazibəsi ilə getmişdir, uca Allah (c.c) Onu hamıdan çox və dərindən tanıyan, Onu bütün varlığı ilə sevən mübarək elçisini merac neməti ilə mükafatlandırdı.

**Merac möcüzəsi hz. Məhəmmədin (s.a.s) ümməti üçün bir ölçüyə çevrildi.** Həqiqi ibadətin ölçüsü merac neməti ilə müəyyənləşdirildi. «Möminin meracı onun namazıdır» buyruldu, «siz uca Allahı» görürmüş kimi ibadət etməlisiniz» buyurularaq ölçü göstərildi. Yəni mömin ibadət edərkən uca Allahdan (c.c) başqa, hər şeyi unutmalıdır, ancaq bu yolla Onun lütfünü, rəhmət və bərəkətini qazanmaq olar, ancaq bu yolla merac nemətindən dadmaq, merac səfərinə çıxıb o gözəllikləri görmək, ruh rahatlığına qovuşmaq olar. Şair birinci meracnamədə bu ölçüyə də işarə etmişdir.

Şair deyir ki, ibadət etdiyimizi görmək səadətdir, O (uca Allah (c.c)) ibadət edərkən görülməli, görülməli və görülməlidir.

## HZ. NİZAMİNİN «XOSROV VƏ ŞİRİN» DASTANINDA OLAN MERACNAMƏNİN ÖZƏLLİKLƏRİ

Dahi şairin ikinci böyük dastanı «Xosrov və Şirin»dir. O, bu dastanı 1180-ci ildə yazıb bitirmişdir. Şair bu dastanda da islam Peyğəmbərinin meracına ayrıca yer vermişdir. Ancaq şair bu dastanda olan meracnaməni əsərin əvvəlində deyil, sonunda vermişdir.[116] Şair bu dastanın başlanğıcında «Adı əziz olan Yaradanın təkliyi haqqında», «Sübuta yetirmək və tanımağa nail olmaq haqqında söz», «Münacat» başlığı ilə tövhidə yer ayırmış, uca Allahın (c.c) varlıq və birliyini gözəl bədii üslubla şərh etmişdir. Şair daha sonra «Peyğəmbərlərin sonuncusunun tərifində – Ona salam və salavat» adı ilə hz. Məhəmmədə (s.a.s) gözəl bir nət yazmışdır. **Gözəl cəhətlərdən biri də odur ki, şair «Xosrov və Şirin» dastanını dua ilə başlamışdır. Bizcə, hz. Nizaminin bu duası çoxsaylı dua nümunələri içərisində nadir nümunələrdən biridir.** Şair bu gözəl, təsirli, hikmət dolu duada öz sarsılmaz inancını, bağlı olduğu qaynaqları, dünyagörüşünü, uca Allaha (c.c) və Onun mübarək Peyğəmbərinə olan sevgisini, istək və arzularını, hədəflərini ifadə etmişdir. Bu gözəl dua Nizami kimliyinin müəyyənləşdirilməsində ən önəmli qaynaqlardan biridir. **Biz böyük Nizaminin kimlik sənədi və proqramı olan duasını təqdim edirik:**

---

[116] Nizami Gəncəvi, «Xosrov və Şirin» (filoloji tərcümə, izahlar, şərhlər və lüğət professor Həmid Məmmədzadənindir), Bakı, Elm, 1981, s. 339-341.

## NİZAMİNİN DUASI

خداوندا در توفیق بگشای
نظامی را ره تحقیق بنمای
دلی ده کو یقینت را بشاید
زبانی کافرینت را سراید
مده ناخوب را بر خاطرم راه
بدار از ناپسندم دست کوتاه
درونم را به نور خود برافروز
زبانم را ثنای خود در آموز
به داودی دلم را تازه گردان
زبورم را بلند آوازه گردان
عروسی را که پروردم به جانش
مبارک روی گردان در جهانش
چنان کز خواندنش فرخ شود رای
ز مشک افشاندش خلخ شود جای
سوادش دیده را پر نور دارد
سماعش مغز را معمور دارد
مفرح نامهٔ دلهاش خوانند
کلید بند مشکل هاش دانند
معانی را بدو ده سربلندی
سعادت را بدو کن نقش‌بندی
به چشم شاه شیرین کن جمالش
که خود بر نام شیرینست فالش
نسیمی از عنایت یار او کن
ز فیضت قطره‌ای در کار او کن
چو فیاض عنایت کرد یاری
بیارای کان معنی تا چه داری

*Ey Allah, tovfiq qapısını aç,*
*Nizamiyə həqiqət yolunu göstər.*

*Bir könül ver ki, varlığına inanmağa layiq olsun,*
*Bir dil (ver) ki, Sənin yaradıcı olduğunu tərif edə bilsin.*

*Yaxşı olmayanı könlümə yönəltmə,*
*Bəyənilməyəndən əlimi qısa et.*

*İçimi haqq nuru ilə işıqlandır,*
*Dilimə öz şükrünü öyrət.*

*Davudi (nəğmə) ilə könlümü təzələ,*
*Zəburumun şöhrətini yüksəlt.*

*Canımla bəslədiyim (bu) gəlini (əsərimi),*
*Dünyada üzüağ et.*

*Belə ki, oxunmasından düşüncə uğurlu olsun.*
*Müşk saçması ilə (hər) yer Xəllüx[117] olsun.*

*Qarası gözü işıqlandırsın,*
*Avazla oxunması beyinə nəşə versin.*

*Könülləri sevindirən kitab adlandırsınlar,*
*Çətin bəndlərin açarı hesab etsinlər.*

*Ondakı mənaların başını yüksəlt,*
*Ona səadət naxışı vur.*

*Şahın nəzərində camalını şirin elə,*
*Çünki onun falı Şirinin adına vurulmuşdur.*

---

[117] «Xəllüx» - Türküstanda, Orta Asiyada öz gözəlləri və ətri ilə ad qazanmış türklərin yaşadığı bir şəhər olmuşdur.

*Qayğından ona bir nəsim qoş,*
*Mərhəmətindən bir qətrə ona damcılat.*

*İndi ki feyz verənin köməyi yar oldu (de):*
*Ey gövhər mədəni, gətir görək nəyin var?*[118]

Hz. Nizaminin «Xosrov və Şirin» dastanında olan meracnamə qırx üç beytdir. Şair əsərin sonunda öncə oğlu Məhəmmədə nəsihət yazmış, sonra Xosrovun yuxusunu vermiş (o yuxuda Peyğəmbəri görür və Peyğəmbər onu islama dəvət edir), sonra Peyğəmbərin məktubu təqdim edilmiş, bundan sonra isə Peyğəmbərin meracı yazılmışdır. **Yəni şairin Peyğəmbərin meracı ilə bağlı yazdığı bölməni dastanın sonunda verməsi təbiidir. Çünki dastanın sonu islam Peyğəmbəri ilə bağlı yazılmış bir silsilədir.**

Şair bu meracnamədə Peyğəmbərin meraca gedərkən mindiyi Buraqı ayrıca təqdim etmişdir. Şairə görə, Buraq nurdan yaradılmışdır, ildırım sürətlidir, onun gözəl üzü var idi, başında yüyən yox idi, o, inci səpirdi, çox ətirli idi, yəhəri gövhərdən olan dəniz idi, güclü, ağır nallı, yüngül yerişli idi, gözü iti, sürətli idi, quş kimi uçurdu.

Şair bu meracnamədə islam Peyğəmbərinin peyğəmbərlərin sultanı, başçısı olduğunu bildirmişdir. Şair deyir ki, peyğəmbərlər Onu özlərinə qiblə etdilər, O, peyğəmbərlərin imamı (başçısı) idi. O, peyğəmbərlərə rəhbərlik edirdi, «yaşıl geyimlilərin göy çadırından çıxmışdı».

**Şair bu meracnamədə islam Peyğəmbərinin qarşılanma mərasiminə ayrıca yer vermişdir, yerdən uca Allahın (c.c) hüzuruna yüksələn Peyğəmbəri yol boyu ulduzlar qarşılamış, Ona ehtiram və sevgisini bildirmişdir.**

---

[118] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 24.

Şair bu qarşılanma tablosunu zərif, gözəl bədii boyalarla çəkmişdir: O, «qütbün sahilinə gəmi gətirmişdi», «Buraqın qarşısında Məcərrə saman daşıyan idi», «Cövzanın sünbülü onun şövqündən dən-dən olmuşdu», «dünya analarının (Yerin) rəhmini bağlamış, nəş qızlarının (böyük Ayı bürcünün) heyzindən qurtarmışdı», «Müştəriyə tac bağlamış», «Günəşdən üzüyünü çəkib almışdı», «O uçuşu görüb yaşıl rəngli tavus sürətlə qaçmaqda qanadını sındırmış, lələklərini tökmüşdü».

Hz. Nizami «Xosrov və Şirin» dastanında olan meracnaməsində mələklərin və Rəf-rəf adlı miniyin adını çəkmişdir. «Cəbrail atlanıb geri qayıtdı», «Yüyəni buraxıb Mikaili keçdi», «İsrafil gəlib Onu qanadına aldı», «Rəf-rəf gərdəyinə yetirdi». Daha sonra cənnət ağacı olan Tubanın, Sidrənin adını çəkir: «Rəf-rəfdən Tuba rəfinə bayraq qaldırdı», «Oradan da Sidrəyə qədəm basdı».

Şair bütün meracnamələri üçün xarakterik olan bir məsələyə bu meracnamədə də yer vermişdir. Şairə görə merac gecəsi islam Peyğəmbəri uca Allahı (c.c) görmüş, Onu vasitəsiz dinləmişdir:

***... Qədimlik üzündən örtüyü açdı,***
***Kainatın qarşısından örtük götürüldü.***

***Məhəmməd məkansız məkanda,***
***Nişansızlığın nişanını gördü.***

***İlahi kəlamı vasitəçisiz eşitdi.***
***Cahan padşahını (yəni Allahı) cəhətsiz gördü.***[119]

Şair bu meracnamədə merac möcüzəsinin mahiyyətini açıqlamış, onun hədəflərini göstərmiş, islam Peyğəmbərinin ümməti üçün istədiklərini saymışdır. Bu mübarək gecədə is-

[119] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 24.

lam Peyğəmbəri ümməti üçün bağışlanma istəyir: **«rəhm etmək (bağışlanmaq) xəzinəsinin müjdəsini istədi».**

Bu mübarək gecədə islam Peyğəmbəri ümmətin günahkarları üçün dua etdi. Uca Allah (c.c) Onun bütün istəklərini qəbul etdi. **O, bu mübarək gecədə «kəramətdən xüsusi xələt geyindi».**

Şair bu meracnamədə merac nemətini «həqiqi məhəbbət xəzinəsi» adlandırır, merac nemətini uca Allahın (c.c) insan sevgisinin dəlili kimi təqdim edir. Sevən sevdiyinə ən gözəl hədiyyələri göndərər. **Uca Allah (c.c) da ən çox sevdiyi varlıq olan insanlara «məhəbbət xəzinəsi», «gül», «sevinc müjdəsi», «cəhənnəmdən azad olmaq vəsiqəsi» göndərdi:**

***... Kəramətdən xüsusi xələt geydikdən sonra,***
***Həqiqi məhəbbət xəzinəsi ilə geri qayıtdı.***

***Qədri sərv idi, gül olub gəldi,***
***Hilal kimi getdi, bədr olub gəldi.***

***Xalqlara sevinc müjdəsi gətirdi,***
***Cəhənnəmdən azad olmaq vəsiqəsi gətirdi...***[120]

Şair bu meracnamədə mübarək merac gecəsində uca Allahın (c.c) islam Peyğəmbərini necə gücləndirdiyinə də işarə etmişdir. Bu mübarək gecədə uca Allah (c.c) islam Peyğəmbərinə «merac elmi» verdi. O, uca Allahın (c.c) hüzuruna «hilal kimi getdi, ancaq bədr (on dörd gecəlik ay) kimi qayıtdı», «O, bir sərv idi, merac gecəsi gül olub gəldi».

---

[120] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

## «LEYLİ VƏ MƏCNUN» DASTANINDA OLAN MERACNAMƏNİN ÖZƏLLİKLƏRİ

Hz. Nizaminin üçüncü dastanı olan «Leyli və Məcnun»da islam Peyğəmbərinin meracına ayrıca yer ayrılmışdır.[121] Şair dastanın başlanğıcında uca Allaha (c.c) tövhid və münacat yazmış, sonra islam Peyğəmbərinin nətinə, daha sonra isə meracnaməyə yer vermişdir. Bu meracnamə altmış yeddi beytdir. Şair meracın başlanğıcında islam Peyğəmbərinin uca Allahın (c.c) hüzuruna olan mübarək yolçuluğunun hazırlıq mərhələsini təsvir etmişdir. Şair deyir ki, Onun varlığı məna aləmini yüksəldir, «Onun meracı göyün dərinliyinə idi», «yeddi xəzinənin qapısını o açdı», «dörd gövhərə qədəm basdı», «dar zəmanənin (yerin) cəngindən qurtuldu», «fələyin zirvəsinə can atdı», «Onun qara atı yol rəqsinə başladı».

Şair meracın hazırlıq mərhələsindən sonra bu gecənin və islam Peyğəmbərinin dəyərini anladır:

***«… Ərşin xəlvətxanası sənin yerin oldu,***
***Ayaqların qanadlanıb göylərə pərvaz etdi.***

***Fani evdən baş götürüb,***
***Ümmi-Hani evinin övcünə (zirvəsinə) yuksəldin.***

***Cəbrail əlində halə gəlib (dedi):***
***Asiman (göy) sənin qulluğuna hazırdır.***

***Yeddi fələkdə halqa vurmuşlar,***
***Hamı Sənin tamaşana durmuşdur.***

---

[121] Nizami Gəncəvi, «Leyli və Məcnun» (filoloji tərcümə, izahlar və qeydlər professor Mübariz Əlizadənindir), Bakı, Elm, 1981, s. 25-28.

***Tez qalx, yatmaq vaxtı deyil!***
***Ay, Sən günəşin intizarındadır...»***[122]

Şair deyir ki, uca Allahın (c.c) yaratdığı bütün səma cismləri Onu qarşılayır, Onu görmək, Ona salam vermək həsrəti ilə yaşayır. Şairin təsvir etdiyi bu qarşılanma mərasimi məzmun, dil, bədii təsvir, ifadə vasitələri baxımından bir misilsiz sənət nümunəsidir, bir parlaq «merac tablosudur», şairin Peyğəmbər sevgisinin, mübarək gecənin önəmini dərindən bilməsinin göstəricisidir:

***... Utaridin dəftərində (adının) hərfləri ilə,***
***Dəvətinin rəmzi yazılmışdır.***

***Zöhrə hədiyyə tabağı başında,***
***(Gözləyir ki,) nurun nə vaxt Şərqdən görünəcəkdir.***

***Günəş hilal şəklində (hilal şəklinə düşərək),***
***Sənin yolunu zəhmətdən (maneədən) təmizləmişdir.***

***Mərrix gözətçilərindən biridir,***
***Ən kiçik nökərin kimi yanınca gedir.***

***Müştəri o haləli nuru ilə,***
***Gözünü (görüncə) «yaman gözdən iraq!» - demişdir.***

***Keyvan qara bayraq çiynində,***
***Qulağı halqalı kölə kimi sənin qulluğundadır.***

***Belə xidmətçilərin müşayiəti ilə,***
***Səfərə çıxmaq (böyük) şərtdir...***[123]

---

[122] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.
[123] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

Şair deyir ki, merac gecəsi islam Peyğəmbərinin «qədr gecəsi»dir. Qədr gecəsi mübarək Quranın nazil olmağa başladığı gecədir. Yer üzünə nurun axmağa başladığı, qaranlığın, cəhalətin ölümünə fərman verildiyi gecədir. Şairə görə, islam Peyğəmbəri üçün ən dəyərli, ən nurlu gecə merac gecəsidir:

***... Bu gecə sənin qədr gecəndir, tələs,***
***Öz qədr gecənin qədrini bil.***

***Əbədiyyət bəzəyi, bu gecə,***
***Məhəmmədin merac gecəsidir bu gecə.***

***Nə xoşbəxtdir o gecə ki,***
***Sənin dünyanı işıqlandıran qədəminlə***
***gündüzə döndü.***[124]

Şairə görə, merac gecəsi verilən nemətlər insanlığı cəhalət qaranlığından qurtarmaq üçündür. Kim bu ilahi nemətlərin dəyərini bilərsə, onları olduğu kimi anlayarsa, bu mübarək nemətlərin müəyyən etdiyi ölçüləri həyatının mənasına çevirərsə, doğru həyat ölçüləri kimi qəbul edərsə və onun buyruqlarına əməl edərsə, bu nemətlər o mömin üçün «əbədiyyət bəzəyi» olar, o merac səfərinə getmiş sayılar, Onun gecəsi gündüzə çevrilər və uca Allah (c.c) ondan razı olar. **Əslində, merac dəyərləri, merac nemətləri insanı xoşbəxt etmək məqsədi ilə islam Peyğəmbərinə verilmiş ölçülər sistemi və müjdədir, insanlığın müəllimi olan hz. Məhəmmədə (s.a.s) verilmiş təlimatdır, dərslikdir, bir müsəlmanın həyat proqramıdır. Şairə görə, bu dəyəri ilə merac gecəsi mübarək Qurani-Kərimin nazil olmağa başladığı qədr gecəsinə bənzəyir.**

---

[124] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

Şair «Leyli və Məcnun» dastanında merac gecəsinin gözəlliyini bu gecənin dəyərinə olan inamla, sevgi ilə, inanılmaz bədii təsvir və ifadə vasitələri ilə təqdim etmişdir. Bədii dilin gözəlliyi, obrazların əlvanlığı meracın əzəmətini dərindən anlatmışdır. Şair bədii təsvir və ifadə vasitələri ilə bir parlaq nur obrazı yaratmışdır. Şairə görə merac neməti insanlıq üçün sönməyən işıqdır: «Göyün cədvəlini çəkdin», «Adı Buraq olan şimşəyi Sənin gedişindəki helm ram etdi», «əl toxunulmamış taxta yüksəldin», «xoşbəxt kimi uçdun», «o bağın qırmızı və ağ bəhəri Sənin nəzərinin bəxşişindən parlaqlıq aldı», «Ayın tasını böldün», «fələyin bayrağını (qotazını) qırdın», «mavi fələyin tavus qanadlıları (mələklər) Sənin üçün qol, qanad saldılar», «mələklər Sənin nurunda kölgə qüslu etdilər», «Alnında nar gülü (ilahi nur), əlində kərəm fərmanı qayıtdın», «sən parlaq günəşsən», «yerin peyğəmbərlik səmasıdır», «rəyin xeyirxahlıq dəryasıdır», «İrəm bağı Sənə olan ümid və qorxusundan Sənin nəsiminin ətrinə bac verir», «o göydən gələn xəzinədir», «müşkündən küləyə ətir bağışla».

Şair bu meracnamədə böyük mələklərin adını çəkir. Şair deyir ki, islam Peyğəmbəri mələklərin gedə bilməyəcəyi bir ucalığa yüksəldi, mələklər ona heyran oldu: «Cəbrail Ona uzaqdan «Allah Səninlə olsun», - dedi», «Mikayıl səni qanadlarına aldı», «İsrafil ayaqlarına döşəndi».

Şair bu meracnamədə Sidrə və Ərşin adlarını çəkmiş, göyün ən yüksək təbəqəsində olan bu anlayışlarla islam Peyğəmbərinin merac zirvəsini təqdim etmişdir: «Rəfrəf Səni Sidrəgahın taxtına apardı», «Sidrə hüdudunu keçdin», «hədis təbəqələrini aşdın, yeddi göyün büsatından keçdin», «Ərşin darısqal qülləsinə çatdın», «Ərşdə uca Allahı (c.c) vəsf edən mələklər Sənin nurunda kölgə qüsulu etdilər», «Ərşin gərdək qapısından keçdin».

Şair bu meracnamədə islam Peyğəmbərinin merac səfərinin şəklini də anlatmışdır. Bilindiyi kimi, hz. Məhəmmədin (s.a.s) meracı ilə bağlı fərqli görüşlər var. Bir sıra alimlər Peyğəmbərin merac səfərinin cismani olmadığını, yəni Onun bədən ilə deyil, ruhən bu mərtəbəyə yüksəldiyini və yəqin bilgisi əldə etdiyini söyləyirlər. Ancaq başqa alimlər bu görüşü qəbul etmirlər və islam Peyğəmbərinin bədəni ilə merac səfərinə getdiyini bildirirlər. Hz. Nizami islam Peyğəmbərinin bədəni ilə merac səfərinə getdiyinə inanır və bunun mümkün olmasının şərtlərini açıqlayır. Ona görə, merac səfərinin şərti nəfs bağlarının qırılmasına, nəfsin istəklərindən azad olmağa bağlıdır. İslam peyğəmbərinin mübarək könlü uca Allah (c.c) sevgisi ilə nurlandığına görə O, merac gecəsi bədəni ilə (fiziki olaraq) uca Allahın (c.c) hüzuruna getmişdir:

***...Ərşin gərdək qapısından keçdin,***
***Yetmiş hicabı (pərdəni) yırtdın.***

***Paltarın ağırlığından azad oldun,***
***Həm tacı, həm də taxtı tərk etdin.***

***Cəhətlərin (tərəflərin) bazarını pozdun,***
***Üst, alt zəhmətindən xilas oldun.***

***Sərapərdəni (şah çadırını) iki aləmdən xaricdə,***
***«Qabə qövseyn»in xüsusi gərdəyində qurdun.***[125]

Hz. Nizami o biri meracnamələrində olduğu kimi bu meracnamədə də deyilən ideyanın təsdiqi olaraq islam Peyğəmbərinin merac gecəsi uca Allahı (c.c) gördüyünü

---

[125] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26-27.

bildirmişdir. Şair deyir ki, O, uca Allahı (c.c) gördü və Onu vasitəsiz, birbaşa eşitdi:

***... Həm «Zülcəlal» (cəlal sahibi olan Allah) həzrətlərini gördün,***
***Həm də haqq kəlamının sirrini eşitdin.***

***Vəhmin çoxluğu, idrakın dərinliyindən,***
***Həm görməyin, həm eşitməyin pak idi...***[126]

Şair merac gecəsi islam Peyğəmbərinin ümmətinin azadlığı ilə bağlı bütün istəklərinin qəbul olunduğunu bildirir. Uca Allah (c.c) sevimli elçisinin dualarını eşitdi və Ona ümmətin xilas elmi olan merac neməti verdi: «Hər nə ki muradın idi, istədin, istədiklərin adına xas oldu (verildi), İlahi həzrətlərinin yanından istədiyin kimi qayıtdın».

Şair bu beytdə merac nemətinin önəmini gözəl anlatmışdır. **Şairə görə, merac neməti bir «naz gülüdür», «ilahi nurdur», «kərəm fərmanıdır», «bağışlanmaq baratı»dır, «müjdə çiçəyi»dir.** Şair merac nemətinin dəyərini nur, ümid, bağışlanma və müjdə anlayışları üzərində qurmuşdur. Merac neməti cəhaləti yox etmək dərmanı, məlhəmi olduğuna görə, şair cəhalətin əlamətləri olan qaranlığı, qorxunu, ümidsizliyi rədd etmiş və onların ziddi olan nuru, gülü, bağışlanmanı, müjdəni merac nemətinin əlaməti olaraq uca Allahın (c.c) insanlar üçün hazırladığı sevgi məktubu kimi təsvir etmişdir. Uca Allah (c.c) bu sevgi məktubunu elçisinə verdi, onu insanlara çatdırmasını buyurdu.

Hz. Nizami «Leyli və Məcnun» dastanında olan meracnamədə islam Peyğəmbərinin insanlıq üçün dəyərini gözəl bir bədii dillə anlatmışdır. Şairə görə, O, xilaskardır, O, bir şahdır, O, öz kölgəsində ümmətinə sığınacaq vermişdir,

[126] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

O, bir parlaq günəşdir, O, sönməyən nurdur. Şair deyir ki, islam Peyğəmbərinin rəyi xeyirxahlıq dəryasıdır, Onun yeri peyğəmbərlik səmasıdır. **Şair, hz. Məhəmmədin (s.a.s) dəyərini anladarkən çoxluq, sonsuzluq anlayışlarını ifadə edən sözlər seçmişdir: O, nurdur, ancaq Günəş kimi nurdur, O, xeyir işlər sevir, ancaq dərya kimi sevir, yəni təmənna yoxdur, bu sevgi sonsuzdur. Onun yeri uca və genişdir, ancaq səma qədər uca və genişdir, o, bağlı qapıları açandır. Şair deyir ki, o, çox ətirlidir, İrəm bağının gülləri Onun küləyinin ətrinə bac verir. O, uca göylərdən gələn tükənməz xəzinədir.**

Şair islam Peyğəmbərinə iman etməyin önəmini də açıqlamışdır. Şair deyir ki, Ona inanmaq əbədi xoşbəxtliyi qazanmaq deməkdir:

***... Kim ki Sənin qədəmindən boyun qaçırmış,***
***Onun dövlətinə qələm çəkilmiş.***
***Hər kəs ki Sənin vəfana bel bağlamış,***
***Əbədiyyət seyrangahında əyləşmişdir...***[127]

Şair bu meracnamədə insanlığın islam Peyğəmbərinə olan ehtiyacını şərh etmişdir. Şair deyir ki, O, alimdir, uca Allahın (c.c) elmini ən dərin bilən Odur. O, yaradılışın sirlərini açandır, O, cəhalətin qənimidir, O, cəhalət adlı xəstəliyin məlhəmidir, insanın yaradılışındakı sirri biləndir, O, müəllimdir, insanları tərbiyə edəndir, insanları çətinlikdən, dardan qurtarandır:

***... Şahsan iki-üç (sirri) üzə çıxart,***
***Bu süfrəni, yükün üstündən götür.***

***... İki qara və ağın (gecə-gündüzün) rəngini sil!***
***Dörd təbdəki (qan, bəlğəm, səfra, sevda) təzadı aç!***[128]

---

[127] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.
[128] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 28.

Hz. Nizamiyə görə, islam Peyğəmbəri bir gözəl tərbiyəçidir, O, çətinlikləri həll edəndir. Şairə görə, O, yaradılış sirrini, həyatın mənasını hamıdan gözəl bilir:

***... Elə ki həyatı tərbiyə etdin,***
***Bütün çətinlikləri həll etmisən...***

***O lövhi (mətni) ki əvvəldən oxumuşsan,***
***Bizim xatirimizə də bir ayə sal!***[129]

Şair deyir ki, islam Peyğəmbəri insanı özünə tanıdır, Onun varlığının mahiyyətini, yaradılışının qayəsini izah edir. Bu da insanın ehtiyacı olan ən önəmli məsələdir, cəhalətdən xilas olmağın yoludur. Özünü tanımayan insan cəhalətdən qurtara bilməz:

***... Bizə bizim nə adlandığımızı göstər!***
***Büt qayıranıq, ya büt qıran, hansıyıq?!***[130]

Şair bu meracnamədə islam Peyğəmbərinə olan sonsuz sevgisini, Ona olan ehtiyacını ifadə etmişdir, Ondan dua və şəfaət istəmişdir:

***... Ey bütün işləri səndən asılı olan,***
***Nizami qəlbinin qüvvəti səndən olan!***

***Bu qəlbdən bir duaya qane ol,***
***Allah xatirinə (mənə) şəfaət et!...***[131]

Şair birinci meracnamədə də islam Peyğəmbərindən güc istəmişdir, bildirmişdir ki, Onun ətri bizim canımızın dərmanıdır:

***Öz səxavətinin dövrəsini axıra çatdır,***
***Öz sözlərini axıra çatdırmağa Nizamiyə imkan ver!...***[132]

---

[129] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 28.
[130] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 28.
[131] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 28.
[132] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 32.

## «YEDDİ GÖZƏL» DASTANINDA OLAN MERACNAMƏNİN ÖZƏLLİKLƏRİ

Hz. Nizaminin dördüncü dastanı «Yeddi gözəl» adlanır. Şair bu dastanda da islam Peyğəmbərinin meracına ayrıca yer ayırmışdır.[133] Dastandakı meracnamə «Kəramətli Peyğəmbərin meracı» adlanır. Şair bu meracnamənin girişini bir qədər fərqli təqdim etmişdir. Belə ki, meracnamənin girişi Cəbrailin (ə.s) islam Peyğəmbərinə müraciəti üzərində qurulmuşdur. Cəmi yetmiş doqquz beyt olan meracnamənin iyirmi dörd beyti müraciətdir. Girişdə Cəbrail (ə.s) islam Peyğəmbərini ayrı-ayrı yönlərdən təqdim edir. Mübarək mələk islam Peyğəmbərinə deyir ki, «sən xilas keşikçisisən», «keşik çəkmək iqbalını sənə gətirmişəm», «sən Aysan», «sən şahsan», «altı cəhəti kökündən qopar», «doqquz fələyi çarmıxa çək», «mələklərin başını öz kəməndinə sal».

***… Gecənin ətir saçanları sənə hazırlıq görürlər,***
***Yaşıl geyimlilər səni gözləyirlər.***

***Bu pərgarın Misir nazəninləri,***
***Yusif kimi sənə aşiq olublar.***

***Dur, qoy onlar bir dəfə sənə tamaşa eləsinlər,***
***Həm əllərini, həm də turuncu kəssinlər.***

***Öz ayaqlarının altında göyün türrələrini***
***Öz sayənin zülfü ilə təzələndir.***

***Öz atını uca göydən keçir,***
***Mələklərin eyvanını öz kəməndinə çək…***[134]

---

[133] Nizami Gəncəvi, «Yeddi gözəl» (filoloji tərcümə, izahlar və qeydlər professor Rüstəm Əliyevindir), Bakı, «Elm», 1983, s. 20-24.
[134] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 20-21.

Mələk bu müraciətdə islam Peyğəmbərini səfərə ruhlandırır. Bunun üçün də Peyğəmbərə merac gecəsinin önəmini anladır, Ona müjdə verir, bu gecə Onun tac sahibi, başçı olacağını bildirir:

***Gecə səyyahlarını çıraq kimi işıqlandır,***
***Üzün isə bağ çiçəkləri kimi təzə-tər olsun.***

***Gecə sənin gecəndir, vaxt isə dua vaxtıdır,***
***Sən (Ondan) hər nə istəsən, onu alacaqsan.***

***Mələklərin xalılarını təzələ,***
***Ərşin payəsindəki taxtda öz çadrını qur.***

***Ərşin gözlərini nurla işıqlandır,***
***Fərşin (Yerin) sinəsindən uzaqdan atlanıb keç.***

***Tacı al ki (indi) tacdar sən oldun,***
***Hamıdan başa keç, çünki başçı sən oldun.***[135]

Şair bu meracnamədə Cəbrailin (ə.s) merac səfəri ilə bağlı təklifinin islam Peyğəmbərinin könlündə oyatdığı duyğuların ifadəsinə yer vermişdir. Şairə görə, Cəbrailin (ə.s) dəvəti «ruhu oxşayan xəbər»dir, bu mübarək səfər Onun bayrağını hər iki aləmdə dalğalandıracaq, bu adi bir səfər deyil, əbədi olan uca Allahın (c.c) dərgahına yönəlmədir. İslam Peyğəmbəri dəvətlə bağlı sözləri eşidən kimi huşunu itirdi, uca Allahın (c.c) dəvətinə itaət etdi, «qulağına qulluq halqası taxdı».

Şair bu meracnamədə mələk Cəbraillə (ə.s), hz. Məhəmmədi (s.a.s) bir-biri ilə tutuşduraraq şərh etmişdir, onların eyni hədəfə xidmət etdiklərini, eyni mərkəzə bağlı olduqlarını

---

[135] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 20-21.

göstərmişdir. Şairə görə, mələk Cəbrailin (ə.s) və hz. Məhəmmədin (s.a.s) ən üstün özəlliklərindən biri «Əmin» (inanan və inanılan) olmasıdır. Hər şeydən öncə uca Allah (c.c) onlara əmindir, böyük əmanət bu iki mübarək varlığa verilmişdir, onlar «bir əmanətin xəzinədarı»dırlar. Onlar uca Allahın (c.c) insanları cəhalətdən qurtarmaq üçün nazil etdiyi Quranın qoruyucularıdırlar. Cəbrail (ə.s) iblisdən, islam Peyğəmbəri isə iblis insanlardan uzaq idi:

***... Biri Tanrının (kəlamını) yerə endirən əmin,***
***O biri isə (Tanrının) kəlam və göstərişi ilə***
***(silahlanmış) ağıl əmini.***

***O, göndərilmiş sifarişləri sahibinə çatdırır,***
***Bu isə kəlamın sirrinə qulaq asırdı...***[136]

Şair meracnamədə islam Peyğəmbərinin merac sevgisini, bu dəvətdən yaranan ruh halını, uca Allaha (c.c) doğru can atmasını, dərhal sevgilisinə qovuşmasını hərəkət, sürət anlayışını ifadə edən sözlərlə gözəl təsvir etmişdir: **«O, şimşək kimi Buraqa mindi», «ərəb atı altında», «qamçı əlində», «şahin qanadlı», «ucalarda süzən kəklik kimi yerindən sıçradı», «Buraq Aya tərəf çapdı», «elə uçurdu ki, onun şığımağı qarşısında dörd şahin qanad saldı», «hər şeyi ayaq altına qoydu», «gecə təpik yedi», «Ay cilovunu çəkdi».**

***... Xəyal onun səyirməyini görə bilərdimi?***
***Şimşək (onun qabağında) qılıncını sıyıra bilərdimi?***

***Ruhun hərəkəti comərdlikdə (Ona çata bilərdimi)?***
***Ağılın sürəti dünyanı dolaşmaqda,***

***Onların hamısı Onun yerişinin qarşısında***
***axsayırdılar,***
***Onun geniş addımlarının qabağında sıxılmışdılar.***

---

[136] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

***O səyirərək qütbün seyrini keçdi.***
***Cənub ilə şimal (qütbləri) geridə qaldılar…***[137]

Bu misralarda xəyalın, şimşəyin, ruhun, ağlın sürəti ilə merac gecəsi islam Peyğəmbərinin uca Allaha (c.c) doğru yüksəliş sürəti müqayisə edilmiş, bu yolla da meracın dəyəri, uca Yaradana olan Peyğəmbər sevgisi gözəl ifadə edilmişdir. Sevən sevdiyinə doğru can atır, Ona doğru uçur, «tünd gecə küləyi kimi zəncirlənmiş şirə bənzər köhlən belində süzürdü».

Şair bu meracnamədə bir sıra səma cismlərinin adına, onların özəlliklərinə də yer ayırmışdır:

***… O, Ayın həmayil xəttinə,***
***Öz fəzilətindən təravət bəxş etdi.***

***O, Utaridə öz əlinin gümüş işlərindən,***
***Öz qalay kürəsindən rəng bağışladı.***

***Zöhrənin (başına) isə,***
***Ay işığından civə rəngli örtük saldı.***

***Onun çapdığı göy yollarının tozundan,***
***Günəşin başına qızıl tac qoydu.***

***Gecənin xəlifəsinə yaşıl geyindirib,***
***Qırmızı paltarı Mərrix üçün saxladı.***

***Müştərini başdan-ayağa qədər,***
***Başı ağrılı görüb, Ona səndəl sürtdü.***

---

[137] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.

***Keyvanın tacı onun qədəmini öpərkən,***
***Bayrağını ənbərlə qaraya boyadı...***[138]

Şair meracnamədə mələklərin adını çəkmişdir. Onları bağlı olduqları özəllikləri ilə təsvir etmişdir. «Cəbrail müjdə gətirir», «Mikayılın kəcavəsi», «İsrafilin suru» kimi ifadələr meracın xarakterinin açılmasına yardım edir.

Şair bu meracnamədə Qurani-Kərimin bir sıra ayələrinə birbaşa müraciət etmişdir. Şair merac gecəsi islam Peyğəmbərinin uca Allaha (c.c) yaxın olduğunu ifadə edərkən deyir:

***... Həmin əsnada «iki kaman arasındakı məsafə»***
***Ona «yaxından daha da «yaxın» oldu»...***[139]

Şair bu misraları yazarkən Qurani-Kərimin «ən-Nəcm» (53/5-14) surəsində olan ayələrə əsaslanmışdır. Bu ayələrdə Peyğəmbərin mələk Cəbraili (ə.s) gördüyü bildirilir:

علمه شَديد الْقُوى . ذُو مرة فَاستَوى . وهو بِالْأُفُق الْأعلَى . ثُم دنَا فَتَدلى . فَكَان قَاب قَوسينِ أَو أَدنَى . فَأَوحى إِلَى عبده ما أَوحى . ما كَذَب الْفُؤَاد ما رأَى . أَفَتُمارونَه علَى ما يرى . ولَقَد رآه نَزلَةً أُخْرى . عند سدرة الْمنْتَهى

(ən-Nəcm, 53/5-14)

«Onu (Məhəmməd əleyhissəlama) çox qüvvətli olan (Cəbrail) öyrətdi. O qüvvət sahibi (səmada öz həqiqi surətində) bərqərar oldu (Peyğəmbərə olduğu kimi göründü). O (Cəbrail) ən uca üfüqdə (Günəşin çıxdığı yerdə) idi. Sonra

---

[138] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.
[139] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

(Cəbrail Məhəmməd əleyhissəlama) yaxınlaşdı və aşağı endi. (Onların arasındakı məsafə) iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu. Sonra (Cəbrail, Allahın) Öz bəndəsinə (Məhəmmədə) vəhy buyurduğunu vəhy etdi. Qəlb (Peyğəmbərin qəlbi) gördüyünü yalan saymadı. (Məhəmməd əleyhissəlam gözü ilə gördüyünün Cəbrail olduğuna qəlbən inandı). Siz onunla gördüyü barəsində mübahisə edirsiniz? And olsun ki, (Məhəmməd əleyhissəlam gözü ilə gördüyünün Cəbrail olduğuna qəlbən inandı). Siz onunla gördüyü barəsində mübahisə edirsiniz? And olsun ki, (Məhəmməd əleyhissəlam Cəbraili öz həqiqi surətində) başqa bir dəfə də (merac vaxtı) görmüşdü. (Yeddinci göydəki) Sidrətül-müntəhanın yanında…»

Hz. Nizami bu meracnamədə də islam Peyğəmbərinin uca Allahı (c.c) merac gecəsi gördüyünü son dərəcə incə bədii cizgilərlə təsvir etmişdir. Şair bir nur mənzərəsi yaratmışdır:

***… Elə ki, min nur pərdəsini yırtdı,***
***Onun gözü nuru pərdəsiz gördü.***

***O, öz varlığından bir addım da yüksəldi.***
***Ki, Tanrını görmək ona müyəssər oldu.***

***Öz məbudunu dürüst görüb,***
***Gözlərini bütün gördüklərindən yuyub təmizlədi.***

***Onun gözü bir cəhətdə dayana bilmirdi,***
***Sağdan və soldan isə Onun salamlarını eşidirdi?...***[140]

Hz. Nizami merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) gördüyü fikrini ifadə edərkən uca Yaradanın cəhətsiz olduğunu bildirir və deyir ki, O, məkansızdır, O, cism deyil, Onun zamanı yoxdur, zaman və məkan ölçülə-

---

[140] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

rindən kənara çıxa bilməyənlər Onu görə bilməz. «Hər bir şeyə cəhət olana cəhət nə gərək?», «Hər şeyi əhatə edənə cəhət sığarmı?», «Orada peyğəmbərin nəfəsindən başqa bir şey yox idi», «Orada Haqdan başqa bir kimsə yox idi». Sonra şair cəhətsiz olan uca Allahı (c.c) görə bilməyin şərtlərini açıqlayır:

***… Aşağı və yuxarı, ön və arxa, sağ və sol,***
***Bir cəhətə çevrildilər, altı cəhət aradan qalxdı.***

***Altı cəhət (onun önündə) nə dil çıxara bilər?***
***Həm cəhət, həm də cahan (Ondan) qaçarlar.***

***Cəhətsiz olanın cəhətlə işi olmaz.***
***Bu cəhətdən (səbəbdən) o pərgar cəhətsiz oldu.***

***Onun nəzəri cəhətin (üzünə) niqab salmayınca,***
***Ürəyi təşviş və iztirabdan azad ola bilmədi.***

***Cəhət gözdən itəndə***
***Cəhətsizi o cür görmək olar…***[141]

Şair bu meracnamədə islam Peyğəmbərinin merac gecəsi uca Allahdan (c.c) aldığı neməti ayrıca və incə bir dillə təqdim etmişdir. Şair deyir ki, merac neməti «xüsusi şərbət»dir, «xüsusi xələt»dir, «ümmət üçün xilas fərmanıdır»:

***… Onun camı iqbal, saqisi isə mərifət oldu,***
***Və (mərifət camının) dibində bir damla da qalmadı.***

***Yüz min mehriban salamlarla,***
***O dairənin zirvəsindən o, aşağı endi…***[142]

---

[141] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 24.
[142] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 24.

Hz. Nizaminin şərhində islam Peyğəmbərinin merac neməti uca Allahın (c.c) insanlara sevgisinin, Peyğəmbərin ümmət üçün etdiyi fədakarlığın göstəricisidir. O, «gətirdiyi bütün töhfələri yoldaşlarına bağışladı», bu neməti «günahkarların işinə vəqf elədi».

Hz. Nizami bu meracnamədə uca Allahın (c.c) sevgisini qazanmağın ölçülərini də göstərmişdir. Şairə görə, əgər insan ucalmaq istəyirsə, əbədiyyət mülkünə sahib olmağa can atırsa, dünyaya, onun fani malına itaət etməməlidir, nəfsini məğlub etməlidir, könlünə uca Allahın (c.c) sevgisini yerləşdirmək üçün onu nəfs adlı bəladan, çirkabdan təmizləməlidir. Bunun yolu da hz. Məhəmmədin (s.a.s) dininə sarılmaqdır. Çünki Onun dini əbədi xoşbəxtlik ölçüləri üzərində qurulmuşdur. İnsan ağlını, imanını islam dini vasitəsi ilə, Onun şəriətinin ölçüləri ilə qoruya bilər:

***... Ey Nizami, nə qədər dünyapərəstlik olar?***
***Yüksəklərə ucal, nə qədər alçaqlarda qalmaq olar?***

***Səy elə ki, əbədiyyət mülkünü tapasan,***
***Onu isə Məhəmmədin dinində taparsan.***

***Əgər ağıl etiqadı qorusa,***
***(Əzabdan) xilas olmağı şəriət işığında gör.***[143]

## «İSGƏNDƏRNAMƏ» DASTANINDA OLAN MERACNAMƏNİN ÖZƏLLİKLƏRİ

Hz. Nizaminin sonuncu və ən böyük dastanı «İsgəndərnamə» adlanır. Bu böyük dastan «Şərəfnamə» və «İqbalnamə» adlı iki böyük bölmədir. Şair dastanın «Şərəfna-

---

[143] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 24.

mə» adlı birinci bölməsində islam Peyğəmbərinin meracına ayrıca yer ayırmışdır.[144] Kitabdakı bu bölmə «Peyğəmbərin meracı» adlanır. Bu meracnamənin bir sıra özəllikləri var. Şair bu meracnaməni birbaşa islam Peyğəmbərinin tərifi ilə təqdim edir. Şair deyir ki, hz. Məhəmməd (s.a.s) «bu vilayətin başçısıdır, sultanıdır», «bir neçə xəlifənin vəliəhdidir», «O, peyğəmbərlərin varisidir».

Şair girişdə islam Peyğəmbərinin meracına xüsusi hazırlıq görüldüyünü ifadə etmişdir. O gecə «göylər məclis qurmuşdu», «gecə gündüz olmaq iddiasında idi», «yeddi sultanın qəsrindən üstü gövhərlərlə bəzədilmiş Çin ipəyindən olan pərdə asılmışdı», «behişt bağının yaşıl don geyinənlərinin başçısı bütün çəmənlikləri yaşıllıqla bəzəmişdi».

Şair meracnamənin girişində merac anlayışı ilə bağlı olan anlayışları təqdim edərək bu gecənin dəyərini ifadə edən bütün detallara yer vermişdir. Şair girişdə Məkkə şəhərini «yerin göbəyi» adlandırmış, «Beyti-əqsa» məscidinin adını çəkmişdir. Şair deyir ki, merac gecəsi islam Peyğəmbəri bu dünya bəndindən xilas oldu və mələklərin sevimlisinə çevrildi:

***… Yetmiş yollu bu diyardan köçünü vurdu,***
***Və öz sarayını yeddinci göydə qurdu.***

***Ürəyini doqquz hücrənin fikrindən azad etdi,***
***Göydəki doqquz hücrəyə tərəf yönəldi.***

***Dördqıfıllı bənddən çıxdı, xilas oldu,***
***Atını yeddi uca fələyə (tərəf) qovdu.***

***Altında şimşək sürətli atı – Buraq,***
***Yəhəri, yüyəni günəş kimi nura qərq olmuşdu.***

---

[144] Nizami Gəncəvi, «Şərəfnamə», (filoloji tərcümə, izahlar və qeydlər professor Qəzənfər Əliyevindir), Bakı, Elm, 1983, s. 30-34.

***O, Süheyl ulduzu kimi ərəb səmasında ucaldı,***
***Yəmən gönü öz məlahətli rəngini ondan aldı...***[145]

Hz. Nizami islam Peyğəmbərinin merac gecəsinin dəyərini, Peyğəmbərin uca Allah (c.c) sevgisini anlatmaq üçün bu meracnamədə Buraq adlı «ata» ayrıca yer vermişdir. Şair islam Peyğəmbərinin sevgisi ilə Buraqın sürəti arasında əlaqə qurmuş, Onun çox sevdiyi uca Allaha (c.c) can atdığını göstərmişdir. Bu gecə qeyri-adi bir gecədir və Peyğəmbərin miniyi də çox fərqlidir. Şairin təqdimində Buraqın sürəti göylərə doğru yüksəlişi gözəl ifadə edir:

***... Quyruğu ipək, dırnağı inci,***
***Elə bil ki, ipək üstündə inci axırdı.***

***Ahu deyildisə də, göbəyi müşklə dolu idi,***
***Ceyran dişi kimi bir düzüm inciydi.***

***Yüyəni güman ediləcəkdən də yumşaq idi,***
***Kamandan çıxmış oxdan da sürətli idi.***

***Ən kəskin və göylərə uçan təxəyyül (yürüşdə),***
***Ondan yetmiş addım geri qalırdı.***

***Dünyaları açmaqda o, mələk kimi idi,***
***(Buraq) aləmaçan yox, aləmçəkən idi,***

***O gecə gecə rəngli (Büraq) gecə otlağında***
***məst olmuşdu,***
***Əlində ay kimi işıqlı şəbçiraq var idi.***

***Elə olurdu ki, onun addımlarının sürətindən,***
***Onun dayanması sıçrayışından qabağa düşürdü.***

---

[145] Nizami Gəncəvi, «Şərəfnamə», göstərilən qaynaq, s. 31.

*Onun ayağının sürəti baxış sürəti idi.*
*Hətta baxışı belə tapdalayıb ötürdü…*[146]

Şairə görə, Peyğəmbər «yol bilən» idi, Buraq isə «yol gedən»dir. Şair bu meracnamədə gözəl bədii təsvir və ifadə vasitələrindən istifadə etmişdir. O, göyləri dəniz adlandırır və deyir ki, «asiman onun əlindən təzə xirqə (don) geyindi», «onun vücudu ilə qaranlıq göylər gülşənə çevrildi», «ulduzların gözü onunla işıqlandı», «toz izi görməyən təmiz pərdəyə (saraya) ətəyi tozlu yaxınlaşmaq olmazdı», «O göy dənizində ayağının toz-torpaqlarını yudu», «öz təbiətinin varlığını bu səyyarələrə payladı», «Aya isə yuxu beşiyini verdi», «Utaridin qələmini qırdı», «ümmi əlinə qələm alarmı», «təbiətin talağını Nahidə verdi», «sədəqə üçün Günəşə bir dəyirmi çörək verdi», «öz qəzəbinin atəşini Mərrixə verdi», «təkəbbürü Müştəriyə buraxdı», «üzüyünə yeni bir qaş taxdı», «bu qaralan səyyar gəmini Keyvana tapşırdı», «varlığından ancaq ürəyi qalmışdı», «peyğəmbərlərin canı onun (ayağının) torpağı oldu», «Onlardan hər biri yəhərinin qunzuğuna əl çəkirdi».

Şair bu meracnamədə hz. Musa (s.a.s), hz. Xızır (s.a.s) və hz. İsanın (s.a.s) adını çəkmişdir:

*… Musa və Xızır qasid kimi qaçırdı,*
*Məsiha, nə deyim, atının qabağında yüyürürdü.*

*Bunlar bir nəfəs alınca,*
*Bir göz qırpınca,*

*Göyün ən uca günbədini o aşdı,*
*Məkan və zaman vərəqini (oxuyub) başa vurdu…*[147]

---

[146] Nizami Gəncəvi, «Şərəfnamə», göstərilən qaynaq, s. 31.
[147] Nizami Gəncəvi, «Şərəfnamə», göstərilən qaynaq, s. 32.

Şair bu meracnamədə mələklərin də adını çəkmişdir. Şair deyir ki, bu yolda «Cəbrailin qanadı töküldü», «İsrafil bu dəhşəti görərkən qorxdu». Şairə görə, o, elə bir yerə yüksəldi ki, orada məkan və zaman anlayışı yox idi:

***... Yerdə doğulmuş göylərdə gəzdi,***
***Yeri, asimanı aşağıda buraxdı.***

***Mücərrəd dolanmağı o yerə çatdırdı ki,***
***Artıq onun (cismani) varlığından heç***
***bir şey qalmadı.***

***Yoxluq yolunda o dövr etməyə başladığı üçün,***
***Öz varlığından kənara çıxdı.***

***O dövr etdiyi dairədə,***
***Onun ayağı ilə başı bilinmirdi.***

***O aşağı-yuxarısı olmayan yolda cəsarətlə irəlilədi,***
***Çünki dairənin nə aşağısı, nə də yuxarısı var...***[148]

Hz. Nizami bu meracnamədə islam Peyğəmbərinin ümməti üçün dua etdiyini bildirmişdir. Şairə görə, O, «heç fikrin də görə bilmədiyi yerdə dua etmiş» və Onun duası qəbul olunmuşdur. Şair bu meracnamədə də islam Peyğəmbərinin uca Allahı (c.c) gördüyünü ifadə etmişdir: «O üz ki, görmək olardı, gördü, O gördü ki, həzrət zülcəlaldan o tərəfə nə məkan var, nə də təsəvvür. Varlığı nərgiz kimi bütünlüklə nəzərə çevrildi, Onu bütün varlığı ilə gördü».

Şair bu meracnamədə Qurani-Kərimin «ən-Nəcm» surəsinin 17-ci və 18-ci ayələrinə istinad etmişdir. Şair deyir

---

[148] Nizami Gəncəvi, «Şərəfnamə», göstərilən qaynaq, s. 33.

ki, islam Peyğəmbəri bütün varlığını uca Allaha (c.c) təslim etmişdi, Onun imanı kamil idi və O, merac gecəsi qeyri-adi əlamətlər görəndə çaşmadı.

ما زاغَ الْبصر وما طَغَى . لَقَد رأَى من آيات ربه الْكُبرى

(ən-Nəcm, 53/17-18)

«… Göz nə (sağa-sola) yayındı, nə də uzağa getdi (hər şeyi olduğu kimi gördü). And olsun ki, (Peyğəmbər) öz Rəbbinin ən böyük qüdrət nişanələrindən (möcüzələrindən) bir qismini (Beytül-məmuru, Sidrətül-müntəhanı, Cənnəti, Cəhənnəmi, Rəfrəfi, altı yüz qanadı olan Cəbrailin həqiqi surətini) gördü».

Şair bu meracnamədə uca Allahın (c.c) merac nemətini təqdim etmək üçün bu anlayışın məzmununu tam ifadə edən gözəl bir bənzətmə seçmişdir. Şair deyir ki, bu mübarək gecədə islam Peyğəmbəri «ixlas süfrəsinə» yönəldi. «İxlas» ərəbcə bir kəlmədir. Bir şeyi təmizləmək, saflaşdırmaq, yad maddələrdən arındırmaq, bir şeyi ancaq bir şeyə aid etmək, başqasına qarışdırmamaq deməkdir. «Xalis» kəlməsi ilə eyni kökdəndir. «İxlas» termin olaraq ancaq uca Allahın (c.c) rizasını qazanmaq, etdiklərini ancaq uca Allahın (c.c) əmr etdiyi üçün etmək, etmədiklərini də uca Allahın (c.c) yasaqladığı üçün etməmək, riyakarlıqdan uzaq olmaq, səmimi olmaq deməkdir. «İxlas» uca Allahdan (c.c) başqa bir şeyə ürəkdən bağlanmamaqdır. Uca Allah (c.c) Qurani-Kərimdə Ona ixlasla qulluq edilməsini buyurmuşdur:

إِنا أَنزلْنَا إِلَيكَ الْكتَاب بِالْحق فَاعبد اللَّه مخْلصاً لَه الدين

(əz-Zumər, 39/2)

«(Ey Peyğəmbər!) Biz Kitabı sənə haqq olaraq nazil etdik. Buna görə sən də dini məhz Allaha xas edərək yalnız Ona ibadət et».

قُلْ إِنِّي أُمِرْتُ أَنْ أَعْبُدَ اللهَ مُخْلِصاً لَهُ الدِّينَ

(əz-Zumər, 39/11)

«De: «Mənə dini (itaəti) məhz Allaha məxsus edərək yalnız Ona ibadət etmək əmr olunmuşdur».

Uca Allah (c.c) buyurur ki, şeytanın şərindən ancaq ixlas sahibi olan qullar xilas ola bilər:

قَالَ رَبِّ بِمَا أَغْوَيْتَنِي لَأُزَيِّنَنَّ لَهُمْ فِي الْأَرْضِ وَلَأُغْوِيَنَّهُمْ أَجْمَعِينَ

إِلَّا عِبَادَكَ مِنْهُمُ الْمُخْلَصِينَ

(ər-Hicr, 15/39-40)

«(İblis) dedi: «Ey Rəbbim! Məni azdırmağına (rəhmətindən kənar etməyinə) əvəz olaraq and içirəm ki, mən də (bunun müqabilində) onlara (pis əməllərini, günahlarını) yer üzündə yaxşı göstərib onların hamısını yoldan çıxaracağam! Yalnız Sənin sadiq bəndələrindən başqa!»

Uca Allah (c.c) buyurur ki, axirətdəki yandırıcı əzabdan ixlas sahibi olan qullar qurtulacaqlar:

إِنَّكُمْ لَذَائِقُو الْعَذَابِ الْأَلِيمِ . وَمَا تُجْزَوْنَ إِلَّا مَا كُنْتُمْ تَعْمَلُونَ إِلَّا عِبَادَ

اللهِ الْمُخْلَصِينَ

(Saffat, 37/38-40)

«Siz (müşriklər) şiddətli əzabı mütləq dadacaqsınız! Siz ancaq etdiyiniz əməllərin cəzasını alacaqsınız. Allahın müxlis bəndələri isə müstəsnadır».

İslam Peyğəmbəri namazın sonunda belə dua etmişdir: «Allahım, məni ixlas sahibi et».[149]

İslam Peyğəmbərinə görə, ixlas niyyətlə bağlıdır. Ona görə də əməllər niyyətlərə görə dəyərləndirilir. Xalis əməl ancaq uca Allahın (c.c) rizasını qazanmaq üçün edilən işlər-

---

[149] Əbu Davud, 25; «Müsnəd», 4/369.

dir: «Əməllər niyyətlərə görədir. Hər insan üçün niyyətinin qarşılığı var…»[150]

«Allah görünüşünüzə və mallarınıza baxmaz. Qəlblərinizə və əməllərinizə baxar».[151]

İxlasın hər iki dünya üçün böyük önəmi var: «… Yapdığı işleri Allah rızası için yapan kişi menfeatparestlikten ve eqoistlikten uzaklaşır, ruhi yüksekliklere kanat açar, süfli duygulardan uzaklaşır. Nefse, arzularına, zevklerine, eşyaya, mala, mülke, şöhrete, makam ve mevkiye hayat ve davranışlarının qayesi olarak yer vermeyen kişi bunların mahkumu ve kölesi olmaktan kurtularak gerçek hürriyete ve mutluluğa ulaşır. Dünyanın geçici tutkuları insan için en büyük huzursuzluk kaynağıdır. Sadece Allah rızasını gaye edinen ve hayatında attığı her adımı ona göre ayarlayan, zihnindeki degerleri ve gönlündeki duyguları yaratanın rızasına göre şekillendiren kişi fıtratına uyğun bir hayat anlayışı içinde olacağından gerçek huzura erer. Böyle ruhi yüceliklerle bezenmiş bir kişi çevresindeki bütün insanların gerçek sevgilerine mazhar olacağından dolayı yalnızlık, güvensizlik, dünyevi korkular gibi tedirginedici duyğulardan uzaklaşır, en önemli stres kaynaklarından korunmuş olur… Geçici dünya menfeatlerini hayat qayesi edinmeyen ve Allaha kullukta birleşen ulvi ruhlardan teşekkül eden bir cemiyette gerçek birlik, beraberlik, yardımlaşma, kardeşlik ve insanlararası sevgi tezahur eder».[152]

İnsanın könlündə ixlas qazanmasının yolu da bir an olsun belə uca Allahı (c.c) unutmamasıdır, hər zaman o uca varlığın hüzurunda olduğunu bilməsidir, ixlasın imandan sonra ən önəmli nemət olduğunu anlamasıdır.

---

[150] Buxari, «İman», 41; «Nikah», 5; Müslim, «İmarə», 155; Talak, 11; Tirmizi, «Fedailul-Cihad», 16.

[151] Müslim, «Birr», 33; İbn Macə, «Zühd», 9; «Müsned», 2/285.

[152] «İslami kavramlar», göstərilən qaynaq, 359-360.

Şair mübarək merac nemətlərini «ixlas süfrəsinin» «qidası» adlandırmışdır. Şair deyir ki, uca Allah (c.c) bu «ixlas süfrəsi»ndə Onun ürəyini fəzilət və nurla doldurdu, o həm özü yedi, həm də bizim üçün ayırdı:

***... Dünyaya çöhrəsində nur qayıtdı,***
***Bütün aləmin elmini (və hikmətini) öyrənmişdi.***

***Elə getdi və elə geriyə döndü ki,***
***Bunu heç kəsin təsəvvürü qavraya bilməz.***[153]

Şair deyir ki, Onun mübarək varlığı pakdır, saf və təmizdir, ona görə də bir anda merac səfərini başa vurub, geri qayıtdı, «onun yatağının istiliyi hələ getməmişdi».

Hz. Nizami bu meracnamədə öncəki meracnamələrindən fərqli məsələlərə də yer ayırmışdır. O, islam Peyğəmbərinin ən yaxın dörd səhabəsinə, dörd xəlifəyə də yer vermişdir. Şairə görə, onlar gövhərdir, onlar islam dövlətinin dörd təkbirini tamamlamışlar:

***... Əlinin eşqində hərçənd ki, möhkəməm,***
***Ömərin eşqindən də xali deyiləm.***

***Eyni zamanda mənim işıqlı dimağımın gözündə,***
***Əbubəkr şamdır, Osman çıraqdır.***

***Bu dərviş xislətli dörd sultanla,***
***Dövlətin dörd təkbirini tamamlamışlar...***[154]

Hz. Nizami bu meracnamədə islam Peyğəmbərini uca Allahın (c.c) elçilərinin başçısı adlandırmışdır. Şairə görə, hz. Məhəmməd (s.a.s) «xəzinələr qıfılının açarıdır», «bizim

---

[153] Nizami Gəncəvi, «Şərəfnamə», göstərilən qaynaq, s. 33.
[154] Nizami Gəncəvi, «Şərəfnamə», göstərilən qaynaq, s. 34.

önümüzdə xeyir və şər qapılarını açan sənsən». Şairə görə, O, ümməti uğrunda özünü fəda etmişdir:

***… Peyğəmbərlərin önündə gedənə alqış,***
***Düşgünlərin üzrünü qəbul edənə alqış.***

***Sən yaranışın başlanğıcında birinci əqli-xilqətsən,***
***Dövranın axırında da sonuncu ayət sənsən.***

***Hər iki aləmin seçdiyi sənsən,***
***Əgər sənin kimi biri də varsa, o da sənsən.***

***Xəzinələr qıfılının açarı sənsən,***
***Bizim önümüzdə xeyir və şər qapılarını***
***açan sənsən.***

***Bu yaxşı gündə bizi günahsız etmək naminə,***
***«Mənim ümmətim», «mənim ümmətim», -***
***deyə öz möhrünü bizə vuran sənsən…***[155]

Hz. Nizami bütün meracnamələrində olduğu kimi, bu meracnamədə də uca Allaha (c.c) dua etmişdir, özünü islam Peyğəmbərinin ümmətinin «torpağı» adlandırmışdır.

---

[155] Nizami Gəncəvi, «Şərəfnamə», göstərilən qaynaq, s. 34.

## HZ. NİZAMİDƏN NUR DAMLALARI

***Məndə çoxlu qiymətli mətahlar var,***
***İstəyən olmasa, üzə çıxarmaram.***

***İnci müştərilərinin gözü sədəf kimi bağlıdır,***
***Belə kasadlıqda mal satmaq düz deyil.***

***Belə bir qiymətli gövhərim olduğu üçün,***
***Mənim gövhər tanıyana, sevənə ehtiyacım var.***

***Əgər xurma ağacı hündür olmasa idi,***
***Hər bir uşaq onu tarac edə bilərdi.***

## BİR NEÇƏ SÖZ

Həzrət Nizami Gəncəvi islam dininin, peyğəmbərliyin, insanlığın inkişaf tarixində çox önəmli yeri olan merac hadisəsini dini, tarixi, ideya və məna yönləri ilə şərh etmişdir. Şair beş dastanının hər birində merac hadisəsinə yer vermiş, meracı bütün incəlikləri ilə, bədii təsvir və ifadə vasitələri baxımından zəngin olan poetik bir dillə göstərmiş, izahını vermişdir. Şairə görə, merac adi bir hadisə deyil, merac hadisəsi vasitəsi ilə uca Allahın (c.c) islam peyğəmbərinə verdiyi dəyərlər islam mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Bu dəyərlər insanlığın qoruyucusudur, insanlığın inkişafının, uca Allahın (c.c) müəyyən etdiyi fitrətə uyğun yaşamasının təminatıdır.

## MERACA DOĞRU BİRİNCİ ADDIM: HZ. MƏHƏMMƏD (s.a.s) CƏNUB ŞAHIDIR

نیم شبی کان ملک نیمروز
رد روان مشعل گیتی فروز

***Elə ki gecə yarısı o cənub şahı,***
***Cahanı işıqlandıran məşəllə (zatı ilə)***
***yola düzəldi.[156]***

چون نگنجید در جهان تاجش
تخت بر عرش بست معراجش

***Onun tacı bu cahana sığmadığı üçün,***
***Merac Onun taxtını ərşə qaldırdı.[157]***

محمد که سلطان این مهد بود
ز چندین خلیفه ولیعهد بود

***Bu vilayətin beşiyi, sultanı olan Məhəmməd,***
***Bir neçə xəlifənin vəliəhdi idi.[158]***

Hz. Nizami meracnamələrində islam Peyğəmbərini merac öncəsi hazırlıq mərhələsində şah, sultan, vəliəhd kimi təqdim etmişdir. Ümumiyyətlə, islam Peyğəmbərini sultan, şah kimi təqdim etmək şairin nətlərinin özəlliklərindən biridir. Məsələn, şair nətlərində Peyğəmbəri belə təsvir edir: «Dörd yoldaşı növbə ilə beş növbə şahsüvarın yanında

[156] Nizami Gəncəvi, «Sirlər xəzinəsi» (filoloji tərcümə, izahlar, şərhlər və lüğət professor Rüstəm Əliyevindir), Bakı, «Elm», 1981, s. 27.
[157] Nizami Gəncəvi, «Yeddi gözəl» (filoloji tərcümə, izahlar, şərhlər və qeydlər professor Rüstəm Əliyevindir), Bakı, «Elm», 1983, s. 20.
[158] Nizami Gəncəvi, «İsgəndərnamə» (filoloji tərcümə, izahlar, şərhlər və qeydlər professor Qəzənfər Əliyevindir), Bakı, «Elm», 1983, s. 31.

(təbil) çalandır»,[159] «Ey varlıq mülkünün şahsüvarı, Zirəklikdə ağıl sultanı!»,[160] «Cahanın qulağı onun «mim»inin halqasını daşıyandır, Hər iki cahanın (dünyanın) halqası onun itaətindədir»,[161] «Cahan sənin tac və taxtındır, Sənin taxtın yer və tacın göydür»,[162] «Qılınc və tacı ilə peyğəmbərlərin şahıdır, Onun qılıncı şəriət, tacı isə onun meracıdır»,[163] «O, yer mülkündə Allahın naibi idi, O, şahların hamısına mat verən idi»,[164] «Hər şey taxtdır, O isə Süleymandır»,[165] «Ona xərac gətirənlər Rum və Rey hakimləridir, Kəsra da, Key də ona xərac göndərmişlər»,[166] «Əgər bir hakim qılıncı başı üstə qaldırsa, Onda onun qılıncı tacları başdan salar»,[167] «O, yoxsul və eyni zamanda dərviş geyimli sultandır. Ki, qulamlıq alan, padşahlıq satandır».[168]

Şairə görə, O, cənub şahıdır, sultandır, ancaq adi sultanlardan fərqlidir. Başlıca fərq odur ki, Onu uca Allah (c.c) seçmişdir, Onun hakimiyyətinin ölçülərini uca Allah (c.c) müəyyən etmişdir, Onun hakimiyyəti bütün yer üzünü əhatə edir, cahan Onun taxt və tacıdır, Onun mülkündə ədalət var, Onun mülkünün qanunları uca Allahın (c.c) buyruqlarıdır, Onun taxtı yer, tacı göydür. O, könüllərin sultanıdır, O, adi sultan deyil, peyğəmbərlərin başçısıdır, Onun başında peyğəmbərlik tacı, bir əlində qılınc (şəriət), bir əlində isə

---

159 Nizami Gəncəvi, «Xosrov və Şirin» (filoloji tərcümə, izahlar, şərhlər və qeydlər professor Həmid Məmmədzadənindir), Bakı, «Elm», 1981, s. 32.
160 Nizami Gəncəvi, «Leyli və Məcnun» (filoloji tərcümə, izahlar, şərhlər və qeydlər professor Mübariz Əlizadənindir), Bakı, «Elm», 1981, s. 22.
161 Nizami Gəncəvi, «Sirlər xəzinəsi» (filoloji tərcümə, izahlar, şərhlər və lüğət professor Rüstəm Əliyevindir), Bakı, «Elm», 1981, s. 25.
162 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 85.
163 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 18.
164 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 19.
165 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 19.
166 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 30.
167 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 30.
168 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 30.

mübarək kitab var. O, yer mülkündə uca Allahın (c.c) seçilmiş nümayəndəsidir, Onun yer mülkündəki, hakimiyyəti qiyamətədək davam edəcək. Onun padşahlığı uca Allaha (c.c) sadiq qul olmaqdan ibarətdir.

Şair deyir ki, O, adi sultan deyil, onun varlığı (zatı) bütün dünyanı nura qərq edir, Onun varlığı başdan-başa nurdur. **Şairin islam Peyğəmbərinin varlığını bir tükənməz nur kimi təsvir etməsinin səbəbləri var. Şairə görə, O, yer üzündə ədaləti bərqərar etmək, zülmün, cəhalətin, qaranlığın kökünü kəsmək üçün göndərilmişdir.** O, yer üzünü nura qərq edən peyğəmbərdir. Şair merac gecəsinin qaranlığı ilə islam Peyğəmbərinin nurlu varlığı arasında bədii təzad yaratmış və islam Peyğəmbərinin nuru ilə bu mübarək gecənin gündüzə çevrildiyini bədii bir dillə ifadə etmişdir.

Şairə görə, O, adi bir sultan deyil, o elə bir sultandır ki, tacı bu cahana sığmır. Ona görə də uca Allah (c.c) merac gecəsi Onun taxtını ərşə qaldırmışdır. Şair islam Peyğəmbərinin merac öncəsi vəziyyətini təsvir edərkən «şah», «tac», «cahan», «taxt», «ərş», «sultan», «xəlifə», «vəliəhd» kimi sultanlıq, hakimiyyət anlayışı ifadə edən sözlər seçərək həm Onun kimliyini, həm başqa sultanlardan fərqini, həm də merac səfərinə aparılmasının səbəb və hədəfini açıqlamışdır.

Şair deyir ki, O, bu vilayətin beşiyidir, sultanıdır. O, bir neçə xəlifənin, yəni peyğəmbərlərin vəliəhdidir, peyğəmbərlərin sonuncusudur. Elə buna görə də uca Allah (c.c) Onun nurunu, elmini, gücünü artırmaq, son peyğəmbər kimi şərəfli bir adı böyük bir təntənə ilə təqdim etmək üçün Onu yanına dəvət etmişdi. O, peyğəmbərlərin varisi və sonuncusu kimi merac səfərinə gedirdi. Uca Allah (c.c) da qonağın statusuna, yer və dəyərinə uyğun nemətlər hazırlamışdı, yer və göy, Ay, ulduzlar və mələklər Onu qarşılamağa hazırlaşırdı.

Şair səfər anlayışını ifadə etmək üçün «yola düşmək», «ərşə qaldırmaq», «bu cahana sığmamaq» kimi ifadələrə yer vermişdir.

## İKİNCİ ADDIM: YEDDİ GÖYÜN QAPISINI SƏN AÇDIN

ای نقش تو معرج معانی
معراج تو نقل آسمانی

***Ey varlığı məna aləmini yüksəldən!***
***Sənin meracın göyün dərinliyinə idi.***

از هفت خزینه در گشاده
بر چهار گهر قدم نهادن

***Yeddi xəzinənin (yeddi göyün) qapısını (sən) açdın.***
***Dörd gövhərə qədəm basdın.***

از حوصله زمانه تنگ
بر فرق فلک زده شباهنگ

***Dar zəmanənin (yerin) cəngindən,***
***Fələyin zirvəsinə can atdın.***[169]

Şair, islam Peyğəmbərinin meracdan öncəki vəziyyətini təsvir etdikdən sonra, hz. Məhəmmədin (s.a.s) dəyərini şərh etmişdir.

Şair deyir ki, Onun varlığı məna aləmini ucaltmışdır. Dini anlayışa görə, məna bir şeyin həqiqəti, əsli, sirri, ruhudur. Məna aləmi həm yuxu aləmi, həm də qeyb, misal, bilinməzlik aləmi kimi şərh edilir. Misal və ruhani olanlar aləmi məna aləmidir, gözlə görünən şəkillərin aləmi isə surət aləmidir. Böyük türk şairi **Yunus Əmrə** bu iki aləmi tutuşduraraq deyir:

---

[169] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

*Eydürsin kim gözüm görür daviyi, maniye irür,*
*Gündüzün gün şule verir, gece yanan çırağ nedir.*
*Mani eri bu yolda melul olası degil,*
*Mani duyan gönüller hergiz ölesi degil.*[170]

(Gözünün surət aləmini görüb, məna aləmini tanıdığını deyirsən. Gündüz gün şölə saçır, bəs gecə yanan çıraq nədir? Məna əri bu yolda kədərlənməz, mənanı duyan könüllər öləsi deyil. Yəni məna əri, işin əslini bilən könül həqiqəti, sirri bilməlidir, əşyanın, hadisənin arxasında gizlənən mənanı duymalıdır)

Şair deyir ki, islam Peyğəmbərinin varlığı o qədər qiymətlidir ki, o təkcə surət aləmini, yer mülkünü deyil, məna aləmini də ucaltmışdır. Şair burada surət aləmi ilə məna aləmini müqayisə etmiş, məna aləminin üstün olduğunu göstərmişdir. **Şair beytdə məna aləmi ilə merac arasında əlaqə yaradaraq merac yolçuluğunun məna aləminə, hər şeyin əslinin bilindiyi aləmə yüksəlmə, məna aləmini bilmə olduğunu önə çəkmişdir.** Beytdə deyilir ki, sənin meracın göyün dərinliyinə idi, yəni məna aləminə idi. Deməli, merac hadisəsinin mənası həqiqətləri bilməkdir, yaradılış elmini öyrənməkdir. Bu böyük həqiqəti bilmək üçün də zamanı, məkanı, ölçüsü olan yer mülkündən çıxmaq, sonsuzluğa yüksəlmək zəruridir. Hz. Nizami beytdə zamanı, məkanı, cəhəti olan məkanı – yeri «dar məkan», «dar zaman» adlandırmışdır. Şair deyir ki, hz. Məhəmməd (s.a.s) məna aləmini görmək, uca Allahdan (c.c) elm öyrənmək üçün «dar məkanı» tərk etdi və sonsuzluğa yüksəldi, O, yerin cəngindən qurtuldu, fələyin zirvəsinə can atdı. Çünki məna aləmini ancaq zirvədən görmək olar. Məkansız

[170] Süleyman Uludağ, «Tasavvuf terimleri sözlüğü», 2001, s. 233-234.

və zamansız olan aləmdə ölçülü olan dünyanın əsl mahiyyətini bilmək olar.

## YEDDİ GÖYÜN QAPISINI SƏN AÇDIN

Şair islam Peyğəmbərinin meracını şərh edərkən yerin və göyün yaradılış hikmətinə, yaradılış sirrinə, bu varlıqların xarakterinə də öz münasibətini bildirmişdir. Bu münasibət həm şairin dərin və mükəmməl biliyini göstərir, həm də merac hadisəsinin mahiyyətini doğru anlamağa yardım edir. Şair deyir ki, yer və göyün yaradıcısı uca Allahdır (c.c), O, mütləq hakimdir və yaradıcıdır. Merac hadisəsinin baş verməsi də uca Allahın (c.c) sonsuz iradəsinə bağlıdır. Şairə görə, uca Allah (c.c) göyü yeddi təbəqə olaraq yaratmışdır və bu yeddi təbəqənin hər biri bir xəzinədir, yəni hər bir təbəqə öz xarakteri ilə fərqlənir və hər biri uca Allahın (c.c) elm və hikməti ilə doludur. Bu yeddi qat göyü görən və bilən insan da bu xəzinələrdəki elmi öyrənmiş olur. Bu yeddi xəzinənin qapısını açan tək bir insan var. O da hz. Məhəmməddir (s.a.s). Uca Allahın (c.c) yeddi qat göyün xəzinəsini, elmini islam Peyğəmbərinə verməsi də o mütləq hakimin hz. Məhəmmədə (s.a.s) olan sevgisinin göstəricisidir. Bu yeddi qat göyün xəzinəsinin – elm qaynağının açarının hz. Məhəmmədə (s.a.s) verilməsinin səbəbi də uca Allahın (c.c) Ona yüklədiyi missiya ilə, Onun qarşısına qoyduğu hədəflə birbaşa bağlıdır. Uca Allahın (c.c) məqsədi hz. Məhəmmədin (s.a.s) elçiliyi ilə insanları azadlığa qovuşdurmaq, onları cəhalətin zülmətindən xilas edib, uca Yaradanın razı olacağı insan kimi tərbiyə etməkdir, hidayətə, doğru yola qovuşdurmaqdır, sevgi və ədalət üzərində qurulmuş bir «Rəhmət evi» tikməkdir. Bu hədəfin gerçəkləşməsi üçün də mükəmməl, uca Allahın (c.c) verdiyi bir elm lazımdır, yeddi qat göyün xəzinəsinə, elminə ehtiyac var.

**Bizcə, merac gecəsi ilahi elmin, xilasedici informasiyanın verildiyi müqəddəs andır. Vəhyin verildiyi məkan yerdir – mübarək mələk Cəbrail (ə.s) ilahi qaynaqlı informasiyanı yer məkanında islam Peyğəmbərinə (s.a.s) vermişdir. Merac gecəsi ilahi qaynaqlı informasiyanın verildiyi məkan isə yeddi qat göydür. Vəhyin alınma şəkli eşitmədir. Merac gecəsi alınan ilahi informasiyanın əldə edilmə şəkli görmədir.** İslam Peyğəmbəri (s.a.s) merac gecəsi təbəqə-təbəqə yüksələrkən hər mərtəbədə olan xəzinəni gördü və bu yolla öyrəndi, son təbəqədə isə ilahi əmanət, merac neməti verildi.

Şair yeddi təbəqə göydə olanları xəzinə kimi dəyərləndirmişdir. O, merac gecəsi yeddi xəzinənin, yeddi qat göydə olan elm xəzinəsinin qapısını açdı, orada olanları gördü. Xəzinə həm qiymətli şeylərin saxlanıldığı yer, həm uca Allaha (c.c) qulluq məqamı, həm də gizli xəzinə, yəni uca Allahın (c.c) zatı mənasında işlədilmişdir.

Bizcə, şair islam Peyğəmbəri merac gecəsi yeddi qat göydəki xəzinənin qapısını açdı deyərkən xəzinə sözünə bu mənaları yükləmişdir. **Xəzinə gizli olan deməkdir. Yəni merac gecəsi islam Peyğəmbəri gizli olan, hər kəsin bilmədiyi bir xəzinəyə, yəni elmə sahib oldu.**

**Şairə görə, xəzinə qorunan nemət deməkdir. Yəni merac gecəsi islam Peyğəmbərinin əldə etdiyi xəzinə – nemət, ilahi qoruma altında idi. Bu müqəddəs informasiyanı başqasının bilmək imkanı yoxdur. Bu qoruma qatında olan elm uca Allahın (c.c) icazəsi ilə ən etibarlı şəxsə – hz. Məhəmmədə (s.a.s) verildi.**

**Şairə görə, xəzinə qiymətli bir şeyin çox olduğu, qorunub saxlandığı yerdir, yəni müqəddəs məkandır. Deməli, merac gecəsi islam Peyğəmbərinin aldığı informasiyanın dəyəri çox böyükdür.**

**Şairə görə, xəzinə var-dövlət, hakimiyyət deməkdir. Yəni merac gecəsi islam Peyğəmbəri (s.a.s) tükənməz bir var-dövlətə – elmə sahib oldu.**

Şairə görə, xəzinəyə sahib olmaq bir gücdür və ən böyük güc də elmdir. Şairə görə, uca Allah (c.c) bu yeddi göyün xəzinəsinin açarını son peyğəmbər olan hz. Məhəmmədə (s.a.s) vermişdir. Bir padşah xəzinəsinin açarını ən etibarlı insana verdiyi kimi, uca Allah (c.c) da yeddi göyün xəzinəsinin açarını son elçisinə vermişdir. Bu həm də o deməkdir ki, islam Peyğəmbərindən (s.a.s) sonra bu xəzinəni bir kimsənin görmək, bu elmi öyrənmək, merac hadisəsini təkrar etmək imkanı yoxdur. Çünki o, son Peyğəmbərdir. Bu mənada merac yolçuluğu peyğəmbərliyə möhür vurma hadisəsidir. Ona görə də uca Allah (c.c) elmin ən dəyərlisini ona vermişdir. Şair də verilən neməti anlatmaq üçün xəzinə anlayışından istifadə etmişdir.

## YEDDİ GÖY ANLAYIŞI

Hz. Nizami beytdə göylərin yeddi qat olduğunu ifadə etmişdir. Bu bilginin qaynağı Qurani-Kərimdir. İndi Qurani-Kərimdə göylərin yeddi qat olduğunun ifadə biçiminə və yerinə baxaq:

هو الذي خَلَقَ لَكُم ما في الأَرض جميعاً ثُم استَوى إِلَى السماء

فَسواهن سبع سماوات وهو بِكُل شَيء عليم

(əl-Bəqərə, 2/29)

«Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)! O, hər şeyi biləndir».

اللّه الذي رفَع السماوات بِغَيرِ عمد تَرونَها ثُم استَوى علَى الْعرشِ وسخر الشمس والْقَمر كُلٌ يجرِي لأَجلٍ مسمى يدبر الأَمر يفَصلُ الآيات لَعلَّكُم بِلقَاء ربكُم تُوقنُون

(ər-Rəd, 13/2)

«Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan (ərş üzərində bərqərar olan), müəyyən vaxta (dünyanın axırına - qiyamətə) qədər (səmada) dolanan Günəşi və Ayı ram edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır. (Bütün bu dəlillərdən sonra) Rəbbinizlə qarşılaşacağınıza (qiyamət günü dirilib haqq-hesab üçün hüzurunda duracağınıza), bəlkə inanasınız!»

ولَقَد خَلَقْنَا فَوقَكُم سبع طَرائِقَ وما كُنا عنِ الْخَلْقِ غَافلين

(əl-Muminun, 23/17)

«And olsun ki, Biz sizin üstünüzdə yeddi yol (göy) yaratdıq. Biz (onların altındakı) məxluqlardan da xəbərsiz deyilik. (Onları qoruyub saxlayır, nə etdiklərini bilirik)».

الذي خَلَقَ سبع سماوات طباقاً ما تَرى في خَلْقِ الرحمنِ من تَفَاوت فَارجِعِ الْبصر هلْ تَرى من فُطُورٍ

(əl-Mülk, 67/3)

«Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur! (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (səmaya) bax, heç orada bir yarıq (çatlaq, nöqsan) görə bilərsənmi?»

«Yeddi göy» anlayışı ilə bağlı ayrı-ayrı elmi görüşlər, təfsirlər var. Bu görüşlərin hansının doğru olduğunu söyləmək çox çətindir. Ancaq bir şey aydındır ki, yeddi göy ilahi nizamın bir parçasıdır və uca Allahın (c.c) qüdrətinin göstə-

ricisidir. Şairə görə, uca Allahın (c.c) elmi ilə yaradılmış bu yeddi göyün hər biri bir elm xəzinəsidir və bu elm xəzinələrinin açarı da islam Peyğəmbərinə verilmişdir.

## DÖRD GÖVHƏRƏ QƏDƏM BASDIN

Şair beytdə xəzinə sözü ilə məna, dəyər uyğunluğu yaradan gövhər anlayışından da istifadə etmişdir. Gövhər qiymətli daş, gövhər, mənalar, ilahi sifətlər, məna gövhəri, bir şeyin əsli mənalarında işlədilir. Şair beytdə «dörd gövhər» deyərkən dörd ünsürü – su, torpaq, od və havanı nəzərdə tutmuşdur. Yəni merac gecəsi islam Peyğəmbəri yeddi qat göyə yüksəldi, elm xəzinəsinin açarını əldə etdi, əsasında su, torpaq, od və hava olan varlığın sirlərini, hikmətini, elmini öyrəndi.

## DAR ZƏMANƏNİN CƏNGİNDƏN QURTARDIN

Hz. Nizami meracın önəmini anlatmaq üçün yerlə göyü müqayisə etmişdir. Şairə görə, yer məkanı, ölçüsü, cəhəti, zamanı olan bir varlıqdır. Səma isə sonsuzdur. Merac səfəri «dar məkandan» sonsuzluğa – göyün dərinliyinə doğrudur. **Şairə görə, yaradılış sirrini, yeddi göyün həqiqətini öyrənmək üçün dar məkanı tərk edib, sonsuzluğa yüksəlmək zəruridir.** Şair sonsuz səmanı anladarkən «fələyin zirvəsi» ifadəsindən istifadə etmişdir. Burada fələk deyilərkən göy, göy üzü, səma, planetlərin olduğu göy təbəqəsi nəzərdə tutulmuşdur. Astronomik nəzəriyyələrə görə, dünya kainatın mərkəzidir və onun çevrəsində iç-içə olan doqquz fələk var. Sırası ilə dünyadan başlayaraq Ay, Utarit (Merkuri), Zöhrə (Venus), Şəms (Günəş), Mərrix (Mars), Müştəri (Yupiter), Zuhal (Saturn) fələkləri yeddi planeti təşkil edir. «… Sekkizinci felek sabit yıldızlar ve burçlar feleği, doku-

zuncu felek ise atlas, büyük felek (feleki-azam) ve ya felekler feleği (felekül-eflak) kibi isimler alır. Hükema felsefesine göre, sekkizinci feleğe kürsi, dokuzuncusuna arş denilmiştir. Dokkuz feleğe nur-felek denir…».[171]

Şair beytin birinci misrasında yeri – «dar məkan»ı təsvir etmiş, onu bir qəfəs kimi göstərmiş, bu daha az informasiyalı məkanı insanın öz cəngində saxladığını, bu məkanda doğrunu bilmək imkanının məhdud olduğunu bildirmişdir. Beytin ikinci misrasında isə «dar məkan»ın tam tərsini – fələyin «zirvəsini» təqdim etmişdir. Burada «dar məkan»-dan sonsuz səmaya, qəfəsdən ucsuz-bucaqsız göylərə doğru, azadlığa, genişliyə doğru bir hərəkət, bir uçuş var. Deməli, şairə görə, merac neməti insanlıq üçün bir azadlıq nemətidir. Şair beytin ideyasını ifadə etmək üçün hərəkət anlayışı yaradan sözlərdən də istifadə etmişdir. «Yerin cəngindən qurtulmaq», «zirvəyə can atmaq» ifadələri insanlığı dar qəfəsdən xilas etmək üçün mücadilə edən islam Peyğəmbərinin merac səfərinin ideyasını təqdim etmək baxımından önəm daşıyır.

## ÜÇÜNCÜ ADDIM: GECƏ QARA BAYRAĞINI QALDIRDI

چون شب علم سیاه برداشت
شبرنگ تو رقص راه برداشت

***Gecə qara bayrağını qaldıranda,***
***Sənin qara atın yol rəqsinə başladı (yola düşdü).***[172]

شبی کاسمان مجلس افروز کرد
شب از روشنی دعوی روز کرد

[171] Süleyman Uludağ, göstərilən qaynaq, s. 134.
[172] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s.25.

*O gecə ki, göylər məclis parıldatmışdı,*
*Gecə parıldaması ilə gündüzlük iddiası edirdi.*[173]

Bilindiyi kimi, merac hadisəsi gecə baş vermişdir. Ona görə də, şair meracnamələrində bu mübarək gecənin təsvirinə ayrıca yer ayırmışdır. Şair gecənin qaranlığını təsvir etmək üçün «gecə», «qara bayraq», «qara at» ifadələrindən istifadə etmişdir. «Gecənin qara bayrağını qaldırması» gecənin tən ortası, ən qaranlıq vaxtı, qaranlığın qalib olduğu, yəni bayrağını qaldırdığı zaman deməkdir. Bu gecə qaranlığında heç kimin Peyğəmbərin merac səfərindən xəbəri yoxdur, gecənin qaranlığı onu başqalarından gizləyir, yəni qoruyur. Burada şair həm də merac səfərinin baş verdiyi zamanda islam Peyğəmbərinin və onun tərəfdarlarının son dərəcə ağır bir şəraitdə yaşadığına da işarə etmişdir. Şair öncəki beytlərdə yer məkanını «dar zaman» adlandırır. Şair «dar zamanla», «qara bayraqlı gecə» arasında da əlaqə yaradır, meracın bu dar məkandan qurtuluş olduğunu ifadə edir. Burada maraqlı cəhətlərdən biri də odur ki, bu zülmət gecədə Peyğəmbərin qara atı yolu azmır, gedəcəyi yolu tanıyır, hətta, yolunu elə tanıyır ki, çox arxayın, «rəqs edərək» hərəkət edir. Şairin merac gecəsi Peyğəmbərin qara atının hərəkətini «rəqs etmək» anlayışı ilə verməsinin də səbəbləri var. Peyğəmbərin qara atı yol rəqsinə başlayır, çünki bu adi səfər deyil, mübarək merac yolçuluğudur. Peyğəmbərin qara atı yol rəqsinə başlayır, çünki «dar məkan»dan qurtulur. O qara at yol rəqsinə başlayır, çünki Peyğəmbəri aparır. O, şanlı Peyğəmbərin uca Allahla (c.c) görüşə getdiyini hiss edir və sevinir. Bu zülmət gecə, əslində, bir mübarək andır, uca Allahın (c.c) rəhmətinin, bərəkətinin bol-bol yağdığı gecədir və bu gecənin bərəkətini bütün varlıqlar, o sıradan

[173] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 30.

qara at da duyur. Uca Allahın (c.c) hidayəti, buyruğu ilə bütün varlıqlar bu gecənin bərəkətindən pay almışdır. Tarixin ən böyük hadisəsi baş verir. Son Peyğəmbər, uca Allahla (c.c) görüşə gedir. Bütün varlıqlar uca Allahın (c.c) son elçiyə böyük bir nemət verəcəyini hiss edir, kainatın, insanların bu merac nemətinin nuruna qərq olacağını duyur. Ona görə də Peyğəmbərin qara atı rəqs edərək, yəni çox sevinərək hərəkətə başlayır.

## GECƏ GÜNDÜZ OLMAQ İDDİASINDADIR

Merac gecəsi elə mübarəkdir ki, qaranlıq gecə də sevinir, gecə öz qaranlıq adını, mahiyyətini öz üzərindən götürməyə çalışır. Səma cismləri bu qaranlıq gecədə par-par yanır, onlar Peyğəmbərin gəlişinə sevinir, bütün gözəlliyini göstərməyə çalışır, bu qaranlıq gecədə göy üzü nura boyanmışdır. Göylərdə səma cismləri məclis qurmuşdur, hər bir planet, hər bir ulduz bu merac gecəsi daha parlaq görünməyə çalışır. Bu gecə göy üzü o qədər parlaqdır ki, gecə gündüzdən seçilmir. Şair göylərin Peyğəmbərin gəlişindən, merac gecəsinin bərəkətindən doğan sevincini «məclis», «parlaqlıq», «işıq saçmaq», «gecənin gündüz olmaq iddiası» kimi aydınlıq, nur yaradan söz və ifadələrlə ifadə edir.

**Gecə Peyğəmbərin gəlişindən vəcdə gəlir, qara donunu cırıb atır, göy cismləri Peyğəmbəri qarşılamaq üçün məclis qurur, nur nura qarışır, bütün kainat aydınlığa, işığa qərq olur.** Şairin varlığın Peyğəmbər sevgisini, Onu görməkdən doğan sevincini, merac gecəsinin bərəkətini, merac nemətinin varlıq üçün bir sönməz nur qaynağı olduğunu ifadə etmək üçün yaratdığı mənzərə çox gözəldir. Bu mənzərə qaranlığı, cəhalət və zülmü boğaraq insanlığın gecəsini gündüzə, aydınlığa qovuşdurmaq, yer üzündə ədalətli cəmiyyət qurmaq hədəfi olan hz. Məhəmmədin (s.a.s)

və islamın missiyasını da gözəl təqdim edir. Harada hz. Məhəmməd (s.a.s) və islam varsa, orada ədalət və nur var.

## DÖRDÜNCÜ ADDIM: ÜMMİ-HANİ EVİNİN ÖVCÜNƏ YÜKSƏLDİN

سر برزده از سرای فانی
بر اوج سرای ام هانی

***Fani evdən baş götürüb,***
***Ümmi-Hani evinin övcünə yüksəldin.***[174]

شبی رخ تافته زین دیر فانی
به خلوت در سرای ام هانی

***Bir gecə bu fani dünyadan üz çevirib,***
***Ümmi-Haninin evində xəlvətə çəkilmişdi.***[175]

Hz. Nizami iki dastanında – «Leyli və Məcnun», «Xosrov və Şirin» dastanında islam Peyğəmbərinin Ümmi Haninin evində olduğunu bildirmişdir. Bütövlükdə, merac gecəsi hz. Məhəmmədin (s.a.s) harada olması ilə bağlı ayrı-ayrı fikirlər var. Bir sıra alimlər merac gecəsi hz. Məhəmmədin (s.a.s) öz evində, başqaları məscidi-şərifdə, ayrı bir qrup da Onun merac gecəsi Ümmi-Haninin evində olduğunu yazmışdır.[176] Şair də sonuncu görüşün doğru olduğuna inanmışdır. Onu da deyək ki, sonuncu görüş daha çox tərəfdar toplamışdır.

---

[174] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s.25.
[175] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s.339.
[176]Əli Himmət Bərki, Osman Kəskioğlu, «Xatəmül-Ənbiya Həzrət Məhəmməd və Həyatı», Ankara, 1997, s. 146.

## ÜMMİ-HANİ KİMDİR?

Qaynaqlarda Ümmi-Hani ilə bağlı xeyli bilgi var. O, hz. Məhəmmədin (s.a.s) əmisi Əbu Talibin qızı, hz. Əlinin (r.a) bacısı, dolayısı ilə Peyğəmbərin əmisi qızıdır. Ümmi-Hani Məkkədə doğulmuşdur, atası Əbu Talib, anası Fatimə binti Əsəddir. Hz. Əli (r.a), hz. Əqil (r.a), hz. Cəfər (r.a) onun qardaşıdır. Əsl adı Faxtədir. Hani adlı oğlu olduğundan Ümmi-Hani (Haninin anası) adlandırılmışdır. O, çox mərd, cəsur və doğrunu sevən bir xanım idi. Hz. Məhəmməd (s.a.s) səkkiz yaşında əmisi Əbu Talibin evində qaldığından Faxtəni yaxşı tanıyırdı. Faxtə Onu çox sevirdi. Faxtə ilk dövrlərdə müsəlman olmasa da, əmisi oğlunu müşriklərdən qorumağa çalışırdı. Onun əri də müşrik idi.

## ÜMMİ HANİ: «SƏNİN KİMİ ŞƏRƏFLİ QONAĞA CANIM FƏDA OLSUN»

Ümmi-Haninin islam Peyğəmbərinə olan sevgisini bu hadisə çox gözəl ifadə edir. Hz. Məhəmməd (s.a.s) onun üçün çox çətin olan Taif səfərindən qayıdırdı. O, çox yorğun və üzgün idi. Əslində, gedəcəyi yer də yox idi. O, Əbu Talibin məhəlləsində yaşayan Ümmi Haninin evinə getdi. Evə girmək üçün icazə istədi. İçəridən bir səs eşitdi:

– O, kimdir?

– Əmin oğlu Məhəmmədəm. Qəbul etsən, qonağın olaram.

– Sənin kimi doğru sözlü, əmin, şərəfli qonağa canım fəda olsun. Öncədən bildirsəydin, yeməyə bir şey hazırlardım.

– Yeməyə bir şey istəmirəm. Ancaq yatmağa bir yer göstər.

## ÜMMİ HANİ SƏHƏRƏDƏK ONUN KEŞİYİNİ ÇƏKDİ

Ərəblər qonağı çox sevərlər. Ərəblərə görə, qonağa yemək vermək, onu qorumaq böyük şərəfdir. Hz. Məhəmmədin (s.a.s) də Məkkədə düşməni çox idi. Bunu nəzərə alan Ümmi-Hani o gecə atasının qılıncını götürüb, səhərədək keşik çəkdi.

## «GET HƏBİBİMİ GƏTİR!»

İslam Peyğəmbəri çox yorğun idi, taiflilərin ona qarşı olan haqsız hərəkətlərindən incimişdi. Otaqda təkbaşına qaldı, göz yaşı axıdaraq uca Allaha (c.c) yalvardı. İnsanların imana gəlməsi üçün dua etdi. Həsir üzərində yuxuya getdi. Gecənin bir anında uca Allah (c.c) mübarək mələk Cəbrailə (ə.s) buyurdu: «Get, Həbibimi gətir! Cənnəti, cəhənnəmi Ona göstər. Ona əziyyət edənlərin qalacağı yeri, onu incidənlərin çəkəcəyi əzabı öz gözləri ilə görsün!» Uca Allah (c.c) mübarək Peyğəmbəri (s.a.s) təsəlli etdi, Onu göylərə ucaltdı. Bütün səltənətini, ərşini, fərşini, kürsisini, lövhünü, qələmini və sonsuzluq aləmində camalını ona göstərdi. Uca Allahın (c.c) onu qoruduğunu bildirdi. O, böyük bir güc alaraq, merac nemətləri ilə mükafatlandırılaraq Ümmi-Haninin evinə qayıtdı, gördüklərini ona danışdı. Ümmi-Hani bu danışdıqlarını bir kimsəyə söyləməməsini istədi. Ancaq islam Peyğəmbəri gördüklərini xalqa danışacağını bildirdi. Ümmi-Hani də həbəşistanlı xidmətçisinə Peyğəmbərə nəzarət etməsi ilə bağlı təlimat verdi. Məqsədi Onu düşmənlərdən qorumaq idi.

## O, MƏKKƏNİN FƏTHİ GÜNÜ İSLAM NURU İLƏ ŞƏRƏFLƏNDİ

Ümmi-Hani Məkkənin ən məşhur müşriklərindən olan Hubeyrə ibni Amr ilə evlənmişdi. Bu evlilikdən Amr, Hani,

Yusif və Cadə adlı dörd övlad dünyaya gəldi. Əri Hubeyrə ömrü boyu islama qarşı qəddar bir düşmən oldu. Müşriklərlə birgə islama qarşı savaşdı. Məkkə fəth olunan günü səhralara qaçdı, Nəcran bölgəsinə gedərək aradan çıxdı.

Ümmi-Hani, Məkkənin fəthi günü müsəlman oldu, İslam Peyğəmbərinin yanına gələrək şəhadət kəlməsini söylədi. O, ibadət etməyi çox sevdi, ürəkdən doğan bir sevgi ilə ibadət nuruna qərq oldu. Oruc tutmağı çox sevdi. İslam Peyğəmbəri də onu unutmadı. Bir dəfə oruclu olmasına baxmayaraq, hz. Məhəmmədin (s.a.s) verdiyi bal şərbətini içdi. Peyğəmbərin içdiyi şərbətdən içməyi böyük bir xoşbəxtlik saydı.

Ümmi-Hani islam Peyğəmbərinin Ona olan iltifatını belə anladır: «Məkkənin fəthi günü islam Peyğəmbəri evimi şərəfləndirdi. Mənə buyurdu:

– Yeməyə bir şey varmı?

– Xeyr, ey Allahın elçisi. Ancaq quru çörək və sirkə var.

– Gətir onu, ey Ümmi-Hani! Sirkə çox yaxşı qidadır. Sirkə olan ev qida sıxıntısı çəkməz!»

## ÜMMİ-HANİNİN SÖYLƏDİYİ HƏDİS

Ümmi-Hani islam Peyğəmbərindən bir neçə hədis də rəvayət etmişdir. Onlardan biri belədir. Ümmi-Hani (r.a) (Faxtə Binti Əbu Talib) belə söylədi: «Məkkənin fəthi günü islam Peyğəmbərinin evinə gəldim. O, yuyunurdu. Qızı Fatimə (r.a) də onu pərdə ilə insanların gözündən qoruyurdu. Mən salam verdim. O buyurdu:

– O, kimdir?

– Mən Əbu Talibin qızı Ümmi-Haniyəm.

– Xoş gəldin, Ümmi-Hani.

Bundan sonra O, yuyunmasını tamamladı».[177]

---

[177] «Riyazüs-salihin», göstərilən qaynaq, c. IV, s. 444.

## MERACNAMƏLƏRDƏ ÜMMİ-HANİNİN ADI

İslam Peyğəmbərinin meracı ilə bağlı yazılmış əsərlərdə Ümmi-Haninin adı çəkilir, mübarək merac gecəsində hz. Məhəmmədin (s.a.s) onun evində olduğu bildirilir. Böyük türk şairi Dədə Qalib «Hüsnü eşq» («Eşqin gözəlliyi») adlı məsnəvisində meracı belə təsvir edir:

**… Bir şəb ki, sərayi Ümmi-Hani,**
**Olmuşdu o mahın asümani.**

**Yüz sürməyə gəldi xaki payə,**
**Dəvətli bulundular ulaya.**

**Şövqü eylədi mehri parə-parə,**
**Şənləndi məşaili sitarə.**

**Gər etsə, mehri mah təqəddüm,**
**Şəbnəm yerinə yağardı əncüm.**

**Ayineyi-nur olub şəbi-tar,**
**Yar elədi yarə ərzi-didar.**

**Hər şey olur əslinə şitabın,**
**Çıxdı yenə asümana Quran.**

**Ol sacid oldu haqq oldu məscud,**
**Dindi bu məqama Qeybi məşhud.**

**Ərvahi Rüsul cəmaat oldu,**
**Allah bilir nə halət oldu.**

**Ey Xamə! O rütbə olma çalaq.**
**Əsrari-Nübüvvət olmaz idrak.**

**Gəl adəti-şairanə get sən,**
**Sofiyyə sözün fərağat et sən.**

**Ol şahsüvari Kaabı kövseyn,**
**Qıldı səfərin vərayi-Kövneyn.**

**Ərşi buraxıb misali-sayə,**
**Zül ərş idi ol Ərş payə.**

**Ol seyirdə Mavəra göründü,**
**Ta Sidreyi-müntəha göründü.**

**Açıldı dəri-Hərəmi-vəhdət,**
**Qürbət geri qaldı, gəldi vüslət.**

**Cəbrail də əcz olub hüveyda,**
**Əlfazı buraxdı andə mana.**

**Ol nə idi, nə oldu bilməm,**
**Ləbriz idi ol, nə doldu bilməm…**[178]

(Ümmi-Haninin evi o mübarək gecədə o ayın – hz. Məhəmmədin (s.a.s) asimanı (səması) olmuşdu. Ayağının torpağına üz sürtməyə gəldi, uca məqama yüksəlməyə dəvət olundu. Onun şövqü, Ayın Ona olan sevgisi ayı para-para etdi. Ulduzların işığı ona olan sevgidən artdı, ulduzlar sayrışdı, şənləndi. Əgər Ayın sevgisi özünü göstərsə, göy-

[178] Əli Himmət Bərki, Osman Kəskioğlu, «Xatəmül-Ənbiya Həzrət Məhəmməd və Həyatı», göstərilən qaynaq, s. 162-163.

dən şeh yerinə ulduz yağardı. Gecənin zülmət qaranlığı nur güzgüsü oldu. Yar yara öz halını danışdı. Hər şey əslinə tələsər. Ona görə də Quran səmaya ucaldı. O səcdə edən oldu, haqq səcdə edilən yer. Bu ali məqama qeyb və şühud (görmə, müşahidə, tamaşa, Haqqı Haqq ilə görmə, ilahi təcəllilləri, məna aləmini seyr etmək, çoxluğu birdə, biri çoxluqda görmək) aləmi heyran oldu. Peyğəmbərlərin ruhları bir araya gəldi. Bir uca Allah (c.c) bilir ki, bu təmiz ruhlar nə hala düşdü. Ey qələm! O rütbəni, o ali məqam və mənanı təsvir etməyə can atma. Çünki peyğəmbərliyin sirlərini anlamaq olmaz. Ey qələm! Sən sözə qulaq as, şairlərin yolu ilə get, sufi sözünü unut. Merac gecəsi uca Allaha (c.c) iki yay arası qədər, ondan da yaxın olan o şahsüvar (atlı şahı) «ol!» əmri ilə var olan iki aləm arasında səfər etdi. O, ərşi kölgə kimi arxada qoydu. O özü xalqı zahir, haqqı batin olaraq görən xalqın Haqqın aynası olduğunu dərk edən, ağıl və bəsirət sahibi, çoxluğu görməsinə mane olmayan bir ərş idi. O, seyr edən zaman başqa bir aləm göründü. Bu aləm sidrətül-müntəha idi, yəni sonsuzluq aləmi idi. Toxunulmaz vəhdət aləminin qapısı açıldı. Qürbət arxada qaldı, vüsal anı gəldi. Cəbrail (ə.s) aciz qaldı, irəli gedə bilmədi. Mənanı ifadə etməyə söz tapılmadı. O, nə idi, nə oldu bilmirəm. O, dopdolu idi, ancaq nə ilə doldu bilmirəm»)

Böyük türk şairi **Süleyman Çələbi** meracnaməsində yazır:

***... Tarfütül-ayn içre ol Fahri-Cihan,***
***Ümmi-Hani evine geldi heman.***

***Her ne vaki oldu ise sertaser,***
***Cumlesin ashabına verdi haber.***

***Dediler ey kibleyi-İslami-din,***
***Kutlu olsun sana Miraci-güzin.***

***Biz kamumuz kullarız, sen şahsın,***
***Gönlümüz içində ruşen mahsın.***

***Ümmetin olduğumuz devlet yeter,***
***Hizmetin kıldığımız izzet yeter…***

(O kainatın fəxri tez Ümmi-Haninin evinə gəldi. Baş verən bütün hadisələri başdan-başa əshabına danışdı. Dedilər ki, ey islam dininin qibləsi, sənin gözəl merac səfərin mübarək olsun. Biz hamımız quluq, sən şahsan. Sən bizim könlümüz içində işıqlı aysan. Ümmətin olduğumuz dövlət yetər. Xidmət etdiyimiz şərəf yetər)

Ümmi-Hani (r.a) qardaşı hz. Əlidən (r.a) sonra h.40/661-ci ildə vəfat etdi.

Hz. Nizami də meracnamələrində iki kərə Ümmi-Haninin adını çəkmişdir. Şair merac öncəsi hazırlığı təsvir edərkən Ümmi-Haninin evindən danışmışdır. Ancaq şair burada evdən danışarkən evi zamanı və məkanı olan bu dünyanın, yer məkanının rəmzi kimi təqdim etmişdir. Ona görə də şair hər iki beytdə «fani dünya», «fani ev» ifadəsinə yer vermişdir. Merac səfəri bu fani, yəni yox olmağa məhkum olan dünyanın ziddi sayılan sonsuzluq aləminədir. Şairin öncəki beytlərdə «dar məkan», «dar zəmanə» adlandırdığı yeri bu beytdə «fani ev», «fani dünya» kimi təqdim etməsinin səbəbləri var. Şair hər şeydən öncə «dar məkan», «dar zamanə», «fani ev», «fani dünya» ilə merac məkanını, yəni sonsuzluğu müqayisə etmişdir. Birinci məkan zamanı, ölçüsü, məkanı olan bir dünyadır, merac məkanı isə sonsuzdur, zamanı və məkanı yoxdur. «Dar», «fani» məkanda həqiqətləri bəlli bir ölçüdə bilmək olar. Merac məkanı isə ilahi gerçəklərin daha çox bilindiyi bir aləmdir.

Şair «dar məkan», «dar zəmanə», «fani dünya» anlayışları ilə merac öncəsi vaxta - islam Peyğəmbərinin və Onun səhabələrinin üzləşdiyi ağır vəziyyətə də işarə etmişdir. Şair «dar», «fani» məkandan merac sonsuzluğuna olan səfəri hz. Məhəmmədin (s.a.s) uca Allah (c.c) yanındakı

dəyəri kimi də mənalandırmışdır. Merac nemətinin sonsuzluq aləmində, merac məkanında təqdim olunması uca Allahın (c.c) bu nemətlərə verdiyi dəyəri də göstərir. Şair «dar», «fani» dünyanın hz. Məhəmməd (s.a.s) üçün bir zülm məkanına, düşmənlərin gənc islam dinini boğmaq üçün hər cür zülmə əl atdıqları məkana çevrildiyini göstərmək üçün «baş götürüb qaçmaq», «fani dünyadan üz çevirmək» ifadələrinə yer vermişdir. İslam Peyğəmbəri bu «dar», «fani» məkanın haqsızlıqlarından baş götürüb əmisi qızının evində xəlvətə çəkilir, göz yaşları içində uca Allaha (c.c) yalvarır, o uca varlıqdan dar məkanın insanları üçün hidayət istəyir. Burada «darlıq» anlayışı merac öncəsi vəziyyəti dəqiq ifadə edir və bu anlayış xalq düşüncəsinə bağlıdır. Bir ölkədə, bir ailədə, zülm artanda bir insanla münasibət pozulanda, insanlar ədalətin yoxluğundan əziyyət çəkəndə, çətinə düşəndə bu vəziyyət xalq düşüncəsində bu anlayışlar yaranır: «dara düşmüşük», «əlim dardadır», «başımı dara soxdum», «dar macaldayam», «dünya mənə dar gəlir», «məzarım da dar olmasın», «günün dar vaxtındayam», «başımı götürüb qaçmaq istəyirəm», «başımı qoymağa yer axtarıram» və s. Burada «darlıq» anlayışı sıxıntını, zülmü, ədalətsizliyi, imkansızlığı ifadə edir.

**Şair də islam ümmətinin meracdan öncəki halını «darlıq» anlayışı ilə ifadə etmişdir. Şairin təfsirində «darlıq» anlayışı kafir və müşriklərin müsəlmanlara qarşı etdikləri zülmü, qətlləri, işgəncəni, sürgünü, aclıq və qıtlığı, iqtisadi, siyasi, mənəvi qadağaları ifadə edir.** Şairə görə, bu mərhələdə islam dini, bu dinin elçisi və Ona inananlar darda idi. Belə bir anda uca Allah (c.c) öz elçisini «dar», «fani» məkandan sonsuzluğa – merac məkanına dəvət etdi, Ona müjdə verdi, nemət bəxş etdi, Onu gücləndirdi, islam dininin qalib gələcəyini bildirdi. Onu darlıqdan

qurtardı. **Bu mənada merac ümid, xilas, azadlıq, inam səfəridir.**

Beytdə «dar», «fani» məkana qarşı qoyulan anlayış «zirvəyə yüksəlmək» ifadəsidir. Şair yer-göy, dar-geniş, fani-əbədi, yer-zirvə, yer-merac ziddiyyəti fonunda merac öncəsi vəziyyəti və meracın hədəfini gözəl təqdim etmişdir. **Biz belə bir nəticə də çıxara bilərik ki, meracın hədəfi, merac nemətlərinin dəyəri insanlığı darlıqdan-cəhalətdən qurtarmaqdır, onu azadlığa – genişliyə, sonsuzluğa, meraca qovuşdurmaqdır.**

## BEŞİNCİ ADDIM: MERAC ONUN TAXTINI ƏRŞƏ QALDIRDI

چون نگنجید در جهان تاجش
تخت بر عرش بست معراجش

***Onun tacı bu cahana sığmadığı üçün,***
***Merac onun taxtını ərşə qaldırdı.***[179]

Hz. Nizami islam Peyğəmbərinin merac səfərinin səbəblərini şərh edərkən yenə də yer məkanı ilə sonsuz səmanı müqayisə edir. Öncəki beytlərdə şair yer məkanını **«dar zamanə»**, **«fani dünya»** adlandırır. Bu «dar dünyanı» bir evə bənzədir. Həqiqətən, ev quruluşuna görə hər tərəfi bağlı bir qəfəsə oxşayır. Şair deyir ki, islam Peyğəmbəri merac gecəsi bu dar məkandan qurtulub merac sonsuzluğuna ucaldı. Bu beytlərdə isə şair islam Peyğəmbərini bir sultan kimi təsvir edir. Bu məqsədlə beytdə **«tac»** və **«taxt»** sözlərindən istifadə olunmuşdur. Hər iki anlayış hakimiyyət təsəvvürü yaradır. Ancaq şairə görə, hz. Məhəmməd (s.a.s)

---

[179] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s.20.

adi sultanlardan seçilir. Onun hökmü yer və səmanı əhatə edir. Onun səltənəti yer və səma məkanına aiddir. O həm peyğəmbərdir, həm də sultandır. Onun peyğəmbərliyi bütün varlıqlara aiddir və o, son elçidir, Ondan sonra peyğəmbər sultan olmayacaq. Onun tacı bu cahana sığmır. Misradakı «bu cahan» anlayışı öncəki beytlərdə olan «dar zamanə», «fani dünya» anlayışları ilə eyni mənanı daşıyır. Şair deyir ki, merac səfərində uca Allah (c.c) Peyğəmbərə yeri və səmanı əhatə edən bir hakimiyyət verdi, göylərin sirrini göstərdi. Onun taxtını ərşə qaldırdı.

Misrada ərş fələklərin fələyi, ən böyük fələk, taxt, mülk, hakimiyyət mənalarında işlənmişdir. Dini anlayış kimi ərşin bu mənaları var: «… Azamet mazharı, tecelli mahalli, zatın hususiyyeti, cismi-külli, Allahın mukayyet isimlerinin istikrar mahalli, külli cism, mutlak varlığın bedeni. Ayrıntılı bir şekilde her şeyi kuşatan külli nefse arşı-kerim, levhi-kader, levhi-mahfuz, kitabi-mübin, zümrüt, yakutu-ahmer gibi isimler verilir. Arşullah, Allahın isminin mazharı olması itibariyle insan, yani insanın bir örneği sayılan mutlak varlık. Arşur-rahman ve ya Allahın arşı. Kamil insanın kalbi. Arş, üzerine Allahın istiva ettiği bir varlıktır. Yerlere, göklere sığmayan Allah mümin kulunun kalbine sığdığından onun esas arşı ve istiva ettiği varlık insani-kamilin kalbidir… Mutasavvıflar kainatın en üst kısmına arş, en alt kısmına ferş der. Devrin iki türünden biri arşiye, digeri ferşiyedir».[180]

Şair deyir ki, Onun tacı bu cahana sığmadığı üçün merac Onun taxtını ərşə qaldırdı. Yəni uca Allah (c.c) Onu çox sevdi, Ona güc verdi, Onun dinini əbədi edəcək merac nemətləri verdi, Onu əlçatmaz bir zirvəyə ucaltdı.

---

[180] Süleyman Uludağ, göstərilən qaynaq, s. 46.

## ALTINCI ADDIM: ONUN BAŞI ALÇAQ MƏRTƏBƏDƏN UCALDI

سر بلنديش راز پايه پست
جبرئيل آمده براق به دست

***Onun başını alçaq mərtəbədən (yerdən)***
***ucaltmaq üçün,***
***Cəbrail Buraq yedəyində Onun yanına gəldi.***[181]

گفت بر باد نه پی خاکی
تا زمينيت گردد افلاکی

***Dedi: «Ayağını yerdən bu yerlə (bənzərin)***
***belinə qoy,***
***Ki, yerlərdən göylərə ucalasan».***[182]

Şair bu iki beytdə də ölçüsü, məkanı və zamanı olan yerlə sonsuzluq aləmini müqayisə etmişdir. Öncəki beytlərdə yeri – bu dünyanı «dar zamanə», «fani» adlandıran şair bu beytlərdə yeri «alçaq mərtəbə» kimi təqdim etmişdir. Burada «başını alçaq mərtəbədən ucaltmaq» həm göylərə ucalmaq, yəni merac səfəri, həm də islam Peyğəmbərinin dəyərini artırmaq, onu şərəfləndirmək mənasında işlədilmişdir. İndi də bir insanın dəyərini, hörmətini artırmaq mənasında «üzünü ağ etmək», «üzü ağ, alnı açıq olmaq», «başını uca etmək» kimi ifadələr işlədilir.

Şair yerə «alçaq mərtəbə» deyərkən həm yerlə göyün fərqini göstərmiş, həm də bu alçaq, aşağı yer məkanında Peyğəmbərə, islam dininə qarşı din düşmənlərinin mübarizəsinə işarə etmişdir. Belə çətin bir anda uca Allahın (c.c) buyuruğu ilə Cəbrail (ə.s) yer məkanına enərək Peyğəmbərə müjdə verir. Burada maraqlı cəhətlərdən biri də odur ki,

---

[181] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s.20.
[182] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s.20.

şair Buraq adlı miniyi yerə bənzətmişdir. Şair bu yolla da bir neçə məna ifadə etmişdir. Yəni ey Allahın elçisi, ayağınla bu «dar zamanə»ni, bu «fani dünya»nı, bu «alçaq mərtəbə»ni tapdala, bu məkanda sənə qarşı olan zülmdən qorxma, sən qalib gələcəksən. Sənin mindiyin bu Buraq qeyri-adi bir minikdir. Daha sonra şair Buraqı yerə bənzədərkən onun rənginə də işarə etmişdir.

## YEDDİNCİ ADDIM: SƏN XİLAS KEŞİKÇİSİSƏN

پاس شب را ز خیل خانه خاص
توئی امشب یتاق دار خلاص

***Xüsusi qəsrin gecə keşiyini çəkmək üçün,***
***Bu gecə xilas keşikçisi sənsən.***[183]

Hz. Nizami bu beytdə mübarək merac gecəsində islam Peyğəmbərinin vəzifəsini şərh etmişdir. Şair islam Peyğəmbərinin vəzifəsini şərh edərkən öncə «xüsusi qəsr»dən danışır. Şairin təqdimatına görə, bu «xüsusi qəsr» göyün ən uca mərtəbəsindədir. Qurani-Kərimdə göy üzündə xüsusi bir mərtəbənin olduğu buyurulur:

الذين يحملُون الْعرشَ ومن حولَه يسبحون بِحمد ربهِم يؤْمنُون بِه
ويستَغْفرون ِللذين آمنُوا ربنَا وسعتَ كُل شَيء رحمةً وعلْماً
فَاغْفر ِللذين تَابوا واتبعوا سبِيلَك وقهِم عذَاب الْجحيمِ

(əl-Mumin, 40/7)

«Ərşi daşıyanlar və onun ətrafında olanlar (mələklər) öz Rəbbini həmd-səna ilə təqdis edir, Ona (qəlbən) inanır

---

[183] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s.20.

və möminlərin bağışlanmasını diləyərək belə deyirlər: «Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ehtiva etmişdir. Artıq tövbə edib Sənin yolunla gedənləri bağışla, onları cəhənnəm əzabından qoru!».

اللّه الذي رفَع السماوات بِغَيرِ عمد تَرونَها ثُم استَوى علَى الْعرش
وسخر الشمس والْقَمر كُل يجرِي لأَجلٍ مسمى يدبر الأَمر يفَصلُ
الآيات لَعلكُم بِلقَاء ربكُم تُوقنُون

(ər-Rəd, 13/2)

«Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan (ərş üzərində bərqərar olan), müəyyən vaxta (dünyanın axırına-qiyamətə) qədər (səmada) dolanan Günəşi və Ayı ram edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır. (Bütün bu dəlillərdən sonra) Rəbbinizlə qarşılaşacağınıza (qiyamət günü dirilib haqq-hesab üçün hüzurunda duracağınıza), bəlkə, inanasınız».

Qurani-Kərimin bir çox ayələrində ərşlə bağlı bilgi verilmişdir.[184]

İslam Peyğəmbəri də hədislərində göyün təbəqələri ilə bağlı bilgi vermişdir: «Rəbbimiz uca Allah (c.c) bir şey təqdir buyurduğu zaman Ərşi daşıyan mələklər təsbih edərlər. Sonra göy əhli təsbih edər. Belə-belə təsbih bu alt səmanın sakinlərinə çatır. Sonra Ərşi daşıyanların arxasından gələnlər Ərşi daşıyanlara deyərlər: «Rəbbiniz nə buyurdu?» Onlar da nə buyurduğunu onlara xəbər verərlər. Bu yolla da

---

[184] ət-Tövbə, 9/129; Yunus, 10/3; Hud, 11/7; Taha, 20/5; əl-Ənbiya, 21/22; əl-Muminun, 23/86,116; əl-Furqan, 25/59; ən-Nəml, 27/26; əs-Səcdə, 32/4; əz-Zumər, 39/75; əl-Mumin, 40/7; əz-Zuxruf, 43/82; əl-Hədid, 57/4; əl-Buruc, 85/15.

səma sakinləri bir-biri ilə xəbərləşir. Nəhayət, xəbər bu alt səmaya çatır».[185]

Şair beytdə «xüsusi qəsr» deyərkən həm bir səma mərtəbəsini, həm də toxunulmaz əmanət və nemətlərin qorunub saxlandığı yeri nəzərdə tutmuşdur. «Xüsusi qəsr» xüsusi önəmi olan əmanətlərin qorunduğu yer deməkdir. Bizcə, bu «xüsusi qəsr»də qorunan əmanətlər ilahi sirlərdir, yaradılış haqqında olan önəmli bilgi və informasiyalardır, ən böyük nemət olan tükənməz elm xəzinəsidir.

Hz. Nizaminin bu beytinin ideyası uca Allahın (c.c) islam Peyğəmbərinə olan sevgisinin, inamının ifadəsidir. Şair bu ideyanı ifadə etmək üçün öncə göy üzünün ən uca mərtəbəsində «xüsusi qəsr»in olduğundan danışır. Bu qəsr ilahi sirlərin, elmin, gerçəklərin qorunduğu bir yerdir və bu qəsri uca Allahın (c.c) buyruğu ilə təyin edilmiş xüsusi mələklər qoruyur. Şairə görə, uca Allah (c.c) mübarək merac gecəsi bu «xüsusi qəsr»in qorunmasını hz. Məhəmmədə (s.a.s) əmanət etmişdir. O, bu şərəfə nail olmuş tək insandır. Bu da uca Allahın (c.c) islam Peyğəmbərinə olan sevgisinin, inamının göstəricisidir.

Şair daha sonra uca Allahın (c.c) islam Peyğəmbərinə olan sevgisini, etibarını ifadə etmək üçün deyir ki, hz. Məhəmməd (s.a.s) bu «xüsusi qəsr»in gecə keşiyini çəkəcək. Bilindiyi kimi, gecə keşikçisi olmaq daha çətindir, daha çox etibar tələb edir. Sonra şair, hz. Məhəmmədi (s.a.s) «xilas keşikçisi» adlandırır. Yəni merac gecəsi «xüsusi qəsr»də olan ilahi əmanətlərin qoruyucusu, xilaskarı hz. Məhəmməddir (s.a.s). **Şairin təfsirində xilas keşikçisi anlayışı uca Allahın (c.c) islam Peyğəmbərinə olan etibarının, inamının, sevgisinin göstəricisidir. Peyğəmbərin ən önəmli və-**

---

[185] Müslim, «Salam», 124.

**zifələrindən biri də uca Allahın (c.c) əmanətlərini qorumaqdır, onların keşiyini çəkməkdir.**

## SƏKKİZİNCİ ADDIM: BURAQ NURDAN YARANMIŞDI

رسیده جبرئیل از بیت معمور
براقی برق سیر آورده از نور

*Cəbrail Beytül-mamurdan gəlib,*
*Nurdan (yaranmış) ildırım sürətli bir*
*Buraq gətirdi.*[186]

Şair bu beytdə merac gecəsinə hazırlıq mərhələsinin özəlliklərini təsvirə davam edir. Uca Allah (c.c) sevimli elçisini merac yolçuluğuna hazırlamaq üçün öncə ən seçilmiş mələklərdən biri olan Cəbrailə (ə.s) göstəriş verir. Cəbrail (ə.s) ən müqəddəs yerdən – Beytül-mamurdan gəlir və islam Peyğəmbərini uca Allahın (c.c) hüzuruna aparmaq üçün qeyri-adi bir minik gətirir.

Beytin ilk misrasında Cəbrailin (ə.s) **Beytül-mamurdan** gəldiyi bildirilir. Beytül-mamur harada yerləşir? Bununla bağlı çeşidli fikirlər var. Bu məkanın özəllikləri belə təsvir edilir: **Beytül-mamur Firdövs cənnətində qırmızı yaqutdan olan uca bir qübbə idi. Uca Allah (c.c), hz. Adəmi (s.a.s) cənnətdən yer üzünə endirdi, onun tövbəsini qəbul etdi. Ona bir hədiyyə, cənnət yadigarı olması, tavaf və ziyarət etməsi üçün Beytül-mamuru cənnətdən bu dünyaya – Kəbənin olduğu yerə endirdi. Beytül-mamurun biri doğuya (şərqə), biri batıya (qərbə) açılan iki qapısı var. Beytül-mamurun içində nurdan üç qəndil var idi. Bu qəndillərin o zaman işıqlandırdığı yerlər in-**

[186] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s.339.

**diki toxunulmaz Kəbədir. Uca Allahın (c.c) buyruğu ilə yeddi qat göydəki mələklər növbələşərək enər və hz. Adəm (s.a.s) ilə birgə Beytül-mamuru tavaf edərdilər. Beytül-mamur hz. Adəmdən (s.a.s) hz. Nuhadək (s.a.s) yer üzündə idi. Tufandan öncə dünya səmasına qaldırılmışdır. Beytül-mamurun yer üzündə olan yerində hz. İbrahim (s.a.s) uca Allahın (c.c) əmri ilə Beyti-şərifi tikmişdir. Əgər Beytül-mamur göydən düşsə, mübarək Kəbənin üzərinə düşər. Yerdəki Kəbə ilə göydəki Beytül-mamur arası Hərəmi-şərəfdir. Bu gün Kəbə divarında olan və öpülən qara daş Beytül-mamurdan yadigar qalmışdır. Bu qara daş öncə qırmızı yaqut olmuş, tufandan sonra uca Allahın (c.c) buyruğu ilə qara daşa çevrilmişdir. Dünya səmasındakı Beytül-mamura hər gün yetmiş min mələk girib namaz qılır. Onların sayı o qədər çoxdur ki, Beytül-mamura bir kərə girən mələk qiyamətədək bir daha ora girə bilməz.**[187]

**Uca Allah (c.c) Qurani-Kərimdə Beytül-mamura and içmişdir:**

بسم الله الرحمن الرحيم والطور . وكتاب مسطور . في رق
منشور. والبيت المعمور . والسقف المرفوع . والبحر المسجور

(ət-Tur, 52/1-6)

«And olsun (Allahın Musa ilə danışdığı) Tur dağına. And olsun yazılmış kitaba (Tövrata, Qurana, ya da bütün ilahi kitablara). Açıq dəri üzərində (olan kitaba). And olsun (mələklərin ibadət etdiyi) **Beytül-mamura**. And olsun yüksək tavana (uca göyə)».

---

[187] Erzurumlu İbrahim Hakkı, «Marifetname», Bedir yayın evi, İstanbul, 1999, s. 27-28.

Hz. Nizami də islam Peyğəmbərini göyün ən uca mərtəbəsinə aparmağa gələn Cəbrailin (ə.s) Beytül-mamurdan endiyini, göndərildiyini bildirir.

Şair beytin ikinci misrasında qeyri-adi minik olan Buraqın iki özəlliyini göstərir. Birincisi, şairə görə, Buraq nurdan yaranmışdır, ikincisi, Buraq ildırım sürətli idi. İslam Peyğəmbərindən rəvayət olunan bir hədisdə Buraqın özəlliyi belə təsvir olunur: «… Cəbrail gəldi və buradan-buraya qədər yardı və qəlbimi çıxardı. Sonra iman dolu qızıl bir qab gətirilib qəlbim yuyuldu, içi doldurulub yerinə qoyuldu. Sonra mənə **qatırdan kiçik eşşəkdən böyük ağ bir minik** gətirildi. Bu minik **addımını bir insanın gözünün görə biləcəyi ən uzaq nöqtəyə atırdı.** Mən miniyə mindirildim. Cəbrail məni götürüb yaxın səmaya gəldi…».[188]

Beytdə Buraqın nurdan yaranmış olması bir sıra mənalar ifadə edir. Hər şeydən öncə şair Buraqın fərqli bir minik olduğunu bildirir və bu minik seçilmiş bir insan üçün nəzərdə tutulmuşdur. İslam Peyğəmbəri üçün merac gecəsi belə fərqli bir miniyin seçilməsi uca Allahın (c.c) öz sevimli elçisinə olan sevgisinin göstəricisidir.

Hz. Nizaminin təfsirinə görə, Buraq nurdan yaradılmışdır. Bilindiyi kimi, nurdan yaradılmaq özəlliyi Qurani-Kərimdə mələklərə aid edilmişdir. Mələklər nurdan yaradılmışdır, onların nəfsi, cinsi yoxdur, onlar yeməzlər, içməzlər, onlar ancaq uca Allaha (c.c) itaət edərlər. Beytdə şairin Buraqın nurdan yaradıldığını deməsinin səbəbi onun həm çox gözəl olduğunu, həm də ancaq itaət üçün yaradıldığını bildirməkdir. O, nə edəcəyi öncədən müəyyən edilmiş bir minikdir.

---

[188] «Muttefekun aleyh hadisler» (Buhari ve Müslimin ittifak ettiği hadisler), Konya, 2004, s. 67.

Şairin təfsirinə görə, Buraqın özəlliyi merac gecəsinin xarakterinə uyğundur. Merac gecəsi ən nurlu gecədir, Buraq da nurdan yaradılmışdır. Merac gecəsində sürət, hərəkət var. Buraq da ildırım sürəti ilə hərəkət edir. Merac gecəsi islam Peyğəmbərinin uca Allahın (c.c) hüzuruna tələsdiyi, can atdığı gecədir, Buraq da bu istəyi çox qısa zamanda gerçəkləşdirmək gücündə olan bir minikdir.

Şair deyir ki, Buraq nurdan yaradılıb, yəni onda işıq sürəti var. O, ildırım sürəti ilə Peyğəmbəri göyün ən uca mərtəbəsinə aparmalıdır.

## DOQQUZUNCU ADDIM: BURAQIN BAŞINDA YÜYƏN YOX İDİ

نگارین پیکری چون صورت باغ
سرش بکر از لگام و رانش از داغ

***Gözəl heykəli bağın üzü kimi qəşəng idi,***
***Budunda dağ, başında yüyən yox idi.***[189]

Şair bu beytdə qeyri-adi minik olan Buraqın başqa bir özəlliyini təqdim edir. Şairə görə, nurdan yaradılmış, ildırım sürətli Buraqın bədəni də çox gözəl idi. Uca Allah (c.c) əziz Peyğəmbərinə ona olan sevgisinin əlaməti olaraq çox yaraşıqlı bir minik seçmişdir. Bu miniyin bədəni bağ üzü kimi qəşəngdir. Şair Buraqın bədəninin gözəlliyini göstərmək üçün müqayisə obyekti olaraq bağı seçmişdir. Bağda gözəl, rəngbərəng, təzə, tər güllər olar. Buraq da bu güllər kimi gözəldir. Bağ güllərin ətri ilə dolar. Buraq da bağ havası kimi təmizdir. Bağda gözəl, axar su olar. Buraqın da fitrəti bu axar su kimi təmizdir. Bağ insan ruhunun dincəldiyi, rənglə-

---

[189] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s.339.

rin, ətrin, gözəlliyin insan ruhuna mənəvi qida verdiyi bir bərəkətli yerdir. Buraq da bağ kimi gözəldir, onu görəni heyran edir. Burağın nurdan yaranması, ildırım sürətli olması, fitri təmizliyi onun uca göylərə yüksələ bilməsinin əsas şərtidir. Fitri təmizlik olmasa, göylərə yüksəlmək də yoxdur.

Şair beytin ikinci misrasında deyir ki, Buraqın budunda dağ yoxdur. Burada şair Buraqı adi miniklərdən fərqləndirmişdir. Adi miniklərə bir işi gördürmək üçün onları qamçılayırlar, bunun da nəticəsində onların budunda yara, dağ əmələ gəlir. Ancaq Buraq nurdan yaradılmışdır, onun qamçıya ehtiyacı yoxdur, o, onu yaradanın itaətindədir. Buraq ona verilən əmri sevərək yerinə yetirir, onda tam itaət var, itaət də sevginin göstəricisidir.

**Şair deyir ki, onun yüyəni yox idi. Yüyən adi heyvanları itaətdə saxlamaq, onları idarə etmək üçündür. Buraqın isə belə bir yüyənə ehtiyacı yoxdur. O, vəzifəsi bəlli, sürəti bəlli, yükü bəlli, yolu bəlli, hədəfi bəlli olan bir minikdir. O, götürdüyü əmanəti sağ-salamat, müəyyən edilən vaxtda, hər cür təhlükədən qoruyaraq mənzilinə çatdıracaq.**

## ONUNCU ADDIM: BURAQ İNCİ SƏPİRDİ

نه ابر از ابر نیسان درفشان تر
نه باد از باد بستان خوش عنان‌تر

*Neysan buludundan daha çox inci səpirdi,*
*Bostan küləyindən daha çox ətirli idi.*[190]

[190] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s.339.

Şair bu beytdə nurdan yaranmış Buraqı neysan buludu ilə müqayisə etmişdir. Neysan buludu bərəkətli yağışı olan bir buluddur. Neysan buludu klassik ədəbiyyatda da ayrıca yer tutmuş və şairlər onu bir bərəkət qaynağı kimi təqdim etmişlər. Neysan buludundan yağış yağar, bu yağış havanı təmizləyər, yer-göy nura qərq olar, bitkilər, ağaclar bu yağışın bərəkəti ilə canlanar, bar verər, öz gözəlliyini göstərər.

**Neysan yaz fəslinin ikinci ayıdır, yəni aprel ayıdır. Aprel ayında neysan buludundan yağış yağan zaman dəniz heyvanı olan molyuska suyun üzünə çıxır və ağzını açır. Onun ağzına düşən yağış damlaları mədəsində yavaş-yavaş dürrə, sədəfə, yəni mirvariyə çevrilir. Bu hadisə ildə bir dəfə, ancaq aprel ayında neysan buludundan yağış yağan zaman olur. Bu yolla əmələ gələn inci, mirvari dənələri nə qədər çox olsa, xırda olur. Bir sıra hallarda sədəfin mədəsində bircə dənə mirvari olur. Belə mirvari dənəsi çox iri və qiymətli olur. O, tək olduğu üçün «dürri-yetim» (tək dürr) adlanır.** Bədii ədəbiyyatda tək, misilsiz və çox qiymətli olan şeylərə dürri-yetim deyirlər.

Bu dəniz heyvanı sədəf də adlanır. Bir sıra qaynaqlara görə, sədəf neysan buludundan udduğu yağış damlalarını inciyə çevirir.

Şair deyir ki, Buraq neysan buludundan daha çox inci səpirdi. Yəni neysan buludu ancaq aprel (nisan) ayında inci səpir, bu yağış ilin başqa bir ayında olmur və inci ancaq dənizdə sədəfin mədəsində əmələ gəlir. Buraq isə hər yerə inci səpir, onun bərəkəti daha çoxdur. Onun getdiyi hər yer bir ağ işığa qərq olur.

Şair beytin ikinci misrasında deyir ki, Buraq bostan küləyindən daha çox ətirli idi. Bostan cürbəcür dadlı, ətirli, gözəl nemətlərin yetişdiyi yerdir. Bu nemətlərin ətri ətrafa yayılır, əsən küləyə qarışır, külək də bu ətri aləmə yayır. Ancaq Buraq bostan küləyindən fərqlidir. Ətri başqa yerdən

almır, onun ətri özündəndir və onun ətri daha gözəldir. Deməli, mübarək merac gecəsində nurdan yaranmış, ildırım sürətli, bağın üzü kimi qəşəng, yüyənsiz, inci səpən, bostan küləyindən daha ətirli Buraq, hz. Məhəmmədi (s.a.s) uca Allahın (c.c) hüzuruna aparır.

## ON BİRİNCİ ADDIM:
## YƏHƏRİ GÖVHƏRDƏN OLAN
## BİR DƏNİZ KİMİ İDİ

چو دریائی ز گوهر کرده زینش
نگشته وهم کس زورق نشینش

***Yəhəri gövhərdən olan bir dəniz kimi idi,***
***Heç kəsin xəyalı onun qayığında oturmamışdı.***[191]

Şair bu beytdə Buraqı yəhəri gövhərdən olan bir dənizə bənzətmişdir. Dəniz sonsuzluğun, gözəlliyin rəmzidir. Şairin Buraqı yəhəri gövhərdən olan dənizə bənzətməsinin səbəbi mümkünsüzlük ideyasını təqdim etmək üçündür. **Yəni şairin təsvir etdiyi dəniz dalğalıdır, çoşqundur, dalğalar şahə qalxmış gövhər yəhərli ata bənzəyir, bir kimsənin bu gövhər yəhərli dənizin – atın üstündə oturması, bu coşqun dənizdə səyahətə çıxması mümkün deyil. Bu gövhər yəhərli dənizdə səyahətə çıxa biləcək tək bir mübarək insan var. O da merac gecəsi ilə şərəfləndirilmiş hz. Məhəmməddir (s.a.s).** Deməli, Buraqın gövhər yəhərində də ancaq hz. Məhəmməd (s.a.s) otura bilər.

Şair mümkünsüzlük ideyasını təqdim etmək üçün beytin ikinci misrasında başqa bir vasitədən də istifadə etmiş-

---

[191] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s.339.

dir. Şair deyir ki, bir kimsəni nəinki özü, heç xəyalı da bu gövhər yəhərli dənizin qayığında səyahətə çıxa bilməz. Bunun mənası odur ki, merac gecəsinin miniyi olan Buraqın üzərində islam Peyğəmbərindən başqa bir kimsə otura bilməz. Bundan başqa şair beytdə «gövhər» yəhərli at, «dəniz», «qayıq» obrazları da təsvir etmişdir. Bu obrazların hər birində hərəkət, sürət, səyahət anlayışları var. Bu anlayışların hər biri merac gecəsinin ruhuna uyğundur. Çünki merac gecəsi də bir mübarək səfərdir. Şair mümkünsüzlük ideyasının işığında demək istəyirik ki, islam Peyğəmbərindən başqa, heç kimə merac gecəsi qismət deyil, bu mübarək gecənin yolçusu ancaq odur.

## ON İKİNCİ ADDIM:
## BURAQ AĞIR NALLI, YÜNGÜL QAÇIŞLI İDİ

قوی پشت و گران نعل و سبک خیز
بدیدن تیز بین و در شدن تیز

***Belə güclü, ağır nallı, yüngül qaçışlı,***
***Görməkdə gözü iti, qaçışda sürətli idi.***[192]

Şair islam Peyğəmbərinin mübarək gecəsi miniyi olan Buraqı qeyri-adi bir varlıq kimi təsvir etmişdir. Buraq güclüdür, o, çətin bir səfərin yolçusudur. Buraq yorulmaz, Buraq dincəlməz, Buraq həm yeriyər, həm də uçar, ayaqları yerə dəyməz. Onun nalı ağırdır, möhkəmdir, ayaqlarını qoruyar, inamlı hərəkətini təmin edər. O, çox sürətlə hərəkət edir. O, bir an içində sahibini mənzil başına çatdırmalıdır. Misrada «yüngül qaçışlı» ifadəsi rahat yerişli, sahibinə heç bir narahatlıq verməyərək hərəkət edən deməkdir.

---

[192] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s.339.

Şair deyir ki, onun gözü çox itidir, o gedəcəyi yolu tanıyır, ağı qaradan seçir, gecənin qaranlığında yolu azmadan rahat hərəkət edə bilir. O, gözlərini yummaz, yorulmaz, yatmaz, sahibini təhlükəsiz gedəcəyi yerə çatdırar. Buraq çox sürətlə hərəkət edir, bir göz qırpımında gözdən itir.

Merac gecəsi qeyri-adi bir gecə olduğu üçün bu gecəyə aid olan hər şey də qeyri-adidir, bu gecənin adına, bərəkətinə uyğundur. Buraq da gözümüzün qarşısında nurdan yaranmış, ildırım sürətli, üzü bağ üzü kimi qəşəng, yüyənsiz, neysan buludundan daha çox inci səpən, bostan küləyindən daha ətirli, gövhər yəhərli dənizə bənzəyən, güclü, ağır nallı, gözü iti, qaçışı sürətli bir varlıq kimi canlanır.

## ON ÜÇÜNCÜ ADDIM: CƏBRAİL (ə.s) YEDDİ GÖYÜN DARGÖZ OĞLANIDIR

وشاق تنگ چشم هفت خرگاه
بد آن ختلی شده پیش شهنشاه

***Yeddi xeymənin (yəni göyün) dargöz oğlanı (Cəbrail),***
***Bu atla şahənşahın yanına gəlmişdi.***[193]

Uca Allah (c.c) öz elçisini çox sevdiyindən merac gecəsi Onun yanına xüsusi elçi göndərir. Bu elçi vəhy mələyi mübarək mələk Cəbraildir (ə.s). Şair deyir ki, Cəbrail (ə.s) yeddi göyün dargöz oğlanıdır.

## YEDDİ GÖY ANLAYIŞI

İslam alimlərinə görə, uca Allah (c.c) cənnətlərin altında günəşin işığından yetmiş min pərdə yaratmışdır.

[193] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s.339.

Bunların altında Ayın nurundan yetmiş min pərdə yaratmışdır. Bunların da altında zülmətdən yetmiş min pərdə var. Yuxarıdakı pərdələr mələklərin çeşidlərindən ibarətdir. Onların altında daşqın su dənizi, onun altında yayılmış incə dəri dənizi, onun altında sıra ilə bölünmüş ruzilər dənizi, nemətlər dənizi, cövhərlər dənizi, həyat dənizi var. Bu göstərilən dənizlər uca Allahın (c.c) xəzinələri anlamındadır.

Bu dənizlərin altında **yeddinci qat** göy var. **Yeddinci qat göy** rəngli nurdan, ya da qırmızı yaqutdandır. Göyün yeddinci təbəqəsinin adı **Aribadır.** Göyün bu təbəqəsi mələklərlə doludur. Bu mələklər davamlı olaraq bu sözləri zikr edirlər: **«Sübhanallahi və bihəmdihi adədə xəlqihi və zinətə Ərşihi və midadi kəlimatihi».**

Bu yeddinci qat göydə olan mələklər uca Allahdan başqa bir kimsəni tanımırlar. Bir-birinə belə, baxmazlar. Bunlara **məlakeyi-mükərrəbin və ruhaniyyin** deyirlər. Bu mələklərin başçısı yeddinci qat göyün qoruyucusu olan **Raqyaildir.**

Yeddinci qat göyün altında **altıncı qat** göy var. Göyün bu qatı əl dəyməmiş incidəndir. Adı **Raqadır**. Bu mərtəbədəki mələklərin üzü güldən təzədir. Hamısı uca Allahın (c.c) qorxusundan hər zaman rükudadır. Onlar hər zaman bu sözləri zikr edirlər: «**Sübhanə Rəbbi külli şəyyin**». Bu mələklərin başçısının adı **Kəmhaildir.** O, altıncı qat göyün qoruyucusudur.

Altıncı qat göyün altında **beşinci qat** göy var. Göyün bu qatı qırmızı qızıldandır. Göyün bu qatının adı **Dinekadır.** Bu göyün mələkləri uca Allahın (c.c) qorxusundan oturub təsbih edirlər. Onların təsbihləri belədir: «**Sübhanəl-xaliqin-nuri və bihəmdihi**». Bu mələklərin başçısının adı **Səmhaildir**. Bu mələk göyün beşinci qatını qoruyur.

Beşinci qat göyün altında isə **dördüncü qat** göy var. Göyün bu qatının adı **Ərkalundur.** Mələkləri at şəklin-

dədir. Onların təsbihləri belədir: «**Sübhanəl məlikil-Kuddus, Rəbbina və Rəbbül-məlaikəti vərruh**». Bu mələklərin başçılarının adı **Kakaildir.** Bu mələk göyün dördüncü qatını qoruyur.

Dördüncü qat göyün altında **üçüncü qat** göy var. Göyün bu qatı sarı yaqutdandır. Bu göyün adı **Maundur**. Mələkləri qartal şəklindədir. Onların təsbihləri belədir: «**Sübhanəl-məlikil-hayyilləzi ya yəmut**». Bu mələklərin başçılarının adı **Safdaildir**. Bu mələk göyün üçüncü qatını qoruyur.

Üçüncü qat göyün altında **ikinci qat** göy var. Göyün bu mərtəbəsi qırmızı yaqutdandır. Göyün bu qatının adı Kaydumdur. Bu göyün mələkləri dəvə şəklindədir. Onların təsbihləri belədir: «**Sübhanə zil izzəti vəl-cəbərut**». Bu mələklərin başçılarının adı **Mikaildir**. Bu mələk göyün ikinci qatını qoruyur.

İkinci qat göyün altında **birinci qat** göy var. Göyün bu qatı yaşıl zəbərcəddəndir. Göyün bu qatının adı **Bərqiadır.** Bu göyün mələkləri sığır şəklindədir. Onların təsbihləri belədir: «**Sübhanə zil mülki vəl-məlakut**». Bu dünya səmasındakı mələklərin başçısı **İsmayıldır**. Bu mələk böyük və gözəl mələk Mikailin vəkilidir. Yağışın yağacağı yeri müəyyən edən odur. Yağış onun hesabı ilə yerin ayrı-ayrı bölgələrinə yağar, buludlar onun müəyyən etdiyi yerə gedər.

Yeddi qat göyün qırmızı qızıldan olan çoxlu qapalı qapısı var. Bu qapıların açarı «Allahu əkbər»dir. Hər göy qatının icazəsi ilə qapıçılar bu qapıları açarlar.[194]

---

[194] Erzurumlu İbrahim Hakkı, «Marifetname», göstərilən qaynaq, s. 28-29.

## BÖYÜK ƏRŞİN ÖZƏLLİKLƏRİ

Mülk aləminin ən uca mərtəbəsi böyük ərşdir. Uca Allah (c.c) bütün aləmi bir anda yarada bilərdi, ancaq altı gündə yaratdı:

وَلَقَد خَلَقْنَا السماوات والْأَرض وما بينَهما في ستة أَيامٍ وما مسنَا من لغُوبٍ

(Qaf, 50/38)

«And olsun ki, Biz göyləri, yeri və onların arasında olanları altı gündə yaratdıq və Bizə heç bir yorğunluq da üz vermədi».

Bunun hikməti odur ki, uca Allah (c.c) qullarına bütün işlərində səbirli və diqqətli olmağı buyurmuşdur. Uca Allah (c.c) ilk yaratdığı cövhərin köpüyündən Böyük Ərşi yaratmışdır. O cövhərin nurunu, əzəmətini anlatmaq qeyri-mümkündür. Böyük Ərşin ətrafı qırmızı yaqutdandır. Bütün yaradılmışların xarakter və şəkilləri orada nəqş olunmuşdur. Yer üzündə olan varlıqların qibləsi Kəbə olduğu kimi, mələklərin qibləsi də göy mərtəbələrinin üstündəki Böyük Ərşdir. Böyük Ərşin hər biri başqa bir dillə uca Allahı (c.c) təsbih edən yetmiş min dili var. Böyük Ərşin dörd dirəyi var. Dirəklərin ayaqları yerin altınadək uzanır. Böyük Ərşi dörd mələk daşıyır. Uca Allah (c.c) Böyük Ərşi daşıyan mələkləri Böyük Ərş su üzərində, su da külək üzərində olarkən yaratmışdır. Qiyamət günü yeni dörd böyük mələk də yaradılacaq və Böyük Ərşi daşıyacaq mələklərin sayı səkkizə çatacaq. Böyük Ərşi daşıyan dörd mələyin hər birinin dörd üzü var. Bir üzü insan şəklində, bir üzü də qartal şəklindədir. Hər üz yer üzündə öz bənzəri olan yaradılmışlar üçün Rəzzaq-ruzi verən uca Allahdan (c.c) ruzi tələb edir. Bu dörd mələk həmişə ayaqüstə dayanır. Onların ayaqları yeddi qat yerdən də aşağıya uzanır və Böyük Ərşi boyunları üzərində saxlayırlar.

Uca Allahın (c.c) yanında ən hörmətli mələk bu dörd mələkdir. Onlardan biri Böyük Ərşin bir dirəyini boynunda

saxlayan İsrafildir (ə.s). İsrafil (ə.s) Sura üfürmək üçün hər an hazırdır. O, qiyamətədək Lövhi-Məhfuza baxacaq. İsrafil (ə.s) Lövhi-Məhfuzdan Cəbrail (ə.s), Mikail (ə.s), Əzrail (ə.s) adlı böyük mələklərin hallarını öyrənib onlara xəbər verir.

Böyük Ərşi daşıyan mələklərin hər birinin dörd yana uzanmış dörd qanadı var. Bədənlərinin yarısı qar, yarısı atəşdir, ancaq bir-birini söndürmür, bu hissələr bir-birinə qovuşmuşdur. Onların bədəni çox böyükdür. Ərşi daşıyan mələklərə Böyük Mələklər də deyilir. Onlar davamlı olaraq bu təsbihi zikr edirlər:

«Sübhanə zil mülki vəl-mələkut».

«Sübhanə zil ərşi vəl-izzəti vəl-əzəməti vəl-heybəti vəl-qüdrəti vəl-kibriyai vəl-cəbərut».

«Sübhanəl məlikül-məbud».

«Sübhanəl məlikil-mövcud».

«Sübhanəl məlikil-həyyilləzi la yənamü və
la yəmut».

«Sübbuhun, Kuddusün, Rabbüna və
Rəbbül-məlaikəti vərruh».[195]

## BÖYÜK ƏRŞİN ƏTRAFINDA OLAN ÇAYLAR

Uca Allah (c.c), Böyük Ərşin ətrafında səkkiz böyük çay yaratmışdır. Bunlardan dördü qardan ağ və soyuq, dördü də baldan şirin və gözəl ətirlidir. Bu çaylar hər zaman axır və Böyük Ərşin ətrafını tavaf edir. Bundan başqa, Ərşin nurunun şiddətindən yanmamaları üçün oradakı mələkləri qorumaq üçün min dənə işıqdan və min ədəd də qaranlıqdan pərdələr yaradılmışdır.

---

[195] Erzurumlu İbrahim Hakkı, «Marifetname», göstərilən qaynaq, s. 18-19.

Bu pərdələrin o biri üzündə yetmiş min saf mələk var. Onlar davamlı olaraq uca Allahı (c.c) təsbit və Ərşin ətrafını tavaf edirlər. Onlar gündə iki dəfə Ərşi daşıyan mələklərə salam verirlər. Onlara Məlaikeyi-Saffun və Haffun deyirlər. Bunlardan başqa yetmiş min saf mələk də yaradılmışdır ki, onlar davamlı olaraq ayaq üstə: «Sübhanallahi vəl-həmdü Lillahi və la ilahə illallahü vallahü əkbər və la havlə və la qüvvətə illa billahil aliyyil-əzim».

## MƏLƏKLƏRİN ÖZƏLLİKLƏRİ

Uca Allah (c.c) mələkləri müxtəlif nurlardan yaratmışdır. Ərşin nuruna yaxın olan mələklərin nuru daha çoxdur və parlaqdır. Ərşdə olan mələklərin nuruna Sidrədə olan mələklər, Sidrədə olan mələklərin nuruna göydə və yerdə olan mələklər dözə bilməz, yanarlar.

Bütün mələklərin vəzifəsi uca Allahın (c.c) buyruqlarını yerinə yetirməkdir. Onlar günah etməzlər. Onların qidası uca Allahın (c.c) zikridir. Onlar yeməz, içməz, yatmaz, cinsi münasibətdə olmazlar. Mələklərin çoxu insana oxşayır. Uçan quşlara da bənzəyirlər, ancaq müxtəlif şəkillərə də düşə bilirlər. Uca Allahın (c.c) əmrlərini ildırım sürəti ilə yerinə yetirirlər. Hər birinin öz işi var. Ərş ətrafında təsbih və təvaf edirlər. Kürsidə, Sidrədə, Cənnətdə, Cəhənnəmdə, göydə, yerdə olan mələklərin bir çoxu qiyamda, bir çoxu oturaraq davamlı şəkildə uca Allahı (c.c) təsbih edirlər. İnsanların xidmətində gecə-gündüz onları qoruyur və əməllərini yazırlar. Bunlara Kiramən-Katibin və Hafaza mələkləri deyilir.

Mələklərin də peyğəmbərləri var. Bu peyğəmbərlərdən biri İsrafildir (ə.s), onun vəzifəsi qiyamət günü Sura üfürməkdir. Onlardan biri Cəbraildir (ə.s). Onun altı yüz qanadı var. Hər bir qanadın yüz lələyi var. Hər ləléyin

uzunluğu şərq ilə qərb arası qədərdir. Bütün qanadları rəngli nurlardandır. Bədəni qardan ağdır. Ayaqları yerin altınadək uzanır. Qanadının hər tükü dağları devirmək gücündədir. Cəbrailin (ə.s) vəzifəsi uca Allahdan (c.c) yer üzündə olan peyğəmbərlərə salam və vəhy gətirməkdir. Şəkil və böyüklükdə İsrafil (ə.s) kimidir.

Mikayılın (ə.s) qanadlarının sayını ancaq uca Allah (c.c) bilir. Dənizlərdəki mələklər ona bağlıdır. Göylər və yer mələklərlə doludur. Hər birinin vəzifəsi var. Yağış yağdırmaq işi Mikayıla (ə.s) baxır. Bu mələk də Cəbrailə (ə.s) oxşayır.

Mələklərin peyğəmbərlərindən biri də Əzraildir (ə.s). O, insanların canını alır. Yüz minlərlə rəhmət və qəzəb mələyi onun əmrindədir.

## KÜRSÜNÜN ÖZƏLLİKLƏRİ

Uca Allah (c.c) Böyük Ərşin nurundan Ərşin altında, ərşin ayağına bitişik, dörd sütun üzərində qırmızı yaqut rəngində bir böyük Kürsü yaratmışdır. Sütunları yerin dibinədək uzanır. Bütün göylər və yerlər, Qaf dağı Kürsünün böyüklüyü yanında çöldəki bir üzük halqası kimidir. Kürsü də Böyük Ərşin altında Ona nisbətdə səhrada bir süfrə kimidir.

## LÖVHİ-MƏHFUZ VƏ QƏLƏMİN ÖZƏLLİYİ

Uca Allah (c.c) Böyük Ərşin altında və onun nurundan yaşıl zəbərcəd rəngində, ətrafı da qırmızı yaqut rəngində olan böyük bir lövh yaratmışdır. Uca Allah (c.c) uzunluğu yüzillik məsafə olan zümrüd rəngində bir yaşıl Qələm də yaratmışdır. Qələmin mürəkkəbi ağ nurdur. Uca Allah (c.c) Qələmə: «Ey Qələm, yaz!», - deyə əmr edəndə Qələm qor-

xudan göy gurultusu kimi səslə təsbih edərək Lövhi-məhfuz üzərində uca Allahın (c.c) əmrinə uyğun olaraq yazmağa başlamışdır. Qiyamət gününədək olanları yazaraq Lövhi-Məhfuzu doldurmuşdur. Sonra «yazılan yazıldı, qələm qurudu» prinsipinə uyğun olaraq Qələm qurumuşdur. Artıq yaxşı olan yaxşı, pis olan da pis kimi müəyyən olunmuşdur. Ancaq uca Allah (c.c) hər gün və gecə üç yüz altmış dəfə Lövhi-Məhfuza baxır və hər dəfə də bir şey silib yerinə bir şey yazır. Uca Allahın (c.c) qullarının işlərini Lövhi-Məhfuza yazması göy və yer əhlinin, yaradılmışların işlərinin əzəli elmə uyğun olaraq meydana gəldiyini bilmələri üçündür. Lövhi və Qələmi inkar edən münafiqdir. Uca Allah (c.c) belə buyurur:

وَلَقَدْ أَرْسَلْنَا رُسُلاً مِن قَبْلِكَ وَجَعَلْنَا لَهُمْ أَزْوَاجاً وَذُرِّيَّةً وَمَا كَانَ
لِرَسُولٍ أَن يَأْتِيَ بِآيَةٍ إِلاَّ بِإِذْنِ اللّهِ لِكُلِّ أَجَلٍ كِتَابٌ يَمْحُو اللّهُ مَا
يَشَاءُ وَيُثْبِتُ وَعِندَهُ أُمُّ الْكِتَابِ

(ər-Rəd, 13/38-39)

«(Ey Rəsulum!) Biz səndən əvvəl də peyğəmbərlər göndərdik, onlara zövcələr, övladlar verdik. Allahın izni olmadıqca heç bir peyğəmbər heç bir möcüzə gətirə bilməz. Hər dövrün bir kitabı (Lövhi-Məhfuzda yazılmış hökmü) var. (İlahi kitablardan hər birinin öz nazil olma vaxtı var. Bunlar zamanın, dövrün tələbinə və ehtiyacına görədir). Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar (bəndələrinə aid hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər, ya da onu olduğu kimi saxlayar). Kitabın əsli (Lövhi-Məhfuz) Onun yanındadır».

## SİDRƏTÜL-MÜNTƏHA VƏ TUBA AĞACI

Uca Allah (c.c) Böyük Ərşin altında və onun nurundan Kürsünün qarşısında, Cənnətin üstündə ağ inci kimi bir fəza (sahə) yaratmışdır. Bu fəzanın adı Sidrətül-Müntəhadır, Cəbrailin (ə.s) və böyük mələklərin yeri buradır. Uca Allah (c.c) Sidrətül-Müntəhada böyük bir ağac yaratmışdır. Bu ağacın adı Tubadır. Bu ağacın kökü sarı qızıldan, budaqlarının çoxu qırmızı mərcandan, yarpaqları yaşıl zümrüddən və müxtəlif meyvələr şəklindədir. Onun ucsuz-bucaqsız budaqları Cənnət köşklərinə uzanır. Onun saysız-hesabsız meyvələrindən Cənnət əhli istifadə edir. Sidrətül-Müntəhada olan mələklərin Ərşin nuru ilə yanmaması üçün Sidrə ilə Ərş arasında yetmiş min pərdə yaradılmışdır.[196]

Bu deyilənləri ümumiləşdirsək, mülk aləmini ardıcıl olaraq belə sıralaya bilərik:

**1. Böyük Ərş**
**2. Kürsü ------- Ülvi aləm**
**3. Cənnət ------- Axirət aləmi**
**4. Cəhənnəm ------ Baqi aləm**
**5. Yeddinci qat göy**
**6. Altıncı qat göy**
**7. Beşinci qat göy --------- Molekullar aləmi**
**8. Dördüncü qat göy --------- Fələklər aləmi**
**9. Üçüncü qat göy --------- Göylər aləmi**
**10. İkinci qat göy**
**11. Birinci qat göy**
**12. Atəş ---- Ünsürlər aləmi**
**13. Hava ---- Aşağı aləm**

---

[196] Erzurumlu İbrahim Hakkı, «Marifetname», göstərilən qaynaq, s. 20-22.

**14. Su ---- Cismlər aləmi**

**15.Torpaq ---- Dünya aləmi**

Hz. Nizami islam Peyğəmbərinin meracını şərh edərkən göy aləmini anladan «yeddi göyün qapısını sən açdın», «fələyin zirvəsi», «Ərşin xəlvətxanası», «yeddi fələk», «əl toxunulmamış göylər», «aləmin yeddi damının zirvəsi», «mavi fələyin tavus qanadlıları», «Sidrəgahın taxtı», «yeddi göyün büsatı», «Ərşin darısqal qülləsi», «Ərşin gərdək qapısı», «yetmiş pərdə», «Kabə qövseyn», «lövh», «asiman», «doqquz fələk», «yeddi iqlim», «kainatın hərəmxanası», «dinclik məkanı», «göylərin firuzə rəngli fərşi», «sidr», «Allahın sarayının qapısı», «pərdə dalında mələklər», «sirli qapı», «Ərşin qolu», «uca saray», «nur ayəsi», «varlıq çeşməsi», «fəzilət sarayı», «xüsusi qəsr», «çərx», «mələklərin eyvanı», «gecə səyyahları», «mələklərin xalıları», «Ərşin payəsi», «Ərşin gözü», «Əbədinin dərgahı», «cahan darvazası», «göy yolları», «nurani ərş», «min nur pərdəsi», «yeddi sultanın qəsrindən asılmış pərdə», «behişt bağı», «yeddinci göy», «doqquz hücrə», «yeddi uca fələk», «ruhani aləm», «ərşin sütunu», «mələklərin divangahı», «aşağısı-yuxarısı olmayan yol» kimi hər birinin mənası olan, bəlli bir ideyanın açılmasına xidmət edən söz və ifadələrə yer vermişdir. Bu anlayvşların hər biri anlayış meracın ruhuna uyğundur.

**Şair bu beytdə deyir ki, yeddi göyün dargöz oğlanı Cəbrail (ə.s) bu atla şahənşahın yanına gəlmişdi. Şairin Cəbraili (ə.s) «dargöz oğlan» adlandırmasının səbəbi bu mübarək mələyin iti baxışlı, hər şeyi aydın görən, gecə də gündüz olduğu kimi rahat hərəkət edən, sürətli, yolunu, yaradılış məqsədini dəqiq bilən bir varlıq olduğunu göstərmək üçündür. O, yeddi göyün dargöz oğlanıdır. Yəni göyün bütün qatlarında rahat hərəkət edir, yeddi qat göyün sirlərini bilir.**

Şair bu beytdə Buraqı at adlandırmışdır. Şairə görə, islam Peyğəmbəri şahənşahdır, yəni şahlar şahıdır, onun müjdəçisi yeddi qat göyün «dargöz oğlanıdır», atı da Buraq adlı nurdan yaradılmış minikdir.

## ON DÖRDÜNCÜ ADDIM: BU GECƏ KEŞİK SƏNİNDİR

سرعت برق این براق تراست
برنشین کامشب این یتاق تراست

***Şimşək sürətilə bu Buraq sənindir,***
***Onun belinə min, bu gecə keşik sənindir.***[197]

Şair bu beytdən başlayaraq uca Allahın (c.c) islam Peyğəmbərinə olan müjdəsini açıqlamışdır.

Şair beytin birinci misrasında yenə də Buraqın adını çəkmiş, onun şimşək sürətli olduğunu bildirmişdir. Bu misrada Buraqın şimşək sürətli olduğunun xatırladılması Cəbrail (ə.s) adlı mələyin islam Peyğəmbərini tələsdirməsi ilə bağlıdır. Mələk peyğəmbərə bildirir ki, sən tələsməlisən, çünki bu gecə gecə keşikçisi sənsən, bu gecə uca Allah (c.c), hz. Məhəmmədə (s.a.s) xüsusi bir vəzifə ayırmışdır və o, vəzifəsini yerinə yetirməlidir. Buraq da şimşək sürəti ilə Peyğəmbəri ünvana çatdırmalıdır. Şair, islam Peyğəmbərinin tələsməyinin zəruri olduğunu ifadə etmək üçün həm Buraqın şimşək sürətli olduğunu xatırlatmış, həm də Ona bu Buraq sənindir demişdir. Mələk, Peyğəmbərə müjdə xəbərini verərkən sanki Onun «mən o uca göylərə necə gedə bilərəm?» sualına ehtiyac görmür, Ona deyir ki, bu Buraq şimşək sürətlidir və o, sənindir, səni gözləyir, hər şey hazır-

[197] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s.20.

dır, tez ol, Buraqa min gedək. Mələk sual-cavaba vaxt ayırmır, çünki tələsmək lazımdır.

Şair beytin ikinci misrasında tələsməyin səbəbini açıqlayır və Peyğəmbərə merac gecəsi verilən vəzifənin nə olduğunu bildirir. Şair deyir ki, bu gecə, yəni merac gecəsi keşik sənindir.

**Şair bir başqa beytdə də islam Peyğəmbərini xilas keşikçisi adlandırmışdı. Burada maraqlı məsələlərdən biri odur ki, merac gecəsi islam Peyğəmbəri nəyin keşiyini çəkməlidir? Hz. Nizaminin təfsirinə görə, merac gecəsi uca Allah (c.c) yerin və göyün təhlükəsizliyini təmin etməyi hz. Məhəmmədə (s.a.s) həvalə etmişdir, uca Allah (c.c) hər şeyi Ona əmanət etmişdir. Bu təfsirdən ortaya çıxan mənanın biri odur ki, merac gecəsi islam Peyğəmbərinin gətirdiyi nemət insan varlığının yaradılış fitrətinə uyğun yaşamasını təmin edən, insanlığın fitrətini yad təsirlərdən qoruyan bir ilahi nemətdir. Bu nemət olmasa, insanlığın fitrəti pozular.**

Şair deyir ki, bu gecə keşik sənindir, yəni sən keşikçisən. Şairin təfsirində keşikçi anlayışı merac gecəsi yerin, göyün təhlükəsizliyini təmin etmək, onu qorumaq anlamındadır. Uca Allah (c.c) yaratdıqlarını qorumağı merac gecəsi islam Peyğəmbərinə tapşırır, onu keşikçi təyin edir. Şairin təfsirində keşikçi olmaq uca Allahın (c.c) islam Peyğəmbərinə olan inamının, etibarının, sevgisinin göstəricisidir. Çünki uca Allah (c.c) yaratdıqlarının keşiyini çəkməyi ancaq inandığına tapşıra bilər. Şair bu inamın güclü olduğunu ifadə etmək üçün mələyin dili ilə hz. Məhəmmədi (s.a.s) «gecə keşikçisi» adlandırır. Çünki gecə keşik çəkmək həm çox çətindir, həm də xüsusi etibar tələb edir. Hər adamı gecə keşikçisi təyin etmirlər.

Merac gecəsi gecə keşikçisi olmaq böyük şərəfdir və bu, uca Allahın (c.c) mübarək mələk araçılığı ilə islam Peyğəmbərinə verdiyi müjdədir.

## ON BEŞİNCİ ADDIM:
## KEŞİK ÇƏKMƏK İQBALINI SƏNƏ GƏTİRMİŞƏM

چونکه تیر یتاقت آوردم
به جنیبت براقت آوردم

***Keşik (çəkmək) iqbalını sənə gətirmişəm,***
***Minik üçün sənə Büraq gətirmişəm.***[198]

Şair bu beytdə öncəki beytdə təqdim edilmiş müjdə ideyasını yeni çalarlarla çatdırır. Müjdə xoş, gözəl, insana rahatlıq verən xəbərdir. Ancaq müjdə həm də önəmli xəbərdir. Merac gecəsi müjdəni verən uca Allahdır (c.c), müjdəni çatdıran Cəbraildir (ə.s). Şair bu beytlərdə mübarək müjdəni mələyin dilindən merac gecəsinin önəmini, hədəfini açıqlama şəklində təqdim edir. Mələk islam Peyğəmbərini bu mübarək merac gecəsində baş verəcək hadisələrə hazırlayır.

Beytin birinci misrasında mələk islam Peyğəmbərinə gözaydınlığı verir, onu ruhlandırır, Ona deyir ki, bu gecənin ən önəmli vəzifəsi uca Allahın (c.c) yaratdıqlarını qorumaq vəzifəsidir. Mələk müjdəni verərkən ayrıca vurğulayır ki, keşik çəkmək kimi şərəfli vəzifə ancaq Sənə aiddir, başqasının belə bir şansı yoxdur. Bu şərəfli vəzifə ancaq Sənə aid olduğu kimi, Səni merac gecəsi göylərə ucaldacaq Buraq da ancaq Sənə aiddir, başqasının belə bir miniyi yoxdur. Mələk merac gecəsinin özəlliklərini sadalamaqla, uca Allahın (c.c)

[198] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s.20.

islam Peyğəmbərinə olan sevgisini, inam və etibarını dilə gətirməklə Onu ruhlandırır, onu səfərə hazırlayır.

Biz öncəki beytlərin şərhində demişdik ki, merac hadisəsi islam Peyğəmbəri və Onun ümməti üçün ən çətin bir zamanda baş vermişdir. İncidilmiş, əzab verilmiş Peyğəmbər tək qalmışdı, o, bir çıxış yolu axtarırdı. Merac hadisəsi də Peyğəmbər üçün belə çətin bir anda gerçəkləşdi. Uca Allahın (c.c) buyruğu ilə mübarək mələk Onun yanına gəldi və Peyğəmbəri müjdə ilə ruhlandırdı, uca Allahın (c.c) heç vaxt Onu tək qoymayacağını, Onun qalib gələcəyini müjdələdi.

Bu beytlərdə ifadə olunmuş ideyadan çıxarılacaq mənadan biri də budur: biz çətinə düşmüş bir insana necə yanaşmalıyıq. Biz şərəfli, ağır bir mübarizənin içində olan insanı qələbəyə, özünə inama necə hazırlamalıyıq? Bu anda yada düşən yol, münasibət şəkli, yanaşma metodu müjdədir. Mübarizə aparan insanı müjdə verməklə, gələcəyin aydın sabahlarını ona göstərməklə, onun mübarizəsinin dəyərini anlatmaqla, onu öz gücünə inandırmaqla, onu mükafatlandırmaqla mübarizəsini şərəflə başa çatdırmaqda ona yardım etmək zəruridir.

Əslində, müjdə vermək yolu ilə insanları inandırmaq uca Allahın (c.c) müəyyən etdiyi bir metoddur. Qurani-Kərimdə çoxsaylı müjdə ayələri var:

الذين يوفُون بِعهد اللّه ولاَ ينقُضون الْميثَاقَ. والذين يصلُون ما أَمر اللّه بِه أَن يوصلَ ويخْشَون ربهم ويخَافُون سوء الحسابِ . والذين صبرواْ ابتغَاء وجه ربهم وأَقَامواْ الصلاَةَ وأَنفَقُواْ مما رزقْنَاهم سراً وعلاَنيةً ويدرؤُون بِالْحسنَة السيئَةَ أُولَئِك لَهم عقْبى الدارِ . جناتُ عدنٍ يدخُلُونَها ومن صلَح من آبائِهم

وَأَزواجِهِم وذُرِياتِهِم والملاَئِكَةُ يدخُلُون علَيهِم مِن كُلِّ بابٍ. سلاَم

علَيكُم بِما صبرتُم فَنعم عقْبى الدارِ

(ər-Rəd, 13/20-24)

«O kəslər ki, Allaha (yalnız Ona ibadət edəcəkləri barədə) verdikləri vədi yerinə yetirir və əhdini pozmurlar. O kəslər ki, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri birləşdirir (qohumluq əlaqəsini qoruyub saxlayır, möminlərə hörmət edir), Rəbbindən və (qiyamət günü çəkiləcək) pis haqq-hesabdan qorxurlar. Və o kəslər ki, Rəbbinin razılığını qazanmaq üçün (bu yolda bütün əziyyətlərlə) səbir edir, (vaxtlı-vaxtında, lazımınca) namaz qılır, onlara verdiyimiz ruzidən (yoxsullara, ehtiyacı olanlara) gizli və aşkar xərcləyir, pisliyin qarşısını yaxşılıq etməklə alırlar (pisliyin əvəzinə yaxşılıq edirlər) – məhz onları (gözəl) axirət yurdu – özlərinin, həmçinin əməlisaleh ataları, övrətləri və övladlarının daxil olacaqları Ədn cənnətləri gözləyir. Mələklər də hər bir qapıdan (cənnət qapılarından) daxil olub (onlara): (Dünyada Allah yolunda bütün çətinliklərə) səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdu (Cənnət) nə gözəldir!» - deyəcəklər».

İslam Peyğəmbəri də mübarək hədislərində təlim, tərbiyə və təbliğ metodu kimi müjdədən çox istifadə etmişdir.

Merac gecəsinin hz. Məhəmmədə (s.a.s) müjdə vermək mərhələsində də Cəbrail (ə.s) bu gecənin bərəkətindən danışır, Peyğəmbəri gözləyən mükafatları sadalayır, Peyğəmbəri tərifləyir, Ona xoş sözlər deyir. Şairin şərhinə görə, mələk merac gecəsi keşikçi olmağı böyük bir şərəf, etimad, sevgi olaraq təqdim edir.

## ON ALTINCI ADDIM: ÖZ KƏCAVƏNİ ÇƏRXƏ SÜR

مهد بر چرخ ران که ماه توئی
بر کواکب دوان که شاه توئی

***Öz kəcavəni çərxə sür, çünki Ay sənsən,***
***Ulduzlara çap, çünki şah sənsən.***[199]

Şair bu beytdə Cəbrail (ə.s) adlı mələyin merac səfəri ilə bağlı açıqlamalarını davam etdirir. Beytdə bir kəcavə təsvir olunur. Bir karvan uğurlu bir səfərə hazırlaşır. Bu karvanın önündə, kəcavədə hz. Məhəmməd (s.a.s) əyləşmişdir. Kəcavə gözəl naxışlarla bəzədilmiş, rahat, başçılar, hörmətli insanlar üçün nəzərdə tutulmuş bir yerdir. Mələk Peyğəmbərə deyir ki, sən bu karvanı çərxə-göylərə sür, çünki sən Aysan. Gecə qaranlıq olduğu üçün göylərin sənin nuruna ehtiyacı var. Şair bu beytdə islam Peyğəmbərini aya bənzətmişdir.

## AYIN ÖZƏLLİKLƏRİ

Ay yerə ən yaxın olan göy cismidir, yerin təbii peykidir. Ay daş kürədən ibarətdir. Ayın diametri Yerin diametrindən dörd dəfə, kütləsi isə yerin kütləsindən səksən bir dəfə kiçikdir. Ayın Yer ətrafında dolanma periodu, onun öz oxu ətrafında fırlanma perioduna bərabərdir. Ona görə də Ay bizə həmişə eyni tərəfi ilə görünür. Ayın nüvəsi dəmir və kükürddən ibarətdir. Nüvə yarıərimiş daş suxurlu təbəqə ilə əhatə olunmuş, qabıq isə əsasən kalsium və alüminiumla zəngin olan mineral maddələrdən ibarətdir. Ayın atmosferi yoxdur. Ayın səthində əks edən Günəş şüaları heç bir dəyi-

---

[199] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s.20.

şikliyə məruz qalmadan Yerə çatır. İşıq şüalandırmayan Ay, Günəş şüalarını əks etdirməklə işıq saçır. Ay öz planetində təkbaşına hakimdir. Ona «kiçik aydınlıq» adı da verilmişdir. Ay işığını ancaq Günəşdən alır. Ay qara rəngə yaxın lacivərddir, nə qaradır, nə də göy rəngdədir. Ay soyuq və rütubətlidir. Hava və su olmadığından Ayda həyat yoxdur.

Uca Allah (c.c) öz qüdrətindən Aya bir sıra özəlliklər bəxş etmişdir:

Ay dəniz üfüqündən doğulduğu zaman dəniz suyu onunla cəzb olunur, çəkilir. Ay üfüqdə batanda çəkilmə də başa çatır. Ayın işıqlı hissəsi çox olduğu zamanda yeni aydan dolunaya qədər isti və rütubət çox olduğundan damarlar qan ilə dolur, insan və heyvan bədəni güclənir.

Ərəb aylarının ilk yarısında xəstə olanlar bədənləri güclü olduğu üçün xəstəlikdən xilas olur. Ayın ikinci yarısında xəstə olanların bədəni zəifləyəcəyindən xəstəlikləri artır.

Ayın ilk yarısında canlıların beyin hüceyrələri çoxalır, ikinci yarısında isə azalır.

İnsan ay işığı altında yatsa, ya da çox otursa, bədəni zəifləyər, tənbəlləşər, başı ağrayar.

Heyvan əti ay işığı olan yerdə qalsa, az zamanda dadı və qoxusu dəyişər.

Ay yeni aydan dolunayadək olan hərəkət müddətində dənizlər və çaylardakı balıqlar yağlı olur, suyun üzünə çıxır. Dolunaydan sonra Ay işığı zəifləyir və balıqlar suyun dibinə enir.

Ayın ilk yarısı həşərat yer üzünə çıxır və çoxalır. Yırtıcı heyvanların tamahı artır. Ayın ikinci yarısında bunun tərsi olur.

Ayın ilk yarısında əkilən ağaclar tez böyüyür və inkişaf edir. Ayın ikinci yarısında əkilən ağaclar isə zəif olur, ya da quruyur.

Ayın ilk yarısında bütün meyvələr, çiçəklər, otlar, bitkilər böyüyür, inkişaf edir.

Ayın ilk yarısında qamış, kətan və quru bitkilər üzərinə Ay işığı düşəndə daha çox çürüyür, parçalanır.

Ayın parlaq kürəsi ayna kimi olur və yer kürəsini, dənizləri, adaları, sahilləri, dağları, kənd və şəhərləri bizə göstərir. Ay adlı güzgüdə yer kürəsini tamam seyr etmək olar. Ancaq Ay bizdən uzaq olduğundan orada yerin əksini adi gözlə dəqiq görmək olmur.

Hz. Nizami də merac gecəsini təsvir edir. Bu qaranlıq gecədə hz. Məhəmmədin (s.a.s) karvanı yola çıxır, səfər göy üzünədir. Karvanın hərəkəti üçün işığa ehtiyac var. Şair deyir ki, kəcavədə oturmuş islam Peyğəmbəri bir dolunay kimi işıqlıdır, karvana yolgöstərəndir, o, karvanı azmağa qoymaz.

Beytin ikinci misrasında şair deyir ki, Sən atını ulduzlara çap. Çünki sən şahsan. Əslində, şair beytin birinci misrasında da şah obrazı yaratmışdır. «Kəcavə», «karvan» kimi anlayışlar şaha aiddir. Çünki hər kəs kəcavədə otura bilməz, hər kəsin karvanı olmaz. Ancaq islam Peyğəmbəri fərqli şahdır, o, özəl bir dəvətlə göy üzünə səfər edir. Beytdəki karvanını «çərxə sür», «ulduzlara çap» ifadələri onu başqalarından seçir.

## ON YEDDİNCİ ADDIM: DOQQUZ FƏLƏYİ ÇARMIXA ÇƏK

شش جهت را ز هفت بیخ برآر
نه فلک را به چار میخ برآر

***Altı cəhəti yeddi kökündən qopar,***
***Doqquz fələyi çarmıxa çək.***[200]

---

[200] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s.20.

Bu beyt də müjdə beytləri sırasında yer tutur. Şair islam Peyğəmbərinin səfər edəcəyi məkanın özəlliklərini şərh edir. Bu şərhdən aydın olur ki, merac gecəsi Peyğəmbərin gedəcəyi yer Yer planetindən fərqlidir. Yer planetinin məkanı, zamanı, ölçüsü var. Yer planetinin bu özəlliyini ifadə etmək üçün şair beytdə «altı cəhət» ifadəsini işlədir. Yəni Yerin məkanı var. Bu məkan altı cəhətdən ibarətdir. Bu altı cəhət ***sağ, sol, ön, arxa, yuxarı*** və ***aşağıdır.*** Bu cəhətlər Yer planetinin bəlli bir məkanının olduğunu göstərir.

## ALTI CƏHƏTİN YEDDİ KÖKÜ

Şair birinci misrada Yer planetinin altı cəhətinin olduğunu bildirir və deyir ki, bu altı cəhəti yeddi kökündən çıxart. Burada yeddi kök deyərkən Yerin yeddi qat təbəqədən ibarət olduğu bildirilir.

Uca Allah (c.c) yeri bir-birinin altında olan yeddi qat təbəqə şəklində yaratmışdır. Hər təbəqənin genişliyi və hər iki təbəqə arasındakı məsafə beş yüz illik yoldur və hava ilə doludur.

Yerin birinci təbəqəsinin adı **Dimkadır.** Yağışı olmayan külək kimi havası pisdir. Orada Bərşəm adlı yaradılmışlar var ki, onlar üçün həm hesab, həm də əzab var.

Yerin ikinci təbəqəsinin adı **Cəldədir.** Orada cəhənnəm əhli üçün çeşidli əzab var. Bu təbəqədə yaşayanların adı Tamasdır. Onlar bir-birilərini yeyirlər.

Yerin üçüncü təbəqəsinin adı **Arkadır.** Bu təbəqədə qatır böyüklükdə əqrəblər var. Onların quyruğu nizə kimidir. Hər birinin quyruğunda öldürücü zəhərlə dolu üç yüz buğum var. Orada yaşayanlar çox xəsisdirlər. Onlara Kabəs deyirlər. Onlar torpaq yeyir.

Yerin dördüncü təbəqəsinin adı **Harbadır.** Orada dağlar kimi əjdahalar var. Onların quyruğu uzun xurma ağacı

kimidir. Əgər onlardan birinin zəhəri dənizə qarışsa, orada yaşayan bütün canlılar ölər. Orada yaşayanlara Cülham deyirlər. Onların gözləri və ayaqları yoxdur. Onların iki qanadı var, uçurlar.

Yerin beşinci təbəqəsinin adı **Mələsəldir.** Orada yaşayanların adı Mihtatdır. Onların sayı saysız-hesabsızdır. Onlar bir-birilərini yeyirlər. Orada kükürddən dağ kimi dağlar var. O daşlar kafirlərin boynuna bağlanıb cəhənnəmə atılır.

Yerin altıncı təbəqəsinin adı **Siccindir.** Cəhənnəm əhlinin əməl dəftərləri oradadır. Orada yaşayanlara Kutafə deyirlər. Onlar quş şəklindədir. Ancaq əlləri insan əli, qulaqları sığır qulağı, ayaqları qoyun ayağı kimidir. Onlar yeməz, içməz, cinsi əlaqədə olmaz. Onlar hər zaman uca Allaha (c.c) ibadət edərlər. Bir fikrə görə, cəhənnəmə girəcəklərin ruhları qiyamətədək orada həbs olunmuşdur.

Yerin yeddinci təbəqəsinin adı **Ucbadır.** Orada yaşayanların adı Cüsumdur. Hamısı qısaboylu, qara zəncilər kimidir. Əlləri, ayaqları yırtıcı heyvan pəncəsi kimidir. Yəcuc və Məcuc onları həlak edərək lənətlənmiş şeytan və əlaltıları orada yaşayır. Özü bir taxt üzərində oturur. Tərəfdarları onun ətrafında sıra ilə düzülüb, hər biri bu yer üzündə olan insanları yoldan çıxarmaq üçün etdikləri fitnə-fəsadları ona danışırlar. Bunlardan fəsad və pisliyi çox olanı baş iblis yanına çağırır, ona mükafat verir, onu özünün yaxınlarından biri sayır. Bu yeddinci təbəqənin ortasında qaranlıqdan bir pərdə var.

Yerin bu yeddi təbəqəsi yeri daşımaq üçün yaradılan böyük bir mələyin çiynində dayanır. Uca Allah (c.c) yeddi qat yerin altında yaşıl qaya, qırmızı buğa, böyük balıq, böyük dəniz, aşağıda yeddi təbəqə Cəhənnəm yaratmışdır. Bu yeddi təbəqə bir-birinin altındadır və hər iki təbəqə arası beş yüz illik məsafədir.

Cəhənnəmin yeddi qapısı var. Hər birinin içində oddan ibarət olan yetmiş min dağ, hər dağda atəşdən yetmiş min vadi, hər vadinin içində iplər, sandıqlar, toxmaqlar, toppuzlar, zəncirlər, itlər, ilanlar, zəhərli əqrəblər, qaynar sular, qətran və irinlər, zəhər, zəqqum kimi minlərlə əzab var. Cəhənnəmdə qara üzlü, göy gözlü zəbani mələklər var. Bu mələklərin hamısı kordur, onlarda mərhəmət duyğusu yoxdur. Onların sayı çoxdur. Uca Allah (c.c) zəbanilərə Malik adlı böyük və heybətli bir mələk vəkil etmişdir. Yeddi cəhənnəmin hakimi və qapıçısı odur. Cəhənnəmin təbəqələri var:

Birinci cəhənnəmin adı **Cəhənnəmdir.** Başqaları ilə müqayisədə əzabı daha yüngüldür. Hz. Məhəmmədin (s.a.s) ümmətinin günahkarlarının yeri oradır.

Cəhənnəmin ikinci təbəqəsinin adı **Sairdir**. Xristianlar orada əzab görürlər.

Cəhənnəmin üçüncü təbəqəsinin adı **Səkardır**. Günahkar yəhudilərin yeri buradır.

Cəhənnəmin dördüncü təbəqəsinin adı **Cahimdir**. Dindən dönənlər və şeytanlar üçün orada acı bir əzab var.

Cəhənnəmin beşinci təbəqəsinin adı **Hutamədir.** Gayya quyusu oradadır. Yəcuc, Məcuc və kafirlərin yeridir. Qurani-Kərimdə cəhənnəmin bu təbəqəsinin adı çəkilmiş, Hutamənin cəhənnəmin dəhşət və əzab dolu təbəqəsi olduğu bildirilmişdir.

بِسمِ اللهِ الرحمنِ الرحيمِ ويلٌ لكُل همزة لمزة . الذي جمع مالاً
وعدده . يحسب أَن ماله أَخْلَده . كلا لَينبذَن في الْحطَمة . وما
أَدراك ما الْحطَمةُ . نَار الله الْموقَدةُ . التي تَطلع علَى الْأَفْئِدة.
إِنها علَيهم مؤْصدةٌ . في عمد ممددة

(əl-Huməzə, 104/1-9)

«(Dalda) qeybət edib (üzdə) tənə vuran hər kəsin vay halına! O kimsə ki, mal yığıb onu dönə-dönə sayar (çoxaldar). Və elə zənn edər ki, mal-dövləti onu əbədi yaşadacaqdır. Xeyr! (Heç də onun güman etdiyi kimi deyildir). O mütləq (Cəhənnəmin alt mərtəbələrindən biri olan) Hütəməyə atılacaqdır! Sən nə bilirsən (haradan bilirsən) ki, Hütəmə nədir?! O, Allahın yanar odudur. Elə bir od ki, ürəkləri yandırıb-yaxar. O, beləlırinin (qeybətçilərin və tənə vuranların) üzünə qapanıb kilidlənəcəkdir. Onlar (Cəhənnəmdə) hündür sütunlara bağlanmış olacaqlar!»

Cəhənnəmin altıncı təbəqəsinin adı **Ləzidir.** Büt və oda itaət edənlər, sehrlə məşğul olanlar ora atılacaqlar.

Cəhənnəmin yeddinci təbəqəsi **Haviyə** adlanır. Orada uca Allahı (c.c) inkar edənlər, Ona inanmayan dinsizlər, borcunu ödəməyənlər, yalançı və münafiqlər olacaqlar. Yeddinci qatın təsiri, istiliyi, əzabının şiddəti daha çoxdur.[201]

Hz. Nizami bu beytdə Cəbrail (ə.s) mələyin dili ilə merac səfərinin özəlliklərini anladır. Mələk islam Peyğəmbərinə deyir ki, altı cəhəti yeddi kökündən qopar. Yəni altı cəhəti – sağı, solu, aşağısı, yuxarısı, önü, arxası olan ölçülü məkanı, yeddi təbəqəsi olan Yer planetini tərk et. **Şairin təfsirinə görə, merac səfəri ölçüsü (sağı, solu, aşağısı, yuxarısı, önü, arxası və yeddi qatı), zamanı, məkanı olan Yer məkanından bunun əksi olan bir məkana – sonsuzluğa, zamansızlığa olan mübarək bir yolçuluqdur. Əgər ölçülü məkanı tərk edib sonsuzluğa, ölçüsüzlüyə ucalmasan, ilahi həqiqətləri görə bilməzsən, merac nemətini əldə edə bilməzsən. Merac nemətini qazanmağın yolu və şərti ölçülü aləmi tərk etməkdir. Bu həm də o deməkdir**

---

[201] Erzurumlu İbrahim Hakkı, «Marifetname», göstərilən qaynaq, s. 37-38.

**ki, merac neməti insanı bu fani, ölçüsü, başlanğıc və sonu olan məkanın əsirliyindən xilas edib ülvi bir aləmə ucaldan ilahi qidadır, bu fani dünyanın nemətlərinə aludə olan xəstə ruhlara şəfadır. Bu həm də o deməkdir ki, merac neməti insan ruhunu əzab, iztirab məkanından xilas edib dinclik, rahatlıq məkanına qovuşdurar.**

Gerçəkdən, bir mömin insan ən böyük merac neməti olan namazı tam təslimiyyət ruhu ilə qılsa, onun ruhu bu fani dünyanın buxovlarından azad olar, varlığı dincliyə qovuşar, ilahi həqiqətləri görər, şanlı Peyğəmbərin «namaz möminin meracıdır», «namaz gözümün nurudur», «namaz dinin dirəyidir», «namaz insanı pisliklərdən qoruyar» kimi mömin ruhlara şəfa olan sözlərinin həqiqətini anlayar.

«Altı cəhəti yeddi kökündən qopar», buyruğu bir mələk sözüdür, Peyğəmbərə deyilmişdir, ancaq bütün insanlara aiddir. Yəni merac neməti insanı yeddi qatlı cəhənnəm əzabından qoruyar, onu sonsuzluğa qovuşdurar. Bu o deməkdir ki, merac neməti olan namazı qılarkən bu fani dünyanın istəklərindən azad ol, özünü təmizlə, çünki təmizlikdə təslimiyyət, uca Allaha (c.c) itaət var, paslanmış, kirlənmiş, altı cəhətli, yeddi qatlı dünyanın fani istəkləri ilə çirkaba bulaşmış, nəfsin caynağında boğulmuş ruhun yaralarına merac nemətinin nurundan çilə, onu azadlığa qovuşdur.

Hz. Nizaminin təfsirinə görə, merac altı cəhəti, yeddi kökü olan məkandan xilas olma, azad olma, qurtuluş hadisəsidir. Merac neməti olan namazın da vəzifəsi insanı altı cəhətli, yeddi köklü məkanın istəklərindən xilas etməkdir.

**Hz. Nizamiyə görə, merac ilahi nura boyanma hadisəsidir. Bu ilahi nura boyanmaq üçün ölçülü məkanı tərk etmək şərti var.**

**Merac neməti olan namaz da ölçülü məkanın tərk edilməsidir, yəni uca Allahdan (c.c) başqa hər şeyin unudulmasıdır. Bu şərt daxilində, yəni altı cəhəti, yeddi kökü**

**olan məkanı unudaraq, ancaq uca Allah (c.c) düşüncəsi ilə qılınan namaz insanı merac nemətinin hədəfinə qovuşdura bilər, insan uca Allahın (c.c) nuruna boyanar, bu mübarək nurla ilahi həqiqətləri görər, bilər və ruhu sonsuzluq məkanında azadlığa qovuşar, dincələr.**

Hz. Nizamiyə görə, merac neməti bu altı cəhəti, yeddi kökü olan dünya ilə axirətin – sonsuzluq aləminin fərqini müəyyən edən elmdir. Uca Allah (c.c) Qurani-Kərimdə əbədi dünyanın – axirətin, sonsuzluğun daha üstün olduğunu buyurur. Merac neməti də uca Allahın (c.c) istədiyi üstün sonsuzluq dünyasını qazanmaq elmidir:

زين لِلناسِ حب الشهوات من النساء والْبنين والْقَنَاطيرِ الْمقَنطَرة من الذهبِ والْفضة والْخَيل الْمسومة والأَنْعامِ والْحرث ذَلك متَاع الْحياة الدنْيا واللّه عنده حسن الْمآبِ

(Ali-İmran, 3/14)

«Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. (Ancaq bütün) bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır».

لَكنِ الذين اتقَوا ربهم لَهم جنات تَجرِي من تَحتها الأَنْهار خَالدين فيها نُزلاً من عند اللّه وما عند اللّه خَير للأَبرارِ

(Ali-İmran, 3/198)

«Ancaq öz Rəbbindən qorxanları (ağacları) altından çaylar axan cənnətlər gözləyir ki, onlar orada Allah qonağı kimi həmişəlik qalacaqlar. Allah yanında olan nemətlər yaxşı əməl sahibləri üçün daha xeyirlidir».

وما الْحياةُ الدنْيا إِلا لَعب ولَهو ولَلدار الآخرةُ خَير للذين يتقُون أَفَلا تَعقلُون

(əl-Ənam, 6/32)

«Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Axirət yurdu müttəqilər üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?»

Uca Allah (c.c) bir mübarək hədisdə buyurur: «Ey insan oğlu! Bütün ömrünü dünya nemətini istəməklə keçirtdin. Cənnəti nə zaman istəyəcək, onun üçün əməl edəcəksən? Səhər dünya işi üçün üzüntülü oyanan, sanki, mənə əsəbiləşərək yerindən oyanır. Ey insan oğlu! O kimsəyə heyrət edirəm ki, bu dünyadan getməsi yaxınlaşdığı halda, o hələ də dünyaya heyrandır. O kimsəyə heyrət edirəm ki, axirətə, onun sonsuzluğuna, nemətlərinə yaxınlaşdı, ancaq ona qovuşmaq üçün çalışmadı.

Ey insan oğlu! Dünya malına itaət edin. Məni yada salmağı unutdun. Ey insan oğlu! Dünya, evi olmayanın evi, malı olmayanın malıdır. Onu toplayanın ağlı yoxdur, ona sevinənin yəqini yoxdur, ona həris olanın təvəkkülü yoxdur, onu çox istəyənin mərifəti (elmi) yoxdur. Keçici nemət, bitici həyat və fani şəhvət əldə edən özünə zülm etmiş, Rəbbini unutmuş, dünya həyatı onu aldatmışdır.

Ey insan oğlu! Dünya sevgisi ilə qəlbini öldürmə. Çünki əldən çıxması mütləqdir. Məndən başqa hər şey həlak olacaq. Dünyaya rəğbət etdiyiniz kimi, mənə rəğbət etsəydiniz, iki dünyada da yaxşılardan olardınız.

Ey insan oğlu! Mənim sevgimi istəyirsənsə, dünya sevgisini qəlbindən çıxart. Çünki mən, mənə olan sevgi ilə dünya sevgisini heç bir zaman bir qəlbdə toplamaram. Çünki iki zidd şey bir arada ola bilməz. Su ilə odun bir qab içində olmadığı kimi.

Ey insan oğlu! Dünyanı sevdiyin halda, mənim sevgimi necə istəyə bilərsən. Mənim sevgi və rizamı dünyanı tərk etməkdə axtar, dolu qəlbini mənim üçün boşalt. Əlini çox çalışmaqdan, bədənini rahatlıqdan çək!

Ey insan oğlu! Dünyanı tanıyıb, ondan əl çəkən xalis olar, axirəti bilib, onun üçün çalışan vasil olar.

Ey insan oğlu! Özü fani, nemətləri keçici, həyatı qısa olan dünyaya necə rəğbət göstərmək olar? Belə bir dünyaya niyə qiymət verirsən? Bil ki, mənim yanımda itaət edənlər üçün cənnətlər var. Onların sayı səkkizdir. Rizamı arayan, mükafatlandırdığım yeri istəyən aza qənaət etmək üçün dünya malını tərk etsin.

Ey insan oğlu! Dünya sevgisindən əl çək ki, qəlbin sevgi ilə dolsun. Ey insan oğlu! Halal sənə damla-damla, haram isə sel kimi gəlir. Əgər seli tərk edib üzünü damla-damla gələnə tutsan, halın və qəlbin mənimlə şad olar.

Ey insan oğlu! Dünyada əldən çıxardıqlarına üzülmə, ondan əlinə keçənə də sevinmə. Çünki o bu gün sənindir. Əzabı başqasınındır. O halda dünyanı tərk et, axirət üçün çalış. Çünki mən saleh qullarım üçün gözlərin görmədiyi, qulaqların eşitmədiyi, könüllərin düşünə bilmədiyi nemətlər hazırladım».

**Hz. Nizamiyə görə, merac neməti bir doğru həyat ölçüsüdür. Dünyanı doğru anlamaq yoludur. Əslində, şair altı cəhəti yeddi kökündən qopar deyərkən insanların düşüncəsində bir doğru dünya anlayışı formalaşdırmağa çalışır.** Çünki dünyanı doğru anlamadan yaradılış fitrətinə uyğun yaşamaq, dünya nemətlərinə ölçülü münasibət göstərmək mümkün deyil.

**Bir ərəb şairi belə deyir:**

***Dünyadan təcərrüd et, çünki sən bu dünyaya,***
***Gəldiyin zaman ondan təcrid edilmiş idin.***
***İndidən ayrıl ondan, çünki sən bu dünyadan,***
***Çıxarkən onu buraxıb, tək çıxarsan.***

***… Dünya əsli olmayan kölgə kimidir, inan,***
***Bir müsafir kimidir, gecə yatıb yol alan,***

***Yaxud yuxudakının gördüyü röya kimi,***
***Birdən oyananda əldə bir şey qalmayan.***

***Bilin ki, bu dünya bulanıq su kimidir,***
***Onu çox istəyən hər zaman əzabdadır,***

***Mənim üçün həyatda dadlı bir şey olmasa,***
***Ölüm şərbətini dadmaq, mənə daha dadlıdır.***

**Bir fars şairi də belə deyir:**

***Hər günahın başı dünya sevgisi,***
***Alim olan onu əsla sevməz.***

***Bu düşməndir, heçdir, könül verilməz,***
***Heç olan, əlbəttə, heç sevilməz.***

***Sonsuzluğu sevən bəxtli insana,***
***Bu dünya əzabdır, düşün və anla.***

***Könlünü dünyadan tamamən ayır,***
***Çünki sonu qısa və həm virandır.***

***İnsan oğlunun bu alçaq dünyadan,***
***Başqa bir nəsibi yox, möhnət və qəmdən…***

Hz. Nizami beytin ikinci misrasında deyir ki, doqquz fələyi çarmıxa çək. Həm bu altı cəhəti – sağı, solu, önü, arxası, yuxarısı, aşağısı, həm yeddi kökü olan yeri tərk et, həm də doqquz fələyi çarmıxa çək. Burada şərh edilməsi zəruri olan anlayışın biri doqquz fələkdir.

## DOQQUZ FƏLƏK ANLAYIŞI
## BİRİNCİ FƏLƏK

Əflak, yəni fələklər, göylər doqquz təbəqədir. Bu fələklərin ən böyüyü Atlas fələyidir. Dünyanı bütün yönlərdən əhatə etmişdir. Başqa fələkləri hökmü altına almışdır. İyirmi dörd saatda bir dəfə şərqdən qərbə dönür. Bütün fələklər gecə-gündüz Atlas fələyinin hərəkətinə bağlı olaraq dönər.

## İKİNCİ FƏLƏK

Səkkizinci fələk, bürclər fələyi, ya da sabit ulduzlar fələyi adlanır. Böyük fələyin altında yerləşir. Mərkəzi aləmin mərkəzidir. Üstdə böyük fələyə, altda Zühal fələyinə toxunur. Çoxsaylı sabit ulduzları var, on iki bürc ilə bəzənmişdir. Bütün fələklərlə birgə şərqdən qərbə doğru dönür. İyirmi dörd saatda dövrəsini tamamlayır. Bürclər fələyi tutulma dairəsinin qütblərindən keçən altı dairə ilə on iki bölümə ayrılmışdır. Bürclər fələyin ortasında olan on səkkiz dərəcə genişliyindəki bir sahə üzərində otuz dərəcəlik parçalar halında sıralanmışdır.

Səkkizinci fələyin on iki bölümünün hər birinin ortasında olan ulduzların ümumi görünüşlərinin bir şəklə bənzədiyi müşahidə olunmuş və o bürcə də bu şəklin adı verilmişdir. Məsələn, Həməl (Qoç) bürcü səkkizinci fələyin bir bölümüdür. Onun ortasında olan ulduzlar bir xətlə bir-birinə bağlansa, bir qoç şəkli alınar. Başqa bürclər də bunun kimidir. Səkkizinci fələkdə minlərlə ulduz var. Onlardan on ikisi məşhurdur və bu ulduzlar məlum olan on iki bürcün adıdır.

Ulduzlar iki yerə bölünür. Onların bir qismi sabit ulduzlardır. Yəni onların aralarındakı məsafə dəyişmir, azalıb-çoxalmır. Bu sabit ulduzlar səkkizinci fələkdədir. Yerdə qalan ulduzlar isə səyyar ulduzlardır. Onlar hərəkət etdikcə bir-

birinə yaxınlaşıb uzaqlaşırlar, yəni aralarındakı məsafə artıb-azalır. Bunlar yeddi dənədir və hər biri ayrı-ayrı fələkdədir. Onlar bəzən bir yerdə toplanır, sonra ayrılır, bəzən üfüq dairəsinin üzbəüz nöqtələrində olurlar. Sabit ulduzların hamısı işıqlıdır. Onların sayı çoxdur, hər birinə ad vermək mümkün deyil. Alimlər onları altmış qrupa ayırıb hər bölümünü bir şəklə bənzətmişlər. Bunlardan on ikisi bürclər məntəqəsində olub üç yüz qırx altı ulduzdan meydana gəlmişdir:

Həməl – Qoç
Sevr – Buğa
Cevza – Əkizlər
Sərətan – Xərçəng
Əsəd – Şir
Sünbülə – Qız
Mizan – Tərəzi
Əqrəb – Əqrəb
Qövs – Oxatan
Kədi – Oğlaq
Dəlv – Dolça
Hut – Balıqlar

Bu on iki bürcün altısı ekvator xəttinin şimalında yerləşir. Bunlara şimal bürcləri deyilir. Bunlara aiddir: Qoç, Buğa, Əkizlər, Xərçəng, Şir, Qız. Onların altısı da ekvatorun cənubunda yerləşir. Bunlara güney bürcləri deyilir. Bunlara aiddir: Tərəzi, Əqrəb, Oxatan, Oğlaq, Dolça, Balıq.

**On iki bürcün dördünə «dəyişdirən», dördünə «sabitə» (duran), dördünə də «qarışdıran» deyilir. «Dəyişdirən» bürclər Qoç, Xərçəng, Tərəzi və Oğlaqdır. Onlara «dəyişdirən» deyilməsinin səbəbi Günəş bu bürclərdə olarkən bir mövsümün başqasına keçməsidir. Qoç bürcündə qışdan yaza, Xərçəng bürcündə yazdan yaya, Tərəzidə payıza, Oğlaq bürcündə isə qışa keçilir.**

**Sabit (dayanıqlı) bürclərdə (Buğa, Şir, Əqrəb, Dolça) bir mövsümdən o birisinə keçid baş vermir. Bu bürclərdə iki mövsüm bir-birinə qarışır. «Qarışdıran» bürclərdə isə (Əkizlər, Qız, Oxatan, Balıqlar) Günəş bu bürclərdə olarkən o dövrdəki mövsüm ilə gələcək mövsüm bir-birinə qarışır.**

Bürclərin oxşar təbiətləri var. Qoç, Şir, Oxatan atəş üçlüyüdür. Onların təbiəti isti və qurudur. Buğa, Qız, Oğlaq torpaq üçlüyüdür. Onların təbiəti isti və rütubətlidir. Xərçəng, Əqrəb və Balıq su üçlüyüdür. Onların təbiəti rütubətli və soyuqdur.

## ÜÇÜNCÜ FƏLƏK

Yeddinci fələk Zühal-Saturndur. Bu fələk Ayın fələyindən sayanda yeddinci, Günəş fələyindən sayanda üçüncü olur. Zühal-Saturn üç ülvi fələyin üçüncüsüdür, ən böyüyü və ən yüksəyidir. Zühal-Saturn fələyinə Keyvan da deyilir. Astronomlar bu ulduza böyük uğursuzluq və hinduüzlü də deyirlər. Bu fələkdə ondan başqa ulduz yoxdur. Bu fələyin hakimi ancaq Saturndur.

**Səadət yayan Müştəriyə-Yupiterə «böyük səadət», cəlladüzlü qırmızı Mərrixə-Marsa «kiçik uğursuzluq» deyilmişdir. «Kiçik səadət» olan Azra Banu-Zöhrə-Venus və «göyün qarışıq süfrəsi» adlanan, gözəl üzlü Ütarid-Merkuri Günəş fələyinin altında olduqlarından süfli (yəni ülvinin əksi) adını almışlar. Bu üç ülvi və iki sufli fələyə (Saturn, Yupiter, Mars, Venus, Merkuri) həm də «beş çaşqın» demişlər. Bundan başqa, işıqlı Günəşə «Neyyiri-əzəm», gözəl görünüşlü Aya «Neyyiri-asqar» deyilir. Bunların hamısı birlikdə Səbai-səyyarə, yəni yeddi planet (gəzəgən) adlanır. Yeddi gəzəgənin adı:**

Zühal – böyük uğursuzluq – Saturn

Müştəri – böyük səadət – Yupiter Ülvi fələklər
Mərrix – kiçik uğursuzluq – Mars

**Şəms – Neyyiri-əzəm (Böyük işıq) Günəş**

Zöhrə – kiçik səadət – Venus
Sufli fələklər
Utarid – (göyün qarışıq süfrəsi) – Merkuri

Qəmər – Neyyiri –asqar **(kiçik işıq)** Ay

Zühal –Saturn planetinin üç fələyi var: «təmsiledici fələk», «daşıyıcı fələk», «hərəkətetdirici fələk». Zühal-Saturn fələyinin hərəkəti üçün bu fələyin içində daşıyıcı adlı bir fələk də yaradılmışdır. Beləliklə, Saturn planeti daşıyıcı fələklə birgə hərəkət edərək on iki bürcün hər birində iki il yarım qalır. Bu yolla da Saturn iyirmi doqquz il beş ay altı gündə bürclər dairəsini dolanır. Yəni Günəş ətrafındakı hərəkətini başa vurur. Daşıyıcı fələk yerdən çox uzaq və dairəsi geniş olduğundan Saturnun hərəkəti onun altında olan başqa planetlərin hərəkətindən yavaş, ağır görünür.

**Zühal-Saturn fələyi çox soyuq və qurudur. Ona böyük uğursuzluq deyilir. Ona baxmaq insana kədər verir. Zöhrə-Venus ulduzuna baxmaq isə insana sevinc verir. Axmaqlıq, cəhalət, qorxaqlıq, xəsislik, kin, yalançılıq, dedi-qodu, qəm, tənbəllik, kobudluq kimi zərərli sifətlər aid edilmişdir.**

Bu ulduz ana rəhmində olan nütfəyə (toxuma) təsir etsə, onun təbiətində olan xüsusiyyətlər uca Allahın (c.c) icazəsi ilə doğulacaq uşaqda olur. Zühal-Saturn çərşənbə gecəsinə və şənbə gününə hakimdir. Bu gecə və gündüzün ilk saatlarına bu ulduz hakim olur. Zühal fələyinin böyüklüyü Yer kürəsinin həcminə bərabərdir. Saturn fələyinin Yer

kürəsindən uzaqlığı təxminən bir milyard üç yüz milyon kilometrdir. Günəş ətrafında hərəkəti iyirmi doqquz il altı ayda başa çatır. Müasir astronomiya elminin təsbitinə görə, Zühal-Saturun fələyinin on səkkiz peyki var və onların xarakteristikası aşağıdakı cədvəldə göstərilmişdir.

## ZÜHAL – SATURNUN PEYKLƏRİ

| sıra | Adı | Planetə qədər olan məsafə (km) | Dolanma dövrü (sutka) | Orbitin meyli ($^0$) | Orbitin ekssentrisiteti | Radiusu (km) |
|---|---|---|---|---|---|---|
| 1. | Pan | 133.570 | 0,576 | (0) | (0) | (10) |
| 2. | Atlant | 137.640 | 0,602 | (0) | (0) | 20x15 |
| 3. | Prometey | 139.350 | 0,613 | (0) | 0,00 | 70x40 |
| 4. | Pandora | 141.700 | 0,629 | (0) | 0,00 | 55x35 |
| 5. | Epimetey | 151.422 | 0,694 | 0,34 | 0,01 | 70x50 |
| 6. | Yanus | 151.472 | 0,695 | 0,14 | 0,01 | 110x80 |
| 7. | Mimas | 185.520 | 0,942 | 1,53 | 0,02 | 195 |
| 8. | Entselad | 238.020 | 1,370 | 0,02 | 0,00 | 250 |
| 9. | Tefiya | 294.660 | 1,88 | 1,09 | 0,00 | 250 |
| 10. | Telesto | 294.660 | 1,888 | (0) | (0) | (12) |
| 11. | Kalipso | 294.660 | 1,888 | (0) | (0) | 15x10 |
| 12. | Diona | 377.400 | 2,737 | 0,02 | 0,00 | 560 |
| 13. | Yelena | 377.400 | 2,737 | 0,2 | 0,01 | 18x15 |
| 14. | Reya | 527.040 | 4,518 | 0,35 | 0,00 | 765 |
| 15. | Titan | 1.221.850 | 15,945 | 0,33 | 0,03 | 2.575 |
| 16. | Hiperion | 1.481.000 | 21,277 | 0,43 | 0,10 | 175x100 |
| 17. | Yapet | 3.561.300 | 79,331 | 14,72 | 0,03 | 720 |
| 18. | Feba | 12.952.000 | 550,48 | 175,3 | 0,16 | 110 |

## DÖRDÜNCÜ FƏLƏK

Üçüncü fələk Müştəridir – Yupiterdir. Bu fələk Ay fələyindən sayılanda altıncı, Günəş fələyindən sayılanda üç ülvi fələyin ikincisidir. O, bir səadət aynasıdır, öz fələyində təkbaşına hakimdir. Bu fələk böyük xoşbəxtlik fələyi adlandırılır. Müştəri-Yupiter planetinin üç fələyi var. **Müştəri-**

**Yupiter fələyi isti və rütubətlidir. Bu ulduzun vəsfləri belədir: din qeyrəti, elm, həya, səxavət, təvazökarlıq, ağıl, namus, natiqlik.** Bu fələk ana rəhmində olan nütfəyə təsir etsə, uca Allahın (c.c) buyruğu ilə bu fələyin vəsfləri doğulacaq uşaqda da özünü göstərər. Bu fələk bazar ertəsi gecəsinə və çərşənbə gününə hakimdir. Yupiterin on altı peyki var:

## YUPİTERİN PEYKLƏRİ

| sıra | Adı | Planetə qədər məsafə (km) | Dolanma dövrü (sutka) | Orbitin meyli ($^0$) | Orbitin ekssentrisiteti | Radiusu (km) |
|---|---|---|---|---|---|---|
| 1. | Metida | 127.960 | 0,295 | (0) | 0,00 | (20) |
| 2. | Adrasteya | 128.980 | 0,298 | (0) | (0) | 12x8 |
| 3. | Amalteya | 181.300 | 0,498 | 0,4 | 0,00 | 135x75 |
| 4. | Teba | 221.900 | 0,675 | (0,8) | 0,01 | (50) |
| 5 | İo | 421.600 | 1,769 | 0,04 | 0,00 | 1.815 |
| 6. | Avropa | 670.900 | 3,551 | 0,47 | 0,01 | 1.569 |
| 7. | Hanimed | 1.070.000 | 7,155 | 0,19 | 0,00 | 2.631 |
| 8. | Kallisto | 1.883.000 | 16,689 | 0,28 | 0,01 | 2.400 |
| 9. | Leda | 11.094.000 | 238,72 | 27 | 0,15 | (8) |
| 10. | Qimaliya | 11.480.000 | 250,57 | 28 | 0,16 | (90) |
| 11. | Lizisteya | 11.720.000 | 259,22 | 29 | 0,11 | (20) |
| 12. | Elara | 11.737.000 | 259,65 | 28 | 0,21 | (40) |
| 13. | Ananke | 21.200.000 | 631 | 147 | 0,71 | (15) |
| 14. | Karme | 22.600.000 | 692 | 163 | 0,21 | (22) |
| 15. | Pasife | 23.500.000 | 735 | 147 | 0,38 | (35) |
| 16. | Sinope | 23.700.000 | 758 | 153 | 0,28 | (20) |

## BEŞİNCİ FƏLƏK

Bu Mərrix – Mars fələyidir. Mars fələyi aydan sayılanda beşinci, Günəşdən sonra isə ülvi fələklərdən birincisidir və Yerə ən yaxın olandır. Marsa kiçik uğursuzluq da deyilir. Onun rəngi qırmızıdır və öz fələyində təkbaşına hakimdir. Onun üç fələyi var. **Marsın təbiəti çox isti, qurudur. Vəsflə-**

**ri bunlardır: coşğunluq, qəhrəmanlıq, hiddət, güc, xəyanət, öfkə, həyasızlıq, inad və lider olmaq istəyi.** Bu ulduz ana rəhminə düşən nütfəyə təsir edəndə onun mənfi xüsusiyyətləri uca Allahın (c.c) izni ilə doğulacaq uşaqda özünü göstərir. Mars şənbə gecəsinə və həftənin ikinci gününə hakimdir. Marsın böyüklüyü Yerin təqribən dörddə biri qədərdir. Marsın iki peyki var: Fobos və Deymos.

## ALTINCI FƏLƏK

Bu Günəş fələyidir. Mars fələyinin altında yerləşir. Ay fələyindən sayanda dördüncü fələk olur. Bu möhtəşəm fələk aləmi işıqlandırır, bütün ulduzlardan şöhrətli, nurlu və ən böyüyüdür. Gecə, gündüz, aylar onun hərəkəti ilə bəlli olur. Yeddi planetin ortasındadır. Günəş aşağıya və yuxarıya işıq saçmaq üçün tam ortada yerləşmişdir. **Günəşin iki fələyi var. Günəşin təbiəti isti və qurudur. Günəşə «orta səadət» deyilmişdir. Sifətləri bunlardır: güc, şiddət, qəhr, şiddətli öfkə, rəğbət, hiss, yumşaqürəkli olmaq, həya və namus.** Günəş-şəms fələyi bazar gününə və çərşənbə gecəsinə hakimdir. Uca Allah (c.c) ən böyük işıq olan Günəş fələyinə öz qüdrəti ilə çoxsaylı özəlliklər vermişdir. Bütün planetlərdən böyükdür, bütün ulduzlardan parlaqdır. Ay işığını ondan alır. Yer kürəsini isitdiyi üçün dənizlərdən buxarlanan sular göydə soyuq təbəqələrdə bulud və yağışa çevrilib yer üzünə həyat verir. Yer üzündə onun təsiri ilə bitki, çiçək, ağac bitir, meyvə olur. Yağış və qar nəticəsində çaylar axır. Günəş heyvanlara həyat verir. Günəşin təsiri ilə mədənlər meydana gəlir, bitkilər yaşıl olur, ağaclar onun təsiri ilə meyvə verir. Günəşin doğması ilə insan və təbiət güclənir, onun işığından faydalanır. Günəşin təsiri ilə birinci iqlimin əhalisinin rəngi qara olur, onların xarakteri Günəşin təsiri ilə formalaşır. Günəş onlara yaxın olduğundan bədənləri yüngül, ağıl-

ları zəif olur. Onların əxlaqı zəif, xasiyyətləri sərtdir. Yeddinci iqlim xalqı isə Günəşdən uzaq yerləşir.

Günəşin təsiri ilə gecə, gündüz, istilik, soyuq, işıq, yaz, qış, qar, yağış, mədənlər, daşlar, bitkilər, ağaclar meydana gəlir, soyuq, isti, quru, yaş, od, hava, su, torpağın qarışması, heyvan və insanın yaşaması, zamanın bilinməsi, il və ayların sayı onun təsiri ilə mümkün olur və bilinir.

## YEDDİNCİ FƏLƏK

Yeddinci fələk üçüncü qat səmada olan Zöhrə-Venusdur. Zöhrə-Venus, Ay fələyindən sayılanda üçüncü olur. O, öz fələyində təkbaşına hakimdir. **Bir adı da «kiçik səadət»dir. Onun üç fələyi var. Zöhrənin təbiəti mötədil, soyuq, rütubətlidir. Bu ulduza baxmaq insanın qəlbinə sevinc bəxş edir. Onun vəsfləri belədir: yumuşaq, dostluq, riqqət, yaxınlaşma, fərəh, istək, bəzək, oyun, sağlamlıq, gözəl yaradılış.** Bu ulduz həftənin ikinci gününün gecəsinə və cümə gününə hakimdir. Günəşin ətrafında fırlanıb qırx beş dərəcə ondan uzaqlaşdıqda bəzən səhər, bəzən axşam ulduzu kimi görünür.

## SƏKKİZİNCİ FƏLƏK

Bu fələk göyün ikinci qatında hakim olan Utarid-Merkuridir. Merkuri fələyi Ay fələyindən başlayaraq sayanda ikincidir. Zöhrə fələyinin altında yerləşir. Utarid fələyi bu fələkdə təkbaşına hakimdir. O, «qarışdırıcı» adı ilə tanınmışdır. Bu fələyin durumu və quruluşu başqa fələklərə ziddir. Onun dörd fələyi var.

Utaridin təbiəti mötədil, soyuq və qurudur. «Araqarışdıran» adlanır. **Vəsfləri belədir: ədəb, anlayış, duyma qabiliyyəti, zehin, dərk, danışıq qabiliyyəti, nəqş, kitab, hesab, dəqiqlik, zəka, diqqət, yumşaqlıq, incə qəlb, hünər, sənət, hiylə, xəyanət.** Bazar günün gecəsi və çərşənbə gününə hakimdir.

## DOQQUZUNCU FƏLƏK

Doqquzuncu fələk dünya səmasına hakim olan Qəmər-Aydır. Bu fələk aləmin mərkəzinə nisbətlə doqquz fələyin birincisidir. Hərəkətində ən sürətli görünür, öz fələyində təkbaşına hakimdir. Ona «kiçik aydınlıq» adı verilmişdir. Ayın dörd fələyi var. Ay fələyinin rəngi qaraya yaxın laciverddir. Başqasından aldığı işığı əks etdirir. İşığını ancaq Günəşdən alır. Yuvarlaq top şəklindədir. Günəş, Aydan böyükdür. Ona görə də Ayın yarısından çoxuna işıq verir, yarıdan azı isə qaranlıq qalır. Ay, Günəşdən hər gün on iki dərəcə uzaqlaşır. **Ayın təbiəti soyuq və rütubətlidir. Aya «orta xoşbəxtlik» adı verilmişdir. Vəsfləri belədir: acizlik, zəiflik, qoruma, cəhalət, həqirlik, tələskənlik, dedi-qodu, xəbərçilik, işvə, hərəkət, səs.** Ay bazar ertəsi günü və cümə gecəsinə hakimdir. Onun hakim olduğu vaxtda səfər etmək, ticarət, məktub və xəbər göndərmək faydalıdır.

Bu deyilənləri yekunlaşdırsaq, doqquz fələyi yuxarıdan aşağıya doğru belə sıralaya bilərik:

Böyük fələk – Atlas fələyi
Bürclər fələyi
Saturn – Zühal fələyi
Yupiter – Müştəri fələyi
Mars – Mərrix fələyi
Günəş – Şəms fələyi
Venus – Zöhrə fələyi
Merkuri – Utarid fələyi
Ay – Qəmər fələyi

Hz. Nizami deyir ki, merac gecəsi Cəbrail (ə.s) Peyğəmbərin yanına gəlir, Ona müjdə verir. Mələk deyir ki, sən altı cəhəti – sağı, solu, önü, arxası, yuxarısı, aşağısı, yeddi təbəqəsi olan Yer planetini tərk etməlisən. Çünki Yer

planetinin ölçüsü, məkanı, zamanı var. Sən merac nemətlərini görmək üçün ölçülü məkanı tərk edib, sonsuzluğa yüksəlməlisən.

Şair beytin ikinci misrasında sonsuzluq aləminin ucalığını ifadə etmək üçün deyir ki, sən doqquz fələyin yerləşdiyi səmadan da ucalara yüksələcəksən. Bu doqquz fələk sənin yüksəldiyin mərtəbə qarşısında aciz qalacaq.

## HZ. NİZAMİ: «ÖNCƏ ŞÜKÜR, SONRA SƏRVƏT»

***Əvvəl məni şükrə qovuşdur, sonra dövlətə,***
***Əvvəl mənə dözüm ver, sonra***

***Dözə bilməyəcəyim bəlaları***
***Məndən uzaqlaşdır, ey ədalətsizlikdən uzaq olan!***

***Əgər məni bəlaya mübtəla etmək istəsən,***
***Əvvəl mənə səbir ver, sonra bəlanı.***

## ON SƏKKİZİNCİ ADDIM:
## MƏLƏKLƏRİN BAŞINI ÖZ KƏMƏNDİNƏ SAL

بگذران از سماک چرخ سمند
قدسیان را درآر سر به کمند

***Öz Səməndini çərxin Semak ulduzundan keçir,***
***Mələklərin başını öz kəməndinə sal.***[202]

Şair bu beytdə Cəbrailin (ə.s) islam Peyğəmbərinə verdiyi müjdələrin təqdimini davam etdirir. Mələk Peyğəmbərə deyir ki, sən əlçatmaz bir zirvəyə ucalacaqsan. Bu elə bir ucalıqdır ki, səndən başqa bir kimsə ora yüksələ bilməz. Şair islam Peyğəmbərinin yüksələcəyi ucalığın əlçatmaz olduğunu ifadə etmək üçün bir neçə vasitədən istifadə etmişdir. Bu vasitələrdən biri Səmənd atının adının beytin mətninə daxil edilməsidir. **Bu atın iki özəlliyi var: biri görünüşünün gözəl, qeyri-adi, yəni sarımtıl rəngdə olmasıdır, biri də Səmənd atının çox böyük sürətlə hərəkət etməsidir.** Burada Səmənd atının sürəti merac gecəsinin tələbinə uyğundur. Belə ki, merac gecəsi islam Peyğəmbəri sürətlə göylərə ucalmalıdır. Başqa yöndən, şair bu beytdə islam Peyğəmbərini göylərə ov etməyə çıxmış bir mahir ovçu kimi təqdim etmişdir. Bu ovçunun atı çox sürətli olmalıdır ki, ovuna çata bilsin. **Bir anlıq şairin təsvir etdiyi mənzərəni gözümüz önündə canlandıraq: İti sürətli, sarımtıl rəngli Səmənd atının yəhərində oturmuş islam Peyğəmbəri səmaya ov etməyə çıxmışdır. O, sürətli hərəkət edən ulduzları, mələkləri «ovlamalıdır», onların başına kəmənd salmalıdır. Heç bir ov onun kəməndin-**

---

[202] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s.20.

**dən xilas ola bilməz. Çünki bu merac gecəsidir və bu mübarək gecənin sultanı hz. Məhəmməddir (s.a.s). Bu gecə yerdə və göydə olan hər şey uca Allahın (c.c) əmri ilə ona tabedir, O, uca ərşin keşikçisidir, o, ovçudur, qalanları ov, kəmənd onun əlindədir.**

Şair beytin birinci misrasında müjdə ideyasını təqdim edərkən islam Peyğəmbərinin yüksələcəyi ucalığı göstərmək üçün başqa bir vasitədən də istifadə etmişdir. O, Semak ulduzunun adını beytin mətninə yerləşdirmişdir. Semak ulduz adıdır. Bilindiyi kimi, Ay fələyinin iyirmi səkkiz mənzili var. Bunun əlaməti Ayın hər mənzilində bir ulduzun olmasıdır. Ayın belə mənzillərindən biri də Semak ulduzudur. Semak Ayın qərbdə olan mənzillərindəndir. Yay şəklində bir cizgi üzərində üç ulduz Gafrə adlanır və yeri Əqrəb bürcünün ilk hissəsidir. **Onun bir adı da Semaki-Ramihdir (Qılınc balığı). Onun ortası nizə şəklindədir və yaralayıcıdır. Simak (Semak) ayın on dördüncü mənzilidir. Astronomiya elminə görə, Semak (Simak) ulduzu ikidir. Onlardan biri Semaki-Ramih (Qılınc balığı), o birisi isə Semaki-Əzəlidir. Bu ikincisi Sünbülə (Qız) bürcünün ən parlaq ulduzudur.**

Ay bu mənzillərdən keçərək hərəkət edir. Ayın Yer ətrafında hərəkət istiqaməti Yerin öz oxu ətrafında fırlanma istiqaməti ilə eynidir. Ay göydə ulduzlara nəzərən qərbdən şərqə doğru yerini dəyişir. Bu dəyişmə hər sutka təxminən on üç dərəcə olur. Ayın ulduzlara nəzərən Yer ətrafında tam dolanma dövrü 27 sutka 12 saat 43 dəqiqə 11,5 saniyədir. Bu dövr «ulduz ayı» adlanır.

Ayın öz oxu ətrafında fırlanma periodu onun Yer ətrafında dolanma dövrünə bərabər olduğundan həmişə Ayın eyni tərəfi Yerə çevrilmiş olur. Ay, Yerlə birlikdə Günəş ətrafında hərəkət edir. Ona görə də Ayın Günəşə nəzərən vəziyyətindən asılı olaraq onun görünən tərəfi (üzü) forma-

sını dəyişir. Bu hadisə Ayın səfhələrinin dəyişməsi, yəni görünüşünün dəyişməsi adlanır. Ayın səfhələri bunlardır: təzə Ay – bu zaman Ay, Yer və Günəşin arasında olur. Bu vaxt onun görünən tərəfi Günəş işığı ilə işıqlanmadığından o, görünmür. Təxminən iki-üç gündən sonra Ay, Günəşdən bir qədər uzaqlaşır və axşamçağı ucları sol tərəfə yönəlmiş nazik oraq şəklində görünür. Buna cavan ay, hilal, ya da üçgecəlik Ay deyilir.

Ay təqvimindən istifadə edən xalqlarda (o sıradan müsəlman aləmində) yeni ayın başlanğıcı Ayın görünməsi ilə başlayır (astronomik cədvəllərə görə, bu gün Ay təqvimi ilə müəyyən edilən ayın 3-cü günüdür).

Ayın görünən orağı getdikcə qalınlaşır və təzə Ay səfhəsindən yeddi sutka on saat keçəndə birinci rüb səfhəsi (fazası) başlayır. Bu vaxt Ay Günəşdən 90 dərəcə uzaqlaşır və Günəş onun diskinin yarısını işıqlandırdığından Ay yarımdairə şəklində görünür.

Ayın görünən hissəsi bir həftə ərzində artmaqda davam edir və təzə ay səfhəsindən on dörd sutka on səkkiz saat keçəndən sonra bütöv dairə şəklini alır: bədirlənmiş ay (dolu ay) səfhəsi başlayır. Bu zaman Ay və Günəş Yerin əks tərəflərində olduğundan Ayın görünən tərəfi tam işıqlanır.

Üçüncü həftədən sonra (təqribən 22 sutka 3 saatdan sonra) Ay yenidən Günəşlə doxsan dərəcəlik bucaq vəziyyətinə qayıdır. Ayın görünən hissəsi yenidən yarımdairə formasını alır. Ancaq bu dəfə Günəş, Ay diskinin sol yarısını işıqlandırır: sonuncu rüb səfhəsi başlayır.

Daha bir neçə gün ərzində Ayın yarımdairəsi ucları sağ tərəfə istiqamətlənmiş nazik oraq şəklinə düşərək köhnə Aya çevrilir və sonra yox olur, görünmür. Bu zaman Ay ilə Günəş arasındakı bucaq məsafəsi sıfır dərəcə olur və növbəti təzə ay səfhəsi başlanır. Bundan əvvəlki təzə aydan

isə iyirmi doqquz sutka on iki saat qırx dörd dəqiqə iki tam onda səkkiz saniyə keçmiş olur.

## AY İLİ

Ay ili – 12 sinodik aydan (Ayın iki ardıcıl eyni adlı səfhələri arasında keçən vaxt intervalı) ibarətdir. Bu müddət 354, 367 sutkaya bərabərdir. Sinodik ay siderik aya nisbətən bir qədər uzundur. Ona görə ki, Ay, Yerin ətrafında 27 sutka ərzində tam dövr edir və ulduzlara nisbətən öz əvvəlki yerinə qayıdır. Ancaq bu vaxt ərzində Günəş əvvəlki yerində qalmır. Çünki o, sutkada təxminən bir dərəcə yerini dəyişir, təxminən 27 dərəcəyə yaxın əvvəlki yerindən uzaqlaşmış olur. Ay isə sutka ərzində 13 dərəcəyə yaxın yer dəyişdiyindən Günəşə çatmaq üçün iki əlavə sutka sərf etməlidir. Buna görə də sinodik ay siderik aydan təxminən iki sutka uzundur.

## AY TƏQVİMİ

İki təzə ay səfhəsi arasındakı vaxt intervalının 29, 5 sutkaya bərabər olduğunu ilk dəfə qədim babillər müəyyən etmişdir. Onlar həmin intervalı vaxt vahidi – bir ay kimi götürmüşlər. Hesablamaları asanlaşdırmaq üçün növbə ilə aylardan birini 29, o birini 30 sutka qəbul etmişlər.

## HİCRİ-QƏMƏRİ TƏQVİMİ

Ərəblər bizim eradan əvvəl ikinci minillikdə ay təqvimindən istifadə edirdilər. Hicrət tarixin başlanğıcı qəbul edildikdə ay təqvimi əsas götürüldü və hicri-qəməri adlandırıldı. 622-ci ildə hz. Məhəmməd (s.a.s) Məkkədən Mədinəyə hicrət edir. Hicrət səfər ayının 24-də başlanmış, rəbiüləvvəlin 9-da Peyğəmbər Mədinəyə daxil olmuşdur. Bu

hadisə ilin başlanğıcı olan məhərrəm ayının əvvəlindən 68 gün sonra baş verir.

Xəlifə Ömərin fərmanı ilə gün və illərin sonrakı hesablamalarının daha rahat olması üçün 638-ci ildən başlayaraq hicri-qəməri təqvimi tətbiq edilir. Bu tarix 622-ci ilin məhərrəm ayının birinci günündən, hər təzə Ay səfhəsindən hesablanmağa başlandı.

Hicri-qəməri təqvimində ilin uzunluğu 354 sutkaya bərabərdir. Bu da tropik ildən 11 sutka azdır. Bu o deməkdir ki, hicri-qəməri təqviminin hər 33 ili, qriqori (Günəş) təqviminin 32 ilinə bərabərdir. Ona görə də qriqori təqvimində müsəlmanların əsas bayramları (Qurban və Ramazan bayramları) sürüşməklə hər il müxtəlif vaxtlara düşür. Bu bayramlar hər il on bir sutka irəli sürüşür və qriqori təqvimi ilə yalnız 33 ildən sonra eyni tarixə düşür.

Hicri-qəməri təqviminin dəqiqliyini artırmaq üçün 30 ildə hər 11-ci ili «uzun il» hesab etmək qərara alınır (həmin ilə bir sutka artırılır). Nəticədə, 3000 ildə cəmisi bir sutka xəta alınır. Deməli, hicri-qəməri təqvimi kifayət qədər dəqiq təqvimdir.

## ŞAİRİN BEYTƏ YÜKLƏDİYİ MƏNA

Hz. Nizami beytdə deyir ki, ey Məhəmməd (s.a.s), iti sürətli, sarımtıl rəngli Səmənd atını Semak ulduzundan keçir. Yuxarıda qeyd etdiyimiz kimi, şair, sanki, islam Peyğəmbərini səmada ov edən bir şaha bənzətmişdir. Onun ovçuya lazım olan iti sürətli atı və kəməndi var. Semak ulduzu da Ayın mənzillərindən biridir, çox parlaqdır və ortası nizəyə bənzəyir. Şair deyir ki, sən göylərə yüksəl, parlaq Semak ulduzuna çat və onun əlindən nizəsini al, o, sənə mane olmasın. Burada, sanki, islam Peyğəmbəri göylərə ucalarkən Semak ulduzu

onun qarşısını kəsmişdir. Şair deyir ki, Semakın nizəsini al, onu məğlub et və yüksəkliklərə ucal.

Beytin ikinci misrasında şair deyir ki, ey Məhəmməd (s.a.s) mələklərin başını öz kəməndinə sal, onları da «ovla», yəni merac gecəsi mələklər də Səndən yüksəyə ucala bilməz.

«Mələklərin başını kəməndə sal» o deməkdir ki, merac gecəsi uca Allaha (c.c) ən yaxın varlıq mübarək Peyğəmbərdir. Mələklər islam Peyğəmbərinin ucaldığı zirvəyə yüksələ bilməzlər. Burada Cəbrailin (ə.s) Sidrətül-Müntəhaya çatanda islam Peyğəmbərinə dediyi sözlər yada düşür: «Ey Məhəmməd! Mən buradan o yana gedə bilmərəm, əgər getsəm, qanadlarım yanar».

«Başı kəməndə salmaq» anlayışı bir şeyin hərəkətini dayandırmaq, onu tutmaq, ovlamaq, onun hərəkətinə imkan verməmək deməkdir. Şair deyir ki, islam Peyğəmbəri səmada mələklərin başına kəmənd saldı. Yəni mələklər onun ucaldığı səmaya yüksələ bilmədilər. **Buradan belə bir məna da çıxarmaq olar ki, mələklər səmada hz. Məhəmmədi (s.a.s) gördülər, heyrətə düşdülər, yerlərində donub qaldılar, başları kəməndə keçdi, hərəkət edə bilmədilər.**

## ON DOQQUZUNCU ADDIM:
## YAŞIL GEYİMLİLƏR SƏNİ GÖZLƏYİRLƏR

عطر سایان شب به کار تواند
سبز پوشان در انتظار تواند

***Gecənin ətir saçanları sənə hazırlıq görürlər,***
***Yaşıl geyimlilər səni gözləyirlər.***[203]

[203] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 20.

Şair bu beytdə də Cəbrailin (ə.s) islam Peyğəmbərinə olan müjdəsini gözəl bir biçimdə təqdim etmişdir. Cəbrail (ə.s) Peyğəmbəri merac səfərinə hazırlayır, bu mübarək yolun gözəlliklərini Ona anladır. Mələk deyir ki, bütün göylər (göyün qatları), səma cismləri Peyğəmbərin gəlişinə hazırlaşır.

Şair bu beytdə müjdəni təqdim etmək üçün iki vasitədən istifadə etmişdir. **Şair, öncə «gecənin ətir saçanları» ifadəsini beytin mətninə yerləşdirmişdir. Burada şair «gecənin ətir saçanları» deyəndə ulduzları nəzərdə tutmuşdur. Yəni uca Allahın (c.c) buyruğu ilə səmada olan bütün cismlər islam Peyğəmbərinin gəlişinə hazırlaşır. Ulduzlar par-par işıq saçır, çünki sevdikləri bir mübarək insan göylərə ucalır. Sanki, göydəki bütün ulduzlar Onun yoluna düzülmüşdür. Onlar islam Peyğəmbərinə sevgisini ifadə etmək üçün gözəl «bəzənmişlər», daha gur işıq saçır və Onun yolunu işıqlandırırlar. Sanki, hər bir ulduz özünü Ona göstərmək istəyir, ən gözəl paltarını geyinir, ona salam verir.**

Şairin təqdiminə görə, «gecənin ətir saçanları» Peyğəmbərə olan sevgisini ifadə etmək üçün gözəl ətirlənmişdir. Ətir sevginin göstəricisidir, sevən sevdiyinin görüşünə gedəndə gözəl ətirdən istifadə edər. Bu gözəl ətir insanda xoş, təzə duyğular oyadar, onun ruhuna can, könlünə fərəh verər.

Şairin şərhinə görə, merac gecəsi ən ulduzlu gecədir, ən parlaq gecədir, səmanın bütün ulduzları bir gözəl görüşə hazırlaşır, bəzənib, ətirlənib, nurlanıb Peyğəmbərin yoluna düzülmüşdür.

Şairin beytdə müjdəni təqdim etmək üçün istifadə etdiyi ikinci vasitə «yaşıl geyimlilər» ifadəsidir. **Şair «yaşıl geyimlilər» deyərkən mələkləri nəzərdə tutmuşdur. Yəni uca Allahın (c.c) əmri ilə mələklər də merac gecəsi**

**Peyğəmbəri qarşılamağa hazırlaşır. Onlar da ən gözəl paltarını geyinmişdir. Şairə görə, merac gecəsi mələklərin paltarının rəngi yaşıl idi.**

Bilindiyi kimi, mələklər nurdan yaradılmışdır və onların yaşıl rəngli geyimləri olmur. Ancaq şair merac gecəsini şərh edərkən mələklərin islam Peyğəmbərinə olan sevgisini ifadə etmək üçün bu mübarək gecədə onların yaşıl rəngli paltar geyindiyini bildirir. Yəni mələklər də Peyğəmbərin göylərə ucalacağını bilirdilər, bu görüşə hazırlaşırdılar və ən gözəl paltarlarını geyinmişdilər.

Bəllidir ki, yaşıl rəng islamın rəmzidir, sevgini, gözəlliyi, təzəliyi, ədaləti bildirir. Yaşıl rəng Peyğəmbərin sevdiyi bir rəngdir. Yaşıl rəng insanın ruhuna fərəh, gözlərinə nur bəxş edən bir rəngdir. Deməli, merac gecəsi ətir saçan, işıqlı ulduzlar və yaşıl geyimli mələklər Peyğəmbərin yolunu gözləyir.

Beytdə «səni gözləyirlər» ifadəsi yaşıl geyimli mələklər sənə aşiq olublar mənasındadır. Sevən sevdiyinin görüşünə gedərkən bəzəndiyi kimi, mələklər də bu mübarək gecənin və bu gecənin Sultanının şərəfinə ən gözəl paltarını geyinmişdir.

## İYİRMİNCİ ADDIM: MİSİR NAZƏNİNLƏRİ YUSİF KİMİ SƏNƏ AŞİQ OLUBLAR

نازنينان مصر اين پر كار
بر تو عاشق شدند يوسف‌وار

***Bu pərgarın Misir nazəninləri,***
***Yusif kimi sənə aşiq olublar.***[204]

[204] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 20.

Hz. Nizami bu beytdə ifadə olunan mənanı təqdim etmək üçün Qurani-Kərimə müraciət etmişdir. Bilindiyi kimi, Qurani-Kərimdə «Yusif» surəsi var. Bu surədə həm də Yusiflə Züleyxa arasında olan bir hadisə anladılır. Quran bu hadisəni belə təsvir edir:

وقَالَ نسوةٌ في الْمدينَة امرأةُ الْعزيزِ تُراوِد فَتَاها عن نفْسه قَد شَغَفَها
حباً إِنا لَنَراها في ضلالٍ مبِينٍ فَلَما سمعتْ بِمكْرِهن أَرسلَتْ إِلَيهِن
وأَعتَدتْ لَهن متكَأً وآتَتْ كُلَّ واحدة منْهن سكيناً وقَالَت اخْرج
علَيهِن فَلَما رأَينَه أَكْبرنَه وقَطَّعن أَيديهن وقُلْن حاشَ لِلّه ما هـذَا
بشَراً إِن هـذَا إِلا ملَك كَرِيم . قَالَتْ فَذَلِكُن الذي لُمتُنني فيه ولَقَد
راودته عن نفْسه فَاستَعصم ولَئِن لم يفْعلْ ما آمره لَيسجنَن ولَيكُوناً
من الصاغرِين . قَالَ رب السجن أَحب إِلَي مما يدعونَني إِلَيه وإِلا
تَصرِفْ عني كَيدهن أَصب إِلَيهِن وأَكُن من الْجاهلين. فَاستَجاب لَه
ربه فَصرفَ عنْه كَيدهن إِنه هو السميع الْعليم

(Yusif, 12 / 30-34)

«Şəhərdəki qadınlar dedilər: «Vəzirin övrəti cavanı (cavan qulunu) tovlayıb yoldan çıxartmaq (onunla yaxınlıq etmək) istəyir. (Yusifin) məhəbbəti onun bağrını qan etmişdir. Biz onun açıq-aşkar (doğru) yoldan çıxdığını görürük. (Züleyxa qadınların) gizli dedi-qodularını (məkrini) eşitdikdə onlara xəbər göndərib ziyafətə dəvət etdi, onlar üçün gözəl (mütəkkələrlə, xalılarla döşənmiş bir otaqda ləziz təamlardan ibarət) bir məclis düzəltdi. Onların hər birinə (meyvə kəsib soymaq üçün) bir bıçaq verdi, sonra (Yusifə): «Onların qarşısına çıx!» - deyə əmr etdi. (Qadınlar Yusifi) gördükdə (gözəlliyinə heyran olub) onu həddindən artıq tə-

rifledilər və (özlərini itirib əllərindəki turuncun qabığını soymaq əvəzinə) əllərini kəsdilər. Onlar: «Aman Allah! Bu ki bəşər deyildir. Bu ancaq (Allah yanında) möhtərəm (əziz) bir mələkdir!» - dedilər. (Züleyxa qadınların özlərinə gəldikdən sonra kəsilmiş əllərinin ağrısından ah-vay etdiklərini və bu hərəkətlərindən xəcalət çəkdiklərini görüb onlara) belə dedi: «Bu, (könlümü ona verdiyimə görə) məni qınadığınız (oğlandır). Mən onun olmaq istədim, o isə imtina etdi. (Bir daha deyirəm) əgər əmrimi yerinə yetirməsə, sözsüz ki, zindana atılacaq və zillətə düşənlərdən olacaq!» (Yusif) dedi: «Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən xoşdur. Əgər (bu qadınların) hiyləsini məndən dəf etməsən, mən onlara meyil edən cahillərdən olaram». Rəbbi (Yusifin) duasını qəbul buyurub (qadınların) məkrindən qurtardı. Həqiqətən, O, (hər şeyi) eşidəndir, biləndir!»

Şair beytdə göydə olan səma cismlərini daimi hərəkətdə olan varlıq kimi təqdim etmiş və fasiləsiz, nizamlı hərəkəti göstərmək üçün «pərgar» sözündən istifadə etmişdir. Şairə görə, bu fasiləsiz hərəkətdə olan səma cismlərinin mərkəz nöqtəsi hz. Məhəmməddir (s.a.s). Bütün səma cismləri Onun ətrafında fırlanır. Pərgarın dayaq nöqtəsi olmasa, dairə çəkə bilmədiyi kimi, səma cismləri də mərkəz, dayaq nöqtəsi olan hz. Məhəmmədsiz (s.a.s) hərəkət edə bilməz.

Merac gecəsi bütün səma cismləri Ona aşiq olduğunu göstərməyə çalışır, ulduzlar parlayır, ətir saçır, mələklər yaşıl paltarını geyinir, səmanın «Misir nazəninləri» onun ətrafında dolanır. Misir nazəninlərinin Yusifi görüncə əllərini kəsməsi onların heyranlıq, aşiqlik, özlərini unutmaq halıdır. Səma cismləri də merac gecəsi özünü unutmuş, islam Peyğəmbərinə aşiq olmuşdur.

## İYİRMİ BİRİNCİ ADDIM:
## QOY ONLAR SƏNƏ TAMAŞA ETSİNLƏR

خیز تا در تو یک نظاره کنند
هم کف و هم ترنج پاره کنند

***Dur, qoy onlar bir dəfə sənə tamaşa etsinlər,***
***Həm əllərini və həm də turuncu kəssinlər.***[205]

Hz. Nizami bu beytdə öncəki beytdə ifadə olunan ideyanı fərqli biçimdə təqdim etmişdir. Şair öncəki beytdə səma cismlərinin islam Peyğəmbərinə aşiqliyini Misir nazəninlərinin Yusifə heyranlığı ilə müqayisə etmişdir. Ancaq şair bu beytdə bu müqayisə ilə razılaşmır. İslam Peyğəmbərinin hz. Yusifdən (s.a.s) daha gözəl olduğunu bildirir. O, bu fikrinin doğruluğunu sübut etmək üçün Peyğəmbərə deyir ki, Sən göylərə yüksəl. Şair iddiasına o qədər əmindir ki, Peyğəmbərə «dur!» deyə müraciət edir. Yəni tez ol, dur və göylərə ucal. Buradakı «dur!» müraciət şəkli əminliyi, arxayınlığı, iddiasını mütləq sübut edəcəyinə inamı ifadə edir. «Dur!» xitabı tərəddüdün, şübhənin olmadığını göstərir.

**Şair iddiasının doğru olduğunu göstərmək üçün beytin birinci misrasında «bir dəfə» ifadəsindən də istifadə etmişdir. Yəni bu o deməkdir ki, islam Peyğəmbəri «dur» («ayağa qalx») xitabına qulaq assa, göylərə ucalsa, səma cismləri Onu «bir dəfə» görsə, şairin iddiası sübut olunacaq. Adətən, aşiq olmaq, sevmək üçün sevənin sevdiyini çox görməsinə, onunla danışmasına, onu tanımasına ehtiyac var. Ancaq şair deyir ki, islam Peyğəmbəri o qədər gözəldir ki, səma cismlərinin onu «bir dəfə» görməsi kifayətdir.**

---

205 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 20.

Şairə görə, islam Peyğəmbərinin hz. Yusifdən (s.a.s) gözəl olduğunun bir sübutu da odur ki, hz. Yusifə (s.a.s) aşiq olanlar Misir nazəninləridir. Hz. Məhəmmədə (s.a.s) aşiq olanlar isə səma cismləridir.

**Şair səma cismlərinin hz. Məhəmmədə (s.a.s) aşiqliyini ifadə etmək üçün «tamaşa etmək» felindən istifadə etmişdir. Tamaşa etmək heyranlıq, aşiqlik halıdır, özünü unutmaq, bütün varlığı ilə sevdiyinə baxmaqdır. Tamaşa etmək ancaq sevdiyini görməkdir. Tamaşa etmək bir şeyin çox gözəl olduğunu bildirir. Aşiq tamaşa etdiyindən ayrıla bilmir, ona heyran olur. Tamaşa etmək aşiq ruhun dinclik halıdır, duyğuların tüğyanıdır, könlün fərəhlə dolmasıdır. Tamaşa etmək sevərək, inanaraq baxmaqdır. Tamaşa etmək sevdiyinə təslimiyyət, itaət halıdır.**

Şair deyir, səma cismləri bir dəfə islam Peyğəmbərinə tamaşa etsələr, ona aşiq olacaq və özlərini unudacaq. Şair deyir ki, hz. Yusifi (s.a.s) görən Misir nazəninləri turuncu deyil, əllərini kəsdilər. Ancaq səma cismləri islam Peyğəmbərinə tamaşa etsələr, həm əllərini, həm də turuncu kəsərlər. Bizcə, bu daha böyük heyrət, heyranlıq, aşiqlik halıdır. Çünki bu halda sevən elə aşiq olar ki, özünü elə unudur ki, əli ilə turuncu bir-birindən seçə bilmir və hər ikisini kəsir.

Şair əminliyini gücləndirmək üçün «turuncu kəssinlər» deyir. Əmr şəklini seçir və bununla da tərəddüdə, şübhəyə yer qoymur. Yəni onlar sənə tamaşa etsələr, əllərini və turuncu kəsəcəkləri mütləqdir.

## İYİRMİ İKİNCİ ADDIM:
## GÖYÜN TÜRRƏLƏRİNİ TƏZƏLƏNDİR

آسمان را به زير پايه خويش
طره نو كن ز جعد سايه خويش

***Öz ayaqlarının altında göyün türrələrini,***
***Öz sayənin zülfü ilə təzələndir.***[206]

Şair bu beytdə də mələk Cəbrailin (ə.s) dili ilə Peyğəmbərin müjdələnməsini gözəl təqdim etmişdir. Şair öncə göyün ucalığını təsvir etmişdir. Bunun üçün «göyün türrələri» ifadəsindən istifadə olunmuşdur. «Türrə» bir möhtəşəm qəsrdə, imarətdə, sarayda olur. «Türrə» sarayın ön hissəsində olan damın üstündəki bəzəyə deyilir. «Türrə» sarayı çox gözəl göstərir.

**Şair öncə səmanı bir gözəl saraya bənzədir. Sonra islam Peyğəmbərinin göyün çox yüksək zirvəsinə ucaldığını ifadə etmək üçün deyir ki, gözəl bir saraya bənzəyən səmanın türrəsi Peyğəmbərin ayağının altında qalır. Ancaq göy sarayının türrəsi elə bir yerdir ki, ora indiyədək heç kimin ayağı toxunmamışdır. Buna görə də, səma qəsrinin türrələri öz gözəlliyini itirmişdir, bəzəklər solmuş, əvvəlki təravəti yox olmuşdur.**

Şair deyir ki, ey Məhəmməd (s.a.s), tez göy sarayının üzərinə yüksəl, bütün səma, o sıradan bu səma qəsrinin türrələri ayağının altında qalsın. Sənin ətir saçan qara saça bənzər kölgən bu qəsrin (göyün) türrələrini təravətləndirsin. Yəni bu uca göylər də Sənin gəlişini gözləyir, sənə həsrətdir, sənin gəlişinlə səmadakı hər şey yenidən canlanacaq, göy sarayının türrələri – bəzəkləri əvvəlki gözəlliyini özünə qaytaracaq.

---

[206] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

**Şairin təqdimində uca göylər islam Peyğəmbərinə öz sevgisini bildirmişdir. Sevən sevdiyini görəndə ruhlandığı, canlandığı, sevindiyi, təravətləndiyi kimi, göylər də əziz Peyğəmbəri görəndə bütün gözəlliyini göstərmişdir: «gecənin ətir saçanları» - ulduzlar işıq saçaraq sayrışmış, görüşə hazırlaşmış, mələklər öz sevgi paltarını – yaşıl paltarını geyinmiş, səma cismləri Misir nazəninləri hz. Yusifə (s.a.s) aşiq olduqları kimi, Ona aşiq olmuş, həm əlini, həm də turuncu kəsmiş, göy qübbəsi Peyğəmbərin ayağının altında qalmış, səma qəsrinin türrələri – bəzəkləri yenidən Peyğəmbər sevgisi ilə, Onun ayağının toxunması ilə əvvəlki gözəlliyinə qovuşmuşdur.**

## İYİRMİ ÜÇÜNCÜ ADDIM:
## MƏLƏKLƏRİN EYVANINI ÖZ KƏMƏNDİNƏ ÇƏK

بگذران مرکب از سپهر بلند
درکش ایوان قدس را به کمند

*Öz atını uca göydən keçir,*
*Mələklərin eyvanını öz kəməndinə çək.*[207]

Bu misralar şərti olaraq «müjdə beytləri» adlandırdığımız beytlər içərisində yer tutur. Şair bu beytdə islam Peyğəmbərinin merac gecəsi uca göylərə səfəri zamanı bu mübarək merac yolunun gözəlliklərini şərh etmişdir. Mələk Peyğəmbərə müjdə verir, onu atını uca göylərdə çapmağa dəvət edir, ona göydə yol getməyin gözəlliklərindən danışır. Mələk Peyğəmbərə hərəkət, göylərə ucalmaq təklif edir.

---

[207] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

Şair beytin ikinci misrasında deyir ki, Peyğəmbər merac gecəsi elə ucalığa yüksələcək ki, mələklər belə, o zirvəyə çata bilməzlər. Peyğəmbərə verilən müjdədə bildirilir ki, o, mələklərin eyvanını kəməndə salacaq, onların olduğu məkandan (beytdə eyvan mələklərin məkanı mənasında işlənmişdir) daha uca məkana yüksələcək. Mələklərin eyvanı kəməndə düşəcək, mələklər Onun yüksəlişindən heyrətlənəcək, yerində donub qalacaq, hərəkət imkanını itirəcək. Misrada «mələklərin eyvanının kəməndə düşməsi» bənzətməsi heyrət halını ifadə etmək üçündür.

## İYİRMİ DÖRDÜNCÜ ADDIM: ÜZÜN BAĞ ÇİÇƏKLƏRİ KİMİ TƏZƏ-TƏR OLSUN

شبروان را شکوفه ده چو چراغ
تازه روباش چون شکوفه باغ

***Gecə səyyahlarını çıraq kimi işıqlandır,***
***Üzün isə bağ çiçəkləri kimi təzə-tər olsun.***[208]

Şair bu beytdə merac gecəsinin gözəlliyini təsvir etmək, Peyğəmbərə verilən müjdənin önəmini göstərmək məqsədi ilə «nur» obrazından istifadə etmişdir. Beytdəki «çıraq», «işıqlandırmaq», «üzün çiçək kimi təzə-tər olması» kimi söz və ifadələr nur obrazı yaratmışdır.

Mələk Cəbrail (ə.s) islam Peyğəmbərinə deyir ki, merac gecəsi sən bir nur içində olacaqsan, bu nurun işığı ilə gecəni belə, gündüzə çevirəcəksən. Sənin nurun o qədər çox olacaq ki, gecə səyyahlarını da çıraq kimi işıqlandıracaq.

---

[208] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

**Şair beytdə «gecə səyyahları» deyərkən Ayı, ulduzları nəzərdə tutmuşdur. Bilindiyi kimi, Ay və ulduzlar gecə-gündüz hərəkət edirlər, ancaq bu səma cismləri daha çox gecə göründüyünə görə şair onları «gecə səyyahları» adlandırmışdır.**

Əslində, bu «gecə səyyahları»nın işığa ehtiyacı yoxdur. Çünki onlar özləri işıq saçır. Ancaq şair deyir ki, bərəkətli merac gecəsinin ən parlaq, ən nurlu «planeti» hz. Məhəmmədir (s.a.s). İslam Peyğəmbəri merac gecəsinin işığı ilə o qədər nurlanmışdır ki, Ay və ulduzların işığı görünməz olmuşdur. Günəş də belədir. Bu planet göy üzündə göründə ulduzlar «sönür», onların işığı görünmür. Merac gecəsi islam Peyğəmbəri Günəş kimi sonsuz səmada görünür (gecə görünən Günəş), Ay və ulduzların işığı itir, bu «gecə səyyahları»nın işığa ehtiyacı yaranır. Bütün kainat, yer və göy merac gecəsi islam Peyğəmbərinin nuru ilə işığa qərq olur.

Şair beytin ikinci misrasında deyir ki, merac gecəsi islam Peyğəmbəri nur saçıb «gecə səyyahları»nı işıqlandırır, özünün mübarək üzü isə bağ çiçəkləri kimi təzə-tər olur. Bağ içindəki çiçəklər, sanki, işıq kimi yanır, ətrafı işıqlandırır, rəngbərəng çiçəklərin nuru və ətri bağı nura qərq edir. «Üzün isə bağ çiçəkləri kimi təzə-tər olsun» misrasının mənası merac gecəsinin gözəlliyindən sevinən, bu sevincdən könlünə fərəh ətri dolan Peyğəmbərin halına uyğundur. Bu da bir müjdə metodudur. Yəni, ey Məhəmməd, merac gecəsi elə sevinəcəksən ki, mübarək üzün bağ çiçəkləri kimi gözəl, ətirli, təravətli və nurlu olacaq. Mübarək üzün elə bir çiçəkdir ki, gözlər eləsini görməyib, «gecə səyyahları» belə işıqlı çiçək üz tanımır, səma cismləri belə çiçək üzün ətrindən bihuş olub.

## İYİRMİ BEŞİNCİ ADDIM:
## UCA ALLAHDAN (c.c) NƏ İSTƏSƏN, ALACAQSAN

شب شب تست و وقت وقت دعاست
یافت خواهی هرآنچه خواهی خواست

***Gecə Sənin gecəndir, vaxt isə dua vaxtıdır,***
***Sən (Ondan) hər nə istəsən, onu alacaqsan.***[209]

Bizcə, bu beyt hz. Nizaminin meracnamələrində olan ən gözəl, merac gecəsinin dəyərini, məqsəd və hədəflərini özündə birləşdirən ən məzmunlu müjdə beytidir. Şairə görə, merac gecəsi islam Peyğəmbərinin gecəsidir. Şair beytdə sənin gecəndir deyərkən merac gecəsini nəzərdə tutur. Yəni merac gecəsi ancaq hz. Məhəmmədə (s.a.s) qismət olan bir gecədir. Başqa heç kimin belə bir şansı yoxdur. Bu həm də o deməkdir ki, merac gecəsi islam Peyğəmbərinin ömrünün ən parlaq gecəsidir. Bu o deməkdir ki, merac gecəsi islam Peyğəmbəri üçün böyük nemətlər hazırlanmışdır.

**Şairə görə, müjdə ümid deməkdir, müjdə inamdır. Mələk də Peyğəmbərə ümid verir. Şairə görə, merac gecəsi ən böyük, ən uyğun dua vaxtıdır. Bu gecə Peyğəmbərin etdiyi bütün dualar qəbul olunacaq. Duaların qəbul olunacağı ilə bağlı olan xəbər də müjdənin – ümidin tərkib hissəsidir. Gerçəkdən, bir insan dualarının qəbul olunacağını bilsə, fərəhlənər, üzərinə götürdüyü missiyanın doğruluğuna inanar.**

### MERAC HALI

Şairə görə, duaların qəbul olunacağı ən uyğun vaxtlardan biri gecədir, ayrıca mübarək gecələrdir. Merac gecə-

[209] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

sinin ən böyük neməti olan namaz möminin meracıdır. Bu o deməkdir ki, mömin təslimiyyət ruhu içində namaz qılsa, yəni merac halını yaşasa, bu zaman edəcəyi dualar qəbul olunar. Deməli, duanın qəbul olunması merac halının – uca Allahdan (c.c) başqa hər şeyi unudaraq Yaradanla ünsiyyət qurmaq halının yaşanmasına bağlıdır. Mömin bilməlidir ki, çalışarkən, yatarkən, danışarkən, bir sözlə hər bir halında uca Allah (c.c)ondan ayrılmaz. Mömin onun adını zikr edəndə eşidər, ona dost olar. Mömin uca Allahı (c.c) haqqı ilə tanısa, hər nəfəsində Yaradanın onunla olduğunu görər. Uca Yaradanla söhbət etməyin, Ona yalvarmağın, Ona dua etməyin, ondan istəməyin də ədəbləri – merac halı var. Mömin dua edərkən başını aşağı əyməli, önünə baxmalı, ağlını səfərbər edib, uca Allahdan (c.c) başqa hər şeyi unutmalıdır. Susmalı və yersiz danışmamalıdır, bədəninin bütün üzvləri rahat olmalıdır. Uca Allahın (c.c) əmrinə boyun əyməlidir, yasaqlardan uzaq durmalıdır, etiraz etməməlidir, davamlı zikr etməlidir, uca Allahın (c.c) qüdrətini düşünməlidir, Onu hər şeydən üstün tutmalı, hər şeydən çox sevməlidir, bu dünyaya bel bağlamamalıdır. Uca Allaha (c.c) münasibətdə heyrət halında olmalıdır. Təslimiyyət və uca Allahın (c.c) verdiyi hər şeyə razı olmağın duanın qəbul şərti olduğunu bilməlidir.

**Namaz və dua möminin merac halıdır.** Bu mübarək halın ədəbinə uyğun dua edilərsə, namaz qılınarsa, qəbul olunar.

وإِذَا سأَلَك عبادي عني فَإِني قَرِيب أُجِيب دعوةَ الداعِ إِذَا دعانِ

فَلْيستَجِيبوا لِي ولْيؤْمنُوا بِي لَعلهم يرشُدون

(Bəqərə, 2 / 186)

«(Ey Rəsulum!) Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edib Məni çağıranın

duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib mənə iman gətirsinlər. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər».

**Merac halı uca Allahla (c.c) qul arasında olan əlaqədir. Bu halı yaşamaq ibadətdir.**

ادعوا ربكم تضرعا وخفية إنه لا يحب المعتدين

(əl-Əraf, 7/55)

«Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin. Şübhəsiz, O, həddi aşanları (qışqıraraq dua edənləri) sevməz!»

İslam Peyğəmbəri merac halının əlamət və ölçülərini belə təqdim edir:

«Şübhəsiz, Allah (c.c) çox həyalı və çox əliaçıqdır. Bir insan əllərini qaldırıb dua etdiyi vaxt onu boş qaytarmaqdan həya edər».[210]

«Qəbul ediləcəyinə inanaraq Allaha (c.c) dua edin. Bilin ki, uca Allah (c.c) şüursuz və qəflət içində olan bir ürəkdən çıxan duanı qəbul etməz».[211]

«Çətin və kədərli zamanlarda duasının Allah (c.c) tərəfindən qəbul edilməsi kimi sevindirirsə, o, bolluq və firavan zamanlarda da çox dua etsin».[212]

«Kimin üçün bir dua qapısı açılmışdırsa, onun üçün mərhəmət qapısı da açılmışdır».[213]

«Şübhəsiz ki, dua gələn bəlaya da faydalıdır, gəlməyən bəlaya da. Ey Allahın qulları, dua etməyə davam edin».[214]

---

[210] İbn Macə, «Dua», 13.
[211] Tirmizi, «Deavat», c. II, s. 640.
[212] Tirmizi, «Deavat», s. 11.
[213] Tirmizi, «Deavat», s. 101.
[214] Tirmizi, «Deavat», s. 10; «Müsnəd», c. V, s. 234.

Bu mübarək hədislərdə dua edərkən, namaz qılarkən merac halında olmağın ölçüləri belə müəyyən edilmişdir:

- Dua ibadətin canıdır.
- Uca Allahın (c.c) merac halı ilə edilən duanı, qılınan namazı qəbul edəcəyinə inanmaq lazımdır.
- Uca Allah (c.c) lütf və ehsan sahibidir.
- Uca Allah (c.c) dua edən, namaz qılan qulunu görür, bilir və eşidir.
- Dua etdim qəbul olunmadı, demək doğru deyil.
- Həm çətin, həm də xoş günlərdə dua edilməlidir.
- Dua davamlı olmalıdır.
- Dua mərhəmət xəzinələrinin açarıdır.
- Dua bəlanın qarşısını alar.
- Dua qula uca Allaha (c.c) olan ehtiyacını hiss etdirər, ona dözüm və səbir verər.

Uca Allah (c.c) davamlı olaraq qullarından merac halı – təslimiyyət, ixlas, itaət tələb edir.

قُلْ ما يعبأُ بِكُم ربي لَولا دعاؤُكُم فَقَد كَذبتُم فَسوفَ يكُون لِزاماً

(əl-Furkan, 25 / 77)

«Ey Məhəmməd! De: «Əgər duanız (ibadətiniz) olmasa, Rəbbim sizə nə qiymət verər…»

Şair deyir ki, gecə Sənin gecəndir, vaxt isə dua vaxtıdır. Sən Ondan hər nə istəsən, onu alacaqsan. Burada mələk Peyğəmbərə ən böyük müjdəni vermiş olur. Merac halında Peyğəmbər bu ölçülü məkanı tərk edir və duaları qəbul olunur. Peyğəmbərin də uca Allahdan (c.c) tək bir istəyi var. O da ümmətin nicatıdır. Elə merac nemətləri də ümmətin xilası ilə bağlıdır.

# İYİRMİ ALTINCI ADDIM: MƏLƏKLƏRİN XALILARINI TƏZƏLƏ

تازه‌تر کن فرشتگان را فرش
خیمه زن بر سریر پایه عرش

***Mələklərin xalılarını təzələ,***
***Ərşin payəsindəki taxtda öz çadırını qur.***[215]

Şair bu beytdə bir neçə mənanı ifadə etmişdir. Hər şeydən öncə mələyin dili ilə Peyğəmbərə müjdə verilmişdir.

Daha sonra şair islam Peyğəmbərinin merac gecəsi yüksələcəyi ucalığı təsvir etmişdir. Bunun üçün beytdə «mələklərin xalısı» və «ərşin payəsi» ifadələrindən istifadə olunmuşdur. «Mələklərin xalısı» mələklərin gəzdiyi məkandır, göy üzüdür. Şair gözəl bir mənzərə yaratmışdır. Ayı, Günəşi, ulduzları olan göyün üzünü əlvan naxışlarla toxunmuş xalıya bənzətmişdir. Burada həm də mələklərin incə, zərif varlıq olduğuna da işarə edilmişdir. Bu gözəl mələklər zərif xalıların üzərində – göy üzündə hərəkət edirlər. Ancaq şairin şərhinə görə, sanki, bu göy üzü – xalı köhnəlmişdir. Adətən, evə hörmətli bir qonaq gələndə evi səliqə ilə yığışdırırlar, xalıları təzələyirlər, hər şeyin ən gözəlindən istifadə edirlər. Merac gecəsinin də ən əziz qonağı hz. Məhəmməddir (s.a.s). Onun göylərə ucalması ilə mələklərin xalıları təzələnəcək, göy üzü gözəlliyə bürünəcək, öz gözəl donunu geyinəcək. Mələklərin xalılarını təzələməsi də Peyğəmbərin qarşılanma mərasiminin tərkib hissəsidir.

Şair beytin ikinci misrasında deyir ki, Ərşin dayaqları üzərində öz çadırını qur. Yəni ən yüksəklərə ucal, Ərşin üzərindəki taxtda otur. Buradakı taxt sözü hakimiyyət mə-

---

[215] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

nasını ifadə edir. Şair deyir ki, merac gecəsi yerin və göyün hakimiyyəti uca Allahın (c.c) buyruğu ilə hz. Məhəmmədə (s.a.s) verilmişdir.

Bir yerdə «çadırını qurmaq» orada yerləşmək deməkdir. Taxtda çadır qurmaq da padşahlara aiddir. **Burada şair «ev tikmək», «saray tikmək» anlayışlarını deyil, «çadır qurmaq» ifadəsini seçmişdir. Bu da merac gecəsinin ruhuna uyğundur. Çünki «çadır qurmaq» müvəqqəti olaraq bir yerdə qalmaq deməkdir.** Merac gecəsi də uca göylərə səfərdir. Peyğəmbər bu səfər zamanı Ərşin taxtında çadır qurmuşdur. Beytdəki «mələklərin xalıları», «ərş», «taxt» kimi anlayışlar ucalıq, hörmət, hakimiyyət mənalarını ifadə edir.

## İYİRMİ YEDDİNCİ ADDIM: ƏRŞİN GÖZLƏRİNİ NURLANDIR

عرش را دیده برفروز به نور
فرش را شقه در نورد ز دور

***Ərşin gözlərini nurla işıqlandır,***
***Fərşin (Yerin) sinəsindən uzaqdan atlanıb keç.***[216]

Hz. Nizami bu beytdə gözəl bir bənzətmə işlətmişdir. Şairin təqdimində «Ərşin gözlərinin nurla işıqlandırılması» sevinci ifadə edir. Göylər uzun müddətdir ki, həsrətlə öz əziz qonağını gözləyir. Şair deyir ki, göyün ən uca zirvəsi olan Ərş sənə həsrətdir, Sən göylərə ucal, Ərş səni görsün və gözü nurlansın. Gözlərin nurla dolması könlün sevincdən fərəhlənməsidir. Sevdiyini həsrətlə gözləyən bir insan ona qovuşanda könlü sevinclə dolur və gözünə işıq gəlir. İndi də bir insan sevdiyinə qovuşanda ona «gözün aydın», «gözlərin nurla dolsun», «gözü dolusu görəsən» kimi alqışlar deyirlər.

[216] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

Sevdiyinə qovuşan insan da həsrət halını ifadə etmək üçün «gözümün kökü saraldı» (yəni nuru itdi), «ağlamaqdan gözüm kor oldu» (yəni işığını itirdi), «gözümə qara su gəldi» (yəni gözüm işığını itirdi), kimi ifadələrdən, qovuşma halını ifadə etmək üçün də «gözümə işıq gəldi», «gözüm nurlandı», «gözümün nuru artdı» kimi ifadələrdən istifadə edir. Deməli, fərəh, qovuşma sevdiyini görmə halıdır. Görmə də nurla gerçəkləşir. Ona görə də, insanın sevdiyi ilə qovuşma halı nurla, işıqla ifadə olunur. Əslində, gözün nurlanması aşiqlik halının ifadəsidir.

Şair deyir ki, göylər, bu sonsuz səmanın ən uca mərtəbəsi olan Ərş Peyğəmbərə aşiqdir, həsrətlə Onu gözləyir. Ey Məhəmməd, Ərşə yüksəl, həsrətə son qoy, Ərşin gözü nurlansın.

Beytin ikinci misrasında şair deyir ki, fərşin sinəsindən uzaqdan atlanıb keç. Şair deyir ki, sevdiyinə qovuşmaq üçün ölçüsü, məkanı, zamanı olan Yer məkanından qurtulmalısan. Burada Yer bir həbsxana, zindan kimi təsvir olunmuşdur. Aşiq zindanda, məşuq sonsuzluq məkanı olan Ərşdə. Sevgiliyə, o uca varlığa, o böyük ilahi nemətə, merac nemətinə qovuşmağın yolu zindandan qurtulmaq, sonsuzluğa ucalmaqdır. Deməli, merac neməti insanı dünya zindanından qurtarmaq nemətidir.

Şair göylərin, Ərşin islam peyğəmbərinə aşiqliyini ifadə etmək üçün səbirsizlik halı yaradır. Peyğəmbərə deyir ki, tez ol, yerin sinəsindən atlanıb keç, Ərşə qovuş. Ərşin həsrətinə son qoyulsun, gözləri nurlansın.

## İYİRMİ SƏKKİZİNCİ ADDIM:
## TACDAR SƏN OLDUN

تاج بستان که تاجور تو شدی
بر سرآی از همه که سر تو شدی

***Tacı al ki (indi) tacdar Sən oldun,***
***Hamıdan başa keç, çünki başçı Sən oldun.***[217]

Bu beyt də müjdə beytləri sırasında yer tutur. Mələk mübarək merac gecəsində Peyğəmbərin tacidar olacağını bildirir. Beytin başlıca ideyası tacidar (taca malik olmaq) olmaq üzərində qurulmuşdur. Şair deyir ki, merac gecəsi Peyğəmbərə hakimiyyət veriləcək. Beytdə hakimiyyət anlayışını təqdim etmək üçün «tac», «tac almaq», «tacdar olmaq», «hamıdan başa keçmək», «başçı» kimi söz və ifadələrdən istifadə edilmişdir.

«Tacidar olmaq» hansı mənada işlədilmişdir? Bildiyimiz kimi, merac dünya, islam və peyğəmbərlik tarixində ayrıca yer tutur. Merac gecəsini həm də bu yöndən dəyərləndirmək olar ki, bu mübarək gecədə son peyğəmbər olmaq səlahiyyəti, tacı böyük bir təntənə ilə hz. Məhəmmədə (s.a.s) təqdim olunmuşdur. Yəni o, merac gecəsinədək son peyğəmbər seçilmişdi, uca Allahdan (c.c) vəhy almışdı, Qurani-Kərimdən surələr, ayələr nazil olmuşdu. Ancaq bu uca Allahın (c.c) verdiyi son peyğəmbər missiyasının təqdimat mərasiminə ehtiyac var idi. Bu prezident seçilmiş bir şəxsə müəyyən müddətdən sonra prezidentlik titulunu təqdim etmə mərasiminin keçirilməsinə bənzəyir.

Bu mənada merac gecəsi həm də bir təqdimetmə mərasimidir. Bu gecə islam Peyğəmbərinin Məkkədən Qüdsə

---

[217] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

aparılması, Məscidi-Əqsada peyğəmbərlərə namaz qıldırması, göyün təbəqələrində ayrı-ayrı peyğəmbərlərlə görüşdürülməsi də bu məqsədə xidmət edir. Yəni son peyğəmbər adı və missiyasının təqdimetmə mərasiminin iştirakçıları peyğəmbərlərdir. Onların iştirakı ilə son peyğəmbər adı və missiyası hz. Məhəmmədə (s.a.s) təqdim olunur, o, «tac alır», başına sultanlıq – son peyğəmbərlik tacı qoyulur, O, tacidar olur, başçı seçilir.

Öncəki beytlərdə təsvir olunmuş ayrıca bir gecənin seçilməsi, Cəbrailin (ə.s) bu iş üçün müəyyən edilməsi, Buraq adlı özəl miniyin ayrılması, Məkkə-Qüds-Ərş yolunun seçilməsi, peyğəmbərlərə namaz qıldırılması, «xüsusi qəsrin gecə keşikçisi olmaq», «altı cəhətin yeddi kökündən qoparılması», «doqquz fələyin çarmıxa çəkilməsi», «iti sürətli, sarımtıl Səmənd atının Səmak ulduzuna «uçması», «mələklərin başının kəməndə salınması», «gecənin ətir saçanlarının – ulduzlarının hazırlıq görməsi, bəzənməsi», «mələklərin Peyğəmbərin görüşünə gedərkən yaşıl paltar geyinməsi», «səma cismlərinin Peyğəmbərə aşiq olması», «göylərə xalı döşənməsi», «üzün bağ çiçəyi kimi təzə-tər olması», «mələklərin xalılarının təzələnməsi», «Ərşin gözlərinin nurla işıqlanması» - bütün bunların hamısı son peyğəmbərlik missiyasını islam Peyğəmbərinə təqdim etmək üçün keçirilən ilahi mərasimin tərkib hissələridir.

Şair bu ideyanı gücləndirmək üçün beytdə «hamıdan başa keç» ifadəsindən istifadə etmişdir. Yəni tacı al, tacdar ol, hamıdan başa keç. Burada «hamıdan başa keç» deyilərkən ilk sırada peyğəmbərlər nəzərdə tutulmuşdur. Artıq peyğəmbərlik tacı, özü də son peyğəmbərlik tacı Sənin başındadır, başçı sənsən, ona görə də başa keç. Bu fikrin doğruluğunun dəlili bir də odur ki, beytdə tac deyilərkən peyğəmbərlik tacı nəzərdə tutulur və bu tac ancaq peyğəmbərlərdə olur.

Uca Allahın (c.c) islam Peyğəmbərinə belə möhtəşəm təqdim etmə mərasimi keçirməsinin səbəbi odur ki, hz. Məhəmməd (s.a.s) son elçidir, bu ilahi mesajın, kitabın tamamlanmasıdır. İnsanı bu dünyada və axirətdə xoşbəxt edəcək, uca Allahın (c.c) razı olacağı insan və ümmət yetişdirəcək dəyər və ölçülərin buyurulmasıdır. Son Peyğəmbər olmaq bir də bu deməkdir.

ما كان محمد أبا أحد من رجالكم ولكن رسول الله وخاتم النبيين وكان الله بكل شيء عليماً

(əl-Əhzab, 33/40)

«Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Ancaq o, Allahın Rəsulu (elçisi) və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir!»

Beytdəki «tac almaq», «tacdar», «tac», «hamıdan başa keç», «başçı» kimi söz və ifadələrinin başqa mənalarını da üzə çıxarmaq olar. Peyğəmbər merac gecəsi tacdardır, başdır, başçıdır. Yəni belə bir mübarək gecə ancaq Ona məxsusdur. Başqa bir məna da odur ki, bu gecənin neməti heç kimə verilməyən bir nemətdir. Sultanın hakimiyyəti, səlahiyyəti, tacı, taxtı, malı, mülkü olar. Merac gecəsinin sultanı hz. Məhəmməddir (s.a.s). Onun hakimiyyəti yeri və göyü əhatə edir, Onun taxtı Ərşin dayaqlarının üzərində qurulmuşdur. Bu sultanın tükənməyən, insanları xoşbəxt edən bir mülkü, neməti var – merac neməti. Bu nemətə sahib olan insan uca Allahın (c.c) razı olduğu insandır. İnsanlar sultanları sultanın onlara verdiyi nemətə (imkan, ədalət, gözəl yaşayış) görə dəyərləndirərlər. İslam Peyğəmbəri Onu sevənlərin könlünün sultanıdır, O, bizə – ümmətə merac gecəsi mübarək nemət gətirmişdir. Bu nemət ümmətin bu dünya və axirət xoşbəxtliyinin təminatıdır.

# İYİRMİ DOQQUZUNCU ADDIM:
# HƏR İKİ CAHANI CÖVLAN ÜÇÜN ÖZÜNƏ XAS ET

سر برآور به سر فراختنی
دو جهان خاص کن به تاختنی

***Başıucalıq ilə başını yüksəlt,***
***Hər iki cahanı cövlan üçün özünə xas et!***[218]

Bu beytdə mübarək mələk Cəbrail (ə.s) islam Peyğəmbərinə müjdələr verir, Onu ruhlandırır, Onun ümidlərini artırır, Onu gördüyü işlərin doğruluğuna inandırır. Bu məqsədlərin gerçəkləşməsi üçün mələk nə edir? Mələk Peyğəmbərə deyir ki, Sənin başın ucadır, başını yüksəlt. Çünki Sən doğru yoldasan. Adətən başın aşağı olması, önə əyilməsi məğlubiyyət, küskünlük halını ifadə edir. Merac hadisəsinin baş verdiyi dövrü yada salsaq, o dönəmdə Peyğəmbərin çox üzüldüyünü, özünü tənha hiss etdiyini, din düşmənlərinin Ona çox əziyyət verdiyini görərik.

Belə bir anda mələk Onun yanına gəlir və başını dik tut deyir. Bir insan doğru yolda olanda, gördüyü işlərin faydalı olduğu qəbul ediləndə ona belə deyirlər: «alnın açıqdır, üzün ağ», «başını dik tut», «üzün ağ olsun», «başın uca olsun», «başın önünə əyilməsin». Bu alqışlar insana ruh verir, Onu həvəsləndirir, Onu daha böyük işlərə yönəldir. Mələk də Peyğəmbərə gözəl bir xəbər verir, Ona başın uca olsun deyir, başını dik tut, sən doğru yoldasan və qalib gələcəksən müjdəsini çatdırır.

Mələk, Peyğəmbərlə dialoqunu davam etdirir, Ona daha böyük müjdə verir. Ona deyir ki, bu dünyanın və axirətin sultanı Sən olacaqsan. Bu dünya və axirət Sənin atının cövlan

---

[218] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

etdiyi məkan olacaq. Bu dünyada və axirətdə uca Allahın (c.c) ən əziz adamı Sənsən, hakimiyyətin böyük, meydanın genişdir, atını bu böyük məkanda cövlan etdir. Yəni islam Peyğəmbərinin təbliğ etdiyi dəyərlər insana və ümmətə bu dünya və axirət səadətini qazandıracaq, uca Allahın (c.c) razı olacağı mömin insanlar yetişdirəcək nemətdir.

## OTUZUNCU ADDIM: O ƏBƏDİNİN DƏRGAHINA YÖNƏL

راه خویش از غبار خالی کن
عزم درگاه لایزالی کن

***Öz yolunu tozlardan təmizlə,***
***O Əbədinin dərgahına yönəl.***[219]

Bu beytdə mələk islam Peyğəmbərini cəsarətləndirir. Ona deyir ki, sən öz yolundan dönmə, onun doğruluğuna əmin ol. Mələyin dediyi yol uca Allahın (c.c), islamın yoludur, doğru yoldur. O yol ki, onunla gedəni doğru mənzilə, təhlükəsiz məkana aparır. Bu yolun xəritəsi Qurani-Kərimdə verilmişdir.

الْحمد للّه رب الْعالَمين الرحمـن الرحيم . مالِك يومِ الدين. إياك نَعبد وإياك نَستَعين . اهدنَـا الصراطَ المستَقيم . صراط الذين أَنعمتَ علَيهِم غَيرِ المغضوبِ علَيهِم ولاَ الضالين .

(əl-Fatihə, 1/1-7)

«Mərhəmətli, rəhmli Allahın adı ilə. Həmd (şükür və tərif) olsun Allaha – aləmlərin Rəbbinə. (Bu dünyada hamıya) mərhəmətli, (axirətdə isə ancaq möminlərə) rəhmli olana. Haqq-hesab (qiyamət) gününün sahibinə! Biz yalnız

---

[219] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik! Bizi doğru (düz) yola yönəlt! Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!»

Burada nemət verdiyin kəslərin yolu ağıl, iman, elm verilənlərin yolu deməkdir. Beytdə də «yol» coğrafi məkanı deyil, imanı, elmi, islama bağlı düşüncəni ifadə edir. Yəni sənə verilən iman, elm doğrudur və bu imanı, bu elmi, islamı inkar edənləri yolundan təmizlə, onlar sənin və sənin təmsil etdiyin dinin məğlub olmasını istəyirlər.

**Şair islam Peyğəmbərinin yolunu kəsənləri, Onun gətirdiyi imanı, elmi, islam düşüncəsini inkar edənləri «toz» adlandırmışdır. Toz fiziki mənada yol anlayışına bağlıdır. Toz yolda rahat hərəkətə mane olur, yolçunun üst-başını çirkləndirir, küləkli havada yolçunun gözünə dolur, insanın getdiyi yolu azmasına səbəb olur, tozun tərkibinə müxtəlif mikroblar qarışır və insana ziyan verir. Mənəvi baxımdan isə toz düşüncənin, imanın, həyatla bağlı anlayışın çirklənməsi, fitrətin pozulması, hərəkətsizlik deməkdir. Təsadüfi deyil ki, doğru düşünə bilməyən adamla bağlı «onun düşüncəsini toz basıb» deyirlər. Tozlu yol gediş-gəlişi olmayan yol, tozlu düşüncə hərəkətsiz, doğrunu anlamaq imkanı olmayan düşüncə deməkdir.**

Şair deyir ki, ey Məhəmməd (s.a.s), Sənin doğru yolunda Sənə mane olanlar, Sənin dininin təbliğinin qarşısını alanlar, islamın nurunun insanlara çatmasına mane olanlar «tozlar»dır. Uca Allahın (c.c) buyruğu ilə bir iman, hidayət küləyi əsəcək və «tozları» heçliyə sovuracaq.

Şair misrada islam Peyğəmbərinə deyir ki, «tozları» yolundan təmizlə. Burada «təmizlə» əmri «öz yolundan dönmə», «əsla onlara baş əymə», «ruhdan düşmə», «bezmə» kimi mənaları ehtiva edir.

Doğru yol insanı uca Allahın (c.c) hüzuruna – O uca varlığın mömin qulları üçün hazırladığı məkana aparan yoldur. Ancaq bu yolda çoxsaylı çətinliklər var: nəfs, şeytan, müşrik, kafir bu yolun önünü kəsən güclərdir. İnsan bu yolun çətinliklərindən xilas olub, düşmənlərini məğlub edib uca Allahın (c.c) dərgahına yönəlmək istəyirsə, sarsılmaz iman, doğru elm, gözəl əxlaqla silahlanmalıdır. Şair mələyin dili ilə deyir ki, Sən doğru yolunu «tozlardan» təmizlə və Əbədinin dərgahına yönəl. Mələk islam Peyğəmbərinə güc verir. Ona deyir ki, bu «tozlar» keçicidir, bu çətinliklər təbiidir, Onlar səni böyütmək üçündür, əbədi olan ancaq uca Allahdır (c.c). Sən bu ağır mübarizənin mükafatını o Əbədinin dərgahında alacaqsan.

## OTUZ BİRİNCİ ADDIM:
## HƏR İKİ ALƏMDƏ BAYRAĞIN RƏVAN OLSUN

تا به حق‌القدوم آن قدمت
بر دو عالم روان شود علمت

***Ta ki qədəmlərinə qədəmhaqqı olmaq üçün,***
***Hər iki aləmdə bayrağın rəvan olsun.***[220]

Mələk öncəki beytdə Peyğəmbəri uca Allahın (c.c) dərgahına yönəlməyə dəvət edir. Ona deyir ki, sən merac gecəsi uca Allahın (c.c) dərgahına ucalmaq üçün göyün təbəqələrindən keçəcəksən. Bütün göy cismləri Səni qarşılamaq üçün hazırlıq görürlər. Sənin mübarək qədəmlərin uca göyün türrələrinə toxunacaq, onlara təravət bəxş edəcək. Sənin qədəmlərin mələklərin təzələdiyi xalıların üstündə gəzəcək, Ərşin taxtında oturacaqsan və qədəmlərin Ərşə

[220] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

toxunacaq, Yer və göylər Sənin ayaqlarının altında qalacaq, Sənin qədəmlərin ulduzların pərdəsini cıracaq, «Ərşin yaxası onun ətəyinə toxunacaq», «Yolçusu olmayan bir yola düzələcəksən», «Onun bu qədəminin o qədəmindən xəbəri yox idi», «Onun qədəmləri varlığın başına tac olacaq», «Ərşin Onun qədəmlərinə ehtiyacı var idi», «O irəliləyir, ancaq ayaqlarının zəhmətini hiss etmirdi», «Ayaqları qanadlanıb göylərə pərvaz etdi», «Gecə Sənin dünyanı işıqlandıran qədəminlə gündüzə dönəcək», «İsrafil ayaqlarına döşənəcək», «O Sidrəyə qədəm basacaq», «Onun addımları sürətindən, Onun dayanması sıçrayışından qabağa düşürdü», «Onun ayağının sürəti baxışı belə ötüb keçirdi», «O yeddi səyyarənin dənizinə çatanda orada ayağının toz-torpaqlarını yudu», «Onun hərəkətinin fövqəladə sürətindən ətrafındakılar onun heç tozunu da görmədilər». Bütün bu deyilənlər merac gecəsi islam Peyğəmbərinin qədəmlərinin hərəkət sürətini, Peyğəmbərin uca Allah (c.c) sevgisini (sevən sevdiyinin görüşünə qaça-qaça, uça-uça gedər) ifadə edir.

Şairin təqdimində, sanki, bütün səma cismləri Onun mübarək ayağına döşənmişdir, Ona qədəmlərin mübarək deyirlər. Şairə görə, islam Peyğəmbərinin qədəmlərinin səma cismlərinə toxunması onlar üçün şərəfdir, çünki Peyğəmbər bu qədəmlərlə Əbədinin dərgahına gedir. Göylərin Peyğəmbərin qədəmlərinə minnət borcu var.

**Şair deyir ki, islam Peyğəmbəri merac gecəsi uca Allahın (c.c) dərgahına gedir. Onun bu mübarək səfəri ümmətin nicatı üçündür. O, ümmətinə merac neməti gətirəcək. Bu mübarək yolçuluq, onun hər bir addımı insanlıq naminə atılmışdır. Şairə görə, Onun qədəmlərinin qədəm haqqını heç kəs ödəyə bilməz. Onun ümmət üçün gördüyü işin bir mükafatı var. Uca Allah (c.c) hər iki aləmdə Onun bayrağını rəvan edəcək, yəni dalğalandıracaq.**

Şair «iki aləm» deyərkən bu dünya və axirəti nəzərdə tutmuşdur. Hər iki aləmdə «bayrağın dalğalanması» hakimiyyət, qələbə, fəth deməkdir. Yəni O, bu dünyanın və axirətin sultanıdır. Ümmət yolunda atılmış hər bir addımın mükafatı hər iki aləmdə bayrağın dalğalanmasıdır. Gerçəkdən də, harada islam nuru varsa, harada uca Allah (c.c) sevgisi varsa, harada ədalət varsa, orada hz. Məhəmmədin (s.a.s) bayrağı dalğalanır. Uca Peyğəmbər axirətdə də əlində bayraq olacağını özü bildirmişdir.

## OTUZ İKİNCİ ADDIM:
## ƏRŞİN XƏLVƏTXANASI SƏNİN YERİN OLDU

خلوتگه عرش گشت جایت
پرواز پری گرفت پایت

*Ərşin xəlvətxanası sənin yerin oldu,*
*Ayaqların qanadlanıb göylərə pərvaz etdi.*[221]

Biz öncəki beytlərin şərhində bildirmişdik ki, islam alimlərinə görə mülk aləminin ən uca təbəqəsi Böyük Ərşdir. Böyük Ərşin nur və əzəmətini anlatmaq mümkün deyil. Böyük Ərşin ətrafı qırmızı yaqutdandır, bütün yaradılmışların sifətləri orada nəqş olunmuşdur. Böyük Ərş mələklərin qibləsidir. Onun dörd dirəyi var və dörd böyük mələk onu daşıyır.

Şair mələyin dili ilə deyir ki, merac gecəsi islam Peyğəmbərinin yeri Ərşin xəlvətxanasıdır. Burada Ərşin xəlvətxanası bir neçə mənada işlənmişdir. Ərşin xəlvətxanası, yəni ən gizli, heç kimin görə bilməyəcəyi yer. Şairə görə, merac gecəsi islam Peyğəmbəri elə uca zirvəyə yüksəlmişdir ki, o

[221] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

yerə kimsənin ucalması, o yeri kimsənin görməsi mümkün deyil. Şairin təqdiminə görə, Ərşin xəlvətxanası merac gecəsi uca Allahla (c.c) islam Peyğəmbərinin ünsiyyət yeridir. Bu ünsiyyətə başqa birinin qarışması mümkün deyil. Şairə görə, Ərşin xəlvətxanası merac gecəsi uca Allahın (c.c) islam Peyğəmbərinə bizim sonradan bildiyimiz və bilmədiyimiz nemətlər verdiyi yerdir. Ərşin xəlvətxanası merac gecəsi Böyük Ərşin islam Peyğəmbəri üçün hazırlanmış ayrıca bir hissəsidir.

Şair beytin birinci misrasında Ərşin xəlvətxanasından danışır, ikinci misrada isə bildirir ki, Peyğəmbərin ayaqları qanadlanıb göylərə pərvaz etdi. Mələk Peyğəmbərə gözəl bir müjdə verir və o sevinir. Şair Peyğəmbərin sevinc halını ifadə etmək üçün deyir ki: «Onun ayaqları qanad açdı». İnsan çox sevindiyi bir xəbər eşidəndə, sanki, ayaqları yerə dəymir, bir quş olub uçmaq istəyir, ayaqlar yerimir, elə bil ki, uçur. İnsan sevdiyinin yanına gedəndə, sevdiyi bir işi görəndə yolun uzaqlığı, işin çətinliyi duyulmur. Peyğəmbər də mələyin müjdəsi ilə merac gecəsi yerinin Ərşin xəlvətxanası olduğunu biləndə ayaqları qanad açır, göylərə pərvaz edir.

## OTUZ ÜÇÜNCÜ ADDIM: GÖY SƏNİN QULLUĞUNA HAZIRDIR

جبریل رسید طوق در دست
کز بهر تو آسمان کمر بست

***Cəbrail əlində halə gəlib (dedi),***
***Asiman (göy) Sənin qulluğuna hazırdır.***[222]

Bu beytdə şair mələk Cəbrailin (ə.s) gəlişini ayrıca vurğulamışdır. Vəhy mələyi, dörd böyük mələkdən biri olan Cəbrailin (ə.s) uca Allahın (c.c) buyruğu ilə merac müjdəsi-

[222] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

ni hz. Məhəmmədə (s.a.s) çatdırması hər şeyin sahibi olan Allahın (c.c) islam Peyğəmbərinə olan sevgisinin, etibarının, ona verdiyi dəyərin göstəricisidir. Şairin dəyərləndirməsinə görə, Cəbrail (ə.s) sevinc içindədir. Bu sevincin səbəbi Onun həm uca Allahdan (c.c) buyruq alması, həm hz. Məhəmmədin (s.a.s) görüşünə getməsi, həm də merac müjdəsini çatdırmaq vəzifəsi ilə şərəfləndirilməsidir.

Beytdə Cəbrailin (ə.s) sevincinin göstəricisi Onun əlində halə tutmasıdır. Burada «halə tutmaq» bir neçə mənada anlaşıla bilər. Bizcə, «halə tutmaq» ifadəsini merac müjdəsi, bir dəstə gözəl gül, uca Allahın (c.c) buyruğu yazılmış barat, hz. Məhəmmədə (s.a.s) olan dəvət məktubu kimi dəyərləndirmək olar.

Mələk əlində «halə tutaraq» Peyğəmbərə deyir ki, göylər Sənin qulluğunda hazırdır. Yəni göyün bütün təbəqələri və bu təbəqələrdə olan səma cismləri Sənin gəlişini gözləyir, Sənin üçün bəzənmişdir: **«hər iki cahanın gözü sənə dikilib», «bütün səma cismləri Sənə səcdə üçün başını əyib», «gecə çox ətirlənib», «bütün səma cismləri Onun gəlişi xəbəri ilə bir-birini muştuluqlayır», «Cənnətə bənzər bağın güllərindən yer üzü bahar rənginə boyanıb», «gecə gündüzə çevrilib», «sərv belə, gül açıb», «mələklər Onun bayrağını çiynində daşımağa hazırlaşır», «Gecənin göbəyi Onun dodaqlarından tökülən müşklə dolub», «iti sürətli, kəklik yerişli, göyərçinəbənzər Buraq Onun əmrini gözləyir», «göylər firuzə rəngli fərşlərlə bəzənib», «Ay, Günəş Onun intizarındadır», «Utaridin dəftərində adının hərfləri ilə dəvətinin rəmzi yazılmışdır», «Zöhrənin başında hədiyyə tabağı var», «Günəş Onun yolunu təmizləməkdən hilal şəklinə düşmüşdür», «Mərrix Onun gözətçisi olmağa hazırlaşır», «Müştəri Onu pis gözdən qorumaq duası oxumağa hazırlaşır», «Keyvan qulağında halqa olan qul kimi onu**

**gözləyir», «Mikail Səni qanadlarına almağa hazırlaşır», «İsrafil ayaqlarına döşənməyə hazırlaşır», «yaşıl geyimli mələklər Səni gözləyir», «gecənin ətir saçanları Ona hazırlıq görürlər», «mələklərin xalıları təzələnmişdir», «Yeddi sultanın qəsrindən asılmış pərdə üstü gövhərlərlə bəzədilmiş Çin ipəyindən idi», «Cənnət bağının yaşıl don geyənlərinin başçısı bütün çəmənlikləri yaşıllıqla bəzəmişdi», «O gecə gecə rəngli Buraq gecə otlağında məst olmuşdu», «Göylər onun əlindən alaraq təzə don geyməyə hazırlaşırdı»…**

Şairin təqdimində göylər merac gecəsi hz. Məhəmmədin (s.a.s) qulluğunda hazırdır deyilərkən yuxarıdakı parlaq mənzərə, şahanə qarşılama nəzərdə tutulur.

## OTUZ DÖRDÜNCÜ ADDIM: HAMI SƏNİN TAMAŞANA DURMUŞDUR

بر هفت فلک دو حلقه بستند
نظاره تست هر چه هستند

*Yeddi fələkdə halqa vurmuşlar,*
*Hamı sənin tamaşana durmuşdur.*[223]

Bu beytdə mələk, islam Peyğəmbərinə göylərin onu qarşılamağa hazırlaşdığını başqa bir biçimdə xəbər vermişdir. Mələk deyir ki, səma cismləri Peyğəmbəri qarşılamaq üçün yeddi fələkdə halqa qurmuşlar. Burada yeddi fələk deyilərkən göyün yeddi təbəqəsi nəzərdə tutulmuşdur. Yəni göyün yeddi təbəqəsində olan bütün səma cismləri bir sıraya düzülmüşlər. Burada «halqa vurmaq» əl-ələ tutub dairə şəklində düzülmək, bir sırada olmaq mənasındadır. Bayram,

[223] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

şənlik zamanlarında insanlar sevincini ifadə etmək üçün əl-ələ tuturlar, birgə hərəkət edirlər, eyni duyğuları paylaşırlar, bayram ovqatı onları birləşdirir, birlik, bərabərlik duyğusu yaradır. Şairin təqdimində bütün göy cismləri merac gecəsindən və bu mübarək gecənin sultanının səfərindən xəbərdardır. Bu gecə göylərin bayram gecəsidir. Səma cismləri dairə-dairə düzülərək şənlik edirlər, Peyğəmbəri qarşılamağa hazırlaşırlar.

Bununla birgə, yeddi fələkdə halqa vurmaq anlayışının astronomiyaya bağlı əsası da var. Belə ki, əski astronomiya elminə görə, göy üzündə on böyük dairə var:

**Birinci dairə – Göy ekvator dairəsidir.** Bu dairəyə bərabərləşdirici dairə deyilir. Çünki Günəş bu dairədə olanda qütblərdən başqa, hər yerdə gecə ilə gündüz təxminən bərabər olur.

**İkinci dairə – Bürclər dairəsidir.** On iki bürcün üzərindədir. Günəş bu dairədə olanda dünyanın insan yaşayan bölgələrinin çoxunda yaz və payız fəsli olur.

**Üçüncü dairə – Dörd qütbdən keçən dairə.** Göy ekvatorunun iki qütbü ilə bürclər dairəsinin iki qütbündən keçdiyi üçün dörd qütbdən keçən dairə adlanır.

**Dördüncü dairə – Üfüq dairələri.** Dəyişən böyük dairələrdir. Üfüq dairəsi ilə göy ekvator dairəsinin kəsişdiyi nöqtələr o yerin şərq və qərb nöqtələridir.

**Beşinci dairə – Meridian dairələri.** Dəyişən böyük dairələrdir. Bu dairələrin qütbləri şərq və qərb nöqtələridir. Günəş bu dairə üzərinə gələndə günorta zamanı olur.

**Altıncı dairə – Yüksəklik dairəsi.** Başlanğıcı, sonu və Yerin mərkəzi ilə Günəş, ya da bir ulduzun mərkəzini birləşdirən, dəyişən dairələrdir.

**Yeddinci dairə – Səmtlərin başlanğıc dairəsi.** Başlanğıcı, sonu şərq və qərb nöqtələrindən keçən dairədir.

**Səkkizinci dairə – Saat dairələri.** Ekvatorun iki qütbündən və bir ulduzdan keçən, dəyişən böyük dairədir. Bu dairə ilə ulduzun ekvatordan yüksəkliyi və yaz nöqtəsindən keçən saat dairəsi ilə arasında olan meyil müəyyən edilir.

**Doqquzuncu dairə – En (ərz) dairəsi.** Bürclər dairəsinin qütblərindən keçir. Ekliptik koordinatorlarda istifadə olunur.

**Onuncu dairə – Görünən göy ortası dairəsi.** Üfüq və bürclər dairəsinin qütbündən keçir.

Şair beytin ikinci misrasında deyir ki, göyün yeddi qatında dairə-dairə düzülən, «halqa vuran» səma cismlərinin hamısı Sənin tamaşana durmuşlar. Beytdə «tamaşaya durmaq» ifadəsi heyrəti, sevgini, sevgilini görmək istəyini, özünü unudaraq sevgiliyə baxmaq halını, baxılan mənzərənin çox gözəl olduğunu təqdim edir. Səma cismləri islam Peyğəmbərinə elə aşiq olmuşlar ki, heyranlıqla gözlərini Ondan çəkə bilmirlər. «Tamaşa etmək» düşüncə və könlündə sevdiyini düşünərək, gözündə yalnız onu görərək aşiq olmaqdır.

## OTUZ BEŞİNCİ ADDIM: AY SƏNİN İNTİZARINDADIR

برخیز هلا نه وقت خوابست
مه منتظر تو آفتابست

*Tez qalx, yatmaq vaxtı deyil,*
*Ay, Sən günəşin intizarındadır.*[224]

Şair bu beytdə merac gecəsinin ruhuna uyğun gözəl bir mənzərə yaratmışdır. Şair gecə təsəvvürü yaratmaq üçün «qalx» felindən, «yatmaq vaxtı deyil» ifadəsindən, Ay obrazından istifadə etmişdir. Merac gecəsidir, mələk deyir ki, ey

---

[224] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

Məhəmməd (s.a.s), qalx, yəni oyan. Burada «qalx» feli bir neçə mənanı ifadə edir. «Qalx», oyan, yəni bu gecə adi bir gecə deyil, merac gecəsidir. «Qalx», oyan, yəni bu gecə Sənin gecəndir, Səni önəmli görüşlər gözləyir. «Qalx», oyan, yəni gözəl xəbərlər, müjdə var. «Qalx», oyan, yəni həll olunması zəruri olan məsələlər var. Beytdə «qalx» feli əmr çalarında deyil, önəmli bir hadisənin baş verdiyini bildirmək üçün istifadə edilmişdir. Şair «tez qalx» müraciət şəklini seçməklə merac gecəsinin önəminə də işarə etmişdir. Şair deyir ki, bu mübarək gecədə Sənin yolunu həsrətlə gözləyənləri intizarda qoymaq olmaz.

Şair beytin ikinci misrasında islam Peyğəmbərini günəşə bənzətmişdir. Şair deyir ki, Ay, günəş olan Peyğəmbərin intizarındadır, Onun yolunu həsrətlə gözləyir. Burada ən önəmli məsələ odur ki, Peyğəmbərin günəşə bənzədilməsi ənənəvi təşbehlərdən fərqlənir. Şair demək istəyir ki, merac gecəsidir, göylərə səfər var, səmadakı Ay onun yolunu gözləyir. **Bildiyimiz kimi, Ay planetinin öz işığı yoxdur, o işığını Günəşdən alır. Merac gecəsi də ən çox Ay darıxır, çünki onun işıq alacağı Günəş yoxdur. Günəş-Peyğəmbər Yer planetindədir. O günəş kimi Peyğəmbər göylərə ucalmalıdır ki, Ay da Ondan nur alıb işıq saçsın. Ayın darıxmağının səbəbi budur.**

Şair deyir ki, «tez qalx, yatmaq vaxtı deyil», yəni bu gecə, ey Məhəmməd (s.a.s), birbaşa sənə aid iş var. Bu gecə yerin və göyün Sənə ehtiyacı var. Əgər, Ay günəş kimi olan Peyğəmbərin yolunu gözləyirsə, deməli, şairə görə, göy üzü qaranlıq içindədir, Günəş olan Peyğəmbərin nuru ilə merac gecəsi bütün səma nura boyanacaq. Merac gecəsi günəş olan Peyğəmbər göylərdən elə bir nemət gətirəcək ki, yer üzündə yaşayan insanlar bu nemətin nuru ilə aydınlığa qovuşacaq.

Mələyin «tez qalx, yatmaq vaxtı deyil» istəyi, təkidi «ey Peyğəmbər, merac səfərinə çıx və kainatı xilas et!» deməkdir.

## OTUZ ALTINCI ADDIM: UTARİDİN DƏFTƏRİNDƏ DƏVƏTİNİN RƏMZİ YAZILMIŞDIR

در نسخ عطارد از حروفت
منسوخ شد آیت وقوفت

***Utaridin dəftərində (adının) hərfləri ilə***
***Dəvətinin rəmzi yazılmışdır.***[225]

Şair bu beytdə mələyin dili ilə islam Peyğəmbərinə müjdə verilməsini təsvir edərkən Utarid-Merkuri fələyinin, planetinin adını çəkmişdir. Burada bir məsələyə toxunaq ki, hz. Nizami qədim astronomiya elmini çox gözəl bilib. Bunun sübutunun biri də odur ki, şair merac gecəsi müjdə xəbərini təqdim edərkən fələklərin – planetlərin yerdən başlayaraq sırasını ardıcıl vermişdir: Ay, Utarid (Merkuri), Zöhrə (Venus), Günəş (Şəms), Mərrix (Mars), Müştəri (Yupiter), Keyvan (Zühal, Saturn). Bundan başqa, şair hər bir planetin xarakterini dəqiq bilmişdir.

Şair öncəki beytdə Ay fələyinin adını çəkmiş, bu planetin özəlliyindən istifadə edərək beytin ideyasını açıqlamışdır.

Bu beytdə isə Utarid (Merkuri) fələyinin adını çəkmişdir. Utarid fələyinin sırası Ay fələyindən sonradır. Zöhrə fələyinin altında yerləşir. Öz fələyində təkbaşına hakimdir. Qarışdırıcı (arapozan) adı ilə tanınır. Bu fələyin vəziyyəti başqa fələklərə ziddir. Bu fələyin özünün də dörd

---

[225] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

fələyi var. Utarid hər bürcdə on yeddi gün qalır. Tərəddüd etdiyi bürcdə iki ay qalır. Bir ildə dövrəsini Günəş ilə birlikdə tamamlayır. Utarid fələyi içi dolu (bütöv), işıqlı bir kürə şəklindədir. Utaridin hərəkəti və Günəşlə olan əlaqəsi Zöhrə fələyi kimidir. Ancaq Utaridin hərəkətində geri dönmə müddəti iyirmi bir gündür. Utarid, Günəşə daha yaxındır. Utaridin (Merkuri) təbiəti soyuq və qurudur. Erkək cinsinə və gündüzə aid edilmişdir. Özəllikləri: ədəb, anlayış, duyğu gücü, zehin, qavrayış, danışmaq, bəlağət, nəqş, kitab, hesab, dəqiqlik, zəka, diqqət, yumuşaqlıq, hünər, sənət, hiylə, xəyanətdir. Bazar gecəsi və çərşənbə gününə hakimdir.

Şair deyir ki, Utarid (Merkuri) fələyinin dəftərində adının hərfləri ilə dəvətinin rəmzi yazılmışdır. İslam Peyğəmbərinə dəvəti uca Allah (c.c) göndərmişdir. **O, çox hörmətli bir qonaq olduğuna görə, dəvəti xüsusi hazırlanmışdır. Dəvətinin rəmzi Utarid fələyinin dəftərinə yazılmışdır. Utarid dolu kürə şəklindədir, işıqlıdır. Utaridin özəllikləri sırasında kitaba, nəqş etmək peşəsinə, gözəl sənətlərə meyil ayrıca yer tutur. Yəni doğuluşunda (uşaq ana bətninə düşərkən) bu fələyin təsiri olan insanlarda kitaba, nəqqaşlıq sənətinə, sənətkarlığa, gözəl sənətlərə meyil olur. Onların içərisindən gözəl sənətkarlar yetişir.**

Peyğəmbərə olan merac dəvəti də uca məqamdan gəldiyinə görə, Onun adı gözəl xətlə işıqlı Utarid fələyinə – Utarid adlı dəvətnaməyə nəqş olunmuşdur.

Şair deyir ki, Onun dəvətinin rəmzi adının hərfləri ilə nəqş olunmuşdur. Yəni Onun dəvətinin rəmzi ərəb hərfləri ilə «Məhəmməd» (محمد) sözüdür. «Məhəmməd» uca Allahı (c.c) çox həmd edən deməkdir. Deməli, Onun dəvətinin rəmzi «çox həmd etmək»dir. O, uca Allahı (c.c) ən çox tanıyandır və o, uca varlığa ən çox həmd söyləyəndir. Merac gecəsi hz. Məhəmməd (s.a.s) göylərə ucaldılarkən hər göy

təbəqəsinin qoruyucusu (qapıçısı) Cəbraildən (ə.s) yanındakının kim olduğunu soruşur. Mələk yanındakı «Məhəmməddir» deyən kimi göyün qapısı açılır. Çünki merac dəvətinin rəmzini (parolunu) bütün mələklər bilir.

## OTUZ YEDDİNCİ ADDIM: ZÖHRƏNİN BAŞINDA HƏDİYYƏ TABAĞI VAR

زهره طبق نثار بر فرق
تا نور تو کی برآید از شرق

***Zöhrə hədiyyə tabağı başında,***
***(Gözləyir ki,) nurun nə vaxt Şərqdən görünəcək.***[226]

Bu beytdə şair mələyin dili ilə Peyğəmbərə müjdə xəbərini verərkən Zöhrə (Venus) fələyinin adını çəkmiş və onun özəlliklərindən istifadə etmişdir. Zöhrə fələyi göyün üçüncü qatında yerləşir. Zöhrə öz fələyində təkbaşına hakimdir. Zöhrə ulduzunun bir adı da «kiçik xoşbəxtlik»dir. Onun üç fələyi var. Zöhrə fələyi dolu bir kürə şəklindədir və parlaqdır. Zöhrə fələyinin təbiəti mötədil, soyuq və rütubətlidir. O, dişi cinsinə və gecəyə aid edilmişdir. Bu ulduza baxmaq qəlbə fərəh verir. Zöhrə fələyinin özəllikləri: yumuşaq, dostluq, riqqət, yaxınlaşma, fərəh, istək, cilvə, oyun, sağlamlıq, gözəl yaradılışdır.

**Göründüyü kimi, Zöhrə fələyinin ən açıq özəlliyi onun kiçik xoşbəxtlik adlandırılması, parlaqlığı, son dərəcə gözəl olması və qəlbə fərəh verməsidir. Zöhrə fələyinin bir dənə də olsun mənfi əlaməti yoxdur.**

Şair deyir ki, Zöhrə hədiyyə tabağı başında islam Peyğəmbərinin gəlişini gözləyir, Ona hədiyyə verməyə ha-

---

[226] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

zırlaşır. Bu təsviri iki cür yozmaq olar: **Uca Allah (c.c) göylərdəki bütün cismlərə, mələklərə göstəriş vermişdir. Bütün səma cismləri və mələklər hz. Məhəmmədi (s.a.s) qarşılamağa hazırlaşır (bu hazırlığın necə olduğunu biz öncəki beytlərdə şərh etmişik). Zöhrə son dərəcə gözəl olduğuna, qəlbə fərəh verdiyinə, kiçik xöşbəxtlik adlandırıldığına görə, islam Peyğəmbərinə hədiyyələr təqdim etmək ona tapşırılmışdır. Bu mənada Zöhrənin hədiyyə tabağı təqdim etməsi göylərin Peyğəmbərin gəlişindən doğan sevincini, xöşbəxtliyini ifadə edir.** Zöhrə fələyini görəndə insanların qəlbi fərəhləndiyi kimi, hz. Məhəmmədi (s.a.s) görəndə də səma cismləri sevincə qərq olur.

Başqa bir məna da budur ki, Zöhrə öz gözəlliyini islam Peyğəmbərinin nurundan almışdır. Zöhrə bunu bildiyinə görə, təşəkkür etmək üçün hədiyyə tabağı başında Peyğəmbərin yolunu gözləyir. Peyğəmbər Günəş kimi Şərqdən göylərə yüksələcək və Onun nuru səmanı nura qərq edəcək. Bu nur Onun gəlişinin əlamətidir və Zöhrə fələyi Onu qarşılayıb hədiyyə tabağını təqdim edəcək.

## OTUZ SƏKKİZİNCİ ADDIM: GÜNƏŞ HİLAL ŞƏKLİNƏ DÜŞƏRƏK SƏNİN YOLUNU TƏMİZLƏMİŞDİR

خورشيد به صورت هلالى

زحمت ز ره تو كرده خالى

***Günəş hilal şəklində (hilal şəklinə düşərək),***
***Sənin yolunu zəhmətdən (maneədən) təmizləmişdir.***[227]

Şair bu beytdə müjdə xəbərini verərkən Günəş fələyinin özəlliklərindən istifadə etmişdir. Günəş fələyi göyün dördüncü qatında yerləşir. Bu fələk göylərin böyük sultanı

[227] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

adlanır. Kainatı nura qərq edən, böyük nur adlanan Günəş bütün ulduzlardan şöhrətli, nurlu və böyükdür. Gecə, gündüz, aylar, zamanlar onun hərəkəti ilə müəyyən edilir. Günəş yeddi fələyin ortasındadır. Həm özündən aşağıda, həm də yuxarıda olan fələkləri nurlandırır. Günəşin təbiəti isti və qurudur, erkək cinsinə və gündüzə aiddir. Başlıca özəllikləri: güc, şiddət, qəhr, hirs, rəğbət, yumuşaqürəkli olmaq, duyğu, həya və iffətdir. Bazar günü və çərşənbə gecəsinə hakimdir. Onun təsiri açıq görünür. Bütün fələklərdən böyük, bütün ulduzlardan parlaqdır, Ay işığını ondan alır. Yer kürəsini isidir, dənizlərdən buxarlanan sular göydə soyuq təbəqələrdə bulud və yağış olub yer üzünə həyat verir. Onun təsiri ilə bitki, çiçək, ağac, meyvə olur. Yağış və qar çaylara, dənizlərə, okeanlara çevrilir. Günəşin doğması ilə insan və təbiət güclənir, yeni həyat başlayır.

Şair deyir ki, Günəş hilal şəklinə düşərək Sənin yolunu zəhmətdən təmizləmişdir. Burada Günəşin hilal (aypara) şəklinə düşməsi onun çox zəhmət çəkməsi anlamındadır. Günəş göylərin sultanıdır, böyük işıqdır, ancaq o, Peyğəmbərin yolunu maneələrdən təmizləmək üçün çox işləmişdir, enerjisini itirmişdir, hilala çevrilmişdir. Bu Günəşin Peyğəmbərə olan sevgisinin göstəricisidir. Günəş Peyğəmbəri sevdiyinə görə, Onun zəhmət çəkməsini istəmir, bütün işləri özü görür, Onun yolunu təmizləyir. İndi Peyğəmbərin uca göylərə yüksəlməsi üçün heç bir maneə yoxdur, yollar açıqdır.

## OTUZ DOQQUZUNCU ADDIM: MƏRRİX GÖZƏTÇİLƏRİNDƏN BİRİDİR

مریخ ملازم یتاقت
موکب رو کمترین وشاقت

***Mərrix gözətçilərindən biridir,***
***Ən kiçik nökərin kimi yanınca gedir.***[228]

[228] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

Şair bu beytdə müjdə ideyasını təqdim etmək üçün Mərrix (Mars) fələyinin adını çəkmişdir. Mərrix göyün beşinci qatında yerləşir. Mərrix fələyinin bir adı da «kiçik uğursuzluq»dur. Ona «qırmızı Mərrix» də deyirlər. Öz fələyində təkbaşına hakimdir. Onun üç fələyi var. Təbiəti çox soyuqdur, qurudur. Gecəyə aid edilmişdir. Özəllikləri bunlardır: coşqunluq, qəhrəmanlıq, hiddət, güc, səfahət, xəyanət, hirs, həyasızlıq, inad və lider olmaq ehtirası. Mərrix həftənin şənbə və ikinci gününə hakimdir. Mərrixin (Marsın) böyüklüyü Yer kürəsinin təqribən dörddə biri qədərdir.

Şair beytin birinci misrasında deyir ki, Mərrix (Mars) sənin gözətçilərindən biridir. Onun vəzifəsi Peyğəmbəri qorumaqdır. Mərrixin özəlliklərindən biri qəhrəmanlıq və gücdür. Gözətçi, qoruyucu üçün də bu keyfiyyətlərin böyük önəmi var. Ona görə də Mərrixə Peyğəmbəri qorumaq vəzifəsi verilmişdir.

Mərrixin (Marsın) başqa bir özəlliyi də lider, başçı olmaq ehtirasıdır. Bu xarakterdə olan insanlar heç kimə tabe olmaq istəmirlər, hamını idarə etməyə çalışırlar, itaət etmək onların təbiətinə yaddır, onlarda özündən razılıq, təkəbbür duyğuları güclü olur, ipə-sapa yatmırlar. Ancaq Mərrix islam Peyğəmbərinə itaət edir, Onu qoruyur, Peyğəmbərin ən kiçik nökəri kimi Onun yanınca gedir. Şair, Mərrixin Peyğəmbərə itaət etdiyini göstərmək üçün onu «ən kiçik nökər» adlandırmışdır.

**Ay həsrətlə Onun yolunu gözləməklə, Utarid öz dəftərinə Onun dəvətinin rəmzini yazmaqla, Zöhrə Ona hədiyyə tabağı təqdim etməklə, Günəş Onun yolunu maneələrdən təmizləməkdən hilala dönməklə, Mərrix də Onun kiçik nökəri olmaqla öz sevgisini təqdim edir.**

Merac gecəsi bütün səma cismləri Peyğəmbərə itaət edir, Onun yoluna düzülür, ən gözəl «paltarını geyinib» Onu görməyə can atır, onlara verilən vəzifəni itaət duyğusu ilə yerinə yetirirlər.

## QIRXINCI ADDIM:
## MÜŞTƏRİ: «YAMAN GÖZDƏN İRAQ!», - DEDİ

دراجه مشترى بدان نور
از راه تو گفته چشم بد دور

***Müştəri o haləli nuru ilə,***
***Gözünü (görüncə) «yaman gözdən iraq!» -***
***demişdir.***[229]

Şair bu beytdə müjdə ideyasını təqdim edərkən Müştəri (Yupiter) fələyinin adını çəkmişdir. Müştəri fələyi göyün altıncı qatına hakimdir. Müştəri səadət aynasıdır, fələyində təkbaşına hakimdir. O, «böyük xoşbəxtlik» adlanır. Üç fələyi var. Onun təbiəti isti və rütubətlidir. Erkək cinsinə və gündüzə aid edilmişdir. Bu fələyin özəllikləri bunlardır: din təssübkeşi, elm, həya, səxavət, təvazökarlıq, ağıl, həya, namus, natiqlik. Müştəri (Yupiter) bir gözəllik, xoşbəxtlik fələyidir.

Bu deyilənlərdən aydın olur ki, Müştəri fələyi çox gözəldir, çox nurludur, Onun ancaq müsbət özəllikləri var. O, böyük xöşbəxtliyin rəmzidir. Şair bu fələyin gözəl olduğunu, insanlara xöşbəxtlik bəxş etdiyini ifadə etmək üçün onun «haləli nuru» olduğunu önə çəkmişdir.

**Belə gözəl, nurlu olan Müştəri islam Peyğəmbərinin nurlu, həqiqəti görən, sevgi, şəfqət və mərhəmət dolu gözlərini, baxışlarını görəndə Ona heyran olur, xarakterindəki gözəlliklər onda Peyğəmbəri qorumaq duyğusu yaradır. Müştəri qorxur ki, Ona göz dəyə bilər. Beytdə «göz dəymək» anlayışı iki mənanı ifadə edir.** Şair «göz dəymək» anlayışından həm Peyğəmbərin gözəlliyini

[229] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

ifadə etmək üçün (çünki gözəl olan bir şeyə göz dəyə bilər, deməli, Peyğəmbər və Onun gözləri çox gözəldir), həm də Müştəri fələyinin Peyğəmbərə olan sevgisini ifadə etmək məqsədi ilə istifadə etmişdir. İnsan ancaq sevdiyi bir insana göz dəyməsindən qorxar, ona: «yaman gözdən iraq», «pis gözdən uzaq olasan», «Allah səni pis gözdən qorusun», «Allah səni bəd nəzərdən qorusun», - deyər.

## QIRX BİRİNCİ ADDIM:
## KEYVANIN ÇİYNİNDƏ QARA BAYRAQ VAR

کیوان علم سیاه بر دوش
در بندگی تو حلقه در گوش

***Keyvan qara bayraq çiynində,***
***Qulağı halqalı kölə kimi sənin qulluğundadır.***[230]

Hz. Nizami bu beytdə mələyin dili ilə Peyğəmbərə müjdə verərkən Keyvan fələyinin adını çəkmişdir. Keyvan fələyinin bir adı da Zühaldır (Saturn). Bu fələk göy üzünün yeddinci təbəqəsinə hakimdir. Keyvan (Saturn) fələyi «böyük uğursuzluq» adlandırılmışdır. O, öz fələyində təkbaşına hakimdir. Bir sıra alimlər isə Keyvana «hindu üzlü» (qara üzlü) demişlər. Keyvan (Saturn) planetinin üç fələyi var. Keyvan fələyi içi dolu kürə şəklindədir. Təbiəti çox soyuq və qurudur. Erkək cinsinə və gündüzə aid edilmişdir. Bu ulduza baxmaq qəm, kədər gətirir. Keyvanın başlıca özəllikləri bunlardır: axmaqlıq, cəhalət, qorxaqlıq, xəsislik, kin, yalançılıq, dedi-qodu, qəm, tənbəllik, kütlük və zərər. Keyvan fələyinin böyüklüyü Yerin həcminə bərabərdir.

Şair beytin birinci misrasında deyir ki, Keyvanın çiynində qara bayraq var. Şair «qara bayraq» anlayışı ilə iki

[230] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

mənanı şərh etmişdir. Beytdə «qara bayraq» Keyvanın xarakterini təmsil edir. Keyvan böyük uğursuzluq, hindu üzlüdür (qara üzlü), bu ulduza baxmaq qəm, kədər gətirir. Keyvanın xarakterində bir dənə də olsun müsbət əlamət yoxdur. Qara bayraq da matəm, yas əlamətidir.

**Şairin təsvirinə görə, qara bayraq Keyvanın başının üzərində deyil, çiynindədir. Yəni artıq insanlara uğursuzluq, qəm, kədər gətirən «hindu üzlü» Keyvan məğlub olmuşdur. Bunun səbəbi merac gecəsi islam Peyğəmbərinin göylərə ucalmasıdır. Peyğəmbərin gəlişi ilə Keyvanın qara bayrağı çiyninə düşmüşdür.**

Şair beytin ikinci misrasında Keyvanın məğlubiyyətini başqa bədii vasitələrlə təqdim etmişdir. Şair deyir ki, qara üzlü Keyvan artıq Peyğəmbərin qulağı halqalı köləsidir, Ona qulluq edir. Qulağı halqalı kölə heç bir hüququ olmayan, alınan, satılan, sahibinin bütün əmrlərini yerinə yetirən qul deməkdir.

Artıq islam Peyğəmbəri bu «böyük uğursuzluğu» məğlub etmişdir. Merac gecəsinin və Peyğəmbərin nuru, bərəkəti ilə Keyvan qulağı halqalı qara köləyə çevrilmişdir.

## QIRX İKİNCİ ADDIM:
## SƏNİN BELƏ XİDMƏTÇİLƏRİN VAR

در کوکبه چنین غلامان
شرط است برون شدن خرامان

*Belə xidmətçilərin müşayəti ilə,*
*Səfərə çıxmaq (böyük) şərtdir.*[231]

Şair öncəki beytlərdə müjdə xəbərini verərkən Ay, Utarid, Zöhrə, Günəş, Mərrix, Müştəri, Keyvan fələyinin

[231] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

adını çəkmiş, hər bir fələyin xarakterindən ideyanın şərhində istifadə etmişdir. Bu obrazlardan istifadə etmək merac gecəsinin xarakterinə uyğundur. Göylərə səfərin mahiyyəti səma cismlərinin vasitəsi ilə izah olunmuşdur.

Bu beytdə şair deyir ki, bu adı çəkilən hər bir fələk uca Allahın (c.c) əmri ilə Peyğəmbərin xidmətinə verilmişdir. Onlar merac gecəsində islam Peyğəmbərini müşayiət edir. Hər bir fələyin öz vəzifəsi var. Ay onun yolunu gözləyir, Utaridin dəftərinə adının hərfləri ilə dəvətinin rəmzi yazılmış, Zöhrə Ona hədiyyə tabağı verməlidir. Böyük nur, göylərin sultanı olan Günəş Onun yolunu maneələrdən təmizləyir, Mərrix onun qoruyucusudur, kiçik nökəridir, Müştəri Onu yaman gözdən qoruyur, Keyvan Onun qulağı halqalı köləsidir.

Mübarək bir gecədə şanlı Peyğəmbər ülvi bir məqsədin gerçəkləşməsi üçün bu fələklərin müşayiəti ilə yola çıxır, uca Allahın (c.c) hüzuruna gedir, insanlığa merac nemətini gətirmək üçün yola düşür.

Şair beytin ikinci misrasında deyir ki, belə xidmətçilərin müşayiəti ilə səfərə çıxmaq böyük şərtdir. Yəni heç kəsə belə xidmətçilər qismət deyil, belə qarşılanma göylər üçün birinci və sonuncudur. Bu uca Allahın (c.c) ancaq Sənə olan bir lütfüdür, Sənə olan sevgisinin göstəricisidir. Bu merac gecəsinə və merac nemətinə uca Allahın (c.c) verdiyi dəyərdir.

## QIRX ÜÇÜNCÜ ADDIM:
## BU GECƏ SƏNİN QƏDR GECƏNDİR

امشب شب قدرتست بشتاب
قدر شب قدر خویش دریاب

***Bu gecə Sənin qədr gecəndir, tələs,***
***Öz qədr gecənin qədrini bil!***[232]

[232] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

Hz. Nizami başqa beytlərdə merac gecəsinin Peyğəmbərinin gecəsi olduğunu bildirmişdir. Ancaq şair bu beytdə merac gecəsini hz. Məhəmmədin (s.a.s) qədr gecəsi adlandırmışdır. Bilindiyi kimi, qədr gecəsi islam tarixində önəmli yer tutur. Bu gecə mübarək Ramazan ayındadır. Qədr gecəsi mübarək Qurani-Kərimin yer səmasına endirildiyi gecədir. Bu gecə ilə bağlı Qurani-Kərimdə ayrıca surə var:

إنا أنزلْنَاه في لَيلَة الْقَدرِ . وما أدراك ما لَيلَةُ الْقَدرِ . لَيلَةُ الْقَدرِ خَير
من ألف شَهرِ . تَنَزلُ الْملَائِكَةُ والروح فيها بإذْنِ ربهم من كُل أمرِ
سلَام هي حتى مطْلَع الْفَجرِ

(əl-Qədr, 97/1-5)

«Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsi (Lövhi-məhfuzdan dünya səmasına) nazil etdik! (Ey Peyğəmbər!) Sən nə bilirsən (haradan bilirsən) ki, Qədr gecəsi nədir?! Qədr gecəsi (savab cəhətdən) min aydan daha xeyirlidir! (O, rəvayətə görə, Ramazan ayının on yeddisinə, on doqquzuna, iyirmi birinə, iyirmi üçünə, iyirmi beşinə, bir rəvayətə görə isə iyirmi yeddisinə təsadüf edir). O gecə mələklər və ruh (Cəbrail) Rəbbinin izni ilə (həmin gündən gələn ilin Qədr gecəsinədək dünyada baş verəcək) hər bir işdən dolayı (Allah dərgahından əmrlər alaraq) yerə enərlər. O gecə dan yeri sökülənə kimi (büsbütün) salamatlıqdır! (əmin-amanlıqdır). (Qədr gecəsi heç bir bəla nazil olmaz, o, bütünlüklə xeyir-bərəkətdən ibarətdir. O gecə mələklər yer üzündə gəzib Allahın ixlas sahibi olan bəndələrinə salam verərlər. Buna görə də Qədr gecəsi səhərə qədər oyaq qalıb ibadət etmək lazımdır!)».

Qədr gecəsi «qədr» (etibar, dəyər, qiymət) sözünə bağlıdır. Yəni çox dəyərli bir gecə anlamındadır. Bu gecə insanlıq tarixinin yeni bir mərhələsinin başlanmasını müəyyən edən Qurani-Kərimin nazil edildiyi gecədir. «Qədr» sözünün qüdrətlə də bağlılığı var. Qədr gecəsində qüdrət hakim olur. O gecənin qədrini bilənlərə bol-bol ilahi mükafat verilir.

İslam Peyğəmbəri hədislərində Qədr gecəsi ilə bağlı belə buyurur:

«Kim Qədr gecəsinin savabına inanıb onu qazanmaq ümidi ilə ehya edərsə, keçmiş günahları bağışlanar».[233]

«Qədr gecəsinin fəzilət və müqəddəsliyinə inanaraq, savabını yalnız Allahdan umaraq ibadət və itaətlə keçirənin (qul haqqı xaric) keçmiş günahları bağışlanar».[234]

Şair deyir ki, merac gecəsi Sənin qədr gecəndir. Şair beytdə qədr gecəsi ilə merac gecəsi arasında uyğunluq yaratmışdır. Merac gecəsinin islam Peyğəmbəri üçün qədr gecəsi olması bu gecənin Onun həyatının ən dəyərli anı olması deməkdir. Bu gecə Sənin qədr gecəndir, yəni bu gecədə verilən nemətlərin dəyəri çox böyükdür. Bu gecə Sənin qədr gecəndir, yəni Sənin qədrinin, dəyərinin uca Allah (c.c) tərəfindən ayrıca bir mərasimlə verildiyi gecədir. Bu gecə islam dininin və peyğəmbərliyin tarixində yeni bir mərhələnin başlanğıcıdır. Qədr gecəsinin ən böyük neməti Qurani-Kərimin nazil edilməsi, Merac gecəsinin ən dəyərli neməti namazdır. Hər iki nemət uca Allahın (c.c) insana verdiyi dəyərin göstəricisidir.

Şair bu gecənin dəyərini ifadə etmək üçün daha iki vasitədən istifadə etmişdir. Bunlardan biri «tələs» sözünün beytin mətninə daxil edilməsidir. Beytdə «tələs» sözünün

---

[233] Buxari, «Təravih», 1.
[234] Müslim, «Müsafirin», 175 / 760.

uca Allahın (c.c) verdiyi fürsəti, şansı dəyərləndir, merac zamanının dəyərini bil, bütün səma cismləri Səni gözləyir, veriləcək neməti tez alıb, insanlara çatdırmaq lazımdır, uca Allahın (c.c) görüşünə gecikmək olmaz kimi mənalarda işlədildiyini düşünmək olar.

Şairin bu gecənin dəyərini ifadə etmək üçün istifadə etdiyi ikinci vasitə mələyin dili ilə Peyğəmbərə «öz qədr gecənin qədrini bil» deməsidir. Burada mələk Peyğəmbəri ruhlandırır. Onu merac gecəsinə hazırlayır. «Öz qədr gecənin qədrini bil», yəni bu gecə nə baş verdiyini tam qavra, Sənə bu neməti kimin verdiyini düşün. Uca Allahın (c.c) səndən nə istədiyini doğru dəyərləndir, indiki ağır vəziyyətin Səni ruhdan salmasın, Sənin mübarizən haqdır. Sən qalib gələcəksən, Sənin himayədarın qüdrət sahibi olan uca Allahdır (c.c). «Öz qədr gecənin qədrini bil», yəni uca Allah (c.c) Sənə xüsusi zaman ayırmışdır, bu merac zamanıdır. Bu zamanın hökmünü, tələbini, verdiyi mesajı doğru oxu, ona uyğun hərəkət et!

## QIRX DÖRDÜNCÜ ADDIM:
## BU GECƏ ƏBƏDİYYƏT BƏZƏYİDİR

***Əbədiyyət bəzəyidir bu gecə,***
***Məhəmmədin merac gecəsidir bu gecə.***[235]

Şair bu beytdə merac gecəsinin dəyərini anlatmaq üçün mələyin dili ilə deyir ki, bu gecə əbədiyyət bəzəyidir. Bir şeyin bəzəyi olmaq o şeyin dəyərini göstərir. «Evin bəzəyi», «kitabların bəzəyi», «insanların bəzəyi», «fikirlərin

[235] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

bəzəyi» kimi ifadələr bir şeyin önəminə işarə edir. Ancaq şairin təqdimində merac gecəsi adi bəzək deyil, əbədiyyətin bəzəyidir. **Şairin yozumuna görə, meracın əbədiyyət bəzəyi olması bu gecənin ən önəmli, ən gözəl gecə olmasına işarədir. Şairə görə, əbədiyyətədək olan gecələrin içində ondan bərəkətlisi yoxdur. Şairə görə meracın əbədiyyət bəzəyi olması o deməkdir ki, meracın bərəkəti əbədi davam edəcək, yəni həm bu dünyanı, həm də axirəti əhatə edəcək.**

Şairə görə, meracın əbədiyyət bəzəyi olması bu gecədə uca Allahın (c.c) verdiyi nemətin insanın əbədi səadətini təmin etməsi ilə bağlıdır. Əgər insan namaz nemətinin dəyərini bilərsə, ona sahib çıxarsa, bu nemət onu dünya və axirət xöşbəxti edər. Çünki əbədi səadət axirət xöşbəxtliyi ilə bağlıdır, bu səadət yolçusunun bələdçisi isə merac nemətidir. Meracın əbədiyyət bəzəyi olması onun bərəkətinin davamlılığı ilə bağlıdır. **Bir şey bir gün, beş gün və daha çox gün bəzək ola bilər, ancaq sonra solar, sıradan çıxar. Merac neməti isə solmayan bir bəzəkdir, tükənməyən bərəkətdir.**

**Şairin yozumuna görə, merac əbədiyyət bəzəyidir, yəni axirətdə uca Allah (c.c) insanı bu nemətə görə qiymətləndirəcək. Merac neməti uca Allah (c.c) üçün bir ölçü olacaq, insanın merac neməti adlı bəzəyi varsa, onun əbədi səadəti də olacaq.**

Şair öncəki beytlərdə deyir ki, bu gecə Sənin gecəndir, bu gecə Sənin qədr gecəndir. Bu beytdə isə birbaşa Peyğəmbərin adını çəkir. Bildirir ki, bu gecə Məhəmmədin (s.a.s) merac gecəsidir. Buradan bir neçə məna çıxır. Məsələn, başqa peyğəmbərlərin də bu, ya da başqa şəkildə merac gecəsi olub, ancaq bu gecə hz. Məhəmmədə (s.a.s) aiddir və öncəkilərdən tamamilə seçilir. Hz. Məhəmmədin (s.a.s) merac gecəsi insana əbədiyyət bəzəyi, səadəti bəxş edən nəməti vermiş gecədir.

## QIRX BEŞİNCİ ADDIM:
## BU GECƏ XOŞBƏXTDİR

ای دولتی آن شبی که چون روز
گشت از قدم تو عالم افروز

***Nə xoşbəxtdir o gecə ki,***
***Sənin dünyanı işıqlandıran qədəminlə***
***gündüzə döndü.***[236]

**Şair bu beytdə mələyin dili ilə gecəyə «bəxtəvərlik oxuyur», ona gözaydınlığı verir. Şair bu gecəni başqa gecələrdən seçir və deyir ki, bu gecə xöşbəxtdir, çünki o, gecə zülmətindən qurtarmışdır, qaranlıq yox olmuşdur. Bu gecə xoşbəxtdir, ona görə ki, islam Peyğəmbərinin göylərə ucalması məhz onun qismətinə yazılmışdır, bu gecə Onun göylərə ucalması ilə tarixə düşmüşdür, aydın bir gündüzə çevrilmişdir.**

Şair beytin ideyasını bədii təzadlar üzərində qurmuşdur. «Gecə», «gündüz», «işıq», «xoşbəxtlik» sözləri fonunda ideya açılmışdır. Bu sözlərin sırasında işıq anlayışı ifadə edən sözlər daha çoxdur, çünki ideya işığın qələbəsi üzərində qurulmuşdur. Sanki, gecə qaranlıq bir zindandır, azadlığa-gündüzə, işığa can atır, ancaq heç bir gecəyə bu işıq qismət olmur. Yalnız merac gecəsi azadlığa qovuşur, işığa çıxır, çünki bu gecə islam Peyğəmbərinin nuru ilə nurlanmışdır.

Şair bu beytdə hz. Məhəmmədi (s.a.s) bir nur kimi təqdim etmişdir. Şair deyir ki, Sənin qədəmin dünyanı işıqlandırdı. Yəni islam Peyğəmbəri insanlıq üçün yeni bir tari-

---

[236] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 25.

xin başlanğıcıdır, o cəhalətə qarşı cihad etmək üçün göndərilmiş bir Peyğəmbərdir, o gəldi və dünya işıqlandı.

Beytdə «dünyanı işıqlandıran qədəm» deyərkən şair islam Peyğəmbərinin dünyaya ədalət gətirdiyini nəzərdə tutmuşdur. Şairə görə, ədalət bir nurdur, cəhalət, qaranlıq onunla yox olar. «Sənin dünyanı işıqlandıran qədəmin» deyərkən şair, islam Peyğəmbərinin elm, azadlıq, bərabərlik, ailənin, dinin, ağlın, malın, canın qorunması kimi bir insanın və cəmiyyətin uca Allahın (c.c) müəyyən etdiyi fitrətə uyğun yaşaması üçün zəruri olan dəyərləri gətirdiyini və bərqərar etdiyini nəzərdə tutmuşdur. O, yer üzünü işıqlandırdığı kimi, merac gecəsi göy üzünü də nurlandırmışdır.

## QIRX ALTINCI ADDIM:
## O, RUHOXŞAYAN XƏBƏR EŞİTDİ

چون محمد ز جبرئیل به راز
گوش کرد این پیام گوش نواز

***Elə ki Məhəmməd gizlicə Cəbraildən,***
***Bu ruhoxşayan xəbəri eşitdi.***[237]

Hz. Nizami bu beytdən başlayaraq merac gecəsi ilə bağlı şərhinin yeni mərhələsinə qədəm qoyur. Şair öncə – müjdə mərhələsində mələyin islam Peyğəmbərinə meracın özəlliklərini anlatmasını, Onu ruhlandırmasını, Onu bu mübarək səfərə hazırlamasını bədii bir üslubda təsvir etmişdir. Mələk Peyğəmbərə müjdə, ümid verir, Onu sıxıntıdan qurtarır, uca Allahın (c.c) Ona olan sevgisini, Ona verdiyi dəyə-

---

[237] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

ri, bütün göy üzünün, səma cismlərinin Onun gəlişinə hazırlaşdığını, Onun yolunu gözlədiyini bildirir.

Şair bu beytdə Cəbrailin (ə.s) verdiyi müjdə xəbərinin Peyğəmbərə təsirini ifadə etmişdir. O deyir ki, Peyğəmbər bu müjdə xəbərini Cəbraildən (ə.s) gizlicə eşitdi. **Şair müjdə xəbərinin gizlicə verilməsini bildirməklə bir neçə məsələyə işarə etmişdir. Hər şeydən öncə Peyğəmbərlə mələk arasında olan danışığı kiminsə dinləmək imkanı yoxdur. Bu özəl bir əlaqə şəklidir və ancaq Peyğəmbərə aiddir. Kiminsə mələklə danışmaq imkanı yoxdur. Şair «gizlicə» sözündən istifadə etməklə müjdə xəbərinin önəmini göstərmişdir. Adətən, önəmli xəbərlər gizlicə verilir. Beytdə «gizlicə» sözü müjdə xəbərinin verilmə şəraitini də ifadə edir. Yəni bu xəbər verilərkən orada ikisindən başqa bir kimsə yox idi.**

Şair beytin ikinci misrasında müjdəni «ruhoxşayan» xəbər adlandırmışdır. Burada «ruhoxşayan» sözü Ona rahatlıq verən, Onu sıxıntıdan qurtaran, ruhunu dincəldən, Ona sevinc bəxş edən xəbər mənasında işlədilmişdir.

## QIRX YEDDİNCİ ADDIM:
## O, HUŞUNU İTİRDİ

زان سخن هوش را تمامی داد
گوش را حلقه غلامی داد

*O sözlərdən huşunu tamamilə itirdi,*
*Və qulağına qulluq halqası taxdı.*[238]

Şair bu beytdə müjdə xəbərinin islam Peyğəmbərinə təsirini göstərmişdir. Hz. Məhəmməd (s.a.s) «ruhoxşayan»

[238] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

müjdə xəbərini eşitdi, bu xəbər Ona sevinc bəxş etdi, Onda yeni bir ruh halı yarandı, heyrətə gəldi və huşunu itirdi. Beytdə «huşunu itirmək» ifadəsi müjdə xəbərinin dəyərini, bu xəbərin Peyğəmbərdə yaratdığı ruh halını, Onun şövq və vəcdini ifadə edir.

Beytin ikinci misrasında deyilir ki, Peyğəmbər «qulağına qulluq halqası taxdı». Burada şair Peyğəmbəri mələk Cəbrailə (ə.s) itaət edən bir qul kimi təsvir etmişdir. Peyğəmbər müjdə xəbərini Cəbraildən (ə.s) eşitdi, Ona inandı, «huşunu itirdi». Burada «huşunu itirmək» ifadəsi həm də tabe olmaq, iradəsini mələyə vermək, Onun dediklərinin doğruluğunu təsdiq etmək, etiraz etməmək, Onu sevmək mənalarında işlənmişdir. «O, qulağına qulluq halqası taxdı», yəni bir qul kimi Cəbrailin (ə.s) dediklərinə əməl etdi, onun ardınca getdi, ona təslim oldu, uca Allahın (c.c) merac dəvətinə ürəkdən razı oldu.

## QIRX SƏKKİZİNCİ ADDIM: CƏBRAİL (ə.s) və HZ. MƏHƏMMƏD (s.a.s) BİR ƏMANƏTİN XƏZİNƏDARIDIRLAR

دو امین بر امانتی گنجور
این ز دیو آن ز دیو مردم دور

***Bir əmanətin xəzinədarı olan hər iki əminin,***
***Biri İblisdən, o biri isə iblis insanlardan uzaq idi.***[239]

Hz. Nizami bu beytdə mələk Cəbrail (ə.s) ilə hz. Məhəmmədin (s.a.s) daşıdıqları missiyaya görə eyni bir hədəfə xidmət etdiklərini ifadə etmişdir. Şair onları «iki əmin» adlandırmışdır. Burada «əmin» sözü inanılan, etibar edilən,

[239] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

sadiq, vəfalı, doğru danışan, üzərinə götürdüyü vəzifəni sonadək yerinə yetirən, sevilən mənasında işlədilmişdir. Onların hər ikisi uca Allahın (c.c) əmin olduğu varlıqdır.

Qurani-Kərimdə vəhy mələyinin özəl adı Cəbraildir (ə.s). Quranda üç yerdə vəhy mələyinin adı Cəbrail (ə.s) kimi verilmişdir.[240]

Bundan başqa, Quranda vəhy mələyi Cəbrail (ə.s) «ər-ruh» adlandırılıb:

تَعرج الْملَائِكَةُ والروح إِلَيه في يومٍ كَان مقْداره خَمسين أَلْفَ سنَة

(əl-Məaric, 70 / 4)

«Mələklər və ruh (Cəbrail) Onun dərgahına (dünya ili ilə müqayisədə) müddəti (miqdarı) əlli min il olan bir gündə qalxarlar».

Cəbrailin «ər-ruh» adı Qurani-Kərimin başqa surələrində də var.[241]

Quranda Cəbrail (ə.s) «Ruhana» adlandırılmışdır:

فَاتخَذَتْ من دونهِم حجاباً فَأَرسلْنَا إِلَيها روحنَا فَتَمثَّلَ لَها بشَراً سوِياً

(Məryəm, 19/17)

«Və ailə üzvlərindən gizlənmək (paltarını dəyişmək, ya da yuyunub təmizlənmək) üçün pərdə tutmuşdu. Biz Öz ruhumuzu (Cəbraili Məryəmin) yanına göndərdik. Ona (Məryəmə) tam bir insan surətində göründü».

Quranda Cəbrail (ə.s) «Rəsulün-kərim» adlandırılıb:

إِنه لَقَولُ رسولٍ كَرِيمٍ ذي قُوة عند ذي الْعرشِ مكينٍ

(ət-Təkvir, 81/19-20)

---

[240] əl-Bəqərə, 2/97, 98; ət-Təhrim, 66/4.

[241] ən-Nəbə, 78/38; əl-Qədr, 97/4.

«Bu (Quran Allah dərgahından) çox möhtərəm (əmin) bir elçinin (Cəbrailin) gətirdiyi kəlamdır. (Elə bir elçi ki) çox qüvvətlidir. Ərşin sahibi (Allah) yanında çox hörmətlidir (izzətlidir)».

Qurani-Kərimdə Cəbrail (ə.s) «Rəsulu-rəbbik» adlandırılıb:

قَالَ إِنما أَنَا رسولُ ربكِ لِأهب لَكِ غُلَاماً زكياً

(Məryəm, 19/19)

«(Cəbrail:) «Mən sənə ancaq tərtəmiz (məsum) bir oğlan uşağı bağışlamaq üçün Rəbbinin (lütf edib göndərdiyi) elçisiyəm! - dedi».

Qurani-Kərimdə Cəbrail (ə.s) «Ər-ruhul-əmin» adlandırılıb:

نَزَلَ بِهِ الروح الْأَمين . عَلَى قَلْبِكَ لِتَكُونَ مِن الْمنذرِين

(əş-Şüəra, 26/193-194)

«Onu Cəbrail (Ruhul-əmin) endirdi. (Günahkarları Allahın əzabı ilə) qorxudan (xəbərdar edən) peyğəmbərlərdən olasan deyə, Sənin qəlbinə (nazil etdi)».

Qurani-Kərimdə Cəbrail (ə.s) «Ruhul-qüds» adlandırılıb:

وعلامات وبالنجم هم يهتَدون

(ən-Nəhl, 16/102)

«(Ey Rəsulum!) De: «Ruhul-qüds (Cəbrail) onu (Quranı) sənin Rəbbindən iman gətirənlərə səbat vermək, müsəlmanları isə doğru yola yönəltmək və (onlara Cənnətlə) müjdə vermək üçün haqq olaraq nazil etmişdir!»

Cəbrailin (ə.s) «Ruhul-qüds» adı Qurani-Kərimin başqa surələrində də var.[242]

İslam Peyğəmbəri bir hədisində Cəbraili (ə.s) «Ən-namus» adlandırmışdır.[243]

---

[242] əl-Bəqərə, 2/87, 253; əl-Maidə, 5/110.

[243] Buxari, «Bədül-Vəhy», 3.

Cəbrail (ə.s) uca Allaha (c.c) yaxın (əl-məlaikətül-mukarrəbun) mələklərdən biridir. Uca Allahın (c.c) qulu olmaq onun üçün şərəfdir, O ancaq uca Allaha (c.c) itaət edir, gecə-gündüz yorulmadan Onu təsbih edir. Bu uca Allaha (c.c) yaxın olan mələklərin (əl-məlaikətül-mukarrəbun) missiyasıdır:

لن يستَنكفَ الْمسيح أَن يكُون عبداً للّه ولا الْملآئِكَةُ الْمقَربون ومن يستَنكفْ عن عبادته ويستَكْبِر فَسيحشُرهم إِلَيه جميعاً

(ən-Nisa, 4/172)

«İsa əl-Məsih də, yaxın mələklər də Allahın qulu olmağı əsla özlərinə ar bilməzlər. Allah Ona ibadət etməyi özünə ar bilənləri və təkəbbür göstərənlərin hamısını öz hüzuruna toplayacaqdır!».

وله من في السماوات والْأَرض ومن عنده لَا يستَكْبِرون عن عبادته ولَا يستَحسرون . يسبحون اللَيلَ والنهار لَا يفْتُرون

(əl-Ənbiya, 21/19-20)

«Göylərdə və yerdə olan (bütün) məxluqat Onundur (Allahın qüdrət əsəridir). Onun dərgahında olanlar (rütbə və şərəf baxımından mənən Allaha yaxın mələklər) Ona ibadət etməyə təkəbbür göstərməz və (bu ibadətdən) yorulmaq bilməzlər. Onlar gecə-gündüz, yorulub-usanmadan (Rəbbini) təqdis edib şəninə tərif deyərlər».

Hz. Nizami beytdə islam Peyğəmbərini «əmin» adlandırmışdır. Bu hər şeydən öncə peyğəmbərlərin inanılan, etibar edilən insanlar olması ilə bağlıdır. Bu özəllik «əmanət» adı ilə də bilinir. Bilindiyi kimi, Peyğəmbərlərin bir sıra özəllikləri var: insan olmaq, uca Allah (c.c) tərəfindən seçilmək, günah etməkdən qorunmaq (ismət), vəhyi təbliğ etmək və etibar edilən insan olmaq. «Peyğəmbərlər istər risalət vəzifələrini yerinə yetirməkdə, istərsə də insanlarla olan dünyəvi münasibətlərdə etibar edilən, inanılan kimsələrdir. Çünki bir Peyğəmbə-

rə əmanətə xəyanət yaraşmaz. Əmanətə xəyanət edən kimsə qiyamət günü etdiyi xəyanətin günahını boynunda daşıyar. İnsanlara örnək olmaq vəzifəsi verilmiş və bu hədəfə uyğun olaraq günah etməkdən qorunan peyğəmbərlərin inanılan kimsələr olmaları ismət (günah etməkdən qorunmaq) sifətlərinin təbii bir nəticəsidir. Onların insanlara bütün məsələlərdə əminlik bəxş edən insanlar olduğu həm naslarla təsbir olunmuşdur, həm də bu mövzuda inanan-inanmayan hər kəsin ortaq bir rəyi var. Peyğəmbərlərin bu özəlliyi əmanət adı ilə də bilinir…»[244]

Deyildiyi kimi, «əmin» anlayışı «əmniyyət sahibi», «qorxusuz», «birini qoruyan», «inanan», «şübhə etməyən», «özünə güvənilən», «hər cür qorxu və şübhədən uzaq», «tam arxayın olmaq» kimi məna çalarlarını əhatə edir. Qurani-Kərimdə həm peyğəmbərlərə, həm də onlara vəhy gətirən mələklərə uca Allah (c.c) «əmin» adı vermişdir.

«Əmin» sifəti bütün peyğəmbərlərin ortaq özəlliyidir. Uca Allah (c.c) buyurur:

ولَقَدْ فَتَنَّا قَبلَهم قَوم فِرعون وجاءهم رسولٌ كَريم . أَن أَدوا إِلَي
عباد الله إِني لَكُم رسولٌ أَمين

(əd-Duxan, 44/17-18)

«And olsun ki, Biz onlardan əvvəl Firon qövmünü imtahana çəkmişdik. Onlara möhtərəm bir peyğəmbər (Musa) gəlmişdi. (O demişdi:) «Allahın bəndələrini (İsrail oğullarını) mənə verin. Həqiqətən, mən sizin üçün mötəbər (güvənilən, sözündə düz, əmanətə xəyanət etməyən) bir peyğəmbərəm!»

---

[244] «İslamda inanç esasları», (müəlliflər prof. dr. Bekir Topaloğlu, prof. dr. Şevki Yavuz, doç. dr. İlyas Çelebi), 3-cü basqı, İstanbul, 2002, s. 186-187.

وما كان لِنَبِي أن يغُل ومن يغْلُلْ يأْت بِما غَل يوم الْقيامة ثُم تُوفى
كُل نَفْسٍ ما كَسبتْ وهم لا يظْلَمُون

(Ali-İmran, 3/161)

«Heç bir peyğəmbərə əmanətə xəyanət etmək yaraşmaz. Əmanətə xəyanət edən şəxs qiyamət günü xəyanət etdiyi şeylə (boynuna yüklənmiş halda) gələr. Sonra isə hər kəsə gördüyü işlərin əvəzi verilər və onlara haqsızlıq edilməz!»

«Əmin» adı həm də barış, rahatlıq, etimad içində yaşamaq mənasını verir. «Əmin» adı Qurani-Kərimdə bir də «məkan», «məqam», «şəhər» mənasında işlədilmişdir. Quran Kəbəni «əmin» yer adlandırır:

وإِذْ جعلْنَا الْبيتَ مثَابةً للناسِ وأَمناً واتخذُواْ من مقَامِ إِبراهيم مصلى
وعهدنَا إِلَى إِبراهيم وإِسماعيلَ أَن طَهرا بيتي لِلطائِفين والْعاكفين
والركَّعِ السجود . وإِذْ قَالَ إِبراهيم رب اجعلْ هـَذَا بلَداً آمناً
وارزقْ أَهلَه من الثمرات من آمن منْهم بِاللّه والْيومِ الآخرِ قَالَ ومن
كَفَر فَأُمتعه قَليلاً ثُم أَضطَره إِلَى عذَابِ النارِ وبِئْس الْمصير

(əl-Bəqərə, 2/125-126)

«(Ey Rəsulum!) Yadına sal ki, Biz evi (Kəbəni) insanlar üçün savab (ziyarətgah) və **əmin-amanlıq yeri** etdik. (Ey möminlər! Sizə də:) «İbrahimin durduğu yeri (özünüzə) namazgah edin!» - (dedik). İbrahim və İsmailə də: «Evimi (Kəbəni) təvaf edənlər orada qalıb həmişə ibadətdə olanlar, rüku və səcdə ilə namaz qılanlar üçün (bütlərdən) təmizləyin! – deyə tövsiyə etdik. Yadına sal ki, İbrahim: «Ey Rəbbim, buranı bəladan asudə (uzaq) bir şəhər et, əhalisini Allaha və axirət gününə inananlarına cürbəcür meyvələrdən ruzi ver! – deyə dua etdikdə, O (Allah): «Kafir olanlara da

bir qədər (ömürləri boyu) ruzi verərəm, ancaq sonra da cəhənnəm əzabına düçar edərəm. Amma ora (Cəhənnəm) nə fəna bir yerdir!» - deyə buyurdu».

Hz. Nizami beytdə hz. Məhəmmədi (s.a.s) «əmin» adlandırdıqdan sonra deyir ki, O, «əmanətin xəzinədarı»dır. Şair «əmanət» deyərkən nəyi nəzərdə tutmuşdur?

«Əmanət» anlayışının qaynağı Qurani-Kərimdir. Uca Allah (c.c) buyurur:

إِنا عرضنَا الْأمانَةَ علَى السماوات والْأرضِ والْجِبال فَأَبين أَن
يحملْنَها وأَشْفَقْن منْها وحملَها الْإِنسان إِنه كَان ظَلُوماً جهولاً .
لِيعذب الله الْمنَافقين والْمنَافقَات والْمشْرِكين والْمشْرِكَات ويتُوب الله
علَى الْمؤْمنين والْمؤْمنَات وكَان الله غَفُوراً رحيماً

(əl-Əhzab, 33/72-73)

«Biz əmanəti (Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi) göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən (götürüb özləri ilə daşımaqdan) qorxub çəkindilər. Ona insan yükləndi. Həqiqətən, o çox zalım, çox cahildir. (İnsan bu ağır əmanəti götürməklə özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticələrini bilmədi). Allah münafiq kişiləri və qadınları, müşrik kişiləri və qadınları əzaba uğratsın, mömin kişilərin və qadınların da tövbələrini qəbul buyursun deyə (əmanəti öz razılığı ilə Adəm övladına tapşırdı). Allah (möminləri) bağışlayandır, rəhm edəndir».

Böyük islam alimləri İmam Qazali və Beydaviyə görə, «əmanət» itaət və üsyana uyğun olaraq savab və əzabın olacağını bilməklə məsuliyyəti öz üzərinə götürməkdir. «Əmanət»in göylərə və yerə təklif edilməsindəki məqsəd onların imkanlarına uyğun dəyərləndirilməsidir. Onların imtina etməsi isə bu təklifi qəbul etmək qabiliyyətinin ol-

mamasıdır. İnsanın isə bu təklifi qəbul etmək ləyaqəti və qabiliyyəti var.[245]

## ŞAH VƏLİYULLAH DƏHLƏVİYƏ GÖRƏ, ƏMANƏT VƏ MƏSULİYYƏT

Böyük islam alimi Şah Vəliyullah Dəhləviyə görə, insan əmanəti daşımağa, bu məsuliyyəti üzərinə götürməyə uyğun yaradılmışdır. Alimə görə, ayədəki «... çünki o (insan) zalım və çox cahildir» ifadəsi məsuliyyəti (əmanəti) öz üzərinə götürməyə əsas (şərt, səbəb) olaraq işlədilmişdir. Çünki zalım adil olmayandır, ancaq onun adil olmaq imkanı var. Cahil elmi olmayandır, ancaq onun elm öyrənmək imkanı var. İnsandan başqa, heç bir varlığın belə bir imkanı yoxdur. Bu varlıqlar ya bilgi sahibidirlər və ədalətlidirlər, onlar cahil və zalım ola bilməzlər. Mələklər bu varlığa aiddir. Elə varlıqlar da var ki, onların ədalətli olması mümkün deyil. Heyvanlar belədir. Mələklərin istəyi yoxdur, aclıq, susuzluq, qorxu, üzüntü bilməzlər, onlarda şəhvət, öfkə, özünü bəyənmək duyğusu yoxdur. Onlar özlərinə veriləcək buyruqları gözləyirlər. Uca Allahın (c.c) enən əmrinə tabe olarlar, onu sözsüz yerinə yetirərlər. Heyvanlar isə ancaq bədənə aid istəklərini təmin etməklə məşğuldur.

Ona görə də, ancaq insan «əmanəti» daşımaq, onun məsuliyyətini öz üzərinə götürmək qabiliyyət və imkanı ilə yaradılmışdır. Uca Allah (c.c) insana iki güc yerləşdirmişdir:

a) Mələki güc – Bu, insana məxsus olan ruhun bədəndə hərəkət edən təbii ruhdan feyz (bərəkət) alması, insani ruhun da onu qəbul etməsi, ona boyun əyməsi ilə meydana gəlir.

---

[245] Şah Veliyullah Dihlevi, «Hüccetullahil-Baliğa», (tərcüməçi, prof. Dr. Mehmet Erdoğan), III basqı, İstanbul, 2002, c. I, s. 61.

b) Heyvani güc – Bunun qaynağı bütün canlıların ortaq olduğu təbii ruh və heyvani nəfsdir.

Bu iki güc arasında (mələki və heyvani) davamlı olaraq mübarizə var. Mələki güc insanı uca hədəflərə yönəldir, heyvani güc isə insanı nəfsin istəklərinə boyun əyməyə məcbur edir: «… Buna görə, əgər heyvani güc qələbə çalmışsa, uca Allah (c.c) onu dəstəkləmiş və ona uyğun olan şeyi asanlaşdırmışdır. Əgər mələki güc üstün gəlmişsə, bu dəfə də onu dəstəkləmiş və ona uyğun olan şeyi onun üçün asanlaşdırmışdır…».[246]

Uca Allah (c.c) buyurur:

فَأَما مَن أَعطَى واتقَى . وصدقَ بِالْحسنَى. فَسنُيسره لِلْيسرى . وأَما
مَن بخِلَ واستَغْنَى . وكَذب بِالْحسنَى فَسنُيسره لِلْعسرى

(əl-Leyl, 92/5-10)

«Kim (malını Allah yolunda) versə, (Allahdan) qorxsa, və ən gözəl sözü (La ilahə illallah kəlməsini) təsdiq etsə, Biz ona ən asan olanı (Cənnəti) müyəssər edəcəyik! Amma kim (malını Allah yolunda xərcləməyə) xəsislik etsə, (mal-dövlətinə güvənib Allaha) möhtac olmadığını sansa, ən gözəl sözü (la ilahə illallah kəlməsini) yalan saysa, Biz ona ən çətin olanı (Cəhənnəmi) müyəssər edərik».

كُلا نمد هـؤُلاء وهـؤُلاء من عطَاء ربك وما كَان عطَاء ربك
محظُوراً

(əl-İsra, 17/20)

«Onların və bunların (dünyanı və axirəti istəyənlərin) hər birinə Rəbbinin nemətindən verərik. Rəbbinin neməti (istər dünyada, istərsə də axirətdə heç kəsə) qadağan deyildir».

---

[246] Şah Veliyullah Dihlevi, «Hüccetullahil-Baliğa», (tərcüməçi, prof. dr. Mehmet Erdoğan), göstərilən qaynaq, s. 63.

Deməli, əmanət yükünü öz üzərinə götürmək məsuliyyəti insanın yaradılış özəlliyi ilə bağlıdır. İnsanı başqa varlıqlardan seçən iki başlıca özəllik var: ağıl və əməl. İnsanın əmanət məsuliyyətini öz üzərinə götürməsi üçün azad iradəsi var.[247]

## MÖVDUDİYƏ GÖRƏ «ƏMANƏT» ANLAYIŞI

Böyük islam alimi Əbul-Ala Mövdudiyə görə, uca Allah (c.c) insandan özünün dünyadakı missiyasını anlamasını istəyir. Əgər insan dünya həyatını sadəcə oyun və əyləncə olaraq qəbul etsə, yanlış bir düşüncə və davranış içində olsa, ancaq öz faciəli aqibətini hazırlamış olar. Qurana görə, «əmanət» kəlməsi yer üzündə insana verilən «xilafət» vəzifəsi mənasında işlənmişdir. Yəni insana yer üzündə olan saysız-hesabsız varlıqlar üzərində hakim olmaq qabiliyyət və səlahiyyəti verilmişdir. İnsana üsyan və itaət etmək seçiminin, bu azadlıqdan istifadə edərkən ona saysız-hesabsız varlıq üzərində hakim olmaq  səlahiyyətinin verilməsi mütləq insanın etdiyi hərəkətlərə görə məsuliyyət daşımasını, yaxşı əməllərinə görə mükafatlandırılıb, pis əməlləri üçün cəzalandırılmasını zəruri edir. İnsan bu güc və imkanları özü qazanmamışdır. Bunları uca Allah (c.c) ona ehsan etmişdir. Uca Allah (c.c) insanı ona verilmiş imkanları xeyir, ya da şər işlərə sərf etdiyinə görə hesaba cəkəcək.[248]

---

[247] Şah Veliyullah Dihlevi, «Hüccetullahil-Baliğa», (tərcüməçi, prof. dr. Mehmet Erdoğan), göstərilən qaynaq, s. 61-74.

[248] Mevdudi, «Tefhimul-Kuran» (Kuranın anlamı ve tefsiri), İstanbul, 1997, c. IV, s. 465.

## TƏSƏVVÜFƏ GÖRƏ ƏMANƏT ANLAYIŞI

Təsəvvüf terminologiyasında əmanət anlayışı «bari-əmanət» («əmanət yükü») adlanır.[249]

Təsəvvüf anlayışına görə, uca Allah (c.c) ruhları yaradarkən onlardan: «Mən sizin Rəbbiniz deyiləmmi?» - deyə soruşmuş, ruhlar da: «Bəli, Siz bizim Rəbbimizsiniz», - deyə cavab vermişlər. Təsəvvüf anlayışına görə, ələs bəzmində (uca Allaha (c.c) ruhların söz verdiyi məclisdə) ruhların verdiyi bu söz, əhd əmanətdir. Onların bu görüşü Qurana əsaslanır. Qurani-Kərim buyurur:

وإِذْ أَخَذَ ربك من بني آدم من ظُهورِهم ذُريتَهم وأَشْهدهم على
أَنفُسِهم أَلَستَ بِربكُم قَالُواْ بلى شَهِدنَا أَن تَقُولُواْ يوم الْقيامة إِنا كُنا
عن هذَا غَافلين أَو تَقُولُواْ إِنما أَشْرك آباؤُنَا من قَبلُ وكُنا ذُريةً من
بعدهم أَفَتُهلكُنَا بِما فَعلَ الْمبطلُون

(əl-Əraf, 7/172-173)

«(Ey Peyğəmbərim!) Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxarıb onları özlərinə (bir-birinə) şahid tutaraq: «Mən sizin Rəbbiniz deyiləmmi?» - soruşmuş, onlar da: «Bəli, Rəbbimizsən! – deyə cavab vermişdilər. (Belə bir şahidliyin səbəbi) qiyamət günü: «Biz bundan qafil idik», ya da: «Atalarımız daha əvvəl (Allaha) şərik qoşmuşdular, biz də onlardan sonra gələn bir nəsil idik (onların izi ilə getdik). Məgər bizi batilə uyanların (haqq yoldan sapanların) törətdikləri əməllərə görə məhv edəcəksən?» - deməməniz üçündür».

---

[249] Secadi, Seyid Cəfər, «Fərhənge Lüğəte istilahate təbirate irfan», Tehran, 1339.

Hz. Nizami beytdə həm hz. Məhəmmədi (s.a.s), həm də Cəbraili (ə.s) «əmin» adlandırmışdır. Burada «əmin» sözü onların günahsız olduğunu da ehtiva edir. Mələklər və peyğəmbərlər günah etməzlər.

Şairin təfsirində əmanət Qurani-Kərimdir. Hz. Məhəmməd (s.a.s) və Cəbrail (ə.s) uca Allahın (c.c) kitabının qoruyucusudur. Əmanət varsa, Onun qorunmağa ehtiyacı var. Əmanət ən etibarlı olanlara verilə bilər. Şairə görə, bu Quran əmanətini qoruyan, hərfinə belə, toxunmayan, inanılan varlıq hz. Məhəmməd (s.a.s) və Cəbraildir (ə.s). Əmanət dəyəri olan bir neməti ifadə edir. Bu dəyərli nemət xəzinədə saxlanılır. Şairə görə, hz. Məhəmməd (s.a.s) və Cəbrail (ə.s) xəzinədardır. Burada şair Peyğəmbərin qoruyuculuq missiyasını önə çəkmişdir. Şairin beytdə «xəzinə» sözünü seçməsinin səbəbi odur ki, bu söz həm Quran adlı ilahi nemətin dəyərini, ona olan ehtiyacı ifadə edir (xəzinədə dəyəri və qorunmağa ehtiyacı olan bir şey, insanların zəruri ehtiyacı olan nemət saxlanılar), həm də Peyğəmbərin qoruyuculuq missiyasına uyğundur. Çünki xəzinədar xəzinədə olanları qorumağa borcludur. Şair beytdə hz. Məhəmməd (s.a.s) və Cəbraili (ə.s) «əmin» və «xəzinədar» adlandırmaqla uca Allahın (c.c) onlara olan sevgisini, inamını, etibarını ifadə etmişdir.

Şair beytin ikinci misrasında deyir ki, islam Peyğəmbəri iblis kimi insanlardan, Cəbrail (ə.s) isə iblisdən uzaq idi. Öncəki misrada şair onları «əmin» adlandırır. Əmin insanın özəlliyinin biri də odur ki, o heç vaxt yalan danışmaz. O, iblis insanlardan uzaq idi, yəni şər, böhtan, yalan, riya, vəfasızlıq ona yad idi. Cəbrail (ə.s) də iblisdən uzaqdır, yəni pak və məsumdur. Onlara olan inamın səbəbi də budur. İblisin və iblis kimi insanların işi insanları uca Allahın (c.c) yolundan çıxarmaq, onları aldatmaqdır. Xəzinədar aldansa, xəzinədə olan nemətlər oğurlana bilər. Ona görə şair deyir ki, onlar iblislərdən uzaqdır, yəni onları aldatmaq olmaz, onların sözündə və əməlində yalan yoxdur.

## QIRX DOQQUZUNCU ADDIM: BİRİ KƏLAMI YERƏ ENDİRƏN, O BİRİ İSƏ AĞIL ƏMİNİDİR

آن امین خدای در تنزیل
واین امین خرد به قول و دلیل

***Biri Tanrının (kəlamını) yerə endirən əmin,***
***O biri isə (Tanrının) kəlam və göstərişi ilə***
***(silahlanmış) ağıl əmini.***[250]

Şair bu beytdə öncəki misralarda ifadə etdiyi «iki əmin» anlayışını şərh etmişdir. Beytin birinci misrasında şair Cəbrailə (ə.s) aid özəlliyi vermişdir. Onun vəhy mələyi olmasını önə çəkmişdir. O, vəhyi birbaşa uca Allahdan (c.c) alır, onun islam Peyğəmbərinə çatdırdığı ayələr ancaq uca Allaha (c.c) aiddir. Cəbrail (ə.s) uca Allahın (c.c) yanında o qədər etibar sahibidir ki, vəhyi (ilahi kəlamı) peyğəmbərə çatdırmaq ona buyrulur. Burada şair həm də Cəbrailin (ə.s) vəhyi çatdırmaq imkanı ilə yaradıldığına, onun başqalarından seçildiyinə, dörd böyük mələkdən biri olduğuna da işarə etmişdir.

Şair beytin ikinci misrasında islam Peyğəmbərinə aid özəlliyi önə çəkmişdir. Şair deyir ki, islam Peyğəmbəri uca Allahın (c.c) kəlam və buyruğu ilə silahlanmış ağıl əminidir. **Burada bir neçə məna var. Şairə görə, hər şeydən öncə Peyğəmbər «ağıl əminidir», yəni Onun kamil, zəki, iti, doğru ilə yalanı bir-birindən seçən, insanlara doğru yolu göstərən, etibarlı ağlı var, o, məsələlərin doğru həll yolunu bilir.**

Dünyada ağıllı insanlar çoxdur. Ancaq şair Peyğəmbəri onlardan ayırmışdır. Şair deyir ki, o, «ağıl əminidir», bu-

---

[250] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

nunla birgə, Onun ağlı uca Allahın (c.c) kəlamı ilə dəstəklənir, ona arxalanır. O, uca Allahın (c.c) buyruğu ilə hərəkət edir. O, özündən bir şey söyləmir, dedikləri ilahi kəlamdır, O, özbaşına hərəkət etmir, uca Allahın (c.c) göstərişlərini yerinə yetirir. İlahi kəlam və buyruqla hərəkət edən «ağıl əmini» o deməkdir ki, Onun çaşmaq ehtimalı yoxdur, Onun dedikləri doğrudur.

**Uca Allah (c.c) Qurani-Kərimdə peyğəmbərlərin sifətlərini və vəzifələrini belə təqdim etmişdir. Onlar əmin insanlardır:**

إِني لَكُم رسولٌ أَمين

(əş-Şüəra, 26/107)

«Şübhəsiz ki, mən sizin üçün etibar olunası (bel bağlanılası) bir peyğəmbərəm! (Vədimə xilaf çıxmaz, əmanətə xəyanət etmərəm)».

Peyğəmbərlərin əmin sifəti başqa ayələrdə də buyurulmuşdur.[251]

Onlar uca Allahın (c.c) əmr və qadağalarını insanlara olduğu kimi, toxunmadan çatdırırlar:

أُبلغُكُم رِسالات ربي وأَنصح لَكُم وأَعلَم من اللّه ما لا تَعلَمون

(əl-Əraf, 7/62)

«Mən sizə Rəbbimin əmrlərini təbliğ edir və öyüd-nəsihət verirəm. Allahdan (gələn vəhy ilə) sizin bilmədiklərinizi bilirəm!»

Peyğəmbərlərin uca Allahın (c.c) əmrlərini təbliğ etdiklərini buyuran başqa ayələr də var.[252]

Hz. Nizami deyir ki, hz. Məhəmməd (s.a.s) uca Allahın (c.c) kəlamı və buyruqları ilə silahlanmış ağıl əminidir.

[251] əş-Şuəra, 26 /125, 142, 162, 178.
[252] əl-Əraf, 7 /64, 79, 93.

Yəni Onun buyurduqları uca Allahın (c.c) sözüdür. Quran bu fikri birbaşa təsdiq edir:

وإذا تُتْلى عليهم آياتُنَا بينَات قَالَ الذين لاَ يرجون لِقَاءنَا ائْت بِقُرآنٍ غَيرِ هـذَا أَو بدلْه قُلْ ما يكُون لِي أَن أُبدلَه من تلْقَاء نَفْسي إِن أَتبِع إِلا ما يوحى إِلَي إِني أَخَافُ إِن عصيتُ ربي عذَاب يومٍ عظيمٍ

(Yunus, 10 / 15)

«(Müşriklərə) ayələrimiz açıq-aydın oxunduğu zaman (qiyamət günü haqq-hesab üçün) Bizim qarşılaşacaqlarına ümid etməyənlər: «Bundan ayrı bir Quran gətir, ya da onu dəyişdir!» - deyərlər. **Onlara de: «Mən onu özbaşına (istədiyim kimi) dəyişə bilmərəm. Mən ancaq mənə gələn vəhyə tabe oluram. Əgər Rəbbimə asi olsam (müsibəti) böyük günün (qiyamət gününün) əzabından qorxuram».**

Hz. Nizami deyir ki, O, «ağıl əminidir». O, uca Allahdan (c.c) başqa bir kimsədən qorxmaz:

الذين يبلغُون رِسالَات الله ويخْشَونَه ولَا يخْشَون أَحداً إِلَا الله وكَفَى بِالله حسيباً

(əl-Əhzab, 33 / 39)

«O Peyğəmbərlər ki, Allahın hökmlərini (onlara verdiyi risaləti) təbliğ edər, (risaləti tərk etməkdə) Ondan çəkinər və Allahdan başqa heç kəsdən qorxmazlar. Allah özü haqq-hesab çəkməyə kifayətdir».

O, «ağıl əminidir», yəni ancaq doğru söz danışır:

واذْكُر في الْكتَابِ إِدرِيس إِنه كَان صديقاً نبِياً

(Məryəm, 19 /56)

«(Ey Rəsulum!) Kitabda (Quranda) İdrisi də yad et! O, həqiqətən, büsbütün doğru danışan bir kimsə (siddiq) – bir peyğəmbər idi».

O, «ağıl əminidir», yanılmaz, insanlara bilmədikləri, bilməyəcəkləri şeyləri – vəhyi öyrədir. Bu peyğəmbərlərin vəzifəsidir:

قَالَ يا قَوْمِ لَيْسَ بِي ضَلاَلَةٌ وَلَكِنِّي رَسُولٌ مِّن رَّبِّ الْعَالَمِينَ أُبَلِّغُكُمْ رِسَالاَتِ رَبِّي وَأَنصَحُ لَكُمْ وَأَعْلَمُ مِنَ اللّهِ مَا لاَ تَعْلَمُونَ

(əl-Əraf, 7/61-62)

«(Nuh) dedi: «Mən (haqq yoldan) heç azmamışam, ancaq mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm! Mən sizə Rəbbimin əməllərini təbliğ edir və öyüd-nəsihət verirəm. Allahdan (gələn vəhy ilə) sizin bilmədiklərinizi bilirəm!».

O, «ağıl əminidir», Onun ağlı uca Allahın (c.c) nuru ilə nurlanmışdır. O, nurlanmış, əmin ağlının nuru ilə insanlara uca Allahın (c.c) ayələrini oxuyur, onlara Kitab və hikməti öyrədir, onları maddi və mənəvi kirlərdən təmizləyir:

رَبَّنَا وَابْعَثْ فِيهِمْ رَسُولاً مِّنْهُمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِكَ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَيُزَكِّيهِمْ إِنَّكَ أَنتَ العَزِيزُ الحَكِيمُ

(əl-Bəqərə, 2 / 129)

«(Onlar yenə dedilər:) «Ey Rəbbimiz! Onların (nəslimizin) içərisindən özlərinə elə bir peyğəmbər göndər ki, Sənin ayələrini (hökmlərini) onlara oxusun, (Sən göndərən) Kitabı (Quranı) və (oradakı) hikməti onlara öyrətsin, onları (günahlardan) təmizləsin! Həqiqətən, Sən yenilməz qüvvət, hikmət sahibisən».

O, «ağıl əminidir», insanlardan heç bir şey istəmir, O, mükafatını axirətdə uca Allahdan (c.c) alacağına əmindir:

وَمَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلَّا عَلَى رَبِّ الْعَالَمِينَ

(əş-Şuəra, 26 / 109)

«Mən bunun (dini, risaləti təbliğ etməyin) müqabilində sizdən heç bir muzd (əvəz) istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir».

Hz. Nizami deyir ki, hz. Məhəmməd (s.a.s) «əmanətin xəzinədarıdır», «əmindir», «ağıl əminidir», «Onun ağlı uca Allahın (c.c) kəlam və buyruqları ilə nurlanmışdır». O, uca Allahın (c.c), mələklərin və insanların inandığı, əmin olduğu, ilahi xəzinənin tapşırıldığı mübarək insandır.

## HƏZRƏT NİZAMİ: «MƏN HƏR ELMİ ÖYRƏNDİM»

***Hər elmdə mən bir dəftər bəzəmişəm,***
***Hər bir inci fikir üçün tez qələmə əl atmışam.***

***Hər bir elmdən mən ziya almışam,***
***Hər bir elmdə mən əvəzsizəm.***

## ƏLLİNCİ ADDIM:
## O, KƏLAMIN SİRRİNƏ QULAQ ASIR

آن رساند آنچه بود شرط پیام
وین شنید آنچه بود سر کلام

*O, göndərilmiş sifarişləri sahibinə çatdırır,*
*Bu isə kəlamın sirrinə qulaq asırdı.*[253]

Şair «iki əmin» adlandırdığı Cəbrail (ə.s) ilə hz. Məhəmmədin (s.a.s) uca Allahın (c.c) müəyyən etdiyi vəzifəsini təqdim edir. Onların ikisi də «əmanətin xəzinədarıdır», ikisi də «əmindir», ikisi də iblisdən uzaqdır, biri uca Allahın (c.c) kəlamını yerə endirir, o biri uca Allahın (c.c) kəlamı və buyruğu ilə nurlanmış ağıl əminidir, onlar çaşmaz, qorxmaz, yalan söyləməz, Onlar uca Allaha (c.c) təslim olmuşlar, Onlar «qulağına qulluq» halqası taxmışlar.

Şair deyir ki, əmin olan Cəbrailin (ə.s) vəzifəsi göndərilmiş sifarişləri sahibinə çatdırmaqdır. Burada «göndərilmiş sifarişlər» deyərkən vəhy yolu ilə nazil edilən ayələr nəzərdə tutulur. Ayələri göndərən uca Allahdır (c.c), sifarişi çatdıran Cəbraildir (ə.s), sifarişi qəbul edən hz. Məhəmməddir (s.a.s). Şair Cəbrailin (ə.s) əmin sifətini bir də ona görə önə çəkmişdir ki, merac müjdəsini gətirən də Cəbraildir (ə.s), onun bir xəbəri də doğrudur.

Beytin ikinci misrasında deyilir ki, hz. Məhəmməd (s.a.s) kəlamın sirrinə qulaq asır. Burada şair islam Peyğəmbərinin ilahi vəhyi Cəbraildən (ə.s) qəbul etmək şəklinə işarə etmişdir.

«Vəhy» dil termini olaraq sürətli işarə, kitabət, risalət, ilham, gizli kəlam mənalarında işlədilmişdir. Dini termin

---

[253] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

olaraq isə uca Allahın (c.c) dilədiyini peyğəmbərlərinə istədiyi şəkildə bildirməsidir:

وما كان لبشرٍ أن يكلمه الله إلا وحياً أو من وراء حجابٍ أو يرسل

رسولاً فيوحي بإذنه ما يشاء إنه علي حكيم

(əş-Şura, 42 /51)

«Allah bəşər övladı ilə ancaq vəhylə, ya da pərdə arxasından danışar. Ya da bir elçi (mələk) göndərər ki, o da Allahın izni ilə (göndərildiyi kimsəyə) Onun istədiyini vəhy edər. Həqiqətən, O (hər şeydən) ucadır, hikmət sahibidir!».

Vəhyin çeşidləri var. Onlardan birincisi yuxuda görülən və görüldüyü kimi doğru olan (çıxan) yuxu tərzidir.[254]

Vəhy Peyğəmbərə ayıq olduğu zaman gəldiyi kimi, yuxuda da gəlmişdir. Peyğəmbərlərin yuxuları vəhydir.[255]

İbrahim peyğəmbərə (s.a.s) oğlu İsmayıl (s.a.s) ilə bağlı vəhy – ilahi əmr yuxuda verilmişdi.[256]

Peyğəmbərlərin gözləri yatsa da, qəlbləri yatmaz.[257]

Hz. Məhəmməd (s.a.s) bir mübarək hədisində buyurur: «Ey Aişə! Mənim gözlərim yatır, qəlbim yatmaz!».[258]

Başqa bir hədisdə isə belə buyurur: «Mənə (Ey Məhəmməd! Gözlərin yatsın, qulağın eşitsin, qəlbin əzbərləsin!) buyruldu. Gözlərim yatdı. Qəlbim əzbərlədi. Qulağım da eşitdi».[259]

Vəhyin verilməsinin ikinci yolu vəhy ediləcək kəlamın mələk görünmədən Peyğəmbərin qəlbinə yerləşdiril-

---

[254] Ahmed b. Hanbel, «Müsned», c. VI, s. 232-233; Buxari, «Sahih», c. I, s. 3; Müslim, «Sahih», c. I, s. 139-140.
[255] Buxari, «Sahih», c. I, s. 209; Hakim, «Müstedrek», c. II, s. 431.
[256] Saffat, 37/102.
[257] Ahmed b. Hanbel, «Müsned», c. I, s. 274; Buxari, «Sahih», c. IV, s. 168.
[258] İbn Sad, «Tabakat», c. I, s. 197; Darimi, «Sünən», c. I, s. 15.
[259] Ahmed b. Hanbel, «Müsned», c. VI, s. 36.

məsidir.[260] Uca Allah (c.c), Cəbrailə (ə.s) ilahi xitabı qəbul etmək, ilahi əmri təbliğ etmək imkanı, elmi vermişdir. Peyğəmbərə də elə bir elm vermişdir ki, o, qəlbinə yerləşdirilən şeyin mücərrəd bir ilham olmadığını, Cəbrailin (ə.s) uca Allahdan (c.c) gətirdiyi bir vəyh olduğunu qəti olaraq bilirdi.[261]

Peyğəmbər bir hədisində buyurur: «Heç şübhəsiz, Ruhul-qüds (Cəbrail (ə.s) qəlbimə bunu yerləşdirdi və vəhy etdi: «Heç bir nəfs əcəli tamam olmadıqca, ruzisini tam almadıqca ölməz! Ona görə də Allahdan (c.c) çəkinin, ruzinizi gözəl və qanuni yollarla qazanın. Halal olanı qazanın, haram olandan uzaqlaşın! Ruziniz geciksə, onu uca Allahın (c.c) haram saydığı yollarla əldə etməyə çalışmayın. Çünki uca Allahın (c.c) yanındakı şeyi Ona itaətdən başqa bir yolla əldə etmək olmaz (Ancaq Ona itaətlə əldə etmək olar)».[262]

Vəhyin verilməsinin üçüncü yolu vəhy mələyinin insan şəklinə girərək vəhy ediləcək şeyi bir insanın başqa bir insana verməsi kimidir.[263] Peyğəmbər buyurur: «Bəzən mələk mənə görə insan surətinə girir, mənimlə danışır. Mən də Onun söylədiklərini dəqiq yadda saxlayıram. Bu, mənə vəhyin ən asan olanıdır».[264]

Cəbrail (ə.s) çox zaman islam Peyğəmbərinə əshabdan olan Dihyə bin Xəlifənin şəklində görünürdü.[265]

Vəhyin verilməsinin dördüncü yolu vəhyin dəhşətli bir səs, uğultu kimi çatdırılmasıdır.[266]

---

[260] Kastalani, «Mevahib», c. I, s. 55.
[261] Kastalani, «Mevahib», c. I, s. 55.
[262] İbn Macə, «Sünən», c. II, s. 725; Kurtubi, «Tefsir», c. VI, s. 53.
[263] İbn Sad, «Tabakat», c. I, s. 197.
[264] Taberi, «Tefsir», c. XXII, s. 91.
[265] İbn Sad, «Tabakat», c.III, s. 250; Ahmed b.Hanbel, «Müsned», c. II, s. 107.
[266] İbn Sad, «Tabakat», c. I, s. 198.

Peyğəmbər buyurur: «Vəhy bəzən mənə dəhşətli bir səs, uğultu kimi gəlirdi. Vəhyin ən ağırı da bu idi! Vəhy halı yox olanda mələyin mənə söyləmiş olduğunu dəqiq yadımda saxlayırdım!».[267]

Eşidilən dəhşətli səs ya mələyin öz səsi, ya da qanadlarının uğultusu idi.[268] Vəhyin bu yolla verilməsinin hikməti onu qəbul etmək və yadda saxlamaq üçün Peyğəmbərin qəlbini səfərbər etmək, onu bu işə hazırlamaq, qulağının və qəlbinin vəhy mələyinin səsindən başqa bir səsi eşitməməsi üçün idi.[269]

Hz. Nizami deyir ki, mələk sifarişi (vəhyi) Peyğəmbərə çatdırır, Peyğəmbər isə vəhyin verilmə zamanı susurdu, təlimata görə o danışa bilməzdi. Peyğəmbərdən vəhyin gəlişini hiss edib-etmədiyi soruşulanda belə cavab vermişdir: «Bəli, səsi eşidirəm və susuram. Vəhy veriləndə elə bilirəm ki, sanki ruhumu alırlar».[270]

Təfsir kitablarında uca Allahın (c.c) vəhyi göndərməyi qərara aldığı zaman Onun əmrinin qorxusundan göylərin şiddətlə titrədiyi bildirilir.[271]

Mələklər də ilahi kəlamı düz və sərt bir qayaya çarpılan dəmir zəncirinin çıxardığı qorxunc səs kimi eşidirlər.[272] Uca Allahın (c.c) kəlamı qarşısında heyrətə gəlirlər, qanadlarını çırpırlar, özlərindən gedib səcdəyə qapılırlar.[273] Səcdədən başını ilk qaldıran Cəbrail (ə.s) olur. Uca Allah (c.c) istədiyi vəhyi ona söyləyər.[274] Cəbrail (ə.s) mələklərin

---

267 Ahmed b. Hanbel, «Müsned», c. VI, s. 158; Buxari, «Sahih», c. I, s.2-3.
268 Zürkani, «Mevahibül-Ledünniye şerhi», c. I, s. 228.
269 Bedrüddin Ayni, «Umdetül-kari», c. I, s. 40-41; İbn Hacer, «Fethul-bari», c. I, s. 49.
270 Ahmed b. Hanbel, «Müsned», c. II, s. 222.
271 Taberi, «Tefsir», c. XXII, s. 91.
272 Buxari, «Sahih», c. V, s.221; Tirmizi, «Sünen», c. V, s. 362.
273 Buxari, «Sahih», c. V, s.221; İbn Macə, «Sünen», c. I, s. 70.
274 Taberi, «Tefsir», c. XXII, s. 91.

yanına gələnədək onlar ayrılmazlar. Cəbrail (ə.s) onların yanına gələr. Cəbrail (ə.s) göy mərtəbələrində mələklərin yanına getdikcə onların qəlbindən qorxu götürülər. Mələklər ondan uca Allahın (c.c) nə buyurduğunu soruşar. «Haqqı buyurdu! Ən uca, ən böyük olan Odur!» - cavabını eşidərlər. Mələklər onun dediklərini təkrar edərlər.[275]

Vəhy enən zaman Peyğəmbər ağır bir sıxıntıya düşər, üzü kül kimi olar, gözlərini qapayar, başını önünə əyərdi, tez-tez nəfəs alardı, ən soyuq gündə belə, alnından inci dənələri kimi tər tökülürdü. Bu zaman Onun yanında olanlar üzünə baxa bilmirdilər. Vəhyin ağırlığı, ya da yüngüllüyü enən surənin mahiyyətinə uyğun olurdu. Vəhy Peyğəmbər dəvənin üstündə olarkən gələndə dəvə onun ağırlığına dözə bilmirdi, ayaqları iki yana ayrılırdı, bükülürdü, az qalırdı qırılsın, bəzən də dəvə çökürdü.[276]

Vəhyin verilməsinin beşinci yolu Cəbrailin (ə.s) uca Allahın (c.c) onu yaratdığı şəkli ilə Peyğəmbərə görünərək Ona vəhy çatdırmasıdır. Bu iki dəfə olmuşdur. Peyğəmbər, Cəbraili (ə.s) altı  yüz qanadı ilə birgə görmüşdür. Bu zaman Cəbrail (ə.s) yerlə göy arasını tutmuşdu.[277]

Vəhyin verilməsinin altıncı yolu merac gecəsində olduğu kimi, göy üzündə, ən uca mərtəbədə, Peyğəmbər ayıq olarkən uca Allahın (c.c) onunla pərdə arxasından, vəhy mələyi olmadan danışmasıdır.[278]

Hz. Nizami mələyin «göndərilmiş sifarişləri sahibinə çatdırması» deyərkən vəhyin yuxarıda göstərilən verilmə şəkillərini nəzərdə tutmuşdur. Şair deyir ki, hz. Məhəmməd

---

[275] Kurtubi, «Tefsir», c. XIV, s. 296.

[276] Ahmed b. Hanbel, «Müsned», c. V, s. 327; Müslim, «Sahih», c. III, s. 1317; Müslim, «Sahih», c. IV, s. 1817; Malik, «Muvatta», c. I, s. 203; İbn Sad, «Tabakat», c. I, s. 198; Nesai, «Sünen», c. II, s. 149.

[277] Ahmed b. Hanbel, «Müsned», c. I, s. 395; Müslim, «Sahih», c. I, s. 159.

[278] Kastalani, «Mevahib», c. I, s. 56.

(s.a.s) də uca Allahın (c.c) kəlamının sirrinə qulaq asırdı. Burada şair vəhyin verilməsi zamanı Cəbarillə (ə.s) Peyğəmbərin münasibətinə işarə etmişdir. Cəbrail (ə.s) vəhyi söyləyir, Peyğəmbər isə susaraq qulaq asır. Bu, uca Allahın (c.c) təlimatıdır. İlk dönəmlərdə hz. Məhəmməd (s.a.s) mələk vəhy edərkən onun dediklərini təkrar edirdi. Ancaq bu yol, metod məqbul sayılmadı. Uca Allah (c.c) ona ancaq qulaq asmağı buyurdu. Buradan bir elm öyrənmək ölçüsü də çıxarmaq olar. Yəni bir elmi dərindən öyrənməyin yolu müəllimə diqqətlə qulaq asmaqdır. Dinlə, yadda saxla, qavra, anla, tətbiq et – bu elm öyrənməyin yoludur. Öncə diqqətlə, hər şeyi unudaraq dinləyəcəksən, səfərbər olacaqsan, dinlədiyini yadda saxlayacaqsan. Sonra dinlədiyin elmi təhlil edərək qavrayacaqsan. Niyə, nə üçün suallarına cavab verəcəksən və biliyini tətbiq edəcəksən.

Şair deyir ki, «O, kəlamın sirrinə qulaq asırdı». Burada «sirr» sözü vəhy yolu ilə verilən ayələrin mənasını, bu ayələrdə verilən dini hökmlərin mahiyyətini bildirir. Yəni Peyğəmbər vəhyi dinləyir və uca Allahın (c.c) verdiyi ölçüləri müəyyən edir. Çünki o, bu ölçüləri təbliğ etməli və insanların düşüncəsinə yerləşdirməlidir.

## ƏLLİ BİRİNCİ ADDIM:
## O, MURAD GÜNƏŞİ İLƏ NAXIŞLANDI

در شب تیره آن سراج منیر
شد ز مهر مراد نقش پذیر

***Qaranlıq gecədə o işıqlı çıraq (Məhəmməd),***
***Murad günəşi ilə naxışlandı.***[279]

Şair bu beytdə merac səfəri ilə bağlı müjdə xəbərinin Peyğəmbərin ürəyincə olduğunu ifadə etmişdir. Şair beytdə bədii təzaddan istifadə etmişdir. O, qaranlıq gecədə hz. Mə-

---

[279] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

həmmədi (s.a.s) «işıqlı çırağa» bənzətmişdir. Şairə görə, bu qaranlıq gecədə Peyğəmbər aləmi nura qərq etmişdi. Burada «işıqlı çıraq» bənzətməsi həm də merac müjdəsi xəbərini eşidən Peyğəmbərin halını da ifadə edir. Yəni bu müjdə xəbəri onu sevincə qərq etdi, o, çıraq kimi yandı. Çünki murad günəşi ilə naxışlanmışdı.

**Beytdə «murad günəşi naxışlandı» bədii fikri bir neçə mənada işlənmişdir. Yəni hz. Məhəmməd (s.a.s) müjdə xəbərini eşitdi, arzusu çin oldu, bu dəvət ürəyincə oldu, istəkləri yerinə yetdi, sevincdən bir günəş kimi par-par yandı. O, bu murad günəşinin işığında həqiqətləri gördü, uca Allahın (c.c) Ona verdiyi dəyəri bildi, bəxtinə günəş doğdu, çətinlikdən, sıxıntıdan xilas oldu.**

Şair beytdə uca Allahın (c.c) merac dəvətinin Peyğəmbərdə oyatdığı duyğuları ifadə etmək üçün işıq obrazından istifadə etmişdir. Beytdəki «işıq», «çıraq», «murad günəşi», «naxışlandı» kimi sözlər bu məqsədə xidmət edir. Gecə göydə Günəş olmaz, ancaq merac gecəsi hz. Məhəmməd (s.a.s) murad günəşi ilə naxışlanır, bəzənir. Onun üçün bu gecə bir aydın gündüz kimi olur. «Murad günəşi» ifadəsi həm də merac müjdəsi mənasında işlədilmişdir. Yəni bir «murad günəşi» - arzunun, istəyin gerçəkləşdiyini ifadə edən müjdə xəbəri Onun ömrünün bəzəyinə çevrildi, Onun ən işıqlı gecəsi oldu.

## ƏLLİ İKİNCİ ADDIM:
## QIZIL HALQANI ANCAQ BELƏ TAXMAQ OLAR

گردن از طوق آن کمند نتافت
طوق زر جز چنین نشاید یافت

*O, öz boynunu həmin kəməndin halqasından*
*qaçırmadı,*
*Qızıl halqanı ancaq belə taxmaq olar.*[280]

[280] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

Hz. Nizami bu beytdə islam Peyğəmbərinin merac dəvətini qəbul etməsini bədii bir biçimdə təsvir etmişdir. Artıq merac müjdəsi verilib, Onun «murad günəşi» yanıb, Peyğəmbər sevinc içərisindədir. O, uca Allahın (c.c) dəvətini sevə-sevə qəbul edir. Şairin təqdimində Peyğəmbər bir qul kimi təsvir edilmişdir. Burada məqsəd Peyğəmbərin uca Allaha (c.c) olan itaətini, təslimiyyətini, sevgisini göstərməkdir. O, uca Allaha (c.c) bir qul kimi təslim olur.

Şair bu ideyanı vermək üçün deyir ki, O, öz boynunu həmin kəməndin halqasından qaçırmadı. Burada «kəməndin halqası» ifadəsi uca Allahın (c.c) buyruğu, merac dəvəti, müjdə xəbəri mənalarında işlədilmişdir. O, boynunu kəməndin halqasından qaçırmadı, yəni uca Allahın (c.c) dəvətini, sevə-sevə, inanaraq, itaət edərək, təslimiyyət ruhu ilə qəbul etdi. Bu ifadə uca Allahla (c.c) Peyğəmbər arasındakı münasibətin ölçüsünü dəqiq ifadə edir. Peyğəmbər uca Allahın (c.c) buyruqlarına sözsüz, etirazsız itaət edən insandır. Bu münasibət sevgi və itaət üzərində qurulub.

Ancaq Peyğəmbərin boynuna keçirilən kəməndin halqası adi qulların boynunda olan halqadan deyil. Bu, qızıl halqadır. Burada «qızıl halqa» ifadəsi həm qulluq anlayışını, həm də uca Allahın (c.c) dəvətini ifadə edir. **Merac dəvəti qeyri-adi bir dəvət olduğuna görə, şair onu «qızıl halqa» adlandırmışdır. Burada həm də o nəzərdə tutulmuşdur ki, heç kimin itaəti Peyğəmbərin uca Allaha (c.c) olan itaətinə bənzəməz.** Peyğəmbər uca Allahı (c.c) ən çox tanıyan, Ondan ən çox qorxan, Onu ən çox sevən, Ona ən çox itaət edən insandır. Onun qulluq halqası fərqlənir. Bu halqa qızıldandır. Şair beytdə deyir ki, «qızıl halqanı belə taxarlar». Yəni uca Allahın (c.c) dəvətindən imtina etmək olmaz. Peyğəmbərə yaraşan dəvəti sevə-sevə, təslimiyyət ruhu ilə qəbul etməkdir. Peyğəmbər və hər bir insan üçün ən böyük şərəf uca Allaha (c.c) qul olmaqdır.

## ƏLLİ ÜÇÜNCÜ ADDIM:
## O, ƏRƏB ATININ ÜSTÜNDƏ İDİ

برق کردار بر براق نشست
تازیش زیر و تازیانه به دست

***O, şimşək kimi Burağa mindi,***
***Ərəb atı (altında), qamçı əlində.***[281]

Şairin təqdiminə görə, artıq Peyğəmbərə müjdə xəbəri verilmiş, O, uca Allahın dəvətini sevə-sevə qəbul etmişdir. İndi Peyğəmbər göylərə «uçmağa» hazırlaşır. Burada şair yenə Buraq adlı miniyi yada salır. Şair deyir ki, o çox sürətlidir, Peyğəmbəri bir an içərisində uca Allahın (c.c) hüzuruna çatdıracaq. Şair, Buraqın sürətini ifadə etmək üçün onu şimşəyə bənzətmişdir.

Peyğəmbərin merac səfərinə hazırlığının başqa bir əlaməti Onun ərəb atının üzərində olmasıdır. Ərəb atı da divan şeirində çox öyülmüş, dillərdə dastan olmuşdur. Ərəb atı sürəti və gözəlliyi ilə seçilən bir atdır. Şair Buraqı sürətinə görə, həm şimşəklə müqayisə etmiş, həm də onu ərəb atına bənzətmişdir. Beytdə Peyğəmbərin merac səfərinə yola düşməyə hazırlaşdığının bir əlaməti də əlində qamçının olmasıdır. Ərəb atı Onun əlindəki qamçının bir işarəsinə bənddir.

## ƏLLİ DÖRDÜNCÜ ADDIM:
## BURAQ KƏKLİK KİMİ YERİNDƏN SIÇRADI

چون در آورد در عقابی پای
کبک علوی خرام جست ز جای

***O şahin (qanadlıya) ayağını qoycaq,***
***Ucalarda süzən kəklik (kimi) yerindən sıçradı.***[282]

---

[281] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.
[282] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.

Şair bu beytdə Buraq adlı miniyi şahinə bənzətmişdir. Şairə görə, Buraq şimşək sürətlidir, O, yerişdə ərəb atına, uçuşda şahinə bənzəyir. Şahin quşunun qanadları möhkəmdir, o, uzaq məsafələrə uça bilir. Daha sonra şair Buraqı kəklik quşuna bənzətmişdir. Şair deyir ki, Peyğəmbər ayağını şahin qanadlı Buraqın üzərinə qoyanda o ucalarda süzən kəklik kimi yerindən qalxdı. Kəkliyin həm yerişi, həm görünüşü, həm də uçuşu gözəldir. Şimşək kimi, ərəb atına bənzər, şahin qanadlı Buraq Peyğəmbərin əmrini gözləyir, Peyğəmbər onun üzərinə minən kimi hərəkətə başlayır. Beytdəki «şimşək», «ərəb atı», «qamçı», «şahin qanad», «ayağını qoycaq», «göylərdə süzmək» kimi söz və ifadələr hərəkət anlayışını ifadə edir, hərəkət üçün hər şeyin hazır olduğunu bildirir.

## ƏLLİ BEŞİNCİ ADDIM: KAVUS KƏCAVƏSİ KİMİ AYA TƏRƏF ÇAPDI:

برزد از پای پر طاووسی
ماه بر سر چو مهد کاووسی

***O (Buraq) tavus qanadlarına bənzər***
***ayaqlarını götürüb,***
***Kavus kəcavəsi kimi Aya tərəf çapdı.***[283]

Şair meracnamənin bu bölməsində Buraq adlı miniyi bütün əlamətləri ilə təsvir etmişdir. O, öncəki beytlərdə Buraqı şimşəyə, ərəb atına, şahinə, kəkliyə bənzətmiş, bu beytdə isə müqayisə yeri olaraq tavus quşunu seçmişdir. Şair deyir ki, onun ayaqları tavus quşunun qanadlarına bənzəyir. Bilindiyi kimi, tavus quşu çox gözəldir, ancaq onun qanadları əlvanlığı

---

[283] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.

və gözəlliyi ilə daha çox seçilir. Tavus quşunun qanadlarındakı rənglərin ahəngi, işığı insanı heyran edir. Elə buna görə də tavus quşu şairlərin diqqətini çəkmişdir.

Burada diqqəti çəkən başlıca məsələ odur ki, şair Buraq adlı miniyi çox gözəl bir biçimdə təqdim etmişdir. Bunun səbəbi odur ki, Buraq bu mübarək gecədə Peyğəmbəri merac səfərinə aparacaq. Bu gecə Peyğəmbərə sevgisini bildirmək məqsədi ilə səma cismləri ən gözəl «paltarını» geyindiyi üçün Buraq da bəzənmişdir. Başqa yöndən bu mübarək bir gecədir. Hər şey bu gecənin adına, bərəkətinə uyğun olmalıdır. Buraq mübarək bir yolçuluğa getdiyini, Peyğəmbəri uca Allahın (c.c) hüzuruna apardığını bildiyindən bu vəzifəni yerinə yetirmək üçün zəruri olan bütün hazırlıq işlərini görmüşdür. O, bütün yönləri ilə özəl bir minikdir. Şairə görə, ayaqları da tavus qanadları kimi gözəldir.

Şair beytin ikinci misrasında deyir ki, Buraq Kavus kəcavəsi kimi Aya tərəf çapdı. Kavus qədim İran eposunun və Firdovsinin «Şahnamə» dastanının əsas qəhrəmanlarından biridir, əfsanəvi İran şahıdır. Key-Kavusun oğlu Key-Xosrov uzun illər sürən müharibədən sonra Turanın xaqanı Əfrasiyaba qalib gəlmiş və imperiyanın qüdrətini artırmışdı. Ancaq hakimiyyətinin ən güclü vaxtında şahlıqdan imtina edib, böhranlı və qarlı dağlarda yox olmuşdur. Əfsanəyə görə, onun çox gözəl bir kəcavəsi olmuşdur. Bu kəcavə öz gözəlliyi ilə hamını heyrətə salırdı.

Burada şair Firdovsinin «Şahnamə» əsərində olan bir hadisəyə də işarə etmişdir. Key-Kavus «Şahnamə» dastanının başlıca qəhrəmanlarından biridir. Bu əsərdə Firdovsi deyir ki, div və pərilərin vəsvəsəsi nəticəsində Kavus göylərə ucalmaq eşqinə düşür. Onun əmri ilə xüsusi bir kəcavə düzəldib, hər küncünə bir ağ şahin bağlayırlar və onların başının üstündə uzun nizələrin ucundan ət asırlar. Şahinlər əti yemək niyyəti ilə qanad çalaraq kəcavəni göyə qaldırır-

lar və bir müddətdən sonra gücdən düşərək kəcavəni bir uzaq meşəyə atırlar.

Şair də Merac gecəsi islam Peyğəmbərini gözəl bir kəcavədə təsvir etmişdir. Buraq merac gecəsi gözəl bir kəcavədə oturmuş Peyğəmbəri Aya doğru ucaltmağa başladı.

## ƏLLİ ALTINCI ADDIM:
## DOQQUZ FƏLƏK ÖZ GÖZLƏRİNDƏN ONA KƏCAVƏ DÜZƏLTDİ

نه فلک از دیده عماریش کرد
زهره و مه مشعله داریش کرد

***Doqquz fələk öz gözlərindən ona kəcavə düzəltdi,***
***Zöhrə və Ayı ona məşəltutan oldular.***[284]

Hz. Nizami bu beytdə bütün bənzətmələri merac gecəsinin ruhuna uyğun seçmişdir. Şair doqquz fələk deyərkən Ay (Qəmər), Merkuri (Utarid), Zöhrə (Venus), Günəş (Şəms), Mars (Mərrix), Yupiter (Müştəri), Saturn (Zühal), Bürclər, Atlas (Böyük fələk) fələklərini nəzərdə tutmuşdur. Bu fələklər göy üzündə ardıcıllıqla düzülmüşdür. Onların hər birinin özünəməxsus özəllikləri var. Şair deyir ki, bu fələklər öz gözlərindən ona kəcavə düzəltdi. **Göz anlayışında nur, işıq, görmək mənaları var. Bu fələklər merac gecəsi Peyğəmbərin yolunu nura qərq etdi. Bütün göy üzü Peyğəmbərin kəcavəsi oldu, Onun kəcavəsi nurdan idi.** Bir insanın kəcavəsinin olması onun hörmətini, nüfuzunu, dəyərini göstərir. Merac gecəsi uca Allahın (c.c) qonağı olan islam Peyğəmbərinin kəcavəsi də qeyri-adidir, bu kəcavə doqquz fələyin (planetin) gözünün nurundandır.

---

[284] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 27.

Şairin təsvirinə görə, Merac gecəsi Peyğəmbərin kəcavəsinin məşəltutanı Zöhrə və Ayıdır. Məşəltutanın vəzifəsi yolu, məkanı işıqlandırmaqdır.

Şair bu iki planeti bilərəkdən məşəltutan vəzifəsinə təyin etmişdir. Çünki Zöhrə fələyi göyün üçüncü mərtəbəsində yerləşir. Onun bir adı da «kiçik xöşbəxtlik»dir. Bu fələyə baxmaq insanın qəlbinə sevinc bəxş edir, o, çox gözəldir, işıqlıdır. Zöhrə fələyi merac gecəsi gözəl bəzənib, Peyğəmbərin yolunu gözlədi, Onun yoluna işıq saldı.

Məşəltutanların biri də Ayıdır. Ayı ulduzu da merac gecəsi bütün nuru ilə Peyğəmbərin yolunu işığa qərq etdi. Gözlərimiz önündə belə bir mənzərə canlanır. Merac gecəsi islam Peyğəmbəri doqquz fələyin gözündən düzəldilmiş kəcavədə Zöhrə və Ayının müşayiəti ilə göylərə ucalır. Burada ulduzların birinə nisbətən o birinin vəziyyətlərini yadda saxlamaq lazımdır. Bu işi asanlaşdırmaq üçün min illər bundan öncə insanlar parlaq ulduzları müəyyən qruplarda – bürclərdə birləşdirirdilər. Bu qruplara daxil olan ulduzların xəyalən düz xətlərlə birləşdiyini təsəvvür etdikdə onlar müxtəlif fiqurlar əmələ gətirirdi. Bu fiqurlar nəyi xatırladırsa, bürclərə də ona uyğun adlar verilirdi. Məsələn, Böyük Ayı, Qartal, Şir və başqaları. Bir sıra bürclərə isə oxşadıqları əşyalara uyğun adlar verilirdi. Məsələn, Dolça, Qalxan və başqaları.

Sonrakı dönəmlərdə bürclərə mifoloji qəhrəmanların adı verilmişdir. Məsələn, Əjdaha, İlan… Qədim ulduz xəritələrində bürclər həmin təsvirlərlə göstərilirdi. Bürclərin çoxunun adı heyvan adlarını daşıyır. «Zodiak» sözünün yunancadan tərcüməsi «heyvanlar dairəsi»dir. Zodiak qurşağına on iki bürc daxildir. Günəş bu bürclərin hər birindən təxminən bir ay müddətinə keçir. Ona görə də Zodiakdan qədim dövrlərdə bir növ təqvim kimi istifadə olunmuşdur. Müasir dövrdə astronomlar səksən səkkiz bürcdən ibarət

vahid beynəlxalq sistemdən istifadə edir. Bu sistemə görə, bürc dedikdə göy üzündə sərhədləri dəqiq müəyyən edilmiş müəyyən sahə başa düşülür.

Hz. Nizami də «Ayı məşəltutandır» deyərkən bu ulduzun xarakterini, onun parlaqlığını nəzərdə tutmuşdur.

## ƏLLİ YEDDİNCİ ADDIM: O, KAİNATIN HƏRƏMXANASINI TƏRK ETDİ

كرد رها در حرم كاينات
هفت خط و چار حد و شش جهات

***O, kainatın hərəmxanasında olan,***
***Yeddi iqlimi, dörd cəhəti, altı tərəfi tərk etdi.***[285]

Şair bu beytdə hz. Məhəmmədin (s.a.s) merac gecəsi məkanı, zamanı olan kainatı tərk edərək sonsuzluq aləminə yüksəlməsini bədii biçimdə ifadə etmişdir. Şair birinci misrada «kainatın hərəmxanası» ifadəsinə yer vermişdir. «Həram» sözü ərəbcədir. Qorunan yer, qorunan şeylər, qadağan olunmuş bölgə, toxunulmazlığı olan şeylər, pozulmayan qaydalar mənalarında işlədilir. Dini termin olaraq isə Məkkənin bir sıra yasaqların qüvvədə olduğu hissələri anlamındadır. Hacılar Məkkə ətrafında miqat deyilən yerdən içəri girərkən özləri üçün bir sıra yasaqlar müəyyən edən ehrama girərlər. Ehramlı olana heyvan öldürmək, bitki və ağaclara zərər vermək, savaşmaq, adam öldürmək kimi əməllər yasaqdır. Ona görə də miqatdan başlayan bölgə həram (toxunulmaz) sayılır. Həremeyn (iki toxunulmaz bölgə) deyiləndə Məkkə və Mədinə şəhəri başa düşülür. Peyğəmbər belə buyurmuşdur: «Hər peyğəmbərin həramı vardır. Mənim həramım Mədinədir».[286]

---

[285] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 27.
[286] «Müsnəd», 1/321.

Məkkədəki Kəbə ətrafında olan məscidə «əl-Məscidül-həram» deyilir. «Həram» kəlməsinə Quranda iki dəfə yer verilmişdir və bu söz Məkkə mənasında işlədilmişdir.

أولم يروا أنا جعلْنَا حرماً آمناً ويتَخَطفُ الناس من حولهم أفبِالْباطل يؤْمنُون وبنعمة الله يكْفُرون

(əl-Ənkəbut, 29/67)

«Məgər (müşriklər) ətraflarındakı (başqa şəhərlərdəki) adamlar qamarlanıb götürüldüyü (əsir alındığı, öldürüldüyü, qarət edildiyi) halda, (içərisində yaşadıqları Məkkəni) onlar üçün müqəddəs, qorxusuz-xətərsiz bir yer etdiyimizi görmürlərmi? İndi batiləmi inanırlar? Allahın nemətinimi danırlar?»

Məkkənin həram bölgə olmasının bir başqa mənası da müsəlman olmayanların ora girməsinin qadağan olmasıdır.

Peyğəmbər bir mübarək hədisində buyurur: «Allah yerləri və göyləri yaratdığı gün Məkkəni həram (müqəddəs, yasaq, qorunmuş) elan etdi. Qiyamətə qədər Allahın yasaqları ilə yasaqdır. Məndən öncə heç bir kimsə üçün Məkkənin toxunulmazlığı və yasaq bölgə olması dəyişmədiyi kimi məndən sonra da kimsə üçün dəyişməyəcək. Mənim üçün də sadəcə müvəqqəti olaraq bu hökm öz qüvvəsini itirmişdir. (Məkkə fəthi əsnasında olan vəziyyəti nəzərdə tutur). Onun ovu ovlanmaz, ağacı kəsilməz, ya da qoparılmaz, otu yolunmaz, aramaq şərti istisna orada olan itmiş mal götürülməz…».[287]

Hz. Nizami beytdə «kainatın hərəmxanası» deyərkən cismani aləmi nəzərdə tutmuşdur. Şairə görə, bu məkanın yeddi iqlimi, dörd cəhəti, altı tərəfi var. Yəni bu hərəmxananın məkanı, ölçüsü var. Yeddi iqlim – yeddi qat yer, dörd

[287] Buxari, «Meğazi», 53.

cəhət (şərq, qərb, cənub, şimal), altı tərəf (alt, üst, irəli, geri, sağ, sol) bu ölçülü məkanın göstəriciləridir.

## ƏLLİ SƏKKİZİNCİ ADDIM:
## GECƏ ONUN GƏLİŞİNDƏN VƏCDƏ GƏLDİ:

روز شده با قدمش در وداع
زامدنش آمده شب در سماع

***Gündüz onun gedişi ilə vidalaşdı,***
***Onun gəlişindən gecə vəcdə gəldi.***[288]

Şair bu beytdə gündüz və gecənin imkanlarından faydalanaraq beytin ideyasını gözəl təqdim etmişdir. Şairə görə, Peyğəmbərin merac səfəri gündüzə çox ağır təsir etmişdir. Bunu iki mənada başa düşmək olar. Gündüz kədərlidir, çünki merac səfəri gündüz deyil, gecə baş vermişdir. Gündüz gecəni qısqanır, merac nemətinin öz payına düşməsini arzulayır. Başqa yöndən isə Peyğəmbərdən ayrılmaq, bir an olsun belə, ondan ayrı düşmək ona ağır gəlir. Gündüz düşünür ki, o, parlaqlığını Peyğəmbərin nurundan alır. Əgər Peyğəmbərdən ayrılsa, onun işığı yox olacaq. Misradakı «vidalaşdı» feli ayrılığı, həsrəti, sevgini, ağrını gözəl ifadə edir. Şairə görə, gündüz Peyğəmbərə aşiqdir, onun nuruna möhtacdır.

Şair beytin ikinci misrasında deyir ki, gecə Onun gəlişindən vəcdə gəldi. Gecənin həyatında inanılmaz bir hadisə baş verdi. Gecə Peyğəmbərin nuru və merac səfərinin bərəkəti ilə gündüzə çevrildi. Gecə də Peyğəmbərə aşiqdir, Onun yolunu gözləyir. Şair gecənin Peyğəmbərə aşiqliyini, sevgisini ifadə etmək üçün «vəcdə gəlmək» felindən istifa-

---

[288] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 27.

də etmişdir. «Vəcd» ərəbcə tapmaq mənasını daşıyır. Bu söz təsəvvüfdə bir termin kimi işlədilir. Salikin (qəlbini təmizləyərək kamil insan adını qazanmaq üçün yola çıxan insan) özünü məcbur etmədən, bir istəyi olmadan qəlbinə gələn hala vəcd deyilir. Haqqın sirrinə qovuşduğu zaman ruhun çatdığı, əldə etdiyi təslimiyyətə də vəcd halı deyilir. Bir başqa yozuma görə, vəcd zikrin dadı duyulanda ruhun şövqün gücünə dözə bilməməsidir, aciz qalmasıdır. Başqa bir yozuma görə insanın iç dünyasının uca Allahın (c.c) bir lütfü ilə rahatlıq və sevincə qərq olmasıdır. Vəcdə gələn salik özündən keçər, özünü unudar.

**Beytdə şair deyir ki, gecə Onun gəlişindən vəcdə gəldi. Gecə sevincindən vəcdə gəldi, özünü unutdu, dəyişdi və gündüzə çevrildi. Vəcd halı insanı gözəlliyə doğru dəyişdirdiyi kimi, gecəni də gündüzə çevirmişdir.**

## ƏLLİ DOQQUZUNCU ADDIM:
## O, YUXUNUN ÜZƏNGİSİNİ ÇƏKDİ

دیده اغیار گران خواب گشت
کو سبک از خواب عنان تاب گشت

*Ona yad olanların gözləri ağır yuxuya daldı,*
*O isə cəld yuxunun üzəngisini çəkdi.*[289]

Şair bu beytdə bir kimsənin Peyğəmbərin merac səfərinə mane ola bilməyəcəyini bədii dillə ifadə etmişdir. Şair birinci misrada «yad olanlar» deyərkən Peyğəmbəri qəbul etməyənləri, ona inanmayanları, kafir və müşrikləri nəzərdə tutmuşdur. Onlar hər zaman Peyğəmbəri nəzarətdə saxlayırlar, Onun hər addımını izləyirlər, Onu gözdən qoymurlar. Şair deyir ki, uca Allah (c.c) onlara elə bir yuxu ver-

[289] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 27.

di ki, onlar Peyğəmbərin merac səfərinə getməsindən xəbərdar olmadılar. «Ağır yatmaq», «ağır yuxuya dalmaq» kimi ifadələr bu mənanı dəqiq ifadə edir.

Şair ikinci misrada deyir ki, O isə «cəld yuxunun üzəngisini çəkdi». Burada «cəld yuxunun üzəngisini çəkmək» həm merac gecəsinin ruhuna, həm də yadların təhlükəsindən qorunmaq istəyinə uyğundur. Belə ki, yatmamaq, hərəkət etmək, üzəngi çəkmək, tez getmək, gecə yol getmək merac gecəsinin əlamətləridir. Təhlükədən xilas olmaq üçün də «cəld yuxunun üzəngisini çəkmək» zəruridir.

## ALTMIŞINCI ADDIM: RUHU DİNCLİK MƏKANINA UÇDU

با قفس قالب ازين دامگاه
مرغ دلش رفته به آرامگاه

***Öz cisminin qəfəsilə bu (dünya) tələsindən,***
***Onun ürək quşu (ruhu) dinclik məkanına uçdu.***[290]

Şair bu beytdə «merac məkanının» özəlliklərini ifadə etmək üçün ölçüsü, zamanı, məkanı olan bu dünya ilə merac sonsuzluğunu müqayisə etmişdir. O, bu dünyanı «cism», «qəfəs», «tələ» sözləri ilə şifrələmişdir. Şair meracla ölçülü məkanı bədənlə ruhun müqayisəsi fonunda təqdim etmişdir. Şairə görə, bu dünya bir qəfəsdir, bir tələdir, onun nemətləri insanı aldadır və doğru olanları görməsinə imkan vermir.

Hz. Nizami insanın doğru düşünməsi, doğru yaşaması, xoşbəxt olması üçün bir gerçək dünya modeli təqdim edir. Bu modelə görə, insan bu dünyanın bir sınaq meydanı olduğunu anlamalı, bu dünyanın «axirətin tarlası» olduğunu

---

[290] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 27.

bilməlidir. Bu anlayışı qəbul etmədən dünyanın tələsindən xilas olmaq mümkün deyil.

Uca Allah (c.c) Qurani-Kərimdə bir çox ayələrdə insana dünya anlayışı təqdim edir. Qurana görə, bu göstərilənlər bir dünya tələsidir.

قُلْ إِن كَانَ آبَاؤُكُمْ وَأَبْنَآؤُكُمْ وَإِخْوَانُكُمْ وَأَزْوَاجُكُمْ وَعَشِيرَتُكُمْ وَأَمْوَالٌ اقْتَرَفْتُمُوهَا وَتِجَارَةٌ تَخْشَوْنَ كَسَادَهَا وَمَسَاكِنُ تَرْضَوْنَهَا أَحَبَّ إِلَيْكُم مِّنَ اللّهِ وَرَسُولِهِ وَجِهَادٍ فِي سَبِيلِهِ فَتَرَبَّصُواْ حَتَّى يَأْتِيَ اللّهُ بِأَمْرِهِ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ

(ət-Tövbə, 9/24)

«(Ey Rəsulum!) De: «Əgər atalarınız, oğullarınız, qardaşlarınız, övrətləriniz, qəbiləniz (qohumlarınızı), qazandığınız mallar, kasad olmasından qorxduğunuz ticarət, xoşunuza gələn məskənlər sizə Allahdan, Onun Peyğəmbərindən və Allah yolunda cihaddan daha əzizdirsə, Allahın əmri (əzabı) gəlincəyə qədər gözləyin. Allah fasiqləri doğru yola yönəltməz!».

اعْلَمُوا أَنَّمَا الْحَيَاةُ الدُّنْيَا لَعِبٌ وَلَهْوٌ وَزِينَةٌ وَتَفَاخُرٌ بَيْنَكُمْ وَتَكَاثُرٌ فِي الْأَمْوَالِ وَالْأَوْلَادِ كَمَثَلِ غَيْثٍ أَعْجَبَ الْكُفَّارَ نَبَاتُهُ ثُمَّ يَهِيجُ فَتَرَاهُ مُصْفَرًّا ثُمَّ يَكُونُ حُطَامًا وَفِي الْآخِرَةِ عَذَابٌ شَدِيدٌ وَمَغْفِرَةٌ مِّنَ اللَّهِ وَرِضْوَانٌ وَمَا الْحَيَاةُ الدُّنْيَا إِلَّا مَتَاعُ الْغُرُورِ

(əl-Hədid, 57/20)

«(Ey insanlar!) Bilin ki, dünya həyatı oyun-oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək və mal-dövləti, oğul-uşağı çoxaltmaqdan ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, onun yetişdirdiyi bitki (məhsul) əkinçilərin xoşuna gələr. Sonra o quruyar və sən onun saralıb-solduğunu, daha

sonra çör-çöpə döndüyünü görərsən. (Dünya malına aldananları) axirətdə şiddətli əzab, (dünya malına uymayanları isə) Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı aldanışdan (yalandan) başqa bir şey deyildir».

İslam Peyğəmbəri bir çox hədislərində insanın düşüncəsində sağlam bir dünya anlayışı formalaşdırmağı hədəf seçmişdir:

«Ey mənim ümmətim və əshabım! Ən gözəl həyata qovuşan dünya onu tərk etmədən öncə özü dünyanı tərk edəndir».[291]

«Dünyada elə ol ki, özünü bir qərib bil, ya da bir yolçu olduğunu qəbul et, ya da ölülərdən say. Ancaq bu yolla axirətə hazır ola bilərsən».[292]

«Dünya sevgisi bütün günah və xətanın başıdır».[293]

«Möminin bu dünyada bir şeyi artarsa, uca Allah (c.c) yanında dərəcəsi azalar, əvvəlki kimi olmaz».[294]

«Dünyanı tərk etmək qəlb və bədənlə rahatlığa qovuşmaqdır».[295]

«Dünya möminin zindanı, kafirin Cənnətidir».[296]

«Mömin özündən özü üçün, dünyasından axirəti üçün, gəncliyindən qocalığı üçün, sağlığından ölümü üçün tədarük və hazırlıq görsün. Çünki dünya sizin üçün yaradılmışdır. Siz də axirət üçün yaradılmışsınız. Öləndən sonra Cənnət və Cəhənnəmdən başqa bir yer yoxdur».[297]

---

[291] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 187.
[292] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 206, 219.
[293] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 207, 437.
[294] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 234.
[295] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 298.
[296] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 209.
[297] «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s.206, 219.

Peyğəmbərə görə, dünya lənətlənməlidir[298], dünyanı istəyənə dünya verilir[299], dünyaya könül bağlamaq olmaz[300], dünyaya bağlananı Allah sevməz[301], dünya fanidir[302], ölüm fikri dünya arzularını yox edir[303], dünyadan üz çevirəni Allah sevər[304], dünyada əbədi olmadığını bilmək zəruridir[305], dünya malı insanı həlak edər[306], dünya malı bir imtahandır[307], dünya həyatı yağmur kimidir[308]...

Hz. Nizamiyə görə, bu dünya bir tələdir, merac dünyası bu dünyanın ziddidir. Ona görə də merac gecəsi Onun ürək quşu (ruhu) dinclik məkanına uçdu. **Burada beytin ideyasını ifadə edən ən gözəl ifadə «dinclik məkanı»dır. Peyğəmbər merac gecəsi dinclik məkanına səfər etmişdir. Şair dinclik məkanı deyərkən nəyi nəzərdə tutmuşdur?**

**Şairə görə, dinclik məkanı göyün ən uca mərtəbəsidir. Dinclik məkanı ruhun nəfsin istəklərindən, tələsindən, əsarətindən xilas olduğu bir məkandır. Dinclik məkanı könlün ancaq uca Allah (c.c) sevgisi ilə dolduğu, uca Allah (c.c) sevgisindən başqa hər şeyin unudulduğu məkandır. Şair bu məkanın çox gözəl olduğunu, ruhun ora can atdığını ifadə etmək üçün ruhu bir quşa bənzətmişdir. Ruh sevdiyi dinclik məkanına uçur. Dinclik məkanı təmiz ruhların məkanıdır. Bu məkanda uca Al-**

---

298 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. I, s. 187.
299 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 220.
300 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 246.
301 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. II, s. 298.
302 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 438.
303 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 449.
304 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 209.
305 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 223.
306 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 182.
307 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 224, 225.
308 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 175-177.

**lahın (c.c) rəhməti bir yağış kimi yağır. Dinclik məkanı mələklərin məkanıdır.**

## ALTMIŞ BİRİNCİ ADDIM:
## MƏLƏKLƏRİN QOL-QANADI SINDI

مرغ پر انداخته یعنی ملک
خرقه در انداخته یعنی فلک

***Quşların, yəni mələklərin qol-qanadı sındı***
***(yorulub əldən düşdülər)***
***Fələklər isə (vəcdlə) xirqələrini çıxarıb atdılar.***[309]

Şair bu beytdə islam Peyğəmbərinin merac gecəsində yüksəlişinin mərhələlərini, səma cismlərinin Onu gördüyü anda keçirdiyi halı, mələklərin durumunu təsvir etmişdir. Şair birinci misrada deyir ki, mələklərin qol-qanadı sındı, yəni onlar yorulub əldən düşdülər. Şair demək istəyir ki, islam Peyğəmbəri göyün elə bir ucalığına yüksəldi ki, mələklər ora yüksələ bilmədi.

Şair bu misrada Peyğəmbərin yüksəliş sürətini də ifadə etmişdir. Yəni islam Peyğəmbəri elə sürətlə yüksəlirdi («uçurdu») ki, mələklər ona çata bilmirdi. Mələklərin yorulması, əldən düşməsi qeyri-adi bir şeydir. Ancaq bu merac gecəsinin özəlliyidir. Mələklər Onu gözdən qoymaq istəmir, Onunla birgə olmaq istəyir, ancaq Ona çatmaq mümkün deyil. Burada sürət həm də istəyi, cazibəni, eşqi uca Allaha (c.c) qovuşmaq iştiyaqını, itaəti göstərir. Peyğəmbər bir an içində sevdiyinə qovuşmaq istəyir.

**Göy üzündə fələklər onu görür, heyrətə gəlir, şövqündən coşub daşır. Şair fələklərin islam Peyğəmbərinə olan sevgisini ifadə etmək üçün «onlar xirqələrini çıxarıb atdılar» deyir. «Xirqə çıxarıb atmaq» irfan məc-**

---

[309] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 27.

**lislərində uca Allahın (c.c) zikri ilə könlü feyzlənmiş, könül pərdələrinin götürülməsi nəticəsində ilahi sirlərin bilinməsindən doğan aşiqliq, heyrət halıdır. Aşiq bu halda olarkən vəcdə gəlir, özünü unudur və heyrətindən xirqəsini çıxarıb atır.**

Şair də deyir ki, fələklər islam Peyğəmbərini gördülər, Ona aşiq oldular, özlərini unutdular və xirqələrini çıxarıb atdılar. Deməli, «xirqəni çıxarıb atmaq» aşiqliyi, sevgini, heyrəti, vəcd halını ifadə edir.

## ALTMIŞ İKİNCİ ADDIM: ONUN CİSMİ QƏLBDƏN DƏ YÜNGÜL OLMUŞDU

مرغ الهيش قفس پر شده
قالبش از قلب سبكتر شده

*Onun ilahi quşunun (canının) qəfəsi də*
*qanada çevrilmişdi,*
*Onun qəlbi (cismi) qəlbdən də yüngül olmuşdu.*[310]

Şair bu beytdə merac gecəsi hz. Məhəmmədin (s.a.s) göylərə ucalmasının qeyri-adiliyini şərh etmişdir. Şair merac gecəsinin xarakterinə uyğun olaraq Onun ruhunu «ilahi quş» adlandırmışdır. Burada «ilahi quş» anlayışı ruhun əlamətlərini gözəl ifadə edir. Belə ki, ruh hərəkət edir, göylərə uçur, sonsuzluğa can atır. Merac məkanı azadlıq məkanı olduğundan ruh bu «dinclik məkanı»na qovuşmağa can atır.

İstər xalq, istərsə də divan ədəbiyyatında ruhun quşa bənzədilməsi geniş yayılıb. «Könlüm quşu qanad çaldı», «ruhum quş kimi uçdu» və başqa bu kimi deyimlər ruhun

---

[310] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 27.

mahiyyətinə uyğundur. Quş göy üzündə uçduğu kimi, ruh da sonsuzluğu, təmiz məkanı sevir.

**«İlahi quşun» (ruhun) qanad açması sevgini, istəyi, qovuşma cəhdini ifadə edir. Merac gecəsi Peyğəmbər sevdiyinə doğru ucalır, Onun uca Allah (c.c) sevgisi o qədər böyükdür ki, ruhu quş kimi uçur. «Quş kimi olmaq» həm də yüngül olmaq, ağırlığı hiss etməməkdir. İnsan çox sevinəndə, ruhu ilahi rəhmətlə dincələndə, «dinclik məkanı»nda olanda özünü quş kimi (yüngül, rahat) hiss edir.**

Şair islam Peyğəmbərinin merac gecəsindəki ruh halını, sevincini, ruhunun quş kimi uçmasını ifadə etmək üçün başqa bir vasitədən də istifadə etmişdir. O, deyir ki, «ilahi quşun» (ruhun) qəfəsi olan bədən də bu gecənin bərəkəti ilə dəyişmişdi, bədən ruha boyun əymişdi, bədən özü bir qanada çevrilmişdi və ruhla birgə göylərə ucalırdı.

Burada şair önəmli bir məsələni də şərh edir. Şairə görə, merac gecəsi Peyğəmbər bir sıra təfsirçilərin dediyi kimi, ruhi olaraq deyil, cismani olaraq uca Allahın (c.c) hüzuruna getmişdir. Misradakı «ruhun qəfəsi (bədən) qanada çevrilmişdi» anlayışı bu mənanı da ehtiva edir.

Böyük islam alimi Mövdudi İsra surəsinin ilk ayəsini təfsir edərkən bu məsələ ilə bağlı yazır: «Bu yolçuluq (Merac) haqqında bir çox fərqli görüşlər var. Bir sıra alimlər bunun röyada baş verdiyini söyləyirlər. Başqa alimlər isə bu hadisə baş verərkən hz. Peyğəmbərin (s.a.s) tam oyaq olduğu və bədəni ilə birlikdə yolçuluq etdiyini söyləyirlər. Bəziləri isə bunun sadəcə hz. Peyğəmbərə (s.a.s) göstərilmiş mistik bir görüntüdən başqa bir şey olmadığını söyləyirlər. Ancaq bu ayənin başlanğıc sözləri belədir: «Qulunu … götürən o (Allah) ucadır». Bu sözlər merac hadisəsinin uca Allahın (c.c) sonsuz gücü ilə meydana gəlmiş olan fövqəladə bir hadisə olduğunu göstərir. Əgər hadisə sadəcə mistik bir görüntüdən ibarət ol-

saydı, ayə bu hadisəni meydana gətirən varlığın hər cür zəiflik və əskiklikdən uzaq olduğunu göstərən «subhanə» ifadəsi ilə başlamazdı. Yenə «Qulunu bir gecə … götürən» sözləri bunun sadəcə bir görüntü, ya da röya olmadığını, cismani bir yolçuluq olduğunu göstərməkdədir. Buna görə də hər kəs bunun sadəcə ruhi bir hadisə olmayıb, fiziki bir yolçuluq və hadisə olduğunu qəbul etməlidir.

Bir sıra kimsələrin bu hadisəni mümkün olmayan hadisə kimi təqdim etmələri çox qəribədir. İnsan məhdud, həm də çox məhdud gücü ilə Aya uçmağı bacardığı bir zamanda uca Allahın (c.c) sonsuz və sərhədsiz gücü, qüdrəti ilə Rəsulunu (s.a.s) qısa bir zaman içində bu səfərə apara biləcəyini inkar etmək çox gülməlidir.

Bundan başqa, bir şeyin mümkün olub-olmadığı ilə bağlı sual sadəcə məhdud gücü olan insan haqqında ola bilər. Hər şeyə qadir olan uca Allahdan (c.c) danışanda belə sual verilməz. Sadəcə, uca Allahın (c.c) hər şeyə qadir olduğuna inanmayan bir kimsə uca Allah (c.c) özü qulunu Məscidi-Həramdan Məscidi-Əqsaya apardığını söylədiyi halda, bu qeyri-adi hadisəni inkar edə bilər.

Alim bir sıra şəxslərin meracla bağlı məsələlərə etirazlarına da cavab vermişdir. Birinci etiraz budur: Əgər merac hadisəsi zamanı baş verənləri qəbul etsək, o zaman uca Allahın (c.c) bəlli bir yerdə olduğunu qəbul etməliyik. Əks təqdirdə, bu məqsədlə qulun bəlli bir yerdən başqa bir yerə aparılmasına ehtiyac olmazdı. Alimin bu iddiayaya cavabı belədir: «… Əlbəttə, uca Allah (c.c) sonsuzdur, Onun sərhədi ola bilməz. Ancaq uca Allah (c.c) qulları ilə münasibət quranda onların əskik və zəif yaradılışlarına uyğun olan vasitələrdən istifadə edir. Bu, Onun öz əskikliyi səbəbi ilə deyil, qullarının zəiflik və çatışmazlıqları ilə bağlıdır. Məsələn, O, yaratdıqlarından hər hansı biri ilə danışdığı zaman özünün danışmasında məhdudiyyət olmamasına baxmaya-

raq, qulunun anlayacağı məhdud danışıq şəklindən istifadə edir. Eyni şəkildə, O, quluna mülkünün möhtəşəm ayələrindən bəzilərini göstərmək istəyəndə onu ayələrin olduğu məkana aparır. Əlbəttə, qul Allah kimi kainatda var olan ayələrin hamısını görə bilməz. Çünki Allahın bir şeyləri görmək üçün bir yerə getmək ehtiyacı yoxdur, ancaq qul bunu etməyə məcburdur. Eyni şey qulun Allahın hüzuruna çıxması üçün də doğrudur. Bəli, uca Allah (c.c) bəlli bir məkana sığışa bilməz, ancaq qul Onun hüzuruna çıxmaq üçün Onun ayələrinin çox sıx olduğu bir yerə getməlidir. Çünki qul məhdud gücü ilə Onun sonsuz, sərhədsiz hüzuruna çıxa bilməz».[311]

Meracla bağlı ikinci etiraz belədir: Hədislərdə bildirildiyinə görə, hz. Məhəmməd (s.a.s) merac yolçuluğunda cənnət və cəhənnəmi, orada əzab çəkən insanları görmüşdür. Niyə bir sıra insanlar qiyamətdən sonra qurulacaq məhkəmədən öncə əzab çəkir, ya da mükafat alır?

Alimin bu iddiyaya cavabı belədir: «... Bu merac gecəsi hz. Məhəmmədə (s.a.s) göstərilən bir çox ayənin simvol xarakteri daşıdığını anlamamaqdan irəli gəlir. Məsələn, bir çuxurdan kök öküzün çıxması, ancaq sonra içəri girməməsi fitnənin simvollaşmış şəklidir. Eyni şəkildə, zina edənlər hz. Məhəmmədə (s.a.s) merac gecəsi önlərində təzə ət olduğu halda, çürük və iylənmiş ət yeyərkən göstərilmişdir. Buna bənzər bir şəkildə pisliklərə qarşı verilən cəzalar da ona axirətdə veriləcək olan cəzaları öncədən görə bilməsi üçün simvolik bir şəkildə göstərilmişdir.

Meracla bağlı olaraq uca Allahın (c.c) Peyğəmbərindən hər birinə dərəcələrinə görə yerdəki və göydəki ayələrini göstərdiyi nəzərə alınmalıdır. Bu məqsədlə bütün maddi pərdələr qaldırılmış və onlar insanları dəvət edəcəkləri

[311] Mevdudi, «Tefhimul-Kuran», göstərilən qaynaq, c. III, s. 77.

qeybi gerçəkləri çılpaq, açıq gözlə görmüşlər. Bu, Peyğəmbərlərin gözləri ilə gördüyü şeyləri tam bir «eynəl-yəqin» (bir şeyi gözü ilə görərək tam inanma) içində başqalarına anlatması üçündür. Bu özəllik onları bütün nəzəri fikirlərini zənnə bağlayan və iddia etdiklərini müşahidə edə bilməyən filosoflardan ayırır. Filosofların əksinə olaraq, Peyğəmbərlər insanlara təqdim etdikləri şeylərlə bağlı şahidlik edə bilirlər, çünki onlar öz gözləri ilə görmüşlər».[312]

Hz. Nizami beytin birinci misrasında «onun ilahi quşunun (canının) qəfəsi də (yəni bədəni) qanada çevrilmişdi» deyərək islam Peyğəmbərinin merac gecəsi cismani olaraq uca Allahın (c.c) hüzuruna getdiyini ifadə etmiş, ikinci misrada da bu fikrini gücləndirmək üçün başqa bir vasitədən istifadə etmişdir. Şair deyir ki, Onun qəlbi (cismi) qəlbdən də yüngül olmuşdu. Yəni artıq O, bədəninin ağırlığını hiss etmirdi. Bütün varlığı uca Allaha (c.c) can atırdı, cismi ruha təslim olmuşdu, qanad açıb uçurdu. «Quş kimi olmaq», «quş kimi qanad açmaq», «quş olub uçmaq», «ürəyi quş kimi çırpınmaq», «özünü yüngül hiss etmək» kimi deyimlər insanın qeyri-adi sevinc halını ifadə edir. Merac gecəsi uca Allahın (c.c) rəhmətinin islam Peyğəmbərinin üzərinə bol-bol yağdığı, Onun rəhmət dənizində üzdüyü bir gecədir. Onun qəlbi, varlığı bütün qayğılardan azad olmuş, cismi uca Allah (c.c) sevgisi ilə dolmuş və qanad açmışdır.

## ALTMIŞ ÜÇÜNCÜ ADDIM: DÖRD ŞAHİN QANAD SINDIRDI

می‌پرید آنچنان کزان تک و تاب
پر فکند از پیش چهار عقاب

[312] Mevdudi, «Tefhimul-Kuran», göstərilən qaynaq, c. III, s. 77.

*O, elə uçurdu ki, Onun şığımağı qarşısında,*
*Dörd şahin qanad sındırdı (saldı).*[313]

Şair bu beytdə Buraqın göylərə uçuşunu təsvir etmişdir. Şimşək kimi olan Buraq adlı miniyin sürətini ifadə etmək üçün şair «şığımaq» felindən istifadə etmişdir. «Şığımaq» çox sürətli uçuşu, qarşısına çıxan hər şeyi yarıb keçərək irəliləmək hərəkətini ifadə edir, bu hərəkətin qarşısında heç bir şey dura bilməz. Burada «şığımaq» feli həm də uca Allahın (c.c) əmrinə itaəti ifadə edir.

Şair Buraq adlı miniyin sürətini göstərmək üçün başqa bir vasitədən də istifadə etmişdir. O deyir ki, Buraq adlı miniyin uçuşu qarşısında dörd şahin qanad sındırdı (saldı). **Şair burada «dörd şahin» deyərkən dörd ünsürü (od, su, hava, torpaq) nəzərdə tutmuşdur. Yəni Buraq elə sürətlə uçdu ki, dörd ünsürdən ibarət olan bu aləm geridə qaldı, ondan uzaqlaşdı.**

Merac hadisəsi ölçüsü, məkanı, zamanı olan bir məkandan ölçüsüzlük, zamansızlıq, məkansızlıq aləminə səfərdir. Şahin quşunun uçuşda Buraq adlı miniklə müqayisə edilməsi mümkün olmadığı kimi, dörd ünsürdən yaradılmış bu aləmin də sonsuzluq aləmi ilə tutuşdurulması mümkün deyil.

## ALTMIŞ DÖRDÜNCÜ ADDIM: AY CİLOVUNU ÇƏKDİ

هرچه را دید زیر گام کشید
شب لگد خورد و مه لگام کشید

*Gördüyü hər şeyi ayaq altında qoydu,*
*Gecə təpik yedi, Ay isə öz cilovunu çəkdi.*[314]

[313] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.
[314] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.

Şair bu beytdə hz. Məhəmmədin (s.a.s) yükşəlişini təsvir etmişdir. O, sürətlə yüksəlir. Şair Onun yükşəlişini ifadə etmək üçün «hər şey ayağının altında qaldı» deyir. Bu ifadə ucalığı çox gözəl ifadə edir. Bu ifadə həm də bütün maneələri aradan qaldırmaq anlayışını ehtiva edir.

Şair ikinci misrada deyir ki, «gecə təpik yedi». Yəni gecə Onun hərəkətinə mane ola bilmədi. Bütün səma cismləri Onun yolunu işıqlandırdı. Merac gecəsi bir gündüzə çevrildi. **Şairin təsvirinə görə, sanki, gecə Ona mane olmağa çalışır. Sürətli hərəkət edən Buraq da gecəyə təpik vurub onu kənara itələyir. Ay, Buraq adlı miniyin hərəkətini görüb, cilovunu çəkir. «Cilovunu çəkmək» dayanmaq, sürətini azaltmaq, özünü yığışdırmaq mənalarını bildirir. Burada şairin məqsədi Buraq adlı miniyin sürətini göstərməkdir. Ay onun sürətli hərəkətini gördü, onun yolundan çəkildi, onunla toqquşub həlak olacağını bildi və atının cilovunu çəkdi, yəni Ay ondan «qorxdu».**

## ALTMIŞ BEŞİNCİ ADDIM:
## XƏYAL ONUN SƏYİRMƏYİNİ GÖRƏ BİLMƏZ

وهم دیدی که چون گذارد گام؟
برق چون تیغ بر کشد ز نیام؟

*Xəyal onun səyirməyini görə bilərdimi?*
*Şimşək (onun qabağında) qılıncını*
*sıyıra bilərdimi?*[315]

Şair bu beytdə Buraq adlı miniyin sürətini ifadə etmək üçün iki vasitədən istifadə etmişdir. O, öncə Buraqın hərəkətini xəyalın sürəti ilə müqayisə etmişdir. İnsan xəyalı çox

[315] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.

sürətlə «uçur», bir anın içində müxtəlif məkanlarda ola bilir. Ancaq şair deyir ki, xəyal onun sürətinə çata bilməz, xəyal onu görə bilməz. Bir şey çox sürətlə hərəkət edəndə onu görmək olmur. Həm də şair bu fikri ifadə etmək üçün bədii sualdan istifadə etmişdir. Xəyal onun hərəkətini görə bilərdimi? Bu bədii sualın cavabı belədir. Xəyalın onu görməsi mümkün deyil.

Şairin Buraq adlı miniyin sürətini ifadə etmək üçün istifadə etdiyi ikinci vasitə onun şimşəklə müqayisə olunmasıdır. **Şair bu beytdə Buraq adlı miniyi bir döyüşçüyə bənzətməsidir. Şimşəyin də çaxmaq, yandırmaq, hərəkət etmək, kəsmək imkanı var. Ancaq şimşəyi Buraq adlı miniklə müqayisə etmək olmaz. Şairə görə, şimşək nəinki onunla döyüşə bilər, heç qorxusundan qılıncını da sıyıra bilməz.** Şair bunun mümkün olmadığını ifadə etmək üçün bədii sualdan istifadə etmişdir. Şimşək onun qabağında qılıncını sıyıra bilərdimi?

## ALTMIŞ ALTINCI ADDIM: RUHUN HƏRƏKƏTİ COMƏRDLİKDƏ ONA ÇATA BİLƏRDİMİ?

سرعت عقل در جهانگردی؟
جنبش روح در جوانمردی؟

*Ruhun hərəkəti comərdlikdə (ona çata bilərdimi)?*
*Ağılın sürəti dünyanı dolaşmaqda*
*(ona çata bilərdimi)?*[316]

Bu beytdə bir neçə məsələ diqqəti cəlb edir. Şair önceki beytlərdə Buraq adlı miniyin sürətini göstərmək üçün

[316] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.

onu şimşəyə, ərəb atına, şahinə, kəkliyə, Kavus kəcavəsinə bənzətmişdir. Yəni bu müqayisə obyektlərinin hamısı maddidir. Bu beytdə isə şair müqayisə obyekti olaraq qeyri-maddi, gözlə görünməyən varlıqları seçmişdir. **Buraq göyün daha uca mərtəbələrinə yüksəldikcə, sürəti artdıqca müqayisə obyektlərinin xarakteri də dəyişmişdir. Artıq Buraq adlı miniyin sürətini heç bir maddi varlıqla müqayisə etmək mümkün deyil.**

Ruh elə bir varlıqdır ki, onun hərəkət etmək, uçmaq imkanı var. Xalq dilində insanın müxtəlif hallarını ifadə etmək üçün «ruhum uçdu», «ruhu göylərə ucaldı», «ruhu bir quş oldu», «ruhu canından çıxdı», «ruhu yerindən oynadı», «ruhu qanad çaldı», «ruhunu mələklər aldı» və s. kimi ifadələr işlədilir. Ruhun hərəkəti ani olaraq sürətli baş verir. Ruh harada lazımdırsa, orada ola bilir. **Ruh nəfslə mübarizə aparır, insanın xoşbəxtliyini istəyir. Bu yönü ilə o, comərddir.**

## ALTMIŞ YEDDİNCİ ADDIM:
## O, ALLAHIN TƏBƏRRÜKÜ İLƏ
## MİL-MİL UCALIRDI

گام به گام او چو تحرک نمود
میل به میلش به تبرک ربود

*O (Məhəmməd) addım-addım irəliləyərək,*
*Onun (Allahın) təbərrükü ilə mil-mil ucalırdı.*[317]

Şair bu beytdə islam Peyğəmbərinin merac gecəsi yüksəliş sürətini bədii biçimdə ifadə etmişdir. Birinci misrada olan «addım-addım irəliləmək» ifadəsi, əslində, mər-

[317] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 27.

hələ-mərhələ, təbəqə-təbəqə yüksəlmək, göyün təbəqələrini addım-addım, bir-bir keçmək deməkdir.

Şair ikinci misrada merac gecəsində Peyğəmbərin sürətlə ucalmasının səbəbini açıqlamışdır. Şairə görə, bu uca Allahın (c.c) təbərrükü ilə baş vermişdir. Təbərrük ərəbcə bir sözdür. Mənası bərəkətlənmək deməkdir. Təbərrük mübarək bir yerdən, insandan, əşyadan mənəvi güc almaq, bərəkət, uğur qazanmaqdır. Təbərrük həm də xeyir, bərəkət ummaq, işi bərəkət və xoşbəxtlik vasitəsi sayaraq etmək mənalarını ehtiva edir. Şairə görə, merac gecəsi də, bu gecədə Peyğəmbərin iti sürətlə göylərə ucalması da uca Allahın (c.c) bərəkəti ilə mümkün olmuşdur. Uca Allah (c.c) meracın baş verməsini istədi, buyurdu və o mübarək hadisə baş verdi. Burada şair həm də merac gecəsində Peyğəmbərin cismani olaraq göyə ucalmasının mümkün olmadığını iddia edənlərə cavab vermişdir. Şair deyir ki, bu uca Allahın (c.c) qüdrətinin sonsuz olması ilə bağlı bir məsələdir. Uca Allahın (c.c) istədiyi hər şey olar:

وربك يخْلُقُ ما يشَاء ويخْتَار ما كَان لَهم الْخيرةُ سبحان الله وتَعالَى عما يشْرِكُون . وربك يعلَم ما تُكن صدورهم وما يعلنُون . وهو الله لَا إِلَه إِلا هو لَه الْحمد في الْأُولَى والْآخرة ولَه الْحكْم وإِلَيه تُرجعون

(əl-Qəsəs, 28/68-70)

«Rəbbin istədiyini yaradar və (istədiyini də peyğəmbər) seçər. Onların (bəndələrinin istədiklərini etməyə) heç bir ixtiyarı yoxdur. Allah pakdır, müqəddəsdir və (müşriklərin) Ona şərik qoşduqlarından (bütlərdən) ucadır! (Allah eyibsizdir, nöqsansızdır. O, hamıdan uludur!) Sənin Rəbbin onların ürəklərinin gizli saxladığı və özlərinin də aşkar etdiyi hər şeyi (qəlblərinin sirlərini və açıq-aşkar əməllərini)

bilir. Odur Allah. Ondan başqa heç bir tanrı yoxdur. Dünyada da, axirətdə də həmd-səna Ona məxsusdur. Hökm Onundur. Siz Onun hüzuruna qaytarılacaqsınız!».

Şair ikinci misrada deyir ki, Peyğəmbər uca Allahın (c.c) bərəkəti ilə mil-mil ucalırdı. Mil qədim dövrlərdə yollarda hər min addımdan bir yerə sancılmış konus şəkilli sütundur. Bir mil təqribən bir kilometrdir. Burada şair merac gecəsi islam Peyğəmbərinin iti sürətlə göylərə ucaldığını ifadə etmək üçün mil obrazından istifadə etmişdir.

## ALTMIŞ SƏKKİZİNCİ ADDIM: HƏR İKİ CAHANIN GÖZÜ ONA DİKİLMİŞDİ

چون دو جهان دیده بر او داشتند
سر ز پی سجده فرو داشتند

***Hər iki cahanın gözü ona dikilmişdi,***
***Və başları Ona səcdə üçün əyilmişdi.***[318]

Bu beytdə şair iki cahan deyərkən bu dünyanı və axirəti nəzərdə tutmuşdur. «Göz dikmək» isə baxmaq, həsrətlə yolunu gözləmək, ehtiyacı olmaq (biz gözümüzü sənə dikmişik, yəni sənə ehtiyacımız var), inanmaq kimi mənaları ifadə edir. **Burada iki cahan anlayışını yer planeti və göy üzü kimi də dəyərləndirmək olar. Yer məkanı gözünü ona dikib, yəni merac gecəsi islam Peyğəmbəri göylərə yüksəlib, yerdən ayrılıb, Yer onun üçün darıxır, Onun yolunu, Onun geri dönəcəyi anı gözləyir, yollardan gözünü çəkmir, gözlərinə yuxu getmir. Çünki onu sevir, çünki Yer planetində yaşayanların Ona ehtiyacı var.**

---

[318] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 27.

Göy üzü də gözünü Onun yoluna dikib. Onu gözləyir. Merac gecəsi göy üzünün ən xoşbəxt anıdır. Çünki Peyğəmbər göy üzünə səfər edib, göy üzü Onun nuruna qərq olub.

Şair ikinci misrada deyir ki, hər iki cahanın başı Ona səcdə üçün əyilmişdi. Səcdə ərəbcədir, mənası uca Allah (c.c) üçün boyun bükmək, Ona ibadət etməkdir. Dini anlayışa görə, səcdə iki cür olur. İxtiyari (seçimə bağlı) və məcburi. Seçimə bağlı səcdə ancaq insana aiddir və səcdə edən insan savab qazanır. Məcburi səcdə isə bütün canlılara aiddir. Qurani-Kərimdə çeşidləri ilə birgə, səksəndən çox yerdə bu anlayışa yer verilmişdir. Səcdə itaətin simvoludur.

وِلِلّه يسجد من في السماوات والأرضِ طَوعاً وكَرهاً وظلالُهم بِالْغُدو والآصال

(ər-Rəd, 13/15)

«Göylərdə və yerdə kim varsa, (özləri də), kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edər».

«Quranda səcdə namaz (Ələq, 96/19), rüku (Bəqərə, 2/58) və boyunəymə, təslim olma (Rəhman, 55/6) anlamlarında işlədilmişdir. Qurana görə, səcdə insanı Allaha yaxınlaşdırır (96/19)».[319]

Şair deyir ki, hər iki cahanın başı ona səcdə üçün əyilmişdi. Yəni merac gecəsi yer və göy uca Allahın (c.c) əmri ilə islam Peyğəmbərinə itaət edirdi.

## ALTMIŞ DOQQUZUNCU ADDIM: ONUN BAŞI BÜTÜN RÜTBƏLƏRDƏN UCA İDİ

پایش ازان پایه که سر پیش داشت
مرحله بر مرحله صد بیش داشت

---

[319] «İslami kavramlar», göstərilən qaynaq, s. 624-625.

***Onun başı (bütün) rütbələrdən uca olduğu üçün,***
***Ayağı bir mənzil əvəzinə yüz mənzil irəliləyirdi.***[320]

Bu bəndin orijinalında «rütbə» sözü əvəzinə «payə» sözü işlənmişdir. «Payə» isə həm rütbə, həm də ayaq deməkdir. Şair beytdə islam Peyğəmbərinin iti sürətlə göylərə ucalmasının səbəbini açıqlamışdır. Burada «Onun başının bütün rütbələrdən uca olması» fikri bir neçə mənanı əhatə edir. Yəni O, uca Allahın (c.c) yanında ən dəyərli insandır, varlıqdır. Merac yolçuluğunun Ona nəsib olmasının səbəbi də budur. Peyğəmbəri uca Allah (c.c) qoruyur:

واصبر لحكم ربك فإنك بأعيننا وسبح بحمد ربك حين تقوم

(ət-Tur, 52/48)

«(Ey Peyğəmbər!) Sən öz Rəbbinin hökmünə səbir et! Şübhəsiz ki, sən Bizim gözümüzün qabağındasan (himayəmiz altındasan). (Namaza) qalxdıqda Rəbbini həmd-səna ilə zikr et!»

Uca Allah (c.c) insanların qəlbində Peyğəmbərə sevgi yaradır:

إذ أوحينا إلى أمك ما يوحى . أن اقذفيه في التابوت فاقذفيه في اليم فليلقه
اليم بالساحل يأخذه عدو لي وعدو له وألقيت عليك محبة مني ولتصنع
على عيني . إذ تمشي أختك فتقول هل أدلكم على من يكفله فرجعناك إلى
أمك كي تقر عينها ولا تحزن وقتلت نفسا فنجيناك من الغم وفتناك فتونا
فلبثت سنين في أهل مدين ثم جئت على قدر يا موسى

(Taha, 20/38-40)

---

[320] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 27.

«(O zaman ki Mən anana buyurmuşdum:) «(Musanı) bir sandığa qoyub çaya (Nilə) at. Qoy çay onu sahilə çıxartsın və Mənə də, ona da düşmən olan birisi (Firon) onu (sudan tapıb) götürsün». (Ey Musa!) Gözümün qabağında boya-başa çatdırılasan deyə, Öz tərəfimdən (insanların ürəklərində) sənə bir sevgi yaratdım».

Şairin təfsirinə görə, Onun başı bütün rütbələrdən ucadır, yəni ən uca rütbə peyğəmbərlikdir. Bu rütbəni isə ancaq uca Allah (c.c) verir və Peyğəmbərləri uca Allah (c.c) seçir:

أُولَـئِكَ الذين آتَينَاهم الْكتَاب والْحكْم والنبوةَ فَإن يكْفُر بِها هـؤُلاء

فَقَد وكلْنَا بِها قَوماً ليسواْ بِها بِكَافرِين

(əl-Ənam, 6/89)

«Onlar Bizim kitab, hökm və peyğəmbərlik verdiyimiz kimsələrdir. Əgər (indi) bunlar (Qureyş müşrikləri və başqa kafirlər) bu dəlilləri dansalar, Biz onlara həmin dəlilləri inkar etməyən bir tayfanı müvəkkil edərik».

أُولَـئِكَ الذين هدى اللّه فَبِهداهم اقْتَده قُل لا أَسأَلُكُم علَيه أَجراً إِن

هو إِلا ذكْرى لِلْعالَمين

(əl-Ənam, 6/90)

«Onlar (adları çəkilən peyğəmbərlər) Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yolunu tutub get. De: «Mən bunun (islam dininin təbliği) müqabilində sizdən bir əvəz istəmirəm. Bu (Quran) aləmlər (bütün bəşəriyyət) üçün yalnız bir moizədir (öyüd-nəsihətdir)».

Şairə görə, «Onun başı bütün rütbələrdən ucadır», yəni peyğəmbərlər insanlara doğru yolu göstərən rəhbərlərdir. Onlar ancaq uca Allaha (c.c) itaət edərlər:

وجعلناهم أئمة يهدون بأمرنا وأوحينا إليهم فعل الخيرات وإقام الصلاة وإيتاء الزكاة وكانوا لنا عابدين

(əl-Ənbiya, 21/73)

«Biz onları əmrimizlə (insanlara) doğru yolu göstərən imamlar (rəhbərlər) etdik. Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər».

«Onun başı bütün rütbələrdən ucadır», yəni O, ümmət üçün örnəkdir, O, gözəl əxlaqı tamamlamaq üçün göndərilmişdir:

لقد كان لكم في رسول الله أسوة حسنة لمن كان يرجو الله واليوم الآخر وذكر الله كثيراً

(əl-Əhzab, 33/21)

«Həqiqətən, Allahın rəsulu, Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir».

«Onun başı bütün rütbələrdən ucadır», yəni O, uca Allahdan (c.c) başqa bir kimsəyə boyun əymədi, şan-şöhrət, var-dövlət uğrunda mübarizə aparmadı. Şair deyir ki, bu mənəvi ucalıq Onun göylərə ucalmasına səbəb oldu. O, təmiz olduğuna görə, yüngül idi, rahat idi. Vicdanı təmiz olan insan özünü quş kimi yüngül, rahat hiss edir. Şairə görə, dünya sevgisi, şan-şöhrət həvəsi, var-dövlət istəyi insan üçün bir yükdür, onun ayağından asılmış qara daşdır.

Peyğəmbər bütün bu yüklərdən azad olduğu üçün merac gecəsi «bir mənzil əvəzinə yüz mənzil irəliləyirdi». Şairin təqdimində sürətlə irəliləmək sevginin, istəyin, itaətin, təmizliyin, vicdan və ruh dincliyinin əlamətidir.

## YETMİŞİNCİ ADDIM:
## RƏXŞ YƏHƏRİNİ ATDI:

رخش بلند آخورش افکند پست
غاشیه را بر کتف هر که هست

***Hündür axurlu Rəxş nəhayət öz yəhərini,***
***(Ən axırıncı mərhələdə) kim var idi onun***
***çiyninə atdı.***[321]

Şair bu beytdə Buraqı məşhur, əfsanəvi at olan Rəxşə bənzətmişdir. Şair öncəki beytlərdə də Buraqı qeyri-adi bir minik kimi təqdim etmişdir. Ona görə, Buraq «nurdan yaranıb», «ildırım sürətlidir», «gözəl bədəni bağın üzü kimi qəşəngdir», «budunda dağ yoxdur», «başında yüyən yoxdur», «neysan buludundan daha çox inci səpir», «bostan küləyindən daha ətirlidir», «yəhəri gövhərdən olan bir dənizdir», «ağır nallıdır», «yüngül qaçışlıdır», «gözü itidir», «qaçışı sürətlidir».

Hz. Nizami bu beytdə Buraqla müqayisə obyekti kimi Rəxş adlı atı seçir. Rəxş, fars əsatirinin və Firdovsinin «Şahnamə» dastanının baş qəhrəmanı Rüstəmin atıdır. Onun rəngi qırmızı və sarımtıl, qaşı isə ağ olmuşdur. O ən gözəl at rəmzidir.

Firdovsinin dastanında Rəxş qeyri-adi bir at kimi təsvir olunmuşdur:

**... Duası sona çatdı, o şiri-nər,**
**Açıb aldı Rəxşin belindən yəhər.**

**Yudu çeşmənin saf suyunda atı,**
**Günəşdir deyən, tükləri parladı.**[322]

---

[321] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.
[322] Əbülqasım Firdovsi, «Şahnamə» (Azərbaycan dilinə tərcüməsi və müqəddimə professor M.M. Əlizadənindir), I cild, Bakı, 2005, s. 354.

**… Polad dırnağıyla döyürdü yeri**
**Səsi titrədirdi onun göyləri.**[323]

**… Fikir verdi Rəxş əjdahada gücə,**
**Salıb cənginə Tacbəxşi necə?**

**Qulaqlarını cütlədi durmadan,**
**Dişiylə tutub əjdahanı haman.**

**Dağıtdı bir anda onun çiynini,**
**Baxıb gördü Rüstəm nədir at kini.**[324]
**… Görüncə olub Rəxş işlər çətin,**
**Çəkib şeyhə, coşdu bir aslan təkin.**

**Bu anda hücuma keçdi atlılar,**
**Ata hər tərəfdən kəmənd atdılar.**

**Ölüb üç igid düşdü atdan yerə,**
**Başı keçmədi Rəxşin ancaq girə,**

**Kimin təpiklə sərirdi yerə,**
**Kimin dişiylə salırdı girə.**[325]

Hz. Nizami bir əfsanəvi at olan Rəxşin özəlliklərindən istifadə edərək Buraqı ona bənzətmişdir. Şair deyir ki, hündür axurlu Rəxş (Buraq), nəhayət, öz yəhərini kim var idi onun çiyninə atdı. Yəni merac gecəsi islam Peyğəmbəri

---

[323] Əbülqasım Firdovsi, «Şahnamə» (Azərbaycan dilinə tərcüməsi və müqəddimə professor M.M. Əlizadənindir), I cild, Bakı, 2005, s. 355.
[324] Əbülqasım Firdovsi, «Şahnamə» (Azərbaycan dilinə tərcüməsi və müqəddimə professor M.M. Əlizadənindir), I cild, Bakı, 2005, s. 357.
[325] Əbülqasım Firdovsi, «Şahnamə» (Azərbaycan dilinə tərcüməsi və müqəddimə professor M.M. Əlizadənindir), I cild, Bakı, 2005, s. 432.

elə bir uca mərtəbəyə yüksəldi ki, artıq Buraq (əfsanəvi imkanları olan Rəxş kimi Buraq) irəli yəhərlə gedə bilmədi. Şair «yəhəri çiyinə atmaq» ifadəsini dayanmaq, yorulmaq, imkanın tükənməsi kimi mənalarda işlətmişdir.

## YETMİŞ BİRİNCİ ADDIM:
## BİR QUŞ KİMİ MƏDİNƏDƏN UÇDU

چو مرغی از مدینه بر پریده
به اقصی الغایت اقصی رسیده

***Bir quş kimi Məkkədən uçub,***
***Son məqsəd olan Əqsa (məscidinə) çatmışdı.***[326]

Şair bu beytdə islam Peyğəmbərinin merac gecəsi Məkkədən götürülərək Qüdsdəki Əqsa məscidinə aparıldığını təsvir etmişdir. Bu yol xəritəsi Qurani-Kərimdə cızılmışdır:

سبحان الذي أسرى بعبده ليلاً من المسجد الحرام إلى المسجد الأقصى الذي باركنا حوله لنريه من آياتنا إنه هو السميع البصير

(əl-İsra, 17/1)

«Bəzi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlikləri və əcaiblikləri) göstərmək üçün bəndəsini (Peyğəmbər əleyhissəlamı) bir gecə (Məkkədəki) Məscidül-Həramdan ətrafını mübarək etdiyimiz (bərəkət verdiyimiz) Məscidül-Əqsaya (Beytül-müqəddəsə) aparan Allah pakdır, müqəddəsdir. O, doğrudan da, (hər şeyi) eşidəndir, görəndir!»

Burada uca Allah (c.c) merac gecəsinin, bu gecədə baş verən mübarək səfərin, hz. Məhəmmədin (s.a.s) uca göylərə ucalmasının qeyri-mümkünlüyünü iddia edənlərə qəti cavab vermişdir. Əslində, meracı inkar edənlər uca Allahın (c.c)

---

[326] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 339

qüdrətini, sonsuz imkanlarını inkar edirdilər. Ona görə də uca Allah (c.c) bu ayədə istədiyi hər şeyi edə biləcək bir gücə sahib olduğunu buyurmuşdur. Uca Allah (c.c) buyurur ki, Onu Məkkədən götürüb Məscidül-Əqsaya aparan Odur. O, pakdır, müqəddəsdir, O, hər şeyi eşidəndir, görəndir.

Beytdə «quş kimi uçmaq» ifadəsi Peyğəmbərin uca Allaha (c.c) olan sevgisini, itaətini, ehtiyac və istəyini bədii biçimdə təqdim edir. İnsan sevdiyinə doğru, inandığına doğru quş kimi uçar.

Şair beytin ikinci misrasında mübarək Əqsa məscidini «son məqsəd» adlandırmışdır. Bu anlayış Əqsa məscidinin islam tarix və mədəniyyətindəki yeri ilə bağlıdır. «Məscidi-Əqsa» ərəbcə ən uzaq məscid anlamına gəlir (Nizami «O, quş kimi uçdu» deyərkən həm də uzaqlığı, az vaxtda çox yol getməyi nəzərdə tutmuşdur). Bu məscidin adı Qurani-Kərimdə bir dəfə çəkilmişdir.

Böyük islam alimi Məhəmməd Həmidullah «İsra» surəsinin birinci ayəsində göstərilən məscidin Qüdsdəki məscid olmadığını bildirir. Alimə görə, bu ayə nazil ediləndə Əqsa məscidi hələ tikilməmişdi. Ona görə, «Rum» surəsinin üçüncü ayəsində Fələstin ərazisi «Ədnəl-ərd» - yaxın yer» adlandırılmışdır. Deməli, Quranın bir ayəsində «ən yaxın yer» adlandırılan bölgədəki məscidə «ən uzaq məscid» deyilməsi mümkün deyil. Alimə görə, «Məscidül-Əqsa» göylər aləmindəki bir məsciddir.[327]

İndi Qüdsdə olan məscidə nə vaxtdan «Məscidül-Əqsa» deyildiyi bəlli deyil. Bu gün Məscidi-Əqsa Qüds şəhərindəki hz. Süleyman (s.a.s) məbədinin güneyində olan məscidin adıdır. Bu məscid hz. Süleyman məbədinin yerində tikilmişdir. Onu hz. Ömərin (r.a) tikdirdiyi bildirilir. Bu

---

[327] Muhammed Hamidullah, «İslam Peygamberi», İstanbul, 1972, III baskı, s. 94.

məscid müsəlmanlar üçün müqəddəs yer sayılır. Bir hədisdə hz. Süleymanın (s.a.s) namaz qılmaq məqsədilə bu məscidə gələnin anasından doğulduğu gün kimi günahlardan təmizlənməsi üçün dua etdiyi bildirilir.[328]

Başqa bir hədisə görə, Peyğəmbər buyurur ki, Məscidül-Əqsaya gedib namaz qılın. Əgər bunu edə bilməsəniz, qəndillərində yandırmaq üçün zeytun yağı göndərin.[329]

Hz. Nizami beytdə Əqsa məscidini «son məqsəd» adlandırır. Bu anlayışda bir neçə məna əhatə olunmuşdur. Yəni, şairə görə, Əqsa önəmli, mübarək, bərəkətli bir yerdir. Əqsa «son məqsəddir», yəni merac gecəsi Peyğəmbərin yer üzündə getdiyi ən son məkandır. Peyğəmbər ora getmiş, oradan da göyə yüksəlmişdir.

## YETMİŞ İKİNCİ ADDIM: PEYĞƏMBƏRLƏR ONU ÖZLƏRİ ÜÇÜN QİBLƏ ETDİ

نموده انبيا را قبله خويش
به تفضيل امانت رفته در پيش

*Peyğəmbərlər onu (yəni Məhəmmədi)*
*özləri üçün qiblə edib,*
*İmamlıq fəziləti ilə irəli getmişdi.*[330]

Hz. Nizami bu beytdə bir neçə məsələni bədii biçimdə şərh etmişdir. Bu məsələlərdən biri merac gecəsi hz. Məhəmmədin (s.a.s) Məscidül-Əqsaya getməsidir. Bu bərəkətli məkanın seçilməsi onun uca Allah (c.c) yanındakı dəyərini göstərir. Bunun mənası belədir: «İslam, Qudsü mənəvi yurd

[328] «İslami Kavramlar», göstərilən qaynaq, s. 495.
[329] Əbu Davud, «Səlat», 14.
[330] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 339.

etmiş öncəki peyğəmbərlər tərəfindən təbliğ edilən eyni ilahi mesajın bir davamıdır... Onun bu bağlamda zikr edilən başqa peyğəmbərlərlə qarşılaşması da eyni görüşün simvoludur. İsra sırasında hz. Peyğəmbərin (s.a.s) Məscidi-Əqsada başqa bütün peyğəmbərlərə namaz qıldırdığını söyləyən məşhur hədislər hz. Peyğəmbər (s.a.s) tərəfindən təbliğ edilən islamın insanın dini inkişafının tamamlanmasını və mükəmməlliyə çatmasını təmsil etdiyi və hz. Məhəmmədin (s.a.s) Allahın elçilərinin sonuncusu və ən böyüyü olduğu inancını məcazi bir şəkildə ifadə etməkdədir».[331]

Şair beytin birinci misrasında merac gecəsi islam Peyğəmbərinin başqa peyğəmbərlərə namaz qıldırmasını «qiblə» sözü ilə ifadə etmişdir. Burada «qiblə» sözü bir neçə mənanı ifadə edir. **Şair demək istəyir ki, hz. Məhəmməd (s.a.s) qiblədir, yəni peyğəmbərlərin sonuncusu və ən böyüyüdür, Ondan sonra Peyğəmbər gəlməyəcək. O, qiblədir, yəni ölçüdür. Bir şeyin doğru olub-olmadığını Ona, onun gətirdiyi ilahi mesaja, Onun əxlaqına baxaraq müəyyən etmək olar. O, qiblədir, yəni doğru istiqaməti, uca Allaha (c.c) gedən yolu göstərəndir. O, qiblədir, yəni peyğəmbərlərin başçısıdır. O, qiblədir, yəni insanlığın xoşbəxt yaşamasını təmin edən dəyərdir.**

Hz. Nizami beytdə islam Peyğəmbərinin başçı olduğunu, peyğəmbərlərə namaz qıldırdığını ifadə etmək üçün istifadə etdiyi ikinci vasitə «imam» sözüdür. «İmam» başçı deməkdir. Ancaq O, adi bir imam deyil, O, peyğəmbərlərin imamıdır. Şair beytdə «qiblə» sözü ilə «imam» sözü arasında da bir bağlılıq qurmuşdur. İmam camaata namaz qıldıranda üzü qibləyə dayanır, arxasında namaz qılanlar onun dediyinə «amin» deyirlər. Hz. Məhəmməd (s.a.s)

---

[331] Muhammed Esed, «Kuran mesajı», göstərilən qaynaq, s. 1139.

Məscidül-Əqsada peyğəmbərlərə imam olur, namaz qıldırır, onlar da «amin» deyirlər, onun dediklərini təsdiq edirlər.

## YETMİŞ ÜÇÜNCÜ ADDIM:
## ALLAHIN YOLUNU TUTMUŞDU

چو کرده پیشوائی انبیا را
گرفته پیش راه کبریا را

***Peyğəmbərlərə rəhbərlik etdiyinə görə,***
***Allahın yolunu qarşısına qoymuşdu.***[332]

Hz. Nizami bu beytdə dərin bir məna ifadə etmişdir. Şairə görə, islam Peyğəmbəri bütün peyğəmbərlərin imamıdır. Peyğəmbərlərə imam olmaq isə üstün bir elmə, əxlaqa, imana, ağıl və cəsarətə sahib olmaq deməkdir. O, bütün varlığı ilə uca Allaha (c.c) təslim olmuşdur, bütün məsələlərdə uca Allahın (c.c) yolunu tutmuşdur. Şair deyir ki, O, uca Allahın (c.c) yolunu tutmuşdur. Yəni bütün məsələlərdə Onun üçün ölçü uca Allahın (c.c) yoludur. Şairin təfsirində «yol» ölçü deməkdir.

Bu beytdə hz. Nizaminin istifadə etdiyi ən önəmli anlayış «Allahın yolu»dur. Şair deyir ki, bütün Peyğəmbərlər insanları eyni bir yola – uca Allahın (c.c) yoluna dəvət etmişlər. Bu, bütün peyğəmbərlərin başlıca, birinci vəzifəsidir. Ümmətin hər bir üzvünün ilk işi də budur. Uca Allahın (c.c) yolunun əsası da tövhid anlayışıdır. Bütün gözəlliklərin əsası, ədalətin qaynağı tövhid inancına bağlıdır. İslam Peyğəmbərinə görə, insanın tövhid inancı doğru olarsa, hər şeyi doğru olar, bu inanc pozularsa, hər şeyi pozular. Uca Allah (c.c) bütün peyğəmbərlərə insanları Onun yoluna dəvət etməyi əmr etmişdir.

---

[332] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 339.

ادع إلى سبيل ربك بِالْحكْمة والْموعظَة الْحسنَة وجادلْهم بِالتي هي

أَحسن إن ربك هو أَعلَم بِمن ضل عن سبيله وهو أَعلَم بِالْمهتَدين

(ən-Nəhl, 16/125)

«(Ey Rəsulum!) İnsanları hikmətlə (Quranla,tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə uyğun şəkildə) mücadilə et. Həqiqətən, sənin Rəbbin yolundan azanları (ən yaxşı) bilən, doğru yolda olanları da (ən yaxşı) tanıyandır!»

Uca Allahın (c.c) yolu o uca yaradanın varlıq və birliyini doğru tanımaq, Ona gedən yolu bilmək, Onun hüzuruna aparacaq yolla getməkdir. Peyğəmbərlərə və bütün ümmətə imam, qiblə olan hz. Məhəmmədin (s.a.s) vəzifəsi də uca Allahın (c.c) yolunu insanlara tanıtmaqdır. O, öndərdir, bələdçidir, doğru yolu tanımaq elmi verilmiş elçidir. Uca Allahın (c.c) yolunu tanımağın şərti də Onun varlıq və birliyinə sarsılmaz imanla mübarək elçiyə bağlanmaqdır.

Hz. Məhəmməd (s.a.s) buyurur:

«Allah yolunda ayağı toza batanı cəhənnəm yandırmaz».[333]

«Allah yolunda cihad edənlər cəhənnəmə girməzlər».[334]

«Allah yolunda cihad ən üstün əməldir».[335]

«Allah yolunda çalışmaq yetmiş illik ibadətin əvəzidir».[336]

«Allah yolunda xərclənməyən mal fayda verməz».[337]

---

333 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 43-45.
334 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 160.
335 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. V, s. 563.
336 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 31.
337 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. III, s. 395.

«Allah yolunda olanlardan biri də elm öyrənəndir».[338]

«Allah yolunda öldürülən şəhiddir».[339]

Uca Allahın (c.c) yolunu tutmaq bütün varlığını bu mübarək yolda – ədalət, azadlıq, elm, insanlıq, halallıq yolunda fəda etməkdir. İnsanları şirkin caynağından qurtarmaqdır. Uca Allahın (c.c) yolunun ölçüləri Qurani-Kərimdə göstərilmişdir. Peyğəmbərin vəzifəsi də bu yolu insanlara tanıtmaqdır. Uca Allahın (c.c) yolu Onun rizasını qazanmaq üçün hər şeyini fəda edə bilənlərin qismətidir. Bu yolla gedən hər bir insan mücahiddir.

إِن اللّه اشْتَرى من الْمؤْمنين أَنفُسهم وأَموالَهم بِأَن لَهم الجنةَ يقَاتلُون في سبِيلِ اللّه فَيقْتُلُون ويقْتَلُون وعداً علَيه حقّاً في التوراة والإِنجِيلِ والْقُرآنِ ومن أَوفَى بِعهده من اللّه فَاستَبشروا بِبيعكُم الذي بايعتُم بِه وذَلك هو الْفَوز الْعظيم

(ət-Tövbə, 9/111)

«Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət əvəzində satın almışdır. Allahdan daha çox əhdə vəfa edən kimdir? Etdiyimiz sövdəyə görə sevinin. Bu, böyük qurtuluşdur!»

İnsanın tövhid inancı olmayanda, ya da yanlış olanda uca Allahın (c.c) yolundan çıxır, azır, ömrünü mənasız işlərə qurban verərək israf edir, cəhalət girdabında boğularaq həlak olur. Ağıllı insan isə Peyğəmbəri imam olaraq qəbul edir, uca Allahın (c.c) yolunun yolçusu olur, ömrünü uca Yaradana həsr edib, Onun rizasını qazanır.

---

338 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 174.

339 «Riyazüs-Salihin», göstərilən qaynaq, c. VI, s. 117, 118.

Hz. Nizamiyə görə, islam Peyğəmbəri imamdır, qiblədir, yəni hər zaman ümməti diri saxlayacaq, onu uca Allahın (c.c) yoluna bağlayacaq, ümmətə uca Allahın (c.c) rizasını qazandıracaq dəyərləri vəhy yolu ilə alan, onu ümmətin düşüncə və əxlaqına yerləşdirən mübarək insandır.

## YETMİŞ DÖRDÜNCÜ ADDIM:
## YAŞIL GEYİMLİLƏRİN GÖY ÇADIRINDAN BAYIRA ÇIXMIŞDI

برون رفته چو وهم تیزهوشان
ز خرگاه کبود سبز پوشان

***Yaşıl geyimlilərin göy çadırından,***
***İti huşluların xəyalı kimi bayıra çıxmışdı.***[340]

Hz. Nizami başqa bir beytində də «yaşıl geyimlilər» ifadəsindən istifadə etmişdir. Şair «Yeddi gözəl» əsərində Peyğəmbərin merac gecəsini şərh edərkən deyir ki, «...gecənin ətir saçanları Sənə hazırlıq görürlər, yaşıl geyimlilər Səni gözləyirlər...». Burada şair «ətir saçanlar» deyərkən ulduzları, «yaşıl geyimlilər» deyərkən də mələkləri nəzərdə tutmuşdur. Ümumiyyətlə, hz. Nizami şeirlərində, o sıradan meracnamələrində rənglərdən çox istifadə etmişdir. O, hər bir rəngdən beytin ideyasına uyğun yararlanmış, əlvan bədii tablolar çəkmişdir.

Bu beytdə şair «yaşıl geyimlilər» deyərkən peyğəmbərləri nəzərdə tutmuşdur. Yaşıl islamın rəngidir. Peyğəmbər bu rəngi çox sevmişdir. Yaşıl rəng gözəlliyi, gəncliyi, sevgini təmsil edir. Şairin təfsirinə görə, «yaşıl geyimlilər» göy rəngli çadırda toplaşmışlar. Göy rəng də genişliyi, sonsuzluğu ifadə edir. Buradan belə bir məna çıxarmaq olar ki,

---

[340] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 339.

Peyğəmbər merac gecəsi «yaşıl geyimlilərə» Məscidül-Əqsada namaz qıldırmış və sonra «iti huşluların xəyalı» kimi göylərə ucalmışdır. Beytdəki «iti huşluların xəyalı» ifadəsinin mənası o deməkdir ki, dərin ağlı olan insanların xəyal gücü də çox olur. İnsan xəyalı çox sürətlə hərəkət edir, bir göz qırpımında böyük məsafələr qət edir. «İti huşluların xəyalı kimi bayıra çıxmışdı», yəni Peyğəmbər merac gecəsi çox böyük sürətlə göyə ucalmışdı.

Əgər biz «yaşıl geyimliləri» yenə də mələklər kimi təfsir etsək, onda merac gecəsi Peyğəmbərin mələklərin yaşadığı məkandan daha uca bir zirvəyə ucaldığını deyə bilərik.

**Şairin beytdə peyğəmbərləri bir «göy çadırda» bir yerdə təsvir etməsinin səbəbi onların eyni bir idealı, eyni bir hədəfi gerçəkləşdirmək üçün çalışdıqlarını ifadə etmək üçündür.**

## YETMİŞ BEŞİNCİ ADDIM:
## QÜTBÜN SAHİLİNƏ GƏMİ GƏTİRMİŞDİ

ازین گردابه چون باد بهشتی
به ساحل گاه قطب آورده کشتی

*Bu burulğandan behişt küləyi kimi,*
*Qütbün sahilinə gəmi gətirmişdi.*[341]

Şair bu beytdə gözəl bir mənzərə təsvir etmişdir. O, peyğəmbərlik missiyasının çətinliyini, merac gecəsinin məsuliyyətini, hz. Məhəmmədin (s.a.s) ağıllı, bacarıqlı, cəsarətli bir lider, yol göstərən olduğunu ifadə etmək üçün burulğanlı, fırtınalı bir dəniz obrazı yaratmışdır. Gerçəkdən,

---

[341] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

peyğəmbərlik missiyası ağır bir yükdür. Cəhalət burulğanı ilə çarpışaraq insanları küfr, şirk, hər cür ədalətsizlik, zülm və əxlaqsızlıq fəlakətindən xilas etmək çətin bir vəzifədir. Şair bu missiyanı burulğanlı dənizdə gəminin xilas edilməsinə bənzətmişdir.

**Şair deyir ki, hz. Məhəmməd (s.a.s) behişt küləyidir. Behişt küləyi ətirli, insan ruhuna dinclik verən, onda gözəl duyğular oyadan küləkdir. Behişt küləyi həm də xilas olmuş insanların haqq etdiyi küləkdir. Peyğəmbər behişt küləyi kimi əsdi, burulğanda olan gəmini xilas etdi, insanları mənəvi ölümdən qurtardı.**

Beytdə şair islam Peyğəmbərinin xilaskarlıq missiyasını önə çəkmişdir. Buralğanda batmaq təhlükəsi olan bir gəmi və onu behişt küləyi kimi xilas edən, sahilə çıxaran hz. Məhəmməd (s.a.s).

## YETMİŞ ALTINCI ADDIM:
## FƏLƏYİN QƏLBİNİ ƏQRƏBDƏ SÖKMÜŞDÜR

فلک را قلب در عقرب دریده
اسد را دست بر جبهت کشیده

*Fələyin qəlbini Əqrəbdə sökmüş,*
*Əlini Əsədin cəbhəsinə çəkmişdi.*[342]

Öncə onu deyək ki, Əqrəb və Əsəd (Şir) on iki bürc sırasına daxildir. Qəlb, Əqrəb bürcünün ulduzudur. Cəbhə isə Əsəd (Şir) bürcünün «alnında» olan bir ulduzun adıdır. Qəlb, ya da (Qəlbül-Əqrəb) müasir astronomiyada Antares adlanır. Beytdə sözlər həm həqiqi, həm də məcazi mənada işlənmişdir.

---

342 Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

Göy üzünün səkkizinci fələyi bürclər fələyi, ya da sabit ulduzlar fələyi adlanır. Bu təbəqə Böyük fələyin altındadır, mərkəzi aləmin mərkəzidir. Səkkizinci fələkdən aşağıda Zühal fələyi yerləşir. Bürclər olan fələkdə çoxsaylı sabit ulduzlar var, onlar çoz gözəldir. Bu fələk on iki bürcün bəzəyi ilə naxışlanmışdır. Səkkizinci fələkdə olan bürclər bunlardır:

Həməl – Qoç
Sevr – Buğa
Cevza – Əkizlər
Sərətan - Xərçəng
Əsəd – Şir
Sünbül – Başaq
Mizan – Tərəzi
Əqrəb – Əqrəb
Qövs – Yay
Oğlaq – Kədi
Dəlv – Dolça
Hut – Balıq

On iki bürcün dördünə dəyişdirən (Qoç, Səratan, Tərəzi, Oğlaq) deyilir. Çünki Günəş bu bürclərdə olarkən mövsüm dəyişir. Günəş Qoç bürcündə olarkən qışdan yaza keçilir. Səratan bürcündə olarkən yaya, Tərəzi bürcündə olarkən payıza, Oğlaq bürcündə olarkən isə qış fəslinə keçilir. Sabit olan bürclər isə bunlardır: Buğa, Şir, Əqrəb, Dolça. Bunlar mövsümlərin ortalarında olan bürclərdir. Qarışdıran bürclər isə bunlardır: Əkizlər, Başaq, Yay, Balıq. Günəş bu bürclərdə olarkən mövsümlər arasında qarışma olur. Məsələn, Balıq bürcündə qış ilə yaz bir-birinə qarışır.

Deməli, səkkizinci fələk (planet) – bürclər fələyi on iki bürcə bölünür və hər bölümdə otuz pay var. On iki bürc

on iki ay olur. On iki bürc iyirmi dörd saatda bir dövrü tamamlayır. Günəş ayda bir bürcdə olur.

Bilindiyi kimi, Günəşin hərəkətinin iyirmi səkkiz mənzili var. Hər bir mənzildə bir ulduz var. Onların hər birinin adı və forması (şəkli) var. Qəlb adlı ulduz da bu mənzillərdən biridir. Bu mənzillərdən biri də Cəbhə ulduzudur. Gecədən səkkiz saat yarım keçəndə Ayın onuncu mənzili olan Cəbhə ulduzu görünür. Şərq nöqtəsinin quzeyindən iyirmi beşinci meredİana qədər gələndə burada enişli-çıxışlı bir xətt üzərində dörd ulduz güney yarımkürədə böyük və parlaq ulduzlardır. Bunlardan ən böyüyünün adı Qəlbül-Əsəddir (Şir qəlbi). Yay şəklində bir cizgi üzərində də üç ulduz var. Onlar Qəlb adlanır.

Hz. Nizami deyir ki, O, fələyin qəlbini Əqrəbdə sökmüş, əlini Əsədin cəbhəsinə çəkmişdi. Burada Əqrəb və Əsəd (Şir) bürclərin adıdır. Qəlb adlı ulduz Əqrəb bürcünün, Cəbhə adlı ulduz isə Şir bürcünün ulduzudur. **Şair demək istəyir ki, islam Peyğəmbəri merac gecəsində sürətlə göyün səkkizinci qatına yüksəlmişdi. Çünki bu bürclər və ulduzlar səkkizinci fələkdə yerləşir. Peyğəmbər Əqrəb bürcündə olanda Qəlb ulduzu söndü, batdı. Əqrəb bürcünə çataraq bu fələyi (planeti) fəth etdi, arxada qoydu, «qəlbini sökdü», yəni bu təbəqəni də keçdi, onu «məğlub etdi». Sonra əlini Əsəd (Şir) bürcünün ulduzu olan Cəbhəyə çəkdi, yəni ona çatdı. «Əl çəkmək» burada toxunmaq, çatmaq, bir mənzilə yetişmək mənasındadır.**

## YETMİŞ YEDDİNCİ ADDIM:
## PƏRGARI YERƏ SANCDIN

پرگار به خاک در کشیدی
جدول به سپهر بر کشیدی

*Pərgarı yerə sancdın,*
*Göyün cədvəlini çəkdin.*[343]

Şair bu beytdə islam Peyğəmbərini merac səfərinə hazırlıq ərəfəsində təsvir etmişdir. Peyğəmbər mələyin dəvətini qəbul edir. Artıq onun əlində bir pərgar var. Burada pərgar sadəcə bir ölçü alətinin adı kimi deyil, səfərə hazırlaşan bir peyğəmbərin hazırlıq mərhələsini, bu mərhələdə görülməsi zəruri olan işlərin ümumi adı kimi çıxış edir. O, gedəcəyi yolun planını hazırlayır. Pərgarı yerə sancır, göyün cədvəlini çəkir. «Göyün cədvəli» göyün təbəqələri, hər bir təbəqənin xarakteri, gediləcək yolun ölçüsü, fələklər sistemi kimi mənaları ehtiva edir. Pərgarı yerə sancıb, göyün cədvəlini çəkdi fikri həm də o deməkdir ki, Peyğəmbər bütün yönü, ruh halı ilə bu səfərə hazır oldu.

## YETMİŞ SƏKKİZİNCİ ADDIM:
## BURAQI SƏNİN HİLMİN RAM ETDİ

برقی که براق بود نامش
رفق روش تو کرد رامش

***Adı Buraq olan şimşəyi,***
***Sənin gedişindəki hilm ram etdi.***[344]

Hz. Nizami bu beytdə həm sürət, həm güc, həm də sevgi anlayışını ifadə etmişdir. Şair bu ideyanı ifadə etmək üçün öncə Buraqın hərəkətini şimşəyə bənzətmişdir. Şair öncəki beytlərdə də Buraqı «gözəl heykəlli», «bağın üzü kimi qəşəng», «başında yüyən olmayan», «nurdan yaranmış», «ildırım sürətli», «ətirli», «yəhəri gövhərdən olan»,

[343] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.
[344] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

«güclü», «ağır nallı», «yüngül qaçışlı», «gözü iti» adlandırmışdır. Şair deyir ki, merac gecəsi Buraq şimşək sürəti ilə uca Allahın (c.c) hüzuruna aparırdı. Onu ancaq Peyğəmbər ram edə bildi. Burada «ram etmək» idarə etmək mənasındadır. Şair Peyğəmbərin Buraqı ram etməsinin səbəbini Onun helmində axtarmışdır.

Beytin mətnində «helm» kimi verilmiş söz, əslində, «hilm»dir. «Hilm» ərəbcədir, insan fitrətində olan yumşaqlığı, mülayimliyi, həlimliyi, ağıllı olmağı ifadə edir. «Hilm» anlayışı cəzalandırmağa gücü çatdığı halda bağışlamağı bacarmağı, səbir etməyi də əhatə edir.

«Hilm» Qurani-Kərimdə «ağıl» mənasında da işlədilmişdir:

سورة الطور أم تأمرهم أحلامهم بهذا أم هم قوم طاغون

(Tur, 52/32)

«Yoxsa onların puç ağılları bunu (bu cür batil sözləri deməyi) onlara əmr edir? Xeyr, onlar azğın bir qövmdürlər».

Bu ayədə «hilm» sözünün cəmi olan «əhlam» kəliməsindən istifadə olunmuşdur. «… Bəzi alimlər, əslində, «hilm»də ağıl mənasının olmadığını, ancaq hilm sifətinin ağıllı insanlarda ola bildiyi üçün «hilm»ə ağıl mənası verildiyini söyləmişlər…»[345].

Qurani-Kərimdə «hilm» bir sıra peyğəmbərlərin sifəti (xarakteri) kimi təqdim edilmişdir.

إن إبراهيم لحليم أواه منيب

(Hud, 11/75)

«Həqiqətən, İbrahim həlim xasiyyətli, (həmişə dua edərək) yalvarıb-yaxaran və özünü tamamilə (Allaha) təslim etmiş bir kimsə idi».

---

[345] «İslami kavramlar», göstərilən qaynaq, s. 314.

قَالُواْ يا شُعيب أَصلاَتُك تَأْمرك أَن نتْرك ما يعبد آباؤُنَا أَو أَن نفْعل في أَموالِنَا ما نَشَاء إِنك لَأنتَ الْحليم الرشيد

(Hud, 11/87)

«Onlar (istehza ilə) dedilər: «Ey Şüeyb! Atalarımızın tapındığı bütləri tərk etməyimizi, mallarımızla istədiyimiz kimi hərəkət etməkdən vaz keçməyimizi sənə namazınmı (dininmi) əmr edir? Sən doğrudan da, həlim xasiyyətlisən, çox ağıllısan».

Uca Allahın (c.c) «həlim» sifəti var. «Həlim» sözü də «hilm» kökündən törəmişdir. Uca Allahın (c.c) «həlim» sifəti bu mənaları ifadə edir: çox səbirli, üsyanlarına baxmayaraq, üsyan edənləri cəzalandırmağa tələsməyən, qəzəbi onu özündən çıxarmayan, yolunu azmış birinin üsyanı onu qəzəbləndirməyən, əfv sahibi.

لا يؤَاخذُكُم اللّه باللغْوِ في أَيمانكُم ولَكن يؤَاخذُكُم بما كَسبتْ قُلُوبكُم واللّه غَفُور حليم

(Bəqərə, 2/225)

«Allah, bilmədən (səhvən) içdiyiniz andlara görə sizi cəzalandırmaz, ancaq qəlblərinizin kəşf etdiyi şeylərə (yalandan, ya da qəsdən and içib yerinə yetirmədiyinizə görə, pis niyyətlərə görə) sizi cəzalandıracaqdır. Allah bağışlayandır, həlimdir!»

يا أَيها الذين آمنُوا لا تَسأَلُوا عن أَشْياء إِن تُبد لَكُم تَسؤْكُم وإِن تَسأَلُوا عنْها حين ينَزلُ الْقُرآن تُبد لَكُم عفَا اللّه عنْها واللّه غَفُور حليم

(Maidə, 5/101)

«Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın. Əgər onlar haqqında Quran nazil edildikdə soruşsanız, onlar sizə aydın olar

(Ancaq pis vəziyyətdə qalar və kədərlənərsiniz) Allah onları (indiyə qədər verdiyiniz bu cür sualları) bağışladı. Allah bağışlayandır, həlimdir! (Bəndələrinə əzab verməkdə tələsən deyildir!)»

«Hilm» qəzəbi söndürməkdən daha üstün bir fəzilətdir. Çünki «hilm» qəzəbini söndürən insanların qisməti olan bir nemətdir. Yəni qəzəbini söndürə bilməyənlər «hilm» sahibi ola bilməzlər.

Qurani-Kərimə görə, həlim olmağın, «hilm»ə yiyələnməyin bir yolu və əlaməti də səbirli olmaq, bağışlamağı bacarmaqdır.

الذين ينفقُون في السراء والضراء والْكاظمين الْغيظ والْعافين

عن الناس والله يحب الْمحسنين

(Ali-İmran, 3/134)

«O müttəqilər ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər».

Bu ayədə «hilm» sahibi olmağın ölçüləri verilmişdir: uca Allahdan (c.c) qorxmaq, bolluqda və qıtlıqda mallarını yoxsullara xərcləmək, qəzəbini udmaq, insanları bağışlamaq. Ayəyə görə, «hilm»in qarşılığı uca Allahın (c.c) sevgisini qazanmaqdır.

خُذ الْعفْو وأْمر بِالْعرف وأَعرض عن الْجاهلين

(əl-Əraf, 7/199)

«Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər»

Bu ayəyə görə, «hilm» peyğəmbərlərin üstün əxlaqının göstəricilərindən biridir. Bu «hilm» ölçüsünə görə, işləri asanlaşdırmaq, insanları çətinə salmaqdan uzaq durmaq, bağışlama yolu ilə insanları doğru hədəflərə yönəltmək bir

tərbiyə metodudur. «Hilm» sahibi cahillərdən üz döndərməlidir, yəni özünü tanımayan insanların boş sözlərinə, çirkin davranışlarına fikir verməməli, onları heçə saymalı, onlardan uzaq durmalıdır. «Hilm» ölçüsünə görə: «… fəzilətlərin ən üstünü gəlməyənə getmək, əsirgəyənə vermək, haqsızlıq edəni bağışlamaq, cahillərin səviyyəsinə enməməkdir…»[346]

ولَا تَستَوِي الْحسنَةُ ولَا السيِّئَةُ ادفَع بِالتي هي أَحسن فَإِذَا الذي بينَكَ وبينَه عداوةٌ كأَنه ولِي حميم . وما يلَقاها إِلا الذين صبروا وما يلَقاها إِلا ذُو حظ عظيم

(Fussilət, 41/34-35)

«Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mömin kimsə!) Sən (pisliyi) yaxşılıqla dəf et! (Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!) Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən! Bu (xislət) yalnız (dünyada məşəqqətlərə) səbir edənlərə verilir və yalnız böyük qismət (savab, fəzilət) sahiblərinə əta olunur!»

İnsanın ona qarşı edilən bir haqsızlığa, pisliyə cavab verməsi onun təbii haqqıdır. Ancaq uca Allahın (c.c) müəyyən etdiyi «hilm» ölçüsünə görə, pisliklərə sinə gərmək, pis insanlardan intiqam almamaq, səbirli olmaq, bağışlamağı bacarmaq daha üstün bir əxlaqdır, uca Allahın (c.c) sevdiyi qullarına bəxş etdiyi fəzilətdir:

ولَمن صبر وغَفَر إِن ذَلِك لَمن عزمِ الْأُمورِ

(Şura, 42/43)

[346] «Riyazüs-salihin», göstərilən qaynaq, c.III, s. 568.

«Əlbəttə, hər kəs (pisliyə) səbir edib (qisası) bağışlasa, (onun bu hərəkəti şəriətcə) çox bəyənilən əməllərdəndir!»

İslam Peyğəmbərinin mübarək hədislərində «hilm» ən gözəl əxlaq ölçülərindən biri kimi təqdim edilmişdir:

«Sizin ən güclünüz qəzəb anında nəfsinə hakim olanınız, ən həliminiz də («hilm»li olanınız – S.H) intiqam almağa gücü yetərkən bağışlayanınızdır».[347]

İslam Peyğəmbəri (s.a.s), Əbdül-Qeysoğullarından Əşəccə belə buyurmuşdur:

«Səndə Allahın sevdiyi iki özəllik var. Yumşaq xasiyyət və ehtiyatlı olmaq».[348]

«Hilm» qəzəbin ziddi olan xasiyyətdir. «Hilm»in ziddi sərtlik, kobudluqdur. Uca Allah (c.c) Qurani-Kərimin hz. Məhəmmədin (s.a.s) «hilm»ini öyür:

فَبِما رحمة من اللّه لِنتَ لَهم ولَو كُنتَ فَظّاً غَليظ القَلْبِ لانفَضوا من حولك فَاعفُ عنْهم واستَغفِر لَهم وشَاورهم في الأمرِ فَإذَا عزمتَ فَتَوكَلْ على اللّه إن اللّه يحب المُتَوكلين

(Ali-İmran, 3/159)

«(Ey Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlamaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah (Ona) təvəkkül edənləri sevər!»

---

[347] Qazzali, «İhya», c. III, s. 218-219.
[348] Müslim, «İman», 25, 26; Əbu Davud, «Ədəb», 149; Tirmizi, «Birr», 66; İbn Macə, «Zühd», 18.

İslam Peyğəmbəri (s.a.s) peyğəmbərlikdən öncə və sonra «hilm» sahibi idi. O, çox mülayim idi, şəxsi mənafeyinə görə bir kimsədən intiqam almazdı. O, xarakterinə görə ən az qəzəblənən, ən tez razı olan və günahkarları ən çox bağışlayan idi.

Bütün məsələlərdə olduğu kimi, «hilm»də də ölçünü qorumaq çox önəmlidir. Ölçünü qorumağın yolu da «hilm» anlayışını doğru qavramaqdır. «… Şübhəsiz, hilmin də bir ölçüsü var. Həlim olacağam deyərək zülmə boyun əymək doğru deyil. Yanlış hilm anlayışı pislik etmək istəyənlərin arzusunu və cəhalətini qamçılayacağı (artıracağı) üçün son dərəcə yanlışdır. Haqsızlığa qarşı müqavimət göstərmək bir fəzilətdir. Mərhum şair Mehmet Akif belə deyir:

***… Yumşak başlı isem, kim dedi uysal koyunum,***
***Kesilir belki, fakat çekmeye gelmez boyunum.***

Sərtlik göstərmək zəruri olan yerdə sərt, yumşaq xasiyyətli olmaq tələb olunan yerdə mülayim olmaq, hər iki xasiyyəti bir arada tutmaq, onlardan yerli yerində istifadə etmək doğru bir davranışdır».[349]

Hz. Nizami deyir ki, şimşək kimi iti sürətli olan Buraqı islam Peyğəmbərinin gedişindəki «hilm» ram etdi. Burada «ram etmək» idarə etmək, iti sürətli Buraqın üzərində dayanmağı bacarmaq, onu özünə tabe etmək deməkdir. Yəni hz. Məhəmməd (s.a.s) səbri, dözümü, cəsarəti, yumşaq xarakteri ilə onu özünə tabe etdi. Deməli, idarə etməyin, ram etməyin yolu «hilm» sahibi olmaqdır. Deməli, həyatın axışında özünü itirməməyin, ucalmağın, çaşmamağın, hədəfə doğru irəliləməyin şərti «hilm» (səbir, dözüm, cəsarət, mülayim xasiyyət) sahibi olmaqdır. «Hilm» insana güc verən, onu təmizləyən, onun ruhunun qanadları olan, onu sev-

---

[349]«İslami kavramlar», göstərilən qaynaq, s. 314.

dirən, onu uca Allah (c.c) və insanlara bağlayan fəzilətdir, uca əxlaq ölçüsüdür.

## YETMİŞ DOQQUZUNCU ADDIM:
## ƏL TOXUNULMAMIŞ GÖYLƏRƏ YÜKSƏLDİN

بر سفت چنان نسفته تختی
طیاره شدی چو نیک بختی

***Əl toxunulmamış taxta (göylərə) yüksəldin,***
***Bir xoşbəxt kimi uçan oldun (uçdun).***[350]

Hz. Nizami beytdə merac gecəsi islam Peyğəmbərinin (s.a.s) ucaldığı yüksəkliyi və Onda yaranan ruh halını təsvir etmişdir. Şair öncə deyir ki, islam Peyğəmbəri əl toxunulmamış taxta yüksəldi. Burada taxt uca göy, hakimiyyət, yüksəklik mənasındadır. O, elə bir yüksəkliyə ucalmışdır ki, ora əlçatmazdır. Şair bu yüksəkliyi ifadə etmək üçün «əl toxunulmamış taxt» ifadəsindən istifadə etmişdir. Misrada «əl toxunulmamış» ifadəsi həm ucalığı, həm müqəddəsliyi, həm də hz. Məhəmməddən (s.a.s) başqa bir kimsənin ucala bilmədiyi yeri ifadə edir. «Əl toxunulmamış taxt» həm də heç kimə qismət olmamış şərəf, heç kimə verilməmiş hakimiyyət mənalarını əhatə edir. «Əl toxunulmamış taxt» uca Allahın (c.c) islam Peyğəmbərinə verdiyi dəyəri, sevgini, merac gecəsinin önəmini göstərir.

Hz. Məhəmməd (s.a.s) göylərə ucaldıqca sevinci də artır, özünü xoşbəxt hiss edir. Şair Peyğəmbərin xoşbəxtliyini «uçmaq» anlayışı ilə ifadə etmişdir. Misrada «uçmaq» feli həm yüksəkliyi, həm sevinci, həm istəyi, həm də Peyğəmbərin uca Allahın (c.c) dəvəti ilə Onun hüzuruna ucalmasından doğan ruh halını göstərir. Şair meracnamələrində «uçmaq» anlayışından çox istifadə etmişdir. Məsələn,

---

[350] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

«Onun ürək quşu dinclik məkanına uçdu», «Onun ilahi quşunun (canının) qəfəsi də qanada çevrilmişdi», «Bir quş kimi Mədinədən uçub Əqsa məscidinə çatmışdı», «O şahin qanadlıya ayağını qoycaq ucalarda süzən kəklik kimi yerindən sıçradı», «O (Buraq) tavus qanadlarına bənzər ayaqlarını götürüb, Kavus kəcavəsi kimi Aya tərəf çapdı», «O, elə uçurdu ki, onun şığımağı qarşısında dörd şahin qanad saldı», «Bu at səyirtməkdə onun uçuşundan fələk neçə ox uçuşu geriyə qaldı».

## SƏKSƏNİNCİ ADDIM:
## İKİ ATLI DÖVRANI ARXADA QOYDU

زآنجا که چنان یک اسبه راندی
دوران دواسبه را بماندی

***Bir atla elə çapdın ki,***
***İki atlı (gecəli-gündüzlü) dövranı arxada buraxdın.***[351]

Şair bu beytdə gözəl bir bənzətmə işlətmişdir. Öncə Buraqı iti sürətli ata bənzətmişdir. Peyğəmbər bu atın üzərində göylərə yüksəlmişdir. Bu at yorulmayan, dayanmadan Peyğəmbəri mənzil başına çatdıran atdır. Bu yönü ilə də o, iki atlı dövrandan fərqlənir. **Şair böyük ustalıqla zamanın, dövranın daimi, fasiləsiz hərəkətdə olduğunu ifadə etmişdir. O, deyir ki, dövran iki atlıdır, gecə və gündüz bir-birini əvəz edərək zaman irəliləyir. Bu gedişi, hərəkəti dayandırmaq mümkün deyil. Ancaq Buraqdan fərqli olaraq zamanın ağ və qara atı tez-tez yorulur, ona görə də bir-birini əvəz edir.**

Uca Allah (c.c) gecə ilə gündüzün bir-birini əvəz etməsinin Onun qüdrətinin əlaməti olduğunu, burada bir hikmətin varlığını buyurmuşdur:

---

[351] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

إِن في خَلْق السماوات والأرضِ واخْتلاَف الليل والنهارِ والْفُلْك التي تَجرِي في الْبحرِ بِما ينفَع الناس وما أَنزلَ اللّه من السماء من ماء فَأحيا بِه الأرض بعد موتها وبث فيها من كُل دآبة وتَصرِيف الرياحِ والسحابِ الْمسخرِ بين السماء والأرضِ لآيات لقَومٍ يعقلُون

(əl-Bəqərə, 2/164)

«Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfinə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır».

**Şair bu beytdə həm də bu mənaları bədii biçimdə ifadə etmişdir:** Buraqın hərəkəti gecə və gündüzün hərəkətindən daha sürətlidir. Peyğəmbər merac gecəsi gətirdiyi nemətlə zamanı qabaqladı, bütün zamanların dəyəri olan bir nemət gətirdi. O, iki atlı (gecə-gündüzlü) dövranı arxada buraxdı, yəni merac gecəsi Peyğəmbər zamanı, məkanı, ölçüsü, cəhəti olan məkanı tərk etdi, sonsuzluq aləminə yüksəldi.

## SƏKSƏN BİRİNCİ ADDIM: YER DƏRYASI MƏDƏN OLDU

بحر زمین کان شد و او گوهرش
برد سپهر از پی تاج سرش

*Yer dəryası mədən oldu, o isə onun gövhəri,*
*Başına tac qoymaq üçün (daha yuxarılara) apardılar.*[352]

---

[352] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.

Hz. Nizami bu beytdə islam Peyğəmbərinin dəyərini anlatmışdır. Bu məqsədlə şair bir neçə vasitədən istifadə etmişdir. O, öncə Yeri bir dəryaya bənzətmişdir. Bu dəryanın içində bir mədən var. O mədənin ən qiymətli sərvəti gövhərdir. Gövhər həm qiymətli daşdır, həm də cövhər deməkdir, yəni hər şeyin əsli, ilahi mənalar və sifətlər.

Şairə görə, Yer planetinin ən dəyərli varlığı hz. Məhəmməddir (s.a.s). O, beytdə bir sultan kimi təsvir edilmişdir. Şairə görə, merac gecəsi Onun uca Allahın (c.c) hüzuruna aparılmasının səbəbi başına tac qoyulmasıdır. Uca göylərdə Onun başına üzəri gövhərlə bəzədilmiş tac qoyulacaq, yəni Ona ən dəyərli nemət veriləcək. O, bütün zamanların ən üstün sultanı olacaq. Şairin təsvirinə görə, uca Allah (c.c) merac gecəsi hz. Məhəmmədin (s.a.s) peyğəmbərliyinin təqdimetmə mərasimini keçirmiş, Onun sultanlığını elan etmiş, başına sultanlıq tacı qoydurmuşdur.

## SƏKSƏN İKİNCİ ADDIM: FƏLƏK ÖKÜZÜ YER ÖKÜZÜNDƏN ALDI

گوهر شب را به شب عنبرین
گاو فلک برد ز گاو زمین

***Ənbərli gecədə gecə gövhərini,***
***Fələk öküzü yer öküzündən aldı.***[353]

Beytin orijinal mətnində «şəbçıraq» sözündən istifadə edilmişdir. Yəni «şəbçıraq» «gecə parlayan» deməkdir. Ancaq bu sözün mənaları daha çox və genişdir. «Şəbçıraq» ən qiymətli, ən parlaq, ən bahalı cəvahir deməkdir. «Şəb» farsca gecə deməkdir. Təsəvvüfdə «şəb»in qeyb aləmi, cəbərut aləmi, yoxluq və qaranlıqdan ibarət olduğuna görə

[353] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.

«ayani-sabitə», nurlar, insanlıq kimi təsəvvüfə bağlı anlamları var. Təsəvvüfdə «şəb» sözü ilə bağlı bir sıra deyimlər və mənalar var: «Şəbi-merac – merac gecəsi, insan ruhunun uca Allaha (c.c) yüksəlməsi», «Şəbi – Qədr – Qədr gecəsi». Sufinin tam yox olmaq durumunda Haqqın varlığı ilə baqi qalması, «Şəbi-hicran» -ayrılıq gecəsi, «Şəbi-yelda» - ilin ən uzun gecəsi, «səvadi-əzəm», yəni mənəvi yoxsulluq, salikin fənaya qovuşması, əsl yoxluğa dönüş, «Şəbi-bar» - nurların sonu, «Şəbangəh» - gecələr hallara hakim olmaq. Bu anlayışlar divan ədəbiyyatının mətninə də yerləşmişdir:

**Yəhya Kamal Bayatlı:**

**Şebi-yeldada uzar fəcrə kadar kıssai-aşk,**
**Ta ki Mecnun bitirir nutkunu Leyla başlar.**

(İlin ən uzun gecəsi eşq hekayəsi sübhədək uzanar, Məcnun sözünü bitirən kimi, Leyli başlar)

**Füzuli:**

**Şəbi-hicran yanar canım, tökər qan**
**çeşmi-giryanım,**
**Oyadar xəlqi əfqanım, qara bəxtim oyanmazmı?**

**Laedri:**

**Şebi-yeldayı münəccimlə muvakkıt ne bilir,**
**Mübtelayi-gama sor kimi gecələr kaç saat.**

(İlin ən uzun gecəsini münəccimlə, vaxt müəyyən edən bilməz, gecənin neçə saat olduğunu qəmə mübtəla olandan soruş)

Hz. Nizami beytdə «şəbçıraq» deyərkən hz. Məhəmmədi (s.a.s) nəzərdə tutmuşdur. Şairə görə, O, ən dəyərli gövhərdir, ən parlaq çıraqdır. O, elə bir işıqdır ki, merac gecəsini gündüzə çevirmişdir, aləmi nura boyamışdır.

**Şair beytdə merac gecəsini «ənbərli gecə», «ətirli gecə» adlandırmışdır. O, ənbərli gecədə bir nurdur. Ənbər özəl bir ətir növüdür. Onun gözəl ətri var, bu ətir insanlara ruh verir, onların ruhunu təzələyir. Merac**

**gecəsi də ənbərli gecədir, bu gecənin tükənməyən bərəkəti var. Bu gecə öz ətrini və nurunu islam Peyğəmbərindən almışdır.**

Şair deyir ki, bu ənbərli gecədə o gecə gövhərini, o gecə nurunu, yəni hz. Məhəmmədi (s.a.s) fələk öküzü, yer öküzündən aldı. Burada şair mifik düşüncənin imkanından istifadə etmişdir. Bu düşüncəyə görə, Yer planeti öküzün buynuzu üzərində durur. Fələk öküzü də Sur bürcünün adıdır. Yəni merac gecəsi İslam Peyğəmbəri Yer planetindən ayrılıb göylərə ucaldı.

## SƏKSƏN ÜÇÜNCÜ ADDIM:
## FƏLƏYİN BAĞI SƏNİN MƏRHƏMƏTİNDƏN BƏHƏR VERDİ

ربع فلک از چهارگوشه
داده ز درت هزار خوشه

*Fələyin (bağı) dörd bir tərəfdən,*
*Sənin mərhəmətindən min bir bəhər verdi.*[354]

Hz. Nizami bu beytdə başlıca ideyanı «mərhəmət» anlayışı ilə ifadə etmişdir. «Mərhəmət» sözü «Rahimə» felinin məsdəridir. «Mərhəmət» və «rəhmət» kəlmələri yumşaq qəlbli olmaq, insanların halına acımaq kimi mənaları əhatə edir. «Mərhəmət» uca Allahın (c.c) «Rəhman» və «Rəhim» sifətləri ilə bağlıdır. Uca Allahın (c.c) «Rəhman» sifəti Ona inanan və inanmayanlara fərq qoymadan bütün insanlara, bütün yaradılmışlara aid olan rəhmətidir. «Rəhim» sifətinə bağlı mərhəmət isə qiyamət günü yalnız möminlərə aid olan rəhmətdir.

---

[354] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

الذين يتبعون الرسول النبي الأمي الذي يجدونه مكتوباً عندهم في التوراة والإنجيل يأمرهم بالمعروف وينهاهم عن المنكر ويحل لهم الطيبات ويحرم عليهم الخبآئث ويضع عنهم إصرهم والأغلال التي كانت عليهم فالذين آمنوا به وعزروه ونصروه واتبعوا النور الذي أنزل معه أولـئك هم المفلحون

(əl-Əraf, 7/156)

«Bizə bu dünyada da yaxşılıq yaz. (Dünyada yaxşı əməllər, axirətdə Cənnət qismət elə). Biz (tövbə edib bağışlanmağımızı diləyərək) Sənə tərəf (hüzuruna) döndük!» (Allah) buyurdu: «İstədiyimi əzabıma düçar edərəm. Mərhəmətim hər şeyi ehtiva etmişdir. Onu Allahdan qorxub pis əməllərdən çəkinənlərə, zəkat verənlərə, ayələrimizə iman gətirənlərə yazacağam!»

Uca Allah (c.c) çox mərhəmətlidir:

إنه كان فريق من عبادي يقولون ربنا آمنا فاغفر لنا وارحمنا وأنت خير الراحمين

(əl-Muminun, 23/109)

«Çünki bəndələrimdən bir zümrə (möminlər) var idi ki, onlar: «Ey Rəbbimiz! Biz (Sənə) iman gətirdik. Artıq bizi bağışla, bizə rəhm et. Sən mərhəmət edənlərin ən mərhəmətlisisən! - deyirdilər».

Hz. Məhəmmədin (s.a.s) əxlaqı mərhəmət dəyəri, neməti ilə yoğrulmuşdur. Uca Allah (c.c) Onu aləmlərə rəhmət olaraq göndərmişdir.

وما أرسلناك إلا رحمة للعالمين

(əl-Ənbiya, 21/107)

«Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik».

Mərhəmət islam Peyğəmbərinin insanlara münasibətinin, onları doğru yola yönəltmək metodunun ölçüsüdür. O, çox şəfqətli (Rauf), çox mərhəmətlidir (Rəhim). O buyurur:

«İnsanlara mərhəmət etməyənə Allah da mərhəmət etməz».[355]

«Mərhəmət edənlərə Allah da mərhəmət edər. Siz yer üzündəkilərə mərhəmət edin ki, göydəkilər də sizə mərhəmət etsin».[356]

Hz. Məhəmməd (s.a.s) buyurur ki, uca Allahın (c.c) rəhməti sonsuzdur: «Uca Allah rəhmətinin yüz parçaya ayırdı. Bunun doxsan doqquzunu öz yanında saxladı, bir parçasını yer üzünə endirdi. Bu bir parça rəhmətə görə, yaradılmışlar bir-birinə mərhəmət edər. Ana atın (süd əmizdirərkən) balasına zərər verməsin deyə, ayağını yuxarı qaldırması belə, bu yüzdən bir parça olan rəhmətin əlamətidir».[357]

«Möminlər bir-birilərini sevməkdə, bir-birilərinə acımaqda və bir-birilərini qorumaqda bir vücuda bənzərlər. Vücudun bir üzvü xəstə olduğu zaman başqa üzvlər də bu səbəblə yuxusuzluğa və atəşli xəstəliyə tutularlar».[358]

Hz. Nizami deyir ki, fələyin bağı dörd bir tərəfdən islam Peyğəmbərinin mərhəməti ilə min bəhər verdi. Şair bu beytdə hər şeydən öncə merac gecəsinin bərəkətini anlatmışdır. Şairə görə, merac gecəsi bütün kainat uca Allahın (c.c) rəhməti ilə doldu, göydən yerə rəhmət yağdı. Uca Allah (c.c) bu mübarək gecədə insanlığa ən böyük nemətlərindən birini verdi.

Şairin təfsirinə görə, mərhəmət duyğusu ədalətli cəmiyyətin başlıca ölçülərindən biridir. Mərhəmətin bəhrəsi

---

[355] Müslim, «Fədail», 66.
[356] Əbu Davud, «Ədəb», 58; Tirmizi, «Birr», 16.
[357] Buxari, «Ədəb», 19; Müslim, «Tövbə», 17.
[358] Buxari, «Ədəb», 27; Müslim, «Birr», 66.

sevgidir, barışdır, fədakarlıqdır, başqasını düşünməkdir, ədalətdir, azadlıq və inamdır. Şair deyir ki, mərhəmətlə fələyin bağı min bir bəhər verdi. Yəni bütün kainat çiçək açdı, gözəl güllərin ətri bütün aləmi bürüdü. Deməli, mərhəmətdə gül ətri var. Şairə görə, bütün kainata mərhəmət ətrinin yayılmasının səbəbi hz. Məhəmməddir (s.a.s). Çünki O, bütün gözəlliklərin qaynağıdır.

## SƏKSƏN DÖRDÜNCÜ ADDIM:
## O BAĞIN BƏHƏRİ SƏNİN BAXIŞINDAN İŞIQ ALDI

از سرخ و سپید دخل آن باغ
بخش نظر تو مهر ما زاغ

***O bağın qırmızı və ağ bəhəri,***
***Sənin nəzərinin bəxşişindən parlaqlıq aldı.***[359]

Hz. Nizami öncəki beytdə «fələyin bağı»ndan danışmışdı. O, «fələyin bağı» deyərkən göy üzünü nəzərdə tutmuşdur. Şairə görə, «fələyin bağı» (göy üzü) merac gecəsi islam Peyğəmbərinin mərhəmətindən min bir bəhrə verdi, yəni nura boyandı, bütün səma cismləri daha parlaq işıq saçdı, merac gecəsi bir işıqlı, aydın gündüzə çevrildi.

**Şair bu beytdə deyir ki, «fələyin bağı»nın qırmızı və ağ bəhəri Sənin baxışından pay aldı, parlaqlıq qazandı. Burada qırmızı və ağ bəhər ulduzların qırmızı və ağ işıqlarıdır. Bir ulduzun bəhrəsi onun işığıdır. Şair deyir ki, islam Peyğəmbərinin gözləri bu ulduzlardan daha işıqlıdır. Merac gecəsi ulduzlar Peyğəmbərin gözlərindən nur alaraq daha gur işıq saçdı. Peyğəmbər bu səma cismlərinə elə mərhəmətlə, şəfqətlə baxdı ki, onların**

---

[359] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

**bütün gözəllikləri üzə çıxdı, göy üzü işığa boyandı. Gerçəkdən, insan bütün yaradılmışlara mərhəmətlə baxsa, bütün aləm gözəlliyə bürünər.**

Şair bu beytdə həm də səma cisimlərinin islam Peyğəmbərinə olan sevgisini ifadə etmişdir. Merac gecəsi səma cisimləri islam Peyğəmbərini gördü, sevindi, nuru artdı, öz gözəlliyini Ona göstərdi, bütün göy üzü qırmızı və ağ işığa boyandı.

## SƏKSƏN BEŞİNCİ ADDIM: YEDDİ DAMIN ZİRVƏSİNDƏ TAC VƏ BAYRAQ QALMADI

بر طره هفت بام عالم
نه طاس گذاشتی نه پرچم

*Aləmin yeddi damının zirvəsində,*
*Nə tac (ay) qoydun, nə də bayraq (qotaz-günəş).*[360]

Hz. Nizami bu beytdə bir sıra məsələlərə toxunmuşdur. Şair beytdə «aləmin yeddi damının zirvəsi» deyərkən göyün yeddi qatını, onun zirvəsini nəzərdə tutmuşdur. Yəni merac gecəsi islam Peyğəmbəri göyün ən uca zirvəsinə ucaldı. Burada şair ucalıq, zirvə anlayışı ilə tac, bayraq anlayışları arasında uyğunluq yaratmışdır. Belə ki, tac və bayraq da zirvə anlayışını ifadə edir. Bayraq ən uca yerdən asılar, tac da ən səlahiyyətli insanın başına qoyular.

**Şairin təfsirinə görə, hz. Məhəmməd (s.a.s) merac gecəsi göyün ən uca zirvəsinə yüksəldi, Ay və Günəş Onun ayağının altında qaldı. O, zirvədən Ayın tacını, Günəşin bayrağını endirdi, onlardan daha uca zirvəyə yüksəldi.**

---

[360] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

## SƏKSƏN ALTINCI ADDIM: FƏLƏYİN BAYRAĞINI QIRDIN, AYIN TACINI BÖLDÜN

هم پرچم چرخ را گسستی
هم طاسک ماه را شکستی

*Həm fələyin bayrağını (qotazını) qırdın,*
*Həm də Ayın tacını böldün.*[361]

Şair bu beytin ideyasını ifadə etmək üçün bir sıra anlayışlardan istifadə etmişdir. «Aləmin yeddi damının zirvəsi», «tac», «bayraq», «fələyin bayrağının qotazı», «Ayın tacı» kimi ifadələr ideyanın anlaşılmasına yardım etmişdir. Şair beytdə «fələyin bayrağı» deyərkən Günəşi nəzərdə tutmuşdur. Bayraq güc, hakimiyyət, üstünlük, zirvə deməkdir. Göy üzünün hakimiyyəti də uca Allahın (c.c) buyruğu ilə Günəşə verilmişdir. O, həyat qaynağıdır, səma cisimlərinin sultanıdır.

Şair bu beytdə Günəş obrazından islam Peyğəmbərinin gözəl üzünün çox nurlu olduğunu ifadə etmək üçün yararlanmışdır. Belə ki, şairə görə, fələyin bayrağı, yəni Günəş hz. Məhəmmədin (s.a.s) nurlu camalını gördü və işığının azlığını hiss etdi, şüaları qırıldı. Çünki Peyğəmbərin mübarək üzünün nuru Günəşin işığından daha parlaq idi.

Şair beytin ikinci misrasında deyir ki, Peyğəmbər «aləmin yeddi damının zirvəsinə» ucalanda Ayın tacını böldü. Burada şair iki məsələni önə çəkmişdir. Şair öncə Peyğəmbərin Ayı iki yerə böldüyü möcüzəsinə işarə etmişdir. Bilindiyi kimi, Qurani-Kərimdə bu möcüzəyə işarə edilmişdir:

---

361 Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

اقْتَرَبَتِ السَّاعَةُ وَانشَقَّ الْقَمَرُ

(əl-Qəmər, 54/1)

«O saat (qiyamət) yaxınlaşdı və Ay (Peyğəmbərin möcüzəsi ilə) parçalandı».

Bu ilahi möcüzə hz. Məhəmmədin (s.a.s) peyğəmbərliyini təsdiq edən bir əlamətdir: «… Ədəbiyyatımızda Qurani-Kərimdə olduğu kimi «şəqqal-qəmər» (ayın parçalanması) şəklində təqdim edilən Ayın ikiyə bölünmə möcüzəsi ilahi yardımla bütün varlıqların və təbiət hadisələrinin hz. Peyğəmbərin (s.a.s) buyruğu ilə hərəkət etməsinə ən gözəl və ən açıq bir örnəkdir. Dolayısı ilə «şəqqal-qəmər» hadisəsi nətlərdə ən çox təsvir edilən möcüzə olmuşdur. Başqa yöndən hz. Peyğəmbərin (s.a.s) başqa möcüzələri ilə müqayisədə bu hadisə şairanə ifadələrlə, zəngin təşbeh və hüsnü-təlillərlə təsvir edilməyə daha uyğundur. Şairlər, hz. Peyğəmbərin barmağını hilal, qılınc, ney, əlif, çövkan oyunundakı dəyənəyə bənzətmiş, Ayı da ayna, alma, çörək, qədəh, davul, top və iki «ra» hərfinə bənzətmişlər. Bir sıra şairlər bu hadisəni ədəbi bənzətmələrə yer vermədən, müşriklərin hz. Peyğəmbərdən möcüzə istəmələrinə cavab olaraq Onun Ayı iki yerə bölərək peyğəmbərliyini isbat etdiyi şəklində təsvir etmişlər. Bir qismi də bu hadisəyə şairanə səbəblər göstərmişlər. Onlara görə, gecə uca Peyğəmbərin günəş parlaqlığındakı əlini görən kimi Ay şövqə gəlmiş və köksünü parçalamışdır, yaxasını cırmışdır, ya da peyğəmbərlərin sultanının ayağını öpmək üçün ulduz kimi parça-parça olmuşdur… Bu tərzdəki səbəblərin ən gözəl iki örnəyini Zatidə görürük.

Şair, hz. Yusifin (s.a.s) gözəlliyindən heyrətə gələrək çaşan qadınların turunc yerinə əllərini kəsdiyi kimi, hz. Peyğəmbərin Günəş parlaqlığındakı üzünü görən Ayın ovcunun da ikiyə ayrıldığını ifadə edir. Ya da kainatın başçısı

olan uca Peyğəmbərin hökmünün yerdən göyədək rəvan olduğuna Ay ən böyük və adil bir örnək olmuşdur. … Parlaqlığı, rəngi və şəkliylə aynaya bənzədilən Ayın hz. Peyğəmbərin ilahi fərmanı daşıyan əlini görüncə dözə bilməyib qırılması da yuxarıda ifadə edilən təşbeh və hüsnütəlillərin bir bənzəridir. Yenə uca Peyğəmbərin qılınca bənzədilən barmağı ilə Ayın qalxanını ikiyə böldüyü, dolun (bütöv) ayı iki hilala çevirdiyi mövzuya çevrilmiş, Xüdayi isə hz. Peyğəmbərin barmaq qılıncı ilə Ayın köksünün açılıb, səfa tapan bir ayna halına gəldiyini söyləyərək eyni zamanda «şərhi-sadr» hadisəsinə işarə etmişdir. «Səqqalqəmər» möcüzəsi ilə bağlı son örnəyimiz hz. Peyğəmbərin möcüzələrinə nətlərində geniş yer verən Taşlıcalı Yəhya Bəyə aiddir. Şair klassik ədəbiyyatımızda geniş, düz, arasıra ağ və rəngli görüntüsü ilə kağıza bənzədilən göy üzündə ikiyə ayrılan Ayı iki «ra» hərfinə bənzətmişdir. Ümmi olan, yəni oxuyub yazması olmayan uca Peyğəmbərin əlinə heç qələm almadığı halda göy səhifəsinə iki «ra» hərfi yazdığını söyləyərək ayın ikiyə bölünmə möcüzəsinə ədəbi bir üslub içində işarə etmişdir:

***Destüne kalem almamış idün ne acebdür,***
***Engüşt ile levhi-feleğe yazdun iki ra…***[362]

Hz. Nizami deyir ki, islam Peyğəmbəri merac gecəsi Ayın tacını böldü. Şairin beytdə ifadə etdiyi ikinci məna da odur ki, Ay merac gecəsi nurlu Peyğəmbəri gördü və göydəki hakimiyyətini itirdi, tacı ikiyə bölündü.

---

[362] Emine Yeniterzi, «Divan şiirinde nat», göstərilən qaynaq, s. 290-292.

## SƏKSƏN YEDDİNCİ ADDIM: MAVİ FƏLƏYİN TAVUS QANADLILARI QANAD SALDI

طاوس پران چرخ اخضر
هم بال فکنده با تو هم پر

***Mavi fələyin tavus qanadlıları (mələklər),***
***Sənin üçün həm qol, həm qanad saldılar.***[363]

Hz. Nizami bu beytdə gözəl mənzərə yaratmışdır. Şair başqa nətlərində olduğu kimi, bu nətdə də rənglərdən, onların daşıdığı məna yükündən gözəl, yerli-yerində istifadə etmişdir. Şair göylərin sonsuzluğunu, gözəlliyini ifadə etmək üçün gözəl təsvir və ifadə vasitələrinə yer vermişdir. «Göylərin firuzə rəngli fərşləri», «firuzə rəngli kərpicdən tikilmiş günbəz», «yeddi fərş», «göyün büsatı», «Asiman onun əlindən təzə don geyindi», «göylər gülşənə çevrildi» və başqa bu kimi təsvirlər merac gecəsi göylərin halını gözəl ifadə edir. Şair bu beytdə «mavi fələk» deyərkən sonsuz və gözəl səmanı nəzərdə tutmuşdur. Bu sonsuz, gözəl, mavi rəngli səmada tavus qanadlı mələklər var. Şair mələklərin gözəlliyini ifadə etmək üçün onların qanadlarını tovuz quşunun qanadlarına bənzətmişdir. Tovuz quşunun qanadları min bir rəngə çalır, insanlara gözəllik bəxş edir.

Şair bu beytdə həm səmanın sonsuzluğunu, həm mələklərin gözəlliyini təsvir etmiş, həm də bu fonda beytin ideyasını vermişdir. **Şair demək istəyir ki, merac gecəsi Peyğəmbər elə uca bir zirvəyə yüksəldi ki, tovuz qanadlı mələklər ora uça bilmədilər. Beytdəki mələklərin «qol-qanad salması» ifadəsi yorulmaq, gücü çatmamaq, uça**

[363] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

**bilməmək mənalarını ifadə edir. Yəni Peyğəmbər merac gecəsi əlçatmaz zirvəyə yüksəldi.**

## SƏKSƏN SƏKKİZİNCİ ADDIM: CƏBRAİL (ə.s): «ALLAH SƏNİNLƏ OLSUN», - DEDİ

جبريل ز همرهيت مانده
(الله معک) ز دور خوانده

***Cəbrail Səni müşayiətdən geri qaldı,***
***Uzaqdan: «Allah səninlə olsun», - dedi.***[364]

Bu beytdə ifadə olunmuş fikir nətlərdə geniş şərh edilmişdir. Nətlərdə ifadə olunan fikrə görə, merac gecəsi hz. Məhəmməd (s.a.s) göyə yüksələrkən Sidreyi-Müntəhaya çatdı. Onunla göylərə ucalan Cəbrail (ə.s) oradan irəli gedə bilməyəcəyini bildirdi.

Alimlərə görə, Sidreyi-Müntəha Ərşin sağında – yeddinci səmada, başqa bir hədisə görə, altıncı səmada olan bir ağacdır. Cənnətdəki çaylar bu ağacın altından qaynayır. «Hədislərdə bu böyük ağacın bir yarpağının bütün ümməti örtdüyü, bir insanın yüz il onun kölgəsində getsə belə, sonuna çata bilməyəcəyi anladılır. İbn Abbas və Kab kimi müfəssirlər Sidreyi-Müntəhanı mələk, peyğəmbər və başqa bütün canlıların elminin sona çatdığı yer olaraq qəbul edir və bu nöqtədən sonrasının yalnız Allaha məxsus qeyb aləmi olduğunu bildirir. Onların bu ifadəsi «müntəha» kəlməsini açıqlayır».[365]

Qurani-Kərimdə uca Allah (c.c) buyurur:

وَلَقَدْ رَآهُ نَزْلَةً أُخْرَى . عند سدرة الْمُنْتَهى . عندها جنة الْمَأْوى

---

[364] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.
[365] «Divan şiirinde nat», göstərilən qaynaq, s. 125.

إِذْ يغْشَى السدرةَ ما يغْشَى . ما زاغَ الْبصر وما طَغَى . لَقَد رأَى من آيات ربه الْكُبرى

(Nəcm, 53/13-18)

«And olsun ki, (Məhəmməd (s.a.s) Cəbraili (ə.s) öz həqiqi surətində) başqa bir dəfə də (merac vaxtı) görmüşdü. (Yeddinci göydəki) Sidrətül-müntəhanın yanında. (Mələklər, şəhidlər, müttəqilər məskəni olan) Məva cənnəti onun yanındadır. O zaman Sidrəni nələr bürümüşdü, nələr! Göz nə (sağa-sola) yayındı, nə də uzağa getdi (hər şeyi olduğu kimi gördü). And olsun ki, (Peyğəmbər) öz Rəbbinin ən böyük qüdrət nişanələrindən (möcüzələrindən) bir qismini (Beytül-məmuru, Sidrətül-müntəhanı, Cənnəti, cəhənnəmi, Rəfrəfi, altı yüz qanadı olan Cəbrailin həqiqi surətini) gördü».

Hz. Nizami merac gecəsi islam Peyğəmbərinin çox uca zirvəyə yüksəldiyini ifadə etmək üçün Qurani-Kərimdə, hədislərdə və nətlərdə olan Sidreyi-Müntəha anlayışından istifadə etmişdir. Şair islam Peyğəmbəri ilə mələyin ayrıldığı anı təsvir edərkən Cəbrailin (ə.s) Peyğəmbərə olan sevgisini göstərən dua vermişdir. Sevən sevdiyinə dua edər. Cəbrail (ə.s) ayrılıq anında Peyğəmbərin tək olmadığını bildirmək üçün, o anda Peyğəmbərin özünü güclü hiss etmək ehtiyacını nəzərə alaraq Ona deyir: «Allah səninlə olsun».

## SƏKSƏN DOQQUZUNCU ADDIM: SƏRƏTANIN TACINI, CÖVZANIN KƏMƏRİNİ ALDI

او ستده پیشکش آن سفر
از سرطان تاج و زجوزا کمر

***O, bu səfərin muştuluğu üçün,***
***Sərətanın tacını, Cövzanın kəmərini aldı.***[366]

[366] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 26.

Hz. Nizami bu beytdə iki bürcün adını çəkmişdir: Sərətan (Xərçəng) və Cövza (Əkizlər). Xərçəng ən kiçik Zodiak bürcüdür. Səmada təqribən beş yüz kvadrat dərəcəlik sahəni tutur. Adi gözlə görünən altmış ulduzdan ibarətdir. Parlaq ulduzları yoxdur. Xərçəngin deltası diqqəti cəlb edir. Bu ulduz Günəşin səmadakı illik yolunun üstündədir. Buna görə də həm Günəş, həm də Ay öz diskləri ilə onun üstünü örtə bilir. Xərçəng bürcündə müşahidə üçün ən maraqlı obyekt Axur adlanan səpilmiş ulduz toplusudur. Bu topluda üç yüz iyirmi ulduz var. Onların işığı Yerə beş yüz iyirmi ilə gəlib çatır. Topluya isti, daha nəhəng ulduzlar, eləcə də Günəşə bənzəyən müəyyən qədər ulduz daxildir. Xərçəng bürcündə doğulan insanlar xeyirxah, cazibədar, zəngin təxəyyülü, güclü yaddaş sahibi olurlar.

Xərçəng bürcü su işarəsi sayılır. Ayın himayəsi altındadır. Xərçəng bürcündə olan ulduzları xətlə birləşdirəndə başında tacı olan xərçəng işarəsi alınır.

Cövza (Əkizlər) bürcü səmada beş yüz iyirmi dörd kvadrat dərəcəlik sahəni tutur. Ona adi gözlə görünən yetmiş ulduz daxildir. Əkizlər bürcü hava işarəsidir. Merkurinin himayəsi altındadır. Bu bürc altında doğulanlar ağıllıdırlar, hər şeyi bilməyə həvəs göstərirlər, şəraitə asanlıqla uyğunlaşırlar.

Şair beytin ideyasını ifadə etmək üçün Sərətan (Xərçəng) və Cövza (Əkizlər) bürcünün xarakterindən istifadə etmişdir. Beytin ideyası Merac gecəsinin çox önəmli bir gecə olduğunu vurğulamaq, merac səfərinin insanlıq üçün böyük bir nemət olduğunu göstərmək, merac gecəsi hz. Məhəmmədin (s.a.s) göylərin əziz qonağı olduğunu bildirməkdir. **Göylər, səma bu səfərdən, bu mübarək gecənin əziz qonağından çox məmnundurlar. Şair bu fikri ifadə etmək üçün «muştuluq» sözündən istifadə etmişdir. «Muştuluq vermək», «muştuluqlamaq» xoş, gözəl, önəmli bir xəbərin qarşılığı-**

**dır. Merac səfəri ilahi iradə ilə gerçəkləşmiş bir mübarək yolçuluq olduğundan bütün səma cismləri islam Peyğəmbərini muştuluqlayır, Ona gözaydınlığı verir.** Sərətan (Xərçəng) Onun üçün ən dəyərli nemət olan tacını, Cövza (Əkizlər) də kəmərini Peyğəmbərə bağışlayır. Əslində, bu səma cismləri göydəki, bu bürcə daxil olan ulduzlar üzərindəki hakimiyyəti Peyğəmbərə vermiş olurlar. Çünki «tac» və «kəmər» anlayışları hakimiyyətin rəmzidir. Yəni bu bürclər merac gecəsi islam Peyğəmbərinin nurlu üzünü gördülər və Onun gözəl üzünün parlaqlığı qarşısında aciz qaldılar.

Şair, Sərətan bürcündə yerləşən ulduzların görünüşünün taca, Cövza bürcündə yerləşən ulduzların görünüşünün kəmərə bənzəməsindən istifadə edərək həm beytin ideyasını təqdim etmiş, həm də gözəl bir mənzərə çəkmişdir.

## DOXSANINCI ADDIM:
## XUŞƏ TƏZƏ SÜNBÜL DÜZƏLTDİ

خوشه کزو سنبل‌تر ساخته
سنبله را بر اسد انداخته

***Xuşə təzə sünbül düzəldib,***
***Sünbüləni Şirin üstünə atdı.***[367]

Hz. Nizami bu beytin ideyasını səma cismlərinin xarakteri üzərində qurmuşdur. Beytin ideyası səma cismlərinin merac gecəsi islam Peyğəmbərinin göylərə ucalmasından doğan sevincini ifadə etməkdir. Şairə görə, bu mübarək gecədə bütün aləm, o sıradan səma cismləri sevinc içərisindədir. Bütün planetlər ən gözəl «paltarını» geyinib Peyğəmbərin yoluna düzülmüşdür, hər bir cism Onu görməyə can

[367] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 26.

atır, Ona olan sevgisini göstərir, səmada bir möhtəşəm qarşılanma məclisi təşkil edilmişdir.

Hz. Nizaminin seçdiyi obrazlar merac gecəsinin məzmununa, ideyasına, xarakterinə tam uyğundur.

«Xuşe» fars dilində sünbül deməkdir, daha dəqiq mənası isə başaq, kövşəndir. Başaq, ya da Sünbülə bürcü Şir (Əsəd) bürcündən sonra yerləşir. Qədim astronomiya kitablarında bu bürcü əlində dərz tutmuş gözəl qız şəklində təsvir edirdilər. Bu bürc məhsulu, bol məhsul yığımını təmsil etdiyindən ona Sünbülə (Başaq) bürcü deyilirdi. İndi isə bu bürc Qız bürcü adlanır. Bu bürclə bağlı çoxsaylı miflər, rəvayətlər danışırdılar. Məsələn, Şərqi İndoneziya miflərində Qız baş ilahələrdən biri idi. Rəvayətə görə, o hər il torpaq ilahəsi Nitanı yağışla isladırmış. Hepalda Qıza sitayiş edirlər. Orada «Qızı ucaltmaq» mərasimi var. Qızın gücünə və qüdrətinə inam, onunla bağlı mərasimlər və ayinlər Tibetin və Hindistan yarımadasının bir çox xalqlarında var.

Qız bürcü səmada min iki yüz doxsan kvadrat dərəcəlik sahəni tutur. Adi gözlə görünən doxsan beş ulduzdan ibarətdir. Göy qübbəsində ən parlaq ulduzlardan biri olan Semak də bu ulduzların arasındadır. Qız bürcündə müşahidə üçün maraqlı obyekt – bir-birinə bənzər iki sarımtıl ulduzdan ibarət qoşa qamma ulduzu var. Qız bürcünün şimal hissəsində Ağ yola bənzər çoxlu qalaktika yerləşmişdir.

Qız bürcü yer işarəsidir. Bu bürc altında doğulanlar işgüzar zəkaya, reallıq duyğusuna, məntiqə sahib olurlar. Onlar qayda-qanunu, dəqiqliyi çox sevirlər.

Şair bu beytdə Şir (Əsəd) bürcünün adını çəkmişdir. Şir və Başaq bürcü qonşudur. Yay fəslinin əsas vaxtında Günəş Şir bürcünə daxil olur. Misirlilər onu Böyük Şir adlandırırdılar. Bu zaman çox isti olur, Nil çayı daşırdı. Onlar belə düşünürdülər ki, Şirlər ilahi qüvvə ilə bağlıdırlar. Antik dövrün mədəni ənənəsinə görə, padşaha, qəhrəmana şir deyilirdi. Göy qübbəsində Şir bürcü doqquz yüz qırx yeddi

kvadrat dərəcəlik sahə tutur. Yetmiş ulduzdan ibarətdir. Ərəb astronomları baş ulduzu «Şir ürəyi» adlandırmışlar. Şir bürcü od işarəsidir. Günəşin himayəsi altındadır. Bu bürc altında doğulanlar xeyirxah olurlar.

Hz. Nizami deyir ki, Xuşə (Başaq) bürcü təzə sünbül düzəldib, Sünbüləni Şirin (Şir bürcünün) üstünə atdı. Şair xuşə, sünbül, sünbülə sözünün ayrı-ayrı məna çalarlarından gözəl istifadə edərək beytin ideyasını şərh etmişdir. Şair hər şeydən öncə merac gecəsinin məzmununa uyğun bədii biçim seçmişdir. Şanlı Peyğəmbər, uca Allahın (c.c) əziz qonağı olan Peyğəmbər, uca Allahın (c.c) «ixlas süfrəsinə» dəvət edilmiş tək insan olan Peyğəmbər bu mübarək gecədə göylərə ucalır. Bütün göy üzü, bütün planetlər sevinc duyğusu ilə aşıb-daşırlar, onlar mübarək Peyğəmbəri görməyə can atır, hər bir ulduz ən gözəl paltarını geyinmişdir. Onların hər biri sevgisini öz xarakterinə uyğun ifadə edir.

**Şairə görə, Xuşə (Başaq) bürcü islam Peyğəmbərinin merac səfərindən o qədər sevinmiş, o qədər təsirlənmişdir ki, yeni bir sünbül bitirmişdir. Gerçəkdən uca Allah (c.c) və mübarək Peyğəmbər sevgisi insanda və bütün canlılarda yeni bir ruh, yeni bir həyat, yeni bir düşüncə, yeni bir gözəllik yaradır.** Uca Allaha (c.c) və Peyğəmbərə bağlı iman insan ruhuna, düşüncə və əxlaqına yeni bir biçim, güc, dirilik verir. İman, insanın fitrətinə uyğun yaşaması, çalışması, uca Allah (c.c) yolunda cihad etməsi, hər bir anının Onunla olması deməkdir. Uca Allah (c.c) buyurur ki, yaradılmış hər şey Onu təsbih edir.

يومئذ يوفيهم الله دينهم الحق ويعلمون أن الله هو الحق المبين

(ən-Nur, 24/25)

«Allah göylərin və yerin nurudur (Kainatı yaradıb ona nur verən, yer və göy əhlinə haqq yolu göstərən xaliqdir). Onun (Peyğəmbərimizin və möminlərin qəlbində olan) nuru,

içərisində çıraq olan bir qəndilə (taxçaya, oyuğa) bənzər. O çıraq bir şüşənin içindədir. O şüşə isə, sanki inciyə bənzər (parlaq) bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə (aləmin ortasında) olan mübarək bir zeytun ağacından yandırılır. Onun (zeytun ağacının) yağı özünə od toxunmasa da, sanki (haradasa) işıq saçır. O, nur üstündə nurdur. Allah dilədiyini öz nuruna qovuşdurur. Allah (həqiqəti anlaya bilsinlər deyə, insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir!)»

**Xuşə (Başaq) bürcü islam Peyğəmbərinin nurundan, bərəkətindən elə canlanır ki, yeni bir sünbülə çevrilir, bu bürc yenidən parlayır. Ona olan sevgidən yeni gözəlliklər yaranır. Sevən sevdiyini gözəl paltarla qarşılayar. Xuşə də (Başaq) öz gözəlliyi, təzə, yeni «libası» ilə Peyğəmbərin qarşısına çıxır.**

Sünbül bərəkət, ruzi, qida, əvəzedilməz nemət deməkdir. Xuşənin bərəkətlənməsi də Peyğəmbərin merac səfəri ilə bağlıdır. Deməli, insan ömrünün, insan düşüncəsinin, insan əxlaqının çiçəklənməsinin qaynağı Allah (c.c) və Peyğəmbər sevgisidir.

Xuşə (Başaq) bürcü Peyğəmbərin səfərindən güc alır, Peyğəmbər sevgisi onda güc yaradır. O, elə güclənir ki, Sünbüləni Şir bürcünə atır. Köhnə Sünbülənin yanında olmasını istəmir, onu özünə yaraşdırmır. Bu Peyğəmbər sevgisinin açıq göstəricisidir.

## DOXSAN BİRİNCİ ADDIM:
## ZÖHRƏ TƏRƏZİ ƏLİNDƏ QULLUĞA DURMUŞDU

تا شب او را چه قدر قدر هست
زهره شب سنج ترازو به دست

***Bütün gecəni onun nə qədər qədri (çəkisi) vardı,***
***Gecə çəkici Zöhrə Tərəzi əlində***
***(qulluğa durmuşdu).[368]***

[368] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.

Hz. Nizami bu beytdə də gözəl bənzətmələrdən istifadə etmişdir. Şair merac gecəsinin ruhuna uyğun obrazlar seçmiş və bu yolla da ideyanı şərh etmişdir. Beytdəki Zöhrə, Tərəzi anlayışları da bu məqsədə xidmət edir.

Şair bu beytdə Tərəzi bürcünün adını çəkmişdir. Tərəzi bürcü hava işarəsidir. Veneranın himayəsi altındadır. Bu bürc qədim dövrlərdən bəlli idi. O zaman Tərəzi bürcü misirlilər üçün gündüzü gecə ilə, əməyi istirahətlə tarazlaşdıran işarə idi. Şərqin bir çox miflərində tərəzi ilahi ədalət mühakiməsinin rəmzi sayılırdı. Tərəzi bürcü Hindistanda da bəlli idi. Burada Tərəzi bürcünü Misir mərasiminə bənzəyən və mərhumun ləyaqətini müəyyən edən bir mərasimlə əlaqələndirirdilər. Qədim hindlilər tərəzinin bir gözünə müttəhimi qoyur, o biri gözünə torpaq tökürdülər. Tərəzi bürcü səmada beş yüz otuz dörd dərəcəlik sahəni tutur. Onun tərkibinə adi gözlə görünən əlli ulduz daxildir. Tərəzi bürcündə parlaq ulduzlar yoxdur. Ərəblər bu bürcə cənub Tərəzisi deyirdilər.

Bu bürcdə doğulanlar romantik və incədirlər, asanlıqla ünsiyyət tapırlar və çox ustadırlar. Tərəzi bürcü altında doğulanlar qətiyyətsiz və dəyişkəndir. Şən və nikbin olduğuna görə tək qala bilmirlər. Yoldaşlıq onun şüarıdır. Tərəzi bürcündə doğulanlar dava – dalaşı, gərginliyi xoşlamır, rahatlığı hər şeydən üstün tuturlar. Onların çox vaxt bəxti gətirir.

Şair beytdə həm də Zöhrənin adını çəkmişdir. Zöhrə bürcünün bir adı da Venusdur. O, göy üzünün üçüncü mərtəbəsində yerləşir. Zöhrə fələyi öz fələyində təkbaşına hakimdir. Onun bir adı da kiçik xoşbəxtlikdir. Zöhrənin təbiəti mötədil, soyuq, rütubətli olub, gecəyə aid edilmişdir. Bu ulduza baxmaq qəlbə sevinc verir. Zöhrənin vəsfləri belədir: yumuşaqlıq, dostluq, riqqət, yaxınlaşma, fərəh, istək, cilvə, oyun, sağlamlıq və gözəl yaradılış.

Tərəzi bürcünün vəzifəsi çəkməkdir (şair beytdə ona «çəkici» deyir). Zöhrə də gözəl, parlaq, kiçik xoşbəxtlik adlandırılan bir ulduzdur. Merac gecəsi bu gözəl ulduz tərəzi əlində (Zöhrənin əlində tərəzi) islam Peyğəmbərinin dəyərini çəkmişdir. Şair deyir ki, Zöhrə bütün gecə bu işlə məşğul olmuşdur. Yəni hz. Məhəmmədin (s.a.s) dəyəri o qədər çoxdur ki, onu çəkməklə bitməz. Şair bu ideyanı sıradakı beytdə də davam etdirmişdir.

## DOXSAN İKİNCİ ADDIM: TƏRƏZİ SƏCDƏ ETMİŞDİ

سنگ ورا کرده ترازو سجود
زانکه به مقدار ترازو نبود

***Onun (çəki) daşının önündə Tərəzi səcdə etmişdi,***
***Çünki Onun (vəzni) Tərəzinin həcmindən ağır idi.***[369]

Hz. Nizami bu beytdə gözəl bənzətmələr işlətmişdir. Şair öncəki beytdə Zöhrənin Tərəzi əlində bütün gecə boyu islam Peyğəmbərinin dəyərini müəyyən etmək istədiyini bildirmişdir. Bu beytdə isə şair deyir ki, tərəzi islam Peyğəmbərinin daşı, yəni çəkisi, qədir-qiyməti, əzəməti qarşısında səcdə etmişdir. Burada səcdə etmək «baş əymək», «məğlub olmaq», «acizliyini etiraf etmək», «bir şəxsin böyüklüyü qarşısında heyrət etmək» kimi mənaları əhatə edir. Tərəzi onun daşı önündə səcdə etmişdi, yəni islam Peyğəmbərinin çəkisi, dəyəri o qədər böyükdür ki, Tərəzinin onu çəkmək imkanı yoxdur.

---

[369] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.

## DOXSAN ÜÇÜNCÜ ADDIM: O, ƏQRƏBİN QUYRUĞUNA ŞƏRBƏT TÖKDÜ

ریخته نوش از دم سیسنبری
بر دم این عقرب نیلوفری

***Süsənbər nəfəsindən nilufər rəngli,***
***Əqrəbin quyruğuna o, şərbət tökdü.***[370]

Hz. Nizami bu beytdə də gözəl, ideyanın açılmasına yönəlmiş, merac gecəsinin ruhuna uyğun bənzətmələrdən istifadə etmişdir. Şair anlayışlara uyğun sözlər seçmişdir. **Beytdə mübarək Peyğəmbəri təmsil edən sözlər bunlardır: süsənbər, nəfəs, şərbət. Süsənbər bir çiçək adıdır. Onun çiçəyinin şirəsindən qədim şərq təbabətində əqrəb zəhərini məhv edən məlhəm kimi istifadə edilirdi. Yəni islam Peyğəmbərinin gül nəfəsi bir məlhəmdir. O, bütün dərdlərin dərmanıdır.** Əqrəb zəhərinin öldürücü təsiri var. İnsan düşüncəsi, mənəviyyatı, əxlaqı üçün ən təhlükəli zəhər də cəhalətdir. Cəhalətin düşməni də elmdir. Deməli, islam Peyğəmbərinin gətirdiyi din bir elmdir və cəhaləti yox edəcək tək dərmandır. Çünki ən böyük cəhalət uca Allahı (c.c) tanımamaqdır. İslam Peyğəmbərinin dini gül ləçəyindən hazırlanmış şərbətdir, ən ağır mənəvi xəstəliklərin dərmanıdır.

Şair beytdə Əqrəb bürcünün adını çəkmişdir. Qədim xalqların düşüncəsində əqrəb mifik və müəmmalı bir böcək idi. Adamların düşüncəsinə görə, əqrəbdə təcavüzkarlıq, məkr, gözlənilməzlik kimi keyfiyyətlər var. Finikiya kahinlərinin rəmzi əqrəb idi. Kahinlər oktyabrın sonunda onun şərəfinə qurban verirdilər. Rəvayətə görə, Makedoniyalı

---

[370] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.

İsgəndər Orta Şərq yürüşlərinin birində səhrada quru saksaul ağacları arasında sürünən bir əqrəb görür. Böyük sərkərdənin qoşunu yolu azmış, suyu qurtarmışdı. İsgəndər əqrəbin nişan verdiyi istiqamətdə getməyi əmr edir. Bir neçə saatdan sonra ordu yaşıl sahəyə çıxır, fateh xilaskarın şərəfinə orada məbəd tikdirir.

Əqrəb bürcü göy üzündə təqribən beş yüz kvadrat dərəcəlik sahəni tutur. Bu bürcdə adi gözlə görünən yüz ulduz var. Onların arasında parlaq ulduzlar çoxdur. Əqrəb bürcünün qırmızı alfa ulduzu Antares səmada nəhəng, parlaq ulduzlardan biridir. Diametri Günəşin diametrindən yeddi yüz əlli dəfə böyük, parlaqlığı on doqquz min dəfə çoxdur. O, səmada işıq saçaraq Mars planetini xatırladır. Bu bürc altında dünyaya gəlmiş adamlar çox emosional olurlar. Onlarda zəngin təxəyyül, qətiyyət, əzmkarlıq olur.

Əqrəb bürcü su işarəsidir. Mars və Neptun planetinin himayəsindədir. Onun xarakterində bu səbəblə bağlı ikilik var. O, mübarizə aparır, əzab çəkir, özünü yeyir, təzadlı, temperamentli, olduqca cazibədar, ancaq amansızdır. O, çox zaman əsəbi olur, öz zəhəri ilə özünü zəhərləyir.

Şair deyir ki, islam Peyğəmbəri süsənbər nəfəsindən nilufər rəngli Əqrəbin quyruğuna şərbət tökdü. Burada «nilufər rəng» göy rəngdir. **Beytin mənası belədir: merac gecəsi islam Peyğəmbəri süsənbər ətirli nəfəsi ilə əqrəbin zəhərini yox etdi. Onun gül ətirli nəfəsi bütün dərdlərin dərmanıdır, şəfadır. Onun gül ətirli sözü, dini insan ruhunun qidasıdır, insanlıq üçün məlhəmdir.**

## DOXSAN DÖRDÜNCÜ ADDIM:
## O, YAYDAN ŞİKAR YIXAN BİR OX ATDI

چون ز کمان تیر شکر زخمه ریخت
زهر ز بزغاله خوانش گریخت

***O, Yaydan şikar yıxan bir ox atdı,***
***Və zəhər Onun ev çəpişindən qaçdı.***[371]

Şair beytdə ideyanı ifadə etmək üçün mürəkkəb məcaz sistemindən istifadə etmişdir. İdeya həm güclü, bənzərsiz məcazlarla, həm elmi-tarixi informasiyalarla təqdim olunmuşdur. Beytin əsasında duran informasiyaları bir-bir şərh etməyə çalışaq.

Şair Yay deyərkən Oxatan (Kaman) bürcünü nəzərdə tutmuşdur. Bu bürc qədim dövrlərdən bəlli idi. Misir astroloqları Oxatan bürcündə ikibaşlı (bir başı insan, o biri başı şir), qanadlı, ox-kamanlı nəhəng varlıq görürdülər. Şumer-akkad mifologiyasının rəvayətlərində Oxatan səadət, firavanlıq gətirən bürc sayılır. Oxatan bürcü səmada səkkiz yüz altmış yeddi kvadrat dərəcəlik sahəni tutur, adi gözlə görünən yüz on beş ulduzdan ibarətdir. **Ən xarakterik ulduzlar Əqrəb bürcünə tuşlanmış kaman və ox şəklindədir.** Qalaktikanın bürcü Oxatan bürcündədir. Bu bürcdə təqribən on kürəvi və səpilmiş ulduz toplusu, üç parlaq və iri diffuz dumanlığı vardır.

Oxatan od işarəsidir. Yupiterin himayəsi altındadır. Təmkinlidir, təbiətcə filosofdur. Yupiter xoşbəxtlik və firavanlıq planetidir. O, böyük həyati qüvvəyə malikdir, çox fəaldır, cəsurdur, sərbəstdir, kobuddur, macəraları və igidlikləri xoşlayır.

---

[371] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.

Şair beytdə Peyğəmbər «ox atdı» deyir. Burada Ox (Tir) Utarid planetidir. Utarid planetinin bir adı da Merkuridir. Bu planet göy üzünün ikinci səmasında yerləşir. Utarid (Merkuri) içi dolu işıqlı bir kürə şəklindədir. Utarid təbiətinə görə soyuq və qurudur. Onun bir adı da araqarışdırandır. Başlıca özəllikləri bunlardır: ədəbli olmaq, anlayış gücü, duyma qabiliyyəti, zehin, nitq qabiliyyəti, riyazi təfəkkür, güclü zəka, diqqət, yumşaqlıq, hünər, sənət, hiylə və xəyanət.

Şair beytdə Çəpiş bürcünün adını çəkmişdir. Müasir astronomiya elmində bu bürcün adı Oğlaqdır. Bu bürc göy qübbəsinin təqribən dörd yüz kvadrat dərəcəlik sahəsini tutur. Tərkibində adi gözlə görünən əlli ulduz var. Cənub qütbünə istiqamətləndirilmiş üçbucaq şəkilli deltanı xatırladır. Üçbucağın sağ bucağı qoşa alfa ulduzudur. Bu ulduz Giyedi, ya da Algedi adlanır. (Ərəbcə «əl-Cədi» sözündəndir, «çəpiş» deməkdir). Ondan cənubda Dabix («keçi başı») beta ulduzu yerləşir. Qədim ərəblər bu ulduzlara «Cəd-əl-Cabiq» («qəssabın sevinci») deyirdilər. Solda görünən zəif ulduzu bəziləri süfrəyə qoyulmuş quzuya bənzədirdilər. Üçbucağın sol bucağındakı ulduz Deneb Algiyedi («keçi quyruğu») belta ulduzudur. Zodiakın bütün işarələri öz mənşəyini müxtəlif xalqların miflərindən götürmüşdür. Ulduzlardan bəhs edən miflər əsasında müxtəlif rəmzlərlə işarə olunan səma cismlərinin hərəkət mənzərəsi yaradılmışdır. Qədim zamanlarda qış Günəş duruş nöqtəsi Oğlaq (Çəpiş) bürcündə idi.

Babilistan kahinləri bu vaxt işığın dirçəlişi şərəfinə şənliklər düzəldirdilər. Əyinlərinə keçi dərisi geyinir, keçini Allah yolunda qurban kəsirdilər. Qədim astroloqlar güman edirdilər ki, səma cismlərinin hərəkəti insanların taleyinə təsir göstərir.

Oğlaq yer işarəsidir. Saturnun himayəsi altındadır. Bu bürc altında doğulanlar fiziki və mənəvi cəhətdən dözümlü

olurlar. Onlar şöhrətpərəstdirlər, incə yumor hissləri olur, sistemli iş görməyi bacarırlar, istedadlıdırlar, onların yaddaşı və zəkası gözəldir.

Hz. Nizami bu beytdə məşhur bir hadisəyə də işarə etmişdir. Belə ki, yəhudilər islam Peyğəmbərinin getdikcə gücləndiyini görərək Onu öldürmək qərarına gəldilər. Onlar yəhudilərin başçılarından olan Harisin qızı Zeynəbin əli ilə bir hiylə qurdular. Zeynəb aldığı təlimata uyğun olaraq islam Peyğəmbərini əshabı ilə birlikdə yeməyə dəvət etdi. O, yemək üçün bir qoyun qızartdı, onun hər tərəfini zəhərlədi (hz. Nizamiyə görə, Zeynəb Çəpiş qızartmışdı, şairin Çəpişi beytin leksikasına uyğun olaraq seçməsi də mümkündür). Peyğəmbərin heyvanın kürək (bel) hissəsini daha çox sevdiyini öyrənərək ora daha çox zəhər səpdi. Peyğəmbər ilk tikəni mübarək ağzına qoydu, sonra tikəni ağzından çıxarıb əshabına buyurdu:

– Bu ət mənə zəhərli olduğunu xəbər verir, bu əti yeməyin.

Ancaq əshabdan Bişr bin Bəra artıq ətdən yemişdi. Ondan başqa, bir kimsə ət yeməmişdi. Az bir zamanda xəyanətkar qadın yaxalandı. O, islam Peyğəmbərinin hüzuruna gətirildi. Peyğəmbər ondan soruşdu:

– Bu qoyunu sən zəhərlədinmi?

Zeynəb cavab verdi:

– Zəhərlədiyimi Sənə kim xəbər verdi?

Uca Allahın (c.c) elçisi buyurdu:

– Bu önümdə olan bel sümüyü xəbər verdi.

Zeynəb:

– Bəli, mən zəhərlədim.

Hz. Məhəmməd (s.a.s) ondan soruşdu:

– Bunu niyə etdin?

Zeynəb cavab verdi:

– Sən mənim atamı, əmimi, ərimi öldürdün! Mənim qövmümə qarşı etmədiyin bir iş qalmadı. Öz-özümə belə dedim: «Əgər O, gerçəkdən peyğəmbərdirsə, mənim etdiyim iş Ona, şübhəsiz, uca Allah (c.c) tərəfindən bildiriləcək və zəhər Ona zərər verməyəcək. Əgər O, yalançı bir hökmdardırsa, bu zəhərdən öləcək, bu yolla da ondan canımız qurtaracaq!»

Peyğəmbər buyurdu:

– Uca Allah (c.c) bunu edəcək gücü sənə verməmişdir!

Qadın günahını etiraf etdi. Şahid olduğu möcüzədən təsirlənərək peşman olduğunu dedi, əfv istədi. Peyğəmbər onu bağışladı. Ancaq zəhərin təsiri ilə ölən Bişrin varisləri qisas tələb etdilər. Harisin qızına eyni zəhər içirdilərək qisas alındı.

Peyğəmbər (s.a.s) zəhərin təsirindən qurtulmaq üçün iki çiyninin arasından qan aldırdı.[372]

Hz. Məhəmməd (s.a.s) üç il sonra vəfat edərkən xəstəliyinin bu zəhərdən olduğunu ifadə etmişdir.[373]

Hz. Nizami bu verdiyimiz bilgilər əsasında bir beyt yazmış və beytin ideyasını da bu yolla təqdim etmişdir. Şair deyir: «O, (hz. Məhəmməd (s.a.s) Yaydan (Oxatan bürcündən) şikar yıxan bir Ox (Utarid planeti) atdı. Zəhər onun ev Çəpişindən (Oğlaq bürcündən) qaçdı. **Burada verilməsi zəruri olan informasiyalardan biri də odur ki, Utarid planeti (Ox, Tir) Oxatan (Yay) bürcündə olanda bədbəxtlik törədir. Çəpiş (Oğlaq) bürcündə isə Zühəl (Saturn) planeti yerləşir. Zühəlin (Saturn) işi isə fitnə, fəsad, bədbəxtlik törətməkdir.**

---

[372] «Sahihi-Buhari», c. VIII, s. 44, 446; «Asri-Saadet», c. III, s. 110; Buhari, «Cizye», 7; Müslim, «Selam», 45; İbn Hişam, III, s. 390; Vakidi, II, s. 678-679; Heysemi, VI, s. 153.

[373] Hakim, c. III, 242/4966.

Şair bu bilgilər əsasında islam Peyğəmbərini xilaskar, güclü, yenilməz, insanları bəlalardan, zəhər kimi düşüncələrdən azad edən igid kimi təqdim etmişdir. Yəni islam Peyğəmbəri merac gecəsi Oxatan bürcündən şikar yıxan bir ox atdı və Çəpiş (Oğlaq) bürcündən bədbətlik doğuran Zühəl (Saturn) planetini qovdu, nəticədə, Çəpiş (Oğlaq) bürcünü onun zəhərindən azad etdi. Onun möcüzəsi ilə Harisin qızı Zeynəbin zəhərlədiyi çəpiş əti onu öldürmədi. Sonra hz. Məhəmməd (s.a.s) Utarid (Ox, Tir) planetini Oxatan bürcündən uzaqlaşdıraraq onu da fitnədən, fəsaddan azad etdi. Şair bütün bürclərin, planetlərin xarakterini gözəl bildiyindən onlardan ideyanın şərhi üçün istifadə etmişdir.

## DOXSAN BEŞİNCİ ADDIM:
## O, GÜNƏŞ KİMİ DOLÇANIN YUSİFİ OLDU

یوسف دلوی شده چون آفتاب
یونس حوتی شده چون دلو آب

*O, Günəş kimi Dolçanın Yusifi oldu,*
*O, su Dolçası kimi Balığın Yunisi oldu.*[374]

Hz. Nizami bu beytin ideyasını da zəngin bilgilər əsasında təqdim etmişdir. Şair öncə Dolça bürcünün adını çəkmişdir. Bu bürclə bağlı çoxsaylı əfsanə, əsatir var. Qədim astronomiya xəritələrində, atlaslarda Dolça bürcü əlində içərisindən su axan kuzə tutmuş adam şəklində təsvir edilirdi. Bunun fəslin əlamətləri ilə bağlı olduğu güman edilir. Günəş bu bürcə daxil olanda bahar yağışları başlayır, dağlarda qar əriyir, çaylarda daşqın olur. Su Dolçanın rəmzi sayılır. Qədim xalqların düşüncəsinə görə, su hər şeyin həm

[374] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.

əvvəli, həm də axırı idi. Bir sıra miflərdə Dolça bürcünü ümumdünya tufanı ilə bağlayırlar.

Dolça böyük və mürəkkəb bürcdür. Demək olar ki, bütünlüklə cənub yarımkürəsindədir. Səmada doqquz yüz səksən kvadrat dərəcəlik sahəni tutur. Dolça bürcündə gözəl planetlər, dumanlıq yerləşir. Dolça bürcünə daxil olan doxsan ulduzu adi gözlə müşahidə etmək olar. Onların arasında çox parlaq ulduz yoxdur. Ən parlaq ulduz «hökmdarın səadəti» adlanır.

Dolça bürcü hava işarəsidir. Saturn və Uranın himayəsi altındadır. Dolçanın ilk hamisi Saturn planeti Dolçanı taleyə boyun əyməyə məhkum edir və onun taleyi heç də həmişə uğurlu olmur. Saturn kədərli xatirələr, qəmginlik, puç olmuş ümidlər planetidir. Uran, əksinə, hərəkət, fəaliyyət planetidir, alimlərin ilhamçısıdır. Buna görə də Dolçanın xarakteri ziddiyyətlidir.

Dolça bürcü altında dünyaya gələnlər öz insanlığı ilə çox cazibədardırlar. Onlar dərdə şərik olur, fəlakətə düşən adamlara kömək edirlər. Dolçada xırdaçılıq yoxdur, Dolça ətalətin düşmənidir. Dolça təmkinli və təvazökardır, nadir hallarda başqalarına ağız açır, çox gözəl alimdir.

Şair beytdə Balıqlar bürcünün də adını çəkmişdir. Baharın gəlişi Günəşin Balıqlar bürcünə daxil olması ilə əlamətdardır. Balıqlar bürcü qədim Şərqdə bəlli idi. Əfsanələrdən birində deyilirdi ki, gözəllik ilahəsi Afrodita və onun oğlu Erot öldürülməmək üçün çaya atılmış və onlar dönüb balıq olmuşlar. Qədim yunan astronomları göydə iki xəyali balıq görürdülər. Bunlar şimalda Erot, cənubda Afrodita idi. Yaxın Şərq məbədlərində lap qədim vaxtlardan balıqlar üçün hovuzlar düzəldirdilər. Babillilər isə balıqda yalnız qüvvət və müdriklik deyil, həm də adamlara şəfa vermək qabiliyyəti görürdülər. Balıq fiqurlarından şəfaverici sehrlərdə istifadə olunurdu.

Balıqlar bürcü səmada doqquz yüz kvadrat dərəcəlik sahəni tutur. Bu bürcdə adi gözlə görünən yetmiş beş ulduz var. Ancaq parlaq ulduzlar yoxdur. Bürcün əsas ulduzu sayılan alfa dördüncü dərəcəli ulduzdur. Alfa ulduzu ərəbcə «əl-Riştə» («kəndir») adlanır. Əl-Riştə balıqlar bürcünün yeganə maraqlı müşahidə obyektidir. Yazın gecə-gündüz bərabərliyi nöqtəsi Balıqlar bürcündədir. Balıqlar bürcü demək olar ki, səmanın şimal yarımkürəsindədir.

Astroloqlar belə hesab edirdilər ki, balıqlar işarəsi altında dünyaya gələn adamlar Neptun planetinin himayəsi altındadırlar.

Balıqlar su işarəsidir. Onların xarakteri əsrarəngizdir. Onların incə intusiyası var. Neptun planeti balıqlara daim narahatlıq, özlərinə qarşı mübarizə aparmaq kimi təzadlar gətirir. Yupiter isə uğurlu tale və müdriklik bəxş edir. Zahirən sakit olmalarına baxmayaraq, Balıqlar bu ziddiyyətli təsir altında tez-tez ruhən əzab çəkir, narahatlıq və sıxıntı keçirirlər. Onlar humanizm və fədakarlıq rəmzidir. Onlarda intuisiya məntiqdən güclüdür. Onlar öz istedadlarını həmişə dərk etmədikləri halda, uzağı görmək bacarığı ilə ətrafdakı adamları heyran qoyurlar. Onlar rahatlığı, səliqə-sahmanı xoşlayırlar. Əliaçıq, qonaqcıl, ədalətli, səmimi və mehriban olurlar. Güclü yaddaşları var. Elmlə məşğul olmaq qabiliyyətləri var.

Hz. Nizami beytdə hz. Yusifin (s.a.s) adını çəkmişdir. Hz. Yusifin (s.a.s) soy ağacı belədir: hz. İbrahim (s.a.s), hz. İshaq (s.a.s), hz. Yaqub (s.a.s), hz. Yusif (s.a.s). Onun anası Rahil binti-Ləvandır. Onun ağ bədəni, gözəl üzü, iri gözü, incə burnu, güclü ayaqları və üzündə xalı var idi.[375] O, hz. Adəmə (s.a.s) oxşayırdı. Onun üzü günəş kimi parlayırdı.

[375] Ahmed b. Hanbel, «Müsned», c. II, s. 96; Buhari, «Sahih», c. IV, s. 121; Tirmizi, «Sünen», c. V, s. 293; Salebi, «Arais», s. 109.

Ona gözəlliyin yarısı verilmişdi.[376] O, anadan doğulanda atası ona baxmaq üçün xalasına vermişdi. Valideynləri onu çox sevirdi. Onun gözəlliyi dillər əzbəri idi.

Qurani-Kərimdə hz. Yusiflə (s.a.s) bağlı hadisələr bir-bir anladılmışdır. Qurani-Kərimdə onunla bağlı ayrıca surə var.[377]

Qardaşları Onu quyuya atanda on yeddi yaşı var idi.[378] O, bu zaman ilahi vəhy almışdı:

فَلَمَّا ذَهَبُواْ بِهِ وَأَجْمَعُواْ أَن يَجْعَلُوهُ فِي غَيَابَةِ الْجُبِّ وَأَوْحَيْنَا إِلَيْهِ
لَتُنَبِّئَنَّهُم بِأَمْرِهِمْ هَـذَا وَهُمْ لاَ يَشْعُرُونَ

(Yusif, 12/15)

«(Qardaşları) onu (Yusifi) götürüb (çölə) apararkən onu quyuya atmaq üçün sözü bir yerə qoydular. Biz (Yusifə): «Sən (bir vaxt) onlara (qardaşlarına) özlərinin bu işi barəsində heç gözləmədikləri (səni tanımadıqları) halda xəbər verəcəksən!» - deyə vəhy etdik».

Uca Allah (c.c) onu bir Peyğəmbər olaraq seçmişdi.

وَكَذَلِكَ يَجْتَبِيكَ رَبُّكَ وَيُعَلِّمُكَ مِن تَأْوِيلِ الأَحَادِيثِ وَيُتِمُّ نِعْمَتَهُ عَلَيْكَ
وَعَلَى آلِ يَعْقُوبَ كَمَا أَتَمَّهَا عَلَى أَبَوَيْكَ مِن قَبْلُ إِبْرَاهِيمَ وَإِسْحَاقَ
إِنَّ رَبَّكَ عَلِيمٌ حَكِيمٌ

(Yusif, 12/6)

«(Yuxuda gördüyün kimi) Rəbbin səni (başqalarından) seçib üstün tutacaq, sənə yuxu yozmağı öyrədəcək, bundan

---

[376] Ahmed b. Hanbel, «Müsned», c. III, s. 148; Müslim, «Sahih», c. I, s. 146.
[377] Yusif, 12.
[378] Yusif, 12.

əvvəl babaların İbrahimə və İshaqa nemətini tamamlayıb (peyğəmbərlik) verdiyi kimi, sənə və Yəqub nəslinə də tamamlayıb verəcək. Həqiqətən, Rəbbin (hər şeyi) biləndir, hikmət sahibidir!»

O, uca Allaha (c.c) ixlasla, ürəkdən, bütün varlığı ilə bağlı bir qul idi.

ولَقَد همتْ بِه وهم بِها لَولا أَن رأَى برهان ربه كَذَلِك لِنَصرِفَ عنْه السوء والْفَحشَاء إِنه من عبادنَا الْمخْلَصين

(Yusif, 12/24)

«Doğrudan da, (qadın) ona meyil salmışdı. Əgər Rəbbinin dəlilini (xəbərdarlığını) görməsəydi, (Yusif də) ona meyil edərdi. Biz pisliyi və biabırçılığı (zinanı) ondan sovuşdurmaq üçün belə etdik. O, həqiqətən, Bizim sadiq bəndələrimizdəndir».

Hz. Yusif (s.a.s) ölümü yaxınlaşdığı zaman İsrail oğullarından səksən kişini yanına çağırdı. Onlara dedi ki, əcəli yaxınlaşır, yaxın zamanda vəfat edəcək. Qibtilərdən tanrılıq iddiasına düşəcək amansız bir şəxs kral olacaq. O, İsrail oğullarının doğulan oğlan uşaqlarını öldürəcək, qız uşaqlarına toxunmayacaq. İsrail oğulları şiddətli işgəncələr görəcəklər. O kralın hakimiyyəti uzun sürəcək. Sonra İsrail oğullarından Musa b. İmran adlı boyu uzun, saçı qıvrım, rəngi əsmər olan bir şəxs ortaya çıxacaq. Uca Allah (c.c) Onun əli ilə İsrail oğullarını Fironun zülmündən qurtaracaq.[379]

O, atalarının (nəslinin) yanında dəfn edilməsini istədi. Qardaşını İsrail oğullarına xəlifə təyin etdi.[380]

O, vəfat edəndə yüz iyirmi yaşı var idi.[381]

---

[379] Taberi, «Tarih», c. I, s. 187.
[380] Salebi, «Arais», s. 141-142.
[381] Salebi, «Arais», s. 141-142.

Onun cəsədi ətirlənib mərmər bir tabut içinə qoyuldu və Nil çayının kənarında dəfn edildi.[382]

Hz. Məhəmməd (s.a.s) merac gecəsi hz. Yusiflə (s.a.s) görüşmüşdür. O, merac gecəsi Cəbraillə (ə.s) birgə göyün üçüncü mərtəbəsinə yüksəldi. Cəbrail (ə.s) göyün qapısının açılmasını istədi. Gözətçiyə dedi:

– Qapını aç!

– Sən kimsən?

–Cəbrailəm (ə.s).

– Yanında kim var?

– Həzrət Məhəmməd (s.a.s).

– O merac üçün göndərildi?

– Göndərildi.

Qapı açıldı, gözəlliyin yarısı verilmiş olan Yusiflə (s.a.s) qarşılaşdı.

Hz. Məhəmməd (s.a.s) yanında olan Cəbraildən (ə.s) soruşdu:

– Ey Cəbrail, bu kimdir?

– Bu, sənin qardaşın Yusifdir (s.a.s). Ona salam ver.

Peyğəmbər Ona salam verdi. O da Peyğəmbərə salam verdi: «Xoş gəldin! Saleh qardaş. Saleh Peyğəmbər!» – dedi.[383]

Hz. Nizami beytdə hz. Yunisin (s.a.s) da adını çəkmişdir. Hz. Yunisin (s.a.s) soy ağacı belədir: Hz. İbrahim (s.a.s), hz. İshaq (s.a.s), hz. Yaqub (s.a.s), hz. Bünyamin (s.a.s), hz. Yunis (s.a.s).

Hz. Yunisin (s.a.s) anasının adı Matta idi. Peyğəmbərlərdən hz. Yunis (s.a.s) və hz. İsa analarının adı ilə yada salınmışdır.

---

[382] Salebi, «Arais», s. 141-142.

[383] Ahmed b. Hanbel, «Müsned», c. IV, s. 208-209; Buxari, «Sahih», c. IV, s. 248.

Qurani-Kərimdə uca Allah (c.c) hz. Yunisə (s.a.s) «balıq sahibi» deyir:

وذَا النونِ إِذ ذهب مغَاضباً فظَن أَن لن نقْدر علَيه فنَادى في الظُّلمات أَن لا إِلَه إِلا أَنت سبحانَك إِني كُنت من الظالِمين

(əl-Ənbiya, 21/87)

«Zün-Nunu (balıq sahibi Yunisi) da xatırla! Bir zaman o (küfr etməkdə həddi aşmış ümmətinə qarşı) qəzəblənərək çıxış etmiş və (Bizə xoş gəlməyən bu səbirsizliyinə görə) onu möhnətə düçar etməyəcəyimizi (gücümüzün, ya da hökmümüzün ona yetməyəcəyini) güman etmişdi. Ancaq sonra qaranlıqlar içində (balığın qarnında, gecənin, ya da dənizin zülmətində): «(Pərvərdigara!) Səndən başqa heç bir tanrı yoxdur. Sən paksan, müqəddəssən! Mən isə, həqiqə-tən, zalımlardan olmuşam (əmrinə qarşı çıxaraq özümə zülm eləmişəm)», - deyib dua etmişdi».

Hz. Yunis (s.a.s) peyğəmbərdir:

إِنا أَوحينَا إِلَيك كَما أَوحينَا إِلَى نُوحٍ والنبِيين من بعده وأَوحينَا إِلَى إِبراهيم وإِسماعيلَ وإِسحاقَ ويعقُوب والأَسباط وعيسى وأَيوب ويونُس وهارون وسلَيمان وآتَينَا داوود زبوراً

(ən-Nisa, 4/164)

«(Ey Rəsulum!) Biz Nuha və ondan sonrakı peyğəm-bərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına, İsaya, Əyyuba, Yunisə, Haruna və Süleymana da vəhy gön-dərdik. Biz Davuda da Zəburu verdik».

Uca Allah (c.c) Ona üstün fəzilətlər vermişdir:

وإِسماعيلَ والْيسع ويونُس ولُوطاً وكُلا فضلْنَا علَى الْعالَمين

(əl-Ənam, 6/86)

«Biz, həmçinin, İsmaili, Əlyəsəyi, Yunisi və Lutu da (hidayətə qovuşdurduq) və onları aləmlərdən (özləri ilə bir dövrdə yaşayan bütün insanlardan) üstün tutduq».

Hz. Yunisə (s.a.s) peyğəmbərlik veriləndə onun otuz yaşı var idi. O, hz. İlyasdan (s.a.s) sonra peyğəmbər olmuşdu.[384] O, öz qövmünü otuz üç il uca Allaha (c.c) iman etməyə çağırdı, ancaq Ona yalnız iki nəfər inandı.[385]

Uca Allah (c.c) Qurani-Kərimdə balığın hz. Yunisi (s.a.s) udması hadisəsini təsvir etmişdir:

إِذْ أَبقَ إِلى الْفُلْكِ الْمشْحونِ . فَساهم فَكان من الْمدحضين . فَالْتَقَمه
الْحوتُ وهو مليم . فَلَولَا أَنه كان من الْمسبحين . لَلَبِثَ في بطْنه إِلى
يوم يبعثُون .فَنَبذْنَاه بِالْعراء وهو سقيم . وأَنبتْنَا عليه شَجرةً من يقْطين
وأَرسلْنَاه إِلى مئَة أَلْف أَو يزِيدون .فَآمنُوا فَمتعنَاهم إِلى حين .

(əs-Saffat, 37/140-148)

«(Ey Peyğəmbər!) Yadına sal ki, bir zaman o, (qövmünün küfrü üzündən yük və adamla) dolu bir gəmiyə qaçmışdı. (Gəmidə olanlar) püşk atmış və (püşk ona düşdüyü üçün) məğlub edilənlərdən olmuşdu. (Yunis gəmiyə mindiyi zaman gəmi yerindən tərpənməmiş, buna görə də sərnişinlər: «Yəqin ki, içərimizdə ağasından qaçmış kölə vardır», – demişdilər. Kölənin kim olduğunu bilmək üçün püşk atılmış və o, Yunisə düşmüşdü. Yunis özünü dənizə atmağa məcbur olmuşdu). (Yunisin Allahın izni olmadan qövmünü tərk edib getdiyinə görə) özünü qınayarkən (dənizə atılarkən) balıq onu udmuşdu. Əgər o, (Allahı) çox təqdis edənlərdən (namaz qılanlardan) olmasaydı, yəqin ki, balığın qarnında qiyamət gününə qədər qalardı. Nəhayət, o, xəstə ol-

---

384 İbn Esir, «Kamil», c. I, s. 360.
385 İbn Kuteybə, «Maarif», s. 24.

duğu halda onu boş bir yerə (sahilə) atdıq. Və (başı) üstündə (ona kölgə salmaq üçün) iri yarpaqlı bir ağac (ya da qabaq tağı) bitirdik. Biz onu yüz min nəfərə və daha çox kimsəyə peyğəmbər göndərdik. Nəhayət, onlar Ona (Yunisə) iman gətirdilər və Biz də onlara müəyyən vaxtadək (ömürlərinin axırına kimi) gün-güzəran verdik».

Hz. Nizami beytdə belə deyir: «O, Günəş kimi Dolçanın Yusifi oldu, O, su Dolçası kimi Balığın Yunisi oldu». Günəş Dolça bürcündə yerləşir. Balıq (Hut) bürcü isə yağış və su bürcü sayılır. Balıq bürcünün başı Dolça bürcünə əyilmişdir. Günəş gözəllik simvolu olduğu üçün son dərəcə gözəl olan hz. Yusif (s.a.s) ona bənzədilmişdir. Qardaşlarının onu su quyusuna atması Günəşin Dolça bürcündə yerləşməsi ilə müqayisə olunur. Hz. Yunis (s.a.s) dənizdə batarkən onu balina udmuş və bir müddət onun qarnında qalmışdır. Sonra uca Allahın (c.c) hökmü ilə xilas olmuşdur. Şair deyir ki, hz. Yusif (s.a.s) su quyusuna atıldığı kimi, hz. Məhəmməd (s.a.s) də Dolça bürcünün Günəşi və Balıq bürcünün – balinanın Yunisi oldu.

## DOXSAN ALTINCI ADDIM:
## O, SÜRƏYYA TAXTINI HƏMƏLDƏ QURDU

تا به حمل تخت ثريا زده
لشگر گل خيمه به صحرا زده

***O, Sürəyya taxtını həməldə qurandan sonra,***
***Güllər ordusu öz çadırlarını (Həməl)***
***səhrasında qurdu.***[386]

Hz. Nizami bu beytdə həməl (Qoç) bürcünün atını çəkmişdir. Qədim dövrdə Qoç işarəsinə pərəstiş edilirdi.

[386] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.

Qədim misirlilərdə qoyunlar və qoçlar həm də əmtəə mübadiləsi vahidləri idi. Misirin bir çox məbədlərində müqəddəs qoçlar saxlanılırdı. Belə heyvanlar öldükdə balzamlayıb təntənə ilə dəfn edirdilər.

Qoç bürcü şimal yarımkürəsindədir. O, astronomiya baxımından bir o qədər diqqəti cəlb etmir. Qədim insanlar bütün Zodiak bürclərini dörd mühitə bölürdülər: od, hava, su, torpaq. Qoç işarəsi od mühitinə həsr olunmuşdu. Astroloqlara görə, Qoç bürcünün hamisi Mars planetidir.

Qoç işarəsi altında dünyaya gələn adamlarda qeyri-adi həyat qüvvəsi, çeviklik, cəldlik olur. Belə bir rəy var ki, Qoç bürcü altında dünyaya gələnlər nikbindirlər, onlar öz şərəflərini qoruyurlar. Onlar şöhrətpərəst, kobud və tərs olurlar.

Şair beytdə Sürəyya ulduzunun da adını çəkmişdir. Sürəyya Ay fələyinin üçüncü mənzilidir. Altı kiçik ulduz kiçik salxıma bənzəyir. Bu ulduzlardan üçü Sur (Öküz) bürcündə, üçü də Həməl (Qoç) bürcündədir. Ona görə də şair Sürəyyanı taxta bənzətmişdir. Həməl (Qoç) bürcü də yaz aylarına – mart və aprelə uyğundur. Yəni güllü, çiçəkli bir dövrdür. Deməli, hz. Məhəmməd (s.a.s) öz Sürəyya taxtını Həməl (Qoç) bürcündə qurandan sonra Həməl səhrasında gül, çiçək açdı, yaz gəldi, hər tərəf gözəlliyə büründü. Peyğəmbərin gəlişi quru torpaqlara yeni güc verdi, quru yerlər bərəkətləndi, çiçək açdı, bar verdi.

**Şair merac gecəsi islam Peyğəmbərinin bərəkətini səhraların gül açması ilə ifadə etmişdir. Şair deyir ki, Peyğəmbər öz taxtını Qoç bürcündə quranda güllər ordusu öz çadırlarını Həməl səhrasında qurdu. Burada «güllər ordusu» çox gül, rəngbərəng gül deməkdir. Ordu bir yeri tutub, orada çadır qurar. Uzaqdan baxanda bu çadırlar ağ güllərə bənzəyər. Şairin gülləri orduya bənzətməsinin bir səbəbi də odur ki, O, merac gecəsi**

**islam Peyğəmbərinin göyün Qoç bürcü yerləşdiyi təbəqəsini fəth etdiyini ifadə etmişdir. O, fəth etdiyi yerlərdə islamın nuru ilə güllər açmışdır.**

## DOXSAN YEDDİNCİ ADDIM: YERİN OBASI BAHAR RƏNGİNƏ BOYANDI

از گل آن روضه باغ رفیع
ربع زمین یافته رنگ ربیع

***O yüksək cənnətə bənzər bağın güllərindən,***
***Yerin obası (üzü) bahar rənginə boyandı.***[387]

Hz. Nizami bu beytdə öncəki beytdə şərh etdiyi ideyanı başqa bir yöndən açıqlamışdır. Şair beytdə bir gözəl, ətirli gül obrazı yaratmışdır. Peyğəmbər gül, göy üzü gül, yer üzü gül, hər tərəf bir cənnət bağı.

Günəş Qoç bürcündə olanda yaz fəslinin ən gözəl çağı olur. Şair bundan istifadə edərək gözəl bir bənzətmə yaratmışdır. Belə ki, şairə görə, hz. Məhəmməd (s.a.s) merac gecəsi Qoç bürcünə çatanda hər şey dəyişir, göy üzü cənnət güllərinə bənzər gül açır, artıq bahar fəsli olduğu üçün yer üzü də yazın gül rənginə boyanır. **Göylər və yerlər Peyğəmbər sevgisini gül açmaqla, yaz rənginə boyanmaqla göstərir. Sanki merac gecəsi göydən yerə gül yağır.**

## DOXSAN SƏKKİZİNCİ ADDIM: SƏRV GÜL AÇMIŞDI

شب شده روز اینت نهاری شگرف
گل شده سرو اینت بهاری شگرف

---

[387] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.

*Gecə heyrətəngiz günorta çağlı gündüzə çevrilmişdi,*
*Sərv gül açmışdı, nə möcüzəli bahar idi bu?*[388]

Şair bu beytin ideyasını bədii təzadlar yolu ilə ifadə etmişdir. «Gecə», «gündüz», «günorta çağı», eləcə də sərvin gül açması (əslində, sərv gül açmır) kimi söz və ifadələr ideyanın açılmasına xidmət edir. Şair bu söz və ifadələr yolu ilə merac gecəsinin fərqli bir gecə olduğunu bildirir. Merac gecəsi adi bir gecə deyil, bu gecə bir gündüz kimidir, çox işıqlıdır. Şair merac gecəsinin çox işıqlı olduğunu göstərmək üçün «günorta» sözündən istifadə edir. Çünki günorta gündüzün ən işıqlı vaxtıdır. Gecə öz Peyğəmbər sevgisini bir nurlu gündüzə çevrilməklə bildirir.

Bu yaz da bir başqa yazdır. Onun başqa yazlardan fərqi odur ki, indi çiçək açmayan ağaclar da gül açmışdır. Peyğəmbərin merac səfəri ilə qeyri-mümkünlər mümkün olmuşdur. Yaz fəslində sərv gül açaraq Peyğəmbər sevgisini bildirmişdir, meracın fərqli bir gecə olduğunu göstərmişdir.

## DOXSAN DOQQUZUNCU ADDIM: ONUN GÖZLƏRİ «MA ZAĞ» SÖZÜ İLƏ SÜRMƏLƏNDİ

زان گل و زان نرگس کانباغ داشت
نرگس او سرمه مازاغ داشت

*O bağdakı gül və nərgizlər (içində),*
*Onun nərgizləri (gözləri) «Ma zağ» kəlamı*
*ilə sürmələndi.*[389]

Hz. Nizami bu beytin ideyasını ifadə etmək üçün Qurani-Kərimdən istifadə etmişdir. «Ma zağ» ayəsi Qurani-Kərimin «ən-Nəcm» surəsindədir.

---

[388] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.
[389] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 28.

ما زاغَ الْبصر وما طَغَى . لَقَدْ رَأَى من آيات ربه الْكُبرى

(ən-Nəcm, 53/17-18)

«Göz nə (sağa-sola) yayındı, nə də uzağa getdi (hər şeyi olduğu kimi gördü). And olsun ki, (Peyğəmbər) öz Rəbbinin ən böyük qüdrət nişanələrindən (möcüzələrindən) bir qismini (Beytül-məmuru, Sidrətül-müntəhanı, Cənnəti, Cəhənnəmi, Rəfrəfi, altı yüz qanadı olan Cəbrailin həqiqi surətini) gördü».

Şair beytdə islam Peyğəmbərinin gözünü nərgizə bənzətmişdir. Hz. Məhəmmədlə (s.a.s) bağlı olan şəmail kitablarında Onun gözlərinin qara, qüdrət sürməsi ilə sürmələndiyi bildirilir. Şairlər Peyğəmbərin gözlərinin gözəl olduğunu təsvir edərkən Onun sürmənin kirpikləri sıxlaşdırdığı və gözün nurunu artırdığı ilə bağlı hədisinə də toxunmuşlar.[390]

Şairlər onun gözlərini təsvir edərkən «Ma zağ» ayəsi ilə gözlərinin sürməməndiyini bildirmişlər. Onlara görə, Peyğəmbərin gözləri «Haqqı görən» gözlərdir.

Bir sıra şairlər Onun gözlərini nərgiz çiçəyinə bənzətmişlər. Divan ədəbiyyatında gözün nərgizə bənzədilməsi geniş yayılmışdır. Şairlər həm də nərgizi Peyğəmbərin gözünə bənzətmişlər. Onlara görə, uca Allah (c.c) bu çiçəyi Onun gözlərini yada salmaq üçün yaratmışdır.

Bir sıra şeirlərdə Peyğəmbərin gözü sad, ağzı mim, saçı da dal hərflərinə bənzədilmişdir. Bu hərfləri bir araya gətirəndə uca Allahın (c.c) sifətlərindən biri olan «Səməd» sözü alınır. «… Nətlərdə hz. Məhəmmədin (s.a.s) gözləri maddi olmaqdan çox, uca Allahı (c.c) görən, Merac gecəsinin sirlərinə vaqif olan can gözləri olaraq əla alınır. Bu görüşü təsdiq etmək üçün də «Ma Zağal-basar» ayəsi dəlil olur. Bu ayədə Merac hadisəsində hz. Peyğəmbərin ilahi

[390] Tirmizi, «Şəmaili-Şərifə», s. 19, 81, 82.

əmrdən başqa heç bir şeyin ötəsinə keçə bilmədiyi Sidreyi-Müntəhanı keçərək Allaha «kabə kavşeyn əv ədna» məqamında yaxınlaşdığı və Rəbbinin ən böyük ayələrini müşahidə etdiyi bildirilir, gözlərinin yalnız görməsi zəruri olanlara baxdığı ifadə edilir. Buna görə də ayə ya birbaşa hz. Məhəmmədin (s.a.s) gözləri kimi qələmə alınır, ya da gözlərinin sürməsi olur…»[391]

Bir sıra şeirlərdə Peyğəmbərin gözləri bu ayənin sirri, ya da nuru olaraq qəbul edilir. Divan şairləri deyir ki, islam Peyğəmbərinin gözləri bu ayə ilə sürmələndi, gözünün nuru və gücü artdı, O, aya baxdı və ay parçalandı.

Bir sıra şeirlərdə islam Peyğəmbərinin gözü «Qələm» surəsinin ilk ayəsinə bənzədilmişdir – «Nun vəl-qələm», yəni «Nun! And olsun qələmə və (mələklərin) yazdıqlarına (ya da Lövhi-məhfuzda yazılanlara)»

«Nun» hərfi yarım dairə şəklindədir və ortasındakı nöqtə göz üçün bir təşbeh əlamətidir. Şeirlərdə Peyğəmbərin Merac gecəsi uca Allaha (c.c) çox yaxınlaşıb Onun ən böyük ayələrini görən gözləri üçün ayənin ilk hissəsi bir dəlil olaraq göstərilir.

Bir sıra şeirlərdə Peyğəmbərin gözü günəşə bənzədilmişdir. Peyğəmbərin möcüzələrindən biri həm önünü, həm də arxasını görməsidir. Bu yönü ilə O, günəşə bənzəyir.

Hz. Nizami deyir ki, islam Peyğəmbərinin nərgiz gözləri o bağdakı gül və nərgizlər içində «Ma zağ!» kəlamı ilə sürmələndi. Şair beytin ideyasını ifadə etmək üçün «sürmə» sözündən də istifadə etmişdir. Bu söz həm beytin məzmununa, həm də leksikasına – söz tərkibinə uyğundur. Sürmə elə bir nemətdir ki, o, gözlərin nurunu artırır, onun yorğunluğunu götürür, gözlərə yaraşıq verir. Şair Peyğəmbərin nərgiz gözlərini başqa gül və nərgizlərdən seçir. Başqa gül və

---

[391] Emine Yeniterzi, «Divan şiirinde nat», Ankara, 1993, s. 224.

nərgizlərdən fərqli olaraq Peyğəmbərin nərgiz gözü çox gözəldir, ən əsası isə bu gözlərə ilahi həqiqətləri, əlamətləri görmək nəsib olmuşdur. Bir gözün üstünlüyü daha yaxşı görməsidir, çox nurlu olmasıdır, başqa bir gözün görə bilmədiyi əlamətləri görməsidir. Merac görmə hadisəsi olduğundan Peyğəmbərin mübarək gözləri də çox önəmli nemətlər gördü. Şair görmə – ilahi həqiqətləri, heç bir gözün görə bilmədiyi nemətləri görmə özəlliyini önə çəkmək üçün beytin söz tərkibini bu anlayışa uyğun seçmişdir: «nərgiz göz», «Ma zağ», «sürmə», «işıq», «nur». Çünki meracın ən önəmli yönü görmədir.

## HƏZRƏT NİZAMİ : «BİR ÇARƏ VAR, O DA YARATMAQ»

***Artıq yatmaq və gəzmək məni cəlb etmir,***
***Bircə çarə var, o da yaratmaq .***

***Hər sözdən bir gül yonum,***
***Onun üstündə bülbül tək nalə çəkim.***

***Mən dünyanı oyunla başa vurmadım,***
***Yeməkdən, yatmaqdan savayı başqa işim də var idi.***

***Bir gecə də olsun mən yatağa rahat girmədim,***
***Elmin yeni bir qapısını açmadan.***

## YÜZÜNCÜ ADDIM:
## YEDDİ QAT GÖYLƏRDƏN ON ƏDƏB ÖYRƏNDİ

عشر ادب خوانده ز سبع سما
عذر قدم خواسته از انبيا

***Yeddi qat göylərdən on ədəb öyrənib,***
***Peyğəmbərlərdən öz gəlişi üçün üzr istədi.***[392]

Hz. Nizami bu beytdə bir sıra önəmli məsələlərə toxunmuşdur. Şair hər şeydən öncə bütün peyğəmbərlərin eyni bir qaynağa bağlı olduğunu, eyni bir idealı, vəzifəni, missiyanı gerçəkləşdirdiyini ifadə etmişdir. İslam yalnız hz. Məhəmmədin (s.a.s) gətirdiyi etiqadın adı, «müsəlman» da ancaq Ona tabe olanlara verilən ad deyil. Əksinə, islam bu günədək göndərilmiş bütün peyğəmbərlərin etiqadı idi və onlara inananlar da müsəlman idilər.

Hz. Nizamiyə görə, doğru həyat düşüncəsi və yolu ancaq islamdır, yəni uca Allaha (c.c) təslim olmaqdır. Uca Allahın (c.c) yaratdığı insanların islamdan başqa həyat tərzi olmamalıdır. İnsanlığa doğru yolu göstərmək üçün göndərilmiş peyğəmbərlər hər zaman islam həyat tərzini təbliğ etmişlər, onlar müslimlər, onlara inananlar da müsəlmanlar olmuşlar. Kim peyğəmbərlərin gətirdiyi ilahi əmrə, buyruqlara inanırsa, əməl edirsə, o, müsəlmandır. Bu həqiqəti Quran ayələri təsdiq edir.

إِن الدين عند اللّه الإِسلاَم وما اخْتَلَفَ الذين أُوتُواْ الْكتَاب إِلا من بعد ما
جاءهم الْعلْم بغْياً بينَهم ومن يكْفُر بِآيات اللّه فَإِن اللّه سرِيع الْحساب
(Ali-İmran, 3/19)

---

[392] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

«Allah yanında (haqq olan) din, əlbəttə, islamdır. Kitab verilmiş şəxslər (yəhudilər və xaçpərəstlər) ancaq (bu dinin həqiqi olduğunu) bildikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa (ayrılığa) başladılar. Allahın hökmlərini inkar edənlərlə, şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəcəkdir».

وَمَن يَبْتَغِ غَيْرَ الإِسْلاَمِ دِيناً فَلَن يُقْبَلَ مِنْهُ وَهُوَ فِي الآخِرَةِ مِنَ الْخَاسِرِينَ

(Ali-İmran, 3/85)

«Kim islamdan başqa bir din ardınca gedərsə, (belə bir din) heç vaxt ondan qəbul olunmaz və o, axirətdə zərər çəkənlərdən olar!»

**Hz. Nuh (s.a.s) belə buyurur:**

فَإِن تَوَلَّيْتُمْ فَمَا سَأَلْتُكُم مِّنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلاَّ عَلَى اللّهِ وَأُمِرْتُ أَنْ أَكُونَ مِنَ الْمُسْلِمِينَ

(Yunus, 10/72)

«Əgər siz (mənim öyüd-nəsihətimdən, dəvətimdən) üz çevirsəniz, (bilin ki) mən (bunun müqabilində) sizdən heç bir mükafat (əvəz, muzd) istəmirəm. Məni mükafatlandırmaq yalnız Allaha aiddir. **Mənə müsəlmanlardan (özünü Allaha təslim edənlərdən) olmaq əmr edilmişdir**».

**Hz. İbrahim (s.a.s) belə buyurur:**

إِذْ قَالَ لَهُ رَبُّهُ أَسْلِمْ قَالَ أَسْلَمْتُ لِرَبِّ الْعَالَمِينَ . وَوَصَّى بِهَا إِبْرَاهِيمُ بَنِيهِ وَيَعْقُوبُ يَا بَنِيَّ إِنَّ اللّهَ اصْطَفَى لَكُمُ الدِّينَ فَلاَ تَمُوتُنَّ إَلاَّ وَأَنتُم مُّسْلِمُونَ . أَمْ كُنتُمْ شُهَدَاء إِذْ حَضَرَ يَعْقُوبَ الْمَوْتُ إِذْ قَالَ لِبَنِيهِ مَا تَعْبُدُونَ مِن بَعْدِي قَالُواْ نَعْبُدُ إِلَـهَكَ وَإِلَـهَ آبَائِكَ إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَاقَ إِلَـهاً وَاحِداً وَنَحْنُ لَهُ مُسْلِمُونَ

(əl-Bəqərə, 2/131-133)

«Rəbbi İbrahimə: «(Əmrimə) təslim ol!» - dedikdə, O: «Aləmlərin Rəbbinə təslim oldum (müsəlman oldum)!» – deyə cavab vermişdi. İbrahim və (sonra da) Yəqub bunu (müsəlman olmağı) öz oğlanlarına vəsiyyət edib (hər biri dedi): «Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün (belə bir) din (islam dini) seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz!(Ey yəhudilər!) Yoxsa Yəqubun ölümü yetişdikdə siz Onun yanında idiniz?! O: «Məndən sonra nəyə ibadət edəcəksiniz?» - deyə oğlanlarından soruşduğu zaman onlar: «Sənin Allahın və ataların İbrahimin, İsmailin və İshaqın Allahı olan tək Allaha təslim olacağıq (Ona ibadət edəcəyik)! - dedilər».

**Uca Allah (c.c) buyurur ki, hz. İbrahim (s.a.s) müsəlmandır:**

ما كان إبراهيم يهودياً ولاَ نَصرانياً ولٰكن كان حنيفاً مسلماً وما كان من الْمشْرِكين

(Ali-İmran, 3/67)

«İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O ancaq hənif (batildən haqqa tapınan, haqqa yönəlmiş olan) müsəlman (Allaha təslim olan) idi və (Allaha) şərik qoşanlardan da deyildi».

**Hz. İbrahim (s.a.s) və hz. İsmail (s.a.s) belə dua etdi:**

ربنَا واجعلْنَا مسلمين لَك ومن ذُريتنَا أُمةً مسلمةً لك وأَرِنَا منَاسكَنَا وتُب علَينا إِنك أَنتَ التواب الرحيم

(əl-Bəqərə, 2/128)

«(İbrahim və İsmail dedilər:) «Ey Rəbbimiz! Bizim hər ikimizi Sənə itaətkar (müsəlman), nəslimizdən yetişənləri Sənə təslim olan ümmət (müsəlman) et, bizə (həcc) əməllərimizi (ibadət qaydalarımızı) göstər, tövbəmizi qəbul

et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, mərhəmətlisən!»

**Hz. Lut (s.a.s) qövmü ilə bağlı uca Allah (c.c) belə buyurur:**

فَما وجدنَا فيها غَير بيت من الْمسلمين

(əz-Zariyat, 51/36)

«Ancaq orada bir evdən (Lutun ailəsindən) başqa müsəlman (tövhid dinində olan) tapmadıq»

**Hz. Yusif (s.a.s) uca Allaha (c.c) belə yalvardı:**

رب قَد آتَيتَني من الْملْك وعلمتَني من تَأْويل الأَحاديث فَاطر السماوات والأَرض أَنتَ وليي في الدنُيا والآخرة تَوفني مسلماً وأَلْحقْني بِالصالِحين

(Yusif, 12/101)

«Ey Rəbbim! Sən mənə səltənətdən (istədiyimdən də artıq) bir pay verdin. Mənə yuxu yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim ixtiyar sahibimsən. Mənim canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!»

**Hz. Musa (s.a.s) qövmünə bunları söyləyir:**

وقَالَ موسى يا قَوم إِن كُنتُم آمنتُم بِاللّه فَعلَيه تَوكَّلُواْ إِن كُنتُم مسلمين

(Yunus, 10/84)

«Musa dedi: «Ey qövmüm! Əgər Allaha iman gətirmisinizsə və təslim olmusunuzsa (əgər müsəlmansınızsa), Ona təvəkkül edin!»

**İsrail oğullarının gerçək dini dost və düşmənlərinin bildiyi kimi, yəhudilik deyil, islam dini idi. Fironun boğularkən söylədiyi son sözlər bunu təsdiq edir:**

وجاوزنَا بِبني إِسرائِيلَ الْبحر فَأَتْبعهم فرعون وجنُوده بغْياً وعدواً
حتى إِذَا أَدركَه الْغَرقُ قَالَ آمنتُ أَنه لا إِلَـه إِلا الذي آمنَتْ بِه بنُو
إِسرائِيلَ وأَنَاْ من الْمسلمين

(Yunus, 10/90)

«İsrail oğullarını dənizdən (sağ-salamat) keçirtdik. Firon və əsgərləri zalımcasına və düşməncəsinə onların arxasınca düşdülər. (Firon) batacağı anda: «İsrail oğullarının inandıqlarından başqa heç bir tanrı olmadığına iman gətirdim. Mən artıq (Ona) təslim olanlardanam!» - dedi (yəni müsəlmanlardanam)»

**İslam dini bütün İsrail peyğəmbərlərinin həyat tərzi idi:**

إِنا أَنزلْنَا التوراةَ فيها هدى ونُور يحكُم بِها النبِيون الذين أَسلَمواْ
لِلذين هادواْ والربانِيون والأَحبار بِما استُحفظُواْ من كتَابِ اللّه
وكَانُواْ علَيه شُهداء فَلاَ تَخْشَواْ الناس واخْشَونِ ولاَ تَشْتَرواْ بِآياتي
ثَمناً قَليلاً ومن لم يحكُم بِما أَنزلَ اللّه فَأُولَـئِك هم الْكَافرون

(Maidə, 5/44)

«**Şübhəsiz ki, Tövratı Biz nazil etdik.** Onda haqq yol və nur vardır. (Allaha) təslim olan (müslim) peyğəmbərlər yəhudilər arasında onunla, din alimləri və fəqihlər isə kitabdan qorunub saxlanılanlarla (Tövratdan ələ gəlib çatan ayələrlə) hökm edərdilər. Onlar (peyğəmbərlər, din alimləri və fəqihlər) ona (Tövratın ilahi bir kitab olmasına) şahiddirlər. (Ey yəhudi alimləri və rəisləri!) İnsanlardan qorxmayın, Məndən qorxun. Mənim ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi (kitab və şəriət) ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər!»

Hz. Süleyman (s.a.s) da bir müsəlman idi. Səbə məlikəsi Bəlqis Ona belə demişdi:

قِيلَ لَهَا ادْخُلِي الصَّرْحَ فَلَمَّا رَأَتْهُ حَسِبَتْهُ لُجَّةً وَكَشَفَتْ عَن سَاقَيْهَا قَالَ إِنَّهُ صَرْحٌ مُّمَرَّدٌ مِّن قَوَارِيرَ قَالَتْ رَبِّ إِنِّي ظَلَمْتُ نَفْسِي وَأَسْلَمْتُ مَعَ سُلَيْمَانَ لِلَّهِ رَبِّ الْعَالَمِينَ

(ən-Nəml, 27/44)

«(Bəlqisin əqlini, zəkasını yoxlamaq məqsədilə) ona belə deyildi: «Saraya daxil ol!» (Süleymanın sarayı) büllurdan tikildiyi və altına su buraxıldığı üçün Bəlqis sarayı gördükdə onu dərin bir gölməçə hesab etdi və (paltarı islanmasın deyə) ətəyini qaldırdı. O (Süleyman): «Bu (su deyil) büllurdan tikilmiş (şəffaf) bir saraydır!» - dedi. (Bəlqis) dedi: «Ey Rəbbim! Mən (günəşə sitayiş etməklə) özümə zülm etmişdim. Mən artıq Süleymanla (Süleyman sayəsində) aləmlərin Rəbbi olan Allaha təslim oldum (müsəlman oldum)».

**Hz. İsanın (s.a.s) həvarilərinin dini islam idi:**

وَإِذْ أَوْحَيْتُ إِلَى الْحَوَارِيِّينَ أَنْ آمِنُوا بِي وَبِرَسُولِي قَالُوا آمَنَّا وَاشْهَدْ بِأَنَّنَا مُسْلِمُونَ

(Maidə, 5/111)

«Xatırla ki, o zaman həvarilərə (İsanın on iki əshabəsinə): «Mənə və peyğəmbərimə iman gətirin!» - deyə əmr etmişdim. Onlar isə: «Bizim (Sənə və peyğəmbərinə)» itaətkar (müsəlman) kəslər olmağımıza şahid ol!» - deyə cavab vermişdilər».

Hz. Nizami deyir ki, islam Peyğəmbəri merac gecəsi peyğəmbərlərdən öz gəlişi üçün üzr istədi. Şairin peyğəmbərləri bir yerdə yada salmasının ilk səbəbi yuxarıdakı ayələrdə də buyurulduğu kimi, onların eyni bir missiyanı, tövhid inancını təbliğ etmələridir. Başqa bir səbəb isə merac

səfərində hz. Məhəmmədin (s.a.s) peyğəmbərlərə namaz qıldırması və göyün ayrı-ayrı təbəqələrində bir sıra peyğəmbərlə görüşməsidir. İslam Peyğəmbəri göyün birinci qatında hz. Adəmi (s.a.s), ikinci səmada hz. İsa (s.a.s) və hz. Yəhyanı (s.a.s), üçüncü səmada hz. Yusifi (s.a.s), dördüncü səmada hz. İdrisi (s.a.s), beşinci səmada hz. Harunu (s.a.s), altıncı səmada hz. Musanı (s.a.s), yeddinci səmada hz. İbrahimi (s.a.s) görür. Merac gecəsi islam Peyğəmbərinin səkkiz peyğəmbərlə görüşməsinin səbəbləri ilə bağlı fərqli fikirlər var. Təfsirçilərə görə, bu səkkiz peyğəmbərlə hz. Məhəmmədin (s.a.s) həyatı arasında oxşarlıqlar var. Böyük islam alimi Suheyli bu oxşarlıqları belə sıralayır:

– Adəm (s.a.s) Allahın yanında, onun mütləq himayəsində böyüdü. Şeytan onu buradan uzaqlaşdırdı. Hz. Məhəmməd (s.a.s) isə Allahın evi (Kəbə) yanında doğuldu, böyüdü, şeytan ruhlu həmşəhərliləri onu hicrətə məcbur etdi;

– Yəhya (s.a.s) və İsa (s.a.s) yəhudilərin sərt münasibəti ilə üzləşdi, onları öldürmək istədilər. Hz. Məhəmməd (s.a.s) də yəhudilərin sui-qəsdinə məruz qaldı;

– Yusifə (s.a.s) qardaşları zülm etdi. Yusif (s.a.s) onları əfv etdi. Hz. Məhəmməd (s.a.s) də Məkkə fəthindən sonra müşrikləri əfv etdi;

– İdris (s.a.s) peyğəmbər ilk dəfə qələmdən istifadə etmişdir. Hz. Məhəmməd (s.a.s) də müxtəlif ölkələrin hökmdarlarına məktublar göndərmişdir;

– Harun (s.a.s) mənsub olduğu xalqın sevgisini qazanmışdır. Sonralar ərəblər də hz. Məhəmmədi (s.a.s) sevmişlər;

– Allah, Musaya (s.a.s) bütpərəstlərlə savaşmağı əmr etmişdir. Hz. Məhəmmədə (s.a.s) də eyni şey əmr edilmişdir;

– İbrahim (s.a.s) səmada Kəbənin üzərində olan «Beytül-Məmurun» yanında dayanmışdır. O, Kəbəni yenidən təmir etmişdir.[393]

Professor Məhəmməd Həmidullah isə bu məsələyə fərqli yanaşmışdır. Ona görə, bu səkkiz peyğəmbərin hər biri ayrılıqda merac hadisəsini yaşamışdır. Onların meracla şərəfləndirilməsinin səbəbini alim belə izah etmişdir:

– Hz. Adəm (s.a.s) peyğəmbər sədaqət və təslimiyyəti təmsil edir;

– Hz. Yəhya (s.a.s) və hz. İsa (s.a.s) yumşaqlığı ilə seçilirlər, düşmənləri belə sevməyi öyrədirlər;

– Hz. Yusif (s.a.s) peyğəmbər insanı başdan çıxaran təklifləri rədd edir, namus və həyasını qoruyur;

– Hz. İdris (s.a.s) peyğəmbər yazını icad edir və bu yolla da mədəniyyətin inkişafına yardım edir;

– Hz. Harun (s.a.s) peyğəmbər insanların ruhi-mənəvi, ibadət həyatına yön verir;

– Hz. Musa (s.a.s) peyğəmbər bütpərəstliyə qarşı mübarizə aparır, Allahın birliyi uğrunda savaşır;

– Hz. İbrahim (s.a.s) peyğəmbər Allahın birliyini hər şeydən üstün tutur, bu yolda oğlunu qurban kəsməyə, oda atılmağa razı olur;

– Hz. Məhəmməd (s.a.s) isə adları çəkilən peyğəmbərlərin ayrılıqda üzərilərinə götürdükləri məsələlərin hamısını cəm olaraq bir yerdə özündə birləşdirmişdir, bu üstün özəllikləri yaşamışdır».[394]

Hz. Nizami deyir ki, hz. Məhəmməd (s.a.s) peyğəmbərlərdən öz gəlişi üçün üzr istədi. Misrada «üzr istəmək» peyğəmbərin əxlaqına, üstün tərbiyəsinə, həyasına işarədir.

---

393 Muhammed Hamidullah, «İslam Peygamberi», c. I, s. 137.
394 Muhammed Hamidullah, «İslam Peygamberi», c. I, s. 137-138.

O, peyğəmbərləri incitmədi, son elçi olmaq şərəfini Ona uca Allahın (c.c) verdiyini bildirdi.

Şair beytin birinci misrasında deyir ki, O, yeddi qat göylərdən on ədəb öyrəndi. «Yeddi qat göy» göyün yeddi təbəqəsinin olmasını və ilahi buyruqların ən uca yerdən gəldiyini ifadə edir. Şair «on ədəb» deyərkən merac gecəsi verilmiş neməti – on ədəb ölçüsünü nəzərdə tutmuşdur. Bu ölçülər aşağıdakılardır:

**- Ancaq uca Allaha (c.c) ibadət edin;**

**- Ana və ataya qarşı yaxşı davranın;**

**- Qohumlara, yoxsullara, yolda çarəsiz qalanlara haqqını verin;**

**- İsraf etməyin, xəsis olmayın;**

**- Ruzi qorxusu ilə övladlarınızı öldürməyin;**

**- Zinaya yaxınlaşmayın;**

**- Haqsız olaraq bir kimsəni öldürməyin;**

**- Yetimin malına toxunmayın;**

**- Verdiyiniz söz və vədi yerinə yetirin, ölçüdə, çəkidə düz olun;**

**-Bilmədiyiniz məsələnin arxasınca düşməyin, qürur və təkəbbürlə yeriməyin.**

Hz. Nizaminin bu beytdə irəli sürdüyü ideya bütün peyğəmbərlərin eyni bir hədəfin daşıyıcıları olduğunu bildirməklə bağlıdır. Bunun açıq göstəricilərindən biri odur ki, hz. Musaya (s.a.s) verilən on buyuruqla hz. Məhəmmədə (s.a.s) verilmiş merac neməti arasında demək olar ki, fərq yoxdur. Hz. Musaya (s.a.s) verilən buyruqlar bunlardır:

**- Allahdan başqa ilahın olmayacaq;**

**- Özünə büt düzəldib, rəsm çəkməyəcəksən, onlara itaət etməyəcəksən;**

**- Allahın adını boş yerə çəkməyəcəksən;**

**- İstirahət günü müəyyən etməyi yadında saxla;**

**- Atana və anana hörmət et;**

**- İnsan öldürmə;**

**- Zina etmə;**

**- Oğurluq etmə;**

**- Yalandan şahidlik etmə;**

**- Qonşunun, yaxınının ev və ocağına əsla göz dikmə. Qonşu və yaxınının arvadına göz dikmə. Onların nə kişi, nə də qadın xidmətçisinə, nə öküzünə, nə eşşəyinə, nə də qonşuna aid hər hansı bir şeyə göz dikmə».**[395]

Şair beytin ikinci misrasında deyir ki, hz. Məhəmməd (s.a.s) peyğəmbərlərdən öz gəlişi üçün üzr istədi. Şair «üzr istəmək» anlayışı ilə islam Peyğəmbərinin əxlaqını, «gözəl əxlaqı tamamlamaq üçün» göndərilmiş bir elçi olduğunu ifadə etmişdir.

## YÜZ BİRİNCİ ADDIM: MƏLƏKLƏR ONUN BAYRAĞINI ÇİYİNLƏRİNDƏ APARIRDILAR

ستر كواكب قدمش ميدريد
سفت ملايک علمش ميکشيد

*Onun qədəmləri ulduzların pərdəsini cırdı,*
*Mələklər onun bayrağını çiyinlərində aparırdılar.*[396]

Şair bu beytdə islam Peyğəmbərinin merac gecəsinin əzəmətini ifadə etmək, səmanın, səma cismlərinin sevincini göstərmək üçün gözəl bir tablo yaratmışdır. «Onun qədəmləri ulduzların pərdəsini cırdı» - burada ulduzların pərdəsi deyildikdə göylər nəzərdə tutulur. Yəni islam Peyğəmbəri merac gecəsi göyün təbəqələrini bir-bir fəth etdi. Pərdə həm də örtük, bir şeyi gizləmək üçün istifadə olunan vasitə

---

[395] «Çıxış», 20/3-17; «Təsniyə», 5/6-21.
[396] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

mənasındadır. **Bunun mənası odur ki, göylər bir pərdə kimi ulduzları örtmüşdü, onların işığı tam görünmürdü. Merac gecəsi bu pərdə cırıldı və ulduzlar bütün gözəlliyini göstərdi.**

Deyildiyi kimi, şair bu beytdə islam Peyğəmbərini bir fateh kimi təsvir etmişdir. O, bir fateh kimi bayrağını göyün ən uca zirvəsinə sancmağa gedir. Şair əmindir ki, o, bayrağını bu zirvəyə taxacaq. Onun bayrağını mələklər çiyinlərində daşıyırlar. Burada bayraq sultanlığın, fatehliyin, qələbənin simvoludur. Mələklərin bayraq daşıması isə uca Allahın (c.c) Peyğəmbərə olan sevgisinin, etimadının, yardımının göstəricisidir. Uca Allah (c.c) nurdan yaratdığı mələkləri merac gecəsi Peyğəmbərin xidmətinə vermişdir.

## YÜZ İKİNCİ ADDIM: GECƏNİN GÖBƏYİ ONUN DODAQLARINDAN TÖKÜLƏN MÜŞKLƏ DOLDU

ناف شب آکنده ز مشک لبش
نعل مه افکنده سم مرکبش

***Gecənin göbəyi onun dodaqlarından***
***(tökülən) müşklə doldu,***
***Onun atının dırnaqları aypara nallarını***
***çıxarıb atdı.***[397]

Şair bu beytdə gözəl bənzətmələrdən istifadə etmişdir. O, Peyğəmbərin gözəlliyini, nəfəsinin müşk kimi bir ətir olduğunu, merac gecəsi göylərin Onun ətri ilə dolduğunu ifadə etmək üçün bir neçə vasitədən istifadə etmişdir. Beytin mətninə yerləşdirilmiş sözlərin mənasına baxaq.

---

[397] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

Müşk ceyranın göbəyinin vəzlərindən çıxarılan maddədən hazırlanan gözəl bir ətir növüdür. Divan ədəbiyyatında «naf» («göbək») sözü çox zaman «müşk» sözünün sinonimi kimi işlədilmişdir. **Gecənin göbəyi, yəni müşk qabı Onun müşk kimi ətirli nəfəsindən yayılan müşklə doldu. Yəni merac gecəsi göylər islam Peyğəmbərinin ətri ilə ətirləndi. Göylərin ovqatı, havası dəyişdi.**

Merac gecəsi aypara Onun atının – Buraqın ayağına nal olmaq istəyirdi (nal formasına görə ayparaya oxşayır). Aypara üzərində Peyğəmbər olan Buraqın ayaqları inciməsin deyə, ona nal olmaq istəyir. Ancaq Buraq bunu istəmir, dırnaqları ilə vurub ayparanı kənara atır. Yəni Buraq üzərindəki ağırlığı hiss etmirdi, onun nala ehtiyacı yox idi, elə bir sevinc içərisində idi ki, halından o qədər razı idi ki, onun ayaqlarına nal olmaq istəyən ayparanı da kənara tulladı.

## YÜZ ÜÇÜNCÜ ADDIM:
## BURAQ ŞİMŞƏYƏ BƏNZƏYİRDİ

در شب تاریک بدان اتفاق
برق شده پویه پای براق

***Həmin qaranlıq gecədə o münasibətlə,***
***Buraqın çapması şimşəyə bənzəyirdi.***[398]

Hz. Nizami meracnamələrində Buraqın təsvirinə ayrıca yer vermişdir. Onu ən gözəl bədii təsvir və ifadə vasitələri ilə təqdim etmişdir. Şairə görə, «Buraq nurdan yaranmışdı»[399], «o, ildırım kimi sürətli idi»[400], «gözəl görünüşü var idi»[401], «o, bağ üzü kimi qəşəng idi»[402], «budunda dağ,

---

398 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
399 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
400 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
401 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
402 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

başında yüyən yox idi»[403], «neysan buludu kimi inci səpirdi»[404], «bostan küləyindən daha ətirli idi»[405], «yəhəri gövhərdən olan bir dəniz idi»[406], «heç kəsin xəyalı onun qayığında oturmamışdı»[407], «güclü, ağır nallı, yüngül qaçışlı idi»[408], «gözü iti, qaçışı sürətli idi»[409], «o ərəb atı idi»[410], «o kəklik kimi yerindən sıçradı»[411], «ayaqları tavus qanadlarına bənzəyirdi»[412], «onun şığımağı qarşısında dörd şahin qanad saldı»[413], «hər şeyi ayaq altında qoydu»[414], «xəyal onun səyirməyini görə bilərdimi?»[415], «şimşək onun qabağında qılıncını sıyıra bilərdimi?»[416], «ruhun hərəkəti comərdlikdə ona çata bilərdimi?»[417], «ağlın sürəti dünyanı dolaşmaqda ona çata bilərdimi?»[418], «onun ayaqları rəqs edirdi»[419], «adı Buraq olan şimşək»[420], «bir xoşbəxt kimi uçan oldun»[421], «bir atla elə çapdın ki, iki atlı dövranı arxada buraxdın»[422], «altında şimşək sürətli at var idi»[423], «yəhəri, yüyəni günəş

---

403 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
404 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
405 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
406 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
407 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
408 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
409 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
410 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 21.
411 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.
412 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.
413 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.
414 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.
415 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.
416 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.
417 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.
418 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.
419 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.
420 Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.
421 Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.
422 Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.
423 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

kimi nura qərq olmuşdu»[424], «o, Süheyl ulduzu kimi ərəb səmasında ucaldı»[425], «quyruğu inək quyruğu idi»[426], «dırnağı inci idi»[427], «elə bil ki, ipək üstündə inci axırdı»[428], «ahu deyildi, ancaq göbəyi müşklə dolu idi»[429], «ceyran dişi kimi bir düzüm inciydi»[430], «yüyəni güman ediləcəkdən daha yumşaq idi»[431], «kamandan çıxmış oxdan da sürətli idi»[432], «ən kəskin və göylərdə uçan təxəyyül (yürüşdə) ondan yetmiş addım geri qalırdı»[433], «dünyaları açmaqda o, mələk kimi idi»[434], «Buraq aləm açan yox, aləm çəkən idi»[435], «o gecə rəngli idi»[436], «o, gecə otlağından məst olmuşdu»[437], «onun əlində ay kimi şəbçıraq var idi»[438], «elə olurdu ki, onun addımlarının sürətindən, onun dayanması sıçrayışından qabağa düşürdü»[439], «onun ayağının sürəti baxış sürəti idi»[440], «hətta baxışı belə tapdalayıb ötürdü»[441], «o, Xüttəli at idi»[442], «atı yolgedən idi»[443], «o, şah at idi»[444].

---

[424] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[425] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[426] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[427] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[428] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[429] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[430] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[431] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[432] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[433] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[434] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[435] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[436] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[437] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[438] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[439] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[440] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[441] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[442] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[443] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[444] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

Şair bu beytdə də Buraq adlı miniyin sürətini şimşəyə bənzətmişdir. Beytdəki şimşək sürəti həm Buraq adlı miniyin qeyri-adiliyini, seçilmiş olduğunu, həm merac gecəsinin xarakterini, həm də Peyğəmbər sevgisini (o, uca Allahı (c.c) sevdiyi üçün tez Ona qovuşmaq istəyir) ifadə edir.

Hz. Nizamiyə görə, islam Peyğəmbəri bir sultandır, o, peyğəmbərlərin sonuncusu və ən üstünüdür. Merac gecəsi də Onun şanına yaraşan, Onun üstün mövqeyini göstərən bir gecədir. Şairin mövqeyi ilə böyük islam alimi və şairi Mövlana Cəlaləddin Ruminin münasibəti birdir. Mövlananın əsərlərində hz. Məhəmməd (s.a.s) belə təqdim olunmuşdur:

«O, varlığın özü və canıdır»[445]

«Eşq mədənidir»[446]

«Kərəm dənizidir»[447]

«Merac padşahıdır»[448]

«Padşahlar padşahı, varlıqların və var olanların sultanıdır»[449]

«Peyğəmbərlərin padşahı, peyğəmbərlər başı»[450]

«Peyğəmbərliyin ən yüksək məqamına sahib olandır»[451]

«Aləmin də, adəmin də ən başı, ən böyüyü, ən yaxşısı, insanlarla cinlərin peyğəmbəridir»[452]

«İki aləmin günəşi, aləmin rəhməti, Adəm oğullarının öyünc yeridir»[453]

---

[445] Mevlana Celaleddin er-Rumi, «Mesnevi», İstanbul, 1991, c. I, s. 164, beyt, 2060.

[446] Mevlana, «Divan», 5/145, beyt, 1681.

[447] «Mesnevi», 2/219, beyt, 2854.

[448] «Divan», 5/118, beyt, 1351.

[449] Mevlana, «Mecalis», s. 11; «Mesnevi», 4/168, beyt, 2081-2082.

[450] «Mesnevi», 4/269, beyt, 3358; 1/58, beyt, 727.

[451] «Mektuplar», s. 2, «Mektub», s. 1.

[452] Mevlana, «Mecalis», s. 11; «Mesnevi», 4/168, beyt, 2081-2082.

[453] «Mecalis», s. 79; «Meclis», 5; «Divan», 4/52, beyt, 430.

«O, lütf sahibidir»[454]

«O, seçilmiş Peyğəmbərdir»[455]

«Şəriət sahibidir, peyğəmbərlərin ən böyüyü, göy üzünün, yer üzünün işığı, Allahın elçisidir»[456]

«Zamanın heyrətamiz sərvəri, hidayət və təqva imamı, bütün zamanların heyranlıq və heyrət duyduğu hidayət və təqva imamı, aləmin günəşi, Adəm oğullarının rəhmətidir»[457]

«Aləmin tərcümanı, ərəbin, əcəmin ən fasihidir»[458]

«O, gözəl işlərdə imamdır, kərəmlərə, kəramətlərə düzən verəndir»[459]

«Qiyamət şəfaətçisi, kainatın Peyğəmbəri, var olanların ən böyüyü, ən yaxşısıdır»[460]

«Varlıq içində bənzəri yoxdur»[461]

«Elm və kərəm mədənidir»[462]

«Özü, sözü doğru olandır»[463]

«Səfa dənizidir»[464]

«İki dünyada da darda qalanlara yardım edir»[465]

«Onun iç paltarı nur kimidir, xarici paltarı isə ən gözəl xasiyyətlərdən ibarətdir»[466]

---

454 «Divan», 55/145, beyt, 1681; «Mecalis», s. 56; «Meclis», III.
455 «Divan», 55/145, beyt, 1681; «Mecalis», s. 56; «Meclis», III.
456 «Mecalis», s. 55, «Meclis», III.
457 «Mecalis», s. 78, «Meclis», V, s. 92; «Meclis», VII.
458 «Mecalis», s. 11, «Meclis», I.
459 «Mektuplar», s. 17, «Mektub», s. V1.
460 «Mecalis», s. 80, «Meclis», V.
461 «Mesnevi», 2/170, beyt, 2213.
462 «Mecalis», s. 11, «Meclis», I.
463 «Mecalis», s. 68, «Meclis», IV.
464 «Mesnevi», 1/58, beyt, 727.
465 «Divan», 4/268, beyt, 2579.
466 «Divan», 5/466, beyt, 6385.

«Onun xasiyyəti başdan-başa lütf və kərəmdən ibarətdir»[467]

«O, səbir timsalı idi, səbri Buraq etdiyi üçün bu Buraq Onu göylərə çıxarmışdı»[468]

Hz. Mövlanaya görə, islam Peyğəmbərinin əxlaqi gözəlliyə və kamilliyə qovuşmasında Onun meraca yüksəlməsinin böyük yeri var[469].

«Onun şeytanı belə, müsəlman olmuşdur»[470]

«Onun Məkkəni və başqa yerləri fəth etməsinin səbəbi dünya malına bağlılığı deyildi, bu fəthlər uca Allahın (c.c) buyruğu idi»[471]

«Onun hədəfi könülləri fəth etmək idi»[472]

«O, insanların qəlbini nurlandırmaq istəyirdi»[473]

«… Əhməd nəyi söyləyirsə, o söz həqiqət dənizinindir. Onun sözləri dənizin inciləridir. Onun könlü dənizlə birdir»[474]

## YÜZ DÖRDÜNCÜ ADDIM: BURAQ FAXTA QUŞU KİMİ YEYİN GEDİRDİ

كبک وش آن باز كبوتر نمای
فاخته‌رو گشت بفر همای

***O (Buraq) kəklik yerişli göyərçinə bənzər şahin idi,***
***Humay fərri ilə o, faxta quşu (kimi yeyin) gedirdi.***[475]

---

467 «Mesnevi», c. II, s. 164, beyt, 2141-2142.
468 «Mesnevi», c. VI, s. 315, beyt, 3979.
469 «Divan», c I, s. 66, beyt, 606.
470 «Divan», c VI, s. 156, beyt, 1468.
471 «Mesnevi», c. I, s. 314-315, beyt, 3948-3956.
472 «Mesnevi», c. I, s. 314-315, beyt, 3948-3956.
473 «Fihi Ma Fih», İstanbul, 1990, s. 40.
474 «Mesnevi», 6/68, beyt, 815-816.
475 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

Hz. Nizami beytin ideyasını təqdim etmək üçün beş quşun adını çəkmişdir: kəklik, göyərçin, şahin, humay, faxta. Şairə görə, hz. Məhəmməd (s.a.s) bir sultandır, o, uca Allahın (c.c) dəvəti ilə Onun hüzuruna gedir, gecə merac gecəsidir, böyük nemətlərin veriləcəyi gecədir, hər şey bu mübarək sultanın, əziz elçinin adına layiqdir, göylər bu gecə ancaq Onun şərəfinə bəzənmişdir. Buraq da Onun adına layiq bir minikdir.

Kəklik yerişi, gözəlliyi və səsi ilə başqa quşlardan seçilir. Şair Buraq adlı miniyin yerişini kəkliyin yerişinə bənzətmişdir. Kəklik ayağını yerə yavaş basar, sanki, uçar kimi yeriyər, yerişində naz olar, ağırlığını duymaz. Buraq da elə yeriyir ki, əslində, buna yeriş demək olmaz, bu, uçuşdur, o, üzərində olan Peyğəmbərin ağırlığını duymur, çünki onu sevir.

Şair Buraq adlı miniyi göyərçinə bənzətmişdir. Göyərçin də gözəlliyi, insanlara yaxınlığı ilə seçilir, onları əhilləşdirmək, onlarla dostluq etmək mümkündür. Göyərçin insanların düşüncəsində xoş xəbərin, müjdənin simvoludur.

Şair deyir ki, Buraq bir şahin quşu idi. Şahin quşu da öz sürəti, gücü ilə seçilir. Buraq da bir şahin kimi irəliyə, yüksəkliyə can atır.

Hz. Nizami Buraq adlı miniyi Humay quşuna bənzətmişdir. Humay (Hüma) əfsanəvi quşdur. O, səadət quşu adlanır. Humayın kölgəsi kimin başına düşsə, o, şah seçilərmiş. Humayın qanadı ayrıca seçildiyinə, kölgə saldığına və bu kölgənin başına düşdüyü adam seçildiyinə görə, şair Buraqın sürətini ifadə edərkən misrada Humayın qanadını yada salmışdır.

Şairə görə, Buraq, Humay quşunun qanadlarına bənzər qanadları olan faxta quşu kimi tez gedirdi. Faxta quşunun bir neçə özəlliyi var: faxta çöl göyərçininə bənzəyir

(ona çöl göyərçini də deyirlər), dadlı əti olur, o, gözəl oxuyur, bir sıra ləhcələrdə ona «yahu» da deyirlər.

**Şair beytdə gözəllikləri özündə toplayan bir Buraq təsvir etmişdir. O, yerişdə kəkliyə, gözəllikdə göyərçinə, uçuşda şahinə, bərəkətdə humaya, səsdə, sürətdə fax-taya bənzəyir. O, Peyğəmbəri uca sevgiliyə çatdırmağa can atır.**

## YÜZ BEŞİNCİ ADDIM: BURAQIN QARŞISINDA MƏCƏRRƏ SAMAN DAŞIYAN İDİ

مجره كه كشان پيش براقش
درخت خوشه جوجو ز اشتياقش

***Buraqın qarşısında Məcərrə saman daşıyan idi,***
***Cövzanın sünbülü onun şövqündən***
***dən-dən olmuşdu.*** [476]

Hz. Nizami bu beytdə gözəl bir mənzərə çəkmişdir. Beytin ideyası merac gecəsi göy cismlərinin Peyğəmbərin gəlişindən doğan sevincini ifadə etməkdir. «Məcərrə» iki mənada işlədilir: süd yolu (saman yolu, yəni sonsuzluğa gedən yol), bir də qalaktika. Bu baxımdan yanaşdıqda beytin birinci misrasından iki məna ortaya çıxır. Buraq çox böyük sürətlə hərəkət edirdi və planetlərin sürətini onunla müqayisə etmək olmazdı. «Saman daşımaq» boş işlə məşğul olmaq mənasındadır. Buraqın gördüyü iş daha böyük idi. Onun qarşısında sonsuzluğa gedən yol açılmışdı, qalaktikada olan planetlər də Buraqa yol göstərirdilər, onu müşayiət edirdilər.

---

[476] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

Cövza bürcünün bir adı da Əkizlərdir. Şair deyir ki, Cövzanın sünbülü Onun şövqündən dən-dən olmuşdu. «Sünbülü dən-dən olmaq» buğda dənələrinin iri, sarı olması, yetişməsi, çox olması, bərəkətli olmasıdır. **Yəni Cövzanın sünbülü Merac gecəsi Peyğəmbərin göylərə ucalmasından şövqə gəldi və daha bərəkətli məhsul verdi. Şair «sünbülü dən-dən olmaq» ifadəsi ilə Peyğəmbər sevgisini ifadə etmişdir. Biz bu misrada «sünbülün dən-dən olması» ifadəsini Cövza bürcündə olan ulduzların parlaq işıq saçması kimi də dəyərləndirə bilərik.**

## YÜZ ALTINCI ADDIM:
## QÖVSÜN SÜMÜYÜNÜ XƏZİNƏYƏ ATMIŞDIR

کمان را استخوان بر گنج کرده
ترازو را سعادت سنج کرده

***Qövsün sümüyünü xəzinəyə atmış,***
***Mizanı səadət çəkən eləmişdi.***[477]

Hz. Nizami bu beytdə də merac gecəsinin ruhuna uyğun olan obrazlar seçmiş və ideyanı bu yolla anlatmışdır. Beytin ideyası Peyğəmbər sevgisini, Peyğəmbərin gücünü, səma cismlərinin Peyğəmbərin gəlişindən yaranan heyrətini ifadə etməkdir. Şair bu məqsədlə iki bürcün – Qövs (Oxatan) və Mizan (Tərəzi) bürcünün adını çəkmişdir. Qövs yaya oxşadığından Oxatan yerinə bu söz işlədilmişdir.

Oxatan od işarəsidir. Yupiterin himayəsindədir. Oxatanın rəmzi gözəl və çoxmənalıdır, bilinməyən bir nöqtəni nişan alan simvoldur. Oxatanda ikili xüsusiyyət var. O, bir

[477] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

yöndən çox inkişaf etmişdir, başqa yöndən isə bəsitdir. Böyük həyati gücü var, çox fəaldır.

Misir astroloqları Oxatan bürcündə ikibaşlı (bir başı insan, o biri başı şir), qanadlı, ox-kamanlı kentavr görürdülər. Şumer–akkad mifologiyasının rəvayətlərində Oxatan səadət və bolluq gətirən bürc sayılır.

Oxatan bürcü səmada səkkiz yüz altmış yeddi kvadrat dərəcəlik sahəni tutur, adi gözlə görünən yüz on beş ulduzdan ibarətdir. Ən səciyyəvi ulduzlar Əqrəb bürcünə tuşlanmış kaman və ox şəklindədir. Qalaktikanın nüvəsi Oxatan bürcündədir. Bu bürcdə təqribən on kürəvi və səpilmiş ulduz toplusu, üç parlaq və iri diffuz dumanlığı: Üçqat, Laquna və Omeqa dumanlıqlarını kiçik teleskopla, güclü durbinlə də müşahidə etmək olar.

Şair deyir ki, O, merac gecəsi Qövsün (Oxatanın) sümüyünü xəzinəyə atmışdır. Birinin sümüyünü xəzinəyə atmaq onu tilsimə salmaq deməkdir. Qövs (Oxatan) yay mənasında olduğuna görə, həmişə bəla yağdırır, başqa planetlərə ziyan vurur. Şair bədii bir yolla deyir ki, Peyğəmbər merac gecəsi Oxatan bürcünü (Qövsü) elə vəziyyətə saldı ki, o, bəla yağdıra bilmədi, gücünü itirdi.

Şair beytin ikinci misrasında Mizan (Tərəzi) bürcünün adını çəkmişdir. Tərəzi cansız əşyaya həsr edilmiş yeganə bürcdür. Qədim Misirdə astronomlar Tərəzi bürcündə Nil sularının hündürlüyünü ölçən cihazın bir parçasını tərəzi qolu şəklində təsvir edirdilər. Bədirlənmiş Ay, Tərəzi bürcündə olanda misirlilər məhsulu tərəzidə çəkirdilər. Şərqin bir çox miflərində tərəzi ilahi ədalətin rəmzi sayılırdı. Əhdətiq və xristian düşüncəsinə görə, Mikayıl adlı mələk ölənlərin ruhunu tərəzidə çəkir. Tərəzi bürcü Hindistanda da bəlli idi. Burada Tərəzi bürcünü Misir mərasiminə bənzəyən və mərhumun mənəvi ləyaqətlərini müəyyən edən bir mərasimlə əlaqələndirirdilər. Qədim hindlilər tərəzinin bir gözünə müttəhimi qoyur, o biri gözünə torpaq tökürdülər.

Tərəzi bürcü səmada beş yüz otuz dörd kvadrat dərəcəlik sahəni tutur. Onun tərkibinə adi gözlə görünən əlli ulduz daxildir. Tərəzidə parlaq ulduzlar yoxdur. Bu bürcün hətta alfa ulduzu da ancaq üçüncü ölçülü ulduzdur. Bu bürc işarəsi altında dünyaya gələn adamların hamisi Venera planetidir, ona görə də onlar romantik və incədirlər, tez ünsiyyət qura bilirlər, çox ustadırlar. Ancaq onlar qətiyyətsiz və dəyişkəndirlər. Onların xasiyyəti yumşaq, zəkası aydındır, təmkinlidirlər. Onlar həyatın nəbzini asanlıqla tuturlar, dava-dalaşı, gərginliyi xoşlamırlar, rahatlığı hər şeydən üstün tuturlar. Xoş rəftarına, nəzakətinə, şux və mehriban xasiyyətinə görə cəmiyyətdə onu sevirlər.

Şair deyir ki, merac gecəsi islam Peyğəmbəri Mizana (Tərəzi bürcünə) təsir etdi. Onun təsiri ilə Mizan hər şeyi ədalətlə çəkdi.

Hz. Nizami bu beytdə islam Peyğəmbərinin iki özəlliyini önə çəkmişdir: O, mərhəmətlidir, pisliklərə qarşıdır, O, ədalətlidir və ədaləti insan haqqının qorunmasının əsası, «rəhmət evi»nə bənzəyən cəmiyyət qurmağın qaynağı sayır. Hz. Nizaminin təfsirinə görə, islam dini ədalət üzərində qurulmuşdur. Cəmiyyətdəki xoşbəxtliyin, səadətin əsası ədalətdir. Şairə görə, uca Allaha (c.c) inanmaq, Ona bütün varlığı ilə itaət etməklə ədalətli insan yetişdirmək, ədalətli cəmiyyət qurmaq olar. Ədalətli insan uca Allaha (c.c) inanan, Onun buyruqlarını yerinə yetirən insandır.

## YÜZ YEDDİNCİ ADDIM:
## MÜŞTƏRİYƏ TAC BAĞLAMIŞDI

ز رفعت تاج داده مشتری را
ربوده ز آفتاب انگشتری را

***Yüksəkliyindən Müştəriyə tac bağışlamışdı,***
***Günəşdən üzüyünü çəkib almışdı.***[478]

---

[478] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

Şair bu beytdə merac gecəsi islam Peyğəmbərinin yüksəldiyi ucalığı, Onun gücünü, dəyərini anlatmışdır. O, bu ideyanı ifadə etmək üçün bir sıra vasitələrdən istifadə etmişdir. Şair beytin birinci misrasında Müştəri (Yupiter) planetinin adını çəkmişdir. Müştəri planeti göyün altıncı qatında yerləşir. O, üç ülvi fələkdən ikincisidir. Müştəri səadət aynası sayılır. O, fələyində təkbaşına hakimdir. Bu planetə «böyük xoşbəxtlik» adı verilmişdir. Müştərinin təbiəti gözəldir, isti və rütubətlidir. Bu planetin özəllikləri bunlardır: din qeyrəti, elm, həya, səxavət, təvazökarlıq, ağıl, iffət, fəsahət.

Yupiter, Günəş sisteminə daxil olan ən nəhəng planetdir. Onun kütləsi Günəş sisteminin qalan doqquz planetinin kütləsindən iki tam onda beş dəfə böyükdür. Yupiterin daxili quruluşu və atmosferi haqqında əsaslandırılmış elmi məlumatları ABŞ planetlərarası kosmik stansiyaları vermişdir. Bəlli olmuşdur ki, Yupiterin mərkəzində temperaturu 35000 dərəcə, təzyiqi yüz milyon atmosfer olan nüvə yerləşir. Onun tərkibi daş və metallardan ibarətdir. Nüvə ionlaşmış metallik maye və maye hidrogen təbəqələri ilə əhatə olunmuşdur. Metallik hidrogendən ibarət təbəqə Yupiterin güclü maqnit sahəsini yaradır. Onun qalınlığı min üç yüz kilometrdir. Yupiterin atmosferi, əsasən, hidrogen və helium qazlarından ibarətdir. Yupiterin səthində temperatur mənfi yüz qırx dərəcədir. O, nəhəngdir, ancaq öz oxu ətrafında böyük sürətlə fırlanır, təqribən on saata bir tam dövr edir. Sürətli fırlanma atmosferdə güclü küləklər və burulğanlar yaradır.

Atmosferin sıx xarici qatları Günəş şüalarını yaxşı qaytardığına görə, Yupiter həmişə gecə səmasında parlaq ulduz kimi bərq vurur. O, parlaqlığına görə Günəş, Venera və Aydan zəifdir.

Şair beytin ideyasını təqdim etmək üçün Günəş planetinin də adını çəkmişdir. Günəş bizə ən yaxın ulduzdur. Gü-

nəş də nəhəng qaynar plazma kütləsindən ibarətdir. Müasir elmi biliklərə görə, bu plazmanın təqribən yetmiş altı faizini hidrogen, iyirmi iki faizini helium, iki faizini isə daha ağır elementlərin nüvələri təşkil edir. Günəş plazması bir neçə təbəqədən ibarətdir.

Gecə, gündüz, aylar, zamanlar onun hərəkəti ilə bəlli olur. Yeddi planetin ortasındadır.

**Şair deyir ki, O, merac gecəsi yüksəkliyindən Müştəriyə tac bağışlamışdır. Yəni Müştəridən daha yüksək mərtəbəyə ucalmışdır. Müştəri gözəlliyini, nurunu səadət bəxş etmək özəlliyini ondan almışdır. «Tac bağışlamaq» gözəllik vermək, gözəlləşdirmək, imkanlarını artırmaq deməkdir.**

Şair deyir ki, O, merac gecəsi Günəşdən üzüyünü çəkib almışdı. Üzük parlaqlığı və gözəlliyi ilə diqqəti çəkir. Burada «günəşdən üzüyünü çəkib almaq» ondan daha gözəl, daha parlaq görünmək anlamına gəlir.

## YÜZ SƏKKİZİNCİ ADDIM: CƏBƏDƏN CÖVZAYA BİR OX BAĞIŞLAMIŞDI

به دفع نزلیان آسمان گیر
ز جعبه داده جوزا را یکی تیر

***Göyü tutan şeytanları uzaqlaşdırmaq üçün,***
***Cəbədən Cövzaya bir ox bağışlamışdı.***[479]

Şair bu beytdə ideyanı ifadə etmək üçün iki bürcün adını mətnə daxil etmişdir. Beytin ideyası Peyğəmbərin gücünü təqdim etməklə bağlıdır. Şair öncə deyir ki, göy üzünü şeytanlar tutmuşdur. «Şeytan» sözü uzaq olmaq,

[479] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

müxalifət etmək, torpağa girmək, ipə bağlamaq anlamlarına gələn «şatn» kəlməsindən, ya da yanmaq, həlak olmaq mənasında olan «şayt» kəlməsindən törəmişdir.[480]

Şeytan azğınlıq, şər və pislikdə ad çıxarmış, təkəbbürlü, asi, yoldan çıxaran insan və cinlərdir. Dini termin olaraq şeytan gözlə görünməyən, ancaq varlığı olan, insanları yoldan çıxaran, ya da onları azdırmağa çalışan gizli və açıq gücdür. Şeytan sözünün cəmi şəyatindir. Qurani-Kərimdə şeytan sözü yetmiş, şəyatin sözü isə on səkkiz yerdə var. Ən önəmli vəsfi «rəcim»dir. Rəcim, daşlanmış, qovulmuş deməkdir. O, uca Allahın (c.c) rəhmətindən qovulduğu üçün bu adı almışdır. Qurandakı əsl adı İblisdir və on bir yerdə adı çəkilmişdir. Uca Allah (c.c) onu hz. Adəmə (s.a.s) səcdə etmədiyi üçün cənnətdən qovmuş və rəhmətindən uzaqlaşdırmışdır.[481]

Qurani-Kərimin «Kəhf» surəsində şeytanın cinlərdən olduğu bildirilir.

وإِذْ قُلْنَا لِلْمَلَائِكَةِ اسجدوا لِآدم فَسجدوا إِلا إِبليس كان من الْجِن فَفَسقَ
عن أَمرِ ربه أَفَتَتخذُونَه وذُريتَه أَولياء من دوني وهم لَكُم عدو بِئْس
لِلظالِمين بدلاً

(əl-Kəhf, 18/50)

«(Ey Rəsulum!) Xatırla ki, bir zaman mələklərə: «Adəmə (təzim məqsədi ilə) səcdə edin!» - demişdik. İblisdən başqa hamısı səcdə etdi. O, cinlərdən (cin tayfasından) idi. O, öz Rəbbinin əmrindən çıxdı. Onlar sizin düşməniniz olduğu halda, siz Məni qoyub onu və nəslini (övladını özünüzə) dostmu tutursunuz? Bu, zalımlar üçün necə də pis dəyiş-düyüşdür!»

---

480 İbn Manzur, «Lisanul-Arab», Beyrut, 1388 h., c. XIII, s. 238-239.
481 «İslami kavramlar», göstərilən qaynaq, s. 654-655.

Qurani-Kərim buyurur ki, uca Allah (c.c) mələklərlə birlikdə ona da hz. Adəmə (s.a.s) səcdə etməsini buyurmuş, ancaq o, özünün atəşdən, hz. Adəmin (s.a.s) isə torpaqdan yaradıldığını irəli sürərək səcdə etməmişdir. Mələklər isə səcdə etmişdir.

قَالَ مَا مَنَعَكَ أَلَّا تَسْجُدَ إِذْ أَمَرْتُكَ قَالَ أَنَا خَيْرٌ مِنْهُ خَلَقْتَنِي مِن نَارٍ

وَخَلَقْتَهُ مِن طِينٍ

(əl-Əraf, 7/12)

«(Allah, İblisə): «Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?» - deyə buyurdu. (İblis:) «Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!» - dedi».

Bu hadisə İblisi uca Allahın (c.c) rəhmətindən və cənnətindən uzaqlaşdırmış və ona şeytan olmaq vəsfini qazandırmışdır. Ancaq Qurani-Kərimə görə, şeytan olan yalnız İblis deyil. İnsanları doğru yoldan çıxaran, İblisin vəzifəsini yerinə yetirən insanlar da şeytan sayılır.

قُلْ أَعُوذُ بِرَبِّ النَّاسِ . مَلِكِ النَّاسِ . إِلَٰهِ النَّاسِ . مِن شَرِّ الْوَسْوَاسِ

الْخَنَّاسِ . الَّذِي يُوَسْوِسُ فِي صُدُورِ النَّاسِ .مِنَ الْجِنَّةِ و النَّاسِ

(ən-Nas, 114/1-6)

«(Ey Peyğəmbər!) De: «Pənah aparıram insanların Rəbbinə. İnsanların ixtiyar sahibinə. İnsanların tanrısına. Vəsvəsə verən, (Allahın adı çəkiləndə isə qorxusundan) qaçıb gizlənən Şeytanın şərindən. O şeytan ki, insanların ürəklərinə vəsvəsə salır. (O şeytan ki) cinlərdən də olur, insanlardan da!»

Şeytan insanları hərəkətə gətirir, onların davranışlarına təsir göstərir. Nəfs kimi insanın öz varlığı içindəki duyğular şeytan deyil. Nəfs insanın içindədir, insana yad deyil. Şeytan isə insandan kənardadır, ona yaddır, ona

düşmən olan bir varlıqdır. Şeytan insana kənardan təsir edə bilir. Bu təsir gücü uca Allahın (c.c) verdiyi icazə ölçüsündədir.[482]

Ara-sıra belə suallar ortaya çıxır, uca Allah (c.c) şeytanı niyə yaradıb? Bu sualın cavabı belədir: «Şeytanın varlığı insanın hürr (azad) olması ilə bağlıdır. İnsanın bəlli ölçüdə olan iradəsi və hürriyyəti var. Ağıl, vicdan, din insana yol göstərir. Şeytan isə nəfslə birlikdə ağlın, vicdanın, dinin, qarşısında dayanır, insana pislik yollarını göstərir. Ağıl qərar verir. İradə isə verilən qərarın davamlılığını təmin edir. Bir mənada şeytan, insan hürriyyətinin varlığında bir alternativdir. Bir yanda doğruluq və doğru, başqa yöndə isə pislik və pis var. İnsan bunlardan birini seçə bilər. Mələklər verilən əmrləri yerinə yetirən varlıqdır. Onlarda pislik olmaz. Şeytan isə pisliyi əmr edər və insanları doğru yoldan əl çəkməyə çağırar».[483]

Şeytanın varlığı həm də insanın yaradılış səbəbi ilə bağlıdır. Uca Allah (c.c) bu dünyanı sınaq üçün yaradıb. İnsan bu dünyada sınaqlardan keçir və hansı yolu – iman, yoxsa küfr yolunu seçməsi bəlli olur. Uca Allah (c.c) insanı, şeytanı və bu dünya kimi mübarizə meydanını yaradıb. İnsanın seçəcəyi yol, onun dəyəri şeytanla mübarizədə üzə çıxır. Şeytan sınaq dünyasında bir vasitəyə çevrilir. Uca Allah (c.c) bu ağır mübarizədə insanı tək qoymamışdır, ona sınağı qazanması üçün imkanlar vermişdir. İnsanın ağlı, iradəsi, yaxşını pisdən seçmək imkanı var. Uca Allah (c.c) kitab göndərmiş, peyğəmbərlər seçmişdir. İnsan uca Allaha (c.c) inansa, Ona bağlansa, Onun göndərdiyi kitabın buyruqlarına əməl etsə, uca Peyğəmbərinin əlindən tutsa, yolunu azmaz, şeytana aldanmaz, onu məğlub edər və uca Allahın

---

[482] əl-Əraf, 7/14.
[483] «İslami kavramlar», göstərilən qaynaq, s. 654-655.

(c.c) rizasını qazanar. Böyük iman şairi Füzuli deyir ki, uca Allah (c.c) Quranı yaxşını pisdən seçmək üçün göndərib:

**… Yaxşını pisdən əməl vəqti ağıl seçmək üçün,**
**Göndəribdir ona lütf eyləyərək Quranı.**[484]

Həzrət Füzuli deyir ki, insan öz Peyğəmbərinə tabe olsa, şeytanı özünə rəhbər etməz:

**Hər bir işdə olaraq tabei-asari-nəbi,**
**Etdiyi işlərə rəhbər eləməz şeytanı.**[485]

**Qurani-Kərimə görə, şeytan insanın düşmənidir:**

وإن يكذبوك فقد كُذبتْ رسلٌ من قبلك وإلى الله تُرجع الأمور يا
أيها الناس إن وعد الله حق فلا تَغُرنكم الْحياةُ الدنْيا ولا يغُرنكم بالله
الْغَرور

(Fatir, 35/5)

«Ey insanlar! Şübhəsiz ki, Allahın (qiyamət barəsindəki) vədi haqdır. Dünya həyatı sizi aldatmasın. O tovlayan (Şeytan) da sizi tovlayıb yoldan çıxartmasın!»

**Qurana görə, şeytan insanı azdırır:**

ودخَلَ الْمدينَةَ على حين غَفْلَة من أهلها فَوجد فيها رجلين يقْتَتلان
هذَا من شيعته وهذَا من عدوه فَاستَغَاثَه الذي من شيعته على الذي
من عدوه فَوكَزه موسى فَقَضى عليه قَالَ هذَا من عمل الشيطَان إنه
عدو مضل مبين

(əl-Qəsəs, 28/15)

«(Musa) şəhərə əhalisi xəbərsizlikdən (günorta istirahət vaxtı) girdi. Orada iki nəfərin vuruşduğunu gördü. On-

---

[484] Məhəmməd Füzuli, Əsərləri, altı cilddə, III cild, Bakı, 2005, s. 414.
[485] Məhəmməd Füzuli, Əsərləri, altı cilddə, III cild, Bakı, 2005, s. 414.

lardan biri öz adamlarından (yəhudilərdən), digəri isə düşmənlərdən (qibtilərdən) idi. (Musanın) adamlarından olan kəs düşməninə qarşı ondan imdad istədi. Musa onu (əli, ya da əsası ilə) vurub öldürdü və dedi: «Bu, Şeytan əməlindəndir. Həqiqətən, o, açıq-aşkar bir düşməndir, (insanı haqq yoldan) azdırandır!»

**Qurana görə, şeytan inadkardır:**

ومن الناس من يجادلُ في الله بِغَيرِ علْمٍ ويتبع كُلّ شَيطَانٍ مريد

(əl-Həcc, 22/3)

«Allah haqqında heç bir şey bilmədən (elmsiz-dəlilsiz «Rəbbimiz mələklərdən özünə övlad götürmüşdür» - deyə) mübahisə edən və Allaha asi olmuş hər bir şeytana uyan insanlar da vardır».

**Qurana görə, şeytan insanı aldadır:**

يا أَيها الناس اتقُوا ربكُم واخْشَوا يوماً لا يجزِي والِد عن ولَده ولَا مولُود هو جازٍ عن والِده شَيئاً إِن وعد الله حق فَلَا تَغُرنكُم الْحياةُ الدنْيا ولَا يغُرنكُم بِالله الْغَرور

(Loğman, 31/33)

«Ey insanlar! Rəbbinizdən qorxun. Atanın oğula, oğulun da ataya heç bir şeylə kara gələ bilməyəcəyi bir gündən həzər edin. Allahın vədi, şübhəsiz ki, haqdır. Ehtiyatlı olun ki, dünya həyatı sizi aldatmasın. Şeytan sizi Allaha arxayın edib tovlamasın!»

**Qurana görə, şeytan nankordur:**

إِن الْمبذرِين كَانُواْ إِخْوان الشياطينِ وكَان الشيطَان لِربه كَفُوراً

(əl-İsra, 17/27)

«Həqiqətən, (malını əbəs yerə) sağa-sola səpələyənlər şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur!»

**Qurana görə, şeytan asidir:**

يا أَبت لا تَعبد الشيطان إن الشيطان كان للرحمن عصياً

(Məryəm, 19/44)

«Atacan! Şeytana ibadət etmə, həqiqətən, şeytan Rəhmana (Allaha) çox asi olmuşdur!»

**Qurana görə, şeytan ona inananları qoyub qaçar, onlara yardım etməz:**

لقد أَضلني عن الذكر بعد إذْ جاءني وكان الشيطان للإنسان خَذُولاً

(əl-Furqan, 25/29)

«And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan (Qurana iman gətirməkdən) o sapdırdı. Şeytan insanı (yoldan çıxartdıqdan, bəlaya saldıqdan sonra) yalqız buraxar (zəlil, rüsvay edər)».

Şeytan insanı uca Allahın (c.c) yolundan çıxarmaq üçün çeşidli vasitələrdən istifadə edir: onları şübhəyə salır[486], pis işləri gözəl göstərir[487], çirkin sözlər, içki, qumar, fahişəlik kimi haram olan şeylərlə insanların arasına fitnə salır[488], insanları aldadır, vəd verir, unutdurur, qəzəbləndirir, vəsvəsə verir, fitnə-fəsad törədir, qorxudur, yalan danışır.

Ancaq Qurana görə, uca Allaha (c.c) inananlara, Ona sığınanlara qarşı mübarizədə şeytan gücsüzdür:

إنما سلطانه على الذين يتَولونه والذين هم به مشْركون

(ən-Nəhl, 16/100)

«Şeytanın hökmü yalnız ona itaət edib Allaha şərik qoşanlar üzərindədir!»

إنه لَيس له سلطان على الذين آمنُوا وعلى ربهم يتَوكلون

---

[486] Səbə, 34/20-21.
[487] Ənkəbut, 29/38.
[488] Maidə, 5/91-92; Bəqərə, 2/169.

«Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində şeytanın heç bir hökmü yoxdur!»

Şeytan gerçək qulları aldada bilməz:

إِنَّ عِبَادِي لَيْسَ لَكَ عَلَيْهِمْ سُلْطَانٌ وَكَفَى بِرَبِّكَ وَكِيلاً

(əl-İsra, 17/65)

«Doğrusu, Mənim (mömin) bəndələrim üzərində sənin heç bir hökmün ola bilməz. Rəbbinin vəkil olması (sənin şərindən və vəsvəsəndən onları qoruması) kifayət edər!»

Qurani-Kərimdə şeytanın insanı azdırdığına aid olan örnəklər də var. Bu örnəklərin ən önəmlisi şeytanın hz. Adəmi (s.a.s) aldadaraq onu yasaq meyvə yeməyə təşviq etməsidir.

İslam Peyğəmbəri də şeytanın insanın bədənində qanın dövranı kimi dolaşdığını xəbər vermişdir.[489]

Hz. Nizami beytdə deyir ki, merac gecəsi hz. Məhəmməd (s.a.s) göy üzünü tutan şeytanları uzaqlaşdırmaq üçün Cəbədən Cövzaya bir ox bağışlamışdı. Şair burada Cəbə deyərkən Oğlaq bürcünü nəzərdə tutmuşdur. Cövza isə Əkizlər bürcüdür. Şair burada Cəbə (Oğlaq) bürcünün formasından istifadə etmişdir. Belə ki, Oğlaq bürcü göy üzündə təqribən dörd yüz kvadrat dərəcəlik sahəni tutur. Onun tərkibinə gözlə görünən əlli ulduz daxildir. Oğlaq bürcünün iti ucu var (iti ucu olan oxa bənzəyir), planetin cənub qütbünə istiqamətlənmişdir.

Şair deyir ki, islam Peyğəmbəri merac gecəsi Cəbədən (Oğlaq) Cövzaya (Əkizlər) bir ox bağışladı. Burada oxun Cövzaya (Əkizlər bürcünə) bağışlanmasının səbəbi bu bürclə bağlı olan əski düşüncələrdən qaynaqlanır. Belə ki, qədimdə müxtəlif xalqlar uşaqların əkiz doğulmasına iki cür

[489] Buhari, «İtikaf», 11.

münasibət bəsləyirdilər. Bəziləri bunu möcüzə, bəziləri isə bədbəxtlik sayırdı. Məsələn, Hindistanda ecazkar məxluqlar – əkizlər haqqında rəvayətlər yayılmışdı, onlar tayfanın baniləri, qəhrəmanların ulu babaları sayılırdılar. Əkiz uşaqları bəla hesab edən xalqlarda onların anasını tayfanın qalan üzvlərindən ayırmaq adəti var idi. Əkiz doğmuş qadına fövqəltəbii qüvvə ilə təmasda olmuş bir məxluq kimi baxaraq, onu həm tayfadan uzaqlaşdırır, həm də ondan qorxaraq səcdə edirdilər.

Şair beytin birinci misrasında göy üzünü tutmuş şeytanlardan, ikinci misrasında isə bu şeytanları uzaqlaşdırmaq üçün Peyğəmbərin Cəbədən Cövzaya ox bağışlamasından danışır. Yəni şeytanlar daha çox Əkizlər bürcünün ətrafına toplaşmışdır, daha çox ona təsir göstərir. Deməli, bu bürcün qorunmağa, himayəyə, silaha ehtiyacı var. Ona görə də ox ona bağışlanmışdır.

Şair beytdə bu cür vasitələrdən istifadə edərək islam Peyğəmbərinin xilaskar, himayədar, güclü, şeytanları məğlub etməyi bacaran, göy üzünü də şeytanlardan təmizləyən, qoruyucu missiyasını önə çəkmişdir.

## YÜZ DOQQUZUNCU ADDIM:
## YUNİS KİMİ BALIQDA BİR QƏDƏR DAYANMIŞDI

چو یوسف شربتی دردلو خورده
چو یونس وقفه‌ای در حوت کرده

***Yusuf kimi Dəlvdə şərbət içmiş,***
***Yunis kimi Balıqda bir qədər dayanmışdı.***[490]

Şair bu beytin ideyasını təqdim etmək üçün bir sıra vasitələrdən istifadə etmişdir. Öncə iki Peyğəmbərin – hz.

[490] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

Yusif (s.a.s) və hz. Yunisin (s.a.s) adı beytin mətninə daxil edilmişdir. Şair böyük ustalıqla bu iki Peyğəmbərlə bağlı olan hadisələrlə merac gecəsi arasında əlaqə qurmuşdur.

Hz. Yusifin (s.a.s) soyu hz. İbrahimə (s.a.s) bağlıdır. Hz. İbrahimin (c.c) oğlu hz. İsaq (s.a.s), onun oğlu hz. Yaqub (s.a.s), onun oğlu isə hz. Yusifdir (s.a.s). Onun anası Rahil binti-Ləvandır.[491] Onun üzü günəş kimi parlayırdı, ona gözəlliyin yarısı verilmişdi.[492]

**Qurani-Kərimdə hz.Yusiflə (s.a.s) bağlı olan iki məsələyə toxunulmuşdur.** Bunlardan biri Onun qardaşları tərəfindən quyuya atılmasıdır.

فَلَمَّا ذَهَبُواْ بِهِ وَأَجْمَعُواْ أَن يَجْعَلُوهُ فِي غَيَابَةِ الْجُبِّ وَأَوْحَيْنَا إِلَيْهِ
لَتُنَبِّئَنَّهُم بِأَمْرِهِمْ هَـذَا وَهُمْ لاَ يَشْعُرُونَ . وَجَاؤُواْ أَبَاهُمْ عِشَاء يَبْكُونَ
. قَالُواْ يَا أَبَانَا إِنَّا ذَهَبْنَا نَسْتَبِقُ وَتَرَكْنَا يُوسُفَ عِندَ مَتَاعِنَا فَأَكَلَهُ
الذِّئْبُ وَمَا أَنتَ بِمُؤْمِنٍ لِّنَا وَلَوْ كُنَّا صَادِقِينَ . وَجَآؤُوا عَلَى قَمِيصِهِ
بِدَمٍ كَذِبٍ قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ أَنفُسُكُمْ أَمْراً فَصَبْرٌ جَمِيلٌ وَاللّهُ
الْمُسْتَعَانُ عَلَى مَا تَصِفُونَ

(Yusif, 12/15-18)

«(Qardaşları) onu (Yusifi) götürüb (çölə) apararkən onu quyuya atmaq üçün sözü bir yerə qoydular. Biz (Yusifə): «Sən (bir vaxt) onlara (qardaşlarına) özlərinin bu işi barəsində heç gözləmədikləri (səni tanımadıqları) halda xəbər verəcəksən!» - deyə vəhy etdik. Onlar axşamüstü ağlaya-ağlaya atalarının yanına gəldilər. Və dedilər: «Ata! Biz (at çapmaq, ya da qaçıb-ötüşmək və ya ox atmaqda) bir-birimizlə yarışmaq üçün (səhraya) getmişdik və Yusifi şey-

---

[491] İbn Kuteybə, «Maarif», s. 18-19.
[492] Ahmed b.Hanbel, «Müsned», c. III, s. 148.

lərimizin (libaslarımızın) yanında qoymuşduq. Bir də xəbər tutduq ki, qurd onu yemişdir. İndi biz doğru danışsaq da, sən bizə inanmayacaqsan!» Onlar (Yusifin) köynəyinin üstünə yalandan bir qan (ləkəsi yaxıb) gətirmişdilər. (Yəqub) dedi: «Xeyr (heç də dediyiniz kimi deyildir), sizin öz nəfsiniz sizi bu işə sövq etmişdir (çirkin əməlinizi sizə gözəl göstərmişdir. Mənə yalnız gözəl (tükənməz, dözümlü) səbir gərəkdir. Dediklərinizdən ötrü ancaq Allahdan kömək diləmək lazımdır!»

Hz. Nizaminin toxunduğu ikinci məsələ hz. Yusifin (s.a.s) quyudan çıxarılmasıdır:

وجاءتْ سيارةٌ فأرسلُوا واردِهم فأدلَى دلْوه قال يا بشْرى هـذَا
غُلام وأسروه بِضاعةً والله عليم بِما يعملُون

(Yusif, 12/19)

«Nəhayət, (Mədyəndən Misirə gedən) bir dəstə müsafir (karvan əhli bu yerə) gəlib suçularını (su dalınca) göndərdilər. (Suçu) qabını quyuya salan kimi: «Müjdə! Bu bir oğlandır!» - dedi. Onlar (müsafirlər, ya da qardaşları Yusifi) satlıq bir şey (ticarət malı) kimi gizlədib saxladılar. Allah isə onların nə etdiyini (Yusifin başına nə oyun açdıqlarını) yaxşı bilirdi!»

Şair deyir ki, islam Peyğəmbəri merac gecəsi Dəlvdə şərbət içmişdir. Dəlv dolça deməkdir. Yəni hz. Yusif (s.a.s) quyudan dolça (su qabı) ilə çıxanda şərbət içdiyi, çox sevindiyi kimi, islam Peyğəmbəri də merac gecəsi Dolça bürcündən keçərkən şərbət içmişdir.

Hz. Nizami beytin ikinci misrasında deyir ki, islam Peyğəmbəri (s.a.s) merac gecəsi hz. Yunis (s.a.s) kimi Balıqda bir qədər dayanmışdı. Şair Balıq deyərkən «Hut» bürcünə işarə etmişdir. Burada şair hz. Yunisin (s.a.s) bir müddət balığın qarnında qaldığını nəzərdə tutmuşdur.

Bilindiyi kimi, uca Allah (c.c) Qurani-Kərimdə hz. Yunisi (s.a.s) «balıq sahibi» adlandırmışdır.

وذَا النونِ إِذ ذهب مغَاضباً فَظَن أَن لن نقْدر علَيه فَنَادى في الظُّلُمات أَن لا إِلَه إِلا أَنتَ سبحانَك إِني كُنتُ من الظَّالمين

(əl-Ənbiya, 21/87)

«Zün-Nunu (balıq sahibi Yunisi) də xatırla! Bir zaman o (küfr etməkdə həddi aşmış ümmətinə qarşı) qəzəblənərək çıxış etmiş və (Bizə xoş gəlməyən bu səbirsizliyinə görə) onu möhnətə düçar etməyəcəyinizi (gücümüzün, ya da hökmümüzün ona yetişməyəcəyini) güman etmişdi. Ancaq sonra qaranlıqlar içində (balığın qarnında, gecənin, ya da dənizin zülmətində): «(Pərvərdigara!) Səndən başqa heç bir tanrı yoxdur. Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam (əmrinə qarşı çıxaraq özümə zülm etmişəm)», - deyib dua etmişdi».

Uca Allah (c.c) Qurani-Kərimdə hz. Yunisi (s.a.s) sıxıntıdan qurtararaq onu balığın qarnından çıxardığını buyurmuşdur:

فَاستَجبنَا لَه ونَجينَاه من الْغَم وكَذَلِك نُنجِي الْمؤْمنين

(əl-Ənbiya, 21/88 )

«Biz onun (Yunisin) duasını qəbul buyurduq və (balığın qarnından çıxartmaqla) onu qəmdən qurtardıq. Biz möminlərə belə nicat veririk!»

Hz. Yunis (s.a.s) ilahi vəhy almışdır:

إِنا أَوحينَا إِلَيك كَما أَوحينَا إِلَى نُوحٍ والنَّبِيين من بعده وأَوحينَا إِلَى إِبراهيم وإِسماعيلَ وإِسحاقَ ويعقُوب والأَسباط وعيسى وأَيوب ويونُس وهارون وسلَيمان وآتَينَا داوود زبوراً

(ən-Nisa, 4/163)

«(Ey Rəsulum!) Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına, İsaya, Əyyuba, Yunisə, Haruna və Süleymana da vəhy göndərdik. Biz Davuda da Zəburu verdik».

Qurana görə, hz. Yunis (s.a.s) yüksək fəzilətlər verilən bir peyğəmbərdir:

وَإِسْمَاعِيلَ وَالْيَسَعَ وَيُونُسَ وَلُوطًا وَكُلًّا فَضَّلْنَا عَلَى الْعَالَمِينَ

(əl-Ənam, 6/86 )

«Biz, həmçinin, İsmaili, Əlyəsəyi, Yunisi və Lutu da (hidayətə qovuşdurduq) və onları aləmlərdən (özləri ilə bir dövrdə yaşayan bütün insanlardan) üstün tutduq».

Hz. Yunisə (s.a.s) peyğəmbərlik veriləndə otuz yaşında idi,[493] o, otuz üç il xalqını uca Allaha (c.c) iman və ibadətə dəvət etdi, ancaq ona üç nəfər iman etdi.[494] Hz. Yunis (s.a.s) qövmü ona inanmadığı üçün onları tərk etdi. O, qövmünün həlak olacağını düşünürdü. Qövmü isə peşman oldu, tövbə etdi. Uca Allah (c.c) onlara rəhm etdi və bağışladı, onların üzərinə çökən əzabı qaldırdı. Ancaq hz. Yunis (s.a.s) onların yanına qayıtmadı.[495]

Hz. Yunis (s.a.s) bir gəmiyə mindi, ondan pul almadılar, ancaq gəmi sağa-sola əyilməyə başladı, nə irəliyə, nə də geriyə hərəkət edə bildi. Dənizdə şiddətli fırtına var idi. Gəmidəkilər dedilər ki, bu fəlakət gəmidə olan bir şəxsin günahına görə baş verir. Yəqin gəmidə ağasının yanından qaçmış bir kölə var. Hz. Yunis (s.a.s) başa düşdü ki, günahkar odur. O, gəmidə olanlara buyurdu ki, siz gəmidə olan günahkarı dənizə atmayınca gəmi hərəkət etməyəcək. O günahkar qul mənəm, siz məni dənizə atın. Ancaq gəmidə

---

[493] Salebi, «Arais», s. 408.
[494] İbn Esir, «Kamil», c. I, s. 360.
[495] Taberi, «Tarih», c. II, s. 44.

olanlar Onu dənizə atmaqdan çəkindilər. Uca Allahın (c.c) Peyğəmbərini dənizə atmağın doğru olmadığını söylədilər. Hz. Yunis (s.a.s) püşk atmağı təklif etdi. Püşkdən onun adı çıxdı. Ancaq yenə onu dənizə atmaqdan imtina etdilər. Püşk atmaq üç dəfə təkrar olundu, ancaq eyni nəticə alındı. Hz. Yunis (s.a.s) gecə özünü dənizə atdı. Uca Allahın (c.c) əmri ilə balıq Onu uddu. Balıq Onu dənizin dibinə apardı. O, burada bir səs eşitdi. Uca Allah (c.c) bu səsin dəniz heyvanlarının təsbih səsləri olduğunu buyurdu. O, tövbə etdi.[496]

Rəvayətə görə, hz. Yunis (s.a.s) balığın qarnında üç gün[497], yeddi gün, ya da qırx gün[498] qalmışdır.

Uca Allahın (c.c) əmri ilə balıq onu sahilə çıxardı. O, öz qövmünün yanına qayıtdı, onlar hz. Yunisə (s.a.s) iman etdilər.

Burada bir məsələyə də toxunaq ki, Yunis surəsinin doxsan səkkizinci ayəsinin şərhi ilə bağlı fərqli görüşlər var. Bu ayəni bir də oxuyaq və şərhlərinə baxaq:

فَلَولاَ كَانَتْ قَريةٌ آمنَتْ فَنَفَعها إِيمانُها إِلا قَوم يونُس لَما آمنُواْ كَشَفْنَا عنْهم عذَاب الخزيِ في الْحياةَ الدنْيا ومتعنَاهم إِلَى حينٍ

(Yunus, 10/98)

«Əzab gəlməkdə ikən Yunisin ümmətindən başqa iman gətirib imanı özlərinə fayda verə bilən bir məmləkət əhli varmı?! (Yunisin ümməti) iman gətirən zaman onları dünyadakı rüsvayçılıq əzabından qurtardıq və onlara bir müddət (ömürlərinin axırınadək) gün-güzəran verdik».

İndi şərhləri oxuyaq: Tanınmış təfsir alimi **Katadə** yazır: «Hz. Yunisin (s.a.s) qövmündən başqa kafir olduqları

---

[496] Hz. Yunislə (s.a.s) bağlı verilmiş məlumatlar üçün baxın: İbn Kuteybe, «Maarif»; Taberi, «Tarih», c. II; İbn Esir, «Kamil», c. I; Ənbiya, 21/87.
[497] İbn Esir, «Kamil», c. I, s. 362.
[498] Taberi, «Tefsir», c. XVII, s. 79.

halda, əzabın gəldiyini görərək tövbə etmiş və bağışlanmış başqa bir qövm yoxdur. Onlar peyğəmbərlərini aramışlar, ancaq Onu tapa bilməyəndə əzabın yaxın olduğunu duymuşlar və bundan sonra iman etmişlər».[499]

Böyük alim **Əllamə Alusi** bu ayənin təfsiri ilə bağlı yazır: «Hz. Yunis (s.a.s) Mosul bölgəsində yaşayan Nənva (Ninova) xalqına göndərilmişdir. Bu xalq müşrik idi. Hz. Yunis (s.a.s) onlara tək olan uca Allaha (c.c) itaət etmələrini təbliğ etdi. Ancaq onlar Onu yalançı adlandırdılar. Buna cavab olaraq hz. Yunis (s.a.s) onlara dedi ki, üç gündən sonra sizə əzab gələcək. O, özü üç gün tamam olmadan gecə yarısı şəhəri tərk etdi. Əzab vaxtı yaxınlaşdı, xalq bu fəlakətin mütləq baş verəcəyinə inandı, həyəcanlandı, hz. Yunisi (s.a.s) axtarmağa başladı. Ancaq onu tapa bilmədilər. Ailə üzvlərini, heyvanlarını götürərək şəhəri tərk etdilər. Onlar uca Allaha (c.c) tövbə etdilər, Ona imanla bağlandılar. Uca Allah (c.c) onlara rəhm etdi və bağışladı. Sonra hz. Yunis (s.a.s) dedi ki, «şübhəsiz mən zalımlardan oldum, yəni mən bir xəta etdim, peyğəmbərlik vəzifəsinin əksinə olaraq, buyuruq gəlməzdən öncə hicrət etdim. O, uca Allaha (c.c) dua etdi, yalvardı, yanlış hərəkətlərini boynuna aldı, tövbə qapısını açdı. Uca Allah (c.c) da onu bağışladı, müsibətdən qurtardı».[500]

Bu ayəni təfsir alimi **Mövlana Şəbbir Ahmet Osmani** belə açıqlamışdır: «Hz. Yunis (s.a.s) qövmünə qəzəbləndi, onlara üç gün sonra əzab gələcəyini xəbər verdi və onları tərk etdi. Sonra «şübhəsiz, mən zalımlardan oldum», dedi və səhvini boynuna aldı. Yəni tələsdiyini, uca Allahın (c.c) əmrini gözləmədən qövmünü tərk etməyin yanlış olduğunu bildi».[501]

Böyük islam alimi **İmam Razi** yazır: «Hz. Yunisin (s.a.s) yanlış addımı uca Allahın (c.c) «səni yalançı sayan qövmü həlak edəcəyəm» şəklində olan buyruğunu əzabın mütləq gələcəyi şəklində yozması, səbir etməyərək qövmü-

---

[499] İbn Cərir, c. II, s. 433.
[500] «Ruhul-Məani», c.XVII, s. 78.
[501] «Tefhimul-Kuran», c. V, s. 45.

nü tərk etməsidir. Ancaq dəvət vəzifəsini yerinə yetirməsi Onun vəzifəsi idi. Uca Allahın (c.c) Onun qövmünü həlak etməsi isə bir ehtimal idi».[502]

**Əllamə Alusi** «dolu gəmiyə qaçdı» ayəsini təfsir edərkən yazır: «Abaka» kəlməsi bir kölənin sahibindən qaçması anlamındadır. Hz. Yunis (s.a.s), uca Allahın buyruğu olmadan qövmündən ayrıldığı üçün burada «abaka» kəlməsindən istifadə edilmişdir. Yəni hz. Yunis (s.a.s) uca Allah (c.c) icazə vermədən qövmünü tərk etmişdir».

Onun qövmü üç gün içində hz. Yunisi (s.a.s) tapa bilmədi, ailəsini, heyvanlarını götürüb, şəhərdən çıxdı, tövbə etdi, uca Allah (c.c) da onları bağışladı».[503]

Bu deyilənləri ümumiləşdirsək, uca Allahın (c.c) seçdiyi peyğəmbər hz. Yunisi (s.a.s) çətinliyə salmasının üç səbəbi olduğu ortaya çıxar: **Birincisi,** əzabın gələcəyi vaxtı özünün təyin etdiyini göstərməyə cəhd göstərməsidir. **İkincisi,** əzab vaxtı gəlməzdən öncə səbir etməyərək qövmünü tərk etməsidir. **Üçüncüsü,** uca Allah (c.c) Onun qövmünün üzərindən əzabı qaldırdıqdan sonra geri dönməməsidir.

## YÜZ ONUNCU ADDIM:
## DÜNYA ANALARININ RƏHMİNİ BAĞLAMIŞDI

رحم بر مادران دهر بسته
ز حیض دختران نعش رسته

***Dünya analarının (yəni Yerin) rəhmini bağlamış,***
***Nəş qızlarının (yəni Böyük Ayı bürcünün)***
***heyzindən qurtarmışdı.***[504]

Bu beytin mənasının, ideyasının anlaşılması üçün misraların mətninə yerləşdirilmiş sözlərin daşıdığı məna yükünü açmağa çalışaq. Şair beytin ikinci misrasında «nəş

[502] «Təfsiri-Kəbir», c. VII, s. 158.
[503] «Ruhul-Məani», c. XXIII, s. 130.
[504] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

qızları»ndan danışır. O, «nəş qızları» deyərkən Böyük Ayı bürcünü nəzərdə tutmuşdur. Böyük Ayı bürcü deyilərkən ulduzlar sistemi nəzərdə tutulur. Bu ulduzları xətlə bir-birinə birləşdirəndə ayı şəkli alınır. Yayın ortasında gecə səhərə yaxın şimal-qərb yarımkürəsində Böyük Ayı bürcünə daxil olan ulduzlar aydın görünür. Bu sistemə yeddi ulduz daxildir. Bu ulduzlar yolçulara gecə yol göstərir. Ayı bürcünə daxil olan ulduzlar qütbə yaxın olan bir məkanda yerləşir və onların bir qismi parlaqdır.

Şair Ayı bürcünə daxil olan ulduzları «nəş qızları» adlandırır. Bunun bir sıra səbəbləri var. Bu həm Ayı bürcündə olan ulduzların gözəlliyi, parlaqlığı ilə bağlıdır, həm də bu ulduzların Yer planetinə təsiri ilə bağlıdır. Belə ki, Ayı bürcünə daxil olan ulduzlar Yer planetinə mənfi təsir göstərir, müxtəlif fəsadlar yaradır. Qız, qızlıq dövrü də təhlükəli mərhələdir. Yəni qızlıq dövründə təhlükəli hadisələrin baş vermə ehtimalı böyük olduğu kimi, Ayı bürcünə daxil olan ulduzlarını da Yer planetinə mənfi təsir göstərmək ehtimalı böyükdür.

Şair ulduzların bu təhlükəsini ifadə etmək üçün ikinci misrada «heyz» sözündən istifadə etmişdir. «Heyz» ərgənlik yaşına çatmış, fizioloji qüsuru olmayan bir qadının bəlli bir yaşadək yaşadığı aybaşı halıdır.

Qurani-Kərimin üç ayəsində «heyz» sözündən istifadə edilmişdir.[505]

Qadınlar heyz halında olarkən namaz qılmaz, oruc tutmaz, Kəbəni təvaf edə bilməzlər. Bu dövrdə qılmadıqları namazlar qəza edilməz, tutmadığı oruc günlərinin sayı qədər sonra oruc tutarlar.

Beytdə «heyz» sözü Böyük Ayı bürcünün təhlükəsini, yaratdığı çətinlikləri ifadə etmək üçün istifadə edilmişdir.

Şair bu beytdə islam Peyğəmbərinin xilaskarlıq vəzifəsini önə çəkmişdir. Şairə görə, O, elə bir güc sahibidir ki,

---

[505] «əl-Bəqərə», 2/22; «Talaq», 65/1; «Talaq», 65/4.

merac gecəsi Yer planetini, orada yaşayan insanları Böyük Ayı bürcünə daxil olan ulduzların təhlükəsindən qorumuşdur. Şair islam Peyğəmbərinin xilaskarlıq missiyasını təqdim etmək üçün başqa bir vasitədən də yararlanmışdır. O deyir ki, hz. Məhəmməd (s.a.s) merac gecəsi Yerin rəhmini (ana bətnini) bağlamışdır. Burada da «heyz» halı ilə bağlılıq var. Belə ki, «heyz» halında qadınların bətnindən çirkli qan axır. «Heyz» halında qadına toxunmaq olmaz, onun bətninə sperma daxil olmamalıdır. Əgər olsa, bu ciddi tibbi xəstəliklər yarada bilər. O, Yerin rəhmini bağladı, yəni Onun təhlükəsizliyini təmin etdi, onu yad təsirlərdən qorudu.

Şair Yer kürəsini «dünyanın anası» adlandırmışdır. Çünki insanın yaşaması bu anaya – Yer kürəsinə bağlıdır. Uca Allah (c.c) Yer planetində insanın yaşaması üçün zəruri olan bütün şərtləri hazırlamışdır. Onun havası, suyu, iqlimi, bitirdiyi hər şey insana xidmət edir. Yer kürəsi insanı qoruyur, onu bəsləyir, onun yaşamasını təmin edir. Ananın rəhmi də qoruyucudur, o, körpəni bəsləyən, təhlükələrdən qoruyan məkandır.

## YÜZ ON BİRİNCİ ADDIM: ONUN ALTINDA NƏSRİ-TAİR QANAD TÖKÜRDÜ

به زيرش نسر طاير پر فشانده
وزو چون نسر واقع باز مانده

***Onun altında Nəsri-Tair qanad tökürdü,***
***Ondan Nəsri-Vaqe kimi geri qalırdı.***[506]

Hz. Nizami bu beytdə merac gecəsində islam Peyğəmbərinin yüksəliş sürətini ifadə etmişdir. Şair bu məqsədlə bir sıra vasitələrdən yararlanmışdır. Öncə Nəsri-Tair və Nəsri-Vaqe ulduzlarının adları beytin mətninə yerləşdirilmişdir. Nəsr adlı iki ulduz var: Nəsri-Tair, Nəsri-Vaqe. Nəsri-Tair on doq-

[506] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

quz şimal ulduzunun onuncusudur, Nəsri-Vaqe isə doqquzuncusudur. Sırasına görə, Nəsri-Vaqe, Nəsri-Tairdən sonrakı yeri tutur, yəni ondan geri qalır. Şair deyir ki, merac gecəsi islam Peyğəmbəri elə iti sürətlə «uçurdu» ki, Nəsri-Tair ona çata bilmirdi. Şair Peyğəmbərin iti sürətini, «uçuşunu», ona çatmağın mümkün olmadığını ifadə etmək üçün adı çəkilən ulduzların düzülüş sırasından istifadə etmişdir. Belə ki, ilahi nizama görə, Nəsri-Tair şimal ulduzlarının onuncusu, Nəsri-Vaqe isə doqquzuncusudur. Bu sıranı pozmaq mümkün deyil. Şair də beytdə merac gecəsi islam Peyğəmbərinin «uçuşuna», sürətinə çatmağın mümkünsüzlüyü anlayışını ifadə etmək üçün iki ulduzun ilahi iradı ilə müəyyənləşdirilmiş düzülüş sırasından istifadə etmişdir.

Beytin misralarına yerləşdirilmiş başqa bir ideya da uca Allahın (c.c) islam Peyğəmbərinə olan sevgisidir. Nizaminin şərhində islam Peyğəmbəri uca Allaha (c.c) aşiqdir, O, merac gecəsi sevgilisinə, uca Allaha (c.c) can atır. Beytin məzmunundakı hərəkət anlayışını yaradan vasitələr (Nəsri-Tair, Nəsri-Vaqe, «geri qalmaq», «qanad tökmək», müqayisə məzmunu) Peyğəmbərin uca Allaha (c.c) olan sevgisini, Ona qovuşmaq istəyini, ehtiyacını ifadə edir. **Şairin yozumunda sonsuz sevginin göstəricilərindən biri də hərəkətdir. Sevən sevənə doğru can atar, yüyürər, özünü unudaraq, var gücü ilə uçaraq, qanad açaraq, ağırlığını duymadan (quş kimi), ağrıları, çətinlikləri hiss etmədən qaçar, Ona doğru «axar».** Hərəkət sevginin əlamətidir, ancaq burada hərəkət yalnız yerimək, yüyürmək anlamında deyil, həm də Sevgili uğrunda, Onun rizasını qazanmaq üçün görülən gözəl işləri də ehtiva edir. Burada hərəkət həm də sevginin başqa bir ölçüsü olan itaəti ifadə edir. Sevən sevdiyinə itaət edər. Beytdə hərəkət, eləcə də sevginin başqa bir ölçüsü olan cazibəni, cəzb etməni təqdim edir. Merac gecəsi islam Peyğəmbəri güclü bir cazibə qüvvəsi ilə hərəkət edir.

Hz. Nizaminin bu beytdə merac gecəsi islam Peyğəmbərinin «uçuşunu» ifadə etmək üçün istifadə etdiyi ifadələrdən biri də «qanad tökmək»dir. Şair deyir ki, «Nəsri-Tair onun altında qanad tökürdü». Burada «qanad tökmək» ifadəsi «ayaqlaşa bilməmək», «çata bilməmək», «qanadı qırılmaq», «yorulub əldən düşmək», «uçmaq imkanı zəifləmək» və bu kimi başqa mənaları ifadə edir. Şair islam Peyğəmbərinin «uçuşunu», iti sürətini göstərmək üçün Nəsri-Tair ulduzunu bir quşa bənzətmişdir. Bu «quş» var gücü ilə uçsa da, Ona çata bilmir.

Şair bu beytdə başqa bir mənanı da ifadə etmişdir. Uca Allahın (c.c) islam Peyğəmbərinə fərqli münasibəti var. O, merac gecəsi böyük bir cazibə qüvvəsi ilə uca göylərə çəkilir. Bu merac gecəsi heç bir işıqlı planet Onun kimi nurlu deyil, heç bir varlığın hərəkəti onun sürəti ilə müqayisə olunmaz.

## YÜZ ON İKİNCİ ADDIM:
## ÖZ GÖZÜNƏ «MA ZAĞ» MÖHRÜ VURMUŞDU

ز رنگ‌آمیزی ریحان آن باغ
نهاده چشم خود را مهر مازاغ

***O bağın (behiştin) güllərinin rəngarəngliyinə (qarşı)***
***Öz gözünə «Ma zağ» (meyil etməmək)***
***möhrü vurmuşdu.***[507]

Hz. Nizami bu beytdə mübarək islam Peyğəmbərinin (s.a.s) uca Allaha (c.c) olan sarsılmaz, təmiz, xalis, arı və duru, bütün tərəddüd və şübhələrdən qurtulmuş imanını təqdim etmişdir. Şair Onun böyük imanını, heç bir şeyin, heç bir qiymətli nemətin bu böyük Peyğəmbər imanına təsir edə

---

[507] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

bilməyəcəyini, bunun mümkünsüzlüyü ideyasını şərh etmək üçün nemətlərin ən gözəli olan cənnət bağını təsvir etmişdir. Bu əbədi rahatlıq, dinclik məkanı – «rəhmət evi» al-əlvan, gözəl, ətirli güllərlə doludur, hər çiçək öz gözəlliyini göstərir, insana gəl-gəl deyir, onların ətri insanın ağlını başından alır. Ancaq o şanlı Peyğəmbər (s.a.s) uca Allaha (c.c) aşiqdir, bütün varlığı Onun sevgisi ilə alışıb-yanır, gözləri başqa bir varlıq görmür, O, uca Allahdan (c.c) başqa hər şeyi unutmuşdur.

Şair beytdə «güllərin rəngarəngliyinə qarşı gözlərini bağlamışdır» deyir. Burada göz anlayışını önə çəkmək təsadüfi deyil. Göz insanı harama çəkən orqanlar içərisində önəmli yer tutur, göz görür, gördüyünü «unutmur», insanı bir şeyə baxmamağa məcbur etmək çox çətindir, gözün hərəkətinə nəzarət etmək demək olar ki, mümkün deyil. Gözü harama baxmaqdan məhrum etmək, dünya nemətlərini bir heç sayaraq ona baxmamaq, gözlə ancaq uca Allahın (c.c) razı olduğu nemətləri görmək bir ərdəmdir, bir sarsılmaz iman göstəricisidir. Peyğəmbər imanını göz anlayışının imkanları ilə ifadə etmək də böyük şairin iman, istedad və ağlının gücüdür.

Şairin beytdə islam Peyğəmbərinin (s.a.s) sarsılmaz imanını göz anlayışı ilə ifadə etməsinin bir səbəbi də aşiqliklə bağlıdır. Gözün bir şeyə çox baxması daxili istək, ehtiyac, meyil, heyranlıqla bağlıdır. «Göz qoymaq», «göz yetirmək», «gözə gəlmək», «gözü üstündə olmaq», «gözü tutmaq», «gözü görüb könlü sevmək» və başqa bu kimi frazeoloji vahidlər də istəklə bağlıdır. Aşiqlər də gözündən tanınar. Aşiqin gözləri ancaq sevdiyini görər, aşiqin gözləri ağlar, aşiq sevgilidən başqa varlıqları görməz.

Hz. Nizami beytdə islam Peyğəmbərinin sarsılmaz imanını ifadə etmək üçün «möhür» sözünü də mətnə daxil etmişdir. «Möhür» qəti qərarı, iradəni, yekunu bildirir.

«Möhür» bir işin doğruluğunu təsdiq edir. Bədii mətndə «möhür» sözü yəqinlik, əminlik, doğruluq mənalarını ehtiva edir. Ancaq şair beytdə islam Peyğəmbərinin aşiqliyini, sevdasını təkcə «möhür» sözü ilə ifadə etməklə qalmır, O, bu uca Allah (c.c) sevgisinin, Peyğəmbər imanının Quran ayəsi ilə təsbit olunduğunu da bildirir. Şair bu məqsədlə Quran ayəsini bədii mətnə daxil edir:

ما كَذَبَ الْفُؤَاد ما رأَى . أَفَتُمارونَه علَى ما يرى . ولَقَد رآه نَزلَةً أُخْرى

. عند سدرة الْمنْتَهى . عندها جنةُ الْمأْوى . إِذْ يغْشَى السدرةَ ما يغْشَى .

ما زاغَ الْبصر وما طَغَى . لَقَد رأَى من آيات ربه الْكُبرى

(ən-Nəcm, 53/11-18)

«Siz onunla gördüyü barəsində mübahisə edirsiniz? And olsun ki, başqa bir dəfə də görmüşdü. Sidrətül-müntəhanın yanında. Məva cənnəti onun yanındadır. O zaman Sidrəni nələr bürümüşdü, nələr! Göz nə (sağa-sola) yayındı, nə də uzağa getdi (hər şeyi olduğu kimi gördü). And olsun ki, öz Rəbbinin ən böyük qüdrət nişanələrindən bir qismini gördü».

**Şair bu ayələrdən «Göz nə (sağa-sola) yayındı, nə də uzağa getdi» ayəsini ayrıca vurğulamışdır. Bununla bağlı Onun yozumu belədir: «Göz nə (sağa-sola) yayındı, nə də uzağa getdi», yəni merac gecəsi gördükləri Peyğəmbərin inancında bir dəyişiklik etmədi. Öncə necə inanırdısa, görəndən sonra da elə inandı. Onda iman yəqinliyi öncədən var idi. Şairin başqa bir yozumu da budur ki, islam Peyğəmbərinin uca Allah (c.c) sevgisi, aşiqliyi, hər şeyə uca Yaradanın ölçüsü ilə baxdığı bir şəxsin rəyi deyil, uca Allahın (c.c) təsbit etdiyi, ayələşdirdiyi, ölçüyə, buyuruğa çevirdiyi hökmdür.** Onun belə olduğunu uca Allah (c.c) buyuraraq möhürləmişdir. Ona görə də şair deyir ki,

islam Peyğəmbəri cənnətin ətirli, gözəl güllərinə belə, baxmamaq üçün gözlərinə «Ma zağ» möhürü vurmuşdu.

Hz. Nizami bu beytdə həm də merac gecəsinin bir heyranlıq vaxtı, uca Allahın (c.c) yaratdığı gözəlliklərin Peyğəmbərə göstərilmə zamanı olduğunu ifadə etmişdir.

## YÜZ ON ÜÇÜNCÜ ADDIM:
## SÜRƏYYA ÇİYNİNƏ HƏMAYİL SALMIŞDI

ثریا در رکابش مانده مدهوش
به سرهنگی حمایل بسته بر دوش

***Sürəyya onun rikabında heyran qalmış,***
***Sərhənglik etmək üçün çiyninə həmayil salmışdı.***[508]

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinin göylərə yüksəlişinin əzəmətini şərh etmişdir. Şair bu məqsədlə Sürəyya ulduzunun adını beytin mətninə yerləşdirmişdir. Bu ad beytin ideyasının açılmasına yardım edir. Sürəyya, Ay planetinin üçüncü mənzilidir. Altı kiçik ulduzdan ibarətdir. Bu ulduzlar bir yerdə salxıma bənzəyir. Bu ulduzun bir adı da Ülkərdir. Başlıca özəlliyi budur ki, çox parlaqdır. Bu ulduz işığı, gözəlliyi ilə başqalarından seçilir.

Şair beytin birinci misrasında deyir ki, Sürəyya ulduzu islam Peyğəmbərinin rikabında heyran qalmışdır. «Rikab» ərəb dilində təntənəli, əzəmətli, təmtəraqlı, qeyri-adi səfər, hərəkət, gediş mənasındadır. Şair deyir ki, merac gecəsi islam Peyğəmbərinin göylərə yüksəlişi elə gözəl, əzəmətli idi ki, parlaq Sürəyya ulduzu belə Ona heyran oldu, Ona olan sevgisini, aşiqliyini bildirmək üçün yollar axtardı. **Sürəyya ulduzu Peyğəmbər sevgisini, Ona olan aşiqliyini, heyranlığını göstərmək üçün gözəl bir yol seçir. Öncə Peyğəm-**

---

[508] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

**bər karvanına qoşulur, onun yanında olmağa qərar verir. Ancaq bununla da o kifayətlənmir, ən gözəl «paltarını» geyinir, nurunu artırır, çiyninə həmayil salıb Peyğəmbərin karvanına yol göstərir. Şair Sürəyya ulduzunun yol göstərmək imkanından – parlaqlığından istifadə edərək onun adını beytin mətninə daxil etmişdir.**

## YÜZ ON DÖRDÜNCÜ ADDIM:
## SƏHRADAN SƏHRAYA ATINI SÜRDÜ

چو بیرون رفت از آن میدان خضرا
رکاب افشاند از صحرا به صحرا

***Bu yaşıl dəhlizdən bayıra çıxan kimi,***
***Səhradan – səhraya atını sürdü.***[509]

Şair bu beytdə öncəki misralarda irəli sürdüyü ideyanı inkişaf etdirmişdir. O, bu beytdə də hər şeydən öncə islam Peyğəmbərinin «uçuşunu», sürətini təsvir etmişdir. Şair sürətin getdikcə artdığını ifadə etmək üçün sonsuz bir məkan təqdim edir. Artıq Peyğəmbər yaşıl dəhlizdən – cənnətin giriş yolundan geniş bir məkana daxil olmuşdur. O, bu geniş məkanda özünü çox rahat hiss edir, atının başını buraxmışdır.

## YÜZ ON BEŞİNCİ ADDIM:
## ONLAR AXSAYIRDILAR

بود باراهواریش همه لنگ
با چنین پی فراخیش همه تنگ

***Onların hamısı onun yerişinin qarşısında axsayırdılar,***
***Onun geniş addımlarının qabağında sıxılmışdılar.***[510]

---

[509] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.
[510] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.

Hz. Nizami bu beytdə islam Peyğəmbərinin merac gecəsi uca Allahın (c.c) bərəkəti ilə ildırım sürəti ilə göylərə ucaldığını, bu uçuşda heç bir varlığın Onunla ayaqlaşa bilmədiyini təsvir etmişdir. Şair öncəki beytlərdə xəyal, şimşək, ruh, ağıl kimi varlıqların adını çəkmişdir. Bu varlıqların sürətini ölçmək mümkün deyil. Şair deyir: «Xəyal onun səyirməyini görə bilərmi?», «Şimşək onun qabağında qılıncını sıyıra bilərdimi?», «Ruhun hərəkəti comərdlikdə ona çata bilərdimi?», «Ağılın sürəti dünyanı dolaşmaqda ona çata bilərdimi?» Xəyal, şimşək, ruh, ağıl Onun yerişinin qarşısında axsayırdı, geri qalırdı, ona çata bilmirdi. Onlar Peyğəmbərin addımlarının qabağında sıxılmışdı. Burada sıxılmaq, utanmaq, öz zəifliyini hiss etmək mənasındadır. Şair öncəki beytlərdə olduğu kimi, bu beytdə də sürətlə sevgi arasında əlaqə yaratmışdır. Yəni merac gecəsi islam Peyğəmbərinin «uçuşu» Onun uca Allaha (c.c) olan sevgisi ilə bağlıdır. Bu böyük sevgi Onu uca göylərə çəkir, Ona güc verir.

Hz. Nizami xəyal, ildırım, ruh, ağıl kimi varlıqların sürətinin islam Peyğəmbərinin «uçuş sürəti» ilə müqayisə oluna bilməyəcəyini ifadə etmək üçün iki vasitədən istifadə etmişdir. Beytdəki «axsamaq» və «sıxılmaq» felləri bu mənanın təqdimi üçün seçilmiş sözlərdir.

## YÜZ ON ALTINCI ADDIM: O, QÜTB SEYRİNİ KEÇDİ

با تکش سیر قطب خالی شد
گر جنوبی و گر شمالی شد

***O, səyirərək qütbün seyrini keçdi,***
***Cənub ilə şimal (qütbləri) geridə qaldı.***[511]

Şair bu beytdə də merac gecəsi islam Peyğəmbərinin «uçuşunu» təsvir etmişdir. Birinci misrada sürət anlayışını

[511] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.

«səyirmək» və «qütb seyrini keçmək» söz və ifadəsi «öz üzərinə götürmüşdür». «Səyirmək» iti sürətlə hərəkət etməkdir və miniklə olan hərəkəti ifadə edir. «Qütbün seyrini keçmək» də cənub və şimal qütblərini görmək, onlardan daha yüksəyə ucalmaq deməkdir. Əslində, qütblərin görünməsi uca bir nöqtədən mümkün olduğu üçün şair «seyr etmək» ifadəsi ilə də ucalığı, yüksəlişi ifadə etmişdir.

## YÜZ ON YEDDİNCİ ADDIM: GAH RAMİH GÖRÜNDÜ, GAH DA ƏZƏL

در مسیرش سماک آن جدول
گاه رامح نمود و گاه اعزل

***Onun yolunda göy cədvəlindəki Semak,***
***Gah Ramih göründü, gah da Əzəl.***[512]

Hz. Nizami bu beytdə islam Peyğəmbərinin merac gecəsi qət etdiyi məsafəni, «uçuşu» ifadə etmək üçün ulduz adlarını beytin mətninə daxil etmişdir. Semak bir ulduz adıdır. Semak ikidir. Onlardan biri Semaki-Ramihdir. Bu ulduz çox parlaqdır. Ərəblər bu ulduza Semaki-Ramih, Harisi-Şimali, Haris-əs Səma adlarını veriblər. Müasir astronomiyada ona Arktur deyirlər. Semak ulduzunun ikincisi isə Semaki-Əzəldir. Bu, Sünbül bürcünün alfa-ulduzudur. Ərəblər ona Semaki-Əzəl, Əzra, Sünbülə adlarını veriblər. Müasir astronomiyada bu ulduza Spika deyirlər. Semaki-Əzəl də Sünbülə bürcünün ən parlaq ulduzudur.

Şair bu beytdə parlaq ulduz adlarını beytin mətninə daxil etməklə merac gecəsi islam Peyğəmbərinin «uçuşunu», qət etdiyi məsafəni ifadə etmişdir.

---

[512] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.

## YÜZ ON SƏKKİZİNCİ ADDIM: O, BU YOLUN KİTABININ VƏRƏQLƏRİNİ YAZIB QURTARDI

چون محمد به رقص پای براق
در نبشت این صحیفه را اوراق

***Məhəmməd Buraqın ayaqlarının rəqsi ilə,***
***Bu (yolun) kitabının vərəqlərini yazıb qurtardı.***[513]

Hz. Nizami bu beytdə merac gecəsinin gözəlliklərini bədii bir üslubla ifadə etmişdir. Şair öncə merac gecəsi islam Peyğəmbərini göylərə ucaldan Buraqın hərəkətini rəqsə bənzətmişdir. Beytdə «rəqs etmək» sevinci, şövqü, sevgi və istəyi ifadə edir. Buraq gözəl, sürətlə, çaşmadan, yolu tanıyaraq, üzərindəki insanın kim olduğunu bilərək, bu mübarək elçinin uca Allahın (c.c) dəvətçisi olduğunu «anlayaraq» böyük bir şövqlə «rəqs edir». Buraq bu halından çox məmnundur. O, Peyğəmbər sevgisini «rəqsi» ilə ifadə edir. İnsanın bir işə olan marağı, sevgisi, ya da istəksizliyi onun hərəkətindən də bilinir. Əgər işə sevgi varsa, hərəkətlər də bu istəyə uyğunlaşır.

Şair beytin ikinci misrasında da gözəl bənzətmələrdən istifadə etmişdir. O, uca göyləri bir kitaba bənzətmiş, bu göyün təbəqələrini kitabın vərəqləri kimi vərəqləmişdir. Yəni hər təbəqənin – vərəqin sirrini, elmini öyrənmişdir. Burada göyün təbəqələrinin – yolun kitabın vərəqlərinə bənzədilməsi də öyrənmə, bilmə, görmə hadisəsi ilə bağlıdır. Çünki merac bütövlükdə öyrənmə, görmə hadisəsidir. Şairin getmək, məsafələri qət etmək anlayışını «yazıb qurtarmaq» ifadəsi ilə təqdim etməsinin səbəbi də merac gecəsi gerçəkləşdirilmiş öyrənmə hadisəsi ilə bağlıdır. Şairə gö-

---

[513] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22.

rə, hz. Məhəmməd (s.a.s) merac gecəsi kainatın kitabını oxumuşdur, uca Allah (c.c) bu mübarək gecədə Ona böyük bir nemət – elm vermişdir.

## YÜZ ON DOQQUZUNCU ADDIM: YEDDİ SULTANIN QƏSRİNDƏN PƏRDƏ ASILMIŞDI

سراپرده هفت سلطان سریر
برآموده گوهر به چینی حریر

***Yeddi sultanın qəsrindən asılmış pərdə,***
***Üstü gövhərlərlə bəzədilmiş çin ipəyindən idi.***[514]

Şair bu beyti təqdim etməzdən öncə gözəl bir mənzərə yaratmışdır. Göylər, göy cismləri mübarək Peyğəmbərin gəlişindən xəbərdardır, hər biri Onu qarşılamağa, Onu görməyə hazırlaşır. Hər bir göy cismi ən gözəl «donunu» geyinmişdir, «göylərdə məclis qurulmuşdur», «bu mübarək gecə elə parlaqdır ki, gündüzlük iddiası edir».

Şair deyir ki, yeddi sultanın qəsrindən pərdə asılmışdır. **Şair bu beytdə islam Peyğəmbərini göylərin sultanı kimi təqdim etmişdir. Göylər bir gözəl, nəhəng qəsrdir. Bu qəsr öz sultanını – hz. Məhəmmədi (s.a.s) gözləyir. Şair beytdə «yeddi sultan» deyərkən yeddi qat göyü nəzərdə tutmuşdur. Bu yeddi sultanın qəsri - göy üzü mübarək Peyğəmbərin gəlişinə hazırlaşır. Səma cismlərinin hər biri öz gözəlliyini göstərir, par-par yanaraq Peyğəmbərin yoluna işıq saçır.** Bu qəsrdən gözəl, böyük bir pərdə asılmışdır. Bu pərdə Çin ipəyindən hazırlanmışdır və üstü gövhərlərlə bəzədilmişdir. Şair göylərin Peyğəmbər sevgisini

---

[514] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

«yeddi sultanın qəsri», «pərdə», «üstü gövhərlə bəzədilmiş Çin ipəyi» söz və ifadələri ilə təqdim etmişdir. Bir insan sevdiyi bir insanı qarşılamaq üçün ən gözəl «donunu» geyinmişdir. **Göy bir pərdədir, onun üzərindəki gövhərlər də işıq saçan (bu yolla öz sevgisini ifadə edən) ulduzlardır. Merac gecəsi göy üzü bütün ulduzları işıq saçan bir sevgi məkanıdır. Sevginin əlaməti də sonsuzluq və nurdur. Göylərin bu sevgi nuru ilə gecənin qaranlığı yox olmuşdur və merac gecəsi gündüz olduğunu iddia edir. Gerçəkdən, sevgi bir nurdur və bütün qaranlıqları yox edər.**

## YÜZ İYİRMİNCİ ADDIM: CƏNNƏT BAĞININ YAŞIL DON GEYƏNLƏRİNİN BAŞÇISI

سرسبزپوشان باغ بهشت
به سرسبزی آراسته کار و کشت

*Behişt bağının yaşıl don geyənlərinin başçısı,*
*Bütün çəmənlikləri yaşıllıqla bəzəmişdi.*[515]

Hz. Nizami bu beytdə də uca göylərin Peyğəmbər sevgisini ifadə etmişdir. Şair öncə cənnət bağını yada salmışdır. Bu gözəl məkanın, dinclik yurdunun, rəhmət evinin insan ruhuna verdiyi rahatlıq, Onun vicdanında oyatdığı əminlik duyğusu merac gecəsinin bərəkəti ilə daha da artmışdır. Bu bağın gülləri çiçək açaraq ətrafa sevgi ətri yayır, hər tərəf yaşıllığa bürünmüşdür.

«Cənnət» sözü də sözlüklərdə «ağacı çox olan bağça», «yarpaqlı, qollu-budaqlı xurmalıq», «bağlıq» anlamına gəlir. İslam dininə bağlı termin olaraq da cənnət islamın iman əsaslarını qəbul edərək davranışlarını Qurani-Kərim

[515] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

və Peyğəmbərin sünnəsinə görə tənzim edən möminlər üçün axirətdə hazırlanan yer deməkdir. Qurana görə, cənnətin özəllikləri bunlardır:

**Cənnət həyatı əbədidir:**

يطَافُ عليهم بِصحاف من ذَهبٍ وَأَكْوابٍ وفيها ما تَشْتَهيه الْأَنفُسُ
وتَلَذ الْأعين وَأَنتُم فيها خَالِدون . وتلْك الْجنةُ التي أُورِثْتُمُوها بِما
كُنتُم تَعملُون . لَكُم فيها فَاكهةٌ كَثيرةٌ منْها تَأْكُلُون

(əz-Zuxruf, 43/71-73)

«(Cənnətdə) olanlar üçün qızıl teştlər və qədəhlər (yemək-içmək) dolandırılacaqdır. Orada onların ürəkləri istəyən və gözlərini oxşayan hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız. Bu sizin (dünyada) etdiyiniz (yaxşı) əməllər müqabilində varis olduğunuz Cənnətdir. Orada sizin üçün bir çox meyvələr vardır, onlardan yeyəcəksiniz».

**Cənnətin içindən çaylar axır:**

رسولاً يتْلو عليْكُم آيات الله مبينَات ليخْرِج الذين آمنُوا وعملُوا
الصالِحات من الظلُمات إِلى النور ومن يؤْمن بِالله ويعملْ صالِحاً يدخلْه
جنات تَجرِي من تَحتها الْأَنْهار خَالِدين فيها أَبداً قَد أَحسن الله لَه رِزقاً

(ət-Talaq, 65/11)

«İman edib yaxşı işlər görənləri zülmətdən nura (küfrdən imana) çıxartmaq üçün Allahın açıq-aşkar (halal-haramı bəyan edən) ayələrini sizə oxuyan bir Peyğəmbər göndərmişdir. Kim Allaha iman gətirib yaxşı işlər görsə, (Allah) onu (möminlərin) əbədi qalacaqları (ağacları) altından çaylar axan cənnətlərə daxil edər. Həqiqətən, Allah ona gözəl ruzi əta etmişdir».

Cənnətin gözəlliklərini ifadə edən başqa ayələr də var.[516]

---

[516] Talaq, 65/11; Fəth, 48/5; Hədid, 57/12; Mücadələ, 58/22.

**İnsanın ürəyi istəyən hər cür yemək və başqa nemətlər cənnətə girənlərə veriləcək:**

أُولَئِكَ لَهُمْ رِزْقٌ مَعْلُومٌ. فَوَاكِهُ وَهُمْ مُكْرَمُونَ . فِي جَنَّاتِ النَّعِيمِ . عَلَى سُرُرٍ مُتَقَابِلِينَ .يُطَافُ عَلَيْهِمْ بِكَأْسٍ مِنْ مَعِينٍ . بَيْضَاءَ لَذَّةٍ لِلشَّارِبِينَ .لَا فِيهَا غَوْلٌ وَلَا هُمْ عَنْهَا يُنْزَفُونَ

(Saffat, 37/41-47)

«Məhz onlar üçün məlum bir ruzi vardır. (Onlar üçün) növbənöv meyvələr vardır. Onlar hörmətə (şərəfə) nail olacaqlar. Nəim cənnətlərində. Onlar taxtlar üstündə bir-biri ilə üzbəüz əyləşəcəklər. Onlar üçün (cənnət saqiləri tərəfindən adamı kefləndirməyən, behiştdə çay kimi axan) məin (şərab) dolu piyalələr dolandırılacaqdır. Ağappaq, özü də içənlərə ləzzət verən (bir məin). Onun içində (dünyadakı şərabdan fərqli olaraq) ağılı başdan çıxaran (başağrısı, süstlük verən) heç bir şey yoxdur. Onlar ondan məst olmazlar».

**Cənnətdə çeşidli ağaclardan hər cür meyvələr ehsan edilir:**

وَأَمْدَدْنَاهُمْ بِفَاكِهَةٍ وَلَحْمٍ مِمَّا يَشْتَهُونَ

(ət-Tur, 52/22)

«Onları istədikləri meyvə və ətlə (bol-bol) təmin edəcəyik».

Qurana görə, möminlərin cənnət paltarları var.[517]

Qurana görə, cənnət hər cür rahatlığı olan bir məkandır:

وَعَدَ اللَّهُ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ وَرِضْوَانٌ مِنَ اللَّهِ أَكْبَرُ ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

(ət-Tövbə, 9/72)

---

[517] Kəhf, 18/30-31; Həcc, 22/23; Fatir, 35/33.

«Allah mömin kişilərə və qadınlara (ağacları) altından çaylar axan cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd buyurmuşdur. Onlar orada əbədi qalacaqlar. Allahın rizası isə (bunların hamısından) daha böyükdür. Bu, böyük qurtuluşdur!»

Qurani-Kərimdə bir sıra qavramlar cənnət mənasında işlədilmişdir:

**Darüs-Salam** – Salamatlıq, təhlükəsizlik yurdu:

والله يدعو إلى دارِ السلامِ ويهدي من يشاء إلى صراط مستقيمٍ

(Yunis, 10/25)

«Allah (bəndələrini) əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola yönəldir (qovuşdurur)».

**Darül-müqamə** – oturmaq yeri:

الذي أحلنا دار الْمقَامة من فَضله لا يمسنَا فيها نَصب ولا يمسنَا فيها لُغُوب

(Fatir, 35/35)

«Elə bir Rəbb ki, öz lütfü (kərəmi) ilə bizi (əbədi qalacağımız) iqamətgaha yerləşdirdi. Orada bizə nə bir yorğunluq üz verəcək, nə bir məşəqqət (əziyyət) toxunacaqdır!»

**Cənnətül-xüld** – əbədi cənnət:

قُلْ أذَلِك خَير أم جنةُ الْخُلْد التي وعد الْمتقُون كانَتْ لَهم جزاء ومصيراً

(Furqan, 25/15)

«(Ey Rəsulum!) Onlara de: «Bu (cəhənnəm odu) yaxşıdır, yoxsa Allahdan qorxub pis əməllərdən çəkinənlərə bir mükafat və sığınacaq olaraq vəd edilən xüld cənnəti».

**Cənnətü ədn** – Ədn cənnətləri:

ومن يأته مؤمناً قد عمل الصالحات فأولئك لهم الدرجاتُ العلى جناتُ
عدنٍ تجري من تحتها الأنهار خالدين فيها وذلك جزاء من تزكى

(Taha, 20/75-76)

«Kim (Rəbbinin hüzuruna) yaxşı əməllər etmiş bir mömin olaraq gələrsə, belələrini ən yüksək dərəcələr gözləyir. Əbədi qalacaqları, (ağacları) altından çaylar axan Ədn cənnətləri. Bu, (günahlardan) pak olanların (təmizlənənlərin) mükafatıdır».

**Cənnətün-nəim** – Nemət cənnətləri:

أولئك المقربون في جنات النعيم

(əl-Vaqiə, 56/11-12)

«Onlar (Allah dərgahına, Allahın lütfünə) yaxınlaşdırılmış kimsələrdir. Onlar Nəim cənnətlərində olacaqlar».

**Cənnətül-məva** – Cənnət qonaqları

أما الذين آمنوا وعملوا الصالحات فلهم جناتُ المأوى نزلاً بما
كانوا يعملون

(əs-Səcdə, 32/19)

«İman gətirib yaxşı işlər görənləri etdikləri əməllər müqabilində qonaq qalacaqları (sakin olacaqları) Məva cənnətləri gözləyir (Onlar orada Allahın əbədi qonaqları olacaqlar)».

**Cənnətül-firdövs** – Firdövs cənnətləri:

إن الذين آمنوا وعملوا الصالحات كانت لهم جناتُ الفردوس نزلاً

(əl-Kəhf, 18/107)

«İman gətirib yaxşı işlər görənlərin mənzili isə Firdövs cənnətləri olacaqdır!»

Hz. Nizami beytdə öncə uca Allahın (c.c) möminlər üçün hazırladığı cənnəti yada salır. Bu əbədi rəhmət evi çox

gözəldir. Ancaq merac gecəsi islam Peyğəmbəri uca göylərə yüksələrkən cənnəti görəcəyi də öncədən planlaşdırıldığından «yaşıl don geyinənlərin», yəni huri və qılmanların, cənnətin sakinlərinin başçısı Rizvan da ilahi buyruq almışdır. O, cənnəti mübarək Peyğəmbərin gəlişinə hazırlamışdır. **Cənnətin hər tərəfi insan ruhuna dinclik, könlünə fərəh, gözlərinə gözəllik bəxş edən çəmənliyə, yaşıllığa bürünmüşdür. Şairin yozumuna görə, cənnət də islam Peyğəmbərini görəcəyi üçün bütün gözəlliyi ilə bəzənmişdir. Bu, Peyğəmbər sevgisinin göstəricisidir. Göylərdəki hər şey islam Peyğəmbərini gözləyir.**

## YÜZ İYİRMİ BİRİNCİ ADDIM: YERİN GÖBƏYİNDƏN ƏQSAYA BAŞ QOYDU

سر نافه در بیت اقصی گشاد
ز ناف زمین سر به اقصی نهاد

***Müşklə dolu göbəyi «Beyti-əqsada» açdı,***
***Yerin göbəyindən «Əqsaya» baş qoydu.***[518]

Şair bu beytdə merac gecəsi islam Peyğəmbərinin Məkkədən Qüdsə getdiyini bədii bir dillə ifadə etmişdir. Şair beytdə Məkkə şəhərini «yerin göbəyi», yəni mərkəz nöqtəsi adlandırmışdır. Məkkə şəhərinin ən önəmli özəlliyi müsəlmanların qibləsi olan Kəbənin bu şəhərdə olması və islam Peyğəmbərinin bu şəhərdə doğulmasıdır. Uca Allah (c.c) merac gecəsi bu gecənin müqəddəsliyinə uyğun olaraq islam Peyğəmbərini özəl bir yolla – Məkkə – Qüds yolu ilə göylərə ucaltmışdır.

Məscidi-Əqsa da islam coğrafiyasının ən müqəddəs yerlərindən biridir. «Ən uzaq məscid» anlamındadır. Qüds

[518] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

şəhərində olan bu məscidin adı Qurani-Kərimdə bir dəfə çəkilmişdir:

بِسمِ اللهِ الرحمنِ الرحيمِ سبحان الذي أسرى بِعبده لَيلاً من الْمسجِدِ الْحرامِ إِلَى الْمسجِدِ الأَقْصى الذي باركْنَا حولَه لِنُرِيه من آياتنَا إِنه هو السميع البصير

(əl-İsra, 17/1)

«Bəzi ayələrimizi göstərmək üçün bəndəsini bir gecə Məscidül-həramdan ətrafını mübarək etdiyimiz Məscidül-Əqsaya aparan Allah pakdır, müqəddəsdir. O, doğrudan da, eşidəndir, görəndir!»

Şair beytdə merac gecəsinin bərəkətini ifadə etmək üçün müşk sözündən istifadə etmişdir. Müşk ceyranın göbək qanından hazırlanan gözəl bir ətirdir. Şairin yozumuna görə, yerin göbəyi olan Məkkə dünyaya islam dininin ətrini yayır. Merac gecəsi bu müşk ətri Əqsaya yayıldı. Şairə görə, merac neməti insanlıq üçün bir müşk ətridir.

## YÜZ İYİRMİ İKİNCİ ADDIM: MƏLƏKLƏRİN SEVİMLİSİ OLDU

ز بند جهان داد خود را خلاص
به معشوقی عرشیان گشت خاص

***Özünü dünya bəndindən xilas etdi,***
***Mələklərin sevimlisi olmaqla seçildi.***[519]

Şair bu beytdə merac gecəsi islam Peyğəmbərinin Əqsadan göylərə ucalmasını təsvir etmişdir. O, özünü dünya bəndindən xilas etdi, yəni yer məkanından uzaqlaşdı, göylə-

---

[519] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

rə «uçuş» başladı. Şair misrada «dünya bəndindən xilas olmaq» deyərkən ölçüsü, zamanı, məkanı olan Yer planetindən ölçüsüzlük məkanına doğru olan hərəkəti ifadə etmişdir. Şair beytdə göylərin sonsuzluğunu mələklər aləmi kimi təqdim etmişdir. Burada mələklər aləmi yerin-ölçüsü, məkanı, zamanı olan planetin əksi kimi verilmişdir.

Şairə görə, mələklər aləmi rahatlıq, dinclik, yaxşılıq etməklə əmr olunmuş varlıqlar məkanıdır. O, dünya bəndindən xilas oldu və mələklərin sevimlisinə çevrildi. Mələklər Onu aralarında görməkdən çox sevindilər. Burada birbaşa Peyğəmbərə aid olmasa da, insanlıq üçün ölçü verilmişdir. Yəni insan mələklərin sevimlisinə çevrilmək istəyirsə, dünya bəndindən, onu dünya malına bağlayan vasitələrindən xilas olmalıdır.

## YÜZ İYİRMİ ÜÇÜNCÜ ADDIM:
## SARAYINI YEDDİNCİ GÖYDƏ QURDU

بنه بست از این کوی هفتاد راه
به هفتم فلک بر زده بارگاه

***Yetmiş yollu bu diyardan köçünü vurdu,***
***Və öz sarayını yeddinci göydə qurdu.***[520]

Şairin bu beyti öncəki beytlərin davamıdır. O, bu iki beytdə merac gecəsi islam Peyğəmbərinin Yer planetindən ayrılaraq göylərə ucalmasını təsvir etmişdir. Şair hər iki beytdə müqayisə şəraiti yaratmışdır. Beytlərdə yer və göy müqayisə edilmiş, göyün-ülvi məkanın üstünlüyü göstərilmişdir. Şair öncəki beytdə Yer planetini «bəndi olan dünya», yəni ölçüsü, məkanı, zamanı olan məkan, pisliklə, yax-

---

[520] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

şılığın birgə yaşadığı, imanla küfrün iç-içə olduğu sahə kimi təqdim edir. Buna qarşılıq olaraq göyü (göyləri) sonsuzluq kimi təsvir edir. Bu məkana da hər şey: günəş, ay, ulduzlar, mələklər uca Allaha (c.c) itaət edir. Təsadüfi deyil ki, uca Allah (c.c) merac nemətini Peyğəmbərə sonsuz bir məkanda vermişdir.

Şair sonrakı beytdə də bu ideyaya uyğun olaraq iki dünya təsvir etmişdir. Şairin təfsirinə görə, yer planeti «yetmiş yollu bir diyardır». Buradakı «yetmiş yollu diyar» ifadəsinin mənası öncəki beytdəki «bəndi olan dünya» ifadəsinin mənasına bərabərdir və hər ikisi Yer planetinin xarakterini ifadə edir. **Şairin təqdimində «yetmiş yol» anlayışı fərqləri, fikir ayrılıqlarını, ziddiyyətləri, xarakterləri, inanc çeşidlərini, məzhəbləri, bölünməni, parçalanmanı təqdim edən vasitədir.**

Şair bu beytin ikinci misrasında Yer anlayışının əksini bildirən sözləri yerləşdirmişdir: «yer-göy», «köçünü vurdu», yəni uzaqlaşdı, canını azad etdi, buna qarşılıq olaraq «sarayını tikdi», yəni oranı bəyəndi. Beytdəki «yeddinci göydəki saray» anlayışı ucalığı, əlçatmazlığı ifadə edir. İnsan o yerdə ev, saray tikər ki, o yer gözəldir. Beytdə «saray tikmək» «köçünü vurdu» (uzaqlaşdı, köçdü) anlayışının əksidir və yerlə göyün fərqini anlamağa, onları müqayisə etməyə şərait yaradır.

## YÜZ İYİRMİ DÖRDÜNCÜ ADDIM: GÖYDƏKİ DOQQUZ HÜCRƏYƏ TƏRƏF YÖNƏLDİ

دل از کار نه حجره پرداخته
به نه حجرهٔ آسمان تاخته

***Ürəyini doqquz hücrənin fikrindən azad etdi,***
***Göydəki doqquz hücrəyə tərəf yönəldi.***[521]

---

[521] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

Şair bu beytin məzmununu da müqayisələr üzərində qurmuşdur. O, öncə ölçüsü, məkanı və zamanı olan Yer planetini təqdim etmişdir. Şairin Yer planetini «doqquz hücrəli məkan» adlandırmasının səbəbi bu məkanın ziddiyyətlərini, fərqli insan tiplərini, imanla küfrün bu məkanda bir arada yaşadığını nəzərə çarpdırmaqdır. Şairə görə, merac hadisəsi həm də bu dünya fikrinin buxovlarından azad olmaqdır. İslam Peyğəmbəri merac gecəsi ülvi bir məkana ucaldı. Şair ikinci beytdə doqquz hücrə deyərkən göyün doqquz təbəqəsini nəzərdə tutmuşdur.

## YÜZ İYİRMİ BEŞİNCİ ADDIM: DÖRDQIFILLI BƏNDDƏN ÇIXDI

برون جسته زین کنده چاربند
فرس رانده بر هفت چرخ بلند

***Dördqıfıllı bənddən çıxdı, xilas oldu,***
***Atını yeddi uca fələyə (tərəf) qovdu.***[522]

Hz. Nizami bu beytin ideyasını ifadə etmək üçün önceki beytlərdə olan vasitədən yararlanmışdır. Beytin ideyası müqayisə prinsipi üzərində qurulmuşdur. Şair Yer planetinin göylə müqayisədə mənfi bir məkan olduğunu ifadə etmək üçün çeşidli vasitələrə əl atır. Bu vasitələrdən biri fellərin seçilməsidir. Şair Yeri təqdim edərkən «dünya bəndindən xilas oldu», «bu diyardan köçünü vurdu», «ürəyini doqquz hücrənin fikrindən azad etdi» kimi Yer məkanını mənfi çalarda ifadə edən anlayışlardan istifadə edir. İnsan sevmədiyi yerdən «xilas olmaq», «köçünü vurmaq» istəyər. Beytlərdə olan və Yer planetinə aid edilən «bənd», «yetmiş

[522] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

yollu diyar», «doqquz hücrə», «dördqıfıllı bənd» kimi anlayışlar da bu planetlə bağlı mənfi duyğular oyadır. Bu anlayışlar darlığı, sıxıntını, qapalılığı, ziddiyyəti, çıxılmazlığı ifadə edir.

Bunun əksinə olaraq şair göy üzünü təqdim edərkən sevgi, istək, həsrət duyğularını oyadan fellər seçir. Şairin təqdimində göy məkanı sonsuzluğun, ülviliyin, sevginin məkanıdır: «O, mələklərin sevimlisi oldu», «sarayını yeddinci göydə qurdu», «Göydəki doqquz hücrəyə tərəf yönəldi». **Bu anlayışlar göylə yerin fərqini gözəl izah edir. Zidd anlayışlar yerlə göyün fərqini dəqiq ifadə edir: «dünya bəndi» - «mələklərin sevimlisi», «xilas etdi» - «seçildi», «yetmiş yollu bu yer» - «yeddinci göydəki saray», «köçünü vurdu» - «göydə qurdu», «azad etdi» - «yönəldi», «yerin doqquz hücrəsi» - «göydəki doqquz hücrə».**

Şair şərh etdiyimiz beytdə də eyni yoldan istifadə etmişdir. Birinci misradakı anlayışlar Yer planetinə aiddir: «dördqıfıllı bənd». Şair bu ifadə ilə hər tərəfi bağlı, darıxdırıcı bir məkan təsvir etmişdir. O, «dördqıfıllı bənd» deyərkən həm də dörd ünsürü – od, hava, su, torpağı da nəzərdə tutmuşdur. Misranın sonundakı «xilas oldu» feli də yerlə bağlıdır və mənfi çalarda işlədilmişdir.

Beytin ikinci misrasında isə göyə aid söz və ifadələr yerləşdirilmişdir. Misradakı «yeddi uca fələk» anlayışı göy üzündəki yeddi planetə aiddir: Ay, Merkuri, Venera, Günəş, Mars, Yupiter, Saturn. İkinci misranın sonundakı «atını çapdı (qovdu)» ifadəsi də sevgini, istəyi təqdim edir. Göylər daha gözəl olduğu üçün merac gecəsi uca Peyğəmbər atını sonsuzluğa doğru çapmışdır.

## YÜZ İYİRMİ ALTINCI ADDIM:
## BURAQ NURA QƏRQ OLMUŞDU

براقی شتابنده زیرش چو برق
ستامش چو خورشید در نور غرق

***Altında şimşək sürətli atı-Buraq,***
***Yəhəri, yüyəni günəş kimi nura qərq olmuşdu.***[523]

Hz. Nizami bu beytdə öncəki beytlərdə istifadə etdiyi müqayisə yolundan başqa bir biçimdə yararlanmışdır. Belə ki, şair göy üzünün daha gözəl olduğunu, merac səfərinin önəmini göstərmək üçün Buraqı nur içində təsvir etmişdir. Buraq merac yolçuluğundan, Peyğəmbərin miniyi olmaqdan çox məmnundur. Buna görə də Onun bütün varlığı nura qərq olmuşdur. Şair burada sevincin, sevginin ifadəçisi kimi nuru seçmişdir. Bütövlükdə, şair bütün meracnamələrində Buraq adlı miniyi təqdim edərkən şimşək və nur anlayışlarından istifadə edir: «Buraqın ayaq çapması şimşəyə bənzəyirdi», «adı Buraq olan şimşək», «nurdan yaranmış ildırım sürətli Buraq», «güclü, ağır nallı, yüngül qaçışlı, gözü iti, qaçışı sürətli idi», «şimşək sürətilə bu Buraq sənindir», «O, şimşək kimi Buraqa mindi», «ərəb atı altında, qamçı əlində».

Şairin təqdimatında bu beytdə də hərəkət və nur sevgini, sevgiliyə qovuşmaq istəyini gözəl ifadə edir. Buraqın yəhəri nura qərq olmuşdur, çünki islam Peyğəmbəri bu yəhərdə oturacaq, Buraqın yüyəni nura qərq olmuşdur, çünki islam Peyğəmbərinin mübarək əlləri bu yüyəndən tutacaq.

---

[523] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

## YÜZ İYİRMİ YEDDİNCİ ADDIM: O, SÜHEYL ULDUZU KİMİ ƏRƏB SƏMASINDA UCALDI

سهیلی بر اوج عرب تافته
ادیم یمن رنگ ازو یافته

***O, Süheyl ulduzu kimi ərəb səmasında ucaldı,***
***Yəmən gönü (dərisi) öz məlahətli***
***rəngini ondan aldı.***[524]

Şair bu beytdə də nur anlayışından istifadə etmişdir. Buna görə də Süheyl ulduzunun adını beytin mətninə daxil etmişdir. Süheyl ilin bəlli fəsillərində göy üzünün cənubunda görünür. Bu ulduz Yəməndən daha aydın və parlaq müşahidə olunur. Klassik ədəbiyyatda parlaqlığın, gözəlliyin rəmzi kimi təqdim olunur. Bir sıra qaynaqlarda Yəmən ölkəsinin hamisi kimi göstərilmişdir.

Şair beytdə Yəmən dərisinin də adını çəkmişdir. Bu da təsadüfi deyil. Rəvayətə görə, Yəməndə istehsal olunan ən zərif, ən gözəl, «ədim» deyilən dəri öz keyfiyyətini Süheyl ulduzunun şüalarından alır.

Şair birinci misrada deyir ki, O, Süheyl ulduzu kimi ərəb səmasında ucaldı. Yəni O, göy üzündə ən parlaq ulduza çevrildi, kainatı nura qərq etdi. Artıq Yəmən dərisi də öz zərifliyini, gözəlliyini, rəngini Onun nurundan almağa başladı.

## YÜZ İYİRMİ SƏKKİZİNCİ ADDIM: İPƏK ÜSTÜNDƏ İNCİ AXIRDI

بریشم دمی بلکه لؤلؤ سمی
رونده چو لؤلؤ بر ابریشمی

---

[524] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

*Quyruğu ipək, dırnağı inci,*
*Elə bil ki, ipək üstündə inci axırdı.*[525]

Şair bu beytdə Buraqı gözəl təsvir etmişdir. Onun quyruğu ipəkdir, dırnağı incidir. Onun gözəlliyi merac gecəsinin ruhuna, islam Peyğəmbərinin adına uyğundur. Şair bu beytdə Buraq adlı miniyin iti sürətini də təsvir etmişdir. O, ipək üstündə hərəkət edən inci kimi rahat və sürətlə «uçurdu». Hz. Nizami Buraqın hərəkətinin gözəlliyini, sürətini ifadə etmək üçün «axmaq» (su kimi axmaq) felindən istifadə etmişdir. Beytdə ipək rahatlığın, inci gözəlliyin, axmaq feli də sürətin ifadəçisidir.

## YÜZ İYİRMİ DOQQUZUNCU ADDIM: GÖBƏYİ MÜŞKLƏ DOLU İDİ

نه آهو ولی نافش از مشگ پر
چو دندان آهو برآموده در

*Ahu deyildisə də, göbəyi müşklə dolu idi,*
*Ceyran dişi kimi bir düzüm inciydi.*[526]

Şair bu beytdə Buraq adlı miniyin gözəlliklərini anlatmaq üçün ayrı-ayrı vasitələrdən istifadə etmişdir. Şair öncə Buraqın ətirli olduğunu, ətrafa ətir saçdığını ifadə etmək üçün müşk anlayışından istifadə edir. Doğrudur, Buraq ahu deyil (göbək şirəsindən müşk hazırlanan ceyran), ancaq onun göbəyi müşklə doludur. Merac gecəsinin bərəkəti ilə Buraqın nuru, müşk ətri, inci gözəlliyi aşıb-daşır. Buraq merac gecəsinin bərəkəti, uca Allah (c.c) və Peyğəmbər sevgisinin nuru

[525] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[526] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

ilə bir ağ işığa bürünmüşdür. O, ceyran dişlərinə bənzəyən inci düzümüdür. **Gözlərimiz önündə qeyri-adi, seçilən bir varlıq var: ipək kimi gözəl və yumşaq, inci kimi ağ, müşk ətirli, kəklik yerişli, bir nur heykəli, işıq kimi göylərə axan Buraq.** Şair meracın bərəkətini nur, inci, müşk obrazları ilə təqdim etmişdir. Biz meracın bərəkətini, merac neməti olan namazın dəyərini bir nur sevinci, bir inci ağlığı, bir müşk ətri ilə qavrayırıq, onları içdən sevirik.

## YÜZ OTUZUNCU ADDIM:
## OX KİMİ SÜRƏTLİ İDİ

از آن خوش عنان‌تر که آید گمان
وز آن تیز روتر که تیر از کمان

***Yüyəni güman ediləndən də yumşaq idi,***
***Kamandan çıxmış oxdan da sürətli idi.***[527]

Hz. Nizami bu beytdə də Buraqın gözəlliklərini təqdim edir. Onun yüyəni çox yumşaqdır. Çünki uca Peyğəmbərin mübarək əli bu yüyəndən tutacaq. Heç bir şey Onun əlini incitməməlidir. Şair Buraqı təqdim edərkən yumşaqlıq mənasını ifadə edən sözlərdən çox istifadə edir: ipək, ahu, kəklik yerişi, tovuz quşunun qanadlarına bənzər ayaq. Bu incəlik, bu zəriflik həm gözəllik ölçüsüdür, həm uca Peyğəmbərə olan sevginin göstəricisidir, həm də meracın bərəkətinə uyğundur. Buraq həm rahatdır, həm də göz oxşayır. Uca Allah (c.c) sevimli Peyğəmbərinin ancaq belə gözəl bir varlığın üzərində əyləşərək göylərə «uçmasına» razı olur.

Hz. Nizami bütün meracnamələrində Buraqı iki yöndən təqdim etmişdir: Gözəllik və hərəkət. Şair Buraqı sürə-

[527] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

tinə görə ildırıma bənzətmişdir. Bu beytdə isə onun sürəti kamandan çıxmış oxla müqayisə edilmişdir.

## YÜZ OTUZ BİRİNCİ ADDIM: TƏXƏYYÜL ONDAN YETMİŞ ADDIM GERİ QALIRDI

شتابنده‌تر و هم علوی خرام
ازو باز پس مانده هفتاد گام

***Ən kəskin və göylərə uçan təxəyyül (yürüşdə)***
***Ondan yetmiş addım geri qalırdı.***[528]

Şair bu beytdə Buraq adlı miniyin iti sürətini başqa vasitələrlə təqdim etmişdir. Beytdə onun sürəti ən kəskin və göylərə uçan təxəyyüllə müqayisə olunmuşdur. Əslində, təxəyyülün sürətini ölçmək mümkün deyil. Şair bununla da kifayətlənməmiş, kəskin (yəni iti), göylərə uçan (yəni romantik) təxəyyülü müqayisə tərəfi kimi seçmişdir. Şair deyir ki, ən kəskin və göylərə uçan təxəyyül Buraqdan yetmiş addım geri qalırdı, yəni ona çatması mümkün deyildi.

## YÜZ OTUZ İKİNCİ ADDIM: O, MƏLƏK KİMİ İDİ

به عالم گشائی فرشته وشی
نه عالم گشائی که عالم کشی

***Dünyaları açmaqda o, mələk kimi idi,***
***(Buraq) aləmaçan yox, aləmçəkən idi.***[529]

[528] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[529] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

Öncəki beytlərdə Buraq fərqli varlıqlarla müqayisə olunmuşdur. Onun gözəlliyi təsvir olunarkən quyruğu ipəyə, dırnağı inciyə, ətri müşk ətrinə, sürəti təsvir edilərkən kamandan çıxmış oxa, ən kəskin və göylərə uçan təxəyyülə bənzədilmişdir. Bu beytdə isə müqayisə tərəfi kimi mələk seçilmişdir. Şair Buraqın gücünü göstərmək istəyir. O, sürətlə göy üzünün mərtəbələrini keçir, onları kəşf edir. Şair deyir ki, Buraq göy aləmini kəşf etməkdə, göy üzündə sürətlə hərəkət etməkdə mələk kimidir. O, aləmçəkən idi, yəni üzərində Peyğəmbər olan Buraq o qədər gözəl idi ki, bütün səma cismləri heyrətlə ona baxırdı, o, hər şeyi özünə cəzb edirdi.

## YÜZ OTUZ ÜÇÜNCÜ ADDIM: ONUN ƏLİNDƏ AY KİMİ İŞIQLI ŞƏBÇIRAQ VAR İDİ

به شبرنگی از شب چرا گشته مست
چو ماه آمده شب چرائی به دست

***O gecə gecə rəngli (Buraq) gecə otlağında***
***məst olmuşdu,***
***Əlində ay kimi işıqlı şəbçıraq var idi.***[530]

Hz. Nizami beytin birinci misrasında şərq folklor və ədəbiyyatında geniş yayılmış bir əfsanəyə işarə etmişdir. Bu əfsanəyə görə, dəniz atları gecə dənizdən sahilə çıxaraq dillərinin altında saxladıqları ləli çəmənin üzərinə qoyur və onun parlaq şüaları altında oynayırlar. Bu hərəkət onları məst edirdi. Buraq da gecə rəngli idi və o mübarək merac gecəsində səfərə çıxmışdı. Buraq halından çox məmnun idi, o qədər sevinirdi ki, məst olmuşdu. Onun üzərindəki islam

---

[530] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

Peyğəmbəri nurlu ay kimi gecənin qaranlığında aləmə nur saçırdı və Buraq da Onun nurunun işıqlandırdığı yolla hərəkət edirdi.

### YÜZ OTUZ DÖRDÜNCÜ ADDIM: ONUN DAYANMASI SIÇRAYIŞINDAN QABAĞA DÜŞÜRDÜ

چنان شد که از تیزی گام او
سبق برد بر جنبش آرام او

***Elə olurdu ki, onun addımlarının sürətindən,***
***Onun dayanması sıçrayışından qabağa düşürdü.***[531]

Hz. Nizami bu beytdə Buraqın sürətini ifadə etmək üçün müxtəlif vasitələrdən yararlanmışdır. Şair deyir ki, onun addımları çox sürətli idi. Elə sürətli idi ki, dayanması belə bilinmirdi. Bir anlıq dayanaraq sıçrayış edirdi və bu yolla da uzaq məsafələr qət olunurdu.

### YÜZ OTUZ BEŞİNCİ ADDIM: ONUN SÜRƏTİ BAXIŞI TAPDALAYIRDI

قدم بر قیاس نظر می‌گشاد
مگر خود قدم بر نظر می‌نهاد

***Onun ayağının sürəti baxış sürəti idi,***
***Hətta baxışı belə tapdalayıb ötürdü.***[532]

---

[531] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[532] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

Şair bu beytdə Buraqın sürətini ifadə etmək üçün gözəl vasitədən istifadə edib. Onun sürəti baxış sürəti ilə müqayisə olunub. İnsan baxış sürəti ilə bir anda uzaq məsafələri görə bilər. Ancaq şair deyir ki, Buraq baxışdan da sürətli idi. O, öz sürəti ilə baxışın sürətini tapdalayırdı. Yəni göz onun sürətini qeydə ala bilmirdi.

## YÜZ OTUZ ALTINCI ADDIM: PEYĞƏMBƏR XÜTTƏLİ ATIN BELİNDƏ İDİ

پیمبر بد آن ختلی ره نورد
برآورد از این آب گردنده گرد

***Peyğəmbər o Xüttəli atın belində,***
***Bu səyyar dənizdən toz qopardı.***[533]

Şair bu beytdə Buraq adlı miniyi Xüttəli ata bənzədib. Xüttəlan (Xətlan) Orta Asiyada – Səmərqənd şəhərinin yaxınlığında böyük dağlar arasında yerləşmiş, abad bir vilayət olub. Bu vilayət öz cins atları ilə şərqdə şöhrət qazanmışdı. Bu atlar həm qaçağan idi, həm də gözəlliyi ilə şöhrət tapmışdı. Şair meracnamələrində Buraqı yeri gələndə ərəb, yeri gələndə türk atına bənzətmişdir.

Merac gecəsi islam Peyğəmbəri xüttəli atın belində əyləşmişdi. O, xüttəli atın belində merac gecəsi «səyyar dənizdən» toz qopardı. Şair bu misrada göy üzünü «səyyar dənizə» bənzətmişdir. Bu, hz. Nizaminin üslub göstəricilərindən biridir. O, əsərlərində səmanı çox zaman dənizə, suya bənzədir. Misradakı «toz qoparmaq» feli sürətlə hərəkət etmək mənasındadır.

---

[533] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

## YÜZ OTUZ YEDDİNCİ ADDIM:
## ÖZÜ YOLBİLƏN, ATI YOLGEDƏN İDİ

هم او راه دان هم فرس راهوار
زهی شاه مرکب زهی شهسوار

***Özü yolbilən, atı yolgedən idi,***
***Əhsən bu şah ata, əhsən şahsuvara!***[534]

Hz. Nizami bu beytdə islam Peyğəmbərini «yolbilən» adlandırmışdır. Misrada «yolbilən» anlayışı geniş mənanı ehtiva edir. Şairin təfsirində islam Peyğəmbəri «yolbiləndir», yəni ümmətin yol göstərənidir. Ona görə də Peyğəmbərin bir adı da doğru yolu göstərən mənasında «Hadi»dir.

وَيَقُولُ الَّذِينَ كَفَرُواْ لَوْلاَ أُنزِلَ عَلَيْهِ آيَةٌ مِّن رَّبِّهِ إِنَّمَا أَنتَ مُنذِرٌ وَلِكُلِّ قَوْمٍ هَادٍ

(ər-Rəd, 13/7)

«Kafir olanlar: «Məgər ona Rəbbindən bir möcüzə endirilməli deyildimi?» - deyirlər. Sən ancaq (insanları Allahın əzabı ilə) qorxudansan. Hər tayfanın (doğru yol göstərən) bir rəhbəri (peyğəmbəri) vardır!»

Qurana görə, Peyğəmbərlərin əsl vəzifəsi insanları doğru yola qovuşdurmaqdır. Uca Quran da bu hədəfi gerçəkləşdirmək üçün nazil olunmuşdur:

ذَٰلِكَ الْكِتَابُ لاَ رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ

(Bəqərə, 2/2)

---

[534] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

«Bu, (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) heç bir şəkk-şübhə olmayan, müttəqilərə (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) doğru yol göstərən Kitabdır».

Uca Allah (c.c) Peyğəmbərləri Hadi – yolgöstərən olaraq seçdiyini buyurur:

وجعلْنَاهم أَئِمةً يهدون بِأَمرِنَا وأَوحينَا إِلَيهم فعلَ الْخَيرات وإِقَام الصلَاة وإِيتَاء الزكَاة وكَانُوا لَنَا عابِدين

(əl-Ənbiya, 21/73)

«Biz onları əmrimizlə (insanlara) doğru yolu göstərən imamlar (rəhbərlər) etdik. Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər».

Hz. Nizami deyir ki, islam Peyğəmbəri yolbiləndir, yəni imamdır, rəhbərdir, uca Allahın (c.c) dinini təbliğ edəndir, insanlara hikmət öyrədəndir, onları günahdan təmizləyəndir.

Misrada «yolbilən» anlayışı həm də merac gecəsi ilə bağlıdır. Yəni islam Peyğəmbəri o mübarək gecədə haraya və niyə getdiyini bilirdi. Şair deyir ki, Buraq da yolgedən idi, yəni həm Peyğəmbərə itaət edirdi, həm də iti sürətli idi. Şair beytin ikinci misrasında Buraqa şah at deyir, yəni onun kimisi yoxdur. Şair Peyğəmbəri də şahsuvar adlandırır. Yəni islam Peyğəmbəri peyğəmbərlərin şahıdır.

## YÜZ OTUZ SƏKKİZİNCİ ADDIM: ASİMAN ONUN ƏLİNDƏN TƏZƏ XİRQƏ GEYDİ

چو زین خانقه عزم دروازه کرد
به دستش فلک خرقه را تازه کرد

***Bu xanəgahdan göyün darvazasına azim olanda,***
***Asiman onun əlindən təzə xirqə (don) geydi.***[535]

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinin göylərə səfərindən doğan sevinci ifadə etmişdir. Şair misrada Yer planetini xanəgah adlandırır. Xanəgah burada yaşayış yeri mənasında işlədilmişdir. O, merac gecəsi göyə ucaldı, səmanın darvazasına çatdı və asiman onun əlindən təzə don geyindi. Yəni göy üzü Peyğəmbəri gördü, çox sevindi, nura, gözəlliyə qərq oldu. İnsan ən doğma, ən əziz adamını qarşılayanda paltarlarının ən gözəlini geyinər. Bu yolla da sevgisini göstərər. Asiman da merac gecəsi uca Allahın (c.c) ən sevimli Peyğəmbərini qarşılayır. Göy üzü bütün gözəlliyi ilə uca Peyğəmbərə salam deyir. «Səni çox sevirik», - deyir.

## YÜZ OTUZ DOQQUZUNCU ADDIM: ULDUZLARIN GÖZÜ ONUNLA İŞIQLANDI

سواد فلک گشته گلشن بدو
شده روشنان چشم روشن بدو

***Onun vücudu ilə qaranlıq göylər gülşənə çevrildi,***
***Ulduzların gözü onunla işıqlandı.***[536]

Hz. Nizami bu beytdə də merac gecəsi mübarək Peyğəmbəri görən göy üzünün sevincini, sevgisini ifadə etmişdir. Şairə görə, o uca Peyğəmbərin varlığı nurdur. O, merac gecəsi göylərə ucaldı, səmaya nur saçdı, qaranlıqlar yox oldu, Onun nurunun gücü ilə göy üzü gülşənə çevrildi. Səma cisimləri Onun nurundan güc alaraq, Ona olan sevgi-

---

[535] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.
[536] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 31.

dən bərəkətlənərək gülşən oldu, hər ulduz, hər planet işıq saçan gülə çevrildi, ətrafa nur və ətir yayıldı.

Şair deyir ki, ulduzların gözü onunla işıqlandı. «Gözünə işıq gəlmək» sevinmək, güclənmək, dirçəlmək, çətinlikdən qurtarmaq anlamındadır. Ulduzlar merac gecəsi islam Peyğəmbərini gördü, bərəkətləndi və işıq saçmağa başladı. Şair beytdə səmanın Peyğəmbər sevgisini gül, işıq, nur anlayışları ilə təqdim etmişdir.

## YÜZ QIRXINCI ADDIM: TƏMİZ PƏRDƏYƏ ƏTƏYİ TOZLU YAXINLAŞMAQ OLMAZDI

در آن پرده کز گردها بود پاک
نشایست شد دامن آلوده خاک

***Toz izi görməyən təmiz pərdəyə (saraya),***
***Ətəyi tozlu yaxınlaşmaq olmazdı.***[537]

Şair bu beytdə göy üzünü saflıq, təmizlik, genişlik, ülvilik məkanı kimi təqdim etmişdir. O deyir ki, bu məkan toz izi görməmişdir. Burada «toz izi görməmək» anlayışı həm də islam Peyğəmbərinə münasibətlə bağlıdır. Yəni göy üzü, o möhtəşəm saray elə bir məkandır ki, ora indiyədək hz. Məhəmməddən (s.a.s) başqa, bir kimsənin ayağı dəyməmişdir. Şair deyir ki, bu gözəl məkana ətəyi tozlu yaxınlaşmaq olmaz. Yer məkanı ilə bağlı olan hər şeyi bu sonsuz səmanın qapısında qoyub içəri keçmək zəruridir.

## YÜZ QIRX BİRİNCİ ADDIM: ORADA AYAĞININ TOZ-TORPAQLARINI YUDU

به دریای هفت اختر آمد نخست
قدم را نهفت آب خاکی بشست

---

[537] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32.

***Ona görə yeddi səyyarənin dənizinə çatarkən,***
***Orada ayağının toz-torpaqlarını yudu.***[538]

Şair öncəki beytdə deyir ki, uca Allahın (c.c) hüzuruna ətəyi tozlu yaxınlaşmaq olmaz. Ora toz izi görməyən təmiz məkandır. Ona görə də islam Peyğəmbəri yeddi səyyarənin dənizinə çatarkən dayandı. Burada yeddi səyyarə deyərkən yeddi planetin yerləşdiyi məkan nəzərdə tutulur. Şair yenə də üslubuna sadiq qalaraq yeddi səyyarənin olduğu məkanı-səmanı dəniz adlandırmışdır. Şair deyir ki, islam Peyğəmbəri bu dənizdə ayağının toz-torpağını yudu.

## YÜZ QIRX İKİNCİ ADDIM: AYA YUXU BEŞİYİ VERDİ

رها کرد بر انجم اسباب را
به مه داد گهوارهٔ خواب را

***Öz təbiətinin varlığını bu səyyarələrə payladı,***
***Aya isə yuxu beşiyini verdi.***[539]

Hz. Nizami bu beytdə merac gecəsinin önəmli bir mərhələsini təsvir etmişdir. Artıq səma cismləri Peyğəmbərin gəlişini bilir, onların hər biri «təzə donunu geyinərək» öz sevgisini göstərir, qaranlıq göylər gülşənə çevrilmişdir, ulduzların gözü onunla işıqlanmışdır. Uca Peyğəmbər artıq «toz izi görməyən» təmiz pərdəyə yaxınlaşmışdır. Bu nöqtədən o yana yeni bir ruh halı ilə yüksəlmək olar. Ona görə də, Peyğəmbər «yeddi səyyarənin dənizində» yuyunmuşdur, bir növ dəstəmaz almışdır, Onda Yer planeti ilə bağlı bir əlamətin qalmasını istəməmişdir. Burada «yeddi səyyarənin dənizində toz-torpaqlarını yudu» fikri Yer planeti ilə

[538] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32.
[539] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32.

bağlı əlamətlərdən arındı, yeni bir ruh halına qovuşdu deməkdir. Şair bu fikrini davam etdirir. Deyir ki, Peyğəmbər öz təbiətinin varlığını bu səyyarələrə payladı. Yəni Onda Yer planetinə aid nə var idisə (bu əlamətlər Yer planetində yaşamaq üçün zəruri şərtlərdir), səyyarələrə payladı. Artıq O, yeni bir ruh halı ilə yaşayan, göy üzünün adamı idi. Bu müqəddəs məkanda nəfsə aid bir şey yoxdur, yalnız arınmış, bütün varlığı ilə bu məkanın şərtlərinə uyğunlaşmış insan orada hərəkət edə bilər.

Şair deyir ki, islam Peyğəmbəri Aya yuxu beşiyi verdi. Yəni islam Peyğəmbəri merac gecəsi elə nurlu idi ki, bütün aləm Onun nuru ilə işıqlanmışdı, gecə gündüzə çevrilmişdi, Ayın işığına ehtiyac yox idi, onun işığı kölgədə qalmışdı. Peyğəmbər Aya yuxu beşiyi verir, yəni özü səmada olduğu dövrdə Ayın dincəlməsini istəyir, ona ehtiyac olmadığını bildirir. Bu yolla Peyğəmbər Yer planetində yaşayan insanlara aid olan yatmaq əlamətindən imtina edir. Məsələn, Ay gecə görünür, gündüz görünmür, yəni «yatır». Ona görə də şair «yuxu beşiyini ona verir».

Utarid planeti içi dolu olan işıqlı bir kürə şəklindədir, soyuq və qurudur. Ona araqarışdırıcı, arapozan adları da verilmişdir. Bu işlər də çox zaman qələmlə həyata keçirilir. Ona görə də, şair deyir ki, Peyğəmbər Utaridin qələmini qırdı. Bundan başqa, Utarid planetinin himayəsində olanlarda ən üstün özəlliklər zehinli olmaq, gözəl danışmaq, kitaba, oxumağa meyil etmək, riyaziyyatı bilmək kimi birbaşa, ya da dolayısı ilə qələmlə bağlı olan keyfiyyətlərdir. Utaridin qələminin qırılması bu mənada başa düşülə bilər. Yəni yazmaq, oxumaq Yer planetində yaşayan insanlara aiddir. Bu məkanda qələmə ehtiyac yoxdur. Bu məkan uca Allahın (c.c) öz elmini sevdiyi bəndəsinə göstərərək, qələmsiz, kağızsız, kitabsız, məktəbsiz verdiyi məkandır.

Şair bu məna işığında islam Peyğəmbərinin ümmi olduğunu da (oxumaq, yazmaq bilməyən) yada salır. Onun müəllimi uca Allahdır (c.c), Onun yazmağa, oxumağa ehtiyacı yoxdur. Ümmi olmaq hz. Məhəmmədin (s.a.s) peyğəmbərliyinin dəlillərindən biridir.

قُلْ يا أَيها الناس إِني رسولُ اللّه إِلَيكُم جميعاً الذي لَه ملْك السماوات والأَرض لا إِلَـه إِلا هو يحيـي ويميتُ فَآمنُواْ بِاللّه ورسوله النبِي الأُمي الذي يؤْمن بِاللّه وكَلماته واتبِعوه لَعلَّكُم تَهتَدون

(əl-Əraf, 7/158)

«(Ey Rəsulum!) De: «Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. (O Allah ki) göylərin və yerin hökmü Onundur, Ondan başqa heç bir tanrı yoxdur. O dirildir və öldürür. Buna görə də Allaha, eləcə də Onun Allaha və Allahın sözlərinə inanan və ümmi peyğəmbər olan Rəsuluna iman gətirin və ona tabe olun ki, doğru yolu tapa biləsiniz!»

## YÜZ QIRX ÜÇÜNCÜ ADDIM: UTARİDİN QƏLƏMİNİ QIRDI

پس آنگه قلم بر عطارد شکست
که امی قلم را نگیرد به دست

***Sonra Utaridin qələmini qırdı,***
***Ümmi əlinə qələm alarmı?***[540]

Şair beytin birinci misrasında Utarid (Merkuri) planetinin adını çəkmişdir. Bu planet sırasına görə Ay planetin-

[540] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32.

dən sonra yerləşir. İslam Peyğəmbəri (s.a.s) yeddi səyyarənin hər birində olarkən o planetin özəlliyinə uyğun olan bir əlamətdən istifadə edir. Məsələn, Ay gecə görünür, gündüz görünmür, yəni «yatır». Ona görə də şair «yuxu beşiyini ona verir».

Utarid planeti içi dolu olan işıqlı bir kürə şəklindədir, soyuq və qurudur. Ona araqarışdırıcı, arapozan adları da verilmişdir. Bu işlər də çox zaman qələmlə həyata keçirilir. Ona görə də, şair deyir ki, Peyğəmbər Utaridin qələmini qırdı. Bundan başqa, Utarid planetinin himayəsində olanlarda ən üstün özəlliklər zehinli olmaq, gözəl danışmaq, kitaba, oxumağa meyil etmək, riyaziyyatı bilmək kimi birbaşa, ya da dolayısı ilə qələmlə bağlı olan keyfiyyətlərdir. Utaridin qələminin qırılması bu mənada başa düşülə bilər. Yəni yazmaq, oxumaq Yer planetində yaşayan insanlara aiddir. **Bu məkanda qələmə ehtiyac yoxdur. Bu məkan uca Allahın (c.c) öz elmini sevdiyi bəndəsinə göstərərək, qələmsiz, kağızsız, kitabsız, məktəbsiz verdiyi məkandır.**

## YÜZ QIRX DÖRDÜNCÜ ADDIM: SƏDƏQƏ ÜÇÜN GÜNƏŞƏ ÇÖRƏK VERDİ:

طلاق طبیعت به ناهید داد
به شکرانه قرصی به خورشید داد

***Təbiətin talağını Nahidə verdi,***
***Sədəqə üçün Günəşə bir dəyirmi çörək verdi.***[541]

Hz. Nizami bu beytdə də merac gecəsi bəlli bir məsafədən sonra yaranmış ruh halını təsvir etmişdir. İslam Peyğəmbəri Yer planeti ilə bağlı olan hər şeyi planetlərə bağışlayır. Yeddi səyyarənin dənizində ayaqlarını yuyur,

---

[541] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32.

təbiətinin varlığını səyyarələrə bağışlayır, Aya yuxu beşiyi verir, Utaridin qələmini qırır.

Şair bu beytdə deyir ki, islam Peyğəmbəri merac gecəsi təbiətin talağını Nahidə verdi. Burada «təbiətin talağını vermək» onu Nahidə birdəfəlik, əvəz istəmədən vermək deməkdir. Nahid (Nihad) Zöhrə ulduzunun başqa adıdır. Bu ulduz gözəlliyi, parlaqlığı ilə seçilir. Ona «kiçik xoşbəxtlik» də deyirlər. «Təbiətin talağını Nahidə verdi», yəni təbiətin bütün gözəlliklərini ona bağışladı.

Beytin ikinci misrasında deyilir ki, islam Peyğəmbəri sədəqə üçün Günəşə bir dəyirmi çörək verdi. Burada Günəşə çörək verilməsinin bir neçə mənası var. Hər şeydən öncə Günəş yaxşı bişmiş yumru çörəyə bənzəyir. Çörək ən önəmli qida növlərindən biridir. Heç bir planet də önəminə görə Günəşlə müqayisə edilə bilməz. Yer üzündəki bütün həyat, bar və bərəkət Günəşə bağlıdır. Uca Allah (c.c) ona böyük bir missiya yükləmişdir. Günəş də təmənnasız olaraq Yer üzündəki varlıqlara həyat verir. İslam Peyğəmbəri bu xidmətlərinə görə təşəkkür əlaməti olaraq Günəşə çörək verir.

Beytdə Günəşə çörək vermək fikri həm də belə başa düşülə bilər ki, islam Peyğəmbəri artıq ruh məkanına daxil olmuşdur. Bu məkanda yuxuya, qələmə ehtiyac olmadığı kimi, çörəyə də ehtiyac yoxdur. İdeyanın bu yolla təqdimi həm də Yer planeti ilə göy üzünün fərqini ifadə etmək üçündür.

## YÜZ QIRX BEŞİNCİ ADDIM: ÖZ QƏZƏBİNİN ATƏŞİNİ MƏRRİXƏ VERDİ

به مریخ داد آتش خشم خویش
که خشم اندران ره نمی‌رفت پیش

***Öz qəzəbinin atəşini Mərrixə verdi,***
***Çünki qəzəb bu yolda irəli gedə bilməzdi.***[542]

---

[542] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32.

İslam Peyğəmbəri artıq ülvi bir məkana, ruh məkanına daxil olmaqdadır. Bu məkanın ən önəmli şərti insanın nəfsə aid olan hər şeydən imtina etməsidir. İnsan arınmalı, təmizlənməli, ruha aid olmalıdır ki, bu məkanda yaşaya, hərəkət edə bilsin. Ona görə də, islam Peyğəmbəri qəzəb atəşini Mərrixə verir. Mərrix, Mars planetinin qədim adıdır. Bu planet nəhs planet sayılır və yanan qırmızı atəşdən ibarətdir. Peyğəmbər də qəzəbi bu planetə verir.

Qurani-Kərimdə və hz. Məhəmmədin (s.a.s) hədislərində qəzəb duyğusunun yaratdığı fəsadlar göstərilmiş və onu məğlub etməyin yolları da açıqlanmışdır. Uca Peyğəmbər belə buyurur: «Qəzəbli olan da şeytandan uca Allaha (c.c) sığınmaq lazımdır»[543], «Öfkə və qəzəb yerində istifadə edilməlidir»[544], «Qəzəbdən uzaq durmaq lazımdır»[545], «Qəzəblənmək şeytandandır»[546], «Qəzəbinə hakim olan həqiqi pəhləvandır»[547], «Qəzəbini məğlub edənə istədiyi huri verilər»[548], «Qəzəbini məğlub edənlər cənnətdədir»[549], «Qəzəbə hakim olmaq zəruridir»[550].

Şair deyir ki, islam Peyğəmbəri merac gecəsi qəzəb atəşini Mərrixə verdi. Çünki O, ruh məkanına, dinclik yurduna, uca Allahın (c.c) rəhmət evinə daxil olurdu. Bu məkanda nəfsani duyğuların yeri yoxdur. Şair deyir ki, qəzəb duyğusu ilə bu yolda, bu məkanda yüyürmək, uçmaq olmaz.

---

543 «Riyazüs-Salihin», c. I, s. 264, 265.
544 «Riyazüs-Salihin», c. III, s. 582.
545 «Riyazüs-Salihin», c. III, s. 581.
546 «Riyazüs-Salihin», c. I, s. 264, 268.
547 «Riyazüs-Salihin», c. I, s. 262, 263.
548 «Riyazüs-Salihin», c. I, s. 266, 267.
549 «Riyazüs-Salihin», c. III, s. 567.
550 «Riyazüs-Salihin», c. III, s. 547.

## YÜZ QIRX ALTINCI ADDIM:
## TƏKƏBBÜRÜ MÜŞTƏRİYƏ VERDİ:

رعونت رها كرد بر مشترى
نگينى دگر زد بر انگشترى

***Təkəbbürü Müştəriyə buraxdı,***
***Üzüyünə yeni bir qaş taxdı.***[551]

Hz. Nizami bu beytdə də nəfsani istəklərdən sıyrılma, təmizlənmə, arınma mərhələsini təsvir etmişdir. Yeddi səyyarənin dənizində ayağının toz-torpağını yuyan, təbiətinin varlığını bu səyyarələrə bağışlayan, Aya yuxu beşiyi verən, Utaridin qələmini qıran, təbiətin talağını Nahidə verən, Günəşə çörəyi sədəqə olaraq bağışlayan, qəzəb atəşini Mərrixə verən hz. Məhəmməd (s.a.s) təkəbbürü də Müştəriyə verir. Müştəri planetinin indiki adı Yupiterdir. Bu xoşbəxtlik və gözəllik planeti sayılır. Gözəl olduğu üçün də təkəbbürlüdür. İslam Peyğəmbəri də nəfsani duyğu olan təkəbbürü Müştəriyə verir. Təkəbbür ruh məkanında bir işə yaramayan nəfsani istəkdir.

Qurani-Kərimdə və hədislərdə təkəbbür duyğusunun fəlakətləri anladılmışdır. Hz. Məhəmməd (s.a.s) belə buyurur:

«Təkəbbür haqqı inkar etməkdir»[552]

«Təkəbbür haqqı qəbul etməməkdir»[553]

«Təkəbbür insanı zülmə yönəldir»[554]

«Təkəbbür cəhənnəmə getməyə səbəbdir»[555]

«Təkəbbürlü insan cənnətə girə bilməz»[556]

---

551 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32.
552 «Riyazüs-Salihin», c. II, s. 198.
553 «Riyazüs-Salihin», c. VI, s. 580.
554 «Riyazüs-Salihin», c. III, s. 545.
555 «Riyazüs-Salihin», c. III, s. 535-537.
556 «Riyazüs-Salihin», c. III, s. 531.

«Təkəbbürlü olana Allah mərhəmət etməz»[557]

«Təkəbbürlə yeriyənlər cəhənnəmlikdir»[558]

«Təkəbbürlənməyənlər axirət yurduna sahib olar-lar»[559]

«Təkəbbürlü olanlar qiyamət günü Peyğəmbərdən uzaqdırlar»[560]

«Allah təkəbbürlü olanları sevməz»[561]

Hz. Nizami deyir ki, islam Peyğəmbəri merac gecəsi təkəbbürü Müştəriyə verdi. Onun üzüyünə yeni bir qaş taxdı. Yəni Müştərinin gözəlliyini daha da artırdı.

## YÜZ QIRX YEDDİNCİ ADDIM: SƏYYAR GƏMİNİ KEYVANA TAPŞIRDI

سواد سفینه به کیوان سپرد
به جز گوهری پاک با خود نبرد

***Bu qaralan səyyar gəmini Keyvana tapşırdı,***
***Özü ilə təmiz cövhərdən başqa bir şey götürmədi.***[562]

Hz. Nizami bu beytdə nəfsə aid istəklərdən arınmanın mərhələlərindən birini təsvir etmişdir. Şair deyir ki, islam Peyğəmbəri qaralan səyyar gəmini Keyvana tapşırdı. Burada «səyyar gəmi» deyilərkən cism, cismani varlıq, bədən nəzərdə tutulur. İnsan varlığı iki hissədən ibarətdir: bədən və ruh. Bədən, cismani istəklərin, nəfsin yuvasıdır. Ruh isə insana həyat verən, onu yaşadan, insanı uca Allahın (c.c) rizasına uyğun işlər görməyə yönəldən varlıqdır. Artıq is-

557 «Riyazüs-Salihin», c. III, s.538 .
558 «Riyazüs-Salihin», c. II, s.259.
559 «Riyazüs-Salihin», c. IV, s.64.
560 «Riyazüs-Salihin», c. III, s.566 .
561 «Riyazüs-Salihin», c. II, s.261; c. IV, s. 305.
562 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32

lam Peyğəmbəri uca Allahın (c.c) dərgahına yaxınlaşır, ruh məkanına, rəhmət məkanına addım atır. O, səyyar gəmini, yəni cismani varlığı Keyvana tapşırır. Keyvan, Saturn planetinin qədim adıdır. O, nəhs planet sayılır. Ona görə də, islam Peyğəmbəri səyyar gəmini ona bağışlayır.

Şair deyir ki, islam Peyğəmbəri özü ilə təmiz cövhərdən başqa bir şey götürmədi. O, artıq rəhmət məkanının şərtlərinə uyğunlaşmışdır, öz cismani varlığını hiss etmir, nəfs adına heç bir şey qalmamışdır. Deməli, merac halı nəfsini hiss etməmə, onu məğlub etmə, nəfsdən arınma halıdır. Bunsuz ilahi mərtəbəyə ucalmaq, ilahi sirləri bilmək, ilahi elmi əldə etmək mümkün deyil.

İslam Peyğəmbəri özü ilə təmiz cövhərdən başqa bir şey götürmədi, yəni ruhun idarə etdiyi, bütün varlığı «Allah, Allah» deyən bir varlıq oldu. Yəni nəfsin istəklərinə boyun əyərək merac halı yaşamaq, o halın yaratdığı ilahi rəhmət anını, duyğusunu hiss etmək mümkün deyil. «Namaz möminin meracıdır» adlı Peyğəmbər ölçüsünün sirri də budur. Yəni namaz halı nəfsi hiss etməmə halıdır, bütün varlığı ilə ruha aid olma, ona təslim olma, nəfsini unutma halıdır. Bu halda möminin meracı, yəni ilahi sirləri görmə, ilahi rəhməti duyma, onu yaşama halı gerçəkləşir. Bu halda ilahi rəhmət bir yaz yağışı kimi yağar, insanın ruhu, könlü, dili çiçək açar, uca Allahın (c.c) rəhmət günəşi möminin könlünə, gözünə, dilinə, əlinə bərəkət verər.

**Hz. Nizamiyə görə, merac halı aşiqlik, fədakarlıq, təslimiyyət halıdır.** Mübarək Peyğəmbər öz sevgilisinə qovuşmaq üçün «səyyar gəmisini» - cismini Keyvana verdi, O uca varlığın hüzuruna bir pak ruh kimi getdi.

## YÜZ QIRX SƏKKİZİNCİ ADDIM:
## VARLIĞINDAN ANCAQ ÜRƏYİ QALMIŞDI

بپرداخت نزلی به هر منزلی
چنان کو فرو ماند و تنها دلی

***(Beləliklə) hər mənzil başında bəxşişlər verdi,***
***Varlığından ancaq ürəyi qalmışdı.***[563]

Hz. Nizami bu beytdə islam Peyğəmbərinin merac halını, aşiqlik və təslimiyyət halını başqa bir yöndən təqdim etmişdir. O, artıq nəfsə aid hər şeyini fəda etmişdir, onları bəxşiş kimi vermişdir, merac öncəsi halın geriyə dönüş şansı qalmamışdır. Varlığından ancaq ürəyi qalmışdı, yəni uca Allahdan (c.c) başqa, hər şeyi unutmuşdu. Özünü bir quş kimi hiss edirdi, bu Onun heyrət halıdır. O, uca Allahın (c.c) hüzuruna təmiz bir könüllə gedirdi.

## YÜZ QIRX DOQQUZUNCU ADDIM:
## PEYĞƏMBƏRLƏRİN CANI ONUN (AYAĞININ) TORPAĞI OLDU

شده جان پیغمبران خاک او
زده دست هر یک به فتراک او

***Peyğəmbərlərin canı onun (ayağının) torpağı oldu,***
***Onlardan hər biri yəhərinin qunzuğuna əl çəkirdi.***[564]

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinin ucaldığı yüksək mərtəbəni təsvir etmişdir. Bilindiyi kimi, merac gecəsi hz. Məhəmməd (s.a.s) göy üzünün ayrı-

[563] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32
[564] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32

ayrı mərtəbələrində peyğəmbərlərlə görüşmüşdür. Beytin birinci misrasında şair həm islam Peyğəmbərinin başqa peyğəmbərlərdən üstünlüyünü göstərmişdir, həm də demək istəmişdir ki, merac gecəsi, o, elə bir yüksəkliyə ucaldı ki, heç bir peyğəmbər o mərtəbəyə ucalmamışdır. «Peyğəmbərlərin canı onun ayağının torpağı oldu, yəni peyğəmbərlərin olduğu mərtəbə Onun ayağının altında-aşağıda qaldı. Onların hər biri onun atının yəhərinin qunzuğuna əl çəkirdi. Bu ifadə həm Peyğəmbərin daha yüksək mərtəbəyə ucaldığını ifadə edir, həm də islam Peyğəmbərinə olan sevgini. Onlar Peyğəmbəri gördüklərinə çox sevinirlər, ona toxunmağa can atırlar.

## YÜZ ƏLLİNCİ ADDIM:
## DAĞLARI BİR-BİR ÖTÜB KEÇDİ

كمر بر كمر كوه بر كوه راند
گريوه گريوه جنيبت جهاند

***Döşdən-döşə dağları bir-bir ötüb keçdi,***
***Atı dağların dalınca dağlardan aşdı.***[565]

Şair bu beytdə islam Peyğəmbərinin merac gecəsi hərəkətinin ikinci mərhələsini təsvir etmişdir. Birinci mərhələdə O, göy üzünün bəlli bir mərtəbəsinə yüksəlir. Hər yüksəlişdə nəfsə aid olan bir şeyi planetlərə bəxşiş kimi verir: yeddi səyyarənin dənizində ayağının toz-torpağını yuyur, təbiətinin varlığını səyyarələrə paylayır, Aya yuxu beşiyi verir, Utaridin qələmini qırır, təbiətin talağını Nahidə verir, sədəqə üçün Günəşə bir dəyirmi çörək bağışlayır, qəzəbinin atəşini Mərrixə verir, təkəbbürü Müştəriyə verir, onun üzüyünə yeni bir qaş bağışlayır, səyyar gəmini (bədə-

---

565 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32

nini) Keyvana tapşırır, özü ilə cövhərdən başqa bir şey götürmür.

Bundan sonra merac gecəsi islam Peyğəmbərinin hərəkətinin yeni bir mərhələsi başlayır. Artıq O, sanki bir ruha çevrilmişdir, çəkisi olmayan bir varlıq olmuşdur və Onun atı quş kimi uçur. Şair bu halı ifadə etmək üçün hərəkət, uçuş halını təqdim edən sözlər seçmişdir: döşdən-döşə dağları ötüb keçdi, atı dağların dalınca dağlardan aşdı.

## YÜZ ƏLLİ BİRİNCİ ADDIM: MUSA VƏ XIZIR QASİD KİMİ QAÇIRDI

به هارونيش خضر و موسى دوان
مسيحا چه گويم ز موكب روان

***Musa və Xızır qasid kimi qaçırdı,***
***Məsiha, nə deyim, atının qabağında yüyürürdü.***[566]

Hz. Nizami bu beytdə üç Peyğəmbərin adını çəkmişdir. Şair birinci misrada deyir ki, merac gecəsi Musa və Xızır qasid kimi qaçırdı. Qasid xoş, gözəl xəbər verən, müjdələyən deməkdir. Artıq islam Peyğəmbəri göy üzünün yeni mərhələsinə – dinclik məkanına daxil olmuşdur. Bu məkanın qasidləri, müjdəçiləri də mələklər və peyğəmbərlərdir.

Şairin qasid, müjdəçi olaraq təqdim etdiyi peyğəmbərlər sırasında hz. Xızırın (s.a.s) adını çəkməsi təsadüfi deyil. Onun qeyri-adi özəllikləri var idi. Əbu Hureyrənin rəvayətinə görə, islam Peyğəmbəri (s.a.s) belə buyurmuşdur: «Xızır otsuz, quru bir yerdə oturanda həmin otsuz yer dərhal yaşıllanar və bu yaşıl otlar dalğalanardı».[567]

---

[566] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32

[567] Ahmed b. Hanbel, «Müsned», c. II, s. 312; Buhari, «Sahih», c. IV, s. 129, Tirmizi, «Sünen», c. V, s. 313.

Hz. Xızıra (s.a.s) elə bir elm verilmişdi ki, hz. Musa (s.a.s) belə, bu elmi bilmirdi. Hz. Musa (s.a.s) bu elmi öyrənmək üçün səfərə çıxmışdı.[568]

Qurani-Kərimdə və hədislərdə hz. Xızırın, hz. Musa (s.a.s) ilə olan əhvalatlarına geniş yer verilmişdir.[569]

Hz. Xızır (s.a.s) xalqın düşüncəsinə xeyir xəbərin, müjdənin, yardımın, xilasın simvolu kimi yerləşmişdir. Hz. Məhəmmədin (s.a.s) merac gecəsi artıq göy üzünün yeni bir mərhələsinə qədəm qoyduğunu, uca Allahın (c.c) dərgahına yaxınlaşdığını xəbər verən də hz. Xızırdır (s.a.s).

Qasid olmaq, müjdə vermək bir gözəl xəbəri başqalarından öncə bilmək, müjdələnəcək məsələ ilə bağlı elmli olmaq deməkdir.

Hz. Nizaminin beytində hz. Musa (s.a.s) ilə hz. Xızırın (s.a.s) merac gecəsi həm qasid olduqlarını bildirilmiş, həm də xoş xəbəri vermək üçün qaçdıqları, yüyürdükləri ifadə edilmişdir. Burada qaçmaq, yüyürmək sevinci, sevgini, fərəhi ifadə edir. İnsan gözəl bir xəbəri yaymağa çalışar, sevdiyi insanın gəlişini hər kəsin bilməsini istəyər.

Hz. Nizaminin üslubunda hərəkət («qaçmaq», «yüyürmək») sevginin, sevincin ifadə vasitəsinə çevrilmişdir. Merac gecəsi iki Peyğəmbər islam Peyğəmbərinin gedəcəyi ünvana Ondan daha tez çataraq onun gəlişini xəbər vermək istəyir. Burada hz. Musa (s.a.s) ilə hz. Xızır (s.a.s) arasında bir «rəqabət» də var. Müjdəni kim daha tez verəcək? (Yada salaq ki, hz. Xızırın (s.a.s) bir özəlliyi də bir anda olduğu məkandan daha uzaq bir yerə gedə bilməsidir). Şair beytin ikinci misrasında hz. İsanı (s.a.s) da islam Peyğəmbərinin göy üzünə gəlişini müjdələmək istəyən peyğəmbərlər sırasında verir.

---

[568] Kəhf, 18/65; Ahmed b. Hanbel, «Müsned», c. V, s. 118-119; Buhari, «Sahih», c. I, s. 38; Müslim, «Sahih», c. IV, s. 1847-1848.

[569] Kəhf, 18/65; Ahmed b. Hanbel, «Müsned», c. V, s. 118-119; Buhari, «Sahih», c. I, s. 39; c. V, s. 230-231.

## YÜZ ƏLLİ İKİNCİ ADDIM: BUNLAR GÖZ QIRPINCA O GETDİ

به اندازهٔ آنکه یک دم زنند
به یک چشم زخمی که بر هم زنند

***Bunlar bir nəfəs alınca,***
***Bir göz qırpınca…***[570]

Şair bu beytdə islam Peyğəmbərinin iti sürətini, «uçuşunu» bədii dillə ifadə edib. O, bunun üçün iki vasitədən yararlanıb. Öncəki beytdə deyilir ki, hz. Musa (s.a.s), hz. Xızır (s.a.s) və hz. İsa (s.a.s) merac gecəsi islam Peyğəmbərinin uca Allahın (c.c) dərgahına yaxınlaşdığını müjdələmək üçün «qasid kimi qaçırdılar» və «atının qabağında yüyürürdü».

Şair bu beytdə islam Peyğəmbərinin onlardan daha sürətli hərəkət etdiyini göstərmək üçün «nəfəs almaq» felindən istifadə edir. «Nəfəs almaq» bir qısa anı, zamanı ifadə edir. Yəni Peyğəmbər elə sürətlə hərəkət edirdi ki, Onlar bir nəfəs alınca O, uzaqlara getdi. Şairin Peyğəmbərin sürətini ifadə etmək üçün seçdiyi ikinci vasitə «göz qırpmaq» felinin beytin mətninə daxil edilməsidir. «Göz qırpmaq» da bir anı, çox qısa bir zamanı göstərmək üçün istifadə edilir. Yəni Onlar – qasidlər göz qırpınca islam Peyğəmbəri dağlar aşdı.

## YÜZ ƏLLİ ÜÇÜNCÜ ADDIM: MƏKAN VƏ ZAMAN VƏRƏQİNİ OXUYUB BAŞA VURDU

ز خر پشته آسمان در گذشت
زمین و زمان را ورق درنوشت

---

[570] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32

***Göyün ən uca günbədini o aşdı,***
***Məkan və zaman vərəqini (oxuyub) başa vurdu.***[571]

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinin hərəkət sürətini təqdim etmişdir. Şairin islam Peyğəmbərinin merac gecəsini şərh edərkən ən çox istifadə etdiyi anlayışlardan biri hərəkətdir. Şair Onun hərəkət sürətini ayrı-ayrı bədii vasitələrlə ifadə etmişdir: «... müşk dolu göbəyi «Beyti-əqsada açdı», «yerin göbəyindən Əqsaya baş qoydu», «bu diyardan köçünü vurdu», «hücrəyə tərəf yönəldi», «atını yeddi uca fələyə (tərəf) qovdu», «altında şimşək sürətli Buraq var idi», «Buraq kamandan çıxmış oxdan da sürətli idi», «ən kəskin və göylərə uçan təxəyyül ondan yetmiş addım geri qalırdı», «onun dayanması sıçrayışından qabağa düşürdü», «Onun ayağının sürəti baxış sürəti idi», «Onun sürəti baxışı belə tapdalayıb ötürdü», «O, bu səyyar dənizdən toz qopardı», «dağları bir-bir ötüb keçdi», «Onun qarşısında Musa və Xızır qasid kimi qaçırdı», «Məsiha atının qabağında yüyürürdü», «bir nəfəs alınca uzaqlaşdı», «bir göz qırpımında gözdən itdi», «kəcavəsini çərxə sürdü», «ulduzlara çapdı atını», «öz atını uca göydən keçirdi», «yerin sinəsindən atlanıb keç», «ərəb atı altında, qamçı əlində», «şahin qanadlıya ayaq qoydu», «ucalarda süzən kəklik kimi yerindən sıçradı», «Aya tərəf çapdı», «hərəkəti ilə hər şeyi ayaq altına qoydu», «Ay cilovunu çəkdi», «xəyal onun səyirməyini görə bilərdimi?», «şimşək onun qabağında qılıncını sıyıra bilərdimi?», «Ruhun hərəkəti ona çata bilərdimi?», «xəyal, ruh və ağıl onun qarşısında axsayırdılar», «o səyirərək qütbün seyrini keçdi», «cənub və şimal qütbü geridə qaldı», «göylər aləmindən uzaqlaşdı», «fələyin mənzillərindən uçdu», «mələk qanadı ilə Ona yol açırdı», «göy

[571] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32

yolları toza büründü», «gecə küləyi kimi əsirdi», «şirə bənzər köhlən atının belində süzürdü», «bir quş kimi Mədinədən uçdu», «o, bir xəyal kimi bayıra çıxmışdı», «Onun altında Nəsri-Tair qanad tökürdü», «səhradan-səhraya atını sürdü», «tovuz quşunun qanadı sındı, lələkləri töküldü», «İsrafil onu qanadına aldı», «göyləri fərş-fərş keçdi», «atı bütün varlıqdan bayıra sıçratdı», «fələyin zirvəsinə can atdı», «qara atı yol rəqsinə başladı», «ayaqları qanadlanıb göylərə pərvaz etdi», «əl toxunulmamış göylərə ucaldı», «xoşbəxt uçan kimi uçdu», «cahanı işıqlandıran məşəllə yola düzəldi», «yeddi iqlimi, dörd cəhəti, altı tərəfi tərk etdi», «o, cəld yuxunun üzəngisini çəkdi», «Onun ürək quşu (ruhu) dinclik məkanına uçdu», «mələklərin qol-qanadı sındı, yorulub əldən düşdülər», «onun ilahi quşunun (canının) qəfəsi də qanada çevrilmişdi», «o, mil-mil ucalırdı», «ayağı bir mənzil əvəzinə yüz mənzil irəliləyirdi», «onun atının dırnaqları aypara nallarını çıxarıb atdı», «Buraqın ayaq çapması şimşəyə bənzəyirdi», «o, faxta quşu kimi yeyin gedirdi», «gözü elə (iti) oldu ki, xəyal onu tuta bilmədi», «o irəliləyir, ancaq ayaqlarının zəhmətini hiss etmirdi»…

Şair bu beytdə də sürət anlayışını ifadə etmək üçün iki vasitədən istifadə etmişdir. Misrada öncə deyilir ki, islam Peyğəmbəri göyün ən uca günbədini aşdı. Yəni ən uca nöqtədən sürətlə keçdi. Bu hadisə hz. Musa (s.a.s), hz. Xızır (s.a.s) və hz. İsanın (s.a.s) bir göz qırpımında, bir nəfəs alması anında baş verdi.

Şair daha sonra deyir ki, islam Peyğəmbəri «məkan və zaman vərəqini (oxuyub) başa vurdu». Yəni göy üzünün bütün mərtəbələrini keçdi, bu mərtəbələrdə olan həqiqətləri bildi, «məkan və zaman vərəqini oxudu», yəni ölçülü bir məkandan çıxdı və sonsuzluğa daxil oldu.

## YÜZ ƏLLİ DÖRDÜNCÜ ADDIM: ONUN HEÇ TOZUNU DA GÖRMƏDİLƏR

ندیده ز تعجیل ناورد او
کس از گرد بر گرد او گرد او

***Onun hərəkətinin fövqəladə sürətindən,***
***Ətrafındakından Onun heç tozunu da görmədilər.***[572]

Şair bu beytdə də merac gecəsi islam Peyğəmbərinin sürətini təsvir etmişdir. Onun iti sürətlə hərəkət etdiyini ifadə etmək üçün iki vasitədən yararlanmışdır. Öncə Onun hərəkətinin sürətini «fövqəladə» adlandırmışdır. «Fövqəladə», qeyri-adi, təbii qanunlarla izahı mümkün olmayan hadisə (sürət) deməkdir. Yəni Onun sürəti elə idi ki, Onu görmək mümkün deyildi. Şair bu fikri gücləndirmək üçün ikinci misrada başqa bir vasitədən də istifadə edir. Deyir ki, «… Onun tozunu da görmədilər». Bir şeyin yoxluğunu, onun əldə edilməsinin mümkünsüzlüyünü, iti sürətini ifadə etmək üçün «toz» sözündən istifadə olunur: «tozuna da çatmaq mümkün olmadı», «toz-duman qalxdı», «toz-dumana büründü», «izinə, tozuna rast gəlinmədi», «izi, tozu da yoxdur», «toz qopartdı».

Şair deyir ki, O, elə sürətlə hərəkət edirdi ki, ətrafındakılar Onun tozunu da görmədilər. Bu, iti sürəti ifadə etmək üçün seçilmiş gözəl bədii sözdür.

---

[572] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32

## YÜZ ƏLLİ BEŞİNCİ ADDIM:
## FƏLƏK ONUN UÇUŞUNDAN GERİDƏ QALDI

ز پرتاب تیرش در آن ترکتاز
فلک تیر پرتابها مانده باز

***Bu at səyirtməkdə Onun oxunun uçuşundan,***
***Fələk neçə ox uçuşu geriyə qaldı.***[573]

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinin «uçuşunu» təsvir etmək üçün gözəl bədii vasitələrdən istifadə etmişdir. Şair öncə beytə sürət anlayışı bildirən bir neçə söz daxil etmişdir: at səyirtmək (sürətlə at çapmaq), ox, uçuş, ox uçuşu, geriyə qalmaq. Bu anlayışların hər biri və hamısı bir yerdə iti sürəti təqdim edir. Şair sürət, uçuş sözlərini həm hərəkət, həm də sevgi, istək, can atmaq kimi mənalandırır. Şairin təsvirində islam Peyğəmbəri merac gecəsi uca Allah (c.c) sevgisi ilə qanad açıb uçur, bu sevgi Ona elə bir güc, elə bir sürət verir ki, heç bir varlıq Ona çata bilməz.

## YÜZ ƏLLİ ALTINCI ADDIM:
## CAHAN DARVAZASINA YÖNƏLDİ

راه دروازه جهان برداشت
دوری از دور آسمان برداشت

***Cahan darvazasına (tərəf) yola düzəldi,***
***Və göylər aləmindən uzaqlaşmağa başladı.***[574]

Şair bu beytdə merac gecəsi islam Peyğəmbərinin göy üzünün ayrı-ayrı təbəqələrindəki hərəkətini təsvir etmişdir.

---

[573] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32
[574] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22

O, misrada «cahan darvazası» deyərkən islam Peyğəmbərinin göy üzünün ilk təbəqəsindən keçərək yeni bir mərhələyə – cahana keçdiyini göstərmişdir. Bu mərhələ Ay planetinin yerləşdiyi təbəqədən başlayaraq davam edir. Şair, Peyğəmbər «göylər aləmindən uzaqlaşdı» deyərkən də «uçuşun» birinci mərhələsinin başa çatdığını bildirmişdir.

## YÜZ ƏLLİ YEDDİNCİ ADDIM:
## MƏLƏK ONA YOL AÇIRDI

می‌برید از منازل فلکی
شاهراهی به شهپر ملکی

***O, fələk mənzillərindən (uçaraq),***
***Mələk şahpəri (qanadı) ilə şahrah***
***(böyük yol) açırdı.***[575]

Şair bu beytdə merac gecəsi islam Peyğəmbərinin qət etdiyi məsafənin bədii ifadəsini vermişdir. Misrada «fələk mənzilləri» deyilərkən yeddi planetin (Ay, Merkuri, Venera, Günəş, Mars, Yupiter, Saturn) yerləşdiyi göy təbəqələri nəzərdə tutulmuşdur. Şair, islam Peyğəmbərinin bu planetlər arasında olan məsafəni sürətlə qət etdiyini göstərmək üçün «uçmaq» felindən istifadə etmişdir. O, uçurdu, yəni çəkisini hiss etmirdi, yəni sevinirdi, yəni çox sevirdi, yəni xoşbəxt idi.

Şair beytin ikinci misrasında islam Peyğəmbərinin dəyərini anlatmaq üçün deyir ki, bu yolçuluqda Onun önündə mələk uçurdu. Bu mələk böyük qanadları ilə Ona böyük yol açırdı.

---

[575] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22

## YÜZ ƏLLİ SƏKKİZİNCİ ADDIM:
## O, AYA FƏZİLƏTİNDƏN TƏRAVƏT BƏXŞ ETDİ

ماه را در خط حمايل خويش
داد سر سبزى از شمايل خويش

***O, Ayın həmayil xəttinə,***
***Öz fəzilətindən təravət bəxş etdi.***[576]

Merac gecəsi şanlı Peyğəmbər göylərə ucalır. «Fələk mənzillərini» bir-bir fəth edir. Həm planetə gözəl bir şey bağışlayır. O, Ayın həmayil xəttinə çatır. Beytdəki «Ayın həmayil xətti» ifadəsi Ayın orbiti, Ayın əhatə etdiyi məkan mənasında verilmişdir.

Beytin ideyasını təqdim edən ən önəmli anlayışlardan biri də «fəzilət»dir. «Fəzl» ərəbcə artan, çoxalan, çox, çoxluq, üstünlük, fəzilət, nemətdir. Qurani-Kərimdə fəzl kəlməsi müxtəlif mənalarda işlənmişdir:

Qurani-Kərimə görə, fəzl uca Allahın (c.c) nemət verməsidir:

ولا تُؤْمنُواْ إلا لِمن تَبِع دينَكُم قُلْ إن الْهدى هدى اللّه أَن يؤْتَى أَحد مثْلَ ما أُوتيتُم أَو يحآجوكُم عند ربكُم قُلْ إن الْفَضلَ بِيد اللّه يؤْتيه من يشَاء واللّه واسع عليم

(Ali-İmran, 3/73)

«… (Ey Rəsulum!) De: «Həqiqətən, fəzl (nemət) Allahın əlindədir və onu istədiyi şəxsə bəxş edən Allah (rəhməti ilə) genişdir. (O, hər şeyi) biləndir!»

Təfsirçilərə görə, ayədəki «fəzl» (lütf, nemət) ilahi vəhy mənasındadır.[577] Çünki ayənin əvvəlində yəhudilərin

[576] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22
[577] Muhammed Esed, «Kuran mesajı» (meal-tefsir), İstanbul, 2002, s. 104.

ilahi nemətin onlardan başqasına verilməyəcəyini söylədikləri bildirilir. Uca Allah (c.c) da bu əsassız iddiaya cavab olaraq nemətin (vəhyin, fəzlin) kimə verilməsinin ancaq Ona aid olduğunu buyurur. Qurani-Kərimin başqa ayələrində də fəzl ilahi nemət kimi açıqlanmışdır.[578]

Qurani-Kərimdə «fəzl» bağışlamaq mənasında işlədilmişdir:

وما ظَنّ الذين يفْتَرون على اللّه الْكَذب يوم الْقيامة إِن اللّه لَذُو فَضلٍ على الناسِ ولَـكن أَكْثَرهم لا يشْكُرون

(Yunis, 10/60)

«Allaha iftira yaxanların qiyamət günü barəsindəki zənləri nədən ibarətdir? Allah insanlara qarşı mərhəmətlidir (fəzl sahibidir), ancaq onların çoxu şükür etməz!»

أَلَم تَر إِلَى الذين خَرجوا من ديارِهم وهم أُلُوفٌ حذَر الْموت فَقَالَ لَهم اللّه موتُوا ثُم أَحياهم إِن اللّه لَذُو فَضلٍ على الناسِ ولَـكن أَكْثَر الناسِ لا يشْكُرون

(əl-Bəqərə, 2/243)

«(Ey Rəsulum!) Minlərlə adamın (taundan) ölüm qorxusu ilə öz yurdlarını tərk edib getdiklərini görmədinmi? Allah onlara: «Ölün!» - dedi və sonra da (yenidən) diriltdi. Həqiqətən, Allah insanlara lütf edəndir (bağışlayandır), ancaq insanların çoxu şükür etməzlər!»

Qurani-Kərimin bir sıra ayələrində fəzl kökündən törəyən bəzi kəlmələr «üstün etdi», «üstünlük verdi» mənasında işlənmişdir:

---

[578] Yunus, 10/58; Cumuə, 62/4; Nisa, 4/122; Ali-İmran, 3/171; Nisa, 4/175; Yusif, 12/38; Nur, 24/10, 22.

لا يستوي القاعدون من المؤمنين غير أولي الضرر والمجاهدون في سبيل الله بأموالهم وأنفسهم فضل الله المجاهدين بأموالهم وأنفسهم على القاعدين درجة وكلا وعد الله الحسنى وفضل الله المجاهدين على القاعدين أجراً عظيماً

(ən-Nisa, 4/95)

«Zərər çəkmədən (üzrsüz səbəbə görə evlərində) əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən (vuruşan) kimsələr bir olmazlar. Allah malları və canları ilə vuruşanları (evlərində) əyləşənlərdən (cihada getməyənlərdən) dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına (hər ikisinə) savab vəd etmişdir. (Ancaq) Allah mücahidlərə (evlərində) oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir».

Şair deyir ki, O, Ayın həmayil xəttinə öz fəzilətindən təravət bəxş etdi. Yəni merac gecəsi islam Peyğəmbəri öz fəziləti ilə Ay planetinə təzəlik, təravət verdi, onun nurunu artırdı. Ay islam Peyğəmbərini  gördü və daha parlaq işıq saçmağa başladı.

## YÜZ ƏLLİ DOQQUZUNCU ADDIM:
## O, UTARİDƏ RƏNG BAĞIŞLADI

بر عطارد ز نقره کاری دست
رنگی از کوره رصاصی بست

***O, Utaridə öz əlinin gümüş işlərindən,***
***Öz qalay kürəsindən rəng bağışladı.***[579]

Utarid indiki Merkuri planetinin qədim adıdır. Bu planet içidolu işıqlı bir kürə şəklindədir. Şair gözəl bir bənzətmə yaratmışdır. Bir qab çox istifadə olunanda ocağın hisindən qara-

[579] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22

lır. Sonra qalayçı alovla bu qabın qarasını təmizləyir, onu qalaylayaraq əvvəlki formasını bərpa edir. Şairin təfsirinə görə, içidolu işıqlı bir kürə şəklində olan bu planet yanan alovun təsirindən əvvəlki gözəlliyini itirmiş və qaralmışdır. İslam Peyğəmbəri də merac gecəsi Utaridi öz qalay kürəsində təmizləmiş, ona gümüşü rəng vermişdir. Peyğəmbərin bərəkəti ilə Utarid öz gözəlliyinə qovuşmuşdur.

## YÜZ ALTMIŞINCI ADDIM:
## ZÖHRƏNİN BAŞINA ÖRTÜK SALDI

زهره را از فروغ مهتابی
برقعی برکشید سیمابی

***Zöhrənin (başına) isə,***
***Ay işığından civə rəngli örtük saldı.***[580]

Zöhrə indiki Venera planetinin qədim adıdır. Bu planetə klassik astronomiya elmində «kiçik xoşbəxtlik» adı verilmişdir. O, öz gözəlliyi ilə seçilmişdir. Merac gecəsi islam Peyğəmbəri hər planetə o planetin xarakterinə uyğun bir şey bağışlayır: Aya nur verir, Merkuriyə gümüşü rəng seçir, Zöhrə də öz gözəlliyi ilə seçildiyindən onun gözəlliyini artıran örtüyü başına örtür. Bu örtük Ay işığındandır və civə rənglidir. Artıq gözəl olan Zöhrənin başında civə rəngli nur örtüyü, haləsi var.

---

[580] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22

## YÜZ ALTMIŞ BİRİNCİ ADDIM:
## GÜNƏŞİN BAŞINA QIZIL TAC QOYDU

گرد راهش به ترکتاز سپهر
تاج زرین نهاد بر سر مهر

***Onun çapdığı göy yollarının tozundan,***
***Günəşin başına qızıl tac qoydu.***[581]

Merac gecəsi islam Peyğəmbəri Günəş planetinə çatdı. Günəşə yaraşan hədiyyəni ona verdi. Onun atını çapdığı göy yollarının tozu da qızıl zərrələri idi. O, bu zərrələrdən qızıl tac düzəltdi və Günəşin başına qoydu. Başa tac qoymaq sultanlıq əlamətidir. Günəş planeti də planetlərin sultanıdır, hamısı onun ətrafında dolanır. Günəş uca Allahın (c.c) qüdrəti ilə kainata həyat verir. Ona yaraşan da merac gecəsi Peyğəmbərin atını çapdığı səma yollarının qızıl tozundan hazırlanmış tacın Peyğəmbərin mübarək əli ilə onun başına qoyulmasıdır. Bu həm Günəşin dəyərini, həm onun planetlər arasındakı yerini göstərir, həm də Peyğəmbərin qızıl tac verməsi onun üçün böyük şərəfdir.

## YÜZ ALTMIŞ İKİNCİ ADDIM:
## GECƏNİN XƏLİFƏSİNƏ YAŞIL GEYİNDİRDİ

سبز پوشید چون خلیفه شام
سرخ پوشی گذاشت بر بهرام

***Gecənin xəlifəsinə yaşıl geyindirib,***
***Qırmızı paltarı Mərrix üçün saxladı.***[582]

---

[581] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22
[582] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22

Hz. Nizami bu beytdə də merac gecəsinin gözəlliklərini təsvir üçün təkrarsız bədii biçimlərdən istifadə edib. Bütövlükdə, ideyanı təqdim edərkən rənglərdən istifadə şairin üslub göstəricilərindən biridir. Şair islam Peyğəmbərini təqdim edərkən sonsuzluq məkanı olan göy üzündən və rənglərdən istifadə edir: «O, firuzə rəngli kərpicdən tikilmiş günbəzin (səmanın) altında oturmuşdu», «saray behiştində yetişmiş tərtəzə turunc idi», «Ayın zəbərcəd daşlı qaşında hz. Məhəmmədin (s.a.s) möhürü həkk olunmuşdu», «Süsənbər nəfəsindən nilufər rəngli Əqrəbin (əqrəb bürcünün) quyruğuna şərbət tökdü», «yer üzü bahar rənginə boyandı», «göylərin firuzə rəngli fərşi», «yaşıl geyimlilərin göy çadırı»…

Şair bu beytdə də rənglərdən istifadə edir. Öncə Aya işıq rəngi verir, Utaridə gümüşü rəngi bağışlayır, Zöhrəyə civə rəngli örtük hədiyyə edir, Günəşin başına qızıl rəngli tac qoyur. Hər planetə verilən hədiyyənin rəngi onun xarakterinə, rənginə uyğundur. Rəng uyumu da gözəllik yaradır.

Şair bu beytdə Ayı gecənin xəlifəsi adlandırır. Burada xəlifə sultan mənasındadır. Ay gecə göründüyünə görə, şair onu «gecənin xəlifəsi» adına layiq görmüşdür. Şair merac gecəsi bu xəlifəyə onun əzəmətini göstərən, onun xəlifə tituluna yaraşan yaşıl rəngli paltar geyindirir. Nurlu Ay və yaşıl rəngli paltar xəlifəyə yaraşan görünüşdür, deyilmi?

Şair beytin ikinci misrasında deyir ki, islam Peyğəmbəri qırmızı paltarı Mərrix üçün saxladı. Mərrix indiki Mars planetinin qədim adıdır. Bu planet qədim astronomiyada «kiçik nəhs» adlandırılmışdır. Bu planetə «qırmızı Mərrix» də deyilmişdir. Şair də Mərrix planetinin bu özəlliklərindən istifadə edərək Ay planetinə yaşıl rəngli paltar, Mərrixə isə qırmızı paltar seçir.

## YÜZ ALTMIŞ ÜÇÜNCÜ ADDIM: MÜŞTƏRİNİN BAŞINA SƏNDƏL SÜRTDÜ

مشتری را ز فرق سر تا پای
دردسر دید و گشت صندل سای

***Müştərini başdan-ayağa qədər,***
***Başıağrılı görüb, ona səndəl sürtdü.***[583]

Müştəri planetinin indiki adı Yupiterdir. Qədim astronomiyada onu «böyük xoşbəxtlik» planeti adlandırmışlar. Bu planet göy üzünün altıncı təbəqəsində yerləşir. Onun gözəl vəsfləri var. Şair deyir ki, merac gecəsi islam Peyğəmbəri Müştərinin başının ağrıdığını bildi. Onun başına səndəl sürtdü. Səndəl bir ağac adıdır. Bu ağac Hindistanda bitir. Onun xoş ətri var. Qırmızı və Sarı səndəl ağacları daha çox tanınır. Onun çubuğu çox bərk və lifsiz olur. Bu ağacın çubuğunu qurudub, sonra toz halına salırlar. Sonra bu tozu suda isladırlar və alınan məlhəmdən başağrısı dərmanı kimi istifadə edirlər. Bu məlhəmi başı ağrıyan adamın alnına və gicgahına sürtürlər. Səndəl rəngi həm də Müştərinin rəmzidir.

Şair bu beytdə islam Peyğəmbərinin mərhəmət və xeyirxahlıq kimi iki özəlliyini önə çəkmişdir.

## YÜZ ALTMIŞ DÖRDÜNCÜ ADDIM: KEYVANIN BAYRAĞINI QARAYA BOYADI

تاج کیوان چو بوسه زد قدمش
در سواد عبیر شد علمش

***Keyvanın tacı onun qədəmini öpərkən***
***Bayrağını ənbərlə qaraya boyadı.***[584]

---

[583] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22
[584] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22

Keyvan planetinin indiki adı Saturndur. Bu planetə qədim astronomiya elmində Zühal da deyilmişdir. Astronomlara görə, Keyvan «böyük uğursuzluq» əlamətidir. Keyvan planeti yeddi təbəqənin ən axırıncısında yerləşir.

Şair Keyvanın «böyük uğursuzluq» əlaməti olduğunu ifadə etmək üçün müxtəlif vasitələrdən istifadə edir. Öncə deyir ki, Keyvanın tacı Onun ayağını öpdü. Burada Keyvanın tacının Onun ayağını öpməsi həm islam Peyğəmbərinin Keyvanın yerləşdiyi məkandan daha yüksəyə ucalmasını ifadə edir, həm də Keyvanın məğlub olduğunu göstərir. Şair daha sonra deyir ki, islam Peyğəmbərini onun bayrağını ənbərlə qaraya boyadı. Qara rəng də uğursuzluq əlamətidir. Misrada bayrağın ənbərlə qaraya boyanması isə o deməkdir ki, Peyğəmbər merac gecəsi Keyvanı pis işlərdən (uğursuzluq yaymaqdan) əl çəkməyə məcbur etdi. Həm də qara rəng Keyvan planetinin rəmzidir.

## YÜZ ALTMIŞ BEŞİNCİ ADDIM:
## O, ŞİRƏBƏNZƏR KÖHLƏN BELİNDƏ SÜZÜRDÜ

او خرامان چو باد شبگیری
برهیونی چو شیر زنجیری

***O, tünd gecə küləyi kimi,***
***Zəncirlənmiş şirəbənzər köhlən belində süzürdü.***[585]

Şair bu beytdə merac gecəsi islam Peyğəmbərinin sürətini təsvir etmişdir. Artıq yeni bir mərhələ başlanmışdır. Ay, Utarid, Zöhrə, Günəş, Mərrix, Müştəri, Keyvan planetləri geridə qalmışdır. İslam Peyğəmbəri bu planetlərin hər birində dayandı, onlara xarakterlərinə uyğun hədiyyələr verdi. İndi yeni bir mərhələ başlanmışdır. Ona görə də islam

[585] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 22

Peyğəmbəri daha böyük sürətlə hərəkət edir. Şair Onun iti sürətini ifadə etmək üçün yeni bədii vasitələr seçir. Onun hərəkətini tünd gecə küləyinə bənzədir. Şair Buraqı zəncirlənmiş şirə bənzədir, onun kimi güclü, cəld olduğunu bildirir. Misradakı «gecə küləyi» obrazı sürəti, bu iti sürət zamanı eşidilən səsi ifadə edir. Misradakı «köhlən» sözü və «süzmək» feli də hərəkət anlayışını canlandırır.

## YÜZ ALTMIŞ ALTINCI ADDIM: TAVUS QANADINI SINDIRDI

بدان پرندگی طاوس اخضر
فکند از سرعتش هم بال و هم پر

***O cür uçuşu (görüb) yaşıl rəngli tavus,***
***Sürətlə qaçmaqdan qanadını sındırmış,***
***lələklərini tökmüşdü.***[586]

Şair bu beytdə merac gecəsi islam Peyğəmbərinin sürətini təsvir etmək üçün gözəl bir tavus quşu obrazı yaratmışdır. Bu yaşıl rəngli tavus merac gecəsi islam Peyğəmbərinin uçuşunu görür, Ona çatmaq istəyir, ancaq qanadlarını sındırır, lələkləri tökülür. Misrada «qanad sındırmaq» və «lələklərini tökmək» iki məna ifadə edir: Peyğəmbərin yüksək sürətini, uçuşunu, Ona çatmağın mümkünsüzlüyünü.

## YÜZ ALTMIŞ YEDDİNCİ ADDIM: RUHANİ ALƏMDƏKİLƏRƏ NUR BAĞIŞLADI

تنیده تنش در رصدهای دور
به روحانیان بر جسدهای نور

---

[586] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

*Onun lətif və nurani varlığı uzaq göylərdə,*
*Ruhani aləmdəkilərə nur bağışladı.*[587]

Hz. Nizami bu beytdə gözəl bənzətmələrdən istifadə etmişdir. Şair deyir ki, Peyğəmbərin varlığı lətif (incə) və nuranidir. O, elə nurludur ki, nurdan yaradılmış mələklərə belə, nur bağışlamışdır.

Şair beytdə mələkləri ruhani aləmdə yaşayan varlıqlar kimi təqdim edir. Burada «ruhani aləm» deyilərkən təmizlik, dinclik, ilahi rəhmətin çox olduğu məkan nəzərdə tutulur. «Ruhani məkan» anlayışı mələklərin yaradılış özəlliklərinə də uyğundur. «Mələk» sözü lüğətdə «qüdrət», «güc», «götürmək», «elçilik etmək» (mülk, lək, əlk) mənalarında olan kökdən törəmişdir. Mənası «elçi», «güclü», «əmr verən», «idarə edən» deməkdir.[588] Terminologiyada isə: «Allahın yaratdığı, müxtəlif şəkillərdə görünə bilən, çətin işlərə gücü çatan, kişilik və qadınlıq xüsusiyyətləri olmayan, Allaha itaətdən ayrılmayan lətif varlıqlardır».[589]

Mələklərin nədən yaradıldığı ilə bağlı Qurani-Kərimdə hər hansı bir məlumat yoxdur. Ancaq bir hədisdə islam Peyğəmbəri belə buyurur: «Mələklər nurdan, cinlər tüstüsüz atəşdən, Adəm isə sizə bildirilən şeydən (palçıqdan) yaradılmışdır».[590]

Qurani-Kərimdə mələklərin insanlardan öncə yaradıldığı buyurulur:

وَلَقَدْ خَلَقْنَاكُمْ ثُمَّ صَوَّرْنَاكُمْ ثُمَّ قُلْنَا لِلْمَلَآئِكَةِ اسْجُدُواْ لآدَمَ فَسَجَدُواْ إِلاَّ إِبْلِيسَ لَمْ يَكُن مِّنَ السَّاجِدِينَ

(əl-Əraf, 7/11)

---

[587] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32.
[588] İbnul-Mənzur, «Lisanul-ərəb», «Əlk», «Lək», «Mlk» maddələri
[589] Taftazani, «Şərhul-Məqasid», c. II, s. 40-41.
[590] Müslim, «Zühd», 60; Əhməd b. Hənbəl, «Müsnəd», c. VI, s. 168.

«Sizi (babanız Adəmi) yaratdıq, sonra sizə surət verdik və mələklərə: «Adəmə səcdə edin!» - dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə edənlərdən olmadı»[591]

Qurani-Kərimdə bildirilir ki, mələklər güclüdür,[592] uca Allah (c.c) onlara müraciət edir, onlarla danışır,[593] Qurana görə, hz. İbrahim (s.a.s),[594] hz. Zəkəriyyə,[595] hz. Məryəm[596] mələklərlə danışmışlar. Onlar ərşin ətrafında təvaf edirlər,[597] aralarında iricüssəli və sərt olanları var,[598] onların qanadı və əli var.[599] Onlar mücərrəd deyil, həqiqi varlıqdır, ancaq gözlə görülməsi mümkün olmayacaq dərəcədə lətifdir.

Quranda və hədislərdə olan bilgilərə görə, mələklərin özəlliyini belə sıralamaq olar:

Onlar nurdan yaradılıb, cinsi yoxdur, yemir, içmir, yorulmur.[600]

– Mələklər uca Allaha (c.c) itaət edir. Onlar uca Allahın (c.c) əmrindən çıxmaz.[601]

– Onlar sürətlə hərəkət edir, çox güclüdür.[602]

– Uca Allahın (c.c) əmri ilə müxtəlif şəkillərə girə bilərlər.[603]

---

591 Geniş bilgi üçün baxın: əl-Bəqərə, 2/30-34; əl-Əraf, 7/11; əl-Hicr, 15/28, 30; əl-İsra, 17/61; əl-Kəhf, 18/50; Taha, 20/116; Sad, 38/71, 73.
592 ən-Nəcm. 53/5; ət-Təkvir, 81/20.
593 əl-Bəqərə, 2/30; əl-Əraf, 7/11; əl-Hicr, 15/28; əl-İsra, 17/61.
594 əl-Hicr, 15/59-69.
595 Hud, 11/77-82.
596 Ali-İmran, 3/39.
597 əz-Zumər, 39/75.
598 ət-Təhrim, 66/6.
599 Fatir, 35/1.
600 Hud, 11/70; əl-Ənbiya, 21/19-20.
601 Məryəm, 19/16-17; əl-Hicr, 15/51-52;
602 əl-Məaric, 70/4.
603 əz-Zariyat, 51/24-28.

– Onları gözlə görmək mümkün deyil. Peyğəmbərlər onları əsl surətləri və büründükləri biçimlərlə görə bilirlər.[604]

– Qeybi bilmirlər.[605]

Bununla birgə, mələklərin vəzifələri də var. Onlar uca Allahın (c.c) verdiyi vəzifələri qüsursuz yerinə yetirirlər. Onların vəzifələrini belə sıralamaq olar:

– Uca Allaha (c.c) həmd etmək. Ona səcdə etmək.

تَكَاد السماواتُ يتَفَطرن من فَوقهن والْملَائِكَةُ يسبحون بِحمد ربهم ويستَغْفرون لِمن في الْأَرضِ أَلَا إِن الله هو الْغَفُور الرحيم

(əş-Şura, 42/5)

«Göylər (Allahın əzəmətindən, heybətindən) az qala bir-birinin üstündən çatlayıb dağılsın. Mələklər də Rəbbini həmd-səna ilə təqdis edər və yerdəkilərin (günahlarının) bağışlanmasını diləyərlər. Bilin ki, Allah, həqiqətən, bağışlayandır, rəhm edəndir!»

Mələklər gecə-gündüz uca Allahı (c.c) öyərlər,[606] Onu təqdis edərlər, buyruqları yerinə yetirərlər.[607]

– Peyğəmbərlərə vəhy gətirmək.

قُلْ من كَان عدواً لجِبرِيلَ فَإِنه نَزلَه علَى قَلْبِك بِإِذْنِ اللّه مصدقاً لما بين يديه وهدى وبشْرى لِلْمؤْمنين

(əl-Bəqərə, 2/97)

«(Ey Rəsulum!) Cəbrailə düşmən olan kimsəyə de ki, onu (Quranı) özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiq-

---

604 ət-Tövbə, 8/26.
605 əl- Bəqərə, 2/30-33.
606 əl-Ənbiya, 21/19.
607 ən- Nəhl, 16/50.

ləyin, möminlər üçün isə hidayət və müjdəçi olaraq Allahın izni ilə sənin qəlbinə o nazil etmişdir».

– Peyğəmbərləri səlat və salamla ucaltmaq.[608]

– Peyğəmbərlərə və möminlərə dəstək olub mənəvi güc vermək, kafirlərə sıxıntı vermək.[609]

– İnsanları qorumaq.[610]

– İnsanların əməllərini qeyd etmək.[611]

إِن كُلُّ نَفْسٍ لَّمَّا عَلَيْهَا حَافِظٌ

(ət-Tarik, 86/4)

«Elə bir kimsə yoxdur ki, onun üstündə bir gözətçi (mələk) olmasın!»

– Kainatın idarə olunmasında və ilahi qanunların icrasında iştirak edirlər.

– İlahi cəzaları icra edirlər.

Hz. Nizami bu qaynaqlardan çıxış edərək mələkləri lətif, nurani varlıq adlandırır, onların ruhani aləmdə yaşadığını bildirir. Şair deyir ki, merac gecəsi islam Peyğəmbəri mələklərdən də lətif və nurani idi. Ona görə də, mələklərə belə, nur bağışladı.

## YÜZ ALTMIŞ SƏKKİZİNCİ ADDIM: O, GÜL KİMİ ƏLDƏN-ƏLƏ VERİLDİ

چون گل ازین پایه فیروزه فرش
دست به دست آمد تا ساق عرش

***O (göylərin) firuzə rəngli fərşləri üstündə,***
***Gül kimi əldən-ələ (verilərək) ərşin (Allahın taxtının) ayaqlarına yetişdi.***[612]

---

[608] əl-Əhzab, 33/5-6.
[609] ən- Nəhl, 16/28, 32; əl-Mücadilə, 58/22.
[610] Kaf, 50/17-18.
[611] ər-Rəd, 13/10-11.
[612] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

Hz. Nizami bu beytdə gözəl bir mənzərə yaratmışdır. Şair göy üzünü firuzə rəngli (tünd mavi rəngli) fərşə bənzətmişdir. Şair mənzərəni elə təqdim etmişdir ki, sanki, göy üzü öncədən islam Peyğəmbərinin gəlişinə hazırlıq görmüşdür. Bir insan sevdiyi əziz qonağını qarşılamaq üçün öncədən hazırlıq görər, evinə fərşlər salar, hər şeyin gözəl olmasını istər. Göylər də ən gözəl rəngə bürünmüşdür.

Şair sonra islam Peyğəmbərini bir gülə bənzətmişdir. Səmada olan varlıqlar Onu əlində tutur, hər biri ona toxunmağa çalışır. Azərbaycan türkcəsində bir şeyin əziz, qiymətli olduğunu bildirmək üçün belə ifadələrdən istifadə olunur: «əldən-ələ gəzmək», «əl içində saxlamaq», «əli üstündə olmaq», «ovcunda tutmaq» və s. Şair də beytdə göy üzünün Peyğəmbər sevgisini ifadə etmək üçün Onun gül kimi əl-əl gəzdiyini, hər bir planetin Onun ətrini duymaq, Onun ətri ilə ətirlənmək istədiyini bildirmişdir.

## YÜZ ALTMIŞ DOQQUZUNCU ADDIM: YOL YOLDAŞI YORULDU

هم رفيقش ز تركتاز افتاد
هم براقش ز پويه باز افتاد

***Onun həm yol yoldaşı yürüşdən yorulub qaldı,***
***Həm də Buraqı çapmaqdan (yorulub) qaldı.***[613]

Şair bu beytdə həm islam Peyğəmbərinin merac gecəsi qət etdiyi məsafəni, həm də sürətini ifadə etmişdir. Artıq O, elə bir mərhələyə çatmışdır ki, yol yoldaşı irəli gedə bilmir. Buraq belə, əldən düşmüşdür. O, artıq ən uca məqama yaxınlaşmışdır.

---

[613] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

# YÜZ YETMİŞİNCİ ADDIM:
# ƏRŞİN YAXASI ONUN ƏTƏYİNƏ TOXUNDU

سدره شده صد ره پیراهنش
عرش گریبان زده در دامنش

***Sidr onun qolsuz köynəyi (cılıqqası) oldu,***
***Ərşin yaxası onun ətəyinə toxundu.***[614]

Hz. Nizami bu beytin ideyasını iki anlayış üzərində qurmuşdur. Beytin ideyası merac gecəsi islam Peyğəmbərinin çox uca mərtəbəyə yüksəldiyini ifadə etməkdir. Bunun üçün şair iki anlayışı beytin mətninə daxil etmişdir. Bu anlayışlardan biri «Sidr ağacı»dır. Sidr ağacının adı Qurani-Kərimdə çəkilmişdir.

ولَقَد رآه نَزلَةً أُخْرى . عند سدرة الْمنْتَهى . عندها جنةُ الْمأْوى . إِذْ يغْشَى السدرةَ ما يغْشَى . ما زاغَ الْبصر وما طَغَى . لَقَد رأَى من آيات ربه الْكُبرى

(ən-Nəcm, 53/13-18)

«And olsun ki, (Məhəmməd, Cəbraili öz həqiqi surətində) başqa bir dəfə də (merac vaxtı) görmüşdü. (Yeddinci göydəki) Sidrətül-müntəhanın yanında. (Mələklər, şəhidlər və müttəqilər məskəni olan) Məva cənnəti onun yanındadır. O zaman Sidrəni nələr bürümüşdü, nələr! Göz nə (sağa-sola) yayındı, nə də uzağa getdi (hər şeyi olduğu kimi gördü). And olsun ki, (Peyğəmbər) öz Rəbbinin ən böyük qüdrət nişanələrindən (möcüzələrindən) bir qismini (Beytül-məmuru, Sidrətül-müntəhanı, Cənnəti, Cəhənnəmi, Rəfrəfi, altı yüz qanadı olan Cəbrailin həqiqi surətini) gördü».

---

[614] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

Sidrə ilə bağlı islam alimləri ayrı-ayrı fikirlər söyləmişlər. Alimlərə görə, Sidrə ağacı iri yarpaqları olduğundan belə adlandırılmışdır. Bu ağac «cənnətin kölgəsinin», yəni ruhi sükunət və rəhmətin bir simvoludur. «Sidrətül-müntəha» «ən uzaq nöqtə»dir, yəni uca Allahın (c.c) yaratmış olduğu varlıqların əldə edə biləcəyi bilgilərin ən son nöqtəsidir. İnsan bilgisi sonsuz deyil və onun hər şeyi bilmək imkanı yoxdur.[615]

Böyük islam alimi Zəməxşəriyə görə, Sidrə ağacı «heç bir təsvirin çəkə bilməyəcəyi, heç bir ifadənin ifadə edə bilməyəcəyi gözəl cənnət simvoludur».[616]

«Sidrətül-müntəha» son ağac deməkdir, xurma ağacına, ya da Ərəbistan gilasına bənzəyir. Çox gözəldir. «Müntəha isə varlıq aləminin son nöqtəsidir. Bundan sonra Allahın qeyb aləmi başlayır. Bura eyni zamanda cənnətin də sonudur. … Alimlərin təfsirinə görə, Sidreyi-Müntəha yeddinci qat səmada olan bir ağacdır və cənnətdəki dörd bulaq (su, süd, şərbət, bal) bu ağacın altından qaynayır. Peyğəmbərimizin bu ağacı təsvir edən bəzi sözlərindən onun kainat ağacı olduğu söylənilmişdir. Başqa bir görüşə görə isə Sidrətül-Müntəha insan ağlını heyrətə salan, ondan daha üstün bir heyrət olmayacağı şeydir, onu təsvir etmək mümkün deyil…».[617]

Hz. Nizami beytin birinci misrasında Sidr ağacını iki anlamda işlətmişdir. Birincisi, şair demək istəyir ki, islam Peyğəmbərinin merac gecəsindəki yolçuluğunun bir mərhələsi başa çatmışdır. Sidr ağacının olduğu yer bu aləmin son nöqtəsidir. İkincisi, şair demək istəyir ki, sidr ağacı çox gözəldir. Ancaq o, Peyğəmbər üçün qolsuz köynək oldu, yəni

---

615 Muhammed Esed, «Kuran mesajı», İstanbul, 2002, s. 1081.

616 Muhammed Esed, «Kuran mesajı», göstərilən qaynaq, s. 1081.

617 «İslami kavramlar», göstərilən qaynaq, s. 436.

hz. Məhəmməd (s.a.s) merac gecəsi onun olduğu yerdən də irəli getdi, bu məsafə ona dar gəldi (qolsuz köynək oldu).

Şairin merac gecəsi islam Peyğəmbərinin ucaldığı məqamı ifadə üçün istifadə etdiyi ikinci anlayış Ərşdir. «Ərş» sözü lüğətdə «padşah taxtı», «ev tavanı», «çardaq», «çadır», «şan», «şöhrət», «səltənət», «iqtidar» mənalarında verilmişdir. Qurani-Kərimdə iyirmi altı yerdə Ərşin adı çəkilmişdir. Qurani-Kərimdə ərşin böyük (əzim), uca (kərim) olduğu, uca Allahın (c.c) hakimiyyətinin ərşi əhatə etdiyi buyurulur:

إِن ربكم اللّه الذي خَلَقَ السماوات والأرض في ستة أيامٍ ثُم استَوى على الْعرش يدبر الأمر ما من شَفيعٍ إِلا من بعد إِذْنه ذَلكُم اللّه ربكُم فَاعبدوه أَفَلا تَذَكَرون

(Yunis, 10/3)

«Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan, hər işi yoluna qoyan (sahmana salan) Allahdır. Onun izni olmadan heç bir şəfaət edən ola bilməz. Bu, Rəbbiniz olan Allahdır. Ona ibadət edin. Məgər öyüd-nəsihət qəbul etməyəcəksiniz?»

Hz. Nizami beytdə ərşi ən uca məqam, yer kimi dəyərləndirmişdir. Ancaq şairə görə, merac gecəsi islam Peyğəmbəri elə bir ucalığa yüksəldi ki, Ərşin yaxası Onun ətəyinə toxundu, yəni Ərş Ondan aşağıda qaldı.

## YÜZ YETMİŞ BİRİNCİ ADDIM: YOLDAŞLARININ QOLLARI QIRILDI

همسفرانش سپر انداختند
بال شکستند و پر انداختند

***Onun həmsəfərləri (yoldaşları) öz sipərlərini atdılar,***
***Onların qolları qırılıb, qanadları töküldü.***[618]

---

[618] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

Şair bu beytdə gözəl bənzətmə işlətmişdir. Artıq islam Peyğəmbəri Sidr ağacına çatmışdır. Bu, kainatın son nöqtəsidir. Peyğəmbərlə gedənlər bu nöqtəyə çatanda dayanır, irəli getməkdən çəkinir. Misradakı «öz sipərlərini atdılar» ifadəsi məğlub olmaq, təslim olmaq, geri çəkilmək, acizliyini etiraf etmək mənasındadır. «Onların qolları qırıldı», «qanadları töküldü» ifadələri də Sidr ağacından o yana getməyin mümkünsüzlüyünü anlatmaq üçündür.

## YÜZ YETMİŞ İKİNCİ ADDIM: UCA ALLAHIN (c.c) SARAYININ HALQASINI VURDU

او بتحیر چو غریبان راه
حلقه زنان بر در آن بارگاه

***O, (qürbət yollardakı) qəriblər kimi heyrətə dalıb,***
***Onun (Allahın) sarayının qapısının***
***halqasını vurdu.***[619]

Şair bu beytdə merac gecəsi islam Peyğəmbərinin yolçuluğunun yeni bir mərhələyə daxil olduğunu ifadə etmək üçün ayrı-ayrı vasitələrdən istifadə etmişdir. Şair öncə islam Peyğəmbərinin keçdiyi yolu «qürbət yol» adlandırır. Burada qürbət yol həm tanış olmayan yol mənasındadır, həm də bu yolda Ondan başqa, bir kimsənin olmadığını ifadə edir. Sonra şair Peyğəmbəri qərib yolçuya bənzədir. O, bir qərib yolçunun ən önəmli özəlliyi olan heyrət duyğusunu sözə çevirir. Burada «heyrətə dalmaq» həm də yolun qeyri-adiliyini ifadə edir.

Şair merac yolçuluğunun yeni mərhələsini ifadə etmək üçün bu yolun xarakterinə uyğun olan ən gözəl sözü seçir. Şair deyir ki, O, Allahın (c.c) sarayının qapısının halqasını vurdu, yəni yeni mərhələ daxil olmaq icazəsi istədi.

---

[619] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

## YÜZ YETMİŞ ÜÇÜNCÜ ADDIM: MƏLƏKLƏR ONU KƏCAVƏDƏ TƏK QOYDULAR

پرده نشینان که درش داشتند
هودج او یکتنه بگذاشتند

***O yolunu izləyən pərdə dalındakı (mələklər),***
***Onu kəcavədə təkcə qoydular.***[620]

Şair bu beytdə merac yolçuluğunun yeni mərhələsini təqdim etmək üçün başqa bir vasitədən istifadə edir. Yol boyu mələklər Onu müşayiət edirlər. Şair mələklərin gözlə görünməyən varlıq olduğunu göstərmək üçün onları «pərdə arxasındakı» varlıq adlandırır. Artıq merac yolçuluğunun elə bir mərhələsi çatmışdır ki, mələklər belə, o mərhələyə daxil ola bilmirlər. «Mələklər onu kəcavədə tək qoydular», yəni artıq irəli gedə bilməyəcəklərini bildirdilər. Burada şair həm də hz. Məhəmmədin (s.a.s) üstün bir varlıq olduğunu, Onun uca Allah (c.c) yanında fərqli yeri olduğunu bildirmişdir.

## YÜZ YETMİŞ DÖRDÜNCÜ ADDIM: YOLÇUSU OLMAYAN YOLA DÜZƏLDİ

رفت بدان راه که همره نبود
این قدمش زانقدم آگه نبود

***O, yolçusu olmayan bir yola düzəldi,***
***Onun bu qədəminin o qədəmindən xəbəri yox idi.***[621]

Şair beytin birinci misrasında merac yolçuluğunun yeni mərhələsini «yolçusu olmayan yol» adlandırır. Bunun da iki mənası var: bu yolda islam Peyğəmbərindən başqa bir

---

[620] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
[621] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

kimsə yox idi, O, bu mərtəbəyə yüksələn ilk insan – Peyğəmbər idi. Şair bu yolun qeyri-adiliyini ifadə etmək üçün hz. Məhəmmədin (s.a.s) heyrət halını göstərir. Peyğəmbər elə bir heyrət içərisindədir ki, bu addımının o biri addımından xəbəri yoxdur. O, öz varlığını hiss etmir, O, öz varlığını unutmuşdur. Heyrət halının ən önəmli özəlliyi də öz cismini unutmaqdır.

## YÜZ YETMİŞ BEŞİNCİ ADDIM: HEÇ KİM O SİRLİ QAPININ AĞZINA ÇATMAMIŞDI

هر که جز او بر در آن راز ماند
او هم از آمیزش خود باز ماند

***Ondan başqa heç kəs o sirli qapının***
***ağzına çatmamışdı,***
***O da oraya yetişməyindən heyrətə gəldi.***[622]

Şair bu beytdə merac yolçuluğunun yeni mərhələsini «qapı» anlayışı ilə ifadə etmişdir. Qapı bir yerin, məkanın, mərhələnin girişi, başlanğıcı deməkdir. Şair öncəki beytlərdə də yeni mərhələnin, məkanın başlandığını ifadə etmək üçün «qapı» obrazından istifadə etmişdir. Ancaq şairə görə, bu adi qapı deyil. Bu, uca Allahın (c.c) sarayının qapısıdır, bu sirli qapıdır. Şair bu qapının adi olmadığını bildirmək üçün başqa bir vasitədən də istifadə edir. Qapı anlayışı ilə heyrət halını eyni anda təqdim edir. «O da oraya yetişməyindən heyrətə gəldi», yəni heyrətin səbəbi yeni məkanın, bu məkanın simvolu olan qapının «sirli», «saray qapısı» olmasına bağlıdır.

---

[622] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

## YÜZ YETMİŞ ALTINCI ADDIM: ONUN QƏDƏMLƏRİ VARLIĞIN BAŞINA TAC OLMUŞDU

بر سر هستی قدمش تاج بود
عرش بدان مائده محتاج بود

***Onun qədəmləri varlığın başına tac olmuşdu,***
***Ərşinsə bu nemətə (böyük) ehtiyacı vardı.***[623]

Şair bu beytdə iki fikir ifadə edib. Öncə merac gecəsi islam Peyğəmbərinin çox yüksək bir mərtəbəyə ucaldığını göstərib. Onun qədəmləri varlığın başına tac oldu. Tac ən yüksək yerdə qərar tutan hakimiyyət simvoludur. Burada varlığın başına tac olmaq həm ən yüksək mərtəbəyə ucalmaq, həm də heç kimin əldə edə bilmədiyi güc, imkan qazanmaq deməkdir.

Göy üzünün ən uca mərtəbəsi Ərşdir. Ancaq onun da bu nemətə – islam Peyğəmbərinin gəlişinə böyük ehtiyacı var. Çünki bu ərşin dəyərini daha da artırır.

## YÜZ YETMİŞ YEDDİNCİ ADDIM: ƏRŞİN QOLUNDA BAYRAĞINI UCALTDI

چون به همه حرق قلم در کشید
ز آستی عرش علم برکشید

***O, (burada) bütün hərflərin üzərindən cızıq çəkərək,***
***Ərşin qolunda bayrağını ucaltdı.***[624]

Hz. Nizami bu beytdə merac yolçuluğunun yeni mərhələsinin xarakterini ifadə etmək üçün hərf anlayışından

---

[623] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.
[624] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 29.

istifadə etmişdir. Hərflər mənanın sözə çevrilməsini təmin edən işarələrdir. Yəni məsələnin maddi, cism tərəfidir. İnsanın ruhu və cismi olduğu kimi, sözlərin də mənası (ruhu) və cismi, qəlibi (hərf) var. Şair deyir ki, islam Peyğəmbəri Ərşə çatdı, heyrətə düşdü, «hərflərin üzərindən cızıq çəkdi», yəni maddi aləmdən ayrıldı, maddi olandan imtina etdi, maddi varlığını hiss etmədi.

Şair deyir ki, O, Ərşin qolunda bayrağını ucaltdı. Burada «bayrağını ucaltmaq» ifadəsi Ərşi fəth etmək mənasındadır. Artıq maddi aləmə aid olan hər şeydən imtina edilmişdir («hərflərin üzərindən cızıq çəkilmişdir»).

## YÜZ YETMİŞ SƏKKİZİNCİ ADDIM: ORADAN İRƏLİ GETMƏMƏK CƏBRAİLƏ ƏMR OLUNMUŞDU

منزل آنجا رساند کز دوری
دید در جبرئیل دستوری

***O, elə bir mənzilə yetişdi ki,***
***Oradan irəli getməmək Cəbrailə əmr olunmuşdu.***[625]

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinin ucaldığı mərtəbəni, yeni bir yüksəliş mərhələsinə çatdığını ifadə etmişdir. Bu elə bir mərtəbədir ki, bu nöqtədən irəli getməyə Cəbrail (c.c) adlı mələyin belə, imkanı yoxdur.

## YÜZ YETMİŞ DOQQUZUNZU ADDIM: MİKAİL ONU QANADLARINA ALDI

میکائیلت نشانده بر سر
واورده به خواجه تاش دیگر

[625] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

*Mikail səni qanadlarına alaraq,*
*Başqa xacətaşa gətirdi.*[626]

Şair bu beytdə Mikail (ə.s) adlı mələyin adını çəkmişdir. Qurani-Kərimdə bu mələyin adı bir ayədə var:

مَن كَانَ عَدُوًّا لِّلّهِ وَمَلآئِكَتِهِ وَرُسُلِهِ وَجِبْرِيلَ وَمِيكَالَ فَإِنَّ اللّهَ عَدُوٌّ لِّلْكَافِرِينَ

(əl-Bəqərə, 2/98)

«Hər kim Allaha, Onun mələklərinə və Peyğəmbərlərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz, Allah da (belə) kafirlərə düşməndir».

Deyilənə görə, Mikail adlı mələk ruzilərin təmin edilməsi, yağışın yağdırılması, bitkilərin əkilməsi işinə baxır.

Artıq Cəbrail irəli gedə bilmir. Mikail Onu qanadlarına alaraq başqa bir xacətaşa – məkana, yüksək bir yerə aparır.

## YÜZ SƏKSƏNİNCİ ADDIM: İSRAFİLİN SURUNUN RƏSƏDXANASINA DAXİL OLDU

سر برون زد ز مهد میکائیل
به رصدگاه صور اسرافیل

*O, Mikailin kəcavəsindən baş vurub çıxdı,*
*Və İsrafilin surunun (şeypurunun)*
*rəsədxanasına (daxil oldu).*[627]

Şair bu beytdə də gözəl mənzərə təsvir etmişdir. Sanki, Mikail (ə.s) adlı mələk islam Peyğəmbərinə öncədən gözəl bir kəcavə hazırlamışdır. O, qısa zamanda böyük mə-

---

[626] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.
[627] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

safə qət edir. Ancaq islam Peyğəmbəri onun da «kəcavəsindən baş vurub çıxdı», yəni artıq elə bir məkana daxil oldu ki, Mikail (ə.s) də oradan irəli gedə bilmədi.

Şair hadisələrin inkişafının bu mərhələsində İsrafilin (ə.s) adını beytin mətninə daxil edir. Qurani-Kərimdə bu mələyin adı yoxdur. Ancaq bir çox ayələrdə sura üfürüləcəyi bildirilərkən İsrafilin (ə.s) adına da üstüörtülü işarə edilmişdir.

وهو الذي خَلَقَ السماوات والأرض بِالْحق ويوم يقُولُ كُن فَيكُون قَولُه الْحق وله الْملْكُ يوم ينفَخُ في الصورِ عالِم الْغَيبِ والشهادة وهو الْحكيم الْخَبِير

(əl-Ənam, 6/73)

«Göyləri və yeri haqq olaraq yaradan Odur. Onun: «Ol!» deyəcəyi gün (hər şey) dərhal olar. Onun sözü haqdır. Surun (İsrafilin surunun) çalınacağı gün hökm Onundur. Qeybi və aşkarı bilən də Odur. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır!»[628]

Hədislərdə İsrafilin (ə.s) adı dörd böyük mələyin sırasında çəkilmişdir.[629]

Şairin təsvirinə görə, hz. Məhəmməd (s.a.s) merac gecəsi İsrafilin (ə.s) surunun rəsadxanasına daxil oldu. Burada şair İsrafilin (ə.s) dayandığı məkanı «rəsədxana» kimi təqdim etmişdir. Bu həm surun keyfiyyətini bildirmək, həm də İsrafilin (ə.s) hər zaman uca Allahın (c.c) buyruqlarına hazır olduğunu göstərmək üçündür. **Bizcə, burada ən önəmli məsələ odur ki, mələk İsrafil (ə.s) bir an belə, gözünü qırpmadan hz. Məhəmmədin (s.a.s) yolunu göz-**

---

[628] Əlavə bilgi üçün baxın: əl-Kəhf, 18/99; Taha, 20/102; əl-Müminin, 23/101; Yasin, 36/51; ən-Nəbə, 78/18.

[629] Müslim, «Müsafirin», 200; Əbu Davud, «Səlat», 119.

**ləyir. «Rəsədxanadan» baxaraq Onun təhlükəsizliyini təmin edir, Onu qarşılayacağı anı gözləyir. Şair misrada İsrafilin (ə.s) rəsədxanasının adını çəkməklə Peyğəmbərin ucaldığı yeri təsbit etmişdir.**

## YÜZ SƏKSƏN BİRİNCİ ADDIM: HƏM YÜKÜ QALDI, HƏM DƏ MİNDİYİ ATI

در آن راه بیراه از آوارگی
همش بار مانده همش بارگی

***O yolda ki daha azmaq mümkün deyildi,***
***Həm yükü qaldı, həm də mindiyi atı.***[630]

Şairin təsvirinə görə, islam Peyğəmbəri merac gecəsi artıq elə bir mərhələyə çatmışdı ki, burada azmaq mümkün deyildi. Yəni artıq hər şeyi aydın idi, bundan sonra yol bir idi, bu yolun hər bir addımında Onun üçün nişan əlamətləri var idi. Onun müşayiətçiyə ehtiyacı yox idi. Şair deyir ki, bu nöqtədə Onun həm yükü qaldı, həm də atı. Burada «yük» deyilərkən Onun cismani varlığı nəzərdə tutulmuşdur. Çünki öncəki beytlərdə şair «O, özü ilə təmiz cövhərdən başqa bir şey götürmədi» deyir, O artıq lətif və nurani varlığa çevrilmişdi və öz nürani varlığı ilə ruhani aləmdəki varlıqlara (mələklərə) nur bağışlamışdı. Göy üzünün bu mərtəbəsində Buraq da öz missiyasını başa vurdu. Artıq yük yoxdursa, yükdaşıyana da ehtiyac yoxdur.

## YÜZ SƏKSƏN İKİNCİ ADDIM: O YOLDA CƏBRAİLİN QANADI TÖKÜLMÜŞDÜ

پر جبرئیل از رهش ریخته
سرافیل از آن صدمه بگریخته

---

[630] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 32.

***O yolda Cəbrailin qanadı tökülmüşdü,***
***İsrafilsə bu dəhşəti görərkən qorxmuşdu.***[631]

Şair bu beytdə islam Peyğəmbərinin (s.a.s) merac gecəsi daxil olduğu mərhələnin qeyri-adiliyini göstərmək üçün iki böyük mələyin adını beytin mətninə yerləşdirmişdir. Bilindiyi kimi, mələklər arasında Cəbrail (ə.s) qanadları ilə seçilir. Alimlərin bir çoxuna görə, hz. Məhəmməd (s.a.s) merac gecəsi Cəbraili (ə.s) altı yüz qanadı ilə birgə görmüşdür.[632] Şair deyir ki, merac gecəsi islam Peyğəmbəri (s.a.s) elə bir mərhələyə daxil oldu ki, Cəbrailin (ə.s) oraya qədəm qoyması mümkün deyildi, Onun bu yolda qanadları yanardı.

Şair İsrafil (ə.s) adlı mələyin adını «dəhşət» sözü ilə birgə çəkmişdir. O deyir ki, İsrafil bu dəhşəti görərkən qorxdu. Əslində, İsrafil (ə.s) ən dəhşətli hadisəni – qiyamət gününü xəbər verəcək mələkdir. Ancaq şairə görə, merac gecəsinin bu mərhələsində hz. Məhəmməd (s.a.s) elə əzəmətli görünürdü ki, İsrafil (ə.s) belə, onu görərkən qorxdu. Şair başqa bir beytdə də bu ideyanı başqa yöndən açıqlayır.

## YÜZ SƏKSƏN ÜÇÜNCÜ ADDIM: İSRAFİL AYAQLARINA DÖŞƏNDİ

اسرافیل فتاده در پای
هم نیم رهت بمانده برجای

***İsrafil ayaqlarına döşəndi,***
***O da yarı yolda (dayanıb) yerində qaldı.***[633]

Artıq Cəbrail (ə.s) öz missiyasını başa vurmuşdur. İndi növbə İsrafilindir (ə.s). O, Peyğəmbərin əzəmətini gördü,

---

[631] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.
[632] Buhari, «Kitabət-Tefsir»; Müslim, «Kitabul-İman»; Tirmizi, «ət-Tefsir».
[633] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

dəhşətə gəldi. Onun ayaqlarına döşəndi, yəni Ona itaət etdi. Onu qanadlarına götürüb irəli apardı. Ancaq yolun yarısını gedə bildi. Bu elə bir yol idi ki, ancaq islam Peyğəmbəri gedə bilərdi.

## YÜZ SƏKSƏN DÖRDÜNCÜ ADDIM: CƏBRAİL ATLANIB GERİ QAYITDI

چو جبریل از رکابش باز پس گشت
عنان بر زد ز میکائیل بگذشت

***Cəbrail atlanıb geri qayıtdıqda,***
***Yüyəni buraxıb Mikaili keçdi.***[634]

Cəbrail (ə.s) adlı mələk onun üçün müəyyən edilmiş nöqtəyə çatdı. Əslində, uca Allah (c.c) islam Peyğəmbərinə (s.a.s) gözəl bir müşayiət, qarşılanma mərasimi təşkil etmişdir. Onun əmri ilə bütün planetlər Onu qarşılamış, Cəbrail (ə.s) hər zaman onunla birgə olmuşdur. İndi növbə Mikailindir (ə.s). Cəbrail (ə.s) atlanıb geri qayıtdı, Onu Mikailə (ə.s) əmanət etdi. Ancaq Mikailin (ə.s) islam Peyğəmbərini müşayiət zamanı azdır. O, elə bir sürətlə hərəkət edir ki, Mikail (ə.s) Ona çata bilmir. Şair bu fikri ifadə etmək üçün belə deyir: «O, yüyəni buraxıb Mikaili keçdi». Növbə İsrafilə (ə.s) çatdı.

## YÜZ SƏKSƏN BEŞİNCİ ADDIM: RƏFRƏF ONU GƏRDƏYİNƏ YETİRDİ

سرافیل آمد و بر پر نشاندش
به هودج خانه رفرف رساندش

***İsrafil gəlib onu qanadına aldı,***
***Rəfrəf gərdəyinə yetirdi.***[635]

---

[634] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.
[635] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

İsrafil (ə.s) öz növbəsini gözləyir. Sırası çatanda onu qanadına alır və irəli aparır. Öz vəzifəsini yerinə yetirir. Şair bu anda Rəfrəfin adını çəkir. Rəfrəf əfsanəvi bir quş adıdır. Ərəb dilində quşun qanadlarını açıb-yığaraq hərəkət etdirməsinə də «rəfrəf» deyilir. Bu quş merac gecəsi hz. Məhəmmədi (s.a.s) Sidreyi-Müntəhaya aparmışdır. Rəfrəf həm də eşq simvoludur. Təsəvvüfə görə, insanı uca Allaha (c.c) qovuşduran sevgidir.

Şair deyir ki, Rəfrəf Onu gərdəyinə yetirdi. Şair burada «gərdək» sözünü təsadüfən seçməmişdir. «Gərdək» özəl bir məkandır. Başqalarının bu məkana girmək imkanı yoxdur. Şair deyir ki, artıq O, elə bir yerə çatdı ki, bu yer onun «gərdəyi» idi, Ondan başqa bir kimsənin bu yerdə olmaq imkanı yoxdur. Misrada «gərdək» sözü imkansızlıq anlayışını da ifadə etmişdir.

## YÜZ SƏKSƏN ALTINCI ADDIM: RƏFRƏF SƏNİ SİDRƏGAHIN TAXTINA APARDI

رفرف که شده رفیق راهت
برده به سریر سدره گاهت

***Rəfrəf ki sənin yol yoldaşın oldu,***
***Səni Sidrəgahın taxtına apardı.***[636]

Artıq İsrafilin (ə.s) də missiyası başa çatdı. Rəfrəf onu qanadlarına aldı. Onu Sidrəgahın taxtına apardı. İslam Peyğəmbəri merac gecəsi Cəbraili (ə.s) gördüyü yerin adı Sidrətül-Müntəhadır. Alimlər bu anlayışı belə yozurlar:

Böyük islam alimi Əllamə Alusi yazır: «Bütün elmlər Sidrətül-Müntəhada qurtarır. Ondan sonra olanları ancaq uca Allah (c.c) bilir».[637]

---

[636] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.
[637] Ebul-Ala Mevdudi, «Tefhimul-Kuran», göstərilən qaynaq, s. 19.

İbn Cərir də bu şərhi qəbul edir.[638] İbn Əsir isə yazır: «… Bu məsələni anlamaq, yəni maddi dünyanın son nöqtəsindəki (taxtını - Nizami Gəncəvi) Sidrənin keyfiyyətini bilmək çox çətindir».[639]

Bu şərhlərdən aydın olur ki, Sidrə maddi aləmin son nöqtəsidir. Rəfrəfin də vəzifəsi islam Peyğəmbərini bu yerə çatdırmaqdır.

## YÜZ SƏKSƏN YEDDİNCİ ADDIM: O, PƏRDƏDƏ AHƏNGLƏR OXUDU

ز رفرف گذشته به فرسنگها
در آن پرده بنموده آهنگها

***O, Rəfrəfi də fərsənglərcə ötüb keçdi,***
***Həmin pərdədə ahənglər oxudu.***[640]

Merac yolçuluğu davam edir. Artıq Rəfrəf də öz missiyasını başa vurmuşdur. O, Peyğəmbəri Sidrənin taxtına çatdırmışdır. Şair islam Peyğəmbərinin sürətini və Sidrədən də irəli getdiyini göstərmək üçün ölçü vahidi olan «fərsəng» sözündən istifadə etmişdir.

«Fərsəng» ölçü vahidi kimi yeddi kilometrdən çox məsafəni bildirir. Şair deyir ki, O, bir an içində Rəfrəfdən fərsənglərcə uzaqlaşdı. O, həmin pərdədə ahənglər oxudu. «Həmin pərdə»ni həmin uca mərtəbə, həmin an, həmin məqam kimi yozmaq olar. «Ahənglər oxudu», yəni dua oxudu, uca Allaha (c.c) həmd və səna dedi, öygülər söylədi, Onun adını zikr etdi.

---

638 Ebul-Ala Mevdudi, «Tefhimul-Kuran», göstərilən qaynaq, s. 19.
639 Ebul-Ala Mevdudi, «Tefhimul-Kuran», göstərilən qaynaq, s. 19.
640 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.

## YÜZ SƏKSƏN SƏKKİZİNCİ ADDIM: O, HƏMİN TAXTDAN BAŞ GÖTÜRÜB GETDİ

گشت از آن تخت نیز رخت گرای
رفرف و سدره هردو ماند به جای

***O, həmin taxtdan da baş götürüb getdi,***
***Rəfrəf və Sidrə hər ikisi yerində qaldı.[641]***

İslam Peyğəmbəri merac gecəsi Cəbrailin (ə.s) müşayiəti ilə hərəkət etdi, Mikaili (ə.s), İsrafili (ə.s), Rəfrəfi gördü. Onlar Peyğəmbəri bəlli yerlərədək apardılar. Artıq maddi dünyanın son nöqtəsi olan Sidrə də arxada qalmışdır.

## YÜZ SƏKSƏN DOQQUZUNCU ADDIM: «MƏN»LİK YOX OLAN DƏRYANIN YOLUNA DÜZƏLDİ

همرهان را به نیمه ره بگذاشت
راه دریای بی‌خودی برداشت

***Öz yol yoldaşlarını yarı yolda qoyub,***
***«Mən»lik yox olan dəryanın yoluna düzəldi.[642]***

Merac yolçuluğunun yeni bir mərhələsi başlanmışdır. Hz. Nizami üslubuna uyğun olaraq bu mərhələnin ölçülərini təqdim edir. Şair bu məqsədlə iki ölçü verir: Bu məkan «mənliyin yox olduğu bir sonsuzluqdur; bu, bir dəryadır. «Mən»liyin yox olduğu məkan, yəni maddi aləmə aid olan heç bir şeyin olmadığı, məkanın və zamanın olmadığı bir sonsuzluq aləmi. Şair çox zaman göy üzünü təsvir edərkən bu sonsuzluğu dənizə bənzətmişdir. Bu beytdə isə «mən»liyin yox olduğu sonsuzluq dəryaya – okeana bənzədilmişdir.

---

[641] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.
[642] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

Şair yeni məkanı təsvir edərkən müxtəlif vasitələrdən istifadə etmişdir. Bu məkanın girəcəyində «Onun yükü və atı qaldı», «bu məkanda daha azmaq mümkün deyildi», «ruhani aləmdəkilərə nur bağışlandı», «o yolda Cəbrailin qanadı töküldü», «İsrafil bu dəhşəti görərkən qorxdu», «İsrafil Onun ayaqlarına döşəndi». Bu, bu kimi başqa ifadələr yeni, fərqli bir mərhələnin başlandığını göstərir.

## YÜZ DOXSANINCI ADDIM: ONUN YOLUNA ADDIM-ADDIM FƏRŞ DÖŞƏNMİŞDİ

ز دروازه سدره تا ساق عرش
قدم بر قدم عصمت افکنده فرش

***Qabağında Sidrə darvazadan ta ərş sütununa qədər,***
***İsmət (Onun gedən yoluna) addım-addım***
***fərş döşəmişdi.***[643]

Şair bu beytdə yeni məkanın, yeni yolun xəritəsini çəkmiş, onun gözəlliyini təsvir etmişdir. Bu yolun məsafəsi Sidrə ağacından Ərşədəkdir. Şair bu beytdə peyğəmbərlərin ismət sifətinə toxunmuşdur. İsmət sifəti odur ki, peyğəmbərlər son dərəcə iffətli insanlardır, onların üstün xarakterləri var. Onlar gizli və aşkar hər cür günahdan uzaqdırlar. Onlar günah etməzlər. **Şair deyir ki, ismət onun yoluna addım-addım fərş döşəmişdi. Yəni bu məkan günahsızlıq, toxunulmazlıq məkanıdır. Maddi aləmin bitdiyi, ruhani dünyanın başladığı yerdir. Bu məkana indiyədək heç kim daxil olmamışdır. O, elə əziz qonaqdır ki, onun yoluna addım-addım fərş döşənmişdir.**

---

643 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.

## YÜZ DOXSAN BİRİNCİ ADDIM: TUBA BAYRAQ QALDIRDI

ز رفرف بر رف طوبی علم زد
وز آنجا بر سر سدره قدم زد

***Rəfrəfdən Tuba rəfinə bayraq qaldırdı,***
***Oradan da Sidrəyə qədəm basdı.***[644]

Hz. Nizami bu beytdə gedilən yolu o yola aid olan anlayış və əlamətlərlə təqdim etmişdir. Bu anlayışlardan biri Tubadır. Tuba ərəbcə müjdə deməkdir və cənnətdə bitən bir ağacın adıdır. Onun köklərinin yuxarıya doğru uzandığı, budaqları aşağı sallanmış, yüz min budağı, hər budağında çeşid-çeşid meyvələr olduğu bildirilir. O, cənnətdəki ən böyük ağacdır. «… Tuba natlarda hz. Peygamberin boyu için bir teşbih unsuru olur. Ancak Taşlıcalı Yahya, hz. Peygamberin yanında Tubanın çop gibi göründüğünü söyleyerek bu benzetmeye itiraz eder. Onun dışındakı şairler bu teşbihi doğrulayan sebepler ileri sürerler. Bunlardan Hüdayi, hz. Peygamberin gölgesinin yere düşmemesini boyunun Tuba kadar yüce oluşuna bağlar. İffet Bursevi, Tubanın ters duruşunun hz. Peygamberin boyuna benzeme arzusundan kaynaklanan bir hata olduğunu söyler. Tacizade Cafer Çelebi bu hususu daha şairane bir sebebe bağlayarak Tubanın duruşundakı bu tersliyi onun hz. Peygamberin boyunun bir aksi olduğunu ifade eder…»[645]

Misrada «tuba rəfinə bayraq qaldırdı», - deyilir. Yəni O, merac gecəsi Tuba ağacının bitdiyi məkana çatdı və oranı fəth etdi. «Bayraq qaldırmaq» fəth etmək, bayraq qaldırılan yeri almaq deməkdir. Şair bu ifadəni həm də merac gecəsi

---

[644] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.
[645] Emine Yeniterzi «Divan şiirinde nat», göstərilən qaynaq, s. 259-260.

islam Peyğəmbərinin qət etdiyi məsafəni, Onun ucaldığı zirvəni ifadə etmək üçün işlətmişdir.

Misrada yeni məkanın əlamətlərinə aid olan anlayışlardan biri də Sidrədir.

## YÜZ DOXSAN İKİNCİ ADDIM: HƏDİS TƏBƏQƏLƏRİNİ AŞDIN

چون از سر سدره بر گذشتی
اوراق حدوث در نوشتی

*Elə ki Sidrə hüdudundan keçdin,*
*Hədis təbəqələrini aşdın.*[646]

Şair bu beytdə merac gecəsi islam Peyğəmbərinin Sidrə hüdudundan sonrakı göy təbəqəsinin əlamətini anlatmışdır. O, bu mərhələnin özəlliyini «hədis təbəqələri» ifadəsi ilə vermişdir. Burada «hədis təbəqələri» maddi dünyaya aid olan əlamətlər kimi şərh oluna bilər. Hələlik göy üzünün maddi təbəqəsi – məkanı, zamanı, ölçüsü olan sahəsi bitməmişdir.

## YÜZ DOXSAN ÜÇÜNCÜ ADDIM: VƏRƏQ-VƏRƏQ NAXIŞLARI OXUYURDU

جریده بر جریده نقش می‌خواند
بیابان در بیابان رخش می‌راند

*Vərəq-vərəq naxışları oxuyurdu,*
*Atını biyabandan – biyabana sürürdü.*[647]

Öncəki beytin şərhində dedik ki, merac yolçuluğunun bu mərhələsində maddi dünyaya aid olan göy təbəqələri bitməmişdir. Ona görə də şair bu misralarda maddi («hədis

---

[646] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.
[647] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

təbəqələr») aləmə aid əlamətlər vermişdir. Bu beytdə də şair «hədis təbəqələri»ni ifadə etmək üçün ona aid olan «vərəq», «naxış», «oxumaq», «atı biyabandan-biyabana sürmək» kimi söz və ifadələrə yer vermişdir. «Vərəq-vərəq naxışları oxumaq», yəni göyün hər təbəqəsinə aid gözəllikləri görmək, bu təbəqələrdə olan sirləri bilmək, təbəqələri bir-bir keçmək deməkdir. «Atını biyabandan-biyabana sürmək» cümləsi də bu fikri gücləndirir.

## YÜZ DOXSAN DÖRDÜNCÜ ADDIM:
## O, MƏLƏKLƏRİN DİVANGAHINI KEÇDİ

ز دیوانگه عرشیان برگذشت
به درج آمد و درج را درنوشت

***O, mələklərin divangahını keçdi,***
***«Dərcə» daxil oldu, Dərcdən ötüb keçdi.***[648]

Şairin təsvirinə görə, merac gecəsi islam Peyğəmbəri mələklərin divangahına daxil oldu. Bu yer «Dərc» adlanır. Sonra oranı tərk etdi. Yəni Peyğəmbər mələklərin yüksələ biləcəyi ən son nöqtəyə – «Dərcə» çatdı. Artıq o, elə bir mərhələyə daxil olur ki, mələklərin o yerə uçmaq imkanı yoxdur. Misradakı «Dərcdən ötüb keçdi» fikrinin mənası budur. Yeni mərhələ heç bir varlığın daxil ola bilməyəcəyi sonsuzluq məkanıdır.

## YÜZ DOXSAN BEŞİNCİ ADDIM:
## ƏRŞİN DARISQAL QÜLLƏSİNƏ ÇATDI

رفتی ز بساط هفت فرشی
تا طارم تنگبار عرشی

---

[648] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.

*Yeddi fərşin (göyün) büsatından keçdin,*
*Ərşin darısqal qülləsinə çatdın.*[649]

Şair bu beytdə «yeddi fərş» deyərkən göy üzünün yeddi təbəqəsini nəzərdə tutmuşdur. Göyü fərşə bənzətmək onun gözəlliyini ifadə etmək üçündür. Şair göy təbəqələrinin gözəl olduğunu bildirmək üçün həm də «büsat» sözündən istifadə etmişdir. «Büsat» şənlik, sevinc, gözəllik deməkdir. Sanki hər bir göy təbəqəsi merac gecəsi üçün bəzənmişdir. Bunlar hamısı maddi dünyaya aid olan əlamətlərdir. Elə bir yer var ki, orada maddi dünyaya aid olan sərhəd bitir. Şairin təqdiminə görə, bu sərhəd nöqtəsi «Ərşin qülləsidir».

## YÜZ DOXSAN ALTINCI ADDIM: OKEANDAN DAMLA-DAMLA KEÇDİ

قطره بر قطره زان محیط گذشت
قطر بر قطر هر چه بود نوشت

*O okeandan O, damla-damla keçdi,*
*Qütrdən-qütrə hər nə vardısa, yazdı.*[650]

Hz. Nizami bu beytdə üslubuna sadiq qalaraq göy üzünü, sonsuzluğu okeana bənzətmişdir. İslam Peyğəmbəri merac gecəsi yeni bir mərhələyə daxil olduğuna görə bu sonsuz məkan okeana bənzədilmişdir. «O, bu okeandan damla-damla keçdi», yəni addım-addım, hər şeyi görə-görə, bilə-bilə keçdi. «Qütr» ərəbcə ölkə deməkdir. Şair göy üzündəki hər planeti bir ölkəyə bənzətmişdir. O, ölkədən-ölkəyə nə vardısa, onu yazdı, yəni hər planetin (ölkənin) xarakterini, bu planetdəki uca Allahın (c.c) hikmətini öyrəndi. Burada «yazmaq» feli öyrənmək, yaddaşına həkk etmək mənasındadır.

---

649 Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.
650 Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

## YÜZ DOXSAN YEDDİNCİ ADDIM: DUALARININ KƏMƏNDİNDƏN NƏRDİVAN DÜZƏLTDİ

چون درآمد به ساق عرش فراز
نردبان ساخت از کمند نیاز

***O uca ərşin ayağına çataraq,***
***O, öz dualarının kəməndindən nərdivan düzəltdi.***[651]

Hz. Nizami bu beytdə gözəl bənzətmə işlətmişdir. Merac gecəsi islam Peyğəmbəri uca Ərşin ayağına çatır. Burada, irəli getmək üçün uca Allahın (c.c) yardımı və güc lazımdır. Ərşədək olan məsafədə Onu müşayiət edən qüvvələr var idi: Cəbrail (ə.s), Mikail (ə.s), İsrafil (ə.s) və başqa mələklər. Ancaq Ərşdən sonra Onunla gedəcək bir müşaiyətçi yoxdur. İslam Peyğəmbəri uca Allaha (c.c) şükür edir, duadan nərdivan düzəldir, yəni çox dua oxuyur. Bu dualarının qəbul olunacağına inanır. Bu duaların yardımı ilə daha yüksək mərtəbəyə ucalacağına əmindir. Misradakı «nərdivan» sözü ucalmağı, yüksəlişi ifadə edir. Ucalmaq istəyirsənsə, inanaraq dua et.

## YÜZ DOXSAN SƏKKİZİNCİ ADDIM: ƏRŞİN BAŞI ONU QARŞILAMAĞA GƏLDİ

چو بنوشت آسمان را فرش بر فرش
به استقبالش آمد تارک عرش

***Göyləri fərş-fərş keçəndən sonra,***
***Ərşin başı onu qarşılamağa gəldi.***[652]

---

[651] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.
[652] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

Birinci misradakı «göyləri fərş-fərş keçmək» ifadəsi göyləri təbəqə-təbəqə keçmək anlamındadır. «Ərşin başı Onu qarşıladı», yəni O, maddi dünyanın ən son nöqtəsinə çatdı. Ərşin ən uca zirvəsi fəth olundu. Misrada bu ifadə həm də islam Peyğəmbərinə olan sevgini ifadə edir.

## YÜZ DOXSAN DOQQUZUNCU ADDIM: MƏLƏKLƏR ONUN NURUNDA QÜSL ETDİLƏR

سبوح زنان عرش پایه
از نور تو کرده عرش سایه

***Ərşdə məqamı olan «subbuh» deyənlər***
***(Allahı vəsf edən mələklər)***
***Sənin nurunda gölgə qüslü etdilər.***[653]

İslam alimlərinə görə, göy üzünün hər təbəqəsində bu təbəqəyə aid olan mələklər var. Onların vəzifəsi uca Allahın (c.c) buyruqlarını yerinə yetirmək, fasiləsiz olaraq Onun mübarək adını zikr etməkdir. Bildirildiyinə görə, Ərşdə məqamı olan mələklər davamlı olaraq ayaqüstə: «Sübhanallahi vəl həmdü lillahi və lə ilahə illallahü vallahü əkbər və lə həvlə və lə qüvvətə illa billahil aliyyil-azim», - deyərlər. Ərşə yaxın olan mələklərin nuru daha parlaqdır.

«Subbuh» deyənlər, yəni fasiləsiz olaraq uca Allahın (c.c) adını zikr edən mələklər sənin nurunda kölgə qüslü etdilər.

**Şair bu misrada gözəl mənzərə təsvir etmişdir. Bilindiyi kimi, mələklər təmiz, nəfsi istəyi olmayan, nurdan yaradılmış, ancaq uca Allaha (c.c) itaət edən varlıqlardır. Qüsl etmək isə arınmaq, təmizlənmək deməkdir. Qüsl etməyə ehtiyacı olmayan mələklər belə, merac gecəsi nurlu Peyğəmbəri gördülər və Onun nurunda qüsl etdilər.**

---

[653] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

**Yəni islam Peyğəmbəri mələklərdən daha təmiz idi, nurdan yaradılmış mələklərdən daha nurlu idi.**

Şair Peyğəmbərin nurlu, təmiz bir varlıq olduğunu göstərmək üçün müqayisə tərəfi kimi mələkləri seçmişdir. Misradakı «kölgə qüslü» ifadəsi o deməkdir ki, mələklər hər zaman Ərşin kölgəsində qalmışlar (misrada Ərşdə olan, «subbuh» deyən mələklər nəzərdə tutulur) gün işığı görməmişlər, merac gecəsi islam Peyğəmbərinin nuru ilə kölgədən gün işığına çıxmışlar, «kölgə qüslü» etmişlər. Burada «kölgə qüslü etmək» ilk dəfə görünmək (Peyğəmbərdən başqa, onları bir kimsə görməmişdir), kölgədə qalmaqdan qurtulmaq, Peyğəmbəri görmək sevinci yaşamaq kimi mənaları da əhatə edir.

## İKİ YÜZÜNCÜ ADDIM:
## VARLIĞIN BƏDƏNİ CANIN NƏFƏSİNİ SAYDI

تا تن هستی دم جان می‌شمرد
خواجه جان راه به تن می‌سپرد

*Varlığın bədəni canın nəfəsini sayana qədər,*
*Canın ağası yolunu bədənlə üzürdü (gedirdi).*[654]

Şair bu beytdə merac gecəsi yeni mərhələnin xarakterini bədii biçimdə təqdim etmişdir. «Varlığın bədəni canın nəfəsini sayana qədər», yəni merac gecəsi Ərşə – maddi aləmin son sərhədinədək olan məsafədə islam Peyğəmbəri bu maddi aləmə aid olan bədənini hiss edirdi. Burada «nəfəs saymaq» nəfəs alıb-vermək, bədəninin, maddi varlığının ağırlığını hiss etmək mənasındadır. Şair ikinci misrada islam Peyğəmbərini «canın ağası» adlandırmışdır. O, «bədəni ilə üzürdü». Şair bilərəkdən «üzmək» felini seçmişdir. «Üz-

[654] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.

mək», «uçmaq» felləri bədən ağırlığını az hiss etmək deməkdir. Bu, sevgi, cazibə halının ifadəsidir. Göy üzü bir dəryadır, merac nuru ilə nurlanmış Peyğəmbər də bu sonsuz dəryada üzür.

## HƏZRƏT NİZAMİ: «BAKİRƏ SÖZ CAN ƏRİTMƏKDİR»

***Bakirə sözlə demək can əritməkdir,***
***Hər kəs söz deməyə layiq deyil.***

***Əgər sən meyvəsi dəyməmiş bir ağaca çatsan,***
***Onu silkələməyə başlasan, demək özün kalsan.***

***Kal əncir əzməklə yumşala bilər,***
***Ancaq yeyəndə ağzını qanadar.***

***Budaqda çiçəklər vaxtından qabaq gülməsə,***
***Ağac bol meyvə gətirər.***

***Torpağın ki, sinəsi boş oldu,***
***Onun üstündə bina qurmaq olmaz.***

## İKİ YÜZ BİRİNCİ ADDIM:
## ÜRƏK VƏ CANIN İŞİ ÜRƏK VƏ CANA YETİŞDİ

چون بنه عرش به پایان رسید
کار دل و جان به دل و جان رسید

***(Nəhayət) Ərşin sahəsi ona yetəndə,***
***Ürək və canın işi ürək və cana yetişdi.***[655]

Merac gecəsi islam Peyğəmbəri Ərş sahəsinə çatdı. Bu uca məkanadək hz. Məhəmməd (s.a.s) öz cismani varlığını hiss etdi. Ancaq yeni bir mərhələ başladı. Bu məkanda maddi varlığa aid heç bir şey yoxdur. Şair deyir ki, Ərş sahəsinə çatandan sonra «ürək və canın işi ürək və cana yetişdi», yəni Peyğəmbər bu nöqtədən irəli cismi ilə deyil, ruhu ilə getdi.

## İKİ YÜZ İKİNCİ ADDIM:
## ONUN VARLIĞI ÖZÜNÜ ƏSL GÖVHƏRXANASINA YETİRDİ

تن به گهر خانه اصلی شتافت
دیده چنان شد که خیالش نیافت

***Onun varlığı özünü əsl gövhərxanasına yetirdi,***
***Gözü elə (iti) oldu ki, xəyal onu tuta bilmədi.***[656]

Hz. Nizami bu beytdə Ərşdən sonrakı sonsuzluq məkanını Peyğəmbərin həqiqi, əsl məkanı adlandırmışdır. Bu təmiz ruhlar məkanının dəyərini anlatmaq üçün şair «göv-

---

655 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.
656 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.

hər» sözündən istifadə etmişdir. O, qiymətli, təmiz olduğu kimi, bu məkan da çox təmiz və dəyərlidir, gövhərxanadır.

Şair ikinci misrada deyir ki, Onun gözü elə (iti) oldu ki, xəyal onu tuta bilmədi. Burada «gözün iti görməsi»nin hansı anlamı var? Yəni merac gecəsi islam Peyğəmbəri ərş sahəsini keçdi, maddi dünyanın sərhədi bitdi, yeni bir mərhələ başlandı, ruh öz gövhərxanasına daxil oldu. Peyğəmbər öz cismani varlığından azad oldu, ruh bədən qəfəsindən «çıxdı», gözlərə yeni bir nur gəldi, bəsirət gözü tam açıldı. O, hər şeyi bəsirət gözü ilə gördü. Deməli, cismani varlıq, nəfsin istəkləri insanın həqiqətləri görməsinə əngəldir. Bəsirət gözünün açılması cism, bədən qəfəsindən qurtuluşa bağlıdır. Burada gözün iti görməsi gerçəkliyi dəqiq görmək anlamındadır. Şair deyir ki, gözü elə iti oldu ki, xəyal onu tuta bilmədi. Yəni Onun gözlərinin gördüyünü xəyal belə, təsəvvür edə bilməzdi.

## İKİ YÜZ ÜÇÜNCÜ ADDIM:
## CİSM LİBASINI ÇIXARDI

راه قدم پیش قدم در گرفت
پرده خلقت زمیان برگرفت

***O, öz yolunu addım-addım irəliləyərək,***
***Cism libasını çıxardı.***[657]

Ərşdən sonrakı mərhələnin xarakteri budur ki, burada maddi dünyaya aid olan heç bir şey yoxdur. Bu məkan ruh və nur məkanıdır. Şair misrada bədəni, cismi paltara bənzətmişdir. O, cism libasını çıxardı, yəni ruhu cismdən azad olub irəli getdi.

---

[657] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.

## İKİ YÜZ DÖRDÜNCÜ ADDIM:
## BAŞINI TƏBİƏTİN YAXASINDAN ÇIXARDI

کرد چو ره رفت ز غایت فزون
سر ز گریبان طبیعت برون

***O, çox uzun yol getdikdən sonra,***
***Başını təbiətin yaxasından çıxardı.***[658]

Hz. Nizami bu və bundan öncəki beytdə maddi aləmə aid olan sərhədin bitdiyini, yeni bir mərhələnin başladığını ifadə etmişdir. Öncəki beytdə maddi aləmin bitdiyi «cism libasını çıxarmaq» kimi təqdim olunmuş, bu beytdə isə eyni mәna «başını təbiətin yaxasından çıxarmaq» kimi bədii biçimdə verilmişdir. Yəni merac gecəsi islam Peyğəmbəri uzun bir yol getdi, təbiət aləminin, cismani məkanın sərhədindən çıxdı, ruh aləminə, ilahi fəzaya daxil oldu. «Başını təbiətin yaxasından çıxarmaq» çox gözəl bədii biçimdir. Çünki beytin ideyasını dəqiq ifadə edir. Belə ki, başı təbiətin yaxasında olmaq örtülü, məkanı və zamanı olan bir yer təsəvvürü yaradır. Bu cismə aid bir məkandır. Ruhun məkanı isə sonsuzdur. Artıq məkan və zaman ölçüsü yox olmuşdur. Onun varlığı təbiətin yaxasından çıxmışdır.

## İKİ YÜZ BEŞİNCİ ADDIM:
## HİMMƏTİ ONU TANRININ MƏNZİLİNƏ YETİRDİ

همتش از غایت روشن دلی
آمده در منزل بی منزلی

***Onun himməti öz sonsuz paklığı ilə,***
***Onu mənzili məlum olmayan (Tanrının)***
***mənzilinə yetirdi.***[659]

---

[658] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.
[659] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.

Bu beytin ideyasını təqdim etmək üçün açar söz «himmət»dir. «Himmət» lütf, kərəm, ehsan, mürüvvət deməkdir. Dini anlamda «himmət» iki mənada istifadə edilir: a) bütün maddi olanlardan üz çevirib uca Allaha (c.c) yönəlmək, qəlbini diriltmək, çoxluqdan qaçıb, uca Allahdan (c.c) və Onun rizasından başqa, hər cür düşüncələrdən azad olaraq zahiri səbəblərdən uzaqlaşmaq. Bir insanın himməti ancaq uca Allahla (c.c) bağlı olarsa, O uca varlıqdan başqa bir şey istəməz. Bütün varlığı uca Allaha (c.c) itaət edər. Bu isə ancaq maddi aləmdən üz çevirməklə mümkündür. Bu, himmətin ən uca mərtəbəsidir.

b) «Himmət», kamil insanları onların ülvi məqsədinə qovuşduran mənəvi gücdür. Bu iman gücüdür, sevginin, iradənin, səbir və dözümün yaratdığı gücdür. Əzm, enerji, istək, arzu, meyil, şövqdür himmət. Bu bütün gücü ilə uca Allaha (c.c) yönəlmədir. Şair nə gözəl demişdir:

**Baqi:**

**Bu meseli-meşhurdu, dağlar dayanmaz himmete,**
**Himmeti-mərdan ile olur asan her müşkil iş.**

(Bu məşhur məsəldir. Dağlar himmətə dayana bilməz. İnsanın himməti ilə bütün çətin işlər asan olur)

**Şair beytdə islam Peyğəmbərinin merac gecəsi uca Allahın (c.c) hüzuruna çıxmasının iki başlıca səbəbini göstərmişdir: himmət və sonsuz paklıq. Əslində, bu iki anlayış arasında sıx bağlılıq var. Mənəvi təmizlik olmadan himməti əldə etmək olmaz. Çünki himmət bir arınma halıdır, maddi dünyanın nemətlərindən əl çəkməkdir. Himmətin doğulması könül təmizliyinə bağlıdır. O, «sonsuz pakdır», könlündə uca Allah (c.c) sevgisindən başqa bir şey yoxdur. Təmizlik və himmət gücü birləşdi və islam Peyğəmbərini merac gecəsi mənzili məlum olmayan (uca Allahın (c.c) məkanı olmaz) uca Yaradanın mənzilinə yetirdi.**

Hz. Nizami bu beytdə insanlar üçün uğur, uca Allahın (c.c) rizasını qazanmaq ölçüsü vermişdir. Uca Allah (c.c) bizdən ruhi təmizlik, himmət istəyir. Himmət ruh təmizliyi ilə əldə edilər, ruh təmizliyi isə uca Allahdan (c.c) güc almaq imkanı əldə etməyin şərtidir. Təmiz və himmətli olsan, bu dünya və axirət xoşbəxtliyi qazanarsan.

Hz. Nizami beytdə himmət anlayışını qəlbin bütün ruhani gücü ilə uca Allaha (c.c) yönəlməsi kimi dəyərləndirmişdir. Burada bir məsələyə də toxunaq ki, təsəvvüfdə himmət anlayışına böyük önəm verilmişdir. İlk sufilər hər şeyin əsasının himmət olduğunu söyləyərdilər.[660] Onlara görə, vəlayət məqamına çatmaq mücahidə ilə deyil, himmətlə mümkündür. Hakim əl-Tirmiziyə görə, himmət iradə və niyyətdir. Ona görə, himməti din olanın bütün işləri ibadət, himməti dünya olanın hər əməli dünya olar.[661]

Əbu Bəkir əş-Şibliyə görə, himmət iradənin güclü bir şəklidir. Əli əd-Dəkkaya görə, iradə qulun ibadət etməsini, himmət isə müşahidə mərtəbəsinə çatmasını təmin edər.[662] Hərəviyə görə, himmət könlü fani dünyanın verdiyi sıxıntıdan qorumaq və əbədi olan axirəti arzulamağa yönəlməkdir. Ona görə, himmət əməl etmək, ancaq əməllə kifayətlənməyib daha üstün şeylər istəmək, əməllərin nəticəsi olan dəyərli hallarla qane olmayıb, daha yüksəklərə göz dikməkdir.[663]

Təsəvvüfdə himmət ümumi olaraq vəlinin diqqəti, nəzəri, qeyri-adi işləri bacarması kimi anlaşılmışdır. Muhyiddin İbnül-Ərəbiyə görə, himmətin üç şəkli var. Qəlbin arzuladığı şeyə bütün gücü ilə yönəlməsi oyanış şəklində himmətdir. Bu, bir şeyi ürəkdən istəməkdir. Mürid bir şeyi bütün səmimiyyəti ilə istəyirsə, bu, «iradə himmə-

---

[660] «Tarifat», «Himmət» maddəsi.
[661] «Tabakat», s. 515.
[662] «Tarifat», «Himmət» maddəsi.
[663] «Mənazil», s. 22.

ti»dir. İbnül-Ərəbiyə görə, saf bir niyyətlə arzuların bir nöqtədə toplanması «həqiqət himməti»dir. Belə himmət sahibi olan insanların tək istəyi uca Allahdır (c.c).[664]

Əbdülkərim əl-Ciliyə görə, yer üzündəki ən dəyərli şey himmətdir, uca Allahı (c.c) ancaq onunla tanımaq olar. Himmət müridlərin meracıdır, arifləri Haqqa aparan minikdir.[665]

Hz. Nizamiyə görə, islam Peyğəmbərinə merac şərəfini verən Onun himmətidir, pak ruhudur. Şair növbəti beytdə merac şərəfini qazandıran başqa bir ölçünü açıqlamışdır.

## İKİ YÜZ ALTINCI ADDIM: QEYRƏT ONUN QURŞAĞINDAN YAPIŞDI

غيرت ازين پرده ميانش گرفت
حيرت ازان گوشه عنانش گرفت

***Qeyrət onun qurşağından yapışıb bu pərdədən (irəli çəkdi),***
***Heyrət isə onun yüyənini o güşədən çəkdi.***[666]

Himmət, qeyrət, heyrət – bu üç dəyər mübarək islam Peyğəmbərinə merac ucalığı qazandıran nemətdir, yüksəliş, ucalıq ölçüsüdür. Hər üçü imana bağlıdır, onun meyvəsidir. Hər üçü uca Allah (c.c) sevgisinin, Onun yolunda hər şeyini fəda etmək gücünün göstəricisidir. Himmət olmasa, qeyrət, qeyrət olmasa, heyrət yoxdur. Himmət doğru niyyət, bu niyyəti gerçəkləşdirəcək iradədir. Qeyrət isə doğru niyyətin gerçəkləşdirilməsi üçün görülən işdir. Qeyrət imanını, şərəfini, müsəlman kimliyini qorumaq uğrunda mübarizədir, uca Allahın (c.c) yasaqlarına əməl etmək, buyruqlarını yerinə

---

[664] «əl-Fütuhat», c. II, s. 693-694.
[665] «əl-İnsanül-Kamil», c. II, s. 28-30.
[666] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.

yetirməkdir. **Qeyrət sevdiyinə rəqib və alternativ tanımamaqdır, qəbul etməməkdir. Qeyrət sevdiyini hamıdan çox sevmək, onu hər şeydən üstün tutmaqdır. Uca Allah (c.c) da ən çox insanı sevir və onu özündən başqa bir gücün əlinə vermək istəmir. Ancaq uca Allaha (c.c) ibadət etməsini buyurur.** Yəni uca Allah (c.c) buyurur ki, ey insan, sən çox dəyərlisən, sən ancaq uca Allaha (c.c) itaət etməyə layiqsən. Hz. Məhəmməd (s.a.s) buyurur: «Allahdan daha qeyrətlisi yoxdur, elə buna görə də O, insana açıq və gizli olan bütün pislikləri haram etmişdir».[667] «...Allahın qeyrəti qulun edəcəyi günahlara qarşıdır».[668]

Böyük şair Mövlana Cami himmət və qeyrəti gözəl bir biçimdə təqdim etmişdir: «Ancaq Biri istə, Biri çağır, Biri tələb et, Biri gör, Biri bil, Biri söylə!»

Şair deyir ki, qeyrət Onun qurşağından yapışıb bu pərdədən irəli çəkdi. Yəni Onun əzmi, uca Allah (c.c) sevgisindən doğan gücü Onu maddi dünyanın sərhədindən çıxarıb sonsuzluğa yönəltdi. Şair misrada «pərdə» deyərkən maddi aləmi nəzərdə tutmuşdur. Yəni ancaq qeyrət gücü ilə irəli getmək, pərdələri açmaq olar.

Şair beytin ikinci misrasında deyir ki, heyrət onun yüyənini o güşədən çəkdi. Heyrət bir hala təslim olmaqdır. Təsəvvüfdə aşiqlərin heyrət halı belə şərh edilmişdir: «...Hayret derin düşünce ve Allah (c.c) hüzurunda hakikat ehlinin ve ariflerin kalblerine gelen bir haldır... Hayret, Allahın gücüne, şanına, hikmetine karşı duyulan aşırı bir arzudur. Yaşanmadıkca bilinmez».[669]

Şairin təfsirində «yüyəni o güşədən çəkmək» maddi dünyadan ayrılmaq, yeni bir mərhələyə – ruhi sonsuzluğa

---

[667] Buhari, «Nikah», 107; Müslim, «Tövbə», 32-34.
[668] Buhari, «Nikah», 107; Müslim, «Tövbə», 36.
[669] «Tasavvuf terimleri ve deyimleri sözlüğü», göstərilən qaynaq, s. 260.

qovuşmaq anlamındadır. O, merac gecəsi elə bir aləmə daxil olur ki, heyrətə düşür, «pərdədən», guşədən (maddi dünyanın əlamətləri) ayrılır.

## İKİ YÜZ YEDDİNCİ ADDIM:
## O, CAN ALƏMİNƏ ATILDI

رفت ولی زحمت پائی نداشت
جست ولی رخصت جائی نداشت

***O irəliləyir, ancaq ayaqlarının zəhmətini hiss etmirdi,***
***O (can aləminə) atıldı, ancaq bir yer üçün***
***rüsxət ala bilmədi.***[670]

«Pərdədən», «guşədən» qurtulan islam Peyğəmbəri yeni bir aləmə daxil oldu. Öncə «cism libasını soyundu», «başını təbiətin yaxasından çıxardı», «cəhətlərin, zaman və məkanın hökmü başa çatdı», «həm yükü, həm də miniyi geridə qaldı», «Onun lətif və nurani varlığı uzaq göylərdə ruhani aləmdəkilərə nur bağışladı», «nurani ərşdən daha yüksəklərə baş vurdu», «paltarın ağırlığından azad oldu», «yetmiş hicablı pərdəni yırtdı», «tacı və taxtı tərk etdi», «cəhətlərin bazarını pozdu», «üst, alt zəhmətindən xilas oldu». Şair bu kimi ifadələrlə maddi dünyanın əlamətlərini vermişdir. O, merac gecəsi varlığını, cismini maddi dünya ilə sonsuzluğun sərhəddində qoydu, irəli ancaq ruhu getdi, ona görə də ayaqlarının zəhmətini hiss etmədi.

Şair bu beytin ikinci misrasında sonsuzluq məkanını – maddi dünyanın ziddi olan aləmi son dərəcə gözəl bir anlayışla ifadə etmişdir. Şairə görə, bu aləm «can aləmi»dir.

---

[670] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.

Şair maddi dünyanı insanın bədəninə, sonsuzluq məkanını isə ruha bənzətmişdir. «Can aləminə atıldı», yəni oranı çox sevdi, istədi, cəzb olundu, gerçək yuvasına qovuşdu. Ancaq «bir yer üçün rüsxət ala bilmədi», yəni maddi dünyaya aid hər zərrədən, imtina tələb olundu.

## İKİ YÜZ SƏKKİZİNCİ ADDIM: ATI BÜTÜN VARLIQDAN BAYIRA SIÇRATDI

فرس بیرون جهان از کل کونین
علم زد بر سریر قاب قوسین

***Atı bütün varlıqdan bayıra sıçratdı,***
***Kabeqövseyin taxtına bayraq sancdı.***[671]

Birinci misrada olan «atı bütün varlıqlardan bayıra sıçratdı» cümləsində gerçək atdan söhbət getmir. Şair demək istəyir ki, merac gecəsi islam Peyğəmbəri maddi dünyadan uzaqlaşmağa başladı. Burada at obrazı sürəti, hərəkəti ifadə edir.

O, bayrağını kabeqövseynin taxtına sancdı. Misradakı «kabeqövseyn» Qurani-Kərimin «Nəcm» surəsində olan doqquzuncu ayəyə işarədir.

فَكَانَ قَابَ قَوسَينِ أَو أَدنَى

«... (Onların arasındakı məsafə) iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu»

Şairə görə, bayrağını kabeqövseyn taxtına sancmaq maddi dünyanın son nöqtəsinə çatmaq deməkdir.

---

[671] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340-341.

## İKİ YÜZ DOQQUZUNCU ADDIM: MƏKANIN ÜZÜNƏ ÖRTÜK ÇƏKDİLƏR

جهت را جعد بر جبهت شکستند
مکان را نیز برقع باز بستند

*(Altı) cəhətin zülfünü alnında sındırdılar,*
*Məkanın da üzünə örtük çəkdilər.*[672]

Hz. Nizami bu beytdə də maddi dünyanın əlamətlərini bədii biçimdə təqdim etmişdir. Şair bütün meracnamələrində maddi dünya ilə sonsuzluq aləmini tez-tez müqayisə etmişdir. Çünki merac neməti fərqli bir məkanda – ölçüsü, məkanı və zamanı olmayan yerdə təqdim olunmuşdur. Şair maddi dünyanı təqdim edərkən zaman, məkan, əşya ilə bağlı anlayışlara çox yer verir. Şairə görə bu dünya, yəni göy üzündəki maddi dünyanın son nöqtəsinə qədər olan varlıq: «fanidir», «vərəq-vərəq naxışdır», «səhradır», «fərş-fərşdir», «alçaq mərtəbədir», «altı cəhəti, yeddi kökü var», «doqquz fələyi var», «tozludur», bu dünyanın Ayı, Utaridi, Zöhrəsi, Günəşi, Mərrixi, Müştərisi, Keyvanı var, «bu aləmin yeddi xəzinəsi var», «dar zəmanədir», «taxtı, tacı var», «yetmiş yollu bir diyardır», «bu dünyanın bəndi var», «doqquz hücrəsi var», bu dünya «dördqıfıllı bənddir», bu dünyanın «məkan və zaman vərəqi var», «yeddi iqlimi, dörd cəhəti, altı tərəfi var, bu dünya qəfəsdir, tələdir»…

Şair bu beytdə də bu dünyanı «alt cəhəti olan məkan adlandırır: Ön, arxa, sağ, sol, üst, alt. Bu cəhətlər zülfün tüklərinə bənzədilir, altı cəhətin zülfü «alnında sındırıldı», yəni məkan, bu dünyaya aid sərhəd bitdi. Alına, gözün üzə-

---

[672] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

rinə tökülən saç insana mane olar, gözün görməsini çətinləşdirər. Məkan və zaman anlayışı, maddi dünya da insanın gerçəkləri görməsinə mane olar. Ona görə də şair deyir ki, O, merac gecəsi elə bir ucalığa yüksəldi ki, orada maddi dünyanın sərhədi yox oldu, altı cəhət aradan qalxdı, ilahi gerçəkləri görmək şəraiti formalaşdı. Burada «məkanın üzünə örtük çəkildi», yəni sonsuzluq başladı.

## İKİ YÜZ ONUNCU ADDIM:
## YETMİŞ PƏRDƏNİ YIRTDIN

از حجله عرش بر پریدی
هفتاد حجاب را دریدی

***Ərşin gərdək qapısından keçdin,***
***Yetmiş hicabı (pərdəni) yırtdın.***[673]

Şair bu beytdə maddi, qapalı, ölçüsü və zamanı olan məkanı təqdim etmək üçün bu məkanın əlamətlərinə uyğun olan sözlər seçmişdir. «Gərdək», «qapı», «hicab» (pərdə) kimi sözlər məhz ölçüsü olan məkan düşüncəsi yaradır. Gərdək gizli olan, heç kimin görmədiyi, ətraf aləmdən təcrid olunmuş yer deməkdir. Maddi dünya da qapalı bir yerdir, bəlli bir məkan və zaman içərisindədir. Qapı anlayışı da bir yeri başqa bir məkandan ayırır, ölçü anlayışını da ehtiva edir. Pərdə də gizliliyi, təcridi, bəlli bir ölçünü bildirir. «Ərşin gərdək qapısından keçdin», yəni maddi dünyanın sərhədi başa çatdı, «yetmiş hicabı yırtdın», yəni maddi aləmə aid olan hər şeydən imtina etdin, qapılar açıldı, gərdək götürüldü, pərdə qalxdı, ilahi sonsuzluq başladı, ilahi gerçəklər göründü, dar bir məkan sona çatdı. Şair bu qurtuluşu

---

[673] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

ifadə etmək üçün «keçmək», «yırtmaq» fellərindən istifadə etmişdir.

## İKİ YÜZ ON BİRİNCİ ADDIM:
## PALTARIN AĞIRLIĞINDAN AZAD OLDUN

تنها شدی از گرانی رخت
هم تاج گذاشتی و هم تخت

***Paltarın ağırlığından azad oldun,***
***Həm tacı, həm də taxtı tərk etdin.***[674]

Hz. Nizami bu beytdə də maddi dünyanın əlamətlərini ona uyğun olan anlayışlarla təqdim etmişdir. Öncəki beytdəki «gərdək», «yetmiş hicab (pərdə)» anlayışlarının yerini bu beytdə «paltar», «ağırlıq», «taxt», «tac» anlayışları tutmuşdur. Şair meracnamələrində maddi dünyanı təqdim edərkən «paltar» sözündən bir neçə dəfə istifadə etmişdir: «cism libasını çıxardı», «başını təbiətin yaxasından çıxardı». Bu misrada da «paltar» anlayışı «ağırlıq» anlayışı ilə yanaşı verilmişdir. «Paltar» maddi aləmə, insanın bədəninə aid bir anlayışdır. «Paltarın ağırlığından azad oldun», yəni maddi dünyaya, nəfsə aid hər şeydən imtina etdin, ruh aləminə daxil oldun, özünü quş kimi yüngül hiss etdin.

Misrada bu maddi dünyanın əlamətlərini ifadə edən anlayışlardan biri də «taxt» və «tac»dır. Taxt və tac «hakimiyyət» simvollarıdır. Hakimiyyət də maddi dünyanın anlayışıdır. Sonsuzluq aləmində isə taxt və taca ehtiyac yoxdur. Burada uca Allaha (c.c) tam itaət var, burada insan bir mələk kimidir, onun nəfsi ehtiyacları yoxdur.

---

674 Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

## İKİ YÜZ ON İKİNCİ ADDIM: CƏHƏTLƏRİN BAZARINI POZDUN

بازار جهت بهم شکستی
از زحمت تحت وفوق رستی

***Cəhətlərin bazarını pozdun,***
***Üst, alt zəhmətindən xilas oldun.***[675]

Hz. Nizami bu beytdə də maddi dünyanın sərhədlərinin başa çatdığını bədii bir dillə ifadə etmişdir. Şair birinci misrada deyir ki, islam Peyğəmbəri merac gecəsi elə bir yüksəkliyə ucaldı ki, orada cəhətlərin bazarı pozuldu. Cəhətlərin bazarının pozulması o deməkdir ki, artıq maddi dünyanın qanunları bu məkanda işləmir, maddi dünyaya aid olan heç bir şeyin bu yeni məkanda dəyəri yoxdur. Bazar bir şeyin alındığı və satıldığı yer deməkdir. Ancaq bu sonsuzluq aləmində nə alıcı var, nə də satıcı, burada maddi dünyanın nemətlərinə ehtiyac yoxdur. İslam Peyğəmbəri artıq üst və alt zəhmətindən, yəni maddi dünyaya aid əlamətlərdən azad olmuşdur.

Burada diqqəti çəkən bir məsələ də odur ki, şair maddi dünyanı bir qəfəs, bir dar məkan kimi təqdim etmişdir. İslam Peyğəmbərinin sonsuzluq aləminə daxil olduğu mərhələni şair maddi aləmdən qurtuluş kimi təsvir etmişdir: «hədis təbəqələrini aşdı», «Ərşin darısqal qülləsinə çatdı», «Ərşin gərdək qapısından keçdi», «yetmiş hicabı yırtdı», «paltarın ağırlığından xilas oldu», «taxtı, tacı tərk etdi», «cəhətlərin bazarını pozdu», «üst, alt zəhmətindən xilas oldu», «altı cəhətin zülfünü alnında sındırdılar», «məkanın üzünə örtük çəkdilər», «mənlik yox oldu», «həm yükü qaldı, həm də mindiyi atı». Bu və bu kimi başqa deyimlər iki aləmin fərqini aydın göstərir.

---

675 Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

## İKİ YÜZ ON ÜÇÜNCÜ ADDIM: ŞAH ÇADIRINI QABƏ QÖVSEYN GƏRDƏYİNDƏ QURDUN

خرگاه برون زدی ز کونین
در خیمه خاص قاب قوسین

***Sərapərdəni iki aləmdən xaricdə,***
***«Qabə Qövseyn»in gərdəyində qurdun.***[676]

Birinci misradakı «sərapərdə» şah çadırı mənasında işlədilmişdir. Şair bu misrada islam Peyğəmbərini merac gecəsi bir şah kimi təqdim etmişdir. Başqa bir yerə səfər edən şah öz çadırını fərqli bir yerdə qurar. Peyğəmbər öz çadırını elə bir məkanda qurmuşdur ki, orada cəhət yoxdur, bura sonsuzluq aləmidir, iki aləmdən də kənar bir yerdir. Bura «Qabə Qövseyn»in xüsusi gərdəyidir. Başqa beytlərin şərhində də ifadə etdiyimiz kimi, «Qabə Qövseyn» Qurani-Kərimdə olan bir anlayışdır. Bu anlayışla merac gecəsi Peyğəmbərin iki yay arası qədər yaxın məsafədən Cəbrail (ə.s) adlı mələyi olduğu kimi gördüyü bildirilmişdir.

## İKİ YÜZ ON DÖRDÜNCÜ ADDIM: KAİNATIN QARŞISINDAN ÖRTÜK GÖTÜRÜLDÜ

قدم برقع ز روی خویش برداشت
حجاب کاینات از پیش برداشت

***Qədimlik üzündən örtüyü açdı,***
***Kainatın qarşısından örtük götürüldü.***[677]

---

[676] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.
[677] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

Şair öncəki beytlərdə ölçüsü, məkanı, zamanı olan məkanın – maddi dünyanın əlamətlərini «pərdə», «örtük», «altı cəhət», «alt-üst» və başqa bu kimi məkan anlayışı, qapalılıq, qəfəs təsəvvürü yaradan sözlərlə ifadə etmişdir. Bu anlayışların ortaya qoyduğu başqa bir gerçəklik də odur ki, pərdəli, örtüklü, altı cəhətli, altı, üstü olan məkan uca Allahın (c.c) sonradan yaratdığı dünyadır və yox olmağa məhkumdur.

**Belə bir anda hz. Nizami merac gecəsi islam Peyğəmbərinin sonsuzluq aləminə bir pak ruh kimi uçduğunu təsvir edir. Şairin təsvirinə görə, maddi dünyaya aid heç bir şeyin olmadığı bu aləm «dinclik yurdu», «can aləmi» və «ruh məkanı»dır. Bura ilahi rəhmətin gur yağış kimi yaydığı, qorxuların bitdiyi əbədi səadət yurdudur, salam məkanıdır.**

Şair bu sonsuzluq məkanının maddi dünyadan fərqli ilk əlaməti olan qədimliyi, yəni əzəldən var olmağı önə çəkmişdir. Burada maddi dünya ilə sonsuzluq aləmini ifadə edən anlayışlar arasında əkslik var: əbədi mübarizə məkanı – dinclik yurdu, nəfsin hakim olduğu məkan – can aləmi, maddi dünya – ruh aləmi, yaradılan dünya – qədim (əzəli) dünya, pərdəli, cəhətli, alt və üstü olan dünya – pərdəsiz dünya.

Şanlı islam Peyğəmbəri bu sonsuzluq məkanına daxil olanda qədimlik üzündən örtüyü açdı, kainatın qarşısından örtük götürüldü. Buradan çıxan nəticənin biri də odur ki, maddi dünyada ilahi gerçəkləri görmək imkanı məhduddur. Ancaq pərdəsiz, sonsuz məkan ilahi sirlərin görüldüyü aləmdir.

## İKİ YÜZ ON BEŞİNCİ ADDIM:
## O, ÖZLÜYÜNDƏN SÖZ KİMİ XARİC OLDU

چون سخن از خود به در آمد تمام
تا سخنش یافت قبول سلام

***O, özlüyündən söz kimi tamamilə xaric***
***olandan sonra,***
***Onun sözü salamının qəbuluna nail oldu.***[678]

Hz. Nizami «Sirlər xəzinəsi» dastanında olan meracnamənin bundan öncəki beytində deyir ki, O, can aləminə atıldı (yəni ruh aləminə, sonsuzluq məkanına daxil olmaq istədi), ancaq öncə rüsxət ala bilmədi. Çünki hələ maddi varlığından sıyrılmamışdı. Maddi dünyaya aid olan kiçik bir əlamətlə belə, o ruh dünyasında özünə «yer almaq» mümkün deyil. Şair bu beytdə deyir ki, O, ruh məkanına daxil olmaq üçün öncə bir söz kimi özlüyündən tamamilə xaric oldu, maddi varlığına aid olan hər şeydən imtina etdi. Burada maddi varlıqdan imtina etmək fikrinin ifadə olunması üçün sözün müqayisə tərəfi kimi seçilməsi təsadüfi deyil. Çünki söz bir mənanın hərflərlə ifadə şəklidir. Yəni məna sözün ruhu, hərflər isə «bədənidir», «cismidir», «qabığıdır». İnsanın ruhu və bədəni olduğu kimi, sözün də ruhu (mənası) və bədəni (hərfləri) var. Önəmli olan mənadır, yəni ruhdur. Şair deyir ki, O, öncə bir söz kimi maddi varlığından imtina etdi, ancaq məna, təmiz ruh qaldı. Ancaq bundan sonra Onun sözü salamının qəbuluna nail oldu. Yəni Onun təmiz ruhunun «can aləminə daxil olmasına icazə verildi, bura «salam məkanıdır», təmiz ruhların salamına salamla cavab verdilər. «Sözü salamının qəbuluna nail oldu», yəni Ona: «Uca Allahın (c.c) salamı Sənin pak ruhuna olsun», – deyildi.

---

[678] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.

## İKİ YÜZ ON ALTINCI ADDIM:
## BURADA CƏHƏTLƏRİN HÖKMÜ SONA YETDİ

جهت را ولایت به پایان رسید
قطیعت به پرگار دوران رسید

***Burada cəhətlərin hökmü sona yetdi,***
***Dövranın pərgarı birdən dayandı.***[679]

Hz. Nizami bu beytdə maddi dünya ilə «can məkanının» fərqini göstərmək üçün iki vasitədən istifadə edib. Birinci misrada deyilir ki, merac gecəsi islam Peyğəmbəri sonsuzluq məkanının sərhədinə çatdı. Burada cəhətlərin hökmü sona çatdı. Yəni maddi dünyaya aid olan qanunların heç bir gücü qalmadı. Burada zaman, məkan anlayışlarının önəmi yoxdur. Dövranın pərgarı birdən dayandı. Pərgar bir alətdir. Bədii ədəbiyyatda isə daha çox hərəkət anlayışını ifadə etmək üçün istifadə olunur. Hərəkət də zaman və məkan kimi maddi aləmə aiddir. Hərəkət cismə görədir. Deməli, dövranın pərgarı dayandı, yəni maddi dünyanın sərhədi başa çatdı.

## İKİ YÜZ ON YEDDİNCİ ADDIM:
## YERDƏ DOĞULMUŞ GÖYLƏRDƏ GƏZDİ

زمین زادهٔ آسمان تاخته
زمین و آسمان را پس انداخته

***Yerdə doğulmuş göylərdə gəzdi,***
***Yeri, asimanı aşağıda buraxdı.***[680]

---

[679] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 30.
[680] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.

Hz. Nizaminin bu beytdə ifadə etmək istədiyi ideya merac gecəsi islam Peyğəmbərinin göy üzünü fəth etməsi, uca zirvələrə yüksəlməsidir. Ona görə də beytin ideyası bədii təzad üzərində təqdim olunmuşdur: yer-göy, asiman-aşağı. Burada həm də maddi dünya ilə «can aləminin» fərqi verilmişdir. «Yerdə doğulmuşun» göylərdə gəzə bilməsinin səbəbi Peyğəmbərin könlündəki uca Allah (c.c) sevgisidir. O, uca Allah (c.c) yolunda hər şeyini fəda etdi və asimandan aşağıya baxmaq haqqı qazandı.

### İKİ YÜZ ON SƏKKİZİNCİ ADDIM: ARTIQ ONUN (CİSMANİ) VARLIĞINDAN HEÇ BİR ŞEY QALMADI

مجرد روی را به جایی رساند
که از بود او هیچ با او نماند

***Mücərrəd dolanmağı o yerə çatdırdı ki,***
***Artıq onun (cismani) varlığından***
***heç bir şey qalmadı.***[681]

Bu beytdə ifadə olunan məna öncəki beytlərdə təqdim olunmuş ideyanın başqa bir çalarıdır. Artıq cəhətlərin hökmü sona çatdı, dövranın pərgarı dayandı, yerdə doğulmuş elə bir zirvəyə ucaldı ki, yer və asiman aşağıda qaldı. Şair bu beytdə deyir ki, O, mücərrəd dolandı, yəni yoxluq aləmində, məkan, zaman, əşya olmayan aləmdə gəzdi. Burada mücərrəd dolanmaq həm də bir ruh kimi, cismani varlığından azad olaraq sonsuzluq aləmində gəzmək anlamındadır. Beytin ikinci misrası da bu fikri təsdiq edir. Şair deyir

---

[681] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.

ki, mücərrəd dolanmaq o yerə çatdı ki, Onun cismani varlığından heç bir şey qalmadı.

## İKİ YÜZ ON DOQQUZUNCU ADDIM: ÖZ VARLIĞINDAN KƏNARA ÇIXDI

چو شد در ره نیستی چرخ زن
برون آمد از هستی خویشتن

***Yoxluq yolunda o dövr etməyə başladığı üçün,***
***Öz varlığından kənara çıxdı.***[682]

Şair bu son beytlərdə sonsuzluq, məkansızlıq anlayışı yaratmaq üçün ayrı-ayrı vasitələrdən istifadə etmişdir: «cəhətlərin hökmünün sona yetməsi», «dövranın pərgarının dayanması», «yerin, asimanın aşağıda qalması», «mücərrəd dolanmaq», «cismani varlığın yox olması» və başqa bu kimi ifadələr sonsuzluq aləminin əlamətlərini ifadə edir. O, yoxluq aləmində dövr etməyə başladığı üçün öz varlığından kənara çıxdı, yəni ruhu cismindən ayrıldı. Çünki bu yoxluq aləmində cismin olması mümkün deyil.

## İKİ YÜZ İYİRMİNCİ ADDIM: ONUN AYAĞI İLƏ BAŞI BİLİNMİRDİ

در آن دایره گردش راه او
نمود از سر او قدمگاه او

***O dövr etdiyi dairədə,***
***Onun ayağı ilə başı bilinmirdi.***[683]

---

[682] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.
[683] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.

Şair beytin birinci misrasında sonsuzluq aləmini merac gecəsi islam Peyğəmbərinin «dövr etdiyi dairə» adlandırmışdır. Bu dairədə cism olmadığına görə, ancaq ruhun hərəkəti var. Bura çəkisizlik dairəsidir. Ona görə də Onun ayağı ilə başı bilinmirdi. Burada şairin dairə obrazını seçməsi də təsadüfi deyil. Çünki dairənin də «ayağı, başı bilinmir», onun konkret bucağı yoxdur, bir növ məkansızdır.

## İKİ YÜZ İYİRMİ BİRİNCİ ADDIM:
## O, CƏSARƏTLƏ İRƏLİLƏDİ

رهی رفت پی زیر و بالا دلیر
که در دایره نیست بالا و زیر

***O aşağı-yuxarısı olmayan yolda cəsarətlə irəlilədi,***
***Çünki dairənin nə aşağısı, nə də yuxarısı var.***[684]

Hz. Nizami bu beytdə sonsuzluq məkanını ifadə etmək üçün «aşağı» və «yuxarı» sözlərindən istifadə etmişdir. Bütövlükdə, şairin təqdimində «alt», «üst», «aşağı», «yuxarı», «altı cəhət» kimi sözlər hər zaman maddi dünyanı təsvir etmək üçün istifadə edilmişdir. Bu misrada da «aşağı-yuxarısı olmayan yol» deyilərkən sonsuzluq aləmi nəzərdə tutulmuşdur.

## İKİ YÜZ İYİRMİ İKİNCİ ADDIM:
## VÜSAL ƏLİ PƏRDƏNİ ATDI

پرده در انداخته دست وصال
از در تعظیم سرای جلال

***Vüsal (qovuşuq) əli pərdəni atdı,***
***Təzim yolu ilə uca sarayın qapısından.***[685]

---

[684] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.
[685] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.

Hz. Nizami bu beytdən başlayaraq sonsuzluq aləminin yeni bir mərhələsini təsvir edir. Bu mərhələnin başlıca əlaməti uca Allahın (c.c) hikmətini, elm nişanələrini açıqca görməkdir. Bu, ilahi həqiqətlərə qovuşmaq anıdır. Ona görə də şair qovuşmaq anlayışını ifadə edən sözlər seçmişdir: «vüsal əli», «pərdəni atmaq», «qapını açmaq». Şair uca Allahın (c.c) elminin, hikmət nişanələrinin olduğu məkanı «uca saray» adlandırmışdır. İslam Peyğəmbəri merac gecəsi bu uca sarayın qapısından təzimlə pərdəni götürdü, hikmət, elm, nur qapısı açıldı və O, içəri daxil oldu.

## İKİ YÜZ İYİRMİ ÜÇÜNCÜ ADDIM: AYAQ GEDİB-GƏLMƏYİ BAŞIN ÜSTÜNƏ ATDI

پای شد آمد بسر انداخته
جان به تماشا نظر انداخته

***Ayaq gedib-gəlməyi başın üstünə atdı,***
***Can isə gözünü onun tamaşasına dikdi.***[686]

Hz. Nizami bu beytdə artıq «uca saraya» daxil olmuş, pərdəni götürmüş islam Peyğəmbərinin heyrətini ifadə etmişdir. Yeni bir mənzərə görən Peyğəmbər heyrət içərisindədir. Şair bu heyrəti ifadə etmək üçün müxtəlif vasitələrdən istifadə etmişdir. Ayağın başlıca işi hərəkət etmək, insanın hərəkət ehtiyacını təmin etməkdir. Ancaq insan qorxu, sevinc, heyrət anında hərəkət imkanını itirir. Xalq dilində bu halın ifadəsi ilə bağlı olan deyimlərdə «ayaq» sözü önəmli yer tutur: «ayağım tutuldu», «ayağım qıc oldu», «ayağım sözümə baxmadı», «ayağım yerimədi», «ayağım daş oldu» və başqa bu kimi ifadələr heyrət, qorxu halını bildirir.

---

[686] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.

Şair deyir ki, uca sarayın qapısındakı pərdə götürüldü, islam Peyğəmbəri yeni, qeyri-adi bir mənzərə gördü, ayağı gedib-gəlməyi başın üstünə atdı. Yəni ayağı hərəkət imkanını itirdi, O, heyrətə gəldi. Can isə gözünü onun tamaşasına dikdi. Yəni Onun ruhu ancaq bu yeni mənzərənin tamaşasına baxdı. Bu da heyrət halının ifadəsidir. «Canın gözünü dikməsi» hər şeyi unudaraq, sevdiyindən başqa bir şey görməyərək baxmaq deməkdir.

## İKİ YÜZ İYİRMİ DÖRDÜNCÜ ADDIM: İLAHİ SİRRİNİN HEYBƏTLİ SƏHNƏSİNƏ DAXİL OLDU

سر برون زد ز عرش نورانی
در خطرگاه سر سبحانی

***Nurani ərşdən daha yüksəklərə baş vurub,***
***İlahi sirrinin heybətli səhnəsinə daxil oldu.***[687]

Bu beytdə diqqəti çəkən cəhətlərdən biri odur ki, şair ərşi nurani varlıq kimi təqdim etmişdir. O, merac gecəsi nurani ərşdən daha yüksəklərə ucaldı. Sonra yeni bir mənzərə gördü. Şairə görə, bura ilahi sirrin heybətli səhnəsidir. Yəni bura ayağın hərəkət imkanını itirdiyi, yeriməyi başa həvalə etdiyi, canın gözünü ilahi sirrin heybətli səhnəsinə dikdiyi, heyrət halının yaşandığı yerdir.

## İKİ YÜZ İYİRMİ BEŞİNCİ ADDIM: O, HEYRƏTDƏN DƏHŞƏTƏ GƏLDİ

حیرتش چون خطر پذیری کرد
رحمت آمد لگام گیری کرد

[687] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

*O, heyrətdən dəhşətə gəldi,*
*Ancaq (ilahi) mərhəməti gəlib onun*
*cilovunu saxladı.*[688]

İslam Peyğəmbəri bu yeni mənzərədən heyrətə gəlir, Onu dəhşət bürüyür. Şair heyrətin dərəcəsini ifadə etmək üçün iki vasitədən istifadə etmişdir: «dəhşətə gəlmək» və «cilovunu çəkmək (saxlamaq)» kimi ifadələr qeyri-adi bir halın yaşandığını göstərir. Misrada «cilov çəkmək» ifadəsi özünə gəlmək, özünü səfərbər etmək, duyğularına hakim olmaq, özünə nəzarət etmək mənasındadır. O ancaq uca Allahın (c.c) mərhəməti ilə özünə hakim olmuşdur. Bu, başqa yolla mümkün deyildi. Burada ilahi mərhəmətin yada salınması da yeni mənzərənin qeyri-adiliyini ifadə etmək üçündür.

## İKİ YÜZ İYİRMİ ALTINCI ADDIM: HÜCRƏ YADLARDAN BOŞALDI

حجاب سیاست بر انداختند
ز بیگانگان حجره پرداختند

*(Tanrı) siyasətinin hicabı atıldı,*
*Hücrə yadlardan boşaldı.*[689]

Hz. Nizami bu beytdə də yeni mənzərə və mərhələnin fərqini göstərmək üçün iki sözdən istifadə etmişdir: «hicab», «yadlar». Öncəki mərhələdə ilahi sirlərlə insan arasında pərdə var və buna görə də ilahi gerçəklikləri olduğu kimi görmək olmur. Misradakı «Tanrı siyasəti» ifadəsi yaradılmış hər şeyin uca Allahın (c.c) hikmətinə uyğun olduğunu bildirir. Yəni ilahi sirləri pərdəsiz görmək ancaq bəlli şərtlərə bağlıdır. Burada məkan və zaman anlayışı ol-

---

[688] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.
[689] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.

mur. Burada cism yoxdur. «Hücrə», sonsuzluq məkanı yadlardan boşaldı. Yəni burada yaradılmış olan, maddi olan heç bir şey qalmadı. Mələklərin belə bu məkanda olması mümkün olmadı. Burada ancaq islam Peyğəmbərinin ruhu, bir də ilahi sirlər var.

## İKİ YÜZ İYİRMİ YEDDİNCİ ADDIM: HZ. MƏHƏMMƏD (s.a.s) DUA OXUDU, UCA ALLAH (c.c) QƏBUL ETDİ

در آن جای کاندیشه نادیده جای
درود از محمد قبول از خدای

***Heç fikrin də görə bilmədiyi yerdə,***
***Məhəmməd dua oxudu, Allah qəbul etdi.***[690]

Hz. Nizami bu beytdə sonsuzluq məkanının əlamətini başqa bir biçimdə təqdim etmişdir. Bu məkan maddi aləmə aid bir şeyin olmadığı yerdir. Şair bu düşüncəni təqdim etmək üçün deyir: «O yeri fikir belə görə bilməz». Yəni fikrin, xəyalın da o yeri düşünmək, təsəvvür etmək imkanı yoxdur. Belə bir yerdə islam Peyğəmbəri dua oxudu və uca Allah (c.c) Onun duasını qəbul etdi.

## İKİ YÜZ İYİRMİ SƏKKİZİNCİ ADDIM: ONA YAXINDAN DAHA DA YAXIN OLDU

قاب قوسین او در آن اثنا
از دنی رفت سوی او ادنی

***Həmin əsnada «iki kaman arasındakı məsafə»,***
***Ona «yaxından daha da yaxın» oldu.***[691]

---

[690] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.
[691] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

Bu beytin məzmunu Qurani-Kərimin «ən-Nəcm» surəsindən alınmışdır. Bu surədə uca Allah (c.c) buyurur:

والنجمِ إذا هوى . ما ضل صاحبكُم وما غوى . وما ينطقُ عن الْهوى . إن هو إلا وحي يوحى . علمه شديد القُوى . ذُو مرة فاستوى . وهو بالأُفُق الأعلى . ثُم دنا فتدلى . فكان قاب قوسين أو أدنى . فأوحى إلى عبده ما أوحى . ما كذَب الفُؤاد ما رأى . أفتُمارونه على ما يرى . ولقد رآه نزلةً أُخْرى . عند سدرة الْمنْتهى . عندها جنةُ الْمأْوى . إذْ يغْشى السدرةَ ما يغْشى . ما زاغ الْبصر وما طغى . لقد رأى من آيات ربه الكُبرى . أفرأيتُم اللاتَ والْعزى

(ən-Nəcm, 53 / 1-19)

«Batmaqda olan ulduza and olsun ki, Sizin yoldaşınız nə haqq yoldan sapmış, nə də azmışdır! O, həva-həvəslə danışmır. Bu ancaq nazil olan bir vəhydir. Onu çox qüvvətli olan (Cəbrail) öyrətdi. O qüvvət sahibi (səmada öz həqiqi surətində) bərqərar oldu. O (Cəbrail) ən uca üfüqdə idi. Sonra yaxınlaşdı və aşağı endi. (Onların arasındakı məsafə) iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu. Sonra (Cəbrail, Allahın) Öz bəndəsinə vəhy buyurduğunu vəhy etdi. Qəlb gördüyünü yalan saymadı. Siz onunla gördüyü barəsində mübahisəmi edirsiniz? And olsun ki, (Cəbraili öz həqiqi surətində) başqa bir dəfə də (merac vaxtı) görmüşdü. Sidrətül-müntəhanın yanında. Məva cənnəti onun yanındadır. O zaman Sidrəni nələr bürümüşdü, nələr! Göz nə yayındı, nə də uzağa getdi. And olsun ki, (Peyğəmbər) öz Rəbbinin ən böyük qüdrət nişanələrindən bir qismini gördü».

Uca Allah (c.c) ilk ayədə batmaqda olan ulduza and içmişdir. Bir sıra alimlər (İbn Abbas, Mücahid və Süfyan

Sevri) «batmaqda olan ulduzun Sürəyya ulduzu olduğunu bildirmişlər».[692] İbn Cərir və Zəməxşəri də bu görüşü doğru saymışlar. Çünki ərəb dilində «ən-Nəcm» sözü daha çox Sürəyya ulduzuna aid edilir.[693] Suudi isə «ən-Nəcm» sözünün Zöhrə ulduzuna aid olduğunu bildirmişdir.[694] Əbu Ubeydə Nəhvi də «ən-Nəcm» sözünün ulduzların bir növünə aid olduğunu bildirmiş, ancaq ayənin anlamının «…bütün ulduzların səhər batdığına işarə etdiyini» doğru saymışdır.[695]

Böyük islam alimi Mövdudiyə görə, uca Allahın (c.c) ikinci ayədə hz. Məhəmmədi (s.a.s) rəsulullah kimi deyil, «yoldaşınız», «arxadaşınız» kimi təqdim etməsinin də hikməti var. Uca Allah (c.c) bu yolla qureyşlilərə buyurur ki, hz. Məhəmməd (s.a.s) onlara yad olan bir insan deyil. O, yüksək əxlaqı ilə seçilən, onların qövmünə mənsub olan bir insandır. Yəni siz özünüz yalan və iftiralarınızın ona yaraşmadığını bilirsiniz.[696]

Uca Allah (c.c) niyə batan ulduzlara and içir? Çünki ulduzların batması Günəşin çıxması, səhərin açılması və hər şeyin aydın görünməsi deməkdir. Yəni Peyğəmbərin həyatı da bir günəşli gün kimi aydındır. Onun fitrəti tərtəmizdir, O, ağıllıdır, əxlaqı üstündür. O, merac gecəsi uca Allahın (c.c) «böyük qüdrət nişanələrini» gördüyünü deyirsə, doğrudur.[697]

Uca Allah (c.c) üçüncü ayədə buyurur: «O, həva-həvəslə danışmır (nəfsinə uyub keyfi istəyəni) demir». Yəni bu mübarək Quranı O uydurmamışdır, onu şəxsi çıxarları üçün təbliğ etmir. Bu Quranı Ona uca Allah (c.c) vəhy edir.

---

[692] Əbul-Ala Mevdudi, «Tefhimul-Kuran», göstərilən qaynaq, c. VI, s. 11.
[693] Əbul-Ala Mevdudi, «Tefhimul-Kuran», göstərilən qaynaq, c. VI, s. 11.
[694] Əbul-Ala Mevdudi, «Tefhimul-Kuran», göstərilən qaynaq, c. VI, s. 11.
[695] Əbul-Ala Mevdudi, «Tefhimul-Kuran», göstərilən qaynaq, c. VI, s. 11.
[696] «Tefhimul-Kuran», göstərilən qaynaq, c. IV, s. 12.
[697] «Tefhimul-Kuran», göstərilən qaynaq, c. IV, s. 12.

O, peyğəmbərliyini Peyğəmbər olmaq həvəsi ilə deyil, uca Allahın (c.c) Ona əmr etdiyi, risaləti təbliğ etməsini buyurduğu üçün elan etmişdir. İslamın tövhid, axirət, qiyamət günündə cəza və mükafatın veriləcəyi xəbəri, kainatda insanın yeri və saleh bir həyat yaşamağın prinsipləri ilə bağlı mesajı Onun özünün uydurduğu düşüncələr deyil, uca Allahın (c.c) Ona vəhy etdiyi gerçəklərdir. Bu vəhy uca Allahdandır (c.c), Onun mükəmməl elminə bağlıdır.[698]

Təbiidir ki, islam Peyğəmbərinin özünə aid olan sözləri də var. Bunlar islam dininin təbliği, Quranın şərh olunması, müsəlman ümmətinin lideri olaraq peyğəmbərlikdən öncə və sonra nübüvvətlə bağlı olmayan sözlərdir.

Bu surədə ən çox mübahisə doğuran və çoxsaylı şərhlərə yol açan ayə budur: «And olsun ki, Peyğəmbər öz Rəbbinin ən böyük qüdrət nişanələrindən bir qismini gördü». Bir sıra səhabələr və alimlər bu ayə ilə Peyğəmbərin uca Allahı (c.c) gördüyünü, başqa bir qrup isə, Peyğəmbərin uca Allahı (c.c) deyil, Onun ayələrini gördüyünü bildirmişdir. Bu rəvayətləri belə sıralamaq olar:

**Hz. Aişədən (r.a) gələn rəvayətlər.** Hz. Məsruk belə demişdir: «Bir dəfə mən hz. Aişədən (r.a) soruşdum: «Ey anamız! Hz. Peyğəmbər (s.a.s) uca Allahı (c.c) gördümü?» O dedi: «Sənin bu sualın tüklərimi ürpətdi. Bu üç şeyi iddia edənin yalan söyləmiş olduğunu necə unudursunuz!» O, hz. Məhəmmədin (s.a.s) uca Allahı (c.c) görmədiyini söyləyib bu ayələri oxudu: «Gözlər onu görməz», «Allah bir insanla danışmaz, ancaq vəhylə, ya da pərdə arxasından, ya da ki bir elçisini göndərib dilədiyini vəhy edər». O, sonra belə dedi: «Rəsulullah, Cəbraili iki dəfə əsl surətində gördü».[699]

Eyni hədisi Buxari «Kitabut-Tevhid» və «Kitabu Bidaul-Halk» bölmələrində hz. Məsruk xətti ilə belə nəql etmişdir:

---

[698] «Tefhimul-Kuran», göstərilən qaynaq, c. IV, s. 12.

[699] Buhari, «Kitabul-tefsir»; Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 21.

«Hz. Aişənin (r.a) bu cavabından sonra ondan «Sonra yaxınlaşdı, yaxınlaşdı və aşağı endi» ayəsinin mənasını soruşdum. O dedi: «Bununla Cəbrail (ə.s) nəzərdə tutulur. O hər zaman Rəsulullahın yanına insan şəklində gəlirdi, ancaq bu dəfə əsl surətində gəlmiş və bütün üfüqü tutmuşdur».

İmam Müslim, hz. Aişə (r.a) ilə hz. Məsruk arasında olan danışığı belə təqdim etmişdir: «… Hz. Aişə (r.a) dedi: «Kim Allahı gördüyünü iddia edərsə, O Allaha iftira etmişdir». Hz. Məsruk belə deyir: «Mən dirsəklənib oturmuşdum, birdən dik oturdum və dedim: «Ey möminlərin anası, tələsməyin. Allah, «Onu yüksək üfüqdə ikən gördü» və «And olsun, onu bir dəfə də enərkən gördü», – deyə buyurmayıbmı?» Hz. Aişə (r.a) belə cavab verdi: «Ümmətin içində hz. Məhəmmədə (s.a.s) bu mövzu ilə bağlı ilk sualı mən vermişəm. O da belə cavab vermişdi: «Bununla Cəbrail (ə.s) nəzərdə tutulur. Mən onu iki dəfə Allahın (c.c) yaratdığı əsl surətində gördüm. İkisində də göydən enirdi. Onun görüntüsü bütün üfüqü əhatə etmişdi».[700]

**Abdullah bin Məsuddan (r.a) gələn rəvayətlər.** Zir bin Humeyşin, İbn Məsuddan rəvayət etdiyinə görə, O, «… Onlar arasındakı məsafə iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu» ayəsini belə təfsir etmişdir: «Rəsulullah (s.a.s), Cəbraili (ə.s) 600 qanadlı olaraq görmüşdür».[701]

İmam Müslimin nəql etdiyi başqa bir rəvayətə görə, İbn Məsud «Onun gördüyünü qəlbi inkar etmədi» ayəsini də eyni şəkildə təfsir etmişdir.[702]

Ata bin Əbi Rəbiha «And olsun onu bir dəfə də enərkən gördü» ayəsi ilə bağlı Əbu Hureyrədən (r.a) soruşanda

---

[700] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 21.
[701] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 21.
[702] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 21.

o, belə cavab vermişdir: «Hz. Peyğəmbər (s.a.s), Cəbraili (ə.s) görmüşdü».[703]

İmam Müslim, Əbu Zərdən, Abdullah bin Şakik yolu ilə gələn iki rəvayəti «Kitabul-İmanda» belə nəql etmişdir. Əbu Zər, hz. Peyğəmbərdən (s.a.s) soruşmuşdur: «Ey Allahın (c.c) elçisi, Rəbbini gördünmü?» O da belə cavab vermişdir: «Mən Onun nurunu gördüm». (Bu cavabın başqa bir variantı da belədir: «Mən sadəcə nur gördüm»). Bu cavabı İbn Qəyyum belə izah etmişdir: «Mən Allahı deyil, Onun nurunu gördüm». Nəsai və İbn Əbi Hatim isə Əbu Zərin sözünü belə şərh etmişlər: «Rəsulullah Rəbbini gözləri ilə deyil, qəlbi ilə gördü».[704]

İmam Müslim «Kitabul-İman»da Əbu Musa əl Əsaridən bir rəvayəti belə nəql etmişdir: «Məxluqun gözləri Allaha qədər çata (görə) bilməz».[705]

**Hz. Abdullah ibn Abbasdan gələn rəvayətlər.** İbn Abbasdan (r.a) nəql edilən bir rəvayətə görə, Rəsulullah qəlbi ilə Rəbbini iki dəfə görmüşdür.[706]

Onun bildirdiyinə görə, Rəsulullah öz Rəbbini gözləri ilə deyil, qəlbi ilə görmüşdür. O, belə demişdir: «Niyə heyrət edirsiniz? Allah (c.c), hz. İbrahimi (s.a.s) dost seçdi, hz. Musa (s.a.s) ilə danışdı, Özünü hz. Məhəmmədə (s.a.s) göstərdi».[707]

Tirmizi, Şabi yolu ilə İbn Abbasın bir məclisdə belə dediyini yazır: «Allah, görmə və kəlamı hz. Musa (s.a.s) ilə hz. Məhəmməd (s.a.s) arasında bölmüşdür. Hz. Musa (s.a.s)

---

[703] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 22.
[704] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 22.
[705] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 22.
[706] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 22.
[707] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 22.

iki dəfə Allahla danışmış, hz. Məhəmməd (s.a.s) də iki dəfə Allahı (c.c) görmüşdür…».[708]

Tirmizi, İbn Abbasdan rəvayət edilən üç fikri belə ümumiləşdirmişdir:

a) Rəsulullah (s.a.s) Allahı (c.c) görmüşdür

b) Allahı (c.c) iki dəfə görmüşdür

c) Allahı (c.c) qəlbi ilə görmüşdür

İbn Abbasdan (r.a) gələn başqa rəvayətlər də var. Məsələn, o deyir ki, Rəsulullah, Allahı gördüyünü söyləmişdir. Rəsulullah: «Bu gecə Rəbbim mənə ən gözəl şəkildə gəldi», deyəndə mən Onun Allahı (c.c) yuxusunda gördüyünü anladım». «Rəsulullah Rəbbini iki dəfə gördü. Birində gözləri ilə, digərində isə qəlbi ilə».[709]

Məhəmməd bin Kaab əl-Kurzinin nəqlinə görə, bir sıra səhabələr hz. Peyğəmbərdən (s.a.s) soruşmuşlar: «Ey Allahın elçisi! Sən Allahı gördünmü?» O, belə cavab vermişdir: «Mən Onu iki dəfə gördüm» (Ya da: «Mən Onu gözlərimlə deyil, qəlbimlə gördüm»).[710]

Böyük islam alimi Mevdudi də «ən-Nəcm» surəsinin bu ayələrini şərh edərkən hz. Məhəmmədin (s.a.s) Allahı (c.c) deyil, Onun böyük ayələrini gördüyünü yazmışdır: «… İlk dəfə onu uca üfüqdə görmüşdü, ancaq bu, Allah deyildi. İkincisində də Sidrətül-müntəhada görmüşdü. O da Allah deyildi. Rəsulullah hər ikisində də Cəbraili (ə.s) görmüşdü. Əgər hz. Məhəmməd (s.a.s), Allahı (c.c) görmüş olsaydı, şübhəsiz, bu qədər böyük bir hadisəni açıqca anladardı. Quranda hz. Musa (s.a.s) Allahı (c.c) görməyi arzu edəndə Allah (c.c): «Sən Məni görə bilməzsən», – demişdi. Yəni hz. Musaya (s.a.s) belə bir şərəf verilməmişdi. Əgər bu şərəf

[708] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 22.
[709] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 22.
[710] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 22.

hz. Peyğəmbərə (s.a.s) verilmiş olsaydı, Allah (c.c) bunu açıq bəyan edərdi…».[711]

Hz. Nizami şərh olunan beytdə deyir: «onlar arasında məsafə iki kaman arasındakı məsafə qədər, hətta ondan da yaxın oldu». Şair burada hz. Məhəmmədin (s.a.s) merac gecəsi Cəbraili (ə.s) deyil, uca Allahı (c.c) gördüyünü nəzərdə tutmuşdur.

## İKİ YÜZ İYİRMİ DOQQUZUNCU ADDIM: NUR AYƏSİNİ XƏYALA SIĞMAYAN BİR BAXIŞLA SEZDİ

آیت نوری که زوالش نبود
دید به چشمی که خیالش نبود

***Zavalı olmayan o nur ayəsini (möcüzəsini),***
***Xəyala sığmayan bir baxışla sezdi.***[712]

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinin gördüyünün böyük nur («nur ayəsi», «nur möcüzəsi») olduğunu deyir. Bu, zavalı olmayan nurdur, yəni əbədi olan, sönməyən nur.

Qurani-Kərimdə «nur» sözü qırx üç dəfə işlədilmişdir. Quranda «nur» sözü ilə hz. Məhəmməd (s.a.s) də nəzərdə tutulmuşdur:

يا أَهلَ الْكتَابِ قَد جاءكُم رسولُنَا يبين لَكُم كَثيراً مما كُنتُم تُخْفُون من الْكتَابِ ويعفُو عن كَثيرٍ قَد جاءكُم من اللّه نُور وكتَاب مبِين

(Maidə, 5/15)

---

[711] Mevdudi, «Tefhimul-Kuran», c. VI, s. 21.
[712] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.

«Ey kitab əhli! Sizə kitabda (Tövratda və İncildə) gizlətdiyiniz şeylərin bir çoxunu bildirən, bir çoxunu da sizə bağışlayıb üstünü vurmayan Peyğəmbərimiz gəldi. Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir kitab (Quran) gəldi».

İlahi kitabda «nur» sözü ilə Qurani-Kərim nəzərdə tutulmuşdur:

الذين يتبعون الرسول النبي الأمي الذي يجدونه مكتوباً عندهم في
التوراة والإنجيل يأمرهم بالمعروف وينهاهم عن المنكر ويحل لهم
الطيبات ويحرم عليهم الخبآئث ويضع عنهم إصرهم والأغلال التي
كانت عليهم فالذين آمنوا به وعزروه ونصروه واتبعوا النور الذي
أنزل معه أولـئك هم المفلحون

(əl-Əraf, 7/157)

«O kəslər ki əllərindəki Tövratda və İncildə yazılmış gördükləri rəsula-ümmi Peyğəmbərə tabe olurlar, (Peyğəmbər) onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz nemətləri halal, murdar şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar. Ona iman gətirən, yardım göstərən və onunla endirilmiş nurun (Quranın) ardınca gedənlər, məhz onlar nicat tapanlardır!»

Qurani-Kərimdə «nur» deyilərkən islam dini nəzərdə tutulmuşdur:

يريدون ليطفؤوا نور الله بأفواههم والله متم نوره ولو كره
الكافرون

(əs-Saf, 61/8)

«Onlar Allahın nurunu (islam dinini) öz ağızları (öz iftiraları və şər sözləri) ilə söndürmək istəyirlər. Allah isə

kafirlərin xoşuna gəlməsə də – öz nurunu (dinini) tamamlayacaqdır».

Qurani-Kərimdə «nur» sözü inayət, atəş mənalarında da istifadə edilmişdir.[713]

Qurani-Kərimdə ayrıca «Nur» surəsi var. Bu surənin otuz beşinci ayəsində uca Allah (c.c) buyurur: «Allah göylərin və yerin nurudur». Uca Allahın (c.c) nur olması çeşidli izahlara yol açmışdır. Bu yozumlara görə, Allahın (c.c) nur olması hidayətdir, kainatdakı hər şeyin yaradıcısı olmasıdır.

الله نُور السماوات والْأرض مثَلُ نُورِه كمشْكَاة فيها مصباح
الْمصباح في زجاجة الزجاجةُ كأنها كوكب دري يوقَد من شجَرة
مباركَة زيتُونة لا شَرقية ولَا غَربية يكَاد زيتُها يضيء ولَو لَمْ
تَمسسه نَار نور علَى نُورٍ يهدي الله لِنُورِه من يشَاء ويضرِب الله
الْأمثَالَ لِلناسِ والله بِكُل شَيء عليم

(ən-Nur, 24/35)

«Allah göylərin və yerin nurudur. Onun nuru içərisində çıraq olan bir qəndilə bənzər. O çıraq bir şüşənin içindədir. O şüşə isə, sanki, inciyəbənzər bir ulduzdur, O çıraq nə şərqdə, nə də qərbdə (aləmin ortasında) olan mübarək bir zeytun ağacından yandırılır. Onun (zeytun ağacının) yağı özünə od toxunmasa da, sanki işıq saçır. O, nur üstündə nurdur. Allah dilədiyini öz nuruna qovuşdurur. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir!»

Hz. Nizami deyir ki, O, zavalı olmayan bir nur ayəsidir. Bu nur Onu heyrətə saldı və O, xəyala sığmayan bir baxışla onu sezdi.

---

713 əl-Hədid, 57/13; əl-Vaqiə, 56/71.

## İKİ YÜZ OTUZUNCU ADDIM: NURU PƏRDƏSİZ GÖRDÜ

چون حجاب هزار نور درید
دیده در نور بی‌حجاب رسید

***Elə ki min nur pərdəsini yırtdı,***
***Onun gözü nuru pərdəsiz gördü.***[714]

Hz. Nizami görmə mənzərəsini təsvir edərkən nur sözündən çox istifadə etmişdir. «Elə ki min nur pərdəsini yırtdı» - bu misranın anlamı belədir. Hz. Məhəmməd (s.a.s) merac gecəsi elə bir ucalığa yüksəldi ki, maddi aləmə aid olan hər şey yox oldu, O, zamanı, məkanı olmayan bir sonsuzluq aləminə daxil oldu. «Min nur pərdəsini yırtdı», yəni nuru görməyə mane olan hər şey ortadan qalxdı. Şair bu maneələri «pərdə» kimi təqdim etmişdir. Artıq pərdələr yoxdur, bu sonsuzluq aləmi ancaq nurdan ibarətdir. «Onun gözü nuru pərdəsiz gördü», yəni islam Peyğəmbəri ilahi sirləri, ilahi elmi tam gördü.

## İKİ YÜZ OTUZ BİRİNCİ ADDIM: O, TANRINI GÖRDÜ VƏ TANRI GÖRÜLMƏLİDİR

مطلق از آنجا که پسندیدنیست
دید خدا را و خدا دیدنیست

***Bu yerdə təqdirəlayiqdir ki, (deyim) mütləq,***
***O, Tanrını gördü və Tanrı görülməlidir.***[715]

Hz. Nizami iddia edir ki, merac gecəsi islam Peyğəmbəri uca Allahı (c.c) görmüşdür. Öncə onu deməliyik ki, bu

[714] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.
[715] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 30.

məsələ islam alimləri və məzhəblər arasında ən çox mübahisə doğuran məsələlərdən biridir. Həm də məsələnin iki yönü var. Birincisi, ümumiyyətlə, uca Allahı (c.c) görmək mümkündürmü? İkincisi, merac gecəsi bu hadisə baş vermişdirmi?

Əhli-sünnəyə görə, uca Allahı (c.c) axirətdə görmək (müsəlmanların görməsi) əqli olaraq mümkündür, nəqlən (ayə və hədislərlə) vacibdir. Yəni uca Allahın (c.c) axirətdə görülməsi əqli baxımdan imkansız deyil. Ayə və hədislərdə də müsəlmanların axirətdə uca Allahı (c.c) görəcəyi bildirilmişdir. Ancaq bu görmə hadisəsinin keyfiyyəti bilinmir. Mövzu ilə bağlı dəlil olaraq göstərilən ayə və hədislər bunlardır:

وجوه يومئذ ناضرةٌ إلى ربها ناظرةٌ

(əl-Qiyamə, 75/22-23)

«O gün neçə-neçə üzlər sevinib güləcək. Öz Rəbbinə baxacaqdır».

Hz. Musa (s.a.s), uca Allahı (c.c) görmək istəmişdir:

ولما جاء موسى لميقاتنا وكلمه ربه قال رب أرني أنظر إليك قال لن تراني ولكن انظر إلى الجبل فإن استقر مكانه فسوف تراني فلما تجلى ربه للجبل جعله دكاً وخر موسى صعقاً فلما أفاق قال سبحانك تبت إليك وأنا أول المؤمنين

(əl-Əraf, 7/143)

«Musa təyin etdiyimiz vaxtda (Turi-Sinaya) gəldikdə Rəbbi onunla (arada heç bir vasitə olmadan) danışdı. (Musa): «Ey Rəbbim! Özünü mənə göstər. Sənə baxım!» - dedi. Allah: «Sən məni əsla görə bilməzsən. Ancaq (bu) dağa bax. Əgər o, yerində dura bilsə, sən də Məni görə bilərsən!» - buyurdu. Rəbbi dağa təcəlli etdikdə (Allahın nuru

dağa saçıldıqda) onu parça-parça etdi. Musa da bayılıb yıxıldı. Ayılandan sonra isə: «Sən paksan, müqəddəssən! Sənə tövbə etdim. Mən iman gətirənlərin birincisiyəm!» - dedi».

İrəli sürülən dəlilə görə, əgər uca Allahın (c.c) görülməsi imkansız olsa idi, hz. Musa (s.a.s) belə bir tələb irəli sürməzdi. İslam inancına görə, vəhy alan bir Peyğəmbər uca Allahın (c.c) sifətlərindən xəbərsiz ola bilməz.

Hz. Məhəmməd (s.a.s) belə buyurmuşdur: «Cənnətliklər cənnətə girdiyi zaman uca Allah (c.c) onlara buyuracaq: «Sizə verməyimi istədiyiniz başqa bir şey varmı?». Onlar belə cavab verəcəklər: «Üzümüzü sən ağartmadınmı? Bizi cənnətə yerləşdirib atəşdən qurtarmadınmı? Daha nə istəyək? Bundan sonra uca Allah (c.c) pərdəni qaldıracaq. Cənnətlik olan möminlərə Rəbbinə baxmaqdan daha xoş olacaq bir şey verilmiş ola bilməz».[716]

Hz. Məhəmməd (s.a.s) bu sözlərindən sonra «Yunis» surəsinin iyirmi altıncı ayəsini oxumuşdur.

للذين أَحسنُواْ الْحسنَى وزِيادةٌ ولاَ يرهقُ وجُوههم قَتَر ولاَ ذلةٌ
أُولَـئِك أَصحاب الْجنة هم فيها خَالِدون

(Yunis, 10/26)

«Yaxşı işlər görənləri Cənnət və daha artıq mükafat gözləyir. Onların üzünə nə bir toz, nə də bir zillət qonar. Onlar cənnətlikdirlər və orada əbədi qalacaqlar!»

Hz. Məhəmməd (s.a.s) başqa bir hədisində belə buyurmuşdur: «Şübhəsiz, siz bu ayı gördüyünüz kimi Rəbbinizi də görəcəksiniz…».[717]

Mötəzilə və Cəhmiyyə məzhəbləri insanın uca Allahı (c.c) görə biləcəyi düşüncəsini rədd edirlər. Onlara görə, bu

---

[716] Müslim, «İman», 80; Tirmizi, «Cənnət», 16; Ahmed bin Hanbel, c. IV, s. 332; c. VI, s. 16.
[717] Http: tr.wikipedia.org.wiki. Ruyetullah.

uca Allahın (c.c) yaratdıqlarına bənzəməsi deməkdir. Allah (c.c) cism deyil, Onu görmək anlayışı tövhid inancına ziddir.[718]

Şiə məzhəbinə görə də uca Allahı (c.c) görmək mümkün deyil. Onlara görə, uca Allahı (c.c) dünyada və axirətdə görmək Onu cisimləşdirmək deməkdir.[719]

Meracda islam Peyğəmbəri uca Allahı (c.c) gördümü? Böyük təfsir alimi Elmalı Hamdi Yazır «Nəcm» surəsini təfsir edərkən bu tezisləri irəli sürür:

– Rəsulullah (s.a.s), Cəbraili (ə.s) Quranın hər enən parçası əsnasında hansı şəkildə gəlirdisə, o cür görürdü. Gerçək şəklində isə bir dəfə meracdan öncə gördü. Bir dəfə də meracdan enərkən gördü… Cəbrailin (ə.s) təliminə uyğun olaraq Rəsulullah (s.a.s) ən yüksək üfüqdə qalmamış, ondan sonra uca Allaha (c.c) doğru yaxınlaşmışdır.

– Ona görə də «Nəcm» surəsindəki 8-ci ayədə olan yaxınlaşmanın Rəsulullah haqqında olduğunu söyləyə bilərik. Ayədə cəzb etmə (çəkmə) mənasını verən «tədəlla» feli ilə də Onun cəzb edilməsinin, yəni aşağıdan yuxarıya doğru çəkilməsinin nəzərdə tutulduğunu, dolayısı ilə burada meraca işarə edildiyini söyləyə bilərik.

– «Nəcm» surəsinin 9-cu və 10-cu ayələrindən bu məna çıxır: merac gecəsi uca Allahın (c.c) xas qulu olan hz. Məhəmməd (s.a.s) öz Rəbbinə elə yaxınlaşdı ki, hər vasitə ortadan qalxdı (hz. Nizami deyir ki, pərdə götürüldü – S.H), yəni meracda Cəbrail (ə.s) belə, vasitə olmadan uca Allah (c.c) quluna vəhy etdi.

– «Nəcm» surəsinin 18-ci ayəsində «Rəbbini gördü» deyilməyib. «Rəbbinin ayələrindən ən böyüyünü gördü» buyrulduğuna görə, bu ifadənin zahirindən Onun zatını

[718] Http: tr.wikipedia.org.wiki. Ruyetullah.
[719] Http: tr.wikipedia.org.wiki. Ruyetullah.

gördüyü anlamı çıxmaz. Bu mövzunu açıqlarkən Razinin istifadə etdiyi bir ifadə bizi başqa bir mənaya yönəltdi. Röyət (görmə) ən böyük ayə olduğuna görə, burada «kubra»nı («ən böyük») röyət olaraq təfsir edə bilərik. Bunu da iki yöndə düşünmək olar: a) Rəbbinin ayələrindən, yəni möcüzələrindən ən böyüyü olan **röyət möcüzəsini gördü**. b) Ən böyük ayə olan röyətin həqiqətini gördü. Çünki «Ənam» surəsinin 103-cü ayəsində olan «görmə»nin («Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cism deyil), (hər şeydən) xəbərdardır!») əslini və dolayısı ilə röyətin həqiqətini Allah bilir. O halda röyətin həqiqətini görmək bir qüdsi hədisdə olan «... artıq onun qulağı, gözü və qəlbi mən olaram» ifadəsi ilə və «Ənfal» surəsinin 8-ci ayəsinin məzmununa uyğun olaraq uca Allahın (c.c), Rəsulullahda (s.a.s) təcəlli edən ən böyük yaxınlıq ayə və dəlillərindən olmuş olur. Bu yozuma görə, ən böyük dəlil (ən böyük ayə) həqiqəti-Məhəmmədiyyədir... Çünki məqsəd nə olursa-olsun, ayələrin ən böyüyü, ya da ayələrdən ən böyüyünün onda təcəlli etmiş olduğuna şübhə yoxdur.[720]

**Böyük mütəsəvvüf alim İmam Rəbbani merac hadisəsini belə şərh edir: «... Onun merac gecəsində Rəbbini görməsi, dünyada deyil, axirətdə baş vermişdir. Çünki O, merac gecəsi məkan, zaman dairələrindən kənara çıxdı və imkan aləminin darlığından qurtuldu. Bu zaman əzəl və əbədi bir an olaraq tapdı, başlanğıc və sonu bir nöqtə olaraq gördü...».[721]**

Hz. Nizami beytdə israrla belə deyir: «Merac gecəsi islam Peyğəmbəri mütləq uca Allahı (c.c) görmüşdür. O, Tanrını gördü və Tanrı görülməlidir. Hz. Nizaminin merac

---

[720] Elmalılı Hamdi Yazır, «Hakk dini Kuran dili», c. VII, s. 4570, 4574, 4576, 4577, 4579, 4580, 4582, 4583, 4586, 4588, 4589.
[721] İmam Rəbbani, «Mektubat», c. I, 283-cü məktub.

gecəsi və bu mübarək gecədə islam Peyğəmbərinin uca Allahı (c.c) görməsi ilə bağlı düşüncələrini belə sıralamaq olar:

**– Merac islam və peyğəmbərlik tarixinin ən önəmli hadisələrindən biridir.**

**– Merac uca Allahla (c.c) hz. Məhəmmədin (s.a.s) münasibətinin ölçülərindən biridir.**

**– Merac ən önəmli ilahi nemətlərin verildiyi gecədir.**

**– Merac ilahi həqiqətləri görmə hadisəsidir.**

**– Hz. Məhəmməd (s.a.s) uca Allahı (c.c) qəlb gözü ilə görmüşdür. O, maddi aləmin sonunadək fiziki olaraq yüksəlmiş, bundan sonra sonsuzluq aləmində qəlb gözü ilə Onu görmüşdür.**

**– Uca Allahın (c.c) görülməsi məkanı, zamanı, cəhəti olmayan bir sonsuzluq aləmində baş vermişdir.**

**– Bu görmə hadisəsi bizim görmə anlayışımızdan fərqlidir və gerçək mahiyyətini ancaq uca Allah (c.c) bilir.**

Böyük türk şairi Süleyman Çələbi də sonrakı dövrdə eyni tezisləri irəli sürmüşdür:

***… Bir feza oldu o demde runüma,***
***Ne mekan var anda, ne arz ü sema.***

***Kim ne halidir, ne malı ol mahal,***
***Akl u fikr etmez o hali fehm ü hal.***

***Şeş cihetten ol münezzeh Zül-celal,***
***Bikem ü keyf ana gösterdi cemal.***

***… Aşikare gördü Rəbbül-izzeti,***
***Ahirette öyle görür ümmeti.***

***Bihuruf ü lafz u savt ol Padişah,***
***Mustafaya söyledi biiştibah.***

(Bir fəza, sonsuzluq göründü o an, bura elə bir yer idi ki, orada yer, göy, məkan yox idi. O yer nə dolu, nə də boş idi. İnsan ağlı bu halı anlaya bilməz. Altı cəhəti (sağ, sol, alt, üst, aşağı, yuxarı) olmayan (cəhətsiz olan) uca Allah (c.c) Ona keyfiyyəti bilinməyən bir şəkildə camalını göstərdi. O, uca, izzətli Allahı (c.c) aşkar gördü. Onun ümməti axirətdə öz Rəbbini elə görəcək. Uca Allah (c.c) hərf və səs olmadan Onunla danışdı)

## İKİ YÜZ OTUZ İKİNCİ ADDIM:
## O ÖZ VARLIĞINDAN BİR ADDIM DA YÜKSƏLDİ:

گامی از بود خود فراتر شد
تا خدا دیدنش میسر شد

***O, öz varlığından bir addım da yüksəldi,***
***Ki, Tanrını görmək ona müyəssər oldu.***[722]

Hz. Nizami bu beytdə də merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) görmə şərtini (ölçüsünü) açıqlamışdır. Bu ölçüyə görə, O, öz varlığından bir addım yüksəldi və nəticədə uca Allahı (c.c) gördü. Yəni onda maddi olan bir şey qalmadı, maddi varlığını tərk etdi, qəlb gözü ilə, məkanı, zamanı olmayan bir aləmdə Onu gördü. Varlıq, maddi aləm olan yerdə Onu görmək mümkün deyil.

[722] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

## İKİ YÜZ OTUZ ÜÇÜNCÜ ADDIM:
## ÖZ MƏBUDUNU DOĞRU GÖRDÜ

دید معبود خویش را به درست
دیده از هر چه دیده بود بشست

***Öz məbudunu dürüst görüb,***
***Gözlərini bütün gördüklərindən yuyub (təmizlədi).***[723]

Hz. Nizami beytin birinci misrasında «məbud» sözündən istifadə etmişdir. Məbud ərəbcədir, ibadət, qulluq edilən deməkdir. Müsəlmanın məbudu uca Allahdır (c.c). Mömin uca Allahın (c.c) quludur. O, ibadəti ancaq uca Allaha (c.c) edər, Ona şərik qoşmaz.

Şairin bu misrada uca varlığı Allah (c.c) kimi deyil, məbud (ibadət olunan varlıq) kimi təqdim etməsinin də anlamı var. Öncə onu deyək ki, «əbd», «abid», «ibadət», «ubudiyyət» sözləri də eyni kökdən törəmişdir. «Əbd» qul deməkdir. İbadət, ubudiyyət də boyun əymək, qulluq etməkdir. Uca Allahın (c.c) insanları, cinləri yaratmasının gerçək səbəbi də Ona qulluq etməkdir. İbadət, itaət uca Allaha (c.c) olarsa, onda «əbd» azad insan anlamını verir. Əgər Ondan başqa bir varlığa ibadət edilərsə, onda kölə insan mənasını bildirir.

Qurani-Kərimdə peyğəmbərlər, ayrıca olaraq hz. Məhəmməd (s.a.s) üçün «əbd» (qul) sözündən istifadə edilmişdir:

فَأَوحَى إِلَى عَبدِهِ مَا أَوحَى

(ən-Nəcm, 53/10)

«Sonra (Cəbrail, Allahın) Öz quluna (Məhəmmədə) vəhy buyurduğunu vəhy etdi».[724]

---

[723] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.
[724] Hz. Məhəmmədə (s.a.s) qul deyilməsi ilə bağlı baxın: ən-Nəml, 27/59; Fatir, 35/32.

O da diqqəti çəkir ki, uca Allah (c.c) merac hadisəsinin bildirildiyi «İsra» surəsində də hz. Məhəmmədə (s.a.s) qul deyir:

بِسمِ اللهِ الرحمنِ الرحيمِ سبحان الذي أَسرى بِعبده لَيلاً من الْمسجِدِ الْحرامِ إِلى الْمسجِدِ الأَقْصى الذي باركْنَا حوله لِنُرِيه من آياتنَا إِنه هو السميع البصير

(İsra, 17/1)

«Bəzi ayələrimizi göstərmək üçün qulunu bir gecə Məscidül-Həramdan ətrafını mübarək etdiyimiz Məscidül-Əqsaya aparan Allah pakdır, müqəddəsdir. O, doğrudan da, eşidəndir, görəndir!»

Şəhadət kəlməsinin iki şərtindən biri hz. Məhəmmədin (s.a.s) qulluq vəsfidir, o birisi də peyğəmbərliyidir.

Uca Allah (c.c) buyurur ki, yerdə və göydə olan hər şey Onun hüzuruna qul olaraq çıxacaq:

إِن كُل من في السماوات والْأَرضِ إِلا آتي الرحمنِ عبداً

(Məryəm, 19/93)

«Çünki göylərdə və yerdə olan bütün məxluqatdan elə birisi yoxdur ki, (qiyamət günü) Rəhmanın hüzuruna bir qul kimi gəlməsin».

Bu qulların sırasına mələklər və cinlər də daxildir:

لن يستَنكفَ الْمسيح أَن يكُون عبداً للّه ولا الْملآئِكَةُ الْمقَربون ومن يستَنكفْ عن عبادته ويستَكْبِر فَسيحشُرهم إِلَيه جميعاً

(ən-Nisa, 4/172)

«İsa əl-Məsih də, yaxın mələklər də Allahın qulu olmağı əsla özlərinə ar bilməzlər. Allah Ona ibadət etməyi özünə ar bilənlərin və təkəbbür göstərənlərin hamısını Öz hüzuruna toplayacaqdır!»

وما خلقت الجن والإنس إلا ليعبدون

(əz-Zariyat, 51/56)

«Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım».

Qurani-Kərim iman edən insanı «mömin kölə (qul)» adlandırır.[725]

Qurani-Kərimə görə, ancaq uca Allahı (c.c) özünə məbud edən mömin qulun əlamətləri bunlardır: Onların yerişində təvazökarlıq var, təkəbbürdən uzaqdır, cahillərdən üz çevirmişlər, gecə namaz qılarlar, dua edərlər, xəsis və israfçı deyillər, tarazlıq həyat ölçüləridir, ancaq uca Allaha (c.c) yalvararlar, adam öldürməzlər, zina etməzlər, yalan şahidlik etməzlər, boş, mənasız işlərlə məşğul olmazlar, uca Allahı (c.c) və hz. Məhəmmədi (s.a.s) çox sevərlər. Ancaq uca Allaha (c.c) qulluq edərlər:

إياك نعبد وإياك نستعين

(əl-Fatihə, 1/5)

«Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik!»

Bir insan üçün ən böyük xoşbəxtlik uca Allaha (c.c) qul olmaqdır. Ondan ayrı qalmamaqdır. Gerçək qullara şeytan təsir edə bilməz:

إن عبادي ليس لك عليهم سلطان وكفى بربك وكيلاً

(əl-İsra, 17/65)

«Doğrusu, Mənim (mömin) bəndələrim üzərində sənin (şeytanın) heç bir hökmün ola bilməz. Rəbbinin vəkil olması kifayət edər!»

Hər kim uca Allaha (c.c) qulluqdan imtina edər, Onu tək məbud kimi tanımazsa, yardımçısı şeytan olar:

---

[725] əl-Bəqərə, 2/221.

وَمَن يَعْشُ عَن ذِكْرِ الرَّحْمَٰنِ نُقَيِّضْ لَهُ شَيْطَانًا فَهُوَ لَهُ قَرِينٌ

(əz-Zuxruf, 43/36)

«Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, Biz ona şeytanı urcah edərik və onun yaxın dostu olar».

Peyğəmbərin sahib olduğu şərəfin, məqamın ən böyüyü qul olmaqdır. Hz. Məhəmməd (s.a.s) belə buyurur: «Allah ya qul – peyğəmbər, ya da sultan – peyğəmbər olmağın ikisindən birini seçməyi mənə həvalə etdi. Mən qul – peyğəmbər olmağı seçdim».[726]

Uca Allah (c.c) ölənədək ona ibadət etməyimizi, Ona qul olmağımızı istəyir:

وَاعْبُدْ رَبَّكَ حَتَّىٰ يَأْتِيَكَ الْيَقِينُ

«Və sənə yəqin (ölüm) gələnədək Rəbbinə ibadət et!»

Dediyimiz kimi, şair beytin birinci misrasında «məbud» sözündən istifadə etmişdir. Məbud ibadət edilən varlıq deməkdir. Ən böyük ibadət də namazdır. Namaz neməti də merac gecəsi verilmişdir.

Hz. Məhəmməd (s.a.s) merac gecəsi öz məbudunu dürüst gördü, gözlərini bütün gördüklərindən yuyub təmizlədi. Yəni gördüyü bütün varlıqların əksi gözlərindən silindi, ancaq məbudun gördü, Onun öz məbudunu görməsinə mane olan hər şey yox oldu. O, heyrətlə öz məbuduna baxdı.

## İKİ YÜZ OTUZ DÖRDÜNCÜ ADDIM: ONUN GÖZÜ BİR CƏHƏTDƏ DAYANA BİLMİRDİ

دیده بر یک جهت نکرد مقام
کز چپ و راست می‌شنید سلام

***Onun gözü bir cəhətdə dayana bilmirdi,***
***Sağdan və soldan isə Onun salamlarını eşidirdi.***[727]

[726] Müsnəd, 11/291.
[727] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinin görmə anında həyəcanını ifadə etmişdir. O, qorxu və həyəcan içindədir, qeyri-adi mənzərə ilə qarşılaşmışdır. Ona görə də gözü bir cəhətdə dayana bilmir. Ancaq bu həyəcanlı anlarda uca Allah (c.c) Onu tək buraxmır. O, sağdan və soldan uca Allahın (c.c) salamlarını eşidir.

## İKİ YÜZ OTUZ BEŞİNCİ ADDIM: ALTI CƏHƏT ARADAN QALXDI

زیر و بالا و پیش و پس چپ و راست
یک جهت گشت و شش جهت برخاست

***Aşağı və yuxarı, ön və arxa, sağ və sol,***
***Bir cəhətə çevrildilər, altı cəhət aradan qalxdı.***[728]

Hz. Nizami bu beytdə məkansızlıq aləmini təsvir etmişdir. Bütövlükdə, şairə görə, islam Peyğəmbəri merac gecəsi uca Allahı (c.c) görmüşdür. Ancaq bu görmənin şərtlərindən biri odur ki, görmə məkanı, zamanı olmayan sonsuzluq aləmində baş vermişdir. Şair də görmə hadisəsinin baş verdiyini şərh edəndən sonra dərhal bunun sonsuzluq aləmində baş verdiyini deyir. O, məkanı, zamanı olmayan bir mühiti təsvir etmək üçün maddi dünyaya aid olan anlayışlardan istifadə edir: aşağı, yuxarı, ön, arxa, sağ, sol, altı cəhət. Bu görmə elə bir məkanda baş vermişdir ki, orada cəhətlər yoxdur. Ora maddi dünya deyil.

---

[728] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

## İKİ YÜZ OTUZ ALTINCI ADDIM: HƏM CƏHƏT, HƏM DƏ CAHAN (ONDAN) QAÇARLAR

شش جهت چون زبانه تیز کند؟
هم جهان هم جهت گریز کند

***Altı cəhət (onun önündə) nə dil çıxara bilər?***
***Həm cəhət, həm də cahan (Ondan) qaçarlar.***[729]

Hz. Nizami bu beytdə maddi dünyanın, məkanı, zamanı olan dünyanın yoxluğunu (görmənin baş verdiyi məkanda) gözəl bir dillə ifadə etmişdir. «Altı cəhət onun önündə nə dil çıxara bilər». «Dil çıxarmaq» təkəbbür əlamətidir, özündənrazılığın göstəricisidir, öz varlığını hər şeydən üstün tutmağın ifadəsidir. Varlığın əksi də yoxluqdur. Artıq maddi dünyanın «dil çıxarmaq» imkanı yoxdur, çünki bu yoxluq aləmidir, burada maddi dünyaya aid heç bir şey yoxdur. «Həm cəhət, həm də cahan Ondan qaçar». Misrada «qaçmaq» feli məğlubiyyəti, imkanlarını itirməyi ifadə edir. «Ondan qaçarlar», yəni maddi dünyanın Ona təsir etmək imkanı yoxdur. İki zidd anlayış bir arada yaşaya bilməz.

## İKİ YÜZ OTUZ YEDDİNCİ ADDIM: O PƏRGAR CƏHƏTSİZ OLDU

بی جهت با جهت ندارد کار
زین جهت بی جهت شد آن پرگار

***Cəhətsiz olanın cəhətlə işi olmaz,***
***Bu cəhətdən (səbəbdən) o pərgar cəhətsiz oldu.***[730]

---

[729] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.
[730] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

Hz. Nizami bu beytdə «cəhətsiz olan» deyərkən uca Allahı (c.c) nəzərdə tutmuşdur. Uca Allah (c.c) cism deyil, Onun məkanı, zamanı yoxdur. Ona görə də cəhətsiz olana cəhət, yəni məkan aid etmək olmaz. Elə buna görə də «o pərgar cəhətsiz oldu». Pərgar bir alətdir. Bu alət vasitəsi ilə ölçüsü olan məkan çəkilir və onun özünün də məkanı var. Ancaq uca Allah (c.c) elə bir varlıqdır ki, o bütün aləmə forma, şəkil, varlıq, məkan, zaman verir, ancaq Özü bu sifətlərdən uzaqdır. O, məkansız və zamansızdır. Yaradılan, zamanı, məkanı olan heç bir şeyi Onunla müqayisə etmək olmaz. Çünki cəhətsizin cəhətlə işi olmaz.

## İKİ YÜZ OTUZ SƏKKİZİNCİ ADDIM: O, MƏKAN VƏ ZAMANDAN ÇOX UCADIR

دیدن او بی عرض و جوهرست
کز عرض و جوهر از آنسو ترست

*Lakin Onu görməyin məkan və zamanı yoxdur,*
*Çünki O, məkan və zamandan çox ucadır.*[731]

Hz. Nizami merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) gördüyünü bildirdikdən sonra o uca varlığı görməyin şərt və şəraitini açıqlayır. Şair deyir ki, Onu görməyin məkan və zamanı yoxdur. O, məkansız, cəhətsiz, zamansız, ehtiyacsız, yaradılmayan uca Varlıqdır:

قُلْ هو الله أحد . الله الصمد . لم يلد
ولم يولد . ولم يكن له كُفُوا أحد
(İxlas, 112/1-4)

[731] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

«(Ey Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: «O Allah birdir. Allah möhtac deyildir. O, nə doğmuş, nə də doğulmuşdur. Onun heç bir tayı-bərabəri də yoxdur!»

Hz. Nizami, əslində, bu beytlərdə uca Allahın (c.c) sifətlərinə işarə etmişdir. Uca Allahın (c.c) həm səlbi (tənzihi), həm də sübuti sifətləri var. Səlbi (tənzihi) sifətlər uca Allahın şanına yaraşmayan, acizlik və əskiklik ifadə edən, yaradılmışlıq özəlliyi daşıyan, ona görə də uca Allahdan (c.c) uzaq tutulması zəruri olan sifətlərdir. Bunların sayı olduqca çoxdur. Acizlik, əskiklik ifadə edən bütün sifətlər bura daxildir. «Selbi sıfatların hedefi her türlü şirk şaibesini bertaraf edip tevhid inancını tam menasıyla ispat etmek, yaratanla yaratılmış arasında ortak bir noktanın və benzerligin bulunmadığını akıllara ve gönüllere yerleştirmektir. Bu mübarek aye tenzih inancının (uca Allah (c.c) her cür noksandan uzaktır) ölçüsüdür:

قَاطر السماوات والْأرض جعلَ لَكُم من أَنفُسكُم أَزواجاً
ومن الْأنْعام أَزواجاً يذْرؤُكُم فيه لَيس كَمثْله شَيء
وهو السميع البصير

(əş-Şura, 42/11)

«Göyləri və yeri yoxdan yaradan (Allah) sizin üçün özünüzdən (öz cinsinizdən) zövcələr, heyvanlardan da (erkək və dişi olmaqla) cütlər yaratmışdır. O, sizi bu yolla çoxaldır. Ona bənzər heç bir şey yoxdur. O, (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!»[732]

---

[732] «İslamda inanç esasları», göstərilən qaynaq, s. 108-109.

Alimlər uca Allahın (c.c) səlbi (tənzih) sifətlərinin bəzilərini ayrıca göstərmişlər:

a) **Qədim (Varlığının başlanğıcı olmayan).** Uca Allah (c.c) bir zamanlar yox ikən sonradan var olan, yaradılan bir varlıq deyil. Onun istər zatı, istərsə də sifətləri üçün sonradan yaradılmaq, Onun varlığından öncə zamanın mövcudluğu kimi anlayışlar Ona aid deyil. O, zatı və sifətləri ilə qədimdir, əzəlidir.

b) **Baqi (Sonu olmayan).** Onun varlığı sonsuz olaraq əbədi davam edəcək. O, fani, ölümlü deyil, əbədidir. Bu ayədə uca Allahın (c.c) Qədim və Baqi (Əzəli, Əbədi) sifətləri verilmişdir.

هو الْأولُ والْآخر والظاهر والْباطن وهو بِكُل شَيء عليم

(əl-Hədid, 57/3)

«Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir!»

c) **Qaim bi nəfsih (Varlığından başqasına möhtac olmayan).** O, vacibül-vücuddur, yəni varlığı özündəndir, başqasından deyil.

d) **Vahid (Ortağı olmayan).** Uca Allah (c.c) zatında, sifətlərində, fellərində və Ona ibadət edilməsində birdir, şəriki, bənzəri, ortağı, yardımçısı, rəqibi yoxdur.

e) **Müxalif lil-həvadis (Yaradılmışlara bənzəməyən).** Qurani-Kərimdə olan «yəd» (əl), «vəch» (üz), «ayn» (göz), «qədəm» (ayaq) kimi anlayışları islam alimləri tənzih inancına uyğun şərh etmişlər. Onlara görə, bu cür anlayışların maddi olmayan uca Allaha (c.c) aid edilməsi, mücərrəd mənaları insanların zehninə məcaz yolu ilə daha asan yerləşdirmək üçündür.

## SÜBUTİ SİFƏTLƏR

Bu sifətlər mükəmməllik ifadə edir. Uca Allaha (c.c) bu sifətlər aid edilməlidir. İslam alimləri ən çox xatırlanan, əzbərlənən sübuti sifətləri belə sıralamışlar:

a) **Yaşayan (Hayy).** Uca Allah (c.c) daimi olaraq diridir. Uca Allahın (c.c) bu sifəti başqa sifətlərinin də təməlidir.

اللّه لا إلـه إلا هوالْحي الْقيوم لا تأْخُذُه سنَةٌ ولا نَوم له ما في
السماوات ومافي الأرض من ذَا الذي يشْفَع عنْده إلا بإذْنه يعلَم ما بين
أَيديهم وما خَلْفَهم ولا يحيطُون بشَيء من علْمه إلا بما شَاء وسع
كُرسيه السماوات والأرض ولا يؤُوده حفْظُهما وهو الْعلي الْعظيم

(əl-Bəqərə, 2/255)

«Allahdan başqa heç bir tanrı yoxdur, əbədi, əzəli (diri) olan varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa, Onundur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər. O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allahın elmindən Onun özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrəti, səltənəti) göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün də heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!»

b) **Bilən (Alim).** Uca Allah (c.c) gizli-aşkar, yaxın-uzaq, kiçik-böyük hər şeyi sonsuz elmi ilə bilir. Onun alim sifəti qarşısında zaman, məkan, maddə maneəsi yoxdur. Onun elmi hər şeyi əhatə etmişdir:

الله الذي خَلَقَ سبع سماوات ومن الْأرض مثْلهن يتَنَزلُ الْأمر بينَهن
لِتَعلَموا أَن الله على كُل شَيء قَدير وأَن الله قَد أَحاط بِكُل شَيء علْماً

(ət-Talaq, 65/12)

«Yeddi (qat) göyü və bir o qədər də yeri yaradan Allahdır. Allahın hər şeyə qadir olduğunu, Allahın hər şeyi elm (Öz əzəli elmi) ilə ehtiva etdiyini biləsiniz deyə, (Allahın) əmri onların arasında nazil olar».

c) **Eşidən (Səmi).** O, mütləq mənada eşidəndir, bir şeyi eşitməsi başqasını eşitməsinə mane olmur.

d) **Görən (Bəsir).** Uca Allah (c.c) heç bir şərt, vasitə və mane olmadan hər şeyi görür.

الله يصطَفي من الْملَائِكة رسلاً ومن الناس إن الله سميع بصير

(əl-Həcc, 22/75)

«Allah mələklərdən də elçilər (peyğəmbərlər) seçər, insanlardan da. Həqiqətən, Allah (hər şeyi) eşidəndir, görəndir!»

**e) Qadir (Hər şeyə gücü çatan).** Uca Allah (c.c) sonsuz qüdrət sahibidir.

أَولَم يروا أَن الله الذي خَلَقَ السماوات والْأرض ولَم يعي بِخَلْقهِن

بِقَادرٍ علَى أَن يحيي الْموتَى بلَى إِنه علَى كُل شَيء قَدير

(əl-Əhqaf, 46/33)

«Məgər onlar göyləri və yeri yaratmış və onları yaratmaqdan yorulmamış Allahın ölüləri də diriltməyə qadir olduğunu görüb anlamırlarmı? Bəli, O, hər şeyə qadirdir!»

**f) Diləyən (Mürid).** Uca Allahın (c.c) yaratması, işləməsi, etməsi ancaq Öz iradəsi ilə baş verir. Onun işlərinə kənar müdaxilə yoxdur. O istərsə, olar, istəməsə, olmaz. Onun istəyi, Onun diləməsi, Onun müdaxiləsi olmadan heç bir şey olmaz. Mülkün hökmdarı Odur.

وإِن يمسسك اللّه بِضر فَلاَ كَاشفَ لَه إِلا هو وإِن يرِدك بِخَيرٍ فَلاَ

رآد لِفَضله يصيب بِه من يشَاء من عباده وهو الْغَفُور الرحيم

(Yunis, 10/107)

«Əgər Allah sənə bir zərər toxundursa, onu özündən başqa (səndən) heç kəs sovuşdura bilməz. Əgər Allah (c.c) sənə bir xeyir diləsə, heç kəs Onun nemətini (lütfünü) geri qaytara bilməz. Allah onu bəndələrindən istədiyinə nəsib edər. O, bağışlayandır, rəhm edəndir».

**g) Danışan (Mütəkəllim).** Qurani-Kərim uca Allahın (c.c) kəlamıdır. Deməli, Onun «danışan» sifəti var. Onun qanununa görə, danışmasını ancaq mələklər və peyğəmbərlər eşidə bilər. Ancaq Onun danışması hərflərlə, səslərlə, dillə, dil qaydaları ilə deyil.[733]

وَلَوْ أَنَّمَا فِي الْأَرْضِ مِن شَجَرَةٍ أَقْلَامٌ وَالْبَحْرُ يَمُدُّهُ مِن بَعْدِهِ سَبْعَةُ أَبْحُرٍ مَّا نَفِدَتْ كَلِمَاتُ اللَّهِ إِنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ

(Loğman, 31/27)

«Əgər yer üzündəki bütün ağaclar qələm olsa idi, dəryaya da arxasından daha yeddi dərya (mürəkkəb) qatılsaydı, yenə də Allahın sözləri (yazılmaqla) tükənməzdi. Həqiqətən, Allah yenilməz qüdrət sahibi, hikmət sahibidir!»

Hz. Nizami də uca Allahın (c.c) sifətlərinin xüsusiyyətlərindən çıxış edərək deyir ki, Onun məkanı və zamanı yoxdur, O, məkan və zamandan çox ucadır. Hz. Məhəmməd (s.a.s) Onu maddi dünyadan kənar olan sonsuzluq aləmində görmüşdür.

## İKİ YÜZ OTUZ DOQQUZUNCU ADDIM: O SÖZ Kİ AĞZINDAN ÇIXMAMIŞDI, EŞİTDİ

کلامی که بی آلت آمد شنید
لقائی که آن دیدنی بود دید

---

[733] Uca Allahın (c.c) sifətləri ilə bağlı baxın, «İslamda inanç esasları», s. 100-115.

*O söz ki ağzından çıxmamışdı, eşitdi,*
*O üz ki görmək olardı, gördü.*[734]

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinin uca Allahla (c.c) vasitəsiz danışdığına işarə etmişdir. Ancaq uca Allahın (c.c) islam Peyğəmbəri ilə vasitəsiz danışmasının keyfiyyəti bilinmədiyindən və Onun daşınması tam fərqli olduğundan şair deyir ki, «O söz ki ağızdan çıxmamışdı, onu eşitdi», yəni uca Allahın danışması sözlə, hərflə, dillə, dilə, cismə aid vasitələrlə deyil.

«O üz ki görmək olardı, gördü», yəni burada insan gözünün görə biləcəyi üz nəzərdə tutulmur, bu keyfiyyəti bizə bəlli olmayan bir üz anlayışıdır və şair fikrini ifadə etmək üçün «üz» sözündən istifadə etmişdir. Söz fərqli, sözün ifadə şəkil və vasitəsi fərqli, eşitmə fərqli, üz fərqli, görmə fərqlidir. Ona görə də şair bu ideyanı qeyri-adi şəkildə təqdim etmişdir: söz ağızdan çıxmır, ancaq eşidilir, üz ki insan gözü görə bilməz, ancaq görülür.

## İKİ YÜZ QIRXINCI ADDIM: ONDAN O TƏRƏFƏ NƏ MƏKAN VAR, NƏ DƏ TƏSƏVVÜR

چنان دید کز حضرت ذوالجلال
نه زان سو جهت بد نه ز این سو خیال

*O gördü ki, həzrət zülcəlaldan o tərəfə,*
*Nə məkan var, nə də təsəvvür.*[735]

Hz. Nizami beytin birinci misrasında uca Allahı (c.c) «Zül-cəlali vəl-ikram» (əzəmət və kərəm sahibi) adı ilə təqdim etmişdir. Bu uca Allahın (c.c) mübarək adlarından biri-

---

[734] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.
[735] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.

dir. O, tək olan böyük və əzəmət sahibidir. Mütləq böyük olan Odur. Uca Allahdan (c.c) böyük olan heç bir şey yoxdur. Eyni zamanda O, kərəm sahibidir, Ona qulluq edənlərə istədiyi ölçüdə nemət verər. Uca Allahın (c.c) «Zül-cəlali vəl-ikram» adı Qurani-Kərimin ancaq «Rəhman» surəsində çəkilmişdir:

ويبقى وجه ربك ذُو الْجلَال والْإِكْرامِ

(ər-Rəhman, 55/27)

«Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir (əbədidir)».

تَبارك اسم ربك ذي الْجلَال والْإِكْرامِ

(ər-Rəhman, 55/78)

«(Ey Peyğəmbər!) Sənin əzəmət və kərəm sahibi olan Rəbbinin adı nə qədər ucadır (nə qədər uludur)!»

Hz. Məhəmməd (s.a.s) bir duasında belə buyurmuşdur: «Allahım, salam Sənsən, salamatlıq Səndəndir. Sən mübarək oldun Cəlal və İkram sahibi olan Allahım».[736]

İslam Peyğəmbəri bir hədisində də belə buyurmuşdur: «Uca Allah buyurdu: «İzzətim, Cəlalım və Əzəmətimə and içirəm ki, lə ilahə illallah (Allahdan (c.c) başqa Allah yoxdur) deyən kimsəni cəhənnəmdən mütləq çıxaracağam».[737]

Şair öncə uca Allahın (c.c) əzəmət və kərəm adını çəkir. Çünki merac gecəsi, bu mübarək gecədə islam Peyğəmbərinin Onu sonsuzluq məkanında görməsi, merac néməti uca Allahın (c.c) əzəmətinin, kərəminin göstəricisidir. Hz. Nizami deyir ki, o Cəlal və Kərəm sahibi olan uca Allahdan (c.c) o tərəfə nə məkan var, nə də təsəvvür. Bura bir sonsuzluq məkanıdır.

---

[736] Müslim, «Məsacid», 135/136.
[737] Buhari, «Tevhid», 8/200-201.

## İKİ YÜZ QIRX BİRİNCİ ADDIM:
## O, HAQQ KƏLAMININ SİRRİNİ EŞİTDİ

هم حضرت ذو الجلال دیدی
هم سر کلام حق شنیدی

***Həm «zülcəlal» həzrətlərini gördün,***
***Həm də haqq kəlamının sirrini eşitdin.***[738]

Hz. Nizami bu beytdə də merac gecəsi islam Peyğəmbərinin cəlal və kərəm sahibi olan uca Allahı (c.c) gördüyünü söyləyir. Həm də Haqq kəlamının sirrini eşitdiyini bildirir. Şair Haqq kəlamı deyərkən uca Allahın (c.c) kəlamını nəzərdə tutmuşdur. **Uca Allahın (c.c) kəlamı deyilərkən islam terminologiyasında iki məsələ nəzərdə tutulur. Uca Allahın (c.c) göndərdiyi din və tövhid əqidəsinin ölçüsü olan «Lə ilahə illallah» kəlməsi:**

إِلا تَنصروه فَقَدْ نَصره اللّه إِذْ أَخْرجه الذين كَفَروا ثَاني اثْنَين إِذْ هما في الْغَارِ إِذْ يقُولُ لِصاحبِه لا تَحزن إِن اللّه معنَا فَأَنزلَ اللّه سكينَتَه علَيه وأَيده بِجنُود لم تَروها وجعلَ كَلمةَ الذين كَفَروا السفْلَى وكَلمةُ اللّه هي الْعلْيا واللّه عزِيز حكيم

(ət-Tövbə, 9/40)

«(Ey möminlər!) Əgər siz Ona (Peyğəmbərə) kömək etməsəniz, Allah Ona kömək göstərmiş olar. Necə ki kafirlər onu (Məkkədən) iki nəfərdən biri olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna: «Qəm yemə, Allah bizimlədir!» - dediyi zaman (göstərmişdi). O vaxt Allah,

---

[738] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

Ona bir arxayınlıq (rahatlıq) nazil etmiş, onu sizin görmədiyiniz (mələklərdən ibarət) əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allahın (c.c) sözü (Lə ilahə illallah) ucadır. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!»

Hz. Nizami deyir ki, O, haqq kəlamının sirrini eşitdi. Şair bu misrada «eşitmək» felindən istifadə etmişdir. Yəni O, islam dininin, tövhid inancının əsası olan «lə ilahə illallah» kəlməsinin sirrini birbaşa uca Allahdan (c.c) eşitdi. Burada «öyrənmək», «bilmək» felindən daha çox, «eşitmək» feli merac gecəsi uca Allahla (c.c) Peyğəmbər münasibətini dəqiq ifadə edir. Çünki O, informasiyanı eşidərək alır.

## İKİ YÜZ QIRX İKİNCİ ADDIM: HƏM GÖRMƏYİ, HƏM DƏ EŞİTMƏYİ PAK İDİ

از غایت وهم و غور ادراک
هم دیدن وهم شنودنت پاک

*Vəhmin çoxluğu, idrakın dərinliyindən,*
*Həm görməyin, həm eşitməyin pak idi.*[739]

Şair beytin birinci misrasında «vəhm» sözündən istifadə etmişdir. «Vəhm» lüğətdə təsəvvür, xəyal, təxəyyül mənasında izah edilmişdir. «Vəhm»in bir mənası da qorxu, dəhşət, şəkk, şübhə, hər şeydən şübhələnməkdir.[740] Təbii ki, şair «vəhm» sözünün birinci mənasını nəzərdə tutmuşdur. Daha sonra şair deyir ki, hz. Məhəmmədin (s.a.s) idrakı, dərk etmə gücü çox güclü idi. Xəyal və ağıl gücü çox olduğundan həm görməyi, həm də eşitməyi pak idi. Misradakı «pak idi» sözü dəqiq idi, gördüyü və eşitdiyində heç bir yalan, yanlış yox idi mənasındadır.

---

739 Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.
740 «Farsca-Azərbaycanca lüğət», Tehran, 1999, c. II, s. 816.

## İKİ YÜZ QIRX ÜÇÜNCÜ ADDIM: ÜRƏYİ TƏŞVİŞ VƏ İZTİRABDAN AZAD OLA BİLMƏDİ

تا نظر بر جهت نقاب نبست
دل ز تشویش و اضطراب نرست

***Onun nəzəri cəhətin (üzünə) niqab salmayınca,***
***Ürəyi təşviş və iztirabdan azad ola bilmədi.***[741]

Şair bir çox beytlərdə merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) görməsinin maddi dünyadan kənarda, yəni sonsuzluq aləmində baş verdiyini bildirmişdir: **aşağı və yuxarı, ön və arxa, sağ və sol yox oldu, altı cəhət aradan qalxdı, altı cəhət Onun önündə dil çıxara bilməz, həm cəhət, həm də cahan Ondan qaçar, cəhətsiz olanın cəhətlə işi olmaz, o pərgar cəhətsiz oldu, cəhətsizi gördü, orada Peyğəmbərin nəfəsindən başqa bir kimsə yox idi, orada Allahdan (c.c) başqa bir kimsə yox idi, hər bir şeyə cəhət olana cəhət nə gərək, hər şeyi əhatə edən cəhətə sığarmı? Həm tacı, həm də taxtı tərk etdin, cəhətlərin bazarını pozdun, alt, üst zəhmətindən xilas oldun, atı bütün varlıqdan bayıra sıçratdı, altı cəhətin zülfünü alnında sındırdılar, məkanın üzünə örtük çəkdilər, qədimlik üzündən örtüyü açdı, kainatın üzündən örtük götürüldü, məkansız məkanda nişansızlığın nişanını gördü, Allahı (c.c) cəhətsiz gördü, öz varlığından kənara çıxdı, o, aşağısı, yuxarısı olmayan yolda cəsarətlə irəlilədi, dairəsinin nə aşağısı, nə də yuxarısı var. Tanrı siyasətinin hicabı atıldı, hücrə yadlardan boşaldı, heç fikrin də görə bilmədiyi yerdə dua oxudu, Allah qəbul etdi, uca**

---

[741] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23.

**Allahdan (c.c) o yana nə məkan var, nə də təsəvvür, orada məkan və zaman yoxdur. O, məkan və zamandan çox ucadır, o pərdəni görməyin məkanı yoxdur, Onun hüzuruna gedən yolun zamanı yoxdur, Ona cəhətsiz cəhətdən yol tapdılar.**

Göründüyü kimi, şair merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) gördüyünü deyir, ancaq bu görmənin məkansız, zamansız bir sonsuzluq aləmində və idrak gözü ilə (fiziki gözlə deyil) baş verdiyini söyləyir.

Bu beytdə də şair eyni ideyanı başqa bir bədii biçimdə təqdim edir. Onun nəzəri cəhətin üzünə niqab (örtük) saldı. Yəni maddi dünya bitdi, sona çatdı. Maddi dünya sona çatanadək isə Onun ürəyi təşviş və iztirabdan azad ola bilmədi. Yəni O, hələ nə olacağını, Onu nə gözlədiyini bilmirdi.

## İKİ YÜZ QIRX DÖRDÜNCÜ ADDIM: CƏHƏT GÖZDƏN İTDİ

جهت از دیده چون نهان باشد؟
دیدن بی‌جهت چنان باشد

*Cəhət gözdən itəndə,*
*Cəhətsizi o cür görmək olar.*[742]

Artıq baxışı cəhətin üzərinə örtük saldı, maddi dünya başa çatdı. Şair maddi, cəhətli dünyanın başa çatdığını ifadə etmək üçün «gözdən itmək» felindən istifadə etmişdir. «Gözdən itmək» feli çox zaman «yox olmaq», «bir şeydən çox uzaqlaşmaq», «geri qaytarılması mümkün olmamaq» mənasında işlədilir. «Cəhət gözdən itdi», yəni maddi dünyadan əsər-əlamət qalmadı. Peyğəmbər sonsuzluq məkanına daxil oldu. Məkansız, cəhətsiz, zamansız olanı ancaq

[742] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 23-24.

bu şərtlə görmək olar. Onun ürəyi bundan sonra təşviş və iztirabdan qurtardı.

## İKİ YÜZ QIRX BEŞİNCİ ADDIM: NİŞANSIZLIĞIN NİŞANINI GÖRDÜ

محمد در مکان بی‌مکانی
پدید آمد نشان بی‌نشانی

***Məhəmməd məkansız məkanda,***
***Nişansızlığın nişanını gördü.***[743]

Hz. Nizami bu beytdə də merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) gördüyü ideyasını bədii yolla təqdim etmişdir. Şair birinci misrada bu görmənin ilk şərtini açıqlamışdır: Görmə məkansız məkanda, yəni sonsuzluq aləmində baş vermişdir. İkinci misrada isə nəyi və necə gördüyü ifadə edilmişdir. Şair deyir ki, uca Allah (c.c) nişansızdır. Yəni o uca varlıq cism deyil, O, təkdir, Onun bənzəri, məkanı, zamanı yoxdur. Tövhid bir şeyin bir və tək olduğunu qəbul etməkdir. Tövhidin də çeşidləri var:

**İmanda Tövhid.** Bu uca Allahı (c.c) zatında, sifətlərində, fellərində bir və tək qəbul etmək, bu məsələlərdə Ona ortaq qoşmamaqdır. İmanda tövhidin də bir neçə yönü var:

**a) Allahın zatında tövhid.** Allahın (c.c) zatı, Onun özü deməkdir. Yəni Onun tək olduğunu qəbul etməkdir. Bütün dinlər bu inanc üzərində qurulmuş, bütün peyğəmbərlər tövhid inancını insanların düşüncəsinə yerləşdirmək üçün göndərilmişdir:

وما أرسلنا من قبلك من رسولٍ إلا نُوحي إليه أنه لا إله إلا أنا فاعبدون

(əl-Ənbiya, 21/25)

---

743 Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

«(Ey Rəsulum!) Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: «Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!» - deyə vəhy etməyək!»

لَو كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللهُ لَفَسَدَتَا فَسُبْحَانَ اللهِ رَبِّ الْعَرْشِ عَمَّا يَصِفُونَ

(əl-Ənbiya, 21/22)

«Əgər (yerdə və göydə) Allahdan başqa Tanrılar olsa idi, onların ikisi də fəsada uğrayardı. Ərşin sahibi olan Allah (müşriklərin Ona) aid etdikləri sifətlərdən tamamilə uzaqdır!»

**b) Allahın (c.c) sifətlərində tövhid.** Uca Allah (c.c) zatında bir olduğu kimi, sifətlərində də birdir. Onun varlığının başlanğıcı yoxdur, Onun varlığının sonu yoxdur, O, hər şeyi bilir, O, hər şeyi eşidir, O, hər şeyi görür.

**c) Allahın (c.c) fellərində tövhid.** O, yaradıcı olaraq təkdir.

اللهُ خَالِقُ كُلِّ شَيْءٍ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ وَكِيلٌ

(əz-Zumər, 39/62)

«Allah hər şeyin xaliqidir. O, hər şeyə vəkildir!»

**d) İbadətdə tövhid**. Uca Allahı (c.c) zatında, sifətlərində və fellərində bir və tək bilmək, inanmaq imanda tövhidin əsasıdır. Əməl tövhidi mömin insanın davranışları ilə uca Allah (c.c) sevgisini isbat etməsidir. Bu davranışlar da ibadətlərdir. «… İmanda tövhid insanın zehnini, ibadətdə tövhid isə onun qəlbini nurlandırır. İmanda tövhid insanın fikir hüriyyətini, ibadətdə tövhid isə duyğu hürriyyətini təmin edər».[744]

**Bütövlükdə, tövhid inancının əsası budur: Allah (c.c) varlığı ən böyük olandır. Onun varlığının baş-**

[744] «İslamda inanç esasları», göstərilən qaynaq, s. 87.

**langıcı və sonu yoxdur. Varlığında başqasına möhtac deyil. Ondan başqa hər şey yaradılmışdır və fanidir. Hər şey uca Allaha (c.c) möhtacdır. Allah (c.c) sifətlərində də ən böyükdür. Sifətlərinin də varlığı başlanğıcsız və sonsuzdur. Ən üstün dərəcəyə sahibdir. O, kimsəyə bənzəməz, kimsə Ona bənzəməz. Uca Allah (c.c) fellərində də ən böyükdür. O, tək yaradıcıdır, Ondan başqa yaradıcı yoxdur. İbadət etməyə layiq olan ancaq Allahdır (c.c). Ondan başqa məbud yoxdur.**[745]

Hz. Nizami deyir ki, islam Peyğəmbəri nişansızlığın nişanını gördü. Yəni zatında, sifətlərində, fellərində tək olanın qüdrət əlamətlərini gördü.

## İKİ YÜZ QIRX ALTINCI ADDIM: İLAHİ KƏLAMI VASİTƏÇİSİZ EŞİTDİ

كلام سرمدی بی‌نقل بشنید
خداوند جهان را بی‌جهت دید

*İlahi kəlamı vasitəçisiz eşitdi,*
*Cahan padşahını (Allahı) cəhətsiz gördü.*[746]

Hz. Nizami bu beytdə də merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) görməsi ilə bağlı fikirlərini açıqlamışdır. Şair deyir ki, O, ilahi kəlamı vasitəçisiz eşitdi. Yəni arada heç bir vasitəçi olmadı. Burada hz. Nizami ilahi kəlamın çatdırılma yoluna işarə etmişdir. İlahi kəlamın çatdırılma yoluna vəhy deyilir. Ancaq bizə çatdırılan ilahi kəlam da vəhy adlanır. Ona görə də islam Peyğəmbərinə verilən hər

---

[745] «İslamda inanç esasları», göstərilən qaynaq, s. 89.
[746] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

bir vəhy eyni zamanda elmdir, hikmətdir, hidayətdir, şəfa və nurdur.

ذَلِكَ مِمَّا أَوْحَى إِلَيْكَ رَبُّكَ مِنَ الْحِكْمَةِ وَلَا تَجْعَلْ مَعَ اللَّهِ إِلَهًا آخَرَ فَتُلْقَى فِي جَهَنَّمَ مَلُومًا مَدْحُورًا

(əl-İsra, 17/39)

«(Ey Rəsulum!) Bunlar Rəbbinin sənə vəhy etdiyi hikmətlərdəndir. Allahla yanaşı başqa tanrı qəbul etmə, yoxsa qınanmış və məhrum edilmiş halda cəhənnəmə atılarsan!»

وَلَقَدْ جِئْنَاهُمْ بِكِتَابٍ فَصَّلْنَاهُ عَلَى عِلْمٍ هُدًى وَرَحْمَةً لِقَوْمٍ يُؤْمِنُونَ

(əl-Əraf, 7/52)

«Həqiqətən, Biz onlara elmlə müfəssəl izah etdiyimiz, inanan bir qövm üçün hidayət və mərhəmət olan bir Kitab gətirdik».

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءَكُمْ بُرْهَانٌ مِنْ رَبِّكُمْ وَأَنْزَلْنَا إِلَيْكُمْ نُورًا مُبِينًا

(ən-Nisa, 4/174)

«Ey insanlar! Sizə Rəbbiniz tərəfindən dəlil gəlmişdir. Biz sizə aydın bir nur endirdik».

Uca Allah (c.c) bir insanla qarşılıqlı danışmaz. Vəhylə, pərdə arxasından, ya da bir elçi göndərib onun vasitəsi ilə vəhy edər:

وَمَا كَانَ لِبَشَرٍ أَنْ يُكَلِّمَهُ اللَّهُ إِلَّا وَحْيًا أَوْ مِنْ وَرَاءِ حِجَابٍ أَوْ يُرْسِلَ رَسُولًا فَيُوحِيَ بِإِذْنِهِ مَا يَشَاءُ إِنَّهُ عَلِيٌّ حَكِيمٌ

(əş-Şura, 42/51)

«Allah bəşər övladı ilə ancaq vəhylə, ya da pərdə arxasından danışar (Allahın kəlamı eşidilər, ancaq özü görünməz). Ya da bir elçi (mələk) göndərər ki, o da Allahın izni

ilə Onun istədiyini vəhy edər. Həqiqətən, O, ucadır, hikmət sahibidir!»

Şair deyir ki, O, ilahi kəlamı vasitəçisiz eşitdi. Yəni arada mələk olmadan Ondan vəhy aldı. O, merac gecəsi Allahı (c.c) cəhətsiz gördü. O, cahan padşahıdır. Yəni yerin, göyün, yaradılmış hər şeyin sahibidir. Onun məkanı, zamanı, cəhəti yoxdur.

## İKİ YÜZ QIRX YEDDİNCİ ADDIM: BƏDƏNİNİN HƏR ÜZVÜ TİTRƏDİ

به هر عضوی تنش رقصی در آورد
ز هر موئی دلش چشمی بر آورد

***Bədəninin hər bir üzvü titrədi,***
***Könlü hər tükündən bir göz çıxartdı.***[747]

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinin uca Allahın (c.c) nişanlarını görərkən keçirdiyi halı təsvir etmişdir. Onun bədəninin hər bir üzvü titrədi. Bu heyrət və çaşqınlıq halıdır. Bu, qeyri-adi bir mənzərənin onda doğurduğu duyğunun nəticəsidir. Könlü hər tükündən bir göz çıxartdı. Bu da heyrət halının ifadəsidir. Yəni Onu bütün varlığı ilə gördü. Bədii dildə insanın heyrət halını, təccübünü ifadə edərkən «göz» anlayışından çox istifadə olunur. «Gözü dörd olmaq», «Gözü kəlləsinə çıxmaq», «gözü bərəlmək» kimi ifadələr də heyrət halını ifadə edir. Şair də Peyğəmbərin heyrət halını iki vasitə ilə ifadə etmişdir: bədəninin hər bir üzvü titrədi, könlü hər tükündən bir göz çıxartdı. Yəni gördüyü mənzərə bütün varlığına hakim kəsildi.

---

[747] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

## İKİ YÜZ QIRX SƏKKİZİNCİ ADDIM: VÜCUDU NƏRGİZ KİMİ NƏZƏRƏ ÇEVRİLDİ

همه دیده گشته چو نرگس تنش
نگشته یکی خار پیرامنش

***Vücudu nərgiz kimi bütünlüklə nəzərə çevrildi,***
***Onun (gözün) ətrafında bir dənə də tikan yox idi.***[748]

Hz. Nizami bu beytdə islam Peyğəmbərinin gözünü nərgizə bənzətmişdir. Bütövlükdə, divan ədəbiyyatında şairlər islam Peyğəmbərinin gözünü bir sıra anlayışlarla müqayisə etmişlər. Onların sırasında nərgiz ayrıca yer tutur. Adətən, şairlər gözü nərgizə bənzətmişlər. Ancaq islam Peyğəmbərinin gözündən danışarkən nərgizi Onun gözünə bənzətmişlər. Onlara görə, uca Allah (c.c) bu çiçəyi Onun gözlərini yada salmaq üçün yaratmışdır:

***Nergisi-şehlayı gözün yadına,***
***Mihri-cihan-tabı yüzün yadına.***[749]

(Şəhla nərgizi gözünü, günəşi üzünü yada salmaq üçün yaratmışdır)

Divan ədəbiyyatında islam Peyğəmbərinin gözü Günəşə bənzədilmişdir. Onun bir möcüzəsi də həm arxasındakıları, həm də öndəkiləri görməsidir. Şairlərə görə, Onun hər yönü eyni anda görən gözləri bir günəşdir.

Onun gözləri «nun vəl-qələm»dir. Nun hərfi yarımdairədir və ortasında bir nöqtə var. Bu baxımdan nun hərfi gözə oxşayır. Peyğəmbərin gözü nun hərfinə bənzədilir və bu zaman «Qələm» surəsinin ilk ayəsi olan «nun vəlqələm»in nəzərdə tutulduğu bildirilir. Peyğəmbərin merac gecəsi uca Allaha (c.c) «kaabe kavseyn» məqamında yaxın-

---

[748] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.
[749] Emine Yeniterzi, «Divan şiirinde nat», göstərilən qaynaq, s. 223.

laşıb, Onun ən böyük ayələrini görən gözləri üçün ayənin ilk qismi, sanki, bir dəlil olaraq göstərilir.[750]

Divan şairləri islam Peyğəmbərinin gözünü sad, ağzını mim, saçını da dal hərfinə bənzətmişlər. Bu üç hərf yanaşı yazılanda uca Allahın (c.c) bir sifəti və bir ayəsi olan «Səməd» kəlməsi alınır. Şairlər bunu Onun uca Allahın (c.c) Rəsulu olduğunun dəlili kimi təqdim edirlər.[751]

Şair deyir ki, Onun vücudu nərgiz kimi bütünlüklə nəzərə çevrildi. Yəni bütün varlığı bir göz oldu, heyrət Onu gördüyünə bağladı. Şair öncəki beytdə heyrətlə, bütün varlığı ilə baxmağı «bədəninin hər bir üzvü titrədi», «könlü hər tükündən bir göz çıxardı» kimi ifadələrlə təqdim etmiş, bu beytdə isə «vücudu nərgiz kimi bütünlüklə nəzərə çevrildi» ifadəsini seçmişdir. Şair daha sonra deyir ki, Onun gözünün ətrafında bir dənə də tikan yox idi. Burada «tikan» deyilərkən kirpik nəzərdə tutulur. Yəni Onun görməsinə mane olan heç bir şey yox idi. Heyrət o dərəcədə böyük idi ki, varlığını unutmuşdu, heyrətdən göz elə böyümüşdü ki, sanki, bütün varlıq bir gözə çevrilmişdi. Şair «tikanın» (kirpiyin) yox olmasını da heyrətin ifadə vasitəsinə çevirmişdir.

## İKİ YÜZ QIRX DOQQUZUNCU ADDIM: ONUN GÖZÜNDƏ «MA-ZAĞ» MÖHRÜ VAR

در آن نرگسین حرف کان باغ داشت
مگو زاغ کو مهر ما زاغ داشت

***O bağın nərgizli tərəfində,***
***Sən «zağ» demə, onlarda «ma-zağ» möhrü var.***[752]

---

[750] Emine Yeniterzi, «Divan şiirinde nat», göstərilən qaynaq, s. 223.
[751] Emine Yeniterzi, «Divan şiirinde nat», göstərilən qaynaq, s. 223.
[752] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.

Şair öncə görüş məkanını gözəl bir bağa bənzətmişdir. Bu bağda nərgiz çiçəyi var. Şair nərgiz deyərkən Peyğəmbərin gözünü nəzərdə tutmuşdur. «Zağ» farsca qara qarğa deməkdir. Yəni bu bağda qara qarğa – maddi dünyaya aid olan heç bir şey yoxdur. Şairə görə, merac gecəsi islam Peyğəmbəri uca Allaha (c.c) baxarkən «nərgizi» - gözü qaralmadı. Çünki Onun nərgiz kimi gözündə «ma-zağ» möhrü var idi. «Ma-zağ» ərəbcə «qaralmadı», «meyil etmədi» deməkdir. Ümumiyyətlə, «ma-zağ əl-bəsər» anlayışının hz. Məhəmmədin (s.a.s) gözlərinə aid edilməsi divan ədəbiyyatında – nətlərdə bir ənənədir. Şairlər, islam Peyğəmbərinin gözlərini maddi olmaqdan çox, uca Allahı (c.c) görən, merac gecəsinin sirlərini bilən can gözləri kimi təqdim etmişlər. Onlar bu görüşü təsdiq etmək üçün dəlil olaraq «Nəcm» surəsinin on yeddinci ayəsini göstərirlər:

ما زاغَ الْبصر وما طَغَى

(ən-Nəcm, 53/17)

«Göz nə (sağa-sola) yayındı, nə də uzağa getdi (hər şeyi olduğu kimi gördü)».

Bu ayəyə görə, merac gecəsi islam Peyğəmbəri Sidreyi-Müntəhanı keçmiş və uca Allahın (c.c) ən böyük ayələrini, nişanlarını müşahidə etmişdir. Gözləri ancaq Ona baxmışdır. Ona görə də şairlər ayəni ya Peyğəmbərin gözləri, ya da gözlərinin sürməsi kimi təqdim edirlər. Bir sıra şairlərə görə, Peyğəmbərin gözləri bu ayənin sirridir, nurudur. Bu ayə ilə sürmələnən gözlərinin gücü ilə Ay ikiyə parçalanmışdır.[753]

Hz. Nizamiyə görə, islam Peyğəmbərinin gözlərində bu ayənin möhrü var. Yəni bu ayə ilə təsdiq olunmuşdur ki, O, merac gecəsi uca Allahın (c.c) əlamətlərini görmüşdür.

---

[753] Emine Yeniterzi, «Divan şiirinde nat», göstərilən qaynaq, s. 224.

## İKİ YÜZ ƏLLİNCİ ADDIM:
## KÖNLÜ ÜRƏYİNDƏ, ÜRƏYİ KÖNLÜNDƏ İDİ

و زان دیدن که حیرت حاصلش بود
دلش در چشم و چشمش در دلش بود

***O baxışda ki, hasili heyranlıq idi,***
***Könlü ürəyində, ürəyi könlündə idi.***[754]

Hz. Nizami bu beytdə uca Allah (c.c) aşiqi olan bir Peyğəmbər təqdim etmişdir. O, aşiqliyin iki ölçüsünü vermişdir. Onlardan biri heyranlıqdır. Heyranlıq bir şeyi çox sevməklə bağlıdır. Heyranlıq sevdiyindən başqa bir şeyi görməməkdir. Aşiqliyin başqa ölçüsü də könlünü sevdiyinə verməkdir. Divan və təsəvvüf ədəbiyyatında aşiqlərdən danışarkən hər zaman «könül» sözündən istifadə edilmişdir. Şairlər «ürək»lə «könül» arasında fərq görürlər. Onlara görə, «ürək» sadəcə bir ət parçası, «könül» isə uca Allah (c.c) sevgisinin məkanıdır. «Könül» sözü ilə bağlı çoxsaylı deyimlər var:

«Can və könüldən dua etmək» – inanaraq, bütün varlığı ilə istəmək.

«Can və könüldən sevmək» – sevgidə səmimi olmaq, əvəz istəməmək.

«Könüldən çağırmaq» – bir şəxsi istəyərək, sevərək çağırmaq.

«Yoxsulu könüldən çıxarmayın» – onları unutmayın, yoxsulu, kimsəsizi unudan könüldə uca Allah (c.c) sevgisi azalar.

«Könüldən keçirmək» – xatırlamaq.

«Könüllü olmaq» – bir işi etmək vəzifəsi olmadığı halda, onu sevərək etmək.

---

[754] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

«Könül vermək» – aşiq olmaq.

«Könül yarası» – sağalması mümkün olmayan bir dərd.

«Könül yıxmaq» – könül qırmaq, birinə sağalmaz yara vurmaq.

«Könül əhli» – islam dininə inanaraq, pak bir qəlbə sahib olmuş insan.

«Könülə toxunmaq» – birinin könlünü qırmaq.

«Könüldən könülə yol var» – uca Allahı (c.c) sevənlər dildən daha çox könül dili ilə bir-birilərini başa düşərlər. Bir-birini sevənlər eyni zamanda eyni duyğunu yaşayarlar.

«Könül Kəbəsi» – uca Allaha (c.c) yönəlməyin mərkəzi könüldür. Könül mənəvi Kəbədir. Uca Allaha (c.c) ibadət üçün tikilən ev Kəbə adlanır, uca Allaha (c.c) imanın yuvası da könüldür. Könül Allahı (c.c) sevər. Bir könlün Kəbə olması üçün O, dünya sevgisindən imtina etməlidir.

«Könül Haqq binasıdır» – Kəbəni hz. İbrahim (s.a.s), könlü də uca Allah (c.c) «tikmişdir». Bir könlün tikilməsi çox çətindir. Böyük təsəvvüf şairi çox gözəl demişdir:

***Duruş kazan, ye, yedir,***
***Bir gönül ele getir,***
***Yüz Kebeden yeğrekdir***
***Bir gönül ziyareti…***

«Könül yapmaq, ərş yapmaqdır» – yəni bir könlü qazanmaq çox çətindir.

«Könül sultan, eşq ibadət» – Könül kimi sevər, kimi sevməz bunu anlamaq mümkün deyil, o, bir sultan kimidir, nə istəsə, onu edər, istədiyini sevər, istəmədiyini sevməz.

«Könlünə danış» – Bir məsələ ilə qarşılaşsan, onu könlünlə məsləhətləşərək həll et.

«Hər könüldə bir aslan yatar» – hər kəsin könlündə yaşatdığı bir ideal var.

«Hər kəsin könlüncə yaz olmaz» – hər kəsi məmnun etmək mümkün deyil. Ona görə də inandığımız doğru ilə yaşayaq. Uca Allahı (c.c) razı salmağa çalışaq.

«Gözdən iraq, könüldən uzaq» – sevginin göstəricilərindən biri də sevdiyini görmək arzusudur. Tez-tez görmək, istəmək sevgi əlamətidir. Gözdən iraq olmaq isə könüldən çıxmağa səbəb olur.[755]

Hz. Nizami deyir ki, Onun könlü ürəyində, ürəyi də könlündə idi. Yəni könlü ilə ürəyinin fərqi yox idi. Bütün varlığı uca Allah (c.c) sevgisi ilə dolu idi. Bu isə aşiqlik halıdır.

## İKİ YÜZ ƏLLİ BİRİNCİ ADDIM: «ONU GÖRMƏK MÜMKÜN DEYİL» – DEYƏNLƏRİN ÖZLƏRİ KORDUR

دیدنش از دیده نباید نهفت
کوری آنکس که بدیده نگفت

***Onun görülə biləcəyini (ağıl) gözündən***
***qaçırmamalıyıq (gizlətməməliyik),***
***«Onu görmək mümkün deyil» - deyənlərin***
***özləri kordur.***[756]

Hz. Nizaminin merac gecəsi ilə bağlı bütün yönləri ilə düşünülmüş mükəmməl düşüncə sistemi var. Bu düşüncə sisteminin başlıca prinsiplərini öncəki beytlərin şərhində açıqladıq. Onlardan biri də budur ki, islam Peyğəmbəri merac gecəsi uca Allahı (c.c) sonsuzluq aləmində, maddi dünyadan kənarda ağıl, qəlb, bəsirət gözü ilə görmüşdür. Şairə

---

755 Ethem Cebecioğlu, «Tasavvuf terimleri ve deyimleri sözlüğü», İstanbul, 2005, s. 231-232.
756 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

görə, əgər merac gecəsi islam Peyğəmbəri uca Allahı (c.c) görməsə idi, onda merac hadisəsinin anlamı olmazdı.

Hz. Nizami deyir ki, Onun görülə biləcəyini ağıl gözündən qaçırmamalıyıq. Yəni merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) görməsi mistik bir anlayış deyil, ağıl və düşüncəyə də uyğundur.

Bu beytdən anlaşılır ki, hz. Nizaminin dövründə də uca Allahın (c.c) görülüb-görülməyəcəyi məsələsi ciddi müzakirə olunmuşdur. Şair, bu beytlə əks fikirdə olanlara cavab vermişdir. «Onu görmək mümkün deyil» deyənlərin özü kordur. Şairə görə, onlar bu gerçəyi görə bilmirlər, ona görə də inkar edirlər.

## İKİ YÜZ ƏLLİ İKİNCİ ADDIM: İBADƏT ETDİYİMİZİ GÖRMƏK SƏADƏTDİR

دیدن او بی عرض و جوهرست
کز عرض و جوهر از آنسو ترست

***İbadət etdiyimizi görmək səadətdir,***
***O görülməli, görülməli, görülməlidir.***[757]

Şair bu beytdə də öncəki beytlərdəki ideyanı təqdim etmişdir. Şairə görə, inanan insanın, ancaq uca Allaha (c.c) ibadət edən insanın, qulluq etdiyi varlığı görməsi səadətdir. Çünki insan hər şeydən çox sevdiyi, canını fəda etdiyi, inandığı, qul olduğu varlığı görmək istər. Bu onun üçün ən böyük nemətdir. Şair daha sonra Onu görməyin mümkünlüyünü təkid yolu ilə bildirir: O görülməli, görülməli və görülməlidir! Şairə görə, bu məsələdə heç bir şübhə yeri yoxdur.

---

[757] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

## İKİ YÜZ ƏLLİ ÜÇÜNCÜ ADDIM:
## O PƏRDƏNİ GÖRMƏYİN MƏKANI YOXDUR

دیدن آن پرده مکانی نبود
رفتن آن راه زمانی نبود

***O pərdəni görməyin məkanı yoxdur,***
***Onun hüzuruna gedən yolun zamanı yoxdur.***[758]

Hz. Nizami öncəki beytlərdə də merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) gördüyünü bildirdikdən sonra Onun məkan və zamanının olmadığını bildirmişdir: «Onu görməyin məkan və zamanı yoxdur», «O, məkan və zamandan çox ucadır», «Cəhətsiz olanın cəhətlə işi olmaz», «Cəhət gözdən itəndə Onu gördü», «Ondan o tərəfə nə məkan var, nə də təsəvvür», «Məkansız məkanda nişansızlığın nişanını gördü», «Cəhətlərin bazarını pozdu», «Üst, alt zəhmətindən xilas oldu».

Uca Allahın (c.c) məkanı və zamanı yoxdur. O, hər zaman və hər yerdədir, O, əbədidir, konkret bir zamana aid deyil. O, cism deyil, konkret bir məkana bağlı deyil. Hz. Nizami uca Allahın (c.c) sifətləri ilə bağlı olan bu məsələni beytdə belə ifadə etmişdir: O pərdəni görməyin məkanı yoxdur, Onun hüzuruna gedən yolun zamanı yoxdur. Hər bir yolun bəlli bir sonu var və bu yol bəlli bir zaman içində qət edilir. Ancaq uca Allahın (c.c) hüzuruna gedən yolun zamanı yoxdur.

Hər şeyin məkanı var, uca Allahdan (c.c) başqa.
Hər şeyin zamanı var, uca Allahdan (c.c) başqa.

---

[758] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

**HZ. NİZAMİ ŞEİRİNİN NUR DAMLASI**

*Etmədiyin şikarın qəmini yemə,*
*Hər nə ki, yeməmisən, sənə ehtiyat olar.*

*Asanlıqla gövhər tapmaq mümkün deyil,*
*Mədəndən çıxarılan gümüş təmizlənməyə möhtacdır.*

*Ağılabatan sözlər idi, ürəyimə girdi,*
*Ürəkdən gələn sözlər ürəyə yatar.*

## İKİ YÜZ ƏLLİ DÖRDÜNCÜ ADDIM:
## ONA CƏHƏTSİZ CƏHƏTDƏN YOL TAPDILAR

هر که در آن پرده نظرگاه یافت
از جهت بی جهتی راه یافت

***Onun pərdəsinin arxasına baxmağa nail olanlar,***
***Ona cəhətsiz cəhətdən yol tapdılar.***[759]

Hz. Nizami bu beytdə iki məsələyə toxunmuşdur: Onun pərdəsinin arxasına baxmağa nail olmağın şərtləri, Ona cəhətsiz cəhətdən yol tapmağın mümkünlüyü. Şair «Onun pərdəsi» deyərkən maddi dünyanı nəzərdə tutmuşdur. Maddi dünya, məkanı, zamanı olan dünya uca Allahı (c.c) görmək üçün pərdədir. Yəni maddi dünyada Onu görmək mümkün deyil. Ancaq maddi dünyanın sərhəddini keçənlər, sonsuzluq məkanına daxil olanlar Onu görə bilərlər. **Bizcə, merac hadisəsi həm də maddi dünyanın sərhəddini keçmə hadisəsidir.** Şair bu maddi dünyanın sərhəddini keçmə şərti ilə görmə nəticəsi arasında əlaqə yaradır. Onun pərdəsinin arxasına baxmağa nail olan da hz. Məhəmmədədir (s.a.s). O, bu pərdənin arxasına baxmağa nail olmaq üçün nə etdi? Hamıdan çox sevdi o uca Yaradanı, hamıdan çox qorxdu Ondan, hamıdan çox tanıdı Onu, hamıdan çox qul oldu Ona, merac gecəsi «O özlüyündən söz kimi tamamilə xaric oldu», mənaya çevrildi, «cism libasını çıxardı», «başını təbiətin yaxasından çıxardı», «O varlığını hiss etmədi», «O, bir nura çevrildi», «öz varlığından bir addım da yüksəldi», «gözlərini bütün gördüklərindən yuyub təmizlədi», «Onun nəzəri cəhətin (məkanın) üzünə niqab saldı», «yerdə doğulmuş göylərdə gəzdi, yeri, asimanı aşağıda buraxdı»,

---

[759] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

«artıq Onun cismani varlığından heç bir şey qalmadı», «öz varlığından kənara çıxdı», «Onun ayağı ilə başı bilinmədi», «aşağısı-yuxarısı olmayan bir yola girdi», «fikrin görə bilmədiyi yerə daxil oldu», «göyləri fərş-fərş keçəndən sonra bütün varlıqdan bayıra çıxdı», «altı cəhətin zülfünü alnında sındırdı», «məkanın üzünə örtük çəkdi», «kainatın qarşısından örtük götürüldü», «hədis təbəqələrini aşdı», «yetmiş hicabı yırtdı», «paltarın ağırlığından azad oldu», «həm tacı, həm də taxtı tərk etdi», «cəhətlərin bazarını pozdu», «alt, üst zəhmətindən xilas oldu». Ancaq bu şərtlər daxilində Onun pərdəsinin arxasına baxmağa nail oldu. Maddi dünyanın buxovlarından azad oldu və nəticədə gördü. İslam Peyğəmbəri bir mübarək hədisində buyurur ki, namaz möminin meracıdır. O, merac ola biləcək namazın şərti kimi huşunu (təslimiyyətlə namaz qılmağı) göstərir. Əslində, huşu içində namaz qılmaq ruhi olaraq maddi dünyanı tərk etmək deməkdir, özünü uca Allahın (c.c) hüzurunda hiss etməkdir, məkan və zaman ölçülərindən kənara çıxmaqdır. Çünki başqa halda, özünü uca Allahın (c.c) hüzurunda hiss etmək mümkün deyil. Bu isə namaz qılarkən uca Allahdan (c.c) başqa, hər şeyi unutmaq deməkdir, Onun hüzurunda olmaq şüuruna sahib olmaqdır. Namazın keyfiyyət ölçüsü, meracla oxşarlığının bir yönü də budur.

Əslində, uca Allaha (c.c) cəhətsiz cəhətdən yol tapmağın yolu da budur. İnsanın nəfsi ona mane olduğu kimi (həqiqətləri görməkdə), maddi dünya da uca Allahla (c.c) ünsiyyətə pərdədir. Hz. Məhəmməd (s.a.s) merac gecəsi maddi dünyanın pərdələrini keçdi, araladı və Ona cəhətsiz cəhətdən yol tapdı.

## İKİ YÜZ ƏLLİ BEŞİNCİ ADDIM: ONUN CƏHƏTLƏRİNİ TƏYİN ETMƏK CƏHALƏTDİR

كفر بود نفى ثباتش مكن
جهل بود وقف جهاتش مكن

***Onun sabitliyini inkar etmək – bu küfrdür,***
***Onun istiqamətini (cəhətlərini) təyin etmək –***
***bu cəhalətdir.***[760]

Hz. Nizami bu beytdə uca Allahın (c.c) sifətlərini şərh etmişdir. O, bu cür şərhləri zəruri saymışdır. Bunun da iki səbəbi var. Birincisi odur ki, uca Allahı (c.c) görmək anlayışı birbaşa Onun sifətləri ilə bağlıdır. İkincisi də merac gecəsi hz. Məhəmmədin (s.a.s) uca Allahı (c.c) görməsi fikri doğru anlaşılmalıdır. Bu məqsədlə şairin meracnamələrində ən çox şərh etdiyi məsələlərdən biri «cəhət» anlayışıdır: altı cəhət yox oldu, bir cəhətə çevrildi, altı cəhət Onun önündə dil çıxara bilməz, cəhət və cahan Ondan qaçar, cəhətsiz olanın cəhətlə işi olmaz, Onun nəzəri cəhətin üzünə örtük saldı, cəhət gözdən itdi, cəhətsizi gördü.

Şair açıq bildirir ki, uca Allahın (c.c) cəhəti olmaz. Cəhət anlayışı həm var olan, həm də var olmayan bir şeyi ifadə etmək üçün istifadə olunur. Varlıq iki hissədən ibarətdir: yaradan və yaradılan. «Cəhət» sözü ilə uca Allahdan (c.c) başqa bir varlıq nəzərdə tutulursa, o halda bunu qəbul etmək olar. Uca Allahı (c.c) isə heç bir şey əhatə edə bilməz. Əgər «cəhət» ilə olmayan bir şey nəzərdə tutulursa, bu da aləmin üstündə (ondan üstün) olanı bildirir. Aləmin fövqündə olan tək varlıq isə uca Allahdır (c.c). O, yaratdıqlarından heç bir şeyin içində deyil.

---

[760] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

İslam alimi İbnu Əbil-İzz başqa bir alimin – Tahavinin «altı cəhət Onu əhatə edə bilməz» fikrini şərh edərkən yazır: «… Tahavinin (uca Allah (c.c) ona rəhmət etsin) başqa məxluqat kimi altı yön (cəhət) Onu əhatə edə bilməz» sözü yaratdıqlarından heç bir şey Onu əhatə edə bilməz deməkdir və anlamı baxımından doğrudur, gerçəkdir. Əksinə, O, hər şeyi əhatə edəndir və hər şeyin üstündə olandır. Tahavinin nəzərdə tutduğu məna budur, çünki o, sonra belə deyəcəkdir: «O uca Allah hər şeyi əhatə edəndir və hər şeyin üstündədir». Deməli, «başqa yaradılmışlar kimi, altı yön (cəhət) Onu əhatə edə bilməz» sözləri ilə «O, hər şeyi əhatə edəndir və üstündədir» sözlərini bir arada təhlil etsək, onun məqsədinin uca Allahı (c.c) heç bir şeyin ehtiva (əhatə) edə bilmədiyini, Onun yaratdıqlarına bənzəmədiyini, uca Allahın (c.c) hər şeyi əhatə edən, hər şeyin fövqündə olan varlıq olduğunu nəzərdə tutduğu anlaşılır».[761]

Hz. Nizami deyir ki, Onun istiqamətini (cəhətlərini) təyin etmək cəhalətdir. Burada şair «cəhalət» sözünü ona görə seçmişdir ki, uca Allaha (c.c) cəhət müəyyən etmək Onu tanımamaq deməkdir.

Hz. Nizami merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) gördüyü fikrini irəli sürərkən şərh etdiyi ikinci məsələ **məkan anlayışıdır**: Onu görməyin məkan və zamanı yoxdur, O, məkan və zamandan çox ucadır, Ondan o yana nə məkan var, nə də təsəvvür, məkanın üzünə örtük çəkildi, Məhəmməd məkansız məkanda nişansızlığın nişanını gördü. Hz. Nizami deyir ki, uca Allah (c.c) məkandan münəzzəhdir, Onun məkanı yoxdur, O, məkansızdır. **O, yaratdıqlarına bənzəməz.** Bu əqidənin qaynağı da Qurani-Kərimdir. Uca Allah (c.c) buyurur:

[761] İbnu Əbil-İzz, «Şərhu Aqibətit-Tahavi»

فَلا تَضرِبوا لِلّهِ الأَمثالَ إِنَّ اللّهَ يَعلَمُ وَأَنتُم لا تَعلَمونَ

(ən-Nəhl, 16/74)

«(Allaha qoşduğunuz şərikləri, Onun yaratdıqlarını) Allaha bənzətməyin. Allah bilir, siz isə bilmirsiniz!»

İslam Peyğəmbəri buyurur: «Allah, Ondan başqa bir şey yox ikən var idi…». Yəni əzəldə Allahdan başqa heç bir şey yox idi. Nə məkan, nə zaman, nə insan, nə mələk, nə heyvan, nə cin, nə göy üzü, nə də yer üzü.

İslam Peyğəmbəri buyurur: «Ey Allah, sən zahirsən, sənin üstündə bir şey yoxdur, sən batinsən, sənin altında bir şey yoxdur». Beyhaki deyir ki, dostlarımız bu hədisi dəlil göstərərkən belə deyirlər: «Üstündə və altında bir şey olmayan məkansız olaraq var».[762]

Böyük alim Əbdül Kahir bin Tahir ət-Təmimi-əl Bağdadi «Əl-farku beynəl-fırak» («Firqələr arasındakı fərqlər») adlı əsərində belə yazır: «Alimlər Onu (Allahı) məkan əhatə etmədiyi və Onun zamanı olmadığı fikrində ittifaq etmişlər».[763]

Hz. Əli (r.a) buyurur: «Allah məkan yox ikən var idi, O, indi də olduğu kimidir».[764]

Hz. Əli (r.a) buyurur: «Sözsüz, Allah ərşi qüdrətinin böyüklüyünü göstərmək üçün yaratmışdır və onu öz zatı üçün məkan etməmişdir».[765]

Böyük alim Cəfər əs-Sadiq belə yazır: «Kim Allahın (c.c) bir şeydə, ya da bir şeyin üzərində olduğunu, ya da bir şeydən olduğunu iddia edərsə, müşrik olar. Çünki bir şeydə olsaydı, əhatə edilmiş olardı. Əgər bir şeyin üzərində olsay-

---

762 Molla Aliyyul Kari, «Fikhul-Əkbər», s. 217.
763 Molla Aliyyul Kari, «Fikhul-Əkbər», s. 217.
764 Molla Aliyyul Kari, «Fikhul-Əkbər», s. 217.
765 Molla Aliyyul Kari, «Fikhul-Əkbər», s. 217.

dı, daşınmış olardı, bir şeydən olsaydı, sonradan olmuş (yaradılmış) olardı».[766]

Hz. Əlinin (r.a) oğlu hz. Həsənin çox səcdə edən adı qazanmış oğlu Əli Zeynalabidin uca Allah (c.c) ilə bağlı deyir: «Ey Allahım, Səni nöqsan sifətlərdən tənzih edirəm, Səni məkan əhatə etməz». Yenə O buyurmuşdur: «Sən sınırlı deyilsən ki, sınırlandırılasan».[767]

**Şeyx Əhməd ər-Rifai belə buyurur**: «Allahı tanımağın son dərəcəsi Onun məkansız və keyfiyyətsiz olaraq var olduğunu qəti olaraq bilməkdir».[768]

Hənbəli alimlərindən olan İmam İbnil-Cevzi «Müdhiş» adlı kitabında belə deyir: «Misallar ancaq bənzəri olana verilir. Uca Allah (c.c) haqqında necə demək olar ki, O, necədir? Onun haqqında keyfiyyət müəyyən etmək imkansızdır. Təsəvvürlər Onu xəyal edə bilməz, ağıl Onu qavraya bilməz. Allaha (c.c) keyfiyyət verən Onu tanımamışdır. Onun haqqında misallar verən Onu tövhid etmiş deyil. Onu yaradılmışlara bənzədən Ona ibadət etmiş deyildir».[769]

«Fetavai-Hindiyyə» adlı əsərdə belə yazılıb: «Uca Allaha (c.c) məkan istinad edən kafir olar».[770]

Əbul-Həsən əl-Əşari yazır: «Kim Allahın cism olduğuna inanırsa, o, Rəbbini tanımış deyil, şübhəsiz, Ona inanmış da deyil».[771]

Şeyx Əbdul-Ğani ən-Nablusi yazır: «Kim Allahın göyləri, ya da yer üzünü doldurduğuna, ya da ki ərşin üzə-

---

766 Molla Aliyyul Kari, «Fikhul-Əkbər», s. 217.
767 Molla Ali əl-Kari, «əl-Muşkat».
768 Molla Ali əl-Kari, «əl-Muşkat».
769 Molla Ali əl-Kari, «əl-Muşkat».
770 Molla Ali əl-Kari, «əl-Muşkat».
771 Molla Ali əl-Kari, «əl-Muşkat».

rində oturan bir cism olduğuna inanırsa, O, özünün müsəlman olduğunu iddia etsə belə, kafirdir».[772]

Sələf və xələf alimləri uca Allahın (c.c) hər hansı bir yöndə (məkanda) olduğuna inananın kafir olduğunu söyləmişlər. Bunu Əbu Hənifə, Malik, Şafii, Əbul-Həsən əl-Əşari və Əbu Bəkir əl-Baqillani də söyləmişdir.[773]

Əbu Hənifə «əl-Fıkhul-Əkbər» adlı əsərində deyir ki, uca Allah (c.c) yer və məkandan münəzzəhdir, yer və məkan anlayışını Ona aid etmək olmaz. Onun bu əsəri ilə bağlı müxtəlif araşdırmalar yazılmışdır. Bunlardan biri də Aliyyul Karinin şərhidir. Aliyyul Kari böyük İmamın bu sözlərini belə açıqlayır: «Uca Allah (c.c) buyurur:

وهو الْقَاهر فَوقَ عباده ويرسلُ علَيكُم حفَظَةً حتى إِذَا جاء أَحدكُم الْموتُ تَوفتْه رسلُنَا وهم لاَ يفَرطُون

(əl-Ənam, 6/61)

«Allah öz bəndələri üzərində qəhr sahibidir (ixtiyar sahibidir). O, sizə gözətçi mələklər göndərir. Nəhayət, birinizin əcəli gəlib çatanda onun canını mələklər alar. Onlar (öz vəzifələrində heç bir əyri-əskikliyə yol verməzlər)».

Uca Allahın (c.c) yaratdıqları üzərindəki ucalığı yer və məkan yönü ilə ucalıq deyil. Əksinə, üstün vəl-camaat da bu görüşü qəbul etmişdir. Hətta Mötəzilə, Xaricilər və başqa bidət əhlinin görüşü də belədir. Ancaq uca Allaha (c.c) yön (cəhət) və tərəf istinad edən bəzi kimsələrlə Mücəssimə tayfası (uca Allahı (c.c) cismləşdirən qrup) belə düşünmür. Uca Allah (c.c) onların söylədiklərindən münəzzəhdir. Ucalıq və üstünlük sifətinə dəlalət edən bir sıra ayə və hədislər

---

772 Molla Ali əl-Kari, «əl-Muşkat».
773 Molla Ali əl-Kari, «əl-Muşkat».

uca Allahın (c.c) ucalıq sifətini isbat edəcək dəlillərdir. Ancaq bunların hamısı qalib, qəhr, hakim sifətlərinin ifadə etdiyi ucalıqla təvil edilmişdir (yəni bu anlayışlar məkan, cəhət mənasında deyil – S.H)».

Şeyx əl-İmam İbni-Abdüssəlam böyük İmam Əbu Hənifənin belə dediyini yazmışdır: «Kim Allahın göydə, yoxsa yerdə olduğunu bilmirəm», - desə, o, kafir olar. Çünki uca Allah (c.c) belə buyurur:

الرحمن علَى الْعرش استَوى

(Taha, 20/5)

«Rəhman ərşi yaradıb hökmü altına almışdır».

Onun ərşi yeddi qat göyün üstündədir. Yuxarıdakı sözü deyən adam isə bu sözü ilə uca Allahın (c.c) bir məkanı olması ilə bağlı yanlış qənaət formalaşdırır. O, uca Allahı (c.c) yaradılmışlara bənzətmiş olur ki, bu əsla doğru deyil. İmam buyurur ki, uca Allaha (c.c) yer, məkan aid edəcək sözlərdən çəkinmək zəruridir».[774]

Məkan və zaman anlayışı şərh edilərkən ən çox öyrənilən, müxtəlif yanaşmalara səbəb olan məsələlərdən biri də Ərşlə bağlıdır. Uca Allah (c.c) və Ərş münasibəti ilə bağlı fərqli görüşlər var. Öncə Quran və hədis işığında Ərş anlayışını dəyərləndirək. «Ərş» sözlükdə «yüksəklik», «yüksək yer», «yüksək şey» anlamında izah edilmişdir. Məcazi mənada «hökmranlıq», «şan», «şərəf», «taxt» anlamları var.

«Kitabi-Müqəddəs»də də «ərş», «kralın taxtı», «hökmranlıq», «Allahın taxtı» kimi verilmişdir.[775]

Quranda «ərş» hz. Yusifin (s.a.s) və Səbə məlikəsi Bəlqisin taxtı mənasında işlədilmişdir.

---

[774] Molla Ali əl-Kari, «əl-Muşkat».
[775] Luka, 1/32; Krallar, 1/46; Yeremya, 22/30.

ورفَعَ أَبويه علَى الْعرشِ وخَروا لَه سجداً وقَالَ يا أَبت هـذَا تأْويلُ
رؤْياي من قَبلُ قَد جعلَها ربي حقّاً وقَد أَحسن بي إِذْ أَخْرجني من
السجنِ وجاء بِكُم من الْبدوِ من بعد أَن نزغَ الشيطَان بيني وبين
إِخْوتي إِن ربي لَطيفٌ لما يشَاء إِنه هو الْعليم الْحكيم

(Yusif, 12/100)

«(Yusif) ata-anasını taxt üstünə qaldırdı. Onlar hamısı onun qarşısında səcdəyə qapandılar. (Yusif) dedi: «Atacan! Bu əvvəl gördüyüm yuxunun yozumudur. Rəbbim onu (yuxunu) həqiqətə çevirdi. O, mənə yaxşılıq etdi, çünki məni zindandan qurtardı, şeytan mənimlə qardaşlarımın arasını vurduqdan sonra sizi çöldən gətirdi. Həqiqətən, Rəbbim istədiyinə qarşı lütfkardır. O, doğrudan da, biləndir, hikmət sahibidir!»

إِني وجدت امرأَةً تَملكُهم وأُوتيتْ من كُلِّ شَيءٍ ولَهاعرشٌ عظيم

(ən-Nəml, 27/23)

«Mən onlara padşahlıq edən bir qadın gördüm. Ona hər şey verilmişdir. Onun çox böyük bir taxtı var».

«Ərş» anlayışı Qurani-Kərimdə uca Allaha (c.c) aid edilmiş olaraq iki şəkildə istifadə edilmişdir. Birbaşa, ya da dolayısı ilə ərş on səkkiz ayədə uca Allaha (c.c) aid edilmişdir. Bu ayələrdə uca Allaha (c.c) «rəbbil-ərş», «zül-ərş» deyilmişdir.[776] Mənası «ərş sahibi» deməkdir.

Qurani-Kərimdə Onun ərşinin su üzərində olduğu bildirilir:

وهو الذي خَلَق السماوات والأَرض في ستة أَيامٍ وكَان عرشُه علَى
الْماء لِيبلُوكُم أَيكُم أَحسن عملاً ولَئن قُلْتَ إِنكُم مبعوثُون من بعد
الْموت لَيقُولَن الذين كَفَروا إِن هـذَا إِلا سحر مبِين

(Hud, 11/7)

---

[776] ət-Tövbə, 9/129; əz-Zuxruf, 43/82; əl-İsra, 17/42; əl-Mömin, 40/15.

«Ərşi su üzərində ikən hansınızın daha gözəl əməl (itaət) sahibi olacağını sınayıb bilmək üçün göyləri və yeri altı gündə yaradan Odur…»

Qurani-Kərimdə buyrulur ki, «Ərş» «böyük», «dəyərli», «şərəfli»dir.[777]

«Ərş»i mələklər daşıyır, onlar ərşi əhatə etmişlər, uca Allaha (c.c) həmd edirlər.[778]

Hədislərdə uca Allaha (c.c), Cəbrailə (ə.s) və şeytana aid olmaqla üç fərqli ərşdən danışılır.[779]

Hədislərə görə, uca Allaha (c.c) aid edilən ərşin əlamətləri bunlardır: ərş göylər və yer üzü yaradılmazdan öncə su üzərində idi, yeddinci göyün üzərindəki firdövs (Adn) cənnətinin üstündəydi, uca Allah (c.c) da ərşin fövqündədir.[780]

Hədislərə görə, ərşin altı, üstü, sağı, solu, cəhətləri, ağırlığı, kölgəsi, köşələri, sütunları var. O, göy üzündə qübbə şəklində duran böyük və dəyərli bir nəsnədir.[781]

Hədislərə görə, ərşin sütunları üzərində tövhid kəlməsi yazılmışdır.[782] Ərşin sağında hz. Məhəmmədə (s.a.s) aid edilən məqami-mahmud var.[783] Ərşi mələklər daşıyır, onlar uca Allahı (c.c) təsbih edirlər, onun ətrafında dönürlər.[784] Şəhidlərin ruhu ərşin altında dolaşır.[785] Qiyamət günü insanların hesaba çəkilməsinə başlanması üçün islam Peyğəmbəri ərşin altında səcdəyə qapanaraq şəfaət diləyəcək.[786]

---

[777] ət-Tövbə, 9/129; əl-Möminun, 23/116.
[778] əz-Zumər, 39/75; əl-Mömin, 40/7; əl-Haqqa, 69/17.
[779] Buxari, «Təfsir», 65/5; Müslim, «İman», 257; Müslim, «Münafiqun», 66, 67; «Fitən», 87; Tirmizi, «Fitən», 63.
[780] Buxari, «Tevhid», 21; «Cihad», 4; Tirmizi, «Tefsir», 6, 58, 68.
[781] Buxari, «Tevhid», 22, 23; «Tefsir», 65/5; Müslim, «İman», 327; «Tevbe», 14; «Zikr», 61-63; Tirmizi, «Tefsir», 41.
[782] Suyuti, «et-Haşaiş-üt Kübra», c. I, s. 12-13.
[783] Tirmizi, «Menaqib», 1; «Müsned», 398.
[784] Tirmizi, «Devaat», 79; İbn Hacer, XXIV, s. 239.
[785] Müslim, «İmare», 121.
[786] Müslim, «İmare», 327.

Rəvayətlərə görə, Ərş nurdan, ya da qırmızı, yaşıl, sarı, ağ nurdandır.[787] Ərş nur suyundandır.[788] Ərş qırmızı, ya da yaşıl yaqutdandır.[789] Bir sıra alimlərə görə, ərş uca Allahın (c.c) nurundan yaradılmışdır.[790] Bir sıra rəvayətlərə görə, ərşin sütunları arasındakı məsafə çox uzundur, Günəş işığını ərşin nurundan alır[791], bütün canlı varlıqlara aid bilgilər Ərşdədir.[792]

Ərşin üzərində yerləşdiyi su ilə bağlı fərqli görüşlər var. Bu görüşləri belə sıralamaq olar: Bu su ölüləri dirildəcək olan həyat suyudur,[793] Quranda göstərilən və «daşqın dəniz» adlandırılan sudur,[794] dörd ünsürdən biri olan sudur.[795] Mahiyyətini ancaq uca Allahın (c.c) bildiyi bir sudur,[796] Ərşin su üzərində olması tamamilə məcazi mənadadır və ilahi hakimiyyətin heç bir qanundan asılı olmadan davam etdiyini göstərir.

İslam alimlərinin çoxuna görə, su uca Allahın (c.c) yaratdığı ilk varlıqdır.[797]

Uca Allah (c.c) və Ərş münasibətləri ilə bağlı da fərqli görüşlər var. Cəhmiyyə, Mötəzilə və bir sıra Şiə kəlamçıları uca Allah (c.c) ilə Ərş arasındakı münasibəti izah etmək çətinliyindən qurtulmaq üçün ərşin uca Allaha (c.c) aid edilən müstəqil varlığını inkar edib, naslara müxalif olmuşlar. Mücəssimə və Kərramiyyə mənsubları isə ərşin Allahın

---

[787] Maturidi, s. 70; Semerkandi, s. 123; Küleymi, s. 129.
[788] Alusi, XII, s. 9-10.
[789] Zəməxşəri, 111, 145.
[790] Zəhəbi, s. 56-58; İbn Kəsir, «Tefsir», IV, s. 182.
[791] Maturidi, s. 70;
[792] Sələbi, s. 11.
[793] Zəhəbi, s. 65.
[794] Rəşid Rıza, XII, s. 17.
[795] İbn Həcər, XXVIII, s. 191.
[796] Elmalılı Hamdi Yazır, c. IV, s. 2759-2761.
[797] Razi, c. XXII, s. 14, 187.

(c.c) məkanı olduğunu söyləmişlər. Əbu Hənifə və Əbül Həsən əl-Əşari uca Allahın (c.c) yaratdıqlarından ayrı olaraq ərşin üstündə olduğuna inanmağı gərəkli sayaraq ərşi Allah (c.c) ilə yaratdıqları arasında bir sərhəd kimi qəbul etmişlər. Əbu Mənsur əl-Maturidiyə görə, uca Allah (c.c) ilə Ərş münasibətləri naslarda bildirildiyi şəkildə isbat edilməli, ancaq bənzətmədən uzaq tutularaq gerçək mənasının bilinməyəcəyinə inanılmalıdır. Daha sonra gələn Əşariyyə və Maturidiyyə kəlamçıları Ərşin varlığını inkar etməmişlər, ancaq uca Allahın (c.c) sonsuz və sərhədsiz bir varlıq olduğunu qəbul edərək Onun ərşin üstündə, hər hansı bir yerdə, ya da bir yöndə olması cism olmasını zəruri etdiyindən Onunla Ərş arasında bir yön və məkan münasibəti qurulmasının mümkün olmayacağını bildirmişlər. Böyük islam alimi Fəxrəddin Razi deyir ki, ilahi əmrlərin ilk ünvanı olan mələklər ərşdədir. Ona görə də uca Allah (c.c) ilə ilk Ərş arasında ancaq kainatın idarə edilməsi baxımından bir əlaqə qurula bilər.

Sələfiyyə alimlərinə görə isə uca Allah (c.c) ilə Ərş arasında naslarda isbat edilən, əshab və tabiun alimləri ilə birgə, müctəhid imamların da qəbul etdiyi bir yön əlaqəsi var, bunu inkar etmək mümkün deyil. Onlara görə Allah (c.c) zatı ilə yaratdıqları arasında deyil, ərşin üstündədir, axirətdə də elə olacaq. Ancaq O, ərşə bitişməkdən, toxunmaqdan, ona hülul etməkdən münəzzəhdir. Onun ərş üzərində olması bir insanın taxt üzərində oturması, ya da bir cismin başqa bir cism üzərində olması kimi düşünülə bilməz. Çünki uca Allahın (c.c) zatı da, sifətləri də yaratdıqlarına bənzəməz. Deməli, Onun yaradılmış bir varlıq olan ərşlə əlaqəsini qavramaq mümkün deyil.[798]

---

[798] «Ərş»lə bağlı məlumatlar «İslam ensiklopedisi»nin «Ərş» maddəsindən götürülmüşdür. Başqa məlumat üçün baxın: «Lisanül-ərəb», «Ərş» maddəsi, «ət-Tarifat», «Ərş» maddəsi, «Müsnəd», c. I, s. 258, 398; c. II, s. 358, 451; Buxari, «Tefsir», 65/5; «Tevhid», 21-23.

Hz. Nizami deyir ki, Onun sabitliyini inkar etmək küfrdür, Onun istiqamətini (cəhətlərini) təyin etmək cəhalətdir. Yəni Onun məkanı, zamanı, cəhəti yoxdur. Şair Ərş anlayışı ilə bağlı görüşlərini açıqlamışdır. **Şairə görə, Ərş var və O yaradılmışdır.** O, yeddi qat göydən sonra yerləşir: «Yeddi fərşin (göyün) büsatından keçdi», «Ərşin darısqal qülləsinə çatdı», «Ərşin gərdək qapısından keçdin». **Şairə görə, Ərş nurdandır:** «nurani ərşdən də yüksəkliklərə baş vurdu». **Şairə görə, Ərşdə mələklər var:** «Ərşdə məqamı olan «subbuh» deyənlər (Allahı vəsf edən mələklər) var. **Ona görə, Ərş göyün ən uca qübbəsidir:** «O, uca ərşin ayağına çatdı». Şairə görə, Ərş maddi dünyanın son nöqtəsidir: «Ərş qapısından keçəndən sonra yetmiş hicabı yırtdı, paltarın ağırlığından xilas oldu, taxtı, tacı tərk etdi, üst, alt zəhmətindən xilas oldu».

## İKİ YÜZ ƏLLİ ALTINCI ADDIM: O, VARDIR, ANCAQ BİR YERDƏ QƏRAR TUTMAYIB

هست ولیکن نه مقرر بجای
هر که چنین نیست نباشد خدای

*O, vardır, ancaq bir yerdə qərar tutmayıb,*
*Hər kim belə deyilsə, Tanrı ola bilməz.*[799]

Hz. Nizami merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) gördüyü ideyasını təqdim edərkən bütün meracnamələrində uca Allahın (c.c) səlbi və sübuti sifətlərindən danışmışdır. Burada məqsəd görmə anlayışının doğru qavranılmasıdır. Biz hz. Nizaminin əsərlərində uca Allahın (c.c) demək olar

[799] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

ki, bütün sifətləri ilə bağlı şərh oxuya bilərik. Şair deyir ki, bütün işlər uca Allahın (c.c) adı ilə başlamalıdır:

***Bismillah-ir-Rəhman-ir – Rəhim,***
***Həkimlər xəzinəsinin qapısının açarıdır.***[800]
***Ey adı ən yaxşı başlanğıc olan,***
***Sənin adın olmadan kitabı necə başlayım.***[801]

Hz. Nizami deyir ki, uca Allah (c.c) əzəli və əbədidir:

***Onun əvvəli ibtidasız əvvəl,***
***Axırı intəhasız axırdır…***[802]

Onun vücudu və sifətləri əzəlidir, əbədidir:

***Vücudu və sifətləri əzəli və əbədidir,***
***Kainatı var edən və yox edəndir…***[803]
***O, var ikən hələ uca (göylər) və yastı (yerlər) yox idi,***
***İndi mövcud olanlar olmayanda da, o, var olacaq.***[804]
***Ondan başqa var olanların bəqası yoxdur,***
***O, müqəddəsdir, çünki fənası yoxdur.***

Hz. Nizami deyir ki, O, yaradıcıdır:

***Ey bütün varlığı yaradan,***
***Zəif torpağı qüdrətli edən!***[805]
***Bütün səxavət çeşmələrini yaradandır,***
***Bütün var olanların xaliqidir.***[806]

Uca Allah (c.c) heç kimə və heç nəyə bənzəməz:

***Sənin varlığının nə surəti var, nə peyvəndi,***
***Sən heç kimə bənzəmirsən, kimsə Sənə bənzəyə bilməz.***[807]

---

[800] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 16.
[801] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 17.
[802] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 17.
[803] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 17.
[804] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 20.
[805] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 20.
[806] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 16.
[807] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 20.

O, elm sahibidir:
***Əzəldən Onun elmi nə (nəhayətsiz) dərya imiş,***
***Onun mülkü nə sonsuz səhra imiş.***[808]
O, bağışlayandır:
***Bişmiş tədbirləri çiyləşdirəndir,***
***Müqəssirlərin üzrünü qəbul edəndir.***[809]
O, qüdrət sahibidir:
***Onun qüdrətinin qabağında hər iki aləm heçdir,***
***Bizim əvvəlimiz, bizim axırımız (Onun müqabilində) bir andır.***[810]
O, mülkün sahibidir:
***Bu qoca əbədi dünyada,***
***Allahdan başqa kim deyə bilər ki, bu varlıq kimindir?***[811]
İnsan ağlı və təsəvvürü Onu dərk edə bilməz:
***O (vəhm) çox yollar getdi, Onun mahiyyətini tapmadı,***
***(Vəhmin) gözləri çox axtardı, Ona bənzərini tapmadı.***[812]
İtaət ancaq uca Allaha (c.c) ola bilər:
***Pərəstiş ayini ancaq Səninlə nizam tapır,***
***Səndən başqasına pərəstiş haramdır.***[813]
Dünyanı xilas edəcək düşüncə tövhiddir:
***Bu qul Nizami ki Sənin təkliyini tərənnüm edir,***
***Hər iki dünyada Sənin səri-kuyinin torpağıdır.***[814]
***Onun köməyi ilə (yaşayan) Nizaminin torpağı,***
***Onun tövhid dənəsindən (becərilmiş) tarladır.***[815]

---

[808] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 17.
[809] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 16.
[810] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 17.
[811] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 17.
[812] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 19.
[813] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 20.
[814] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 22.
[815] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 19.

Uca Allah (c.c) heç bir şeyə möhtac deyil, O, ehtiyacsızdır:

***Özü də hər nə yaratmış və bəzəmişsənsə,***
***(Onlara) heç bir ehtiyacın olmamış, ey heç bir şeyə ehtiyacı olmayan!***[816]

Hər şey uca Allahın (c.c) iradəsinə bağlıdır:

***Sənin sayəndə ucalan baş,***
***Heç kəsin əyməsi ilə ayağa düşməz.***
***Sənin qəhrindən əyilən baş isə,***
***Heç kimin köməyi ilə ucala bilməz.***[817]
**Sən «yağ» deməyincə göy yağdırmaz,**
**Sən «gətir» deməyincə torpaq məhsul gətirməz.**[818]

Hz. Nizamiyə görə, bir insan üçün ən önəmli məsələ uca Allahı (c.c) doğru tanımaqdır. İnsana bu dünya və axirət səadəti bəxş edəcək ölçü budur. Bunun yolu da uca Allahın (c.c) sifətlərini doğru tanımaqdır. Şairə görə, uca Allahı (c.c) Onun Özünü tanıtdığı ölçülərlə tanımaq olar:

***Səni arayanların açarı ona görə boşa çıxdı ki,***
***Səni öz ölçüləri ilə ölçmək istədilər.***
***Kim ki Səni Sənin gözünlə görmək istədi,***
***Bu boş vərəqlərin hamısını parçalayıb atar.***
***Səni ancaq Sənin vasitənlə axtarıb tapmaq olar,***
***Özü də gərək başqa qapılara baş vurmayasan.***[819]

O, var, ancaq bir yerdə qərar tutmayıb, O, cism deyil. Hər kim belə deyilsə, O, Allah (c.c) ola bilməz. Hz. Nizami bu ölçü ilə uca Allahı (c.c) tanıtmışdır, şirkə gedən yolun qapısını bağlamışdır, tövhid inancını qorumuşdur.

Çünki şirkin səbəbi uca Allahı (c.c) tanımamaqdır. Yaradılanla yaradılanlar arasında bir oxşarlıq görmək bütpə-

---

[816] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 23.
[817] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 23.
[818] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 22.
[819] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 26.

rəstliyə, cəhalətə yol açır. Hz. Nizami deyir ki, uca Allaha (c.c) aid olanlar ancaq Ona aiddir, başqa bir varlıqda bu keyfiyyətlər ola bilməz:

***Varlığı hər bir mövcud olana hakim,***
***Nişanı hər bir görənə zahirdir.***
***Ulduzları qüdrəti ilə itaət etdirən,***
***Təbiətlərə sənəti ilə gövhərlə bəzək vurandır.***
***İncəlikləri görənlərin gözünün muradı,***
***Xəlvətdə əyləşənlərin xatirinin munisidir.***
***Aləmdə olan hər bir əsasdan o uzədir,***
***Təfəkkürə gələn hər bir müqayisədən kənardadır.***
***Fələklərin damında onu axtararkən,***
***Xəyalın idrak ayaqqabısı dağılmışdır.***[820]

Şairə görə, tövhid inancı axirət inancı ilə birbaşa bağlıdır. Bu inanca sahib olan qulun ölüm qorxusu yoxdur:

***Ölüm çatarsa, nədən qorxuram,***
***Bilirəm ki, sənə tərəf gedən yoldur.***
***O, ölüm deyil, bağdır, bostandır,***
***O, dostlar sarayına gedən yoldur.***
***Nə vaxta qədər ölümdən fəryad çəkəcəyəm,***
***Əgər ölümü o rəva görürsə, mənim ölümümə (eşq) olsun!***
***Necə ki nəql edirlər, əgər belədirsə,***
***Belə ölüm, ölüm deyil, yer dəyişməkdir.***
***Bu ölüm yemək yerindən yataq yerinə,***
***Yataq yerindən isə şah məclisinə (getməkdir).***
***O yuxu ki, yolu sənə tərəfdir,***
***Elə bir yuxuya dalmaqdan boyun qaçırmaram.***
***Sənin eşqinlə bu evdən (dünyadan) qalxıramsa,***
***Şirin yatıb, şən oyanacağam.***[821]

---

[820] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 25.
[821] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 21.

## İKİ YÜZ ƏLLİ YEDDİNCİ ADDIM: O VARLIQ ÇEŞMƏSİNİ İDRAK GÖZÜ İLƏ GÖRDÜ

دید پیمبر نه به چشمی دگر
بلکه بدین چشم سر این چشم سر

***Məhəmməd o varlıq çeşməsini başqa gözlə deyil,***
***Yalnız öz idrak gözləri ilə gördü.***[822]

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinin uca Allahı (c.c) gördüyünü bir daha təsbit etmişdir. Bu beytdə diqqəti çəkən iki məsələ var. Şair birinci misrada uca Allahı (c.c) «varlıq çeşməsi» adlandırmışdır. Çeşmə (bulaq) suyun qaynağı deməkdir. Yəni bütün varlığın, kainatın qaynağı, yaradıcısı, həyat verəni Odur. Susuz həyat olmadığı kimi, uca Allahın (c.c) iradəsindən kənarda da heç bir şey yoxdur:

***… Ey varlığın əsasını yaradan!***
***Əliuzunluq sənin qapından əskik olsun.***

***Ey xütbəsi «təbarəkəllah» olan!***
***Sənin feyzin həmişə «bərəkallah»dır.***

***Ey doqquz kaşanənin yeddi gəlini,***
***Sənin dərgahında qapıçı olan!***

***Ey necəliyi soruşulmayan varlıq,***
***Ey batin və zahirin bilicisi!***

***Ey hərəkət edən və hərəkətsiz nə varsa,***
***Sənin «kün-fəyəkün»unla yaranmış!***

---

[822] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

*Ey ağlı əta edən, canı yaradan,*
*Sənin hökmünlə varlıq və yoxluq birdir.*[823]

Şair beytin ikinci misrasında merac gecəsi baş verən görmə hadisəsinin keyfiyyətini, formasını açıqlamışdır. Şairə görə, islam Peyğəmbəri merac gecəsi uca Allahı (c.c) baş gözü ilə deyil, idrak, qəlb gözü ilə görmüşdür.

## İKİ YÜZ ƏLLİ SƏKKİZİNCİ ADDIM: ORADA PEYĞƏMBƏRİN NƏFƏSİNDƏN BAŞQA BİR ŞEY YOX İDİ

از نبی جز نفس نبود آنجا
همه حق بود و کس نبود آنجا

*Orada Peyğəmbərin nəfəsindən başqa bir şey yox idi,*
*Orada həqdən (Tanrıdan) başqa bir kimsə yox idi.*[824]

Hz. Nizami dahi sənətkardır, O, uca Allahı (c.c) doğru tanıyan və tanıdan alimdir. Onu bütün varlığı ilə sevən və sevdirən şeyxdir. O həm ideya, düşüncə, fikir qaynağıdır, həm də könül əhlidir, can adamıdır, ruh insanıdır. O, bu beytdə merac gecəsi baş verən görmə hadisəsinin fərqli bir aləmdə baş verdiyini ifadə etmək üçün «orada» sözündən istifadə etmişdir. Şair fərqi ifadə etmək üçün öncəki beytlərdə bu fərqin detallarını təqdim etmişdir. Yəni şairə görə «orada», görmə hadisəsinin baş tutduğu yerdə deyilərkən nə nəzərdə tutulur? «Orada» aşağı və yuxarı, ön, arxa, sağ, sol yoxdur, «orada» altı cəhət aradan qalxmışdır, «orada» həm cəhət, həm də cahan Ondan qaçmışdır, «orada» cəhət yoxdur, çünki cəhətsiz olanın cəhətlə işi olmaz, «orada» cəhət

[823] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 17.
[824] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 24.

gözdən itmişdir. Orada məkanın, zamanın, maddi dünyanın və onlara aid olan heç bir şeyin hökmü yoxdur. Ora «can aləmi», «dinclik məkanı», «rəhmət evi», «ruh dünyası»dır. Şairə görə, merac gecəsi görmə hadisəsi ancaq hz. Məhəmmədə (s.a.s) aiddir. **Şair görmənin həm məkansızlıq, zamansızlıq aləmində baş verdiyini, həm də bu şərəfin ancaq islam Peyğəmbərinə aid olduğunu gözəl ifadə etmişdir: orada Peyğəmbərin nəfəsindən başqa bir şey yox idi, orada uca Allahdan (c.c) başqa bir varlıq yox idi.**

## İKİ YÜZ ƏLLİ DOQQUZUNCU ADDIM: HƏR ŞEYİ ƏHATƏ EDƏNƏ CƏHƏT SIĞARMI?

همگی را جهت کجا سنجد
در احاطت جهت کجا گنجد

***Hər bir şeyə cəhət olana cəhət nə gərək?***
***Hər şeyi əhatə edənə cəhət sığarmı?***[825]

Hz. Nizami bu beytdə uca Allahın (c.c) cəhətsiz, məkansız olduğunu ifadə etmək üçün bədii sual formasını seçmişdir. Şair öncəki beytlərdə uca Allahın (c.c) məkansız, cəhətsiz, zamansız olduğunu bildirir, sonra da bunun mümkünsüzlüyünü bədii sual yolu ilə təsdiq edir. Yəni uca Allah (c.c) üçün məkan, zaman anlayışı yoxdur, bunu düşünmək belə mümkün deyil. Çünki O, yaratdığı hər şeyin cəhətini müəyyən edir. O, hər şeyi əhatə etmişdir:

هو الذي خَلَقَ السماوات والْأرض في ستة أَيامٍ ثُم استَوى علَى
الْعرشِ يعلَم ما يلج في الْأرضِ وما يخْرج منْها وما ينزِلُ من

[825] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 24.

السماء وما يعرج فيها وهو معكم أين ما كنتم والله بما تعملون بصير . له ملك السماوات والأرض وإلى الله ترجع الأمور. يولج الليل في النهار ويولج النهار في الليل وهو عليم بذات الصدور. آمنوا بالله ورسوله وأنفقوا مما جعلكم مستخلفين فيه فالذين آمنوا منكم وأنفقوا لهم أجر كبير

(əl-Hədid, 57/4-7)

«Göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Odur. O, yerə girəni də, (yerdən) çıxanı da, göydən enəni də, (göyə) qalxanı da bilir. Siz harada olsanız, O, sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir! Göylərin və yerin hökmü Onun əlindədir. (Bütün) işlər (axırda) ancaq Allaha tərəf qaytarılacaqdır. Gecəni gündüzə, gündüzü də gecəyə qatan Odur. O, ürəklərdə olanları biləndir».

## İKİ YÜZ ALTMIŞINCI ADDIM:
## ONA XİTAB OLUNDU

خطاب آمد که‌ای مقصود درگاه
هر آن حاجت که مقصود است در خواه

***Xitab olundu: «Ey dərgahın məqsədi,***
***Məqsədində nə arzun var, onu istə!»***[826]

Hz. Nizami bu beytdə bir neçə məsələyə toxunub. Onlardan biri «xitab olunmaq» məsələsidir. Şair gerçəkliyə uyğun olaraq bu ifadəni seçmişdir. O, islam Peyğəmbəri uca Allahla (c.c) danışdı demir, uca Allah (c.c) Ondan soruşdu da demir. Deyir ki, Ona xitab olundu. Burada bir məchulluq var. Xitab

[826] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 340.

edənin müraciət şəklinin gerçək mahiyyətini bilmirik, ancaq səs eşidildiyini bilirik. Uca Allah (c.c) yaratdıqlarına bənzəmədiyindən Onun müraciət şəkli də ancaq Ona aiddir.

Şair deyir ki, uca Allah (c.c) islam Peyğəmbərinə «rəsul», «nəbi» kimi müraciət etmədi. Ona «dərgahın məqsədi» deyə xitab olundu. Misradakı «dərgah» sözü kainat, yaradılış, aləm mənasındadır. Burada şair üç hədisə (bu hədislərin doğruluğu ilə bağlı fikir ayrılıqları var) işarə etmişdir. «Adəm su ilə palçıq arasında ikən mən peyğəmbər idim», «Allahın ilk yaratdığı mənim nurumdur», «Sən olmasaydın, bu göyləri yaratmazdım». Bu hədislərə görə, kainatın yaradılış səbəbi («dərgahın məqsədi») və qaynağı hz. Məhəmməddir (s.a.s). Böyük Azərbaycan şairi **Məhəmməd Füzuli** də bu ideyanı doğru saymışdır:

… Ey vucudun əsəri-xilqəti-əşya səbəbi,
Nəbi ol vaxt ki, bilfel gərəkməzdi nəbi.

(Əşyaların (kainatın) yaradılışının səbəbi Sənin varlığındır. Sən o vaxt elçi (nəbi) idin ki, onda elçiyə ehtiyac yox idi)

Ona xitab olundu: «Nə arzun varsa, onu istə». Bu, uca Allahın (c.c) islam Peyğəmbərinə olan sevgisinin göstəricisidir. Yəni uca Allah (c.c) Səni əliboş qaytarmaz.

## İKİ YÜZ ALTMIŞ BİRİNCİ ADDIM: BAĞIŞLAMAQ XƏZİNƏSİNİN MÜJDƏSİNİ İSTƏDİ

سرای فضل بود از بخل خالی
برات گنج رحمت خواست حالی

***Xəsislikdən uzaq fəzilət sarayı idi,***
***Rəhm etmək (bağışlanmaq) xəzinəsinin müjdəsini istədi.***[827]

[827] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

Öncə islam Peyğəmbərinə xitab olunur. Onun bütün istəklərinin yerinə yetiriləcəyi bildirilir. Şair deyir ki, bura xəsislikdən uzaq olan bir fəzilət sarayı idi. Xəsislik sevgisizlik əlamətidir, dünya malına bağlılıqdır. Uca Allahla (c.c) islam Peyğəmbərinin münasibətinə uyğun olan söz deyil. Bura fəzilət sarayıdır. Şair xəsisliyin ziddi olan bolluğu, bərəkəti ifadə etmək üçün iki sözdən istifadə etmişdir: «fəzilət», «saray». «Fəzilət» ərəbcə artan, çoxalan, üstünlük, nemət deməkdir. Uca Allah (c.c) Qurani-Kərimdə buyurur ki, fəzl (bərəkət, nemət) Onun əlindədir:

قُلْ إِنَّ الْهُدَى هُدَى اللَّهِ أَنْ يُؤْتَى أَحَدٌ مِثْلَ مَا أُوتِيتُمْ أَوْ يُحَاجُّوكُمْ عِنْدَ
رَبِّكُمْ قُلْ إِنَّ الْفَضْلَ بِيَدِ اللَّهِ يُؤْتِيهِ مَنْ يَشَاءُ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ

(Ali-İmran, 3/73)

«… De: «Həqiqətən, nemət Allahın əlindədir və onu istədiyi şəxsə bəxş edər. Allah (rəhməti ilə) genişdir. (O hər şeyi) biləndir!»

قُلْ بِفَضْلِ اللَّهِ وَبِرَحْمَتِهِ فَبِذَلِكَ فَلْيَفْرَحُوا هُوَ خَيْرٌ مِمَّا يَجْمَعُونَ

(Yunis, 10/58)

«(Ey Rəsulum!) De: «Allahın neməti və mərhəməti ilə – ancaq onunla sevinsinlər. Bu onların yığdıqlarından (fani dünya malından) daha xeyirlidir!»

Qurani-Kərimdə «fəzl» sözü bağışlamaq, üstün etmək mənalarında da istifadə edilmişdir:

أَلَمْ تَرَ إِلَى الَّذِينَ خَرَجُوا مِنْ دِيَارِهِمْ وَهُمْ أُلُوفٌ حَذَرَ الْمَوْتِ فَقَالَ
لَهُمُ اللَّهُ مُوتُوا ثُمَّ أَحْيَاهُمْ إِنَّ اللَّهَ لَذُو فَضْلٍ عَلَى النَّاسِ وَلَكِنَّ أَكْثَرَ
النَّاسِ لَا يَشْكُرُونَ

(əl-Bəqərə, 2/243)

«(Ey Rəsulum!) Minlərlə adamın ölüm qorxusu ilə öz yurdunu tərk edib getdiklərini görmədinmi? Allah onlara: «Ölüm!» - dedi və sonra da (yenidən) diriltdi. Həqiqətən, Allah insanlara lütf edəndir, ancaq insanların bir çoxu şükür etməzlər!»

Bura bir fəzilət sarayıdır, sonsuz bərəkət qaynağıdır. Şair bolluq, bərəkət, üstünlük, çoxluq, sevgi ifadə edən sözləri bir beytə yerləşdirmişdir: «fəzilət», «saray», «rəhm», «xəzinə», «müjdə». İslam Peyğəmbəri merac gecəsi uca Allahdan (c.c) ümmətinin ehtiyacı olan və ən dəyərli nemət sayılan bağışlanma, «rəhm etmək xəzinəsinin müjdəsini» istəyir. «Rəhm» uca Allahın (c.c) mübarək adlarından biridir. Mənası ərəbcə «rəhm edən», «mərhəmətli»dir. Uca Allah (c.c) yaratdıqları arasında «rəhmə» möhtac olanlara rəhm edər, onları bağışlayar. Kim uca Allahın (c.c) bu sifətinə inanarsa, onu bağışlayar. Onun rəhmət və mərhəmətinin sərhədi yoxdur.

Qurani-Kərimdə surələrin başlanğıcında təkrarlanan bəsmələdən başqa, bu sifət yüz on altı dəfə təkrar olunmuşdur:

وإِذَا جاءك الذين يؤْمنُون بِآياتنَا فَقُلْ سلاَم علَيكُم كَتَب ربكُم علَى نَفْسه الرحمةَ أَنه من عملَ منكُم سوءاً بِجهالَة ثُم تَاب من بعده وأَصلَح فَأَنه غَفُور رحيم

(əl-Ənam, 6/54)

«Ayələrimizə iman gətirənlər yanına gəldikdə onlara de: «Sizə salam olsun! Rəbbiniz Özünə (bəndələrinə qarşı) rəhmli olmağı yazmışdır. Belə ki, sizlərdən hər kəs pis iş görsə, sonra tövbə edib düzəlsə, (Allah onun günahından keçər). Şübhəsiz ki, Allah bağışlayandır, rəhm edəndir!»

والذين عملُواْ السيئات ثُم تَابوا من بعدها وآمنُوا إن ربك من بعدها لغفُور رحيم

(əl-Əraf, 7/153)

«Pis əməllər etdikdən sonra tövbə edib iman gətirənlərə gəldikdə isə Rəbbin tövbədən sonra (onları) bağışlayandır, rəhm edəndir!»

Hz. Nizami uca Allahın (c.c) rəhm etməsini «xəzinə» adlandırır. Bunun mənası odur ki, uca Allahın (c.c) rəhməti sonsuz və tükənməzdir. Ən dəyərli nemət Onun xəzinəsidir. Uca Allahın (c.c) bağışlaması ən böyük nemət və ən önəmli xəbər olduğundan şair onu «müjdələmək» feli ilə təqdim etmişdir.

## İKİ YÜZ ALTMIŞ İKİNCİ ADDIM: ONDAN XİLAS FƏRMANI ALDI

شربت خاص خورد و خلعت خاص
یافت از قرب حق برات خلاص

***O, Onun xüsusi şərbətini içib, Ondan xüsusi xələt aldı,***
***Və Haqqa yaxınlığından öz ümməti üçün xilas fərmanı aldı.***[828]

Hz. Nizami beytin birinci misrasında uca Allahın (c.c) xüsusi şərbətindən danışır. Bu anlayış divan ədəbiyyatında, ayrıca olaraq təsəvvüf şeirində çox istifadə olunur. «Şərbət» ərəbcə içəcək deməkdir. Təsəvvüf şeirində ilahi feyz, bərəkət, ilahi sevgi, eşq şərabı deməkdir.

[828] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 24.

**Yunis Əmrə:**
***Hakktan gelen şerbeti içdik Elhamdülillah,***
***Şol kudret denizini geçdik Elhamdülillah.***

**Süleyman Çelebi:**
***Susadım qayet hararetden katı,***
***Sundular bir cam dolusu şerbeti.***
***Kardan ak idi vü hem soğuk idi,***
***Lezzeti dahi şekerde yok idi.***

**Niyazi Mısrı**
***Bilmem nicetsem, neylesem bu halvetün şerbetine,***
***Bu canı teslim eylesem bu halvetün şerbetine.***

Hz. Nizami deyir ki, islam Peyğəmbəri merac gecəsi uca Allahın (c.c) xüsusi şərbətini içdi. Yəni bu şərbət ancaq Onun üçün idi. Uca Allahın (c.c) merac feyzi, bərəkəti, nuru ancaq Ona aid idi. Bu, islam Peyğəmbərinin uca Allah (c.c) yanında dəyərini, Ona olan sevgini göstərir. O, uca Allahın xüsusi şərbətini içdi, yəni merac nuru ilə nurlandı, uca Allah (c.c) Ona özəl bir nemət verdi. O, uca Allahdan (c.c) xələt aldı. «Xələt almaq» da sevginin, ona verilən dəyərin göstəricisidir. Şairin nəzərdə tutduğu «xüsusi şərbət» və «xüsusi xələt» merac nemətləri ilə bağlıdır. Şair «xüsusi şərbət», «xüsusi xələt» deyərkən merac gecəsi bəxş edilmiş namaz nemətini nəzərdə tutmuşdur.

Nizamiyə görə, islam Peyğəmbəri merac gecəsi uca Allahdan (c.c) bağışlanma xəzinəsinin müjdəsini istəyir. Uca Allah (c.c) da ona namaz nemətini verir. Namaz neməti ilə bağışlanma arasında bir əlaqə varmı? Namaz qulun uca Allaha (c.c) olan sevgisinin, itaətinin ən mükəmməl formasıdır. Namaz bağışlanma qapısının açarıdır. O, dadlı merac şərbətidir. Namaz qoruyucudur. Namaz duadır, rəhmətdir, bağışlanmadır, uca Allah (c.c) və Onun mübarək elçisinə

olan öygüdür. Qurani-Kərimdə «səlat» («namaz») kəlməsi bir ibadət şəklindən daha geniş mənada işlədilmişdir:

Qurani-Kərimdə **namaz dua mənasında:**

خُذْ من أَموالِهم صدقَةً تُطَهرهم وتُزكيهم بِها وصل علَيهم إِن صلاتَك سكَن لهم واللّه سميع عليم

(ət-Tövbə, 9/103)

«(Ey Rəsulum!) Onların mallarından sədəqə (zəkat) al. Bununla onları (günahlardan) pak etmiş, təmizləmiş (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) olarsan. Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir rahatlıqdır. Allah (hər şeyi) eşidəndir, biləndir».

Qurani-Kərimdə **«səlat» bağışlanma (istiğfar) mənasında:**

إِن الله وملَائِكتَه يصلون علَى النبي يا أَيها الذين آمنُوا صلوا علَيه وسلموا تَسليماً

(Əhzab, 33/56)

«Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat deyirlər. Ey iman gətirənlər! Siz də Ona salavat deyib layiqincə salamlayın».

Qurani-Kərimdə **«səlat» rəhmət anlamında:**

هو الذي يصلي علَيكُم وملَائِكتُه لِيخْرِجكُم من الظلُمات إِلَى النورِ وكان بِالْمؤْمنين رحيماً

(Əhzab, 33/43)

«Sizi zülmətdən nura çıxartmaq üçün mələkləri ilə birlikdə sizə mərhəmət bəxş edən Odur. Allah möminlərə rəhm edəndir».

Namaz islam Peyğəmbərindən öncə də var idi. Ancaq namazın bu şəkli yox idi. Bu «xüsusi merac şərbəti», «xüsusi merac xələti» idi.

Namaz islam dininin ilk fərz qıldığı ibadətdir. Qurani-Kərimdə ən önəmli əməl namaz sayılmışdır. İslam Peyğəmbərinin namazla bağlı hədislərinin səhifə sayı yetmiş ikidir. Peyğəmbərə görə, namaz müsəlmanın dəlilidir, O, nurdur. «Namaz dəlildir»,[829] «Namaz nurdur»,[830] «İnananların qiyamət günü hesaba çəkiləcəkləri əməllərindən ilki namazdır».[831]

Namaz islamın beş təməlindən biridir. Namaz insanı qoruyur. Onu təmizləyir, könlünü uca Allaha (c.c) bağlayır, namaz müsəlman üçün merac şərbətidir, rəhmət xələtidir, itaətinin bəlgəsidir:

اتْلُ مَا أُوحِي إِلَيْكَ مِن الْكِتَابِ وَأَقِمِ الصَّلَاةَ إِن الصَّلَاةَ تَنْهَى عَن
الْفَحْشَاءِ وَالْمُنكَرِ وَلَذِكْرُ اللهِ أَكْبَر وَاللهُ يَعْلَمُ مَا تَصْنَعُونَ

(Ənkəbut, 29/45)

«(Ey Rəsulum!) Qurandan sənə vəhy olunanı oxu və namaz qıl. Həqiqətən, namaz çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək, şübhəsiz ki, (savabına görə) daha böyükdür. Allah nə etdiklərinizi bilir!»

**Namaz sınaqdır, iradənin göstəricisidir. Namaz alternativi olmayan ibadətdir.**

Hz. Nizami merac nemətlərini «xüsusi şərbət», «xüsusi xələt» adlandırdıqdan sonra, beytin ikinci misrasında onları «xilas fərmanı» kimi dəyərləndirir. «O, Haqqa yaxınlığından ümməti üçün xilas fərmanı» aldı.

Hz. Nizami «xilas fərmanı» deyərkən üç merac nemətini nəzərdə tutur: namaz, uca Allahı (c.c) inkar etməkdən başqa, günahların bağışlanacağı, «Bəqərə» surəsinin son iki ayəsi:

---

829 Tirmizi, «Cümə», 79.
830 Əhməd b. Hanbel, 5/91.
831 Əbu Davud, «Səlat», 145.

آمن الرسولُ بما أُنزل إليه من ربه والمؤْمنُون كُل آمن بالله
وملآئكته وكُتُبه ورسله لا نُفَرقُ بين أَحد من رسله وقَالُواْ سمعنَا
وأَطَعنَا غُفْرانَك ربنَا وإليك المصير . لا يكلفُ الله نَفْساً إلا وسعها
لَها ما كسبتْ وعليها ما اكْتَسبتْ ربنَا لا تُؤَاخذْنَا إن نسينَا أَو أَخْطَأْنَا
ربنَا ولا تَحمل علَينَا إصراً كما حملْتَه علَى الذين من قَبلنَا ربنَا ولا
تُحملْنَا ما لا طَاقَةَ لَنَا به واعفُ عنا واغْفر لَنَا وارحمنَا أَنتَ مولاَنَا
فَانصرنَا علَى الْقَومِ الْكَافرِين

(əl-Bəqərə, 2/285-286)

«Peyğəmbər, Rəbbinin nazil etdiyinə inanmış və möminlər də iman gətirmişlər. (Onların) hamısı Allaha, Onun mələklərinə, kitablarına və (bütün) peyğəmbərlərinə iman gətirərək dedilər: «Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq. (Allahın hökmlərini) eşitdik (anladıq) və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, (axırda) Sənin dərgahına (hüzuruna) qayıdacağıq!» Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər). Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir. (Möminlər deyirlər): «Ey Rəbbimiz, unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyə bizi mükəlləf etmə! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən. Kafirlərə qələbə çalmaqda bizə kömək et!»

Bu mübarək ayələr «eşitdik və itaət etdik» («duyduq və uyduq») ölçüsü üzərində qurulmuşdur. Yəni möminin vəzifəsi itaətdir, itaətin qarşılığı da bağışlanmadır. Hz. Nizamiyə görə, xilasın şərti itaətdir. Şairə görə, bu «xilas fər-

manı» hər kəsə verilməz. Hz. Məhəmməd (s.a.s) uca Allahın sevimlisi olduğu üçün Ona verilmişdir. Bu «xilas fərmanı» ümmətə, yəni uca Allaha (c.c), Onun Peyğəmbərinə itaət edənlərə aiddir.

Hz. Nizami bu merac nemətlərini «fərman» adlandırmışdır. Yəni bu neməti ən ali varlıq vermişdir, bu nemət ən mükəmməl nemətdir, onun təminatçısı uca Allahdır (c.c), verilən fərman mütləq yerinə yetiriləcək, uca Allah (c.c) verdiyi vədi yerinə yetirəcək, insanlar da bu fərmana əməl etməlidirlər, itaətin mükafatı bağışlanma, üsyanın qarşılığı ilahi cəzadır.

## İKİ YÜZ ALTMIŞ ÜÇÜNCÜ ADDIM: ÜMMƏTİN MÜQƏSSİRLƏRİ ÜÇÜN DUA ELƏDİ

گنه کاران امت را دعا کرد
خدایش جمله حاجتها روا کرد

***Ümmətin müqəssirləri üçün dua elədi,***
***Allahı Onun bütün istəklərini qəbul elədi.***[832]

Hz. Nizami bu beytdə islam Peyğəmbərini iki yöndən təqdim etmişdir: xilaskar və lider. O, uca Allahdan (c.c) özünə aid olan heç bir şey istəmir. O, ümmətin başçısıdır, ümməti təmsil edir, onları düşünür, təkcə inananları sevmir, həm də günahkarlara acıyır, onları xilas etmək istəyir. Xilaskar və liderin başlıca özəlliyi fədakarlıq və sevgidir. O, elçidir, uca Allahın (c.c) yaratdığı insanları sevir, onların heç birinin cəhənnəm atəşində yanmasını istəmir. Ümmət eyni dinə inanan, bir Peyğəmbərə inanıb, Ona itaət edən camaat-

[832] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

dır. Ümmət camaatdan daha böyükdür. Hər Peyğəmbərin bir ümməti var.

Hz. Məhəmmədin (s.a.s) ümməti ədalətli bir ümmətdir. Onlar başqa insanlara şahid olacaqlar:

وكذلك جعلناكم أمةً وسطاً لتكونوا شهداء على الناس ويكون الرسول
عليكم شهيداً وما جعلنا القبلة التي كنت عليها إلا لنعلم من يتبع
الرسول ممن ينقلب على عقبيه وإن كانت لكبيرةً إلا على الذين هدى
الله وما كان الله ليضيع إيمانكم إن الله بالناس لرؤوف رحيم

(əl-Bəqərə, 2/143)

«(Ey müsəlmanlar!) Beləliklə də, sizi (ədalətli və seçilmiş) bir ümmət etdik ki, insanların əməllərinə (qiyamətdə) şahid olasınız. Peyğəmbər də sizə şahid olsun…»

Hz. Məhəmmədin (s.a.s) ümmətinin özəlliklərindən biri də yaxşılığı (doğru olanı) əmr edib, pislikdən çəkindirməkdir:

كنتم خير أمة أخرجت للناس تأمرون بالمعروف وتنهون عن
المنكر وتؤمنون بالله ولو آمن أهل الكتاب لكان خيراً لهم منهم
المؤمنون وأكثرهم الفاسقون

(Ali-İmran, 3/110)

«(Ey müsəlmanlar!) Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz, (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız. Əgər kitab əhli də (sizin kimi) iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların da içərisində bəzi iman gətirən şəxslər vardır, ancaq çox hissəsi haqq yoldan çıxanlardır».

O, ümmətin hər bir fərdinin doğru yola qovuşması üçün hər şeyi etdi. Merac gecəsi də onların bağışlanmasını istədi. Uca Allah (c.c) da Onun bütün istəklərini qəbul etdi.

## İKİ YÜZ ALTMIŞ DÖRDÜNCÜ ADDIM: İSTƏDİKLƏRİN ADINA XAS OLDU

درخواستی آنچه بود کامت
درخواسته خاص شد به نامت

***Hər nə ki muradın idi, istədin,***
***İstədiklərin adına xas oldu (verildi).***[833]

Hz. Nizami bu beytdə də merac gecəsi islam Peyğəmbərinin uca Allahdan (c.c) istədiyi nemətlərə işarə etmişdir. Onun istəyi ümməti ilə bağlı idi. Şair burada uca Allah (c.c) və Peyğəmbər münasibətinə də toxunmuşdur. Bu münasibətin əsasında sevgi var. Şair bu sevginin varlığını iki yöndə təqdim etmişdir: O, hər nə muradı var idi istədi. Bu, yaxınlığın, sevginin, inamın göstəricisidir. Çünki bir insan ancaq sevdiyi insandan «muradında olanların hamısını» istəyə bilər. O inanır ki, sevdiyi varlıq ona yox deməz. Onu əliboş qaytarmaz. Ona irad tutmaz. Uca Allahın (c.c) islam Peyğəmbərinə olan sevgisi isə misrada belə ifadə olunmuşdur. «İstədikləri adına xas oldu, Ona verildi». Ancaq sevilən insanın istədiyinin hamısı ona verilər.

Beytdə islam Peyğəmbərinin ümmətinə olan sevgisi də yer tutmuşdur. O, istədiyi hər şeyi ümmətinin xilası üçün istəmişdir. Ona verilən hər şey ümmətinə aiddir.

---

[833] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

## İKİ YÜZ ALTMIŞ BEŞİNCİ ADDIM: SONRA O, İXLAS SÜFRƏSİNƏ YÖNƏLDİ

گذر بر سر خوان اخلاص کرد
هم او خورد و هم بخش ما خاص کرد

***Sonra o ixlas süfrəsinə yönəldi,***
***Həm özü yedi, həm də bizim üçün ayırdı.***[834]

Bu beytin ideyası həm uca Allah (c.c) ilə islam Peyğəmbərinin münasibəti, həm merac nemətinin dəyəri, həm də hz. Məhəmməd (s.a.s) ilə ümmətin münasibəti ilə bağlıdır. Bu ideyanı təqdim etmək üçün şair «açar sözlər» seçmişdir: «ixlas», «süfrə», «yemək».

«İxlas» ərəbcədir. Bir şeyi təmizləmək, saflaşdırmaq, yad maddələrdən arındırmaq, bir şeyə başqa bir şey qarışdırmamaqdır. «Xalis» sözü də eyni kökdəndir.

«İxlas» termin olaraq əməlləri ancaq uca Allahın (c.c) rizasını qazanmaq üçün etmək, bir işi ancaq uca Allah (c.c) buyurduğuna görə etmək, ya da etməmək, riyakarlıqdan uzaq olmaq, səmimi olmaq, hər bir davranışın ölçüsünün uca Allahın (c.c) rizasını qazanmaq olduğu düşüncəsi ilə yaşamaqdır. İxlası olan insana «müxlis» deyilir. Qurani-Kərimdə uca Allah (c.c) ixlasla qulluq edilməsini buyurur.[835] Uca Allah (c.c) buyurur ki, şeytanın şərindən ancaq ixlası olan qullar qoruna bilər. Cəhənnəm əzabından da ancaq onlar qurtulacaqlar:

إِنكُم لَذَائِقُو الْعذَابِ الْأَلِيمِ . وما تُجزون إِلا ما كُنتُم تَعملُون. إِلا عباد الله الْمخْلَصين

(əs-Saffat, 37/38-40)

---

[834] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 341.
[835] əl-Bəqərə, 2/139; əl-Əraf, 7/29; Yunus, 10/22; əl-Ənkəbut, 29/65.

«Siz (müşriklər) şiddətli əzabı mütləq dadacaqsınız! Siz ancaq etdiyiniz əməllərin cəzasını alacaqsınız. Allahın müxlis bəndələri isə müstəsnadır».

İxlas insanın niyyəti ilə sıx bağlıdır. Əməllərə dəyər qazandıran da ixlasdır. İslam Peyğəmbərinin ixlasla bağlı mübarək sözlərini oxuyaq: «Allahım, məni ixlas sahibi et»[836], «Əməllər niyyətlərə görədir»[837], «Allah xarici görünüşünüzə, mallarınıza baxmaz. Qəlbinizə və əməlinizə baxar»[838], «Kim səmimi olaraq şəhidliyi istəsə, ancaq yatağında ölsə belə, Allah o insanı şəhidlik mərtəbəsinə ucaldar»[839].

O, merac gecəsi «ixlas süfrəsinə» yönəldi. «Süfrə» anlayışı qida, nemət, doğmalıq, sevgi, özəl münasibət mənalarını yada salır. İnsan sevdiyi insanı evinə dəvət edər. Bu, sevginin, hörmətin göstəricisidir. Ona gözəl süfrə açar, süfrəyə ən gözəl nemətləri qoyar. Ona hədiyyə verər. Nizamiyə görə, merac gecəsi islam Peyğəmbəri uca Allahın (c.c) özəl qonağıdır. Uca Allah (c.c) Ona özəl bir süfrə – «ixlas süfrəsi» açmışdır. «İxlas süfrəsi», yəni ancaq hz. Məhəmmədə (s.a.s) aid olan süfrədir. Bu süfrədə olan nemətlər də maddi dünya nemətləri deyil, ilahi nemətlərdir. Uca Allah (c.c) sevdiyi qonağını bir ilahi nemətlərə qonaq etdi, bu nemətləri Ona pay verdi:

Hz. Nizami islam Peyğəmbərinin ümmət sevgisini beytin ikinci misrasında belə təqdim etmişdir: O, bu ixlas süfrəsindəki nemətlərdən həm özü yedi, həm də bizim üçün ayırdı. Bu ixlas nemətlərini ümmətinə gətirdi. Şair başqa bir beytdə bu nemətləri «ixlas fərmanı» adlandırmışdır.

---

[836] «Müsnəd», 4/369.
[837] «Buxari», «İman», 41.
[838] «Müsnəd», 2/285.
[839] Əbu Davud, «Vitr», 26.

**Bizcə, bu ixlas süfrəsində olan ilahi elmdir. O, bu elmi öyrəndi və ümmətinə təqdim etdi.**

## İKİ YÜZ ALTMIŞ ALTINCI ADDIM:
## O, HAQQIN HAZIRLADIĞI ŞƏRABI İÇDİ

خورد شرابی که حق آمیخته
جرعه آن در گل ما ریخته

***O, Haqqın hazırladığı şərabı içdi.***
***Ondan bir damcı da bizim ürəyimizə tökdü.***[840]

Öncə onu deyək ki, hz. Nizami merac gecəsinin nemətlərini təqdim edərkən «şərbət», «şərab», «cam», «saqi», «xurma», «şəkər» kimi anlayışlardan da istifadə etmişdir: «Xurma yediyin qonaqlıq süfrəsindən bizə nə xırda-xuruş pay gətirmisən», «Ağzını aç ki, hamıya şəkər nəsib olsun, Sənin dodaqlarının təravətindən hamıya xurma nəsib olsun», «Onun xüsusi şərbətindən içdi», «Onun camı iqbal, saqisi mərifət oldu», «Camının dibində bir damla da qalmadı», «O, Haqqın hazırladığı şərabı içdi».

Göründüyü kimi, şair merac nemətini təqdim edərkən rəmzlərə, simvollara da yer vermişdir. Divan ədəbiyyatında, o sıradan təsəvvüf şeirində ilahi sevgini ifadə etmək üçün sevən sevilən rəmzləri ilə birgə, «şərab» simvolundan da istifadə edilmişdir. Deyə bilərik ki, türk, ərəb, fars şeirində ilahi sevgini təqdim etmək üçün ən çox istifadə edilən rəmz şərabdır.[841]

Hz. Nizami niyə «şərab» rəmzindən istifadə edir? Çünki, O, sevən hz. Məhəmmədin (s.a.s) öz sevdiyinə qo-

---

[840] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.
[841] Nizaməddin Qəndəhari, «Ariflərin üsulları və şairlərin ədəbi», Tehran, 1995; Mehmed Vehbi Konəvi, «Şərhi-divani-Hafiz», c. I, s. 16-21.

vuşmasından danışır. Onun təqdimatında hz. Məhəmməd (s.a.s) aşiqdir. Aşiq də məstlik, sərxoşluq halındadır. O, sevdiyindən başqa bir şey görməz, Onun adından başqa bir şey xatırlamaz. Merac nemətləri Onda sərxoşluq yaratmışdır. Bu nemətlər o qədər dəyərlidir ki, O heyran olmuşdur. Nizaminin seçdiyi rəmz onun bağlı olduğu mədəniyyətin dəyərləri içində doğru anlaşılır. Bu rəmzi ancaq hal əhli, yəni o mədəniyyətə inanmış olan anlayar, **Mövlana** nə gözəl söyləmişdir:

***Sus, xam kişinin (insanın) yanında***
***şərabın adını anma,***
***Çünki onun ağlı pis şərabı düşünər.***[842]

Ərəb sufi şairi **İbn Fariz** isə belə deyir:

***Biz sərxoş olanda,***
***Hələ üzüm yaradılmamışdı.***

Niyazi Misri təsəvvüf şeirində olan rəmzləri belə açıqlamışdır: «Sufilər zümrəsi təqlidi imandan təhqiqi imana keçmişdir. Buna görə də onlar əşyanın zahirindən batininə, surətindən mənasına səfər etmişlər. Bütün əşyanı, əslində, olduğu kimi görmüş və bilmişlər. Buna görə də çox sözləri məna aləmindən gəlir. **Şərab** deməkdə məqsədləri mərifətullahdır (Allahı tanımaqdır). Bunun sonu məhəbbətullahdır. Yəni irfan duyğusu və eşq. Eşq və bilgi eyni mənaya gəlir. **Meyxanadan** məqsəd kamil mürşidin könlüdür. Çünki ora Allah sevgisinin xəzinəsidir. **Qədəh**dən məqsəd Haqq talibinə edilən ismi-cəlal təlqinidir, ya da dilindən tökülən ilahi mərifətlərə aid sözlərdir. Salik onları dinlədikcə zövqdən məst olur…»[843]

---

[842] Mövlana, «Divani-Kəbir», c. II, s. 345.
[843] Niyazi Misri, «əl-Əsiləti vəl-əcvibə», s. 21-23.

Şair Nəbi belə yazır: «Xam şairin sözünə baxsan zülf, sünbül, gül, bülbül, şərab, qədəhdən danışır. Ancaq o cür şairlər sevgilinin boy, yanaq, dodaq, göz və sinəsindən uzağa gedə bilməz. Bəzən bahara, bəzən bağçaya rast gələr, sərv, gül, yasəmən görər. Ancaq gedilməmiş yolla gedə bilməz, sərt vadilərdə gəzə bilməz. Uca mənaları əldə edə bilməz, qeyb ovuna kəmənd ata bilməz. Daha öncə söylənmiş, hər kəsin bildiyi mənaları təkrar edər».[844]

Lətifi yazır: «Şairlərin dəf, ney, məşuq və mey kimi istifadə etdikləri ibarə və istiarələri görüb onların şərab və gözəli vəsf etdikləri zənn olunmasın. Təriqət ərbabı və həqiqəti bilənlər yanında hər sözün bir mənası, hər adın bir müsəmması, hər kəlamın bir təvili və hər təvilin bir təmsili olur. Sözləri zahirdə gözəllərin vəsfi kimi görünür, ancaq həqiqətdə uca yaradıcıya həmd və sənadır».[845]

**Sədi Şirazi** belə yazır:
***Ey bizə zamanə gözəllərinin arxasınca***
***getmə deyən insan,***
***Bu düşüncə dənizində biz haradayıq, sən harada?***
***Bu, üzdəki xal, çənə, dağınıq zülfün qıvrımı deyil,***
***Məna əhlinin könlünü alıb götürən ilahi sirlərdir.***[846]

**Yunus Əmrə** də belə deyir:
***Bizim sevdigümüz Hakdur,***
***Bu halka göz ü kaş gelir.***[847]

Bəyazid Bistami bu ideyanı gözəl ifadə edir:

---

[844] Ali Fuat Bilkan, «Hayrinameye göre XVII yızyılda Osmanlı düşünce hayatı», s. 86-87.
[845] Yakup Şafak, «Tasavvufı şiirde mecazi anlatım üzerine», s. 12.
[846] Yakup Şafak, «Tasavvufı şiirde mecazi anlatım üzerine», s. 12.
[847] Yunis Əmrə, «Divan», c. II, s. 92.

«Qırx ildir Haqq ilə danışıram, xalq onunla danışdığımı düşünür».

Türk alimi Şərafəddin Rami təsəvvüf şeirindəki «sevgili» anlayışını, rəmzləri şərh edərkən yazır:

«Şairlərin yaradılış tərəzilərinin doğru olması zəruridir. Kamal sahibi şairin sözünün doğru, işinin sağlam olması lazımdır ki, onun sözü yüksəlsin… Söz suyunun saflığı könül qaynağındandır. Hər zaman su yolu bağlanarsa, ortadan su axmaz. Məna iç görüşün aynasıdır. Ayna parlaq olmasa, məna necə görünə bilər? Demişlər ki, söz danışanın sifətidir. O halda danışan gözəl sifətlərlə bəzənməmişsə, qeyb aləminin təzə gəlininin gözəlliyinin təcəllisini görə bilməz. Hüsnü-tələbin deyil, bəlkə tələbi-hüsnün hər zaman şairə qalib olması gərəkdir ki, aşiqlər zəncirinin hərəkətinə səbəb olan bir söz olsun. O söz şam kimi parlaqdır. Aşiqlərin sözü içlərinin və görünüşlərinin saflığından yanan könüllərdə eşq atəşinin istiliyini artırar».[848]

Mövləvi şeyxlərindən olan Şahidi İbrahim Dədə türk və fars ədəbiyyatında «sevgilinin üzü» rəmzini şərh edərkən yazır: «Zülf (saç), ruy (yanaq), xətt, xal, çeşm, əbru (qaş), dəhan (ağız) ilə süslənmiş olan insan üzünün lövhəsinin hamısını bu kitabda bir yerə toplayaraq bəyan etdik. Bunların hər biri ilə tövhid əhli olan (uca Allahın (c.c) birliyinə inanmış) bir arifi və üz deyərkən də gizli (ilahi) sevgilini nəzərdə tutduq. Bu naxışlarla (tövhid əhli olan ariflər) bizim üzümüz arasındakı məsafə üzdə olan əzalar arasındakı məsafə qədərdir. Üz olmasa, biz də olmarıq… O halda insan üzündən məqsəd ariflərin olduğu məclisdir. Ruydan (yanaqdan) məqsəd onların toplandığı bir yerdə şam kimi işıq verən bir gözəldir. Xətdən məqsəd tövhid sirrini bilərək son-

---

[848] Şerafeddin Rami, «Enisül-uşsak: klassik doğu edebiyatlarında sevgiliyle ilgili mazmunlar», s. 94.

suzluq dəryasından içən və naməhrəmin xəbərinin olmaması üçün sirləri örtmüş olan tövhid əhli zahiddir. Xaldan məqsəd təqlid aləmindən təhqiq aləminə yol tapan, öz nəfsini bilən və məşuqunu görən, içini təmir etmək üçün dışını xarab etmiş olan, dünyaya laqeyd abdaldır. Çeşmdən (gözdən) məqsəd baxışı əhədiyyət aləmində olan məst olmuş tövhid əhlidir. Əbrudan (qaşdan) məqsəd aləm mülkünün səltənət taxtı üzərində hökm verən tövhid əhli padşahdır… Dəhəndən (ağız) məqsəd vəlilik aləminin hakimi olan Qütbdür».[849]

**Hz. Nizami də şərh etdiyimiz beytdə «şərab» rəmzindən istifadə etmişdir. «O, haqqın hazırladığı şərabdan içdi». Şair bu rəmzlə merac gecəsində təqdim edilən nemətin dəyərini, gözəlliyini, Onun insanın ruhuna qida verdiyini, bu nemətin inanan insanı uca Allaha (c.c) təslimiyyətə yönəltdiyini ifadə etmişdir. Şair bu beytdə islam Peyğəmbərinin hər zaman ümmətini düşündüyünü, merac yolçuluğunun ümmətin xilası ilə bağlı olduğunu da ifadə etmişdir. «O, Haqqın hazırladığı şərabdan bir damcı da bizim ürəyimizə tökdü».**

Hz. Nizaminin «şərab» rəmzi ilə ifadə etdiyi məna ilahi elmdir. Merac gecəsi uca Allah (c.c) islam Peyğəmbərinə elm vermişdir. Bu elm insanı tövhid inancına bağlayır, bu elm nəfsə qalib gəlib uca Allahı (c.c) tanımaq, bu yolla da xoşbəxt olmaq elmidir.

---

[849] Şahidi İbrahim Dədə, «Gülşeni-Vahdat: yüz ile ilgili tasavvufi remzler», s. 55-56.

## İKİ YÜZ ALTMIŞ YEDDİNCİ ADDIM: ALLAHIN (c.c) ƏZƏL LÜTFÜ ONUN NƏFƏSİ İLƏ HƏMSÖHBƏT İDİ

لطف ازل با نفسش همنشين
رحمت حق نازكش او نازنين

***Onun (Allahın) əzəl lütfü Onun (Məhəmmədin) nəfəsi ilə həmsöhbət idi.***
***(Tanrı) Onun nazını çəkir, O (Məhəmməd) isə nazlanırdı.***[850]

Bu beyt uca Allahla (c.c) islam Peyğəmbərinin münasibətini açıqlayan, bu münasibətin sevgi və itaət təməli üzərində qurulduğunu göstərən beytlərdən biridir. Beytin ideeyası sevgi ifadə edən sözlər üzərində qurulmuşdur: «əzəl lütfü», «Peyğəmbərin nəfəsi ilə həmsöhbət olmaq», «naz çəkmək», «nazlanmaq».

«Lütf» ehsan, uğur deməkdir. Qulu uca Allahın (c.c) rəhmətinə yaxınlaşdıran hər şey lütfdür. Qulu günahlardan uzaqlaşdıran hər şey lütfdür. Uca Allahın (c.c) quluna olan yardımı, inamı və ehsanı Onun lütfüdür.

اللَّهُ لَطِيفٌ بِعِبَادِهِ يَرْزُقُ مَن يَشَاءُ وَهُوَ الْقَوِيُّ الْعَزِيزُ

(əş-Şura, 42/19)

«Allah Öz bəndələrinə çox lütfkardır, istədiyinə ruzi verər. O, yenilməz qüvvət sahibi, qüdrət sahibidir!»

Təsəvvüfdə «lütf əhli» anlayışı var. Onlara görə lütf deyilərkən sirrin bəqası, müşahidənin davamı və istiqamət dərəcəsində halın qərar tutması ilə bağlı uca Allahın (c.c) təyididir. Bu o dərəcəyə çatır ki, qul nəyi istəsə, uca Allah (c.c) onu verir, onun diləyi qəbul olunur. Onlar «lütf əhli»

---

[850] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

olanlardır. Sufi uca Allahın (c.c) lütfündən ümidini kəsməz. **Lütf əhli Şibli (r.a) belə deyir:** «Ey ilahi, səmanı boynuma boyunduruq, yer üzünü ayağıma qandal etsən, bütün aləmi qanımı içməyə susamış bir hala gətirsən, yenə də Sənin lütfündən ümidimi kəsmərəm?»[851]

**Lütf əhli Hucviri belə söyləyir:** «Mən Haqqın məni afətdən qoruyacağı və nəfsimin şərindən qurtaracağı bir halda olmaqdan başqa bir şey istəmirəm. Əgər Allah mənə lütf bəxş etsə, Onun qəhrini istəmərəm. Onun seçimi qarşısında bir seçimim yoxdur. Lütfün də xoş, qəhrin də xoş deyərəm. Uğur uca Allahın (c.c) lütfü ilədir, bizə Allah yetər. O nə gözəl bir yoldaşdır».[852]

Şair deyir ki, uca Allahın (c.c) əzəl lütfü Onun nəfəsi ilə həmsöhbət idi. Yəni islam Peyğəmbəri ilə bağlı hər şey, o sıradan merac şərəfi Onun yardımı ilə oldu. «Lütfü Onun nəfəsi ilə həmsöhbət idi», yəni O, bir an belə olsun uca Allahın (c.c) yardımından uzaq qalmadı, «Tanrı Onun nazını çəkir, O isə nazlanırdı». Naz çəkmək də, nazlanmaq da sevgi ilə bağlı anlayışlardır. O, uca Allahın (c.c) yardım və sevgisini merac nemətinin verildiyi anda bütün gücü ilə duyurdu. Uca Allahın (c.c) Ona verdiyi dəyəri açıq bir biçimdə görürdü.

## İKİ YÜZ ALTMIŞ SƏKKİZİNCİ ADDIM: DODAQLARINI ŞİRİN TƏBƏSSÜMLƏ BƏZƏDİ

لب به شکر خنده بیاراسته
امت خود را به دعا خواسته

***Dodaqlarını şirin təbəssümlə bəzəyərək,***
***O, tanrıdan öz ümmətinin (nicatını) dilədi.***[853]

---

851 «İslami kavramlar», göstərilən qaynaq, s. 464.
852 «Keşfül-Mahcub», göstərilən qaynaq, s. 492.
853 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

Hz. Nizami bu beytdə dualarının qəbul olunacağına inanan, ümmətini düşünən, onun xilaskarı olan, ona müjdə verməyə hazırlaşan hz. Məhəmmədi (s.a.s) təsvir etmişdir. Dodağındakı təbəssüm Ona olan inamla bağlıdır. O, şirin təbəssümlə ümmətinin nicatını istəyir. Peyğəmbər elçilik vəzifəsinə uyğun hərəkət edir.

يا أَيها النبِي إِنا أَرسلْنَاك شَاهداً ومبشراً ونَذيراً . وداعياً إِلَى الله بِإِذْنه وسراجاً منيراً

(Əhzab, 33/45-46)

«Ey Peyğəmbər! Həqiqətən, Biz səni (ümmətinə) bir şahid, bir müjdəçi və bir qorxudan olaraq göndərdik! (Biz səni) Allahın izni ilə Ona tərəf çağıran və nurlu bir çıraq olaraq göndərdik!»

## İKİ YÜZ ALTMIŞ DOQQUZUNCU ADDIM: ONUN HİMMƏTİ XƏZİNƏLƏRDƏN DAHA QÜDRƏTLİ OLDU

همتش از گنج توانگر شده
جمله مقصود میسر شده

***Onun himməti xəzinələrdən daha***
***qüdrətli (varlı) oldu,***
***Və O, məqsədlərinin hamısına nail oldu.***[854]

«Himmət» lütf, kərəm, ehsan, mənəvi güc deməkdir. «Himmət» insanı hədəfinə qovuşduran tükənməz mənəvi gücdür. Şair deyir ki, merac gecəsi uca Allah (c.c) islam Peyğəmbərinə elə bir mənəvi güc (sərvət, nemət) verdi ki, O, bütün xəzinələrdən daha varlı oldu. Şair bu mənəvi

[854] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

gücün çoxluğunu göstərmək üçün onu xəzinələrlə müqayisə etmişdir. Onun duaları qəbul olundu, Ona ümmətin xilas neməti verildi. «O, məqsədlərinin hamısına nail oldu», yəni uca Allahdan (c.c) nə istədisə, verildi. Ona görə şair deyir ki, O, bütün xəzinələrdən daha varlı oldu.

## İKİ YÜZ YETMİŞİNCİ ADDIM: ONUN ÜRƏYİ ALLAHIN FƏZİLƏTİ, NURU İLƏ DOLDU

دلش نور فضل الهی گرفت
یتیمی نگر تا چه شاهی گرفت

***Onun ürəyi Allahın fəziləti, nuru ilə doldu,***
***Bax bir yetim necə şahlığa layiq görüldü!***[855]

Hz. Nizami bu beytdə merac gecəsi islam Peyğəmbərinə böyük nemət verildiyini ifadə etmək üçün birinci misrada «fəzilət» və «nur» sözlərindən istifadə etmişdir. «Nur» işıq, aydınlıq, gerçəyi göstərən iç aydınlığıdır. Uca Allah (c.c) Qurani-Kərimdə buyurur:

الله نُور السماوات والْأرض مثَلُ نُوره كمشْكاة فيها مصباح الْمصباح في زجاجة الزجاجةُ كأَنها كوكب دري يوقَد من شَجرة مباركة زيتُونة لا شَرقية ولَا غَربِية يكاد زيتُها يضيء ولَو لَم تَمسسه نَار نور علَى نُورٍ يهدي الله لِنُوره من يشَاء ويضرِب الله الْأمثَالَ لِلناسِ والله بِكُل شَيء عليم

(ən-Nur, 24/35)

---

[855] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.

«Allah göylərin və yerin nurudur. Onun nuru içərisində çıraq olan bir qəndilə bənzər. O çıraq bir şüşənin içindədir. O şüşə isə sanki inciyə bənzər bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə olan mübarək zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa da, sanki, işıq saçır. O, nur üstünə nurdur. Allah dilədiyini öz nuruna qovuşdurur. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir!»

Böyük islam alimi Mevdudi «Allah göylərin və yerin nurudur…» ayəsini təfsir edərkən bunları yazır: «Göylər və yer birləşməsi Quranda çox zaman «kainat» mənasında istifadə edilir. Deməli, ayənin anlamı belədir: «Allah bütün kainatın nurudur». «Nur» özü görünən və əşyanı göstərən şeydir. İnsan zehni nuru bu mənası ilə düşünür. Nurun yoxluğu qaranlıq, görünməzlik və keçilməzlikdir. Bundan başqa, görünmə imkanının olduğu və əşya gözə göründüyü zaman insan nur (işıq) olduğunu deyir. Allaha bu təməl anlamı ilə «Nur» deyilmişdir. Yoxsa, Allah qorusun, saniyədə 186.000 mil sürətlə gedən və ağ təbəqə ilə göz sinirini hərəkətə gətirən işıq şüası Allah demək deyil. İşığın bu anlamının insan zehninin işıq dediyi anlamın gerçəyi ilə heç bir əlaqəsi yoxdur. İşıq sözü fiziki dünyada duyğularımıza xitab edən bütün işıqlar üçün istifadə edilir. İnsanın Allah üçün istifadə etdiyi bütün kəlmələr fiziki mənadan uzaq olan təməl anlamlardır. Məsələn, Allahla bağlı olaraq «görmə» sözündən istifadə etdiyimiz zaman bu heç zaman Allahın insanlar kimi gözü olduğu anlamında deyil. Eyni şəkildə Allah «eşidir», «tutur» dediyimiz zaman bu da Onun bizim kimi qulaqları ilə eşitdiyi, əlləri ilə tutduğu anlamında deyildir. Bu kəlmələr məcazi anlamda istifadə olunur, ancaq zəif ağlı olan bir adam, eşitmə və tutmanın bizim anladığımız dar mənadan kənar mümkün ola bilməyəcəyini düşünər. «Nur» sözünü işıqlı bir cismdən çıxan və ağ təbəqəyə toxunan fiziki işıq anlamında istifadə etmək də dar görüşün nə-

ticəsidir. Nur sözü Allahla bağlı dar və məhdud anlamı ilə deyil, ancaq mütləq mənada istifadə olunur. Yəni kainatda ancaq O, təzahürün, görünmənin, ortaya çıxmanın gerçək və əsl səbəbidir, əks halda, kainatda qaranlıqdan başqa heç bir şey olmaz. İşıq verən və başqa şeyləri işıqlandıran hər şey işığını Ondan alır, heç bir şeyin işığı özündən deyil.

«Nur» sözü bilgi (elm) anlamında da istifadə olunur. Allah bu anlamda kainatın nurudur. Çünki həqiqət və hidayətin elmi ancaq Ondan gəlir. Onun nuru olmasa, dünyada qaranlıq, cəhalət, pislik və şərdən başqa bir şey olmayacaq».[856]

«Fəzilət» də ərəbcə artan, çoxalan, üstünlük, nemət deməkdir. Merac gecəsi Onun ürəyi Allahın (c.c) fəziləti və nuru ilə doldu. Hz. Nizami «fəzilət» və «nur» sözünü elm mənasında işlətmişdir. Uca Allah (c.c) Ona ümməti, insanlığı xilas etmək elmi – Allahı (c.c) tanıtmaq elmi verdi. Bu elm bir nur kimi insanları cəhalət və qaranlığın zülmətindən qurtaracaq. Nizamiyə görə, uca Allahın (c.c) lütfü ilə bir yetim şahlığa layiq görüldü. Şairə görə, gerçək şahlıq nura, elmə sahib olmaqdır.

## İKİ YÜZ YETMİŞ BİRİNCİ ADDIM: ALLAHIN (c.c) YANINDAN İSTƏDİYİN KİMİ QAYITDIN

از قربت حضرت الهی
باز آمدی آنچنانکه خواهی

***İlahi həzrətlərinin yanından,***
***İstədiyin kimi də qayıtdın.***[857]

---

[856] Ebul-Ala Mevdudi, «Tefhimul-Kuran», c. III, s. 546-547.
[857] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

Hz. Nizami bir sıra beytlərində merac gecəsi islam Peyğəmbərinin bütün dualarının qəbul olunduğunu bildirmişdir: «Hər nə muradın idi, istədin», «İstədiklərin adına xas oldu», «Onun himməti xəzinələrdən daha varlı oldu», «O, məqsədlərinin hamısına nail oldu», «Onun xüsusi şərbətini içdi», «xüsusi xələt aldı», «xilas fərmanı aldı», «Allah Onun bütün istəklərini qəbul etdi». Bu deyimlərin hamısı uca Allahın (c.c) islam Peyğəmbərinə olan sevgisini göstərir, hz. Məhəmmədin (s.a.s) ümmətin xilaskarı olduğunu ifadə edir (O, uca Allahdan (c.c) ümmətin nicat (xilas) elmini istədi), Onun bir elçiyə layiq qarşılandığını və yola salındığını bədii biçimdə təqdim edir. «İstədiyin kimi qayıtdın» iki mənada başa düşülür: duaların qəbul olundu, merac yolçuluğu ürəyincə oldu.

## İKİ YÜZ YETMİŞ İKİNCİ ADDIM:
## ÜZÜNÜ BU EMALATXANAYA TUTDU

پشت قوی گشته از آن بارگاه
روی درآورد بدین کارگاه

***O, (Allahın) qəbulundan güclənərək,***
***Üzünü bu emalatxanaya (dünyaya) tutdu.***[858]

Hz. Nizami meracnamələrində islam Peyğəmbərinin bütün addımlarını, onunla bağlı olan bütün məsələləri təsvir və şərh etmişdir. Bu beytdə də islam Peyğəmbərinin geriyə - dünyaya dönüşü təsvir olunmuşdur. Biz şairin meracnamələrini şərh etməyə başlayarkən yazmışdıq ki, merac hadisəsi islam Peyğəmbərinin və Ona bağlı olan müsəlmanların ən çətin günlərində baş vermişdir. Bu dar gündə uca Allah

---

858 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 31.

(c.c) öz elçisini yanına dəvət etmiş, Ona elm, müjdə verərək gücləndirmiş, Ona güc, xilas, zəfər elmi, ölçüsü təqdim etmişdir. **Merac hadisəsinin mahiyyəti bu dünyanın işləri ilə bağlıdır. İslam ümmətini gücləndirmək, onları zəfərə qovuşduracaq ölçülər, təlimatlar vermək, islam düşüncə və mədəniyyətinin əsaslarını formalaşdırmaq bu mübarək gecənin başlıca hədəfləri sırasında yer tutur. Namaz elminə yiyələnmiş, bağışlanma müjdəsi almış, dünyanı və uca Allahı (c.c) doğru tanıma elminə sahib olmuş müsəlman güclü müsəlmandır. Namaz uca Allahı (c.c) doğru tanıma elmidir. İnsanın güc qaynağı da budur. Deməli, merac gecəsində uca Allah (c.c) islam ümmətinə tükənməz güc qaynağı vermişdir.**

Şair deyir ki, O, üzünü bu dünyaya tutdu. Yəni irəlidə böyük işlər var, dinlə cəhalətin mübarizəsi var. Ancaq cəhalətin məğlubiyyəti qaçılmazdır. Çünki merac gecəsində müsəlmanlara cəhalət üzərində qələbə çalmaq elmi verilmişdir. Bu dünya bu elmlə yenidən qurulmalıdır. Şair təsadüfən bu dünyaya emalatxana demir. Çünki emalatxana bir şeyin düzəldildiyi, təmir edildiyi yerdir. Şair deyir ki, hz. Məhəmməd (s.a.s) uca Allahdan (c.c) xilas fərmanı aldı və dünyaya yönəldi. Yəni dünyanı abad etmək, dünyanın uca Allahın (c.c) ölçüləri ilə idarə olunmasını təmin etmək, dünyanı uca Allahın (c.c) nuru ilə nurlandırmaq islam Peyğəmbərinin seçilmə, elçi olma səbəbidir.

## İKİ YÜZ YETMİŞ ÜÇÜNCÜ ADDIM: ALNINDA NAR GÜLÜ QAYITDI

گلزار شکفته از جبینت
توقیع کرم در آستینت

*Alnında nar gülü (ilahi nur),*
*Əlində kərəm fərmanı.*[859]

[859] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

Hz. Nizami merac nemətlərini açıqlayarkən ən çox istifadə etdiyi obrazlardan, anlayışlardan biri nurdur. Şairə görə, namaz bir nurdur, bağışlanma neməti bir nurdur. Bu ilahi nuru (elmi) şair ayrı-ayrı bədii biçimlərdə təqdim etmişdir. O, bu beytdə də nura «Onun alnında olan nar gülü» deyir. Nar uca Allahın (c.c) Qurani-Kərimdə adını çəkdiyi bərəkətli meyvələrdən biridir:

وهو الذي أنزلَ من السماء ماء فَأَخْرجنَا بِه نَباتَ كُل شَيء فَأَخْرجنَا
مِنْه خَضراً نخْرِج مِنْه حباً مترَاكباً ومن النخْلِ من طَلْعها قنْوان دانيةٌ
وجنات من أَعنَابٍ والزيتُون والرمان مشْتَبِهاً وغَير متَشَابِه انظُروا إِلى
ثَمرِه إِذَا أَثْمر وينْعه إِن في ذَلِكُم لآيات لقَومٍ يؤْمنُون

(əl-Ənam, 6/99)

«Göydən su (yağış) endirən Odur. Biz onunla hər bir bitkini yetişdirdik, yaşıl fidanlar göyərtdik, onlardan bir-birinə sarmaşmış (sünbül olmuş) dənələr çıxartdıq. Biz xurma ağacından, onun tumurcuğundan bir-birinə sarmaşmış salxımlar yetişdirdik. (Biz həmçinin) üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən **zeytun** və **nar** yetişdirdik. (Onlardan hər birinin) bar verdiyi vaxt meyvəsinə və onun yetişməsinə baxın. Şübhəsiz ki, bunda iman gətirən bir camaat üçün dəlillər vardır».

وهو الذي أنشأَ جنات معروشَات وغَير معروشَات والنخْلَ والزرع
مخْتَلفاً أُكُلُه والزيتُون والرمان متَشَابِهاً وغَير متَشَابِه كُلُواْ من ثَمرِه
إِذَا أَثْمر وآتُواْ حقه يوم حصاده ولاَ تُسرِفُواْ إِنه لاَ يحب الْمسرِفين

(əl-Ənam, 6/141)

«Yer üzünə sərilmiş və sərilməmiş bağ-bağatı, dadları müxtəlif xurmanı və taxılı, bir-birinə həm bənzəyən, həm

də bənzəməyən **zeytunu** və **narı** yaradan Odur. (Onların hər biri) bar verdiyi zaman barından yeyin, yığım günü haqqını ödəyin, ancaq israf etməyin. (Allah) israf edənləri sevməz!»

فيهما فَاكِهَةٌ وَنَخْلٌ ورمان

(ər-Rəhman, 55/68)

«Orada (o iki cənnətdə) növbənöv meyvələr, **xurma** və **nar** vardır».

Bu ayələrdən açıq görünür ki, uca Allah (c.c) üç nemətin – meyvənin adını yanaşı çəkmişdir: xurma, zeytun, nar. Bu meyvələrdə həm bərəkət var, həm də uca Allahın (c.c) qüdrət əlamətlərini daha tutarlı, açıq göstərir. Uca Allah (c.c) bizim diqqətimizi bu meyvələrin yetişmə tərəfinə yönəldir, «onların yetişməsinə baxın» buyurur. Gerçəkdən xurmanın, narın, zeytunun fitrəti fərqlidir. Bu, uca Allahın (c.c) qüdrət nişanəsidir. Narın gülü qırmızıdır, çox gözəldir, gözə nur verir, insanın ruhuna rahatlıq bəxş edir. Hz. Nizami deyir ki, islam Peyğəmbəri merac gecəsi alnında nar gülü geri qayıtdı. «Qırmızı nur» qeyri-adi nurdur. Merac gecəsinin və onun nemətinin nuru da qeyri-adidir.

**Şair qırmızı nur içində olan bir Peyğəmbər təsvir etmişdir. Bu nur Onun mübarək alnındadır. Namaz da səcdə ilə, alının yerə qoyulması ilə sıx bağlıdır. İtaətlə birbaşa bağlıdır. İnsan səcdə etdikcə, itaətlə uca Allahın (c.c) iradəsinə təslim olduqca nurlanır, alnında «nar çiçək açır», O, nurlandıqca bərəkətlənir, özünü və ətrafını qırmızı nura boyayır. Bu, uca Allaha (c.c) itaət nurudur. Müsəlman itaət nuru ilə nurlanmış insandır. O, elm nuru ilə cəhaləti məğlub etmək vəzifəsini yerinə yetirmək üçün yaradılmışdır.**

Şair deyir ki, Onun əlində kərəm fərmanı var. «Kərəm» uca Allahın (c.c) sifətlərindən biridir. Uca Allah (c.c)

bu sifəti ilə insanlara saysız-hesabsız nemət verər, cəza verməyə tələsməz, tövbə edəni bağışlayar.

يا أَيها الْإِنسان ما غَرك بِربك الْكَرِيمِ . الذي خَلَقَك فَسواك فَعدلَك .

في أَي صورة ما شَاء ركَّبك

(əl-İnfitar, 82/6-8)

«Ey (kafir) insan! Səni kərim olan Rəbbim barədə aldadan nədir? O Rəbbin ki, səni (yoxdan) yaratdı, düzəldib bir biçimə saldı. Sənə özü istədiyi surəti verdi».

Göründüyü kimi, «Kərim» sifəti həm də uca Allahın (c.c) bağışlaması ilə bağlıdır. Hz. Nizami də beytdə «nar gülü» (ilahi nur) deyərkən namazı, «kərəm fərmanı» deyərkən də başqa bir merac neməti olan bağışlanmanı nəzərdə tutmuşdur. Bu, uca Allahın (c.c) müjdəsidir, verdiyi sözüdür, ən ali hakim güc Odur və Onun fərmanı mütləq yerinə yetiriləcək. Misradakı «fərman» sözü uca Allahın (c.c) ali hakimiyyətini, Onun sözünün hökm olduğunu nəzərdə tutur.

## İKİ YÜZ YETMİŞ DÖRDÜNCÜ ADDIM: BAĞIŞLANMAQ BARATINI GƏTİRDİ

آورده برات رستگاران
از بهر چو ما گناهكاران

***Bizim kimi günahkarlar üçün,***
***Bağışlanmaq (əfv) baratını gətirdin.***[860]

Şair öncəki beytdə «kərəm fərmanı» adını verdiyi bağışlanma müjdəsini şərh etmişdir. Şair bu beytdə «kərəm fərmanı»nı «əfv baratı» adlandırır. «Barat» bəraət sözünün fonetik dəyişikliyə uğramış şəklidir. «Qurtuluş», «bir borc-

[860] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

dan, cəzadan, məsuliyyətdən qurtulmaq», «uzaq olmaq», «əlaqəni kəsmək» kimi mənaları var. Qurani-Kərimdə «bəraət» sözündən iki dəfə istifadə olunmuşdur.

أَكُفَّارُكُمْ خَيْرٌ مِنْ أُولَئِكُمْ أَمْ لَكُمْ بَرَاءَةٌ فِي الزُّبُرِ

(Qəmər, 54/43)

«(Ey Qureyş əhli) Sizin kafirlərin onlardan nəyi yaxşıdır? Yoxsa (əvvəlki ilahi) kitablarda sizin üçün bəraət (əzabdan qurtuluş hökmü) vardır?!»

**Dini ədəbiyyatda «bəraəti-əsliyyə», «bəraəti-zimmət», «bəraət gecəsi» anlayışları var. «Bəraəti-əsliyyə» şəxsin hüquqi və cəza məsuliyyətinin olmaması deməkdir. «Bəraət gecəsi» Şaban ayının on dördüncü gününü on beşinci gününə bağlayan gecədir. Bu gecəyə «rəhmət gecəsi» də deyilir. Yəni bu gecə qulların daha çox bağışlandığı gecədir. Hz. Nizami də deyir ki, hz. Məhəmməd (s.a.s) merac gecəsi bağışlanma baratını (bəraət fərmanını) gətirdi. «Nar gülü» namazın, «əfv baratı» da bağışlanma nemətinin simvoludur.**

## İKİ YÜZ YETMİŞ BEŞİNCİ ADDIM: ÖZ KÖLGƏSİNDƏ BİZƏ SIĞINACAQ VERİR

ما را چه محل که چون تو شاهی
در سایه خود کند پناهی

*Bizim nə dərdimiz var ki, Sənin kimi bir şah,*
*Öz kölgəsində (bizə sığınacaq) verir.*[861]

Hz. Nizami bu beytdə islam Peyğəmbərinin xilaskarlıq missiyasını, Onun hər zaman ümməti düşündüyü ideyasını önə çəkmişdir. Bu ideyanın təqdimi üçün şair bir neçə

---

[861] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

vasitədən istifadə etmişdir. Bu vasitələrdən biri «bizim nə dərdimiz var» ifadəsidir. Bu ifadəni insan bir şəxsə çox arxayın olanda, o şəxsin bütün problemləri həll etmək gücü olanda deyilir. Pənah, sığınacaq yerini yada salır. Yəni şairə görə, islam Peyğəmbəri ümmətin sığınacaq yeridir. Şairin istifadə etdiyi başqa bir vasitə misrada islam Peyğəmbərini «şah» adlandırmasıdır. Ümumiyyətlə, hz. Nizami islam Peyğəmbərinin xilaskarlıq missiyasını təqdim edərkən çox zaman Onu «sultan», «şah» adlandırır, Ona «cənub şahı» deyir, bildirir ki, cahan Onun tac və taxtıdır, Onun taxtı yer, tacı göydür.

Hz. Nizami şərh etdiyimiz beytdə də deyir ki, bizim dərdimiz yoxdur, çünki Sənin kimi şahımız var. Şah olmaq güc, imkan, hakimiyyət deməkdir. Bir insanın xilaskar olması üçün onun güc və imkanı olmalıdır. Şairin istifadə etdiyi başqa bir vasitə də «kölgə» sözünü beytin mətninə daxil etməsidir. İnsanlar güclü bir insanın himayəsində olduqlarını ifadə etmək üçün adətən belə deyirlər: «Kölgən başımızın üstündən əskik olmasın», «Onun kölgəsində yaşayırıq», yəni o, bizim qoruyucumuzdur. Hz. Nizami də deyir ki, bizim dərdimiz yoxdur, çünki hz. Məhəmməd (s.a.s) şahdır, O, kölgəsində bizə sığınacaq vermişdir.

## İKİ YÜZ YETMİŞ ALTINCI ADDIM: SƏN PARLAQ GÜNƏŞSƏN

ز آنجا که تو روشن آفتابی
بر ما نه شگفت اگر نتابی

***Sən parlaq günəş olduğundan,***
***Parlasan, bizim üçün qəribə görünməz.***[862]

[862] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

Hz. Nizami bu beytdə islam Peyğəmbərini günəşə bənzətmişdir. Günəş nur qaynağıdır. Bu planet uca Allahın (c.c) müəyyən etdiyi təyinata uyğun olaraq varlıqlara həyat verir. Onun nuru olmasa, həyat da olmaz. Şairə görə, islam Peyğəmbəri də insanlıq üçün nur qaynağıdır. O olmasa, Onun gətirdiyi dəyərlər olmasa, kainatın nizamı pozular, sağlam həyat sönər. Şair beytin ikinci misrasında ümmətin Peyğəmbərə olan sevgisini ifadə etmişdir. Şair Ona inanan insanların dilindən deyir ki, O, günəş kimi parlasa, bizim üçün qəribə olmaz. Çünki biz Onun parlaq bir günəş olduğuna inanırıq. Onun uca Allahdan (c.c) ümmətin «xilas fərmanı»nı alması qəribə deyil.

Çünki O, bir parlaq günəş kimi ancaq insanlıq üçün yaşayır. Günəş bütün kainata aid olduğu kimi, hz. Məhəmmədin (s.a.s) missiyası da bütün insanlığa aiddir.

## İKİ YÜZ YETMİŞ YEDDİNCİ ADDIM: YERİN PEYĞƏMBƏRLİK SƏMASIDIR

دریای مروتست رایت
خضرای نبوتست جایت

***Rəyin xeyirxahlıq dəryasıdır,***
***Yerin peyğəmbərlik səmasıdır.***[863]

Hz. Nizami bu beytdə sonsuzluğu, genişliyi ifadə edən iki söz işlətmişdir: «dərya» və «səma». Onun rəyi (münasibəti) xeyirxahlıq dəryasıdır. Dəryadakı nemətlər tükənməz. Hz. Məhəmmədin (s.a.s) rəyi, yəni gətirdiyi dəyərlər, təbliğ etdiyi inanc sistemi, ideyaları ancaq insanlığa xidmət edir. Bu dəyərlər dəryasının neməti ədalət və imandır. O ancaq insanların xilasını, azadlığını istər, idealı bu dəyərlərə

[863] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

bağlıdır. Onun yeri peyğəmbərlik səmasıdır. O, konkret bir yerə, bir topluma aid deyil, insanlığa aiddir. «Peyğəmbərlik səması», yəni ancaq peyğəmbərə aid bir məkan, nur, ədalət, sevgi məkanı.

## İKİ YÜZ YETMİŞ SƏKKİZİNCİ ADDIM: SƏN PEYĞƏMBƏRLİYİN QAPISINI BAĞLADIN

شد بی تو به خلق بر مروت
بر بسته‌تر از در نبوت

***Xeyirxahlıq qapısı sənsiz xalqa,***
***Peyğəmbərlik qapısından bərk bağlanmışdır.***[864]

Hz. Nizami bu beytin ideyasını iki anlayış üzərində qurmuşdur: xeyir, bərəkət islam dininə və bu dinin Peyğəmbəri hz. Məhəmmədə (s.a.s) bağlıdır. Hz. Məhəmməd (s.a.s) son peyğəmbərdir. Bilindiyi kimi, hz. Məhəmmədin (s.a.s) son peyğəmbər olduğu Qurani-Kərimdə təsbit olunmuşdur:

ما كَان محمد أَبا أَحد من رجالكم ولكن رسولَ الله وخَاتَم النبيين وكان الله بِكُل شَيء عليماً

(əl-Əhzab, 33/40)

«Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Ancaq O, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir».

Ancaq yolunu azmış bir qrup insanları uca Allahın (c.c) yolundan çıxarmaq üçün hz. Məhəmmədin (s.a.s) sonuncu peyğəmbər olmadığını irəli sürür. Onlar bu niyyətlə-

---

[864] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

rini gerçəkləşdirmək üçün ayədəki «xatəmün-nəbiyyin» ifadəsini «nəbilərin möhrü» şəklində tərcümə edirlər. Onlar demək istəyirlər ki, hz. Məhəmməddən (s.a.s) sonra peyğəmbərlər gələcək, ancaq onlar hz. Məhəmmədin (s.a.s) möhrünü daşıyacaqlar, yəni bir kimsənin peyğəmbərliyi Onun möhrünü daşımadıqca səhih olmayacaq. Onların başqa bir şərhi də belədir. «Xatəmün-nəbiyyin» deyimi «əfdalünəbiyyin» (nəbilərin ən fəzilətlisi) anlamındadır. Yəni hz. Məhəmmədin (s.a.s) elçiliyi ilə peyğəmbərlik kamala çatsa da, yenə peyğəmbərlər üçün qapı hər zaman açıqdır. Bu cür əsassız və insanları uca Allahın (c.c) yolundan uzaqlaşdırmaq məqsədi güdən fikirlərə qarşı böyük islam alimi Mevdudi elmi baxımdan əsaslandırılmış tutarlı cavab yazmışdır. Biz mövzunun önəmini nəzərə alaraq Onun məsələ ilə bağlı görüşlərinin icmalını təqdim edirik.

### «Xatəmün-nəbiyyin» deyiminin lüğət anlamı

Ərəb dilinə görə, «xatəm» möhür vurmaq, bağlamaq, bir işi bitirdikdən sonra azad (sərbəst) olmaq deməkdir. «Xatəm əl-əməl, fərəğa min əl-əməl» - o şəxs işi bitirdi, işdən azad oldu. «Xatəməl-ina» qazanın ağzını bağlayıb içinə bir şey girməsin, ya da içindən bir şey çıxmasın deyə, sanki möhürləndi deməkdir. **«Xatəməl-kitab»**, məktubu qatlayıb oxunmasın deyə, möhürlədi deməkdir. «**Xatəm ələl-Qəlb**», öyrəndiyi bir şeyi bir daha unutmamaq üçün qəlbə möhür vurdu deməkdir. «**Xitamu kulli məşrubun**» bir içkinin içildikdən sonra ağızda qalan dadı mənasını verir. «**Xatəmətü kulli şəyin**», bir şeyin aqibəti, sonu deməkdir. «**Xatəmi-Quran»** sözü də bu anlamdadır və bu mənada surələrin son ayələrinə «xəvatim» deyilir. Eyni şəkildə «xa-

təm-əl qövm» qəbilənin son fərdi anlamına uyğundur.[865] Alim yazır: «… Əgər Allah bir kimsəyə «xatəmun-nəbiyyin» demişsə, o şəxsdən sonra bir başqa peyğəmbərin gəlməsi imkansızdır. Çünki Allah qeybi bilir, insan bilməz. Deməli, Allahın bir kimsə üçün «xatəmun-nəbiyyin» deməsi ilə insanın bir kimsə üçün «xatəməş-suara», ya da «xatəmul-fukaha» deməsi eyni səviyyədə ola bilməz. Elə buna görə də bütün lüğət və təfsir alimləri «xatəmun-nəbiyyin» deyiminin «axirun-nəbiyyin» anlamına gəldiyini qəbul etmişlər. Ərəbcə istifadə və sözlük anlamı baxımından «xatəm» kəlməsinin məktubları yola salmaq üçün istifadə edilən poçt möhrü anlamına deyil, zərfin nə içinə bir şey girsin, nə də içindən bir şey çıxsın deyə, üzərinə vurulmuş möhür anlamına gəldiyi bilinir».[866]

### Hz. Məhəmmədin (s.a.s) peyğəmbərliyin sonu olması ilə bağlı mübarək hədislər

Hz. Məhəmmədin (s.a.s) son peyğəmbər olması ilə bağlı doğruluğu təsbit olunmuş hədislərin bir neçəsini oxuyaq:

Rəsulullah (s.a.s) buyurdu: «İsrail oğullarına nəbiləri başçılıq edərdi. Bir peyğəmbər vəfat edəndə onun yerinə bir başqası gələrdi. Ancaq məndən sonra nəbi yoxdur, yalnız xəlifələr var».[867]

Hz. Məhəmməd (s.a.s) buyurdu: «Mənim, məndən öncə gəlmiş peyğəmbərlərlə müqayisədə durumum bir misalla anlaşıla bilər. Bir adam böyük bir bina tikib onu gözəl bəzədi, ancaq bir köşədə bir kərpiclik boş yer saxladı. Adamlar bina-

---

[865] «Lisanul-Arab», Kamus (lüğət).
[866] Mevdudi, «Tefhimul-Kuran», göstərilən qaynaq, s. 469.
[867] Buhari, «Kitabul-Menakib».

nın ətrafında dolaşır, bu binanın gözəlliyinə heyran olur, ancaq bunu söyləməkdən özlərini saxlaya bilmirdilər, niyə bu kərpicin yeri boşdur. Bax, mən o kərpicəm və peyğəmbərlərin sonuncusuyam. (Yəni peyğəmbərlik binası mənim gəlişimlə tamamlanmışdır. İndi bir başqa peyğəmbərin doldura biləcəyi hər hansı bir boşluq yoxdur)».[868]

**Hz. Məhəmməd (s.a.s) belə buyurdu: «Mən başqa peyğəmbərlərdən altı əlamətlə seçilirəm: mənə gözəl danışmaq bacarığı verildi, böyük zəfərlərə çatdırıldım, qənimət mənə halal edildi, yer üzü mənə məscid və təmizlənmə vasitəsi edildi, yəni mənim şəriətimə görə, müsəlman sadəcə özəl bir ibadətxanada deyil, yer üzünün hər hansı bir yerində namazını qıla bilər, əgər dəstəmaz üçün su tapa bilməsə, təyəmmüm edə bilər, torpaqla təmizlənər», mən bütün dünyaya peyğəmbər olaraq göndərildim, mənimlə peyğəmbərlik vəzifəsi sona çatdı».[869]**

Rəsulullah (s.a.s) belə buyurdu: «Risalət və nübüvvət sona çatmışdır. Məndən sonra nə bir rəsul, nə də bir nəbi gəlməyəcək».[870]

Hz. Məhəmməd (s.a.s) belə buyurdu: «Mən Məhəmmədəm, mən Əhmədəm, mən məhvediciyəm, küfr mənimlə məhv edilmişdir. Mən toplayıcıyam. Məndən sonra insanlar məhşərdə toplanacaqlar. (Yəni məndən sonra qiyamət gəlir). Mən aqibəm, yəni məndən sonra peyğəmbər gəlməyəcək». [871]

Hz. Məhəmməd (s.a.s) buyurmuşdur: «Allahın göndərdiyi elə bir peyğəmbər yoxdur ki, qövmünü Dəccalın gəlişi ilə bağlı xəbərdar etməmiş olsun. (Ancaq Dəccal o peyğəmbərlərin zamanında gəlməmişdir). İndi mən pey-

---

[868] Buhari, «Kitabul-Menakib».
[869] Müslim, «Tirmizi», İbn Macə.
[870] Tirmizi, «Müsnədi-Əhməd».
[871] Buhari, Müslim, Tirmizi, «Muvatta», «əl-Müstədrək».

ğəmbərlərin sonuncusuyam və siz də son ümmətsiniz. Deməli, o, sizin aranızda ortaya çıxacaq».[872]

Hz. Məhəmməd (s.a.s) buyurdu: «Məndən sonra peyğəmbərlik yoxdur. Ancaq gələcəyə bağlı müjdələr var. Soruşuldu: «Nədir o müjdələr, ey Allahın elçisi?». Belə cavab verdi: «Doğru yuxu», ya da belə dedi: «Haqq yuxu (yəni artıq vəhy gəlməyəcək, olsa-olsa bir şəxs sadiq bir yuxu şəklində işarə edə biləcək)».[873]

Rəsulullah (s.a.s) buyurdu: «Əgər məndən sonra peyğəmbər gələcək olsaydı, Ömər bin əl Xəttab olardı».[874]

Rəsulullah (s.a.s) hz. Əliyə (r.a) belə buyurdu: «Sən mənə Musaya nisbətlə Harun kimisən. Ancaq məndən sonra peyğəmbər yoxdur».[875]

Rəsulullah (s.a.s) belə buyurdu: «Ümmətin içindən zühur edəcək otuz yalançıdan hər biri Peyğəmbər olduğunu iddia edəcək, ancaq mən son peyğəmbərəm. Məndən sonra peyğəmbər yoxdur».[876]

Hz. Məhəmməd (s.a.s) buyurdu: «Bundan sonra peyğəmbər yoxdur. Ümmətimdən sonra (başqa bir peyğəmbərin) ümməti də yoxdur».[877]

Uca Allahın (c.c) elçisi buyurdu: «Mən son peyğəmbərəm. Məscidim də son məsciddir».[878]

## Hz. Məhəmmədin (s.a.s) son peyğəmbər olması ilə bağlı səhabənin vahid fikri

Hz. Məhəmmədin (s.a.s) ölümündən sonra Onun səhabələri peyğəmbərlik iddiasında olanlarla, ya da bu iddianı

[872] İbn Macə.
[873] Əbu Davud, Nəsai.
[874] Tirmizi.
[875] Buhari, Müslim.
[876] Əbu Davud.
[877] Beyhaki, «Kitabul-hacc».
[878] Müslim, «Kitabul-hacc».

qəbul edənlərlə bir cəbhədə savaşmışlar. Məsələn, Müseyləmətül-Kəzzab hələ islam Peyğəmbərinin sağlığında Ona məktub yazmışdı. O, hz. Məhəmmədin (s.a.s) peyğəmbərliyini inkar etmirdi, ancaq özünün də peyğəmbərlik vəzifəsində Ona ortaq olduğunu iddia edirdi. Səhabə ona qarşı döyüşdü və onu öldürdü.

## Hz. Məhəmmədin (s.a.s) son peyğəmbər olması ilə bağlı islam alimlərinin vahid fikri

Hicrətdən sonrakı ilk əsrdən bu günədək yaşamış olan bütün islam alimləri hz. Məhəmməddən (s.a.s) sonra peyğəmbər olmayacağını, belə bir iddia irəli sürənin, ya da bu iddianı qəbul edənin kafir olacağını, onun islamdan çıxarılmasının zəruri olduğunu bildirmişlər. Bu məsələdə heç bir fikir ayrılığı yoxdur.

Əbu Hənifə dönəmində bir şəxs peyğəmbər olduğunu iddia etdi və belə dedi: «Mənə icazə verin, peyğəmbərliyimin dəlillərini göstərim. İmam bu hökmü verdi: «Bir kimsədən öz peyğəmbərliyinə dair dəlil istəyən bu iddiada olan kimi kafir olar. Çünki Allah rəsulu belə buyurmuşdur: «Məndən sonra peyğəmbər yoxdur».[879]

Əllamə İbn Cərir ət-Təbəri Quran təfsirində yazır: «Hz. Məhəmməd (s.a.s) peyğəmbərlik silsiləsini tamamlamış və onu möhürləmişdir. İndi bu qapı qiyamətədək kimsəyə açılmayacaq».[880]

İmam Tahavi yazır: «Onlara görə (İmam Əbu Hənifə, İmam Əbu Yusuf, İmam Məhəmməd), hz. Məhəmməd (s.a.s) Allahın seçilmiş qulu, rəsulu və sevimli nəbisidir. O, peyğəmbərlərin sonuncusudur. Vəlilərin imamı, nəbilərin

---

[879] İbn Əhməd əl-Məkki, c. I, s. 161.
[880] «Təfsiri-İbn Cərir», c. XXII, s. 12.

rəisi və Rəbbinin sevgilisidir. Ondan sonra hər hansı peyğəmbərlik iddiası dəlalətdir və nəfsin şəhvətlərinə tapınmaqdır».[881]

Əllamə İbn Hazm Əndülüsi bunları yazır: «Bu qətidir ki, Rəsulullahın ölümündən sonra vəhy kəsilmişdir. Belə olmasının səbəbi də vəhyin Rəsuldan başqasına gəlməməsidir. O, birinin atası deyil, ancaq Allah rəsulu və peyğəmbərlərin sonuncusudur».[882]

İmam Qazali yazır: «Rəsulullah Məhəmməddən (s.a.s) sonra heç bir peyğəmbərin gəlməyəcəyinə dair islam ümməti arasında tam bir icma var… Bütün ümmət müttəfiqdir ki, Rəsulullah «la nəbiyyə bədi» sözləri ilə özündən sonra nə bir rəsul, nə də bir nəbi gəlməcəyindən başqa bir şey nəzərdə tutmamışdır. Bu sözü başqa cür yozmaq cəfəngiyatdır və belə bir şey yazmaq sapıqlıq olar. Bundan başqa, ümmət ittifaq etmişdir ki, o sözün anlamı başqa bir yoruma açıq qapı saxlamayacaq dərəcədə açıqdır. Bunu inkar edən ümmətin icmasını inkar edər».[883]

Muhyis-Sünnə Bağəvi yazır: «Allah, Rəsulullah ilə peyğəmbərlik qapısını bağladı. Çünki O, nəbilərin sonuncusudur… İbn Abbas demişdir ki, mütləq qadir olan Allah bildirmişdir ki, ondan sonra peyğəmbər gəlməyəcək».[884]

Əllamə Zəməxşəri yazır: «Əgər qiyamətə yaxın günlərdə İsanın (s.a.s) yer üzünə enəcəyi inancı varkən Rəsulullah necə son peyğəmbər ola bilər?» - desən, deyərəm: «Rəsulullah özündən sonra heç bir kimsənin peyğəmbər olaraq göndərilməyəcəyi anlamında son peyğəmbərdir. İsaya (s.a.s) gəlincə O, Rəsulullahın zuhurundan öncə göndərilmiş peyğəmbərlərdən biridir və yenidən gələndə hz.

---

[881] «Şərh ət-Tahaviyyə», Darul maarif, Misir, s. 15,87, 96, 97, 100, 102.
[882] «Əl-Muhalla», c. I, s. 26.
[883] «El-iqtisad fil-itikaad», Misir, s. 114.
[884] «Məallim-ət Tənzil», c. III, s. 158.

Məhəmmədin (s.a.s) şəriətinə tabe olacaq və namazını ümmətin başqa fərdləri kimi qibləyə (Kəbəyə) yönələrək qılacaq».[885]

Qazi İyaz yazır: «Özünün peyğəmbər olduğunu iddia edən, ya da peyğəmbərliyin iqtibas edilə biləcəyini və peyğəmbərlik rütbəsinə bəzi filosofların və sufi deyilən kimsələrin iddia etdikləri kimi qəlb təmizliyi ilə çata biləcəyini iddia edən, peyğəmbərlik iddiasında olmamaqla birlikdə vəhy aldığını irəli sürən kimsə – bütün bu kimsələr kafirdir və onlar Rəsulullahı inkar edirlər. Çünki O, bizə son peyğəmbər olduğunu və özündən sonra peyğəmbər gəlməyəcəyini bildirmişdir. O, peyğəmbərliyi tamamladığına və bütün insanlığa göndərildiyinə dair xəbərləri Allahdan gətirmişdir. Bütün ümmət bu sözlərin zahiri mənasından başqa, bir mənaya sahib olmadığında yekdildir. Fərqli bir təfsirə, ya da özəl bir mənaya yozmağa imkan yoxdur. Dəməli, peyğəmbərlik iddiasında olanların həm nəqlə, həm də icmaya görə kafir olduğu aydındır, bu məsələdə şübhəyə yer yoxdur».[886]

Böyük islam alimlərindən Əllamə Şəhristani,[887] İmam Razi,[888] Əllamə Beydavi,[889] Əllamə Hafizüd-din Nəsəfi,[890] Əllamə Əlaəddin Bağdadi,[891] Əllamə ibn Kəsir,[892] Əllamə Cəlaləddin Suyuti,[893] Əllamə ibn Nucaym,[894] Molla Aliyyül

---

885 «Kəşşaf», c. II, s. 215.
886«Şifa», c. II, s. 270, 271.
887 «Əl-miləl vən-Nihal», c. III, s. 249.
888 «Təfsiri-Kəbir», c. VI, s. 581.
889 «Ənvar ət-Tənzil», c. I, s. 164.
890 «Mədarik ət-Tənzil», c. 471.
891 «Təfsir», s. 471, 472.
892 «Təfsir», c. III, s. 493, 494.
893 «Cəlaleyn», s. 768.
894 «Kitab əl-Əşbah vən-Nəzair», s. 179.

Kari,[895] Şeyx İsmail Hakkı,[896] Əllamə Sevkani,[897] Əllamə Alusi[898] də hz. Məhəmmədin (s.a.s) son peyğəmbər olduğunu, Ondan sonra peyğəmbər gəlməyəcəyini yazmışlar.

### Son Peyğəmbər və bizim etiqadımız

Peyğəmbərlik çox incə bir məsələdir. Qurani-Kərimə görə, peyğəmbərliyi qəbul, ya da rədd etmək bir kimsənin müsəlman olub-olmadığını müəyyən edən təməl əqidələrdən biridir. Bu məsələ ilə bağlı böyük islam alimi Mevdudi yazır: «… Belə çox önəmli bir məsələdə uca Allahın (c.c) hər hansı bir yanlışlıq etdiyini düşünmək qeyri-mümkündür. Əgər hz. Məhəmməddən (s.a.s) sonra hər hansı bir peyğəmbər göndəriləcək olsaydı, Allah bunu Quranda açıqca bildirər, peyğəmbəri vasitəsi ilə bunu ümmətə elan edər və hz. Məhəmməd (s.a.s) də Onun ardınca gələnlərə Ondan sonra gələcək peyğəmbərə iman etməyi bildirərdi: Məgər Allah və Rəsulunun bizim iman və etiqadımıza qərəzi var? Axı peyğəmbərlik qapısı açıq olsaydı, biz də Ondan sonrakı peyğəmbərə inanmasaydıq, onda kafir olardıq…».[899]

### Yeni bir Peyğəmbərə ehtiyac varmı?

Peyğəmbərliyi ibadətlə, saleh əməllərlə qazanmaq mümkün deyil. Peyğəmbərlik xidmətə görə verilən mükafat da deyil. Peyğəmbər uca Allahın (c.c) bəlli bir missiyanı (ehtiyacı) gerçəkləşdirmək üçün seçdiyi (bu hüquq ancaq Ona aiddir) insandır. Peyğəmbərlərin göndərilməsinin sə-

---

895 «Şərhi-Fiqhi-Əkbər», s. 202.
896 «Ruhul-Bəyan», c. 18, s. 188.
897 «Fəthül-Kadir», c. IV, s. 275.
898 «Ruhul-məani», c. 18, s. 32.
899 Mevdudi, «Tefhimul-Kuran», c. IV, s. 479.

bəbi ehtiyacdır. Qurani-Kərimə görə, bu ehtiyaclara uyğun olaraq peyğəmbərlər göndərilmişdir:

– Özünə hələ bir peyğəmbər gəlməmiş, başqa qövmlərə çatmış ilahi mesajı da almamış qövmlər peyğəmbərə möhtac olmuşlar.

– Öncəki peyğəmbərin təlimatı unudulmuş, ya da təhrif edilmişdir.

– Xalq öncəki peyğəmbərin təlimatını tam almamışdır. Təlimatı tamamlamaq üçün başqa peyğəmbərlərə ehtiyac olmuşdur.

– Vəzifəsini yerinə yetirərkən bir peyğəmbərin başqa bir peyğəmbərə ehtiyacı olmuşdur.

Bu məsələləri şərh edən Mevdudi yazır: «İndi bu durumlardan heç birinin hz. Məhəmmədin (s.a.s) gəlişindən sonra ortaya çıxmadığı aydındır. Quran hz. Məhəmmədin (s.a.s) bütün insanlığa hidayət üçün göndərildiyini buyurur. Dünya mədəniyyət tarixi də Onun gəlişindən bəri ortaya çıxan şərtləri, mesajın bir qövmə çatdığını və yayılmağa davam etmək gücündə olduğunu bizə söyləyir. Yəni ayrı-ayrı qövmlərə göndərilmək üçün peyğəmbərlərə ehtiyac yoxdur. Quran ilə sabitdir, bütün hədis və siyər kitabları da təsdiq edir ki, hz. Məhəmmədin (s.a.s) təlimatı orijinal şəkildə qorunmuşdur, heç bir təhrif yoxdur. Gətirdiyi kitabın hər hərf və hecası olduğu kimi qalmış, qiyamətədək də dəyişmədən qalacaq. Hz. Məhəmmədin (s.a.s) söz və davranışla göstərdiyi yol, verdiyi örnək, ən kiçik ayrıntısınadək qeyd edilmişdir və əlimizdədir. Bu nemət elə saf və orijinaldır ki, oxuyanda onu yaşamış kimi olursan… Quran bəyan edir ki, islam dini hz. Məhəmmədlə (s.a.s) tamamlanmışdır. Deməli, dinin tamamlanması adlı ehtiyac yoxdur və yeni bir peyğəmbər gəlməyəcək. Yardımçı bir peyğəmbərə ehtiyac olsaydı, hz. Məhəmmədin (s.a.s) zamanında gələrdi….İndi hz. Məhəmməddən (s.a.s) başqa bir peyğəmbərin gəlməsini

ehtiyaca çevirəcək hal varmı? Əgər ümmət pozulmuşdur, onun islahı üçün bir peyğəmbərə ehtiyac var desəniz, biz deyərik ki, dünyada sırf islah üçün heç bir peyğəmbər göndərilməmişdir. Bir peyğəmbər ilahi vəhy ona endirilsin deyə göndərilir. İlahi vəhyə isə ya yeni bir mesaj göndərmək, ya da onu təhrif və bulanıqlıqdan arındırmaq üçün ehtiyac duyulur. İndi Quran və hz. Məhəmmədin (s.a.s) sünnəsi olduğu kimi qorunur, din tamamlanmışdır, deməli yeni ilahi vəhyə ehtiyac yoxdur. İslah etmək üçün isə islahatçılara ehtiyac var, peyğəmbərə yox…».[900]

Hz. Nizami də eyni görüşə sahibdir və ona görə, hz. Məhəmməd (s.a.s) son peyğəmbərdir, Onunla peyğəmbərlik qapısı bərk bağlanmışdır. Şairə görə, xeyir, bərəkət, insanlıq kimi dəyərlər də Onun adına bağlıdır. Bu dəyərlərin qapısını Onun adı ilə açmaq olar. Yəni ancaq uca Allahı tanıyan, hz. Məhəmmədin (s.a.s) yolu ilə gedən insanlar xeyirxahlıq qapısını aça bilərlər. Din bərəkət, ədalət, xeyirxahlıq deməkdir.

## İKİ YÜZ YETMİŞ DOQQUZUNCU ADDIM: SƏNİN QƏDƏMİNDƏN BOYUN QAÇIRANLARIN DÖVLƏTİNƏ QƏLƏM ÇƏKİLMİŞ

هر كه از قدم تو سركشيده
دولت قلميش در كشيده

***Kim ki sənin qədəmindən boyun qaçırmış,***
***Onun dövlətinə qələm çəkilmiş.***[901]

Hz. Nizami bu beytdə islam Peyğəmbərinə olan ehtiyacı dilə gətirmişdir. Şair öncə deyir ki, O, bizə ilahi nur

[900] Mevdudi, «Tefhimul-Kuran», s. 480-481.
[901] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

(«nar gülü»), «kərəm fərmanı» gətirdi, ümmətin günahkarları üçün dua etdi, uca Allahdan (c.c) əfv baratı aldı, O, bizim şahımız, pənahımız, sığınacaq yerimizdir, O, parlaq günəşdir, Onun rəyi xeyirxahlıq dəryasıdır, yeri peyğəmbərlik səmasıdır, xeyirxahlıq qapısı onun adı ilə açılır. Daha sonra şair hz. Məhəmmədin (s.a.s) yolundan imtinanın faciəsini göstərmişdir. Beytin birinci misrasındakı «Sənin qədəmindən boyun qaçırmaq» ifadəsi Onun ardınca getməmək, Ona inanmamaq, Onu inkar etmək mənasındadır. Onun dinindən imtina etməyin sonu faciədir. Şair bu faciəni «dövlətinə qələm çəkilmək» ifadəsi ilə təqdim etmişdir. Bir şeyə qələm çəkmək onu yox saymaq, onun yolunu azmış olduğunu təsdiq etmək, onu yaxşıların siyahısından çıxarmaq deməkdir. Şairə görə, hz. Məhəmmədin (s.a.s) yolundan imtina edənin bərəkəti olmaz, o, «dövlət»dən (xeyirdən, bərəkətdən) məhrum olmuşdur, xeyirxahlığın qapısı ona bağlanmışdır.

## İKİ YÜZ SƏKSƏNİNCİ ADDIM: SƏNİN VƏFANA BEL BAĞLAYAN ƏBƏDİYYƏT SEYRANGAHINDA ƏYLƏŞMİŞDİR

وان کو کمر وفات بسته
بر منظره ابد نشسته

*Hər kəs ki sənin vəfana bel bağlamış,*
*Əbədiyyət seyrangahında əyləşmişdir.*[902]

Hz. Nizami bu beytdə də islam Peyğəmbərinə olan ehtiyacı şərh etmişdir. Şair beytin ideyasını hz. Məhəmmədin (s.a.s) vəfası anlayışı ilə açıqlamışdır. O həm uca Allaha (c.c) vəfalı oldu, Onun buyruqlarına tam əməl etdi, həm də insanlarla münasibətində vəfalı oldu, əhdinə sadiq qaldı. Hz. Məhəmmədin (s.a.s) əldə etdiyi dərəcələrdə Onun uca

[902] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

Allahın (c.c) və insanların əmanətinə vəfa duyğusu ilə yanaşmasının böyük yeri var. O, vəfa nümunəsi idi. Verdiyi sözə əməl edərdi, vədindən dönməzdi, Ona və səhabələrinə kömək edənləri unutmazdı, tez-tez dostlarının vəziyyətini soruşardı, vəfat etmiş yaxınlarını yad edərdi, O, müsəlmanlara vəfalı olmağı tövsiyə edərdi.

Hz. Nizami ümmətin fərdlərini hz. Məhəmmədə (s.a.s) vəfalı olmağa çağırır. Yəni ümmət Qurani-Kərimə və mübarək elçiyə vəfa duyğusu ilə yanaşmalıdır, bu iki böyük neməti qorumalı, sevməli, öyrənməli, əməl etməli və təbliğ etməlidir. İslam ümmətinin gücü, inkişafı, azadlığı bu iki əvəzsiz nemətə vəfa duyğusu ilə yanaşmağa bağlıdır. Bu iki nemətdən imtina ediləndə islam ümmətinin çöküşü başlanır, ümmət duyğusu zəifləyir, köləlik qapısı açılır, yadların siyasi, iqtisadi, mədəni işğalı gerçəkləşir.

Hz. Məhəmməd (s.a.s) vida xütbəsində də müsəlmanlara iki əmanəti qorumağı buyurmuşdur: «… Ey möminlər! Sizə iki əmanət verirəm. Onlara sıx-sıx sarılın. Belə olsa, heç vaxt yolunuzu azmazsınız. O əmanətlər Allahın kitabı olan Qurani-Kərim və Peyğəmbərin (s.a.s) sünnəsidir…».[903]

Vəfalı olmaq əziz Peyğəmbərimizin əxlaq dəyərləri sırasında önəmli yer tutur. Onun əxlaqını Qurani-Kərim öymüşdür:

وإنك لعلى خُلُق عظيم

(əl-Qələm, 68/4)

«Şübhəsiz ki, sən böyük əxlaq üzərindəsən!»

Hz. Məhəmməd (s.a.s) bir mübarək hədisində Quran ayəsinə işarə edərək buyurur: «Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim».[904]

---

903 Ömər Aslan, «Minberden nasihatlar», Bakı, 2008, s. 9.
904 Ömər Aslan, «Minberden nasihatlar», Bakı, 2008, s. 9.

Hz. Aişə (r.a) ondan islam Peyğəmbərinin əxlaqını soruşana belə cavab vermişdir: «Siz Quran oxumursunuzmu? Onun əxlaqı Qurandır».

O, gülərüzlü, sevimli, şəfqətli, mərhəmətli, incə ruhlu idi. O, insanlar arasında fərq qoymazdı, verdiyi sözü vaxtında yerinə yetirərdi, zarafatla olsa belə, yalan söyləməzdi. O, insanlar arasında «Məhəmmədül-Əmin» adını qazanmışdı. O, bir kimsənin Onun üçün ayağa qalxmasını istəməzdi, məclisdə harada boş yer olsa, orada oturardı. Onun həyatı sistemli idi, hər şeyin vaxtı bəlli idi.

Hz. Nizami deyir ki, kim Onun vəfasına bel bağlasa, yəni Ona inansa, Onun dediklərinin haqq olduğuna iman etsə, əbədiyyət seyrangahında əyləşəcək. Yəni bu dünyada və axirətdə xoşbəxt olacaq, uca Allahın (c.c) rizasını qazanacaq, cənnət (əbədiyyət) ona halal olacaq. Əslində, şair insanların doğru həyat ölçüsünü, xoşbəxt olmaq düsturunu təqdim etmişdir: Qurana və Peyğəmbərə vəfa duyğusu ilə bağlan, uca Allahın (c.c) rəhmətini qazan.

## İKİ YÜZ SƏKSƏN BİRİNCİ ADDIM: İRƏM BAĞI SƏNİN NƏSİMİNİN ƏTRİNƏ BAC VERİR

باغ ارم از امید و بیمت
جزیت ده نافه نسیمت

*İrəm bağı sənə olan ümid və qorxusundan,*
*Sənin nəsiminin ətrinə bac verir.*[905]

Hz. Nizami bu beytin ideyasını təqdim edərkən gözəllik anlayışı yaradan sözlərdən istifadə etmişdir: İrəm bağı, nəsim, ətir. İrəm bağını əfsanəvi zalım Şəddad saldırıb. Bu

[905] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

cənnətə bənzəyən bağ idi. Şəddad bütün canlılara, cin və divlərə hakim olduğu üçün o, yer üzündə cənnət və cəhənnəmi əyani olaraq yaratmaq istəyir. Buna görə də İrəm bağını saldırır, ancaq o, bu bağa girmək istərkən ölür. Hz. Nizami əsərlərində tez-tez İrəm bağının adını çəkir, bu bağın gözəlliklərini öyür:

***… Qırqovul, turac, kəklik və tazərvdən,***
***Sərv, söyüd kölgəsini boş görməzsən.***

***Bu yerlər asudəliyə meyil edərlər,***
***Torpağı kədər, qayğıdan silinmişdir.***

***İl boyu güllər yaşıl budaqlı,***
***Həmişə bu yurd naz və nemətlə doludur.***

***Bu iqlimin quşları buraya yem üçün gələr,***
***Əgər sənə quş südü lazımdırsa, burada tapılar.***

***Torpağını qızıl suyla yoğurmuşlar.***
***Elə bil ki, hər yanda zəfəran əkmişlər.***

***Bu torpağın yaşıllığında gəzən,***
***Şadlıqdan savayı özgə xəyala uğramaz…***[906]

Ancaq şairə göə, İrəm bağının gözəlliyi Peyğəmbərin (s.a.s) nəsiminin ətrinə bac verir. Yəni Peyğəmbərin nəsimi daha ətirlidir. İrəm bağı Peyğəmbərin nəsimindən həm qorxur, həm də ona ümid edir. Çünki İrəm bağı Peyğəmbərin nəsiminin ətri ilə (bu külək Peyğəmbərdən aldığı ətri yayır) ətirlənir. Əgər bu Peyğəmbər ətirli külək İrəm bağına doğru

---

[906] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 199.

əsməsə, onun ətri olmaz. Ona görə də İrəm bağı Peyğəmbər ətirli nəsimə bac verir ki, ətrini ondan əskik etməsin.

## İKİ YÜZ SƏKSƏN İKİNCİ ADDIM: MƏRİFƏT CAMININ DİBİNDƏ BİR DAMLA DA QALMADI

جامش اقبال و معرفت ساقی
هیچ باقی نماند در باقی

***Onun camı-iqbal, saqisi isə mərifət oldu,***
***Və mərifət camının dibində bir damla da qalmadı.***[907]

Hz. Nizami bu beytin ideyasını təqdim edərkən rəmzlərdən çox istifadə etmişdir. «Cam» farscadır, qədəh mənasındadır. Ancaq təsəvvüf terminologiyasında uca Allahın (c.c) dostunun qəlbinin rəmzi camdır:

**Yunus Əmrə:**
***Küfr ü iman ikisi bir oldu çün,***
***Saki sun camı bu humarumu yaz.***
(Küfr ilə iman ikisi bir oldu. Saqi, cam ver və bu məstliyimdən yaz)

**Bayburdlu Zihni:**
***Vardım ki yurdumdan ayak köçürmüş,***
***Yavru gitmiş, ıssız kalmış otağı,***

***Camlar şikəst olmuş, meylər tökülmüş,***
***Saqilər məclisdən çəkmiş ayağı.***

---

[907] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 24.

Təsəvvüf terminologiyasında «cam» rəmzi ilə bağlı bir sıra başqa deyimlər də var: «cami-giti-nüma» - aləmi göstərən qədəh, yəni arif insanın qəlbi, «cami-giti-əfruz» - aləmi işıqlandıran qədəh, yəni arif insanın qəlbi, «cami-mey» - şərab qədəhi, təsəvvüfdə mərifət badəsi və ilahi nurların təcəlliləri ilə dolub daşan pirin qəlbi, «cami-nisti» - yoxluq qədəhi, təsəvvüfdə isə əsas əlaməti yoxluq olan ay-ani-sabitədir.[908]

«Saqi» sözü də təsəvvüf terminologiyasında çox işlənən anlayışlardan biridir. İlk mənası qədəhlərə içki töküb paylayan şəxs deməkdir. Təsəvvüfdəki anlamı isə belədir: «fəyyazi-mütləq, sevgi və feyzin qaynağı olan Allah, mürşid». Bu anlayışa bağlı olaraq divan ədəbiyyatında saqinamələr də yazılmışdır. Hz. Nizami əsərlərində tez-tez saqiyə müraciət edir:

***… Gəl, ey saqi, o şərabdan mənə nişan ver,***
***Bihuşların içdiyi dərmandan mənə ver.***

***O acı dərmanla məni bihuş et,***
***Bəlkə özümü unudam.***[909]

***Saqi, gəl başımdan yuxunu apar,***
***Təmiz aşiqə sən təmiz mey ver.***[910]

***Gəl ey saqi! O arğavani şərabdan,***
***Ver ki, mən məst və xərab olum.***[911]

---

[908] Ethem Cebecioğlu, «Tasavvuf terimleri ve deyimleri sözlügü», İstanbul, 2005, s. 115-116.
[909] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 38.
[910] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 42.
[911] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 48.

***Gəl, ey saqi! O yaqut rəngli suyu,***
***Yaqutlar yağdıran qədəhə doldur.***

***Canı meydən olan bu saxsı cam,***
***Torpaqdır, reyhanlar bitirən torpaq.***[912]

**Füzuli:**
***Saqi, tut əlim ki, xəstə haləm,***
***Qəm rəhgüzarında payimaləm.***

***Sənsən məni mübtəlaya qəmxar,***
***Səndən özgə dəxi kimim var.***

***Müşkil işə düşmüşəm, mədəd qıl,***
***Meyi-Xızr ilə bəlami rəd qıl.***[913]

Hz. Nizaminin beytdə istifadə etdiyi rəmzlərdən biri də «mərifət»dir. «Mərifət» də təsəvvüfdə çox istifadə olunan anlayışlardan biridir. Ərəbcə bilgi deməkdir. Təsəvvüfdə dörd qapı deyilən dörd mərtəbə var: şəriət, təriqət, həqiqət, mərifət. Şəriət olmadan təriqət, həqiqət və mərifət olmaz. Hər şey şəriətə, yəni islam dininin qaydalarına uyğun yaşamağa bağlıdır. İnsan bu qaydalara, buyruqlara (əmr və yasaqlara) uyğun yaşadıqca sonrakı mərtəbələr ortaya çıxır. Bu baxımdan hər kəsin dinin buyruqlarına uyğun yaşamasına şəriət, bir az təqvaya yönələnlərin səviyyəsinə təriqət, təqva nəticəsində əldə edilən bilgiyə, elmə mərifət deyilir. Bunlardan ilki kütləyə, ikincisi seçilmişlərə aiddir. **Hacı Şaban Vəli bu dörd mərtəbəni belə şərh edir:** «… Şəriət bədən üçün, təriqət qəlb üçün, mərifət Haqq üçündür. Məri-

---

[912] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 52.
[913] Məhəmməd Füzuli, «Leyli və Məcnun», səh. 15.

fətin sirrə aid olduğunu söyləyənlər də var. Elm ilə mərifət eyni görünsə də, aralarında incə bir fərq var. Elmin ziddi cəhalətdir, mərifətin ziddi inkardır. Elm kəsbidir (oxumaqla əldə edilir – S. H), mərifət vəhbidir (bir nur kimi qəlbə dolar – S. H)».[914]

**Hal əhli olan Hifni də bu mövzunu belə açıqlayır:** «Qul, Allahı sifət və adları ilə bilər. Allah ilə arasındakı qulluq münasibətində ciddi, səmimi, doğru olar. Sonra pis əxlaqını düzəldər. Haqqın qapısından ayrılmaz, yəni qəlbi ilə davamlı baş-başa qalar. Sonra ona xatirələr gəlməyə başlar, hər zaman uca Allaha (c.c) yalvarar. Uca Allahın (c.c) onun qəlbinə nazil etdiyi sirlərdən danışar. Bu durumda olan insana arif, onun elminə də mərifət deyilir. O nəfsinin pisliklərindən nə qədər uzaq olsa, Rəbbi ilə bağlı mərifəti də o qədər artar. Bir insanda mərifətin meydana gəlməsinin əlaməti o insanda Allahdan gələn heybətin zühur etməsidir. Mərifəti çox olanın heybəti də çox olur. Bəziləri də demişlər ki, mərifəti çox olanın qəlb rahatlığı da çox olar».[915]

«Mərifət» anlayışı ilə bağlı təsəvvüf terminologiyasında bir sıra başqa sözlər də var. Onlardan biri «mərifətullah»dır. «Mərifətullah» ərəbcə Allahı (c.c) tanımaq, bilmək deməkdir. «Mərifətullah» uca Allahın (c.c) varlıq və birliyini ifadə edir. Qul uca Allahın (c.c) sifətlərini, adlarını düşünməlidir. Qul bilməlidir ki, Allah (c.c) ucadır, sonsuzdur, əbədidir, qul isə fanidir.

Təsəvvüfdə «mərifət»lə bağlı istifadə olunan anlayışlardan biri də «mərifəti-nəfs»dir. Bu anlayış məşhur deyimdən qaynaqlanır: «Mən ərəfə nəfsəhu, fəqət ərəfə Rəbbəhu» (Nəfsini tanıyan Allahı (c.c) tanıyar). İnsanda uca Allahın (c.c)

---

[914] Ethem Cebecioğlu, «Tasavvuf terimleri ve deyimleri sözlügü», İstanbul, 2005, s. 412.

[915] Ethem Cebecioğlu, «Tasavvuf terimleri ve deyimleri sözlügü», İstanbul, 2005, s. 413.

üfürdüyü ruh var. Bu, Rəbbin bir əmridir. Bu ruhun insan bədənindəki fəaliyyəti nəticəsində mərifət bilgisi ortaya çıxır:

**Hacı Bayram Vəli:**

***Bayram özünü bildi,***
***Bileni anda buldu,***
***Bulan ol kendi oldu,***
***Sen seni bil sen seni.***[916]

Hz. Nizami deyir ki, merac gecəsi islam Peyğəmbərinin camı iqbal, saqisi mərifət oldu. Mərifət camının dibində bir damla da qalmadı. Bunun mənası odur ki, merac gecəsi hz. Məhəmmədin (s.a.s) qəlbini (camını) uca Allah (c.c) (saqi) mərifətlə, nurla, uca Allahı (c.c) tanımaq elmi ilə doldurdu. O, ilahi sirləri bildi, mərifət camındakı meyi (elmi, nuru) son damlasınadək içdi. Onu da deyək ki, təsəvvüf ədəbiyyatında ilahi eşq yolçusunu addım-addım irəli aparan, onu eşq təlimindən keçirən qüvvəyə (kimsəyə) ayrı-ayrı adlar verilmişdir: Piri-Muğan, saqi, Mürşid. Hz. Məhəmmədin (s.a.s) müəllimi uca Allahdır (c.c), Onun tərbiyəçisi də Odur. Deməli, merac gecəsi hz. Məhəmməd (s.a.s) ümmətinin gələcəyi ilə bağlı ilahi nur – elm almışdır.

## İKİ YÜZ SƏKSƏN ÜÇÜNCÜ ADDIM: MEHRİBAN SALAMLARLA AŞAĞI ENDİ

بامداراى صد هزار درود
آمد از اوج آن مدار فرود

***Yüz min mehriban salamlarla,***
***O dairənin zirvəsindən O, aşağı endi.***[917]

---

[916] Ethem Cebecioğlu, «Tasavvuf terimleri ve deyimleri sözlügü», İstanbul, 2005, s. 413.
[917] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 24.

Hz. Nizami beytdə merac gecəsi islam Peyğəmbərinin uca Allahın (c.c) hüzurundan yer üzünə yola salınmasını təsvir etmişdir. Yola salınma mərasimində Onun eşitdiyi bir söz var: Salam. Salam «səlimə» kökünün məsdəridir. Salamat olmaq, rahat yaşamaq, qorxulu şeylərdən uzaq olmaq deməkdir. Qurani-Kərimdə uca Allah (c.c) peyğəmbərlərə, möminlərə, cənnətə layiq olanlara salam verir:

سلام عليكم بما صبرتم فنعم عقبى الدار

(ər-Rəd, 13/24)

«(Dünyada Allah yolunda bütün çətinliklərə) səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdu (cənnət) nə gözəldir!» - deyəcəklər».

سلام على نوح في العالمين

(əs-Saffat, 37/79)

«(Onu belə yad edirlər:) «Bütün aləmlər içərisində Nuha salam olsun!»

سلام على موسى وهارون

(əs-Saffat, 37/120)

«(Onları belə yad edirlər): «Musaya və Haruna salam olsun».

وسلام على المرسلين

«Peyğəmbərlərə salam olsun!»

Qurani-Kərimin buyurduğuna görə, cənnətdə olanlar bir-birinə salam verəcəklər. Onlara mələklər də salam verəcək:

لا يسمعون فيها لغواً إلا سلاماً ولهم رزقهم فيها بكرةً وعشياً

(Məryəm, 19/62)

«Onlar orada boş söhbətlər deyil, (mələklərdən və bir-birindən) ancaq: «Salam!» eşidəcəklər. Ruziləri də səhər-axşam (həmişə) oradadır».

**Cənnətin bir adı da Darüs-Salamdır (Salam ölkəsi, barış yurdu):**

والله يدعو إلى دار السلام ويهدي من يشاء إلى صراط مستقيم

(Yunus, 10/25)

«Allah (bəndələrini) əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola yönəldir»

Uca Allah (c.c) hz. Məhəmmədə (s.a.s) buyurur ki, yanına gələnlərə salam desin:

وإذا جاءك الذين يؤمنون بآياتنا فقل سلام عليكم كتب ربكم على نفسه الرحمة أنه من عمل منكم سوءا بجهالة ثم تاب من بعده وأصلح فأنه غفور رحيم

(əl-Ənam, 6/54)

«Ayələrimizə iman gətirənlər yanına gəldikdə onlara de: «Sizə salam olsun! Rəbbiniz Özünə (bəndələrinə qarşı) rəhmli olmağı yazmışdır. Belə ki, sizlərdən hər kəs pis iş görsə, sonra tövbə edib düzəlsə (Allah onun günahlarından keçər). Şübhəsiz ki, Allah bağışlayandır, rəhm edəndir!»

Salam vermək sünnə, salam almaq fərzdir. Uca Allahın (c.c) gözəl adlarından biri də «əs-Salam»dır. Mənası belədir. O, eyib, qüsur, əskiklikdən, yox olmaqdan uzaqdır. Salamatlıq arayanları gerçək təhlükəsizliyə qovuşdurandır, salamatlığın qaynağıdır.

هو الله الذي لا إله إلا هو الملك القدوس السلام المؤمن المهيمن العزيز الجبار المتكبر سبحان الله عما يشركون

(əl-Həşr, 59/23)

«O, özündən başqa heç bir tanrı (məbud) olmayan, mülkün sahibi, müqəddəs olan, (bəndələrinə) salamatlıq, əmin-amanlıq bəxş edən, (hər şeydən) göz-qulaq olub (onu) qoruyan, yenilməz qüvvət sahibi, məcbur etməyə qadir olan, böyük olan Allahdır. Allah Ona qoşduqlarından ucadır».

Hz. Nizami deyir ki, Onu yüz min mehriban salamla yola saldılar. Uca Allahın (c.c) və mələklərin salamı, rəhməti və bərəkəti Onun üzərində oldu. Böyük bir missiya ilə yer üzünə qayıdan Peyğəmbər üçün ən önəmli məsələ uca Allahın (c.c) salamını – təhlükəsizlik sözünü almaqdır. Yüz min salam (burada rəqəm çoxluğu bildirir) Onun təhlükəsizliyinin təmin olunduğunu bildirir.

## İKİ YÜZ SƏKSƏN DÖRDÜNCÜ ADDIM: SEVGİ XƏZİNƏSİ İLƏ GERİ QAYITDI

چو پوشید از کرامت خلعت خاص
بیامد باز پس با گنج اخلاص

***Kəramətdən xüsusi xələt geydikdən sonra,***
***Həqiqi ixlas xəzinəsi ilə geri qayıtdı.***[918]

Hz. Nizami deyir ki, merac gecəsi hz. Məhəmməd (s.a.s) yerə qayıtmazdan öncə «kəramətdən xüsusi xələt geyindi». Əslində, bu beytin ideyası öncəki beytin ideyası ilə birdir. Öncəki beytdə şair islam Peyğəmbərinə yüz min salam verildiyini yazır. Bütün mələklər uca Allahın (c.c) əmri ilə Ona salam verirlər. Salam vermək də Ona olan sevginin göstəricisidir. Uca Allah (c.c) Onu merac gecəsi hüzuruna dəvət edir, Ona ən dəyərli hədiyyələr verir və Onu təhlükəsizlik (salam) təminatı ilə yola salır. Şairə görə bu təhlükəsizlik təminatının biri də kəramətdən xüsusi xələt

[918] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

geyinməkdir. «Kəramət» ərəbcə ikram mənasındadır. Bir mömində peyğəmbərlik iddiasında olmadan qeyri-adi bir halın meydana gəlməsi dini terminologiyada «kəramət» adlanır. Peyğəmbərlərdə olan qeyri-adi hallara isə möcüzə deyilir. Möcüzə ilə kəramət arasında fərq var: «… Peyğəmbərlər möcüzəni açıqlamağa məcburdur. Vəlilər isə kəraməti gizli saxlamalıdırlar. Vəli kəramət iddiasında ola bilməz, onda üzə çıxan halların kəramət olduğunu söyləməz. Kəramət iki cürdür:

a) Mənəvi kəramət (həqiqi kəramət). Elmdə, irfanda, əxlaqda, ibadətdə, əməldə, ədəbdə, insanlıqda, fəzilətdə özünü göstərən üstün keyfiyyətlər. «Ən böyük kəramət insanın pis xasiyyətindən imtina edib, yaxşı xasiyyətlər qazanmasıdır». «İstiqamət kəramətdən üstündür»…

b) Kövni kəramət: könüllərdən keçəni bilmək, uzun məsafəni qısa zamanda qət etmək, az qidanı çoxaltmaq, su üzərində yerimək, havada uçmaq».[919]

Şairə görə, hz. Məhəmməd (s.a.s) merac gecəsi «kəramətdən xüsusi xələt geyindi». Yəni merac gecəsi Ona dünyanın ən üstün neməti, elmi, doğru yaşamaq ölçüsü, ümmətin uca Allahı (c.c) tanımaq düsturu, ibadəti, müjdəsi verilmiş oldu. Şair bu neməti beytin ikinci misrasında «həqiqi ixlas xəzinəsi» adlandırmışdır. Merac nemətləri ümmətin ixlas xəzinəsidir. Bu nemətlərin dəyərini bilən, onları qəbul edən, onlara inanan, onlara əməl edən böyük və tükənməyən xəzinə qazanmışdır. Ancaq bu xəzinəyə sahib çıxmaqla uca Allah (c.c) sevgisini qazanmaq olar.

---

[919] «İslami kavramlar», göstərilən qaynaq, s. 431.

## İKİ YÜZ SƏKSƏN BEŞİNCİ ADDIM: HİLAL KİMİ GETDİ, BƏDR OLUB GƏLDİ

گلی شد سرو قدری بود کامد
هلالی رفت و بدری بود کامد

***Qədri sərv idi, gül olub gəldi,***
***Hilal kimi getdi, bədr olub gəldi.***[920]

Hz. Nizami bu beytdə islam Peyğəmbərinin meracdan öncəki halı ilə meracdan sonrakı halı arasındakı fərqi göstərmişdir. O, bu fikri təqdim etmək üçün gözəl, uyğun bədii vasitələr seçmişdir. Şair öncə islam Peyğəmbərinin meracdan öncəki halını sərv ağacına bənzədir. Sərv ağacı gözəldir, ucadır, klassik ədəbiyyatın ən çox istifadə etdiyi obrazlardan biridir. Ancaq onun meyvəsi, gülü yoxdur. Meracdan öncə sərv olan hz. Məhəmməd (s.a.s) meracın bərəkəti ilə gül açdı, meyvə verdi. Yəni meracdan öncə müsəlmanların sayı çox az idi. Meracın bərəkəti ilə ümmətin sayı artdı, merac neməti olan namaz ümmətin bərəkət qaynağı oldu. Şairə görə, merac neməti olan insan gül açar, ətir saçar, bar, bərəkət verər, ümmət onun nuru ilə aydınlığa qovuşar. Meracdan dönən hz. Məhəmməd (s.a.s) ilahi nura qərq olmuş Peyğəmbərdir.

Meracdan öncəki hz. Məhəmməd (s.a.s) bir hilaldır, bir dilim ay işığıdır. Meracdan sonrakı hz. Məhəmməd (s.a.s) bədrlənmiş, tam, bütöv nurla dolmuş aydır. O artıq bütün insanlığın nur qaynağıdır.

---

[920] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

## İKİ YÜZ SƏKSƏN ALTINCI ADDIM: BÜTÜN ALƏMİN ELMİNİ VƏ HİKMƏTİNİ ÖYRƏNMİŞDİ

سوی عالم آمد رخ افروخته
همه علم عالم در آموخته

***Dünyaya çöhrəsində nur qayıtdı,***
***Bütün aləmin elmini (hikmətini) öyrənmişdi.***[921]

Hz. Nizami merac nemətini şərh və islam Peyğəmbərinin (s.a.s) yer üzünə qayıdışını təsvir edərkən ən çox istifadə etdiyi anlayış nurdur: «Onun ürəyi Allahın (c.c) fəziləti, nuru ilə doldu», «alnında nar gülü (ilahi nur) qayıtdı», «O, parlaq günəş idi». Şair deyir ki, O, dünyaya çöhrəsində nur qayıtdı. Çöhrədəki nur sevinci, merac səfərindən doğan razılığı ifadə edir. Ümməti üçün namaz elmini gətirən, uca Allahdan (c.c) bağışlanma müjdəsi almış, ixlas süfrəsinə qonaq olmuş, məkanı və zamanı olmayan sonsuzluqda uca Allahı (c.c) idrak gözü ilə görmüş, bağışlanmaq xəzinəsi qazanmış, kəramətdən xüsusi xələt geyinmiş, həqiqi məhəbbət xəzinəsinə sahib olmuş, mərifət dolu camı son damlasınadək içmiş, yüz min mehriban salamla yola salınmış, alnında nar gülü, əlində kərəm fərmanı, əfv baratı olan, rəyi xeyirxahlıq dəryası sayılan, yeri peyğəmbərlik səması kimi tanınan hz. Məhəmmədin (s.a.s) çöhrəsində təbii ki, nur olacaq. Şairə görə, bu sevincin bir səbəbi də odur ki, O, merac gecəsi bütün aləmin hikmətini öyrənmişdi. Bilgi güc deməkdir, gücdən də nur doğar. Allahın verdiyi elm bir nar çiçəyi kimi ətrafa işıq saçar, insanlığı qaranlıqdan işığa çıxarar.

Ona hikmət verilmişdir. «Hikmət» dini ədəbiyyatda istifadə olunan bir anlayışdır. «Hikmət»in söz anlamı anlayış, ədalət, gözəl söz, fəlsəfədir. Ancaq «hikmət» dini

---

[921] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 33.

mətnlərdə daha geniş mənada işlənmişdir. İslam alimi Firuzabadi «hikmət» sözünün işləndiyi yerə görə mənalarını belə sıralamışdır: ədalət, elm, peyğəmbərlik, Qurana, uca Allaha (c.c) itaət, dində anlayış, əməl, ağıl, sözü doğru, mənaya uyğun ifadə etmək, vəra, uca Allahın (c.c) buyruqlarını düşünmək.[922]

**Qurani-Kərimdə hikmət nübüvvət (peyğəmbərlik) anlamında:**

ويعلمه الْكتَاب والْحكْمةَ والتوراةَ والإِنجِيلَ

(Ali-İmran, 3/48)

«(Allah) ona (İsaya) yazmağı, hikməti, Tövratı və İncili öyrədəcək».

فَهزموهم بِإِذْنِ اللّه وقَتلَ داوود جالُوتَ وآتَاه اللّه الْملْك والْحكْمةَ وعلمه مما يشَاء ولَولا دفْع اللّه الناس بعضهم بِبعضٍ لَّفَسدت الأَرض ولَـكن اللّه ذُو فَضلٍ علَى الْعالَمين

(əl-Bəqərə, 2/251)

«Nəhayət, onlar Allahın izni (iradəsi və köməyi) ilə Calutu və qoşununu məğlub etdilər. Davud, Calutu öldürdü. Allah, Davuda həm hökmranlıq, həm də hikmət (peyğəmbərlik) verdi və ona istədiyini öyrətdi. Əgər Allah insanların bir qismini, başqa bir qismi ilə dəf etməsə idi, yer üzü fitnə-fəsada uğrayardı. Ancaq Allah bütün aləmlərə qarşı lütfkardır».

**Qurani-Kərimdə «hikmət» təfsir, təvil, sözü doğru ifadə etmək anlamında:**

يؤتي الْحكْمةَ من يشَاء ومن يؤْتَ الْحكْمةَ فَقَد أُوتي خَيراً كَثيراً وما يذَّكَّر إِلاَّ أُولُواْ الأَلْبابِ

(əl-Bəqərə, 2/269)

[922] «İslami kavramlar», göstərilən qaynaq, s. 324.

«Allah istədiyi şəxsə hikmət bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir. Bunu ancaq ağıl sahibləri düşünüb dərk edərlər».

Qurani-Kərimdə «hikmət» incə anlayış, dinin incəliklərini bilmək, hökmləri anlamaq mənasında:

يا يحيى خُذ الْكتَاب بِقُوة وآتَينَاه الْحكْم صبياً

(Məryəm, 19/12)

«Ey Yəhya! Kitabdan bərk yapış. Biz uşaq ikən ona hikmət verdik».

**Qurani-Kərimdə «hikmət» öyüd mənasında:**

أَم يحسدون الناس علَى ما آتَاهم اللّه من فَضله فَقَد آتَينَا آلَ إِبراهيم الْكتَاب والْحكْمةَ وآتَينَاهم ملْكاً عظيماً

(ən-Nisa, 4/54)

«Yoxsa onlar Allahın öz nemətlərindən bəxş etdiyi şeylərə görə insanlara həsəd aparırlar? Halbuki Biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk bəxş etmişdik».

**Qurani-Kərimdə ilahi əmr və yasaq mənasında:**

ادع إِلِى سبِيلِ ربك بِالْحكْمة والْموعظَة الْحسنَة وجادلْهم بِالَّتي هي أَحسن إِن ربك هو أَعلَم بِمن ضلَّ عن سبِيله وهو أَعلَم بِالْمهتَدين

(ən-Nəhl, 16/125)

«Ey Rəsulum! İnsanları hikmətlə, gözəl öyüd-nəsihət ilə Rəbbinin yoluna dəvət et, onlarla ən gözəl surətdə mücadilə et. Həqiqətən, sənin Rəbbin yolundan azanları bilən, doğru yolda olanları da tanıyandır».

**Qurani-Kərimdə «hikmət» əqli dəlillər mənasında:**

وَلَقَدْ آتَيْنَا لُقْمَانَ الْحِكْمَةَ أَنِ اشْكُرْ لِلَّهِ وَمَن يَشْكُرْ فَإِنَّمَا يَشْكُرُ لِنَفْسِهِ

وَمَن كَفَرَ فَإِنَّ اللَّهَ غَنِيٌّ حَمِيدٌ

(Loğman, 31/12)

«Həqiqətən, Loğmana: «Allaha şükür et» (deyə) hikmət verdik. Kim Allahın nemətinə şükür etsə, özü üçün şükür edər. Kim nankor olsa, (bilsin ki) Allah onun şükürünə möhtac deyildir, (özlüyündə) şükrə (tərifə) layiqdir!»

«… Hikmət, dərin və yararlı bilgidir. Belə bir bilgi düşüncənin məhsuludur. Buna görə də uca Allah (c.c) hikmət verilən insana çox xeyir verildiyini və bunu ancaq sağlam ağıl sahiblərinin anlaya biləcəyini açıqlamışdır. Hz. Məhəmməd (s.a.s) hikmət olan məclisləri öymüş, hikmət sahiblərini təriflәmiş, özünü hikmət evi, hz. Əlini (r.a) isə hikmətin qapısı adlandırmış, hikmət öyrətməsi üçün uca Allaha (s.a.s) dua etmiş, hikmət möminin itmiş malıdır, harada tapsa, alar demişdir…»[923]

Hz. Nizami də islam Peyğəmbərinin merac gecəsi uca Allahdan (c.c) öyrəndiklərini «hikmət» anlayışı ilə ifadə etmişdir. O, merac gecəsi bütün aləmin elmini və hikmətini öyrəndi. Onun çöhrəsindəki nurun bir səbəbi də budur.

## İKİ YÜZ SƏKSƏN YEDDİNCİ ADDIM: ONUN GEDİŞ VƏ GƏLİŞİNİ HEÇ KƏSİN TƏSƏVVÜRÜ QAVRAYA BİLMƏZ

چنان رفته و آمده باز پس
که ناید در اندیشهٔ هیچکس

***Elə getdi və elə geriyə döndü ki,***
***Bunu heç kəsin təsəvvürü qavraya bilməz.***[924]

---

[923] «İslami kavramlar», göstərilən qaynaq, s. 325.
[924] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 34.

Hz. Nizami bu beytdə merac hadisəsinin qeyri-adiliyini, onun baş verdiyi zamanın çox az olduğunu təsvir etmişdir. Şair bu qeyri-adiliyi ifadə etmək üçün «təsəvvür» sözündən istifadə etmişdir. İnsan bir şeyi ağılla dərk edə bilməyəndə onu təsəvvür edərək, təsəvvüründə canlandıraraq qavrayır. Ancaq merac gecəsi Onun gedişi və gəlişi elə qeyri-adidir ki, onu təsəvvür etmək belə mümkün deyil. Əslində, bu bir möcüzədir, onu fiziki qanunlarla izah etmək qeyri-mümkündür. Şair də fiziki qanunlarla izah etməyin qeyri-mümkünlüyünü «təsəvvür qavraya bilməz» ifadəsi ilə bildirmişdir.

## İKİ YÜZ SƏKSƏN SƏKKİZİNCİ ADDIM: ONUN YATAĞININ İSTİLİYİ HƏLƏ DƏ GETMƏMİŞDİ

ز گرمی که چون برق پیمود راه
نشد گرمی خوابش از خوابگاه

***O, şimşək kimi elə qızğınlıqla o yolu keçdi ki,***
***Onun yatağının istiliyi hələ də getməmişdi.***[925]

Hz. Nizami bu beytdə merac yolçuluğunun çox sürətlə baş verdiyini bildirmək üçün iki vasitədən istifadə etmişdir: O, yolu şimşək kimi sürətlə keçdi, yəni bu gediş-gəliş bir an içərisində baş verdi. Onun yatağının istiliyi hələ də getməmişdi, yəni merac o qədər sürətlə baş verdi ki, yataq hələ soyumamışdı.

---

[925] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 34.

## İKİ YÜZ SƏKSƏN DOQQUZUNCU ADDIM: BU BİR GECƏ İDİ, YOXSA BİR İL?

ندانم که شب را چه احوال بود
شبی بود یا خود یکی سال بود

***Mən bilmirəm, bu gecədə nə halət var idi,***
***O bir gecəmi, yoxsa bir il idi?***[926]

Şair bu beytdə də merac gecəsinin qeyri-adi bir gecə olduğunu ifadə etmişdir. Ona görə, merac gecəsində fərqli bir halət var. Dəyərinə, baş verən hadisələrin böyüklüyünə görə, bu gecə, əslində, bir ili xatırladır. Şair meracın qeyri-adi bir gecə olduğunu ifadə etmək üçün iki başqa vasitədən də istifadə etmişdir: beytin ideyasını ifadə etmək üçün heyrət, təəccüb bildirən üslub seçilmişdir, bu üslubu formalaşdıracaq sözlərə çox yer verilmişdir: «mən bilmirəm», «nə halət var», «bir gecədir, yoxsa bir il». Qeyri-adiliyi ifadə edən ikinci vasitə də bədii sualdan istifadə olunmasıdır.

## İKİ YÜZ DOXSANINCI ADDIM: ONUN VÜCUDU BİZİM CANIMIZDAN SAFDIR

چو شاید که جانهای ما در دمی
برآید به پیرامن عالمی

***Əgər bizim canımız bir anda,***
***Dünyanın ətrafını dolaşıb gəzirsə.***

تن او که صافی‌تر از جان ماست
اگر شد به یک لحظه وامد رواست

***Onun bizim canımızdan saf olan vücudu da,***
***Bir ləhzədə oraya gedib qayıdıbsa, rəvadır.***[927]

---

926 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 34.
927 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 34.

Hz. Nizami bu iki beytin ideyasını müqayisə metodu üzərində qurmuşdur. Şair öncə adi insanların imkanlarını təqdim etmişdir. O deyir ki, adi insanların canı (yəni ruhu) bir anda dünyanın ətrafını dolaşa, gəzə bilir. Ancaq hz. Məhəmmədin (s.a.s) vücudu (bədəni) bizim ruhumuzdan daha təmizdir. Şair islam Peyğəmbərinə həsr etdiyi bir nətində də Onun mübarək bədəninin ruhdan təmiz olduğunu bildirmişdir:

***«... Ey bədəni pak candan da təmiz olan!***
***Sənin ruhun «ruhumuz Sənə fəda olsun»***
***kəlamı ilə tərbiyələnib».***[928]

Bu bənzətmə ancaq islam Peyğəmbərinə aid edilə bilər. Şairə görə, merac gecəsi islam Peyğəmbərinin bir an içində («şimşək kimi», «yatağının istiliyi hələ getməmiş») uca Allahın (c.c) hüzuruna gedib gəlməsi onun pak olması, vücudunun belə, ruhdan təmiz olması ilə bağlıdır. Yəni burada təəccüblü heç nə yoxdur.

## İKİ YÜZ DOXSAN BİRİNCİ ADDIM: O, BU SƏFƏRƏ EŞQİN CAZİBƏSİ İLƏ GETDİ

زان سفر عشق نیاز آمده
در نفسی رفته و باز آمده

***Eşqin cazibəsi ilə getdiyi bu səfəri O,***
***Bir göz qırpımında başa vurub, geri qayıtdı.***[929]

Şair meracnamələrinin bir sıra beytlərində, sanki, hz. Məhəmmədin (s.a.s) meracının mümkünsüzlüyünü iddia edənlərə cavab vermişdir. Şair meracın baş verdiyini bu də-

928 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 34.
929 Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 32.

lillərlə əsaslandırır: O, Peyğəmbərdir, meracın baş verdiyi Quran ayəsi ilə təsbit olunmuşdur, Onun bədəni ruhdan da təmizdir (Şairə görə, merac görmə hadisəsidir, ilahi həqiqətləri görmək də təmiz olmağa – vücudun, qəlbin təmizliyinə bağlıdır), O, eşqin cazibəsi ilə meraca ucalmışdır.

Hz. Nizami bu beytdə islam Peyğəmbərini bir aşiq kimi təqdim etmişdir. O, uca Allaha (c.c) aşiq olmuşdur, özünü Ona təslim etmişdir. Eşqdə, aşiqlikdə cazibə gücü var. Cazibə gücü yoxdursa, deməli, sevgi də yoxur. O, sevdiyindən başqa hər şeylə əlaqəsini kəsər, O, cəmiyyət içərisində yaşayır, ancaq təkdir, Onun varlığı sevdiyinin varlığında yox olmuşdur, ancaq Onu düşünür, O, sevdiyindən başqa bir şey görməz. Sevgilisinə olan eşqi aşiqi haldan-hala salar, onu təmizləyər, Onu kamil insana çevirər. Aşiqə görə, sevgiliyə qovuşmağın tək yolu həqiqi, ilahi eşqdir:

**Mehmed Şafii:**
**Zahida, aşkı-mecaza meylimiz yoktur bizim,**
**Aşıkı-sadıklarız dildar olan aşktır bize.**

**Ah ü efgan eyleriz gülzara karşı her seher,**
**Bülbüli-şurideyiz, gülzar olan aşktır bize.**

**Arifi-Hak olmayan bilmez bu remzin neydiğün,**
**Zühd ile yar olmazız, bil yar olan aşktır bize…**[930]

(Ey Zahid, bizim məcazi (dünyəvi) eşqə meylimiz yoxdur, biz sadiq aşiqlərik, bizim dildarımız eşqdir. Biz gülzara (güllü-çiçəkli yer) qarşı hər səhər ah və fəğan edərik. Biz coşmuş, cuşa gəlmiş bülbülük, biz adi gülzar istəmirik, bizim gülzarımız eşqdir. Uca Allahı (c.c) tanımayan bu rəmzin (eşqin) nə olduğunu bilməz. Biz zühd ilə yar (dost) olmarıq, bizim yarımız (dostumuz, sevgilimiz eşqdir).

---

[930] Şafii, «Divan», göstərilən qaynaq, s. 36.

Aşiq hara baxsa, sevgilisini görər. Onun yolu sevgilisinə doğru gedər. O, qürbətdə olub, sevdiyinin həsrəti ilə yanan, ona qovuşmağı gözləyən bir insandır. Aşiq bütün diqqətini, gücünü bir nöqtəyə yönəltmişdir. Onun fikri dağılmaz. O, öz varlığını sevgilisinin yolunda fəda edər. Aşiqin ən önəmli özəlliklərindən biri budur ki, o, eşqin odunda yanar, o, sevgilisinin sınaqlarından keçər. İlahi eşq yolçusu bu yolla tərbiyə olunar, çətinliklər onun müəllimi olar. Mövlana bu tərbiyə yolunu (metodunu) gözəl ifadə etmişdir: xam idim, bişdim, yandım.

Bir mübarək hədisdə buyurulur: «Məni tələb edən məni tapar. Məni tapan məni sevməyə başlar. Məni sevən mənə aşiq olur. Kim mənə aşiq olsa, mən də ona aşiq olaram. Ancaq mən kimə aşiq olsam, onu öldürərəm, mən kimi öldürsəm, onun qan bahasını ödəmək mənə vacib olar. Mən kimin qan bahasını ödəsəm, onun qan bahası Mən olaram». Yəni uca Allaha (c.c) onda fani olmaq, yox olmaqla qovuşmaq olar.

«Eşq» ərəbcə «aşaka» kökündən törəmişdir. Mənası sarmaqdır. Sarmaşıq bitkisinin mənası da buradan yaranmışdır. O, nəyə sarılsa, onu qurudub yox edər. Sevgilinin eşqi məşuqun varlığına hakim olar. Eşq kainatda hər şeyi əhatə etmiş bir gücdür. Sufilərə görə, varlığa gəlişin səbəbi, yaradılışın ilk səbəbi eşqdir. Hər şeyi hərəkətə gətirən eşqdir. Sevgilinin gözəlliyini vəsf etməyə sözün gücü çatmaz.

**Əhməd Paşa:**
***Yüz bin lügat olsa her dilimde,***
***Her harfte bin beyanım olsa,***
***Bin bir kalem olsa, her kılımda,***
***Her hamede bin lisanım olsa,***
***Evsafın söyləsəm və yazsam,***
***Ta haşre deyin zamanım olsa,***

***Bir şemmesi şerhin edemezdim,***
***Alem dolu dasitanım olsa.***[931]

(Dilimdə yüz min söz olsa, hər hərfdə min bəyanım olsa, hər tükümdə min bir qələm olsa, hər qələmdə min dilim olsa, Onun vəsflərini, gözəlliklərini söyləsəm və yazsam, qiyamət gününədək zamanım olsa, Onun bir zərrəsini şərh edə bilməzdim. Yazdığım dastanlar bütün aləmə yayılsa belə)

İlahi eşq tamamlananda mərifətə çevrilir. Artıq ortada sevən, sevilən, sevgi (aşiq, məşuq, eşq) yoxdur. Aşiq məşuqun sevgisi ilə onda fani olmuşdur. Bu hal şeirdə belə təsbit olunur: «aşiq, məşuq bu gün mənəm». Mərifət mərhələsindən sonra vəhdət məqamı gəlir.

Hz. Nizami deyir ki, O, eşqin cazibəsi ilə meraca yüksəldi. Yəni merac hadisəsi Onun uca Allaha (c.c) olan sonsuz sevgisi ilə gerçəkləşdi.

Şair fərqli beytlərdə merac səfərinin qısa bir zaman içində gerçəkləşdiyini yazır. Bu mənanı ifadə etmək üçün ayrı-ayrı bədii biçimlər tapır: «elə getdi və geriyə döndü ki, bunu təsəvvür belə qavraya bilməzdi», «O, şimşək kimi qızğınlıqla yolu keçdi», «yatağının istiliyi hələ də getməmişdi», «o bir gecə, yoxsa bir il idi», «Onun ruhdan pak olan vücudu bir anda ora gedib qayıtdı». Şair bu beytdə də qısa zamanı ifadə etmək üçün «bir göz qırpımında» ifadəsindən istifadə etmişdir.

## İKİ YÜZ DOXSAN İKİNCİ ADDIM: TÖHFƏLƏRİ YOLDAŞLARINA BAĞIŞLADI

هرچه آورد بذل یاران کرد
وقف کار گناهکاران کرد

[931] Əhməd Paşa, «Divan», səh. 22.

***Gətirdiyi bütün (töhfələri) yoldaşlarına bağışladı,***
***Və günahkarların işinə vəqf elədi.***[932]

Hz. Nizami bu beytdə islam Peyğəmbərinin xilaskarlıq missiyasını önə çəkmişdir. O, hər zaman ümmətini düşündü. Merac gecəsində qonaq olduğu «ixlas süfrə»sindən ümmətinə pay gətirdi. Gətirdiyinin hamısını yoldaşlarına bağışladı. Bu nemətləri günahkarların işinə vəqf elədi. Şair öncəki beytlərdə islam Peyğəmbərinin ümmətin günahkarları üçün merac gecəsi dua etdiyini və uca Allahın (c.c) bu duanı qəbul etdiyini bildirmişdi: «ümmətin müqəssirləri üçün dua elədi, Allah onun istəklərini qəbul etdi». Şair ayrı-ayrı beytlərdə islam Peyğəmbərinin gətirdiyi nemətləri «rəhm etmək xəzinəsinin müjdəsi», «həqiqi məhəbbət xəzinəsi», «cəhənnəmdən azad olmaq vəsiqəsi», «xalqlara sevinc müjdəsi», «əfv baratı», «kərəm fərmanı», «bütün aləmin elmi və hikməti» adlandırmışdır. Bu beytdə isə merac nemətlərinə «töhfə» deyilmişdir.

Şair deyir ki, O, gətirdiyi nemətləri günahkarların işinə vəqf elədi. Burada şair bilərəkdən «vəqf etmək» felini seçmişdir. «Vəqf» sözü dini ədəbiyyatda uca Allahın (c.c) rizası üçün, əvəz istəmədən vermək mənasında işlədilir. Vəqfin məqsədi insanlara yaxşılıq etməkdir. Hz. Məhəmməd (s.a.s) də insanlara yaxşılıq edir. Həm günahkarlar üçün dua edir, həm də gətirdiyi bütün merac nemətlərini onların işinə vəqf edir. O, günahkarlara deyir ki, etdiyiniz günahlara görə ümidsiz olmayın, sizə bağışlanmaq müjdəsi gətirmişəm, uca Allah (c.c) Ona şərik qoşmaqdan başqa bütün günahlarınızı bağışlayacaq. Namaz sizə vəqf edilmiş nemətdir. Bu nemətə sahib çıxın və günahlardan təmizlənin, uca Allahın (c.c) sevgisini qazanın. Peyğəmbər günahkarlara ümid, müjdə verir, onlara doğru yolun qapısının açıq olduğunu bildirir.

---

[932] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, s. 24.

## İKİ YÜZ DOXSAN ÜÇÜNCÜ ADDIM:
## YERƏ XƏZİNƏ KİMİ QAYITDI

ای مصعد آسمان نوشته
چون گنج به خاک بازگشته

***Ey asimanın yüksəkliklərində gəzib,***
***Yerə xəzinə kimi qayıdan!***[933]

Şair bu beytdən başlayaraq, islam Peyğəmbərinə müraciət üslubuna keçir. Ona müraciət edərkən merac gecəsinin ruhuna uyğun olaraq iki əlaməti önə çəkir: O, merac gecəsi asimanın yüksəkliklərində gəzmişdir. O, yerə xəzinə kimi qayıtmışdır. O, bitib-tükənməyən nemətdir.

## İKİ YÜZ DOXSAN DÖRDÜNCÜ ADDIM:
## CƏHƏNNƏMDƏN AZAD OLMAQ VƏSİQƏSİ GƏTİRDİ

خلایق را برات شادی آورد
ز دوزخ نامه آزادی آورد

***Xalqlara sevinc müjdəsi gətirdi,***
***Cəhənnəmdən azad olmaq vəsiqəsi gətirdi.***[934]

Hz. Nizami bu beytdə merac nemətinin önəmini bildirmişdir. O, bütün insanlığa göndərilmiş peyğəmbərdir. Merac gecəsi bütün insanlığı təmsil etmişdir. Gətirdiyi müjdə də bir ümmətə aid deyil, bütün xalqların sevinc müjdəsidir. Bu merac nemətinin hədəfi insanları cəhənnəm odundan qorumaqdır. Namaz qılmaq sənin mömin olduğunu

---

[933] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.
[934] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 341.

təsdiq edən vəsiqədir. Bu vəsiqə olmadan cəhənnəmdən xilas olmaq mümkün deyil. Uca Allahın (c.c) axirətdə bizdən soruşacağı ilk şey də namazdır.

## İKİ YÜZ DOXSAN BEŞİNCİ ADDIM: NİZAMİYƏ BİR SİRR AÇ

از سرعت آسمان خرامی
سری بگشای بر نظامی

***Asimanda gəzməyin sürətindən,***
***Nizamiyə bir sirr aç.***[935]

Hz. Nizami bu beytdə bir sıra önəmli məsələlərə toxunmuşdur. Şair hz. Məhəmmədə (s.a.s) müraciət edir, merac gecəsi göyləri gəzmiş, göylərin sirrini öyrənmiş, uca Allahın (c.c) verdiyi elm nuru ilə nurlanmış Peyğəmbərdən yeni sirlər öyrənmək istəyir. Şair sirr deyərkən nəyi nəzərdə tutur? «Sirr» gizli, bilinməyən bir şey deməkdir. Təsəvvüfdə sirr Allah (c.c) ilə qul arasında gizli qalan hallara deyilir. Təsəvvüf əhlinə görə, sirr də ruh kimi çox lətifdir, ancaq ruhdan daha təmizdir. Sirrin də sirri var, onu isə ancaq uca Allah (c.c) bilər. Onlara görə, azad insanların könlü sirlər məzarıdır. Yəni azad insanın könlünə yerləşdirilmiş sirr orada ölər, kənara çıxmaz, başqası onun sirrini bilməz. Sufilər deyir ki, sirrimi düyməm bilsə, onu qoparıb ataram. Sirdə önəmli olan məhəbbət və dostluq halını gizli saxlamaqdır. Onlara görə, sirr bir neçə qrupa bölünür:

**Haqqın sirri** – bu sirri uca Allahdan (c.c) başqa bir kimsə bilməz.

**Xalqın sirri** – Haqq ilə qul arasında qalan sirr.

---

[935] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

**Halın sirri** – uca Allahın (c.c) istəyinin nə olduğu bilinir.

**Həqiqətin sirri** – bilinməyən hər şeydəki Haqqın həqiqəti.

**Elmin sirri** – Elmin həqiqəti və mahiyyəti.

**Qədərin sirri** – uca Allahın (c.c) əzəldəki şeylər və bu şeylərin xarici aləmdə gerçəkləşməsi halında sahib olacaqları hallar.

**Təriqətin sirri** – müridin bütün ruh hallarını ancaq mürşidinə söyləməsi.

«Fəlsəfə və kəlam varlığı bir məsələ kimi düşünür. Təsəvvüf isə varlığa sirr kimi baxır. Məsələn, problem bilgi ilə həll edilər. Sirr isə onun içinə girmədən, onu yaşamadan tanınmaz. Çünki sirr olub bitmiş deyil, olmaqdadır. Problem isə olub bitmişdir, baş vermişdir…».[936]

Ruh sevginin, qəlb mərifətin, sirr də müşahidənin yeridir. Sirr ruhani bir nurdur. Hz. Nizami də merac gecəsinin sirrini öyrənmək istəyir, ilahi elmdən ona bir qapı açılmasını arzulayır. Şair deyir ki, islam Peyğəmbəri bir xəzinədir, O, merac gecəsi uca Allahın (c.c) hüzurundan bir xəzinə kimi qayıtmışdır. Bu xəzinənin sirrini ancaq hz. Məhəmməd (s.a.s) bilir.

## İKİ YÜZ DOXSAN ALTINCI ADDIM: NİQABDA NƏ QƏDƏR QALACAQSAN?

موقوف نقاب چند باشی
در برقع خواب چند باشی

***Niqabda nə qədər qalacaqsan,***
***Yuxu örtüyündə nə qədər qalacaqsan!***[937]

[936] «İslami kavramlar», göstərilən aynaq, s. 634.
[937] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.

Hz. Nizami bundan öncəki beytdə «sirr»dən danışmışdı. Bu beytin məzmunu da «sirr» anlayışı ilə sıx bağlıdır. Beytdə «sirr» anlayışını ifadə edən sözlərdən biri «niqab»dır. «Niqab» ərəbcə pərdə, üz örtüsü deməkdir. Təsəvvüfdə sevgilinin özü ilə aşiqi arasına qoyduğu maneə kimi istifadə edilir:

**Yunus Əmrə:**
***Çün aybın yok gökçek yüzin,***
***Yüzündeki nikab nedir?***
**Necati:**
***Göz yaşını Necati eder yüzüne nikab,***
***Miskin meger ki etdiği işlerden utanır…***

Hz. Nizami deyir ki, bizim sevgilimiz hz. Məhəmməddir (s.a.s). Bu sirləri O, bizə aça bilər, Onun bərəkəti ilə mənalar bilinər. Ondan başqa göy üzünü kimsə gəzməmişdir. Ancaq bu gün bu sevgili həyatda yoxdur, Onunla bizim aramızda «niqab» var. Şair ümmətin, insanlığın, özünün Ona olan ehtiyacını dilə gətirir. Bu ehtiyacı sual intonasiyası ilə ifadə edir: «Niqabda nə qədər qalacaqsan?»

Şair beytin ikinci misrasında deyir ki, yuxu örtüyündə nə qədər qalacaqsan? Burada «yuxu örtüyü» ölüm, məzar mənasındadır. Hz. Nizami islam Peyğəmbərindən danışarkən, Onun yoxluğunu bildirərkən «ölüm» sözünü işlətmir. Şeirlərində belə deyir: «yuxuda keçirdiyin beş yetmiş il bəsdir», «Sən bir an pərdəni üzündən götür», «ey iki cahanı özündə birləşdirən, nə üçün torpaq altındasan?», «Sən ki (adi) xəzinə deyilsən, nə üçün torpaqlar içində gizlənmisən?», «ey pak xəzinə, nə qədər ki sən torpaq altındasan, bütün xəzinələri torpağa tapşırmalıyıq». «Yuxu örtüyündə nə qədər qalacaqsan?» - yəni gəl, sənə ehtiyacımız var.

Ümumiyyətlə, hz. Nizami nətlərində, meracnamələrində islam Peyğəmbərinə üz tutaraq, ehtiyaclarını dilə gətirir, Ondan istəyir:

**O, yardım, şəfaət istəyir:**

***… Qulluğunda çoxlu təqsirim var,***
***Nə tədbir, ey Allahın Peyğəmbəri.***

***O pak məzarından bir istəyim var,***
***Ki, bu torpağın işi haqqında bir xahiş edəsən.***

***Onda ki, vaxtını sən özün bilirsən,***
***O Yəmən qumaşından əlini çıxarasan (deyəsən):***

***«İlahi, Nizaminin (düyün) işini aç,***
***Onun kafir nəfsindən zünnarı aç.***

***Ürəyini dinclik xəzinəsinə çatdır,***
***O bağışlanmalıya rəhmin gəlsin.***

***Hərçənd ki onun günahı ağır bir dağdır,***
***Sənin rəhmət dənizin ucsuz-bucaqsızdır.***

***Axı sən ruh bağışlayansan, onu bağışla,***
***Axı sən əvəzsiz bağışlayan Allahsan».***[938]

**Hz. Nizami islam Peyğəmbərindən doğrunu yazmaq gücü, ilhamı istəyir:**

***… Dur, gözləməkdən gözü qaralanların***
***gecəsini gündüzə çevir,***
***Nizami təbinin isə şənliyini artır.***[939]

---

[938] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, s. 33.
[939] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 36.

***... Sənin xəbərini arayan Nizaminin beyni,***
***Sən saçdığın ənbər ətri ilə canlanır.***

***Öz nəfəsindən ona vəfadarlıq ətri bağışla,***
***Süleyman mülkünü o fəqirə bağışla.***[940]

**Hz. Nizamiyə görə, islam Peyğəmbərinin məzarının torpağı bərəkət qaynağıdır. O, bu bərəkətdən pay istəyir:**

***.. Sənin torpağını (sürmə kimi) Nizaminin***
***gözlərinə çəkim,***
***Sənin qulun kimi (atının) çulunu çiynimdə gəzdirim.***

***Ki böyüklər (Sənin məzarının torpağından)***
***təzə-tər qaliyə hazırlayanda,***
***Mənim torpağımı da qaliyə kimi öz***
***başlarına saçsınlar.***[941]

Mübarək merac səfərindən qayıtmış islam Peyğəmbərindən hz. Nizami nə istəyir? Bu sualın cavabı merac gecəsi uca Allahın (c.c) islam Peyğəmbərinə verdiyi nemətlərə bağlıdır. Merac gecəsi O, ixlas süfrəsinə qonaq olmuşdur, Ona verilən də ilahi nurdur, ilahi elmdir, ilahi sirlərdir, əfv fərmanıdır, bağışlanmaq müjdəsidir, cəhənnəmdən azad olmaq vəsiqəsidir, namaz elmidir. Uca Allahın (c.c) ixlas süfrəsinin nemətləri bunlardır. Hz. Nizami də bu nemətlərdən pay istəyir. Ona görə də bu payı gətirənə – hz. Məhəmmədə (s.a.s) müraciət edir: niqabda nə qədər qalacaqsan, yuxu örtüyündə nə qədər olacaqsan? Qalx və bizim nur payımızı ver!

---

[940] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 38.
[941] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 41.

## İKİ YÜZ DOXSAN YEDDİNCİ ADDIM: ŞAHSAN, İKİ-ÜÇ SİRRİ ÜZƏ ÇIXART

برخیز و نقاب رخ برانداز
شاهی دو سه را به رخ درانداز

***Qalx, üzündən sən niqabı (örtüyü) at,***
***Şahsan iki-üç (sirri) üzə çıxart.***[942]

Hz. Nizami bu beytdə islam Peyğəmbərinə olan ehtiyacı ifadə etmişdir. Birinci misrada ehtiyacı ifadə edən sözlərdən biri «qalx» sözüdür. «Qalx», yəni gəl, ehtiyaclarımızı həll et, merac gecəsinin sirlərini anlat. Misrada ehtiyacı ifadə edən sözlərdən biri də «örtüyü at»dır. Yəni gizlində qalma, ümmət səni görmək istəyir, onun Sənə ehtiyacı var. Şair deyir ki, Sən şahsan. Burada «şahsan» sözü o deməkdir ki, merac gecəsinin sirrini ancaq O bilir. Onsuz bu sirləri heç kim bilmir. Bu da ehtiyac ideyasının başqa formada ifadəsidir.

## İKİ YÜZ DOXSAN SƏKKİZİNCİ ADDIM: BU SÜFRƏNİ YÜKÜN ÜSTÜNDƏN GÖTÜR

این سفره ز پشت بار برگیر
وین پرده ز روی کار برگیر

***Bu süfrəni yükün üstündən götür,***
***Bu pərdəni işin üzərindən qaldır.***[943]

Şair bu beytdə ehtiyac ideyasını başqa bədii biçimdə təqdim etmişdir. Şair öncə ehtiyacın başlıca səbəbi olan yoxluq

[942] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27.
[943] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 27..

anlayışının (ehtiyac bir şeyin yoxluğundan yaranır) ifadəsi olan sözü seçmişdir. Öncəki beytlərdə yoxluq anlayışı «niqab», «yuxu örtüyü» sözləri ilə ifadə edilmiş, bu beytdə isə eyni mənanın təqdimi üçün «süfrə» sözü seçilmişdir. Bu süfrə («niqab», «örtük») yükün üstündədir. Burada «yük» sözü merac neməti anlamındadır. Öncəki misralarda «yük» anlayışı (nemət) «sirr» sözü ilə verilmişdir. Yəni merac nemətinin, merac yükünün, merac sirrinin üstündə (xəzinənin üstündə) bir örtük var. O xəzinənin sirrini ancaq hz. Məhəmməd (s.a.s) bilir. Burada «süfrə», «niqab» sözlərini şifrə, kod, açar kimi də oxumaq olar. «Bu pərdəni işin üzərindən qaldır», yəni işin əslini, gerçəyini, doğrusunu, sirrini bilmək istəyirik, bunu bizə öyrət, dini, uca Allahı (c.c) doğru tanımaq ölçüsünü bizə ver.

Hz. Nizamiyə görə, insan uca Allahı (c.c) doğru tanımadan gerçək həyat anlayışına sahib ola bilməz. İnsanın insanla, insanın cəmiyyətlə, insanın ətraf mühitlə bağlı problemləri onun uca Allahı (c.c) doğru tanımaması ilə bağlıdır. Hz. Nizami də dövrünün problemlərini bu anlayışa bağlayır. Dinin şifrələrinin doğru oxunması üçün hz. Məhəmmədə (s.a.s) ehtiyac olduğunu bildirir. Ona görə, merac nemətləri uca Allahı (c.c) tanımaq elmidir.

## İKİ YÜZ DOXSAN DOQQUZUNCU ADDIM: DÖRD TƏBDƏKİ TƏZADI AÇ

رنگ از دو سیه سفید بزدای
ضدی ز چهار طبع بگشای

***İki qara və ağın (gecə-gündüzün) rəngini sil!***
***Dörd təbdəki (qan, bəlğəm, səfra, sevda) təzadı aç!***[944]

---

[944] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 28.

Hz. Nizami bu beytdə də islam Peyğəmbərinə olan ehtiyacı şərh etmişdir. Şair deyir ki, ey Məhəmməd (s.a.s) gecə ilə gündüzün rəngini sil, yəni onları bir rəng et. Əslində, gecə ilə gündüz arasında elə bir təzad var ki, onu həll etmək mümkün deyil, Onu ancaq hz. Məhəmməd (s.a.s) edə bilər. Yəni merac gecəsi o qədər bərəkətlidir ki, (merac hadisəsi gecə baş vermişdir) bu gecə gündüzə çevrilmişdir. Elə şair də bir sıra beytlərində merac gecəsini gündüz adlandırmışdır:

***… Bu gecə sənin qədr gecəndir, tələs,***
***Öz qədr gecənin qədrini bil!***
***Əbədiyyət bəzəyidir bu gecə,***
***Məhəmmədin merac gecəsidir bu gecə.***
***Nə xoşbəxtdir o gecə ki,***
***Sənin dünyanı işıqlandıran qədəminlə***
***gündüzə döndü.*** [945]

İki qara və ağın rəngini sil, yəni gecəmiz də gündüz kimi bərəkətli olsun, cəhalət və zülm ümmətin üzərindən götürülsün. Şair deyir ki, dörd təbdəki təzadı aç. Burada hz. Nizami insanı tanımaq elminə işarə edir. Bunun da bir fiziki, tibbi yönü, bir də dini yönü var. Şair insan bədəninin tərkibi deyərkən dörd əsası önə çəkir: qan, bəlğəm, safra, sevda.

**Təbii qan** isti və yaşdır, rəngi qırmızıdır, dadlıdır, insan bədəninin üzvləri onunla qidalanır. Qeyri-təbii qan soyuq olur, rəngi bulanıqdır, dadı acıdır, faydası yoxdur.

**Təbii bəlğəm** soyuqdur. Rəngi yumurtanın ağına oxşayır. Faydası odur ki, qandır, ya da qanın yerini tutur, orqanları qidalandırır.

**Təbii safra** (öd) isti, turunc rəngli, yapışqandır, qana qarışır, yardımçı olur, bədənin **dərmanıdır.**

---

[945] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 26.

**Təbii** sevda təbii qanın dibində qalan yığıntıdır, yeri dalaqdır. Aclığı və şəhvəti təhrik edir.

İnsan bədəninin bu dörd təbiəti belə əmələ gəlir. Öncə qida çeynənir, həzm olunur, bu işi ağız və mədə yerinə yetirir. Çeynənmiş qida mədəyə çatır, mədənin üst qapağı bağlanır, qida həzm olunur. Bu həzm təkcə mədənin deyil, sağ tərəfdəki qaraciyərin, sol tərəfdəki dalağın, iç yağının, ürəyin hərarəti ilə gerçəkləşir. Mədədə həzmi asanlaşdıran cövhər – maddə var. Həzmdən sonra sərt hissə bağırsaqlara gedər, incə hissə isə mədəyə bağlı olan incə damarlarla qaraciyərə gedər. Bu damarlar tük kimi incədir. Qida bu damarlarla qaraciyərə sorulur. Bütün qaraciyər bu incə qidanı özünə çəkər və dolar. Qida iki-üç saat müddətində orada bişər, ikinci həzm gerçəkləşər. Bu bişmədən əmələ gələn qidanın rəngi qırmızı olar. Bu qidanın üzündə qaymaq kimi bir şey, dibində də çöküntüyəbənzər bir maddə əmələ gəlir. **O qaymaq safradır, çöküntü də sevdadır**. Bu ikisi təbiidir. Qida qaraciyərdə az bişəndə yemişə oxşar maddə əmələ gəlir, bu təbii bəlğəmdir. Bunların içində saf və xalis olanı qandır. Ancaq hələ suyu çoxdur. Qan ciyərdən ayrılmadan öncə onun suyu böyrəklərə gedən damarlarla çəkilir, böyrəklər ona qida olacaq yağ və qanı alır, başqa mayeni sidik kisəsinə süzür, oradan da bədəndən çölə atılır. Artıq tam formalaşmış qan ciyərin üstündə olan böyük damarla çəkilir, ondan ayrılan damarlarla ürəyə, oradan da bədənə yayılır, bütün orqanlar qidalanır.

Qan, bəlğəm, sevda və safranın əmələ gəlməsinin səbəbi istilik və soyuqluqdur. Çünki normal istilikdən qan, çox istilikdən yandırıcı safra, daha çox hərarətdən yandırıcı sevda, soyuqluqdan bəlğəm əmələ gəlir. Qan ilə damar içində qalan bu ünsürlərlə iki-üç saatdan sonra üçüncü həzm gerçəkləşir. Hər bir bədən üzvü qidalananda da dördüncü həzm gerçəkləşir. Bu həzmdən sonra üzvlərdə olan artıqlar qulaq kiri, göz yaşı, sümük və burundan qatı kir, saç, tük, dırnaq halını alır, bədəndən ayrılan tər, kir, yara şəklində

çölə atılır. Bu dörd təbiət (qan, bəlğəm, safra, sevda) bədənin hərəkəti ilə hərəkət edir (hərəkəti artır). Gözəl şeylər düşünmək də dörd təbiəti təhrik edir.

Hz. Nizami islam Peyğəmbərinə müraciətlə deyir ki, bu dörd təbdəki təzadı aç. Əslində, şair bu beytdə «Mən ərəfə nəfsəhu, fəqət ərəfə Rəbbəhu» («Nəfsini tanıyan Allahı (c.c) tanıyar») ölçüsü ilə hərəkət etmişdir. Şair, hz. Məhəmmədə (s.a.s) deyir ki, insanın yaradılış sirrini bizə öyrət, insanı bizə tanıt ki, uca Allahı (c.c) tanıya bilək. **Hz. Nizamiyə görə, sirlər xəzinəsi uca Allahı (c.c) tanıdan elm xəzinəsidir. Bu xəzinəni öyrənmiş olan uca Allahı (c.c) tanımış olacaq. Deməli, hz. Nizaminin əsərləri də uca Allahı (c.c) tanıtmaq elminin xəzinəsidir.**

Göründüyü kimi, hz. Nizami bu beytdə insanlığın islam Peyğəmbərinə ehtiyacı ideyasını bədii biçimdə təqdim etmişdir. Şair beytin birinci misrasında gecə və gündüzün adını çəkir, islam Peyğəmbərinə deyir: «gecə və gündüzün rəngini sil». Şairin misrada gecə və gündüzün adını çəkməsi təsadüfi deyil. Bu anlayışlar hz. Məhəmmədə (s.a.s) olan ehtiyacı ifadə etmək gücündədir. Belə ki, gecə və gündüzün bir-birini əvəz etməsi uca Allahın (c.c) varlığının dəlillərindən biridir. Həm də gecə ilə gündüzün bir-birini əvəz etməsi uca Allahın (c.c) qanunlarına (sünnətullaha) uyğun baş verir. Bu, dəyişməz qanundur və uca Allahın (c.c) qüdrətinin əlamətidir:

إِن في خَلْق السماوات والأرضِ واخْتلاَف الليل والنهارِ والْفُلْك التي
تَجرِي في الْبحرِ بِما ينفَع الناس وما أَنزلَ اللّه من السماء من ماء
فَأَحيا بِه الأرض بعد موتها وبث فيها من كُل دآبة وتَصرِيف
الرياحِ والسحابِ الْمسخرِ بين السماء والأرضِ لآيات لقَومٍ يعقلُون

(əl-Bəqərə, 2/164)

«Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfinə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır».

**Hz. Nizami demək istəyir ki, islam Peyğəmbərindən sonra dünyanın nizamı, sistemi pozulub, zülm və ədalətsizlik hər şeyi və hər yeri əhatə edib, gecənin və gündüzün rəngi dəyişib, hansı zamanın gecə, hansının gündüz olduğu bilinmir, rənglər bir-birinə qarışıb. Elə ədalətsizlik də rənglərin qarışmasıdır, insanların və əşyaların haqqının pozulmasıdır. Bu pozulmuş sistemin ilk mahiyyətini bərpa edəcək bir şəxs var, o da hz. Məhəmməddir (s.a.s).**

Şairin beytin ideyasını merac anlayışı ilə bağlaması da diqqəti çəkir. Belə ki, meracın dəyəri islam mədəniyyətinin əsaslarını formalaşdırması ilə bağlıdır. Meracın təqdim etdiyi dəyərlər pozulanda, islam mədəniyyətinin dayaqları da dağılır və sistem çökür. Bu yolla da zülm və ədalətsizliyə gedən yolun önü açılır. İnsan özünə və başqalarına zülm edir. **Bu mənada merac dəyərləri islam mədəniyyətinin özəyidir. Bu özək çürüyəndə ilahi qanunlar da pozulur, «ölü namazlar», «ölü Quranlar», «ölü dəyərlər» ortaya çıxılır. Yəni içi dərk edilməyən, əmələ, əxlaqa çevrilməyən din anlayışı formalaşır, hər şey bir-birinə qarışır, «gecə ilə gündüzün rəngi bilinmir». Bu mənada «namaz dinin dirəyidir», bu mənada uca Allahın (c.c) «… özünüzə zülm etməyin» ilahi xəbərdarlığı islam mədəniyyətini formalaşdıran dəyərlərdən uzaq düşməyin deməkdir.**

Şair beytin ikinci misrasında islam Peyğəmbərinə olan ehtiyacı insan bədəninin tərkib hissələrini təşkil edən maddələrin xarakteri və bir-birinə olan münasibəti ilə təqdim edir. Dörd təb (qan, bəlğəm, safra, sevda) insan bədəninin fitrətini təşkil edir. Bu təb pozulanda insanın fitrəti pozulur. Fitrət pozuntusu ilahi qanunlardan uzaqlaşma deməkdir. Bu da fərd və cəmiyyətin əxlaqının pozulmasıdır.

Şair dinin dəyərlərinə merac ruhu ilə baxmayan toplumun və fərdin aqibətini təsvir etmişdir. Ortada iki gerçəklik var: ilahi qanunların pozulması, insanın fitrətinin pozulması. Bunlar bir-biri ilə sıx bağlıdır. Şairə görə, bu iki halı dəyişdirəcək, təbiətin və insanın fitrətini öz əslinə qovuşduracaq bir şəxs var. O da hz. Məhəmməddir (s.a.s). Bu, Onun xilaskarlıq missiyasıdır, fərdin və cəmiyyətin Ona olan ehtiyacıdır. Yəni islam Peyğəmbərinin vəhy yolu ilə aldığı ilahi dəyərlər olmadan fitrət üzrə yaşamaq mümkün deyil.

## ÜÇ YÜZÜNCÜ ADDIM:
## BU İKİ VƏFASIZI HƏMƏHD ELƏ

یک عهد کن این دو بی‌وفا را
یک دست کن این چهار پا را

***Bu iki vəfasızı həməhd elə!***
***Bu dörd ayaqlını əlbir elə!***[946]

Hz. Nizami bu beytdə də islam Peyğəmbərinə olan ehtiyac ideyasını ifadə etmişdir. Şair birinci misrada «iki vəfasız» deyərkən gecə ilə gündüzü nəzərdə tutmuşdur. Şair onların «həməhd» olmasını istəyir. Öncəki beytlə əlaqə qursaq, belə bir nəticə alınar. Gecə gündüzün də yerini tut-

[946] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 28.

muşdur. Öz əhdindən, yəni missiyasından kənara çıxmışdır. Cəmiyyətdə o qədər zülm var ki, hər yer və hər zaman qaranlıqdır, gecənin və gündüzün rəngi bir-birinə qarışmışdır. Gecə və gündüzü həməhd etmək ehtiyacı var, gecə gündüzün yerini tutmamalıdır, onlar vəfasızlığa son qoymalı, yaradılış missiyasına dönməli və təyinatına uyğun fəaliyyət göstərməlidir. Şairə görə, gecə ilə gündüzü həməhd etmək missiyasını ancaq hz. Məhəmməd (s.a.s) yerinə yetirə bilər.

«Bu dördayaqlını əlbir elə», yəni qan, bəlğəm, səfra, sevda insan bədənini təşkil edir. Bu maddələr mahiyyətcə bir-birinə zidd olsa da, yaradılış təyinatına uyğun fəaliyyət göstərəndə insanın həyatını təmin edir, insan sağlam yaşayır. Onların arasında tarazlıq pozulanda insan xəstələnir. Şair deyir ki, bu dörd ünsür yaradılış qayəsinə uyğun fəaliyyət göstərmir. Yəni insanların fitrəti pozulub. İnsan bədəninin əsası olan bu maddələrin doğru istiqamətdə fəaliyyət göstərməsini, yəni insan fitrətinin bərpasını təmin edəcək şəxs hz. Məhəmməddir (s.a.s). Əslində, bu maddələrin mahiyyətinin pozulması insanın ölümə doğru getməsi deməkdir. İnsanlığın xilasa ehtiyacı var. Xilaskar da hz. Məhəmməddir (s.a.s).

## HƏZRƏT NİZAMİ: «MƏNİM ŞEİRLƏRİM AĞILI NURLANDIRIR, RUHU TƏZƏLƏYİR»

***Saf şeir yaratmaq Nizaminin işidir,***
***Dəri dilində şeir yaratmaq da Nizamiyə layiqdir.***

***Bu gözəl dastan elə deyər ki,***
***Oxunmasından beyin işıqlanar.***

***Bu dairədə mən sözləri düzdüyüm vaxt,***
***Öz tanrımı köməyə çağırdım.***

***Ki bu naməni əziz və mübarək etsin,***
***Onu əziz tutanları da əziz etsin.***

***Onun qol-qanadını elə açsın ki,***
***Onunla fal açanda səadət ulduzu nəsib olsun.***

***Qoy oxuculara sevinc gətirsin,***
***Bilənlərə də şadlıq yetirsin.***

***Qoy qəlbi qırıqlara qüdrət versin,***
***Qəmli sinələrin qəmküsarı olsun.***

***O, yaralanmış sinələri nəvaziş edər,***
***Müşkül işləri də açar.***

***Əgər onu bir aciz adam oxumaq istəsə,***
***Oxuyarkən Tanrı ona güc versin.***

***Əgər ümidsiz bir bəndə onu əlinə alsa,***
***Hər diləyi varsa, əlinə düşsün.***

***Bu yolla Allahdan hər nə istədim,***
***O verdi və verilmişə şükür etdim.***

## ÜÇ YÜZ BİRİNCİ ADDIM:
## HƏYATI TƏRBİYƏ ETDİN

چون تربیت حیات کردی
حل همه مشکلات کردی

***Elə ki həyatı tərbiyə etdin,***
***Bütün çətinlikləri həll etmişsən.***[947]

Hz. Nizami bu beytdə də islam Peyğəmbərinin xilaskar missiyasını, cəmiyyətin Ona olan ehtiyacını ifadə etmişdir. Şair deyir ki, O, həyatı tərbiyə etmişdir. Hz. Məhəmməd (s.a.s) ümmidir, o yazmağa, oxumağa ehtiyacı olmayan, bu yolla elm öyrənməyən, müəllimi uca Allah (c.c) olan tərbiyəçidir. Onun elm almaq yolu vəhydir. Tərbiyə etmək bir şeyi müsbətə doğru dəyişdirmək, irəliyə doğru hərəkət etdirmək, inkişafa yol açmaq deməkdir. Tərbiyəçi də elmi, səbri, fədakarlığı, gözəl əxlaqı özündə cəmləşdirən insandır. Hz. Məhəmmədin (s.a.s) tərbiyəçi kimi fərqli özəllikləri də var. Onu tərbiyəçi kimi uca Allah (c.c) seçmişdir, O, bir şəxsin, qrupun deyil, həyatın, bütün insanlığın tərbiyəçisidir. Onun tərbiyə zamanı istifadə etdiyi mətnin müəllifi uca Allahdır (c.c). O, həyatı tərbiyə etdi, yəni öncə yanlış olanları, tövhid inancına zidd anlayışları dəyişdirdi, onların yerinə yeni, doğru ölçülər qoydu. O, həyatı tərbiyə etdi, yəni yeni bir mədəniyyət, vəhyə bağlı olan islam mədəniyyəti gətirdi. Bu mədəniyyətin ölçüləri ilə yeni insan yetişdirdi. Bu insanların bir sıra özəllikləri var: onlar uca Allahın (c.c) varlıq və birliyinə inanırlar, onlar Peyğəmbəri çox sevirlər, onlar uca Allahın (c.c) buyruqlarını sevə-sevə yerinə yetirirlər, ədaləti, azadlığı, elmi çox sevirlər. İslam ümmətinin

---

[947] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 28.

tərbiyə kitabı Qurani-Kərim, tərbiyəçisi hz. Məhəmməddir (s.a.s). Bu tərbiyənin hədəfi uca Allahın (c.c) razı qalacağı insan yetişdirməkdir.

Şair beytin ikinci misrasında deyir ki, hz. Məhəmməd (s.a.s) həyatı tərbiyə etdikdən sonra bütün çətinliklər həll olundu. Bu o demək deyil ki, cəmiyyətdə problem qalmadı. Bu o deməkdir ki, cəmiyyətin problemlərinin doğru həll yollarının ölçüləri müəyyənləşdirildi. İstənilən məsələni bu ölçülərlə doğru həll etmək olar. Bu ilahi ölçülər insanı, cəmiyyəti xoşbəxt etmək üçündür.

## ÜÇ YÜZ İKİNCİ ADDIM:
## BİZƏ DƏ BİR PAY ÇATSIN

زان نافه به باد بخش طیبی
باشد که به ما رسد نصیبی

***O müşkündən küləyə bir ətir bağışla ki,***
***Bəlkə bizə də bir pay çatsın.***[948]

Hz. Nizami bütün nət və meracnamələrində islam Peyğəmbərini təsvir edərkən müşk obrazından istifadə etmişdir. O, bu beytdə də islam Peyğəmbərini ətirli varlıq kimi təqdim edir. **Ətirlə tərbiyəçi anlayışları arasında da uyğunluq var. Tərbiyəçi təsir etmək, müsbətə doğru dəyişdirmək gücü olan insan deməkdir. Onun sözləri, baxışı, bütün varlığı ətir saçır, insanlara təsir edir, onların ruhunu dirildir.**

Şair də o gözəl tərbiyəçidən bir ətirli pay istəyir. Uca Peyğəmbərin ətirli sözləri ilə ruhunu tərbiyə etmək, ona qida vermək, dünyanı bu tərbiyə ölçüləri ilə anlamaq istə-

---

[948] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 28.

yir. Burada söhbət həm də ondan gedir ki, şair merac yolçuluğundan qayıtmış Peyğəmbərə üz tutur. **Hz. Nizamiyə görə, merac Peyğəmbərin ilahi nurlanma, ətirlənmə halıdır. Merac nemətinin hər biri bir nur, bir ətirdir.**

## ÜÇ YÜZ ÜÇÜNCÜ ADDIM: LÖVHİ ƏVVƏLDƏN OXUMUSAN

زان لوح که خواندی از بدایت
در خاطر ما فکن یک آیت

***O lövhü (mətni) ki əvvəldən oxumusan,***
***Bizim xatirimizə də bir ayə sal!***[949]

Hz. Nizami beytin birinci misrasının mətninə «lövh» anlayışını yerləşdirmişdir. «Lövh» üzərinə yazı yazılan masa, düz şey deməkdir. Bu anlayış bir də «lövhi-məhfuz» kimi işlənir. Mənası etibarlı qorunan (qorunmuş) lövhə deməkdir. «Lövhə» sözünün cəmi «əlvah»dır. Uca Allah (c.c) Qurani-Kərimdə buyurur:

بَلْ هو قُرآن مجيد في لَوحٍ محفُوظ

(əl-Buruc, 85/21-22)

«Xeyr, o şanlı-şərəfli Qurandır! O, lövhi-məhfuzdandır».

Yəni Qurani-Kərim ilahi himayə altındadır, qorunur, heç bir güc onu dəyişdirə, ona toxuna bilməz. İslam alimləri «Lövhi-məhfuz»la bağlı bunları söyləyirlər: «… Lövhi-məhfuz göyün yeddinci qatının üstündə olan bir cismdir. Uca Allah (c.c) aləmin yaradılışından sonunadək nə baş verəcəksə, bu cismin üzərinə yazmışdır. Buna Qurani-Kərimdə buyurulduğu kimi bəzən «lövhi-məhfuz», bəzən

---

[949] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 28.

də «Kitabi-mübin» deyilir. Ancaq bu lövhənin üzərinə yazılanlar görülməz. Uca Allahın (c.c) zikr etdiyi lövhə yaradılmış başqa lövhələrə bənzəməz. İslam alimləri bu məsələnin daha dərindən anlaşılması üçün belə bir misal verirlər. «Lövhi-məhfuzda yazılanların varlığı Quranın kəlmə və hərflərinin bir halının zehindəki varlığına bənzər. Quran hafizin zehnində sətir-sətir yazılıdır. Hafiz Quran oxuyarkən onu, sanki, gözləri ilə görür. Ancaq beyninin hər parçası ayrı-ayrı tədqiq edilsə, yazının tək bir hərfini belə tapmaq mümkün deyil. Deməli, lövhi-məhfuzda Allahın təqdir və qəza etdiyi şeylər ilə Quranın oradakı mövcudluğunu bu cür anlamaq lazımdır».[950]

Şair deyir ki, islam Peyğəmbəri Lövhi-məhfuzdakı mətni öncədən oxumuşdur. Ona görə, merac gecəsi islam Peyğəmbəri uca Allahın (c.c) hüzuruna getmiş və lövhi-məhfuzu oxumuşdur, yəni oradakı elm Ona verilmişdir. «Bizim xatirimizə də bir ayə sal», yəni o elmdən az da olsa, bizə də ver, o ayələri bizə xatırlat, bizə öyrət, bizi bu ayələrlə tərbiyə et.

## ÜÇ YÜZ DÖRDÜNCÜ ADDIM: BİZİM DƏFTƏRİMİZƏ BİR HƏRF YAZ

زان صرف که یافتیش بی‌صرف
در دفتر ما نویس یک حرف

***O sərfədən ki sərfəsiz sayırsan,***
***Bizim dəftərimizə bir hərf yaz.***[951]

Hz. Nizami bu beytdə də islam Peyğəmbərinə olan ehtiyacı ifadə etmişdir. Şair bu məzmunlu beytlərdə ehtiyacı

---

[950] «İslami kavramlar», göstərilən qaynaq, s. 457.
[951] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 28.

ifadə etmək üçün ayrı-ayrı vasitələrdən istifadə edir. Onlardan biri də ehtiyacın əmr şəklində olan fellərlə təqdim olunmasıdır: «ətir bağışla», «pay çatsın», «ayə sal», «hərf yaz», «həməhd elə», «əlbir elə», «pərdəni işin üzərindən qaldır», «iki qara və ağın rəngini sil», «dörd təbdəki təzadı aç», «Nizamiyə bir sirr ver», «üzündən niqabı at», «iki-üç sirri üzə çıxart», «bu süfrəni yükün üstündən götür», «mənə şəfaət et»… Fikrin əmr şəklində ifadə olunması ehtiyacın şiddətini göstərir. İnsan bir şeyə çox möhtac olanda ehtiyacı olanı tez əldə etməyə çalışır, bunu arzulayır, o, mövcud vəziyyəti dəyişdirməyə, xilas olmağa can atır.

Hz. Nizami bu beytdə islam Peyğəmbərini ümmətin doğru olmayan işlərini düzəltməyə çağırır. Yəni şair demək istəyir ki, ümmətin vəziyyəti çox ağırdır, onun ciddi çətinlikləri var. Bu ümmətin ən böyük problemi cəhalətdir, ümmət doğru ilə əyrini bir-birindən ayıran ölçünü itirmişdir. Ölçünün, dəyərin itməsini şair misrada «faydasızı, sərfəsizi faydalı, sərfəli sayan ümmət (bizlər)» şəklində ifadə etmişdir. Şəri xeyir sayan toplum ümmət olmaq keyfiyyətini itirmişdir. Ölçü itdiyindən doğru ilə əyri bir-birinə qarışmışdır. Şair deyir ki, ey Məhəmməd, o şeyi ki, biz sərfəli sayırdıq, Sənin ölçünə görə faydasızdır, onları bizim dəftərimizə yaz, yəni doğru olanları bizə göstər, bizi tərbiyə et, bizim yenidən güclü bir ümmət olmağımıza yardım et.

## ÜÇ YÜZ BEŞİNCİ ADDIM: BİZƏ NƏ ADLANDIĞIMIZI GÖSTƏR!

بنمای به ما که ما چه نامیم
وز بت گر و بت شکن کدامیم

***Bizə bizim nə adlandığımızı göstər!***
***Büt qayıranıq, ya büt qıran, hansıyıq?!***[952]

---

[952] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, s. 28.

Hz. Nizami bu beytdə islam Peyğəmbərinə olan ehtiyacı ifadə etmək üçün öncə ümmətin cahil vəziyyətini göstərmişdir. O, ümmətin cəhalətinin dəhşətini göstərmək üçün dəqiq detallar seçmişdir. Bu ümmət islam Peyğəmbərinin gətirdiyi dəyərlərdən o qədər uzaqlaşmışdır ki, adını belə unutmuşdur, nə adlandığını bilmir, artıq müsəlman kimliyi unudulmuşdur, «ölü müsəlmanlar» cəmiyyəti əmələ gəlmişdir. Bu cahil insanlar müsəlman olub-olmadığını bilmirlər. Şair deyir ki, biz bütqayıranıq (yəni uca Allaha (c.c) şərik qoşanlarıq), yoxsa büt qıran (yəni müsəlman) bilmirik, özümüzü tanımırıq. Şair Peyğəmbərə deyir ki, gəl, öncə bizim vəziyyətimizin diaqnozunu qoy, «bizim nə adlandığımızı göstər, bizim müsəlman olub-olmadığımızı bizə de». Şairə görə, ümməti bu cəhalətdən qurtaracaq bir insan var. O da hz. Məhəmməddir (s.a.s).

## ÜÇ YÜZ ALTINCI ADDIM: SƏNİN ƏTRİN BİZİM CANIMIZIN CAN DƏRMANIDIR

ای سخنت مهر زبانهای ما
بوی تو جانداروی جانهای ما

***Ey (vəhdətinin) sözü dilimizin naxışı,***
***Sənin ətrin bizim canımızın can dərmanıdır.***[953]

Hz. Nizami bu beytə «ey» müraciəti ilə başlayır. Bu müraciət də islam Peyğəmbərinə olan sevgini, inamı və ehtiyacı ifadə edir. «Ey» müraciəti ehtiyac ideyasının tərkib hissəsi kimi beytin mətninə daxil edilmişdir. Şair bu beytdə ehtiyac ideyasını iki anlayış üzərində qurmuşdur. O deyir ki, Sənin vəhdətinin sözü dilimizin naxışıdır. Bütün səmavi

[953] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, s. 32.

dinlər tövhid inancı (uca Allah (c.c) birdir, Onun şəriki yoxdur, ibadət və itaətə layiq olan yalnız Odur) üzərində qurulmuşdur. Hz. Məhəmməd (s.a.s) də ancaq tövhid inancını təbliğ etmişdir. Dilimizin naxışı Sənin vəhdət sözündür. Dilimizin ən doğru, bizi xilas edəcək sözü tövhid inancı ilə bağlı olan sözdür.

Beytdəki ikinci məna öncəki beytlərin məzmunu ilə bağlıdır. O beytlərdə deyilir ki, müsəlmanlar ümmət olmaq düşüncəsini itirib, onların yenidən tərbiyəyə ehtiyacı var, onlar adlarını (müsəlman kimliyini) belə unudublar, bütpərəst, uca Allaha (c.c) şərik qoşan, yoxsa müsəlman olduqları bilinmir. Şairə görə, bu ümmətin xəstəliyinin adı cəhalətdir. Bu cəhalətdən xilas yolu da tövhid inancının düşüncəmizə yerləşməsi, bu inanca aid olan sözlərin dilimizin naxışına çevrilməsidir. Hz. Məhəmmədin (s.a.s) sözləri də ətrini tövhid inancından alır. Onun sözlərinin ətri də bizim canımızın can dərmanıdır, ruhumuzun qidasıdır, bizi tövhid inancına qovuşduracaq dərmandır.

## ÜÇ YÜZ YEDDİNCİ ADDIM: MƏN CANIMIN GÖVHƏRİNİ ONUN AYAĞINA ATIM

به ار گوهر جان نثارش کنم
ثنا خوانی چار يارش کنم

***Yaxşıdır ki, mən canımın gövhərini***
***Onun ayağına atım,***
***O dörd yavərinin tərifini edim.***[954]

Hz. Nizami «İsgəndərnamə» dastanında islam Peyğəmbərinin meracdan sonrakı halını təsvir edərkən iki məsələni önə çəkir. Onu insanlarla müqayisə edir və dörd xəli-

[954] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 34.

fəyə yer ayırır. Şairə görə, əgər bizim canımız (ruhumuz, xəyalımız) bir anda dünyanın ətrafını gəzə bilirsə, Onun merac gecəsi uca Allahın (c.c) hüzuruna getməsi də təbiidir. Çünki Onun vücudu bizim ruhumuzdan daha təmizdir. Burada şairin məqsədi həm islam Peyğəmbərinin sağlığında, həm də sonrakı dövrlərdə merac hadisəsinin mümkünlüyünü inkar edənlərə cavab verməkdir. **Şairin merac gecəsi islam Peyğəmbərinin bir anda uca Allahın (c.c) hüzuruna gedib qayıtmasını təsdiq edən dəlili üçdür: O, uca Allahın (c.c) elçisidir, bu yönü ilə başqalarından fərqlənir, merac uca Allahın (c.c) qüdrətinin göstəricisidir, Onun bədəni bizim ruhumuzdan təmizdir.**

Bilindiyi kimi, kafirlər və müşriklər merac hadisəsini inkar etdilər (bu inkarçılıq bu gün də davam edir). Başda hz. Əbu Bəkir (r.a) olmaqla, müsəlmanlar şübhə etmədən merac hadisəsinə inandılar. Buna görə də ona «Siddiq» (sadiq olan) deyildi.[955] Hz. Nizaminin merac möcüzəsini şərh edərkən xəlifələri yada salmasının səbəbi də budur.

Bu girişdən sonra şair deyir ki, yaxşı olar ki, canımın gövhərini (varlığının ən dəyərli parçasını) Onun ayağının altına atım. Yəni mənim canımın gövhəri Onun ayağının tozuna belə dəyməz. Şair bu yolla həm merac möcüzəsinə inancını, həm də təvazökarlığını ifadə edir.

Hz. Nizami beytin ikinci misrasında dörd xəlifənin qoruyuculuq (yavərlik) missiyasını önə çəkir. Onlar həm islam Peyğəmbərini, həm də islam dinini qorudular. Onlar bu yönü ilə tərifə layiqdirlər.

---

[955] İbn Hişam, «Sirət», II, 37-50; İbn Sad, «Tabakat», I, 213-216.

## ÜÇ YÜZ SƏKKİZİNCİ ADDIM: GÖVHƏR ALAN DÖRDDÜR, GÖVHƏR DƏ DÖRDDÜR

گهر خر چهارند و گوهر چهار
فروشنده را با فضولی چکار

***Gövhər alan dörddür, gövhər də dörddür,***
***Gövhər satanın uzunçuluq etməklə nə işi var.***[956]

Hz. Nizami beytin birinci misrasında islam dinini gövhərə bənzətmişdir. Bu gövhəri alan, onun dəyərini bilən də dörddür, yəni dörd xəlifədir, onların aldıqları gövhər olduğu kimi, özləri də gövhərdir, yəni islam tarixinin ən dəyərli insanlarıdır. Hz. Nizami bu beytdə məzhəblərüstü bir anlayış təqdim etmişdir, islam dinini doğru anlamağın yolunu göstərmişdir. **Dörd xəlifənin hər biri bir gövhərdir, islam dininin qoruyucusudur, hz. Məhəmmədin (s.a.s) yavəridir, onları bir-birinə qarşı qoymaq yanlışdır, dinin, ümmətin parçalanmasına yol açır.**

Şair deyir ki, gövhər satanın uzunçuluq etməklə nə işi var. Yəni uzunçuluq edənlər, çox danışıb malını tərifləyənlər ucuz mal satanlardır. İslam dini və dörd xəlifə o qədər qiymətlidir ki, onların tərifə ehtiyacı yoxdur. Şair sonrakı beytlərdə dörd xəlifəni bir-bir təqdim edir.

## ÜÇ YÜZ DOQQUZUNCU ADDIM: ƏLİNİN EŞQİNDƏ MÖHKƏMƏM, ÖMƏRİN EŞQİNDƏN DƏ XALİ DEYİLƏM

به مهر علی گرچه محکم پیم
ز عشق عمر نیز خالی نیم

---

956 Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 34.

***Əlinin eşqində hərçənd ki möhkəməm,***
***Ömərin eşqindən də xali deyiləm.***[957]

Şair xəlifələrin sırasında ilk olaraq hz. Əlinin (r.a) adını çəkir. Onun eşqində möhkəm olduğunu söyləyir. Bunun səbəbi həm hz. Əlini (r.a) çox sevməsi, həm Onun islam dinini ilk qəbul edənlərdən olması, həm də Peyğəmbərin qohumu, əhli-beytindən olması ola bilər.

## HZ. ƏLİ (r.a)

Hz. Əli (r.a) islam Peyğəmbərinin əmisi oğlu və kürəkənidir. O, Peyğəmbərdən sonra islamı ilk qəbul edən kişidir. Bu zaman doqquz yaşı var idi. O, Peyğəmbərin çox sevdiyi qızı hz. Fatimə (r.a) ilə evlənmiş, bu evlilikdən Həsən və Hüseyn adlı iki övladı olmuşdur və Peyğəmbərin soyu onlarla davam etmişdir. O, heç zaman bütə sitayiş etməmiş, Təbük savaşından başqa, bütün döyüşlərdə iştirak etmişdir. Onun Xeybər döyüşündəki igidliyi dillərdə dastan olmuşdur. O, sağlığında cənnətlə müjdələnən on şəxsdən biridir. O, elmin qapısı, yenilməz qəhrəman, özünü uca Allaha (c.c) həsr etmiş, gözü, könlü tox zahid, çox təsirli nitqi olan məşhur xətibdir (natiqdir).[958] Ləqəbləri Mürtəza, Heydər, Əsədul-lillahil-qalibdir (uca Allahın (c.c) qalib aslanı). Künyələri isə Əbul-Həsən, Əbul-Reyhanəteyn, Əbu Turabdır. Buğda rəngli, gözləri iri və qara, üzügülər, ortaboylu, iribədənli idi. Sıx və uzun saqqalı var idi. O, qəlbi təmiz, qənaətcil, ixlas sahibi olan bir insan idi. Heç zaman ədalətdən ayrılmadı. Onun himməti, zəkası, yaddaşı çox güclü idi, hazırcavab idi, çətin məsələləri həll etməyi bacarırdı. İslam Peyğəmbərinin onunla bağlı hədisləri var.

---

[957] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 34.
[958] Suyuti, «Tarihul-Hulefa», s. 166-167.

Allah (c.c) rəsulu buyurdu: «Əziz və cəlil olan Allah mənə dörd insanı sevməyi əmr etdi və onları sevdiyini də bildirdi. Dəyərli əshab dedi:

– Ey Rəsulullah! Onların adlarını bizə də söylə.

Peyğəmbər buyurdu:

– Onlardan biri Əlidir (bu sözü üç dəfə təkrarladı), o biriləri Əbu Zər, Miqdad və Salmandır…»[959]

Hz. Əli (r.a) elmin qapısı sayılır. Hz. Məhəmməd (s.a.s) buyurur: «Mən elmin (hikmətin) şəhəriyəm. Əli də qapısıdır…»[960]

İslam Peyğəmbəri (s.a.s) hz. Əliyə (r.a) belə nəsihət edir: «Ey Əli, tövhidi qoru, o, mənim sərmayəmdir. Namazı doğru qıl, o, mənim gözümün nurudur. Allahı zikr et, o, mənim qəlb gözümdür. Elmdən istifadə et, o, mənim mirasımdır».[961]

Hz. Əli (r.a) islam Peyğəmbərinin vəhy katiblərindən biri idi, o, Quran hafizi idi. O, Qurani-Kərimin ayələrinin harada, nə zaman endiyini bilirdi. O, belə buyurur: «Məndən soruşun. Allaha and içirəm ki, məndən hansı şeyi soruşsanız, mütləq sizə cavab verərəm. Məndən uca Allahın (c.c) kitabını soruşun. Allaha and içirəm ki, mən Allahın kitabında olan hər ayənin gecəmi, gündüzmü, dağdamı, ovadamı endiyini bilirəm».[962]

Hz. Məhəmməd (s.a.s) sevimli qızı Fatiməni (r.a) ərə verərkən belə buyurmuşdur: «Qızım, ərin insanların ən öncə müsəlman olanı və ən çox elmi olanıdır».[963]

---

959 «Riyazüs-salihin», göstərilən qaynaq, c. III, s. 25.
960 Tirmizi, «Mənaqib», s. 20.
961 Fəxrəddin Razi, «Məfatihul-Gayb», c. II, s. 297.
962 Süyuti, «əl-İtkan», c. II, s. 1227.
963 «Doğuştan günümüzə böyük islam tarixi», c. I, s. 295.

İslam Peyğəmbəri ona belə dua etmişdir: «Allahım! Onun qəlbinə hidayət ver, dilini haqqı söyləməkdə sabit qıl və ona doğrunu bildir».[964]

İslam dininin böyük şəxsiyyətləri hz. Əli (r.a) ilə bağlı dəyərli sözlər söyləmişlər:

Abdullah b. Abbas (r.a) buyurur: «Mən onun elm dənizində ancaq bir damlayam».[965]

Hz. Ömər (r.a) buyurur: «Əli ən yaxşı hökm verənimiz, Übey b. Kab da ən yaxşı Quran oxuyanımızdır».[966]

Əhməd b. Hənbəl buyurur: «Rəsulullahın (s.a.s) əshabından hz. Əliyə (r.a) verilən elm qədər kimsəyə elm verilməmişdir».[967]

Hz. Əlinin (r.a) bir sıra dəyərli sözləri islam düşüncə tarixində önəmli yer tutmuşdur:

«Elm maldan daha qiymətlidir. Çünki elm Peyğəmbərin mirasıdır. Mal isə Qarun, Şəddad və Fironların mirasıdır. Malı sən qoruyursan, ancaq elm səni qoruyur. Mal sahibinin düşməni çox olur, elm sahibinin isə dostu çox olur. Mal xərcləndikcə azalır. Elm isə sərf edildikcə artır. Mal sahibi qiyamət günündə hesaba çəkilər, elm sahibi isə qiyamət günündə insanlara şəfaət edər. Mal qəlbi qatılaşdırır, elm isə qəlbi nurlandırır».[968]

«Dünya dörd şey üzərində durur: elmi ilə əməl edən alim, öyrənməkdən çəkinməyən cahil, malından xəsislik etməyən zəngin, dünyası əvəzində axirətini satmayan kasıb».[969]

«Sizə beş şey öyrədəcəyəm, diqqət edin, əzbərləyin, yadınızdan çıxarmayın. Onları gəmilərə minib uzaq səfərlə-

---

[964] İbn Sad, «Tabakat», c. II, s. 337.
[965] «Doğuştan günümüzə böyük islam tarixi», c. I, s. 295.
[966] İbn Sad, «Tabakat», c. II, s. 337.
[967] İbnül-Əsir, «əl-Kamil fit-tarih», c. II, s. 406.
[968] Muhammed b. Əbu Bəkr, «Şerhu hadisi erbein», s. 5-6.
[969] Fəxrəddin Razi, «Məfatihul-Gayb», c. II, s. 297.

rə, uzaq ölkələrə getsəniz belə, məndən başqa əhlini tapıb soruşa bilməzsiniz:

– Kimsə uca Allahdan (c.c) başqa bir şeyə ümid etməsin.

– Kimsə günahından başqa bir şeydən qorxmasın.

– Alim bilmədiyi şeyi öyrənməkdən çəkinməsin, qaçmasın.

– Sizin birinizdən bilmədiyi bir şey soruşulsa, «bilmirəm» desin.

– Bədən üçün baş nə isə, iman üçün də səbir odur».[970]

«Kim elm tələb edərsə, elm əldə etmək üçün çalışarsa, cənnət də onu tələb edər. Kim günahı qazanmaq üçün çalışarsa, cəhənnəm də onun üçün çalışar».[971]

«Bu beş şey olmasa idi, insanların hamısı yaxşı olardı:

– Cahilliyə razı olmaq, yəni elm öyrənmək üçün çalışmamaq.

– Dünya malına çox bağlanmaq.

– Ehtiyacdan artıq olan malı xərcləməkdə xəsislik etmək.

– Əməllərdə riyakar olmaq.

– Öz görüş və düşüncəsini bəyənib təkəbbürlü olmaq».[972]

«Övladlarınızı içərisində yaşadığınız zamana görə deyil, onların yaşayacaqları zamana görə yetişdirin».[973]

«Gənclərin qəlbi boş tarla kimidir, ona hansı elm verilsə, dərhal qəbul edər».[974]

Hz. Nizami beytin ikinci misrasında hz. Ömərin (r.a) adını çəkir: «Ömərin eşqindən də xali deyiləm».

---

[970] Mavredi, «Maddi və mənəvi uca hədəflər», 1997, s. 176.
[971] İbn Hacər, «Münəbbihat», s. 3.
[972] İbn Hacər, «Münəbbihat», s. 20.
[973] Mavredi, «Maddi və mənəvi uca hədəflər», 1997, s. 175.
[974] Mavredi, «Maddi və mənəvi uca hədəflər», 1997, s. 149.

## HZ. ÖMƏR (r.a)

Hz. Ömər (r.a) iyirmi yeddi yaşında islam dinini qəbul etmişdir. O, çox ağıllı, təmiz, ədalətli zühd və təqva sahibi olan bir insan idi. Abdullah bin Məsud onunla bağlı belə deyir: «Ömərin müsəlman olması müsəlmanlar üçün şərəf və izzət, Mədinəyə hicrət etməsi nüsrət, idarəçilik və xilafəti də rəhmət oldu».[975]

O, böyük fatehdir. Onun dövründə fəth edilən ərazilərin ümumi sahəsi 2.251.000 $km^2$ olmuşdur. Onun uğur qazanmasının başlıca səbəbləri ağıllı, cəsarətli və ədalətli olmasında idi. Hz. Ömərin (r.a) idarəçiliyi də ədalət təməli üzərində qurulmuşdur. O, idarəçiliyi asanlaşdırmaq üçün «İstişarə məclisi» qurmuşdu. Önəmli bir qərar ərəfəsində bu məclis toplanır, hər kəs sərbəst şəkildə öz fikrini bildirir və çoxluğun rəyi ilə qərar verilirdi. Bu məclisdə həm ənsarın, həm də mühacirlərin nümayəndəsi var idi. O, müzakirə iştirakçılarına belə müraciət edərdi: «Dövlətin idarəsində mənə yüklənən yükü paylaşmaqda iştirak etməyiniz üçün sizə burada toplanmaq zəhməti vermişəm. Mən ancaq sizlərdən biriyəm və mənim istəklərimə tabe olmağınızı arzu etmirəm».

Bu məclisdə dövlətin ən önəmli məsələləri müzakirə olunurdu: xəlifənin ordunun başında səfərə gedib getməməsi, əsgərlərin maaşı, katiblərin təşkilatlandırılması, mülki idarəçilərin təyini, xaricilərin ticarət etmək azadlıqları, gömrük vergilərinin təsbihi və başqa önəmli məsələlər.

Hz. Ömər idarəçilikdə məsləhətin önəmini nəzərə alaraq belə deyir: «Məşvərətsiz xilafət məşru olmaz, məşvərətsiz xilafət olmaz».

---

[975] Nuri Ünlü, «İslam tarixi», c. I, İstanbul, 1997, s. 114.

Onun idarəçiliyində şəxsi haqlarda xəlifə ilə vətəndaşın hüquqi bir idi, o, heç bir imtiyaza iddia etmirdi, heç bir mükəlləfiyyətdən azad deyildi, dövlət gəlirlərindən ancaq maaşını təmin edəcək qədər maaş alırdı, vətəndaşın onu tənqid etmək haqqı var idi. O deyirdi: «Mənim sizin pulunuz olan dövlət xəzinəsi (beytül-mal) üzərindəki haqqım bir insanın himayəsi altında olan bir yetimin malı üzərindəki haqqından daha çox deyil. Zəngin olsam, heç bir şey almaram, möhtac olsam, qaydaya uyğun olaraq yaşayışıma yetəcək qədər alacağam, üzərimdə sizlərin məndən tələb edilməsi zəruri olan çox haqlarınız var».[976]

Hz. Ömər (r.a) xəlifəliyi dönəmində hicrət tarixi islam təqviminin başlanğıcı kimi qəbul edildi.

Hz. Ömərlə (r.a) bağlı böyük islam alimi yazır: «Ömərin qəlbini çoxqapılı bir ev kimi düşünün. Bu qapıda ölkələr fəth etmək, ordulara komandanlıq etmək və düşmənləri məğlub etmək üçün bütün dühası ilə İsgəndər durur. Bir başqa qapıda bütün nəzakəti, alicənablığı, ədaləti ilə Ənuşiravan oturur. Başqa bir qapıda isə Əbdülqadir Geylani, ya da Xoca Bəhaəddin kimi bir mənəvi öndər oturur. Başqa bir qapıda Əbu Hureyra, İbn Ömər kimi mühəddişlər, bir başqa qapısında da Mövlana, Şeyx Fəxrəddin Əttar kimi dahilər oturur. Millət bu evin ətrafındadır, hər bir ehtiyacı olan ehtiyacını öz elm sahəsinin imamına ərz edib razı qalaraq bu evdən ayrılır».[977]

Hz. Ömərin (r.a) hikmətli sözləri:

«Düşündüklərini özündə saxlayan işlərinə hakim olar».

«Nifrət etdiyin kimsədən çəkin».

«Ən ağıllı insan etdiklərinin hesabını verə biləndir».

«Geriləyən əsla irəliləyə bilməz».

---

[976] «İslam tarixi», göstərilən qaynaq, c. I, s. 115.

[977] Şibli Numan, «Bütün yönləri ilə hz. Ömər və dövlət idarəsi», İstanbul, 1979, c. II, s. 402-407.

«Pisliyi seçə bilməyən onun içinə düşər».

«Bir adam məndən sual soruşduğu zaman onun zəkasını anlayaram».

«Başqalarına vəz edərkən özünü unutma».

«Dünya malına daha az meyil etdikcə daha azad yaşayarsan».

«Günahdan çəkinmək peşmançılıq acısından daha yüngüldür».

«Səbir və şükür iki dəvə olsaydı, hansına minsəydim fərq etməzdi».

«Mənə xətalarımı söyləyənə uca Allah (c.c) rəhmət etsin».[978]

«Bir şəxsin şöhrəti sizi aldatmasın, namazına, orucuna baxıb bir şəxs haqqında hökm verməyin, onun ağıl və səmimiyyətinə baxın».[979]

«Pulu təmiz saxlamağın üç yolunu bilirəm. Birincisi, halal yoldan qazanılmalıdır. İkincisi, halal yerlərə xərclənməlidir. Üçüncüsü, halal olmayan yerlərə sərf edilməsinin qarşısı alınmalıdır».[980]

Hz. Nizami bu beytdə həm hz. Əliyə (r.a), həm də hz. Ömərə (r.a) böyük sevgisi olduğunu bildirmişdir.

## ÜÇ YÜZ ONUNCU ADDIM:
## ƏBU BƏKİR ŞAMDIR, OSMAN ÇIRAQDIR

همیدون در این چشم روشن دماغ
ابوبکر شمعست و عثمان چــراغ

***Eyni zamanda mənim işıqlı dimağımın gözündə,***
***Əbu Bəkir şamdır və Osman çıraqdır.***[981]

---

[978] Şibli Numan, «Hz. Ömər və dövlət idarəsi», İstanbul, 1979.
[979] «İslam tarixi», göstərilən qaynaq, c. I, s. 123.
[980] «İslam tarixi», göstərilən qaynaq, c. I, s. 118.
[981] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, s. 34.

Hz. Nizami bu beytdə islam dininin inkişafında önəmli yeri olan iki xəlifəyə – hz. Əbu Bəkirə (r.a) və hz. Osmana (r.a) münasibət bildirmişdir. Şair deyir ki, mənim işıqlı düşüncəmə görə, hz. Əbu Bəkir (r.a) şamdır. O, hz. Əbu Bəkiri (r.a) təqdim etmək üçün işıq, nur, elm, fədakarlıq simvolu olan şamı seçmişdir.

## HZ. ƏBU BƏKİR (r.a)

Hz. Əbu Bəkir (r.a) 632-634-cü illərdə xəlifə olmuşdur. O, xəlifə seçiləndə müsəlmanlara belə müraciət etmişdir: «Ey insanlar, sizin aranızda ən yaxşınız olmadığım halda, sizin xəlifəniz seçilmişəm. Belə bir vəziyyətdə əgər mən doğru hərəkət etsəm, mənə yardım edin. Əgər yanlış bir hərəkət etsəm, məni doğru olana yönəldin. Doğruluq etimad və əmniyyətdir. Yalan isə əmniyyət və etimada qarşı bir sui-istismardır. Bilin ki, Allah uğrunda mücadilə və mübarizə etməyi dayandıran heç bir millət yoxdur ki, Allah onları zəlil bir vəziyyətə salmasın. Əxlaqsızlıq bir millət içində yayılıb kök salsa, Allah onları aclıq və qıtlığa düçar edər. Mən Allaha və onun Peyğəmbərinə itaət etdiyim zaman siz də mənə itaət edin. Allah və Onun elçisinə üsyan etsəm, siz mənə itaət etməməlisiniz. İndi namaz qılın ki, Allah (c.c) sizə rəhm etsin».[982]

Hz. Əbu Bəkir (r.a) merac hadisəsini heç bir şübhə etmədən təsdiq etdiyi üçün «Siddiq» adlandırılmışdır. O, bütün sərvətini uca Allah (c.c) yolunda xərcləmişdir.

Hz. Əbu Bəkirin (r.a) ən böyük işlərindən biri Qurani-Kərimi toplayaraq bir kitab halına gətirməsidir.

İslam ordusunun bir sıra böyük fəthləri Onun adı ilə bağlıdır.

---

982 İbn Əsir, «əl-Kamil», c. II, s. 331-332.

O, yardım etməyi çox sevərdi, mütəvazi bir həyatı var idi. İbn Abbas onunla bağlı belə deyirdi: «Əsəbi xasiyyətli bir şəxs idi. Ancaq hər halı ilə yetkin və kamil bir insan idi».[983]

Hz. Aişə (r.a) belə deyirdi: «Onun gözü yaşlı, qəlbi hüznlü, könlü həyəcanlı idi».[984]

Onun bu sözləri məşhurdur:

«Ölümə həris ol ki, sənə həyat verilsin».[985]

«İki xislətdən sənin üçün xeyirli olanı sənin ən az xoşuna gələndir».[986]

«Səbir imanın yarısıdır, yəqin isə imanın hamısıdır».[987]

«Bir xeyiri əldən çıxarsan, onu tutmağa çalış, ona çatanda isə onu keç».[988]

«Sənə yol göstərəndən vəziyyətini gizləmə, yoxsa özünü aldadarsan».[989]

Gerçəkdən, hz. Əbu Bəkir (r.a) islam dininin yolunda bir şam kimi əridi, bütün varlığını fəda etdi.

Şair beytin ikinci misrasında deyir ki, Osman da bir çıraqdır.

## HZ. OSMAN (r.a)

Hz. Ömərdən (r.a) sonra hz. Osman (r.a) xəlifə oldu. Onun dövründə İraq, İran, Suriya, Misir fəthləri davam et-

---

983 «İslam tarixi», göstərilən qaynaq, c. I, s. 92.
984 «İslam tarixi», göstərilən qaynaq, c. I, s. 92.
985 Mahmud əl-Akkad, «Hz. Əbu Bəkirin şəxsiyyəti və dühası», İstanbul, 1974.
986 Mahmud əl-Akkad, «Hz. Əbu Bəkirin şəxsiyyəti və dühası», İstanbul, 1974.
987 Mahmud əl-Akkad, «Hz. Əbu Bəkirin şəxsiyyəti və dühası», İstanbul, 1974.
988 Mahmud əl-Akkad, «Hz. Əbu Bəkirin şəxsiyyəti və dühası», İstanbul, 1974.
989 Mahmud əl-Akkad, «Hz. Əbu Bəkirin şəxsiyyəti və dühası», İstanbul, 1974.

mişdir. Onun dövründə Ərzurum, Qars, Gürcüstan və Azərbaycan bölgələrinə səfərlər olmuş, Xorasan, Kirman bölgələri fəth edilmişdir. Bu dövrdə Şimali Afrika, Kipr kimi yerlər də fəth olundu.

Hz. Osman (r.a) çox zəngin bir səhabə idi və bütün sərvətini islam yolunda xərclədi.

Hz. Osman (r.a) çox həyalı bir insan idi. İslam Peyğəmbəri onunla bağlı belə buyurmuşdur: «Mələklərin həya etdiyi bir şəxsdən mən həya etməyimmi?».[990]

«Hər Peyğəmbərin cənnətdə bir dostu var. Mənim cənnətdəki dostum da Osmandır».[991]

O, cənnətlə müjdələnən on səhabədən biridir. Gecələri ibadətlə, gündüzləri orucla keçirərdi. Çox comərd insan idi. Otuz beş min dirhəmə satın aldığı Rumə quyusunu vəqf etmişdi, Təbük səfərinə ən çox yardım edən səhabə də o idi, qıtlıq zamanı min dəvə yükü buğda, quru üzüm və zeytun yağı olan karvanın yükünün hamısını ehtiyacı olanlara vermişdi. Talha bin Ubeydullahın ona olan əlli min dirhəm borcunu bağışlamışdı. Ətraf yerləri satın alaraq Məscidi-Həramın sahəsini genişləndirdi, Həram bölgəsinin sərhəd daşlarını dəyişdirdi, Məscidi-Nəbəvini yenidən inşa etdirdi, bu zaman öz şəxsi sərvətindən on min dirhəm xərclədi. O, qohumlarına da böyük miqdarda yardım edirdi. Onun dərin elmi var idi, Quran hafizi idi, fitva vermək gücündə idi. O, yüz qırx altı hədis rəvayət etmişdir. Hz. Osman (r.a) islam Peyğəmbərinin iki qızı ilə evli olduğundan «zün-nureyn» (iki nur sahibi) ləqəbini qazanmışdır.

Hz. Nizami xəlifələri təqdim edərkən onları çox sevdiyini, onlara inandığını, onların islamın nur qaynağı olduğunu bildirmişdir. Onları fədakarlıq simvolu olan şama, nura bənzətmişdir.

---

[990] Müslim, «Fəzailüs-səhabə», 26.
[991] Tirmizi, «Mənakib», 19; İbn Macə, «Müqəddimə», s. 11.

## ÜÇ YÜZ ON BİRİNCİ ADDIM:
## ONLAR DƏRVİŞ XİSLƏTLİ DÖRD SULTANDIR

بدان چار سلطان درويش نام
شده چار تكبير دولت تــمام

***Bu dərviş xislətli dörd sultanla,***
***Dövlətin dörd təkbirini tamamlamışdır.***[992]

Hz. Nizami sevdiyi, şama, çırağa bənzətdiyi xəlifələri bu beytdə «dərviş xislətli» insanlar adlandırmışdır. «Dərviş» sözü yoxsul, heç bir dünya malında gözü olmayan insan deməkdir. Dərvişlərin ən önəmli sifətləri bunlardır: ümmətin hər bir fərdinə öyüd vermək, tək qalmaqdan xoşlanmaq, sıxıntıya, bəlaya, dərd və kədərə səbir etmək, nəfsin arzularına boyun əyməmək, Haqqın sevdiyi şeyləri yerinə yetirmək üçün var gücü ilə çalışmaq, könül qırmamaq, könül qırmağı uca Allahın (c.c) evini yıxmaq kimi qəbul etmək. Dərviş islam dininin dəyərləri ilə tərbiyə olunmuş, könlü iman dolu insandır:

**Yunus Əmrə:**
***Derviş gönülsüz gerektir,***
***Söğene dilsiz gerektir,***
***Dögene elsiz gerektir,***
***Halka beraber gerekmez…***
***Dervişlik dedikleri hırka ile taç degil,***
***Gönlün derviş eyleyen hırkaya muhtac değil…***

**Əşrəfzadə:**
***Bu dervişlik yoluna sidq ile gelen gelsin,***
***Haktan özge ne ki var gönlünden silen gelsin…***

---

[992] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, 34.

Bu deyilənlərdən aydın olduğu kimi, dərvişliyin iki başlıca özəlliyi var: uca Allaha (c.c) aşiq olmaq və Onun buyruqlarını fədakarlıqla yerinə yetirmək. Aşiq və fədakar dərviş könülləri fəth edir, uca Allah (c.c) sevgisini insanların düşüncə və qəlbinə yerləşdirir.

Ona görə də şair dörd xəlifəni dərvişə bənzətmişdir. Onlar ağlını, qəlbini, bütün varlıq və sərvətini din yolunda fəda etdilər. Onların fədakarlığı ilə islam dövləti gücləndi, təsiri qitələrə yayıldı. Şair deyir ki, onlar dövlətin təkbirini tamamlamışlar. «Təkbir» sözü lüğətdə «böyütmək», «böyük hesab etmək», «ucaltmaq» mənalarında işlədilmişdir. Dini termin olaraq «Allahu əkbər» (Allah (c.c) ən uca, ən böyükdür) təkbirdir. Təkbirin başqa şəkilləri də var. «Təkbir» namaz qılarkən ayrı-ayrı hissələri bir-birinə bağlayır.

Hz. Nizami deyir ki, islam dövlətinin sonrakı dörd mərhələsi bu dərviş xislətli xəlifələrlə tamamlanmışdır. Onlar islam dövlətini bir dünya dövlətinə, islam dinini də bir dünya dininə çevirdilər. Onlar həm dərviş, həm də sultandırlar. Onlarda siyasətlə əxlaq birləşdi, onlar uca Allahın (c.c) qulu, xalqın xidmətçisi oldular.

## ÜÇ YÜZ ON İKİNCİ ADDIM: PEYĞƏMBƏRLƏRİN ÖNÜNDƏ GEDƏNƏ ALQIŞ

زهی پیشوای فرستادگان
پذیرنده عـذر افتادگـــان

***Peyğəmbərlərin önündə gedənə alqış,***
***Düşkünlərin üzrünü qəbul edənə alqış.***[993]

Hz. Nizami islam Peyğəmbərinin merac səfərinin təsvirini tamamladıqdan sonra Onun səhabələrini təqdim edir.

---

[993] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, 34.

O, meracnamənin son sözlərini də hz. Məhəmmədlə (s.a.s) bağlayır. Şair meracnamələrinin bu bölümündə peyğəmbərlik tarixində hz. Məhəmmədin (s.a.s) yerini göstərir. Şair öncə deyir ki, O, peyğəmbərlərin önündə gedir, Onların sultanıdır, O, son peyğəmbərdir. Onun başqa bir özəlliyi də odur ki, O, günahkarları bağışlayandır, yəni rəhmət peyğəmbəridir, çox mərhəmətlidir.

## ÜÇ YÜZ ON ÜÇÜNCÜ ADDIM: DÖVRANIN AXIRINDA SONUNCU AYƏ SƏNSƏN

به آغاز ملک اولین رایتی
به پایان دور آخرین آیتی

***Sən yaranışın başlanğıcında birinci əqli-xilqətsən,***
***Dövranın axırında da sonuncu ayə sənsən.***[994]

Hz. Nizami bu beytdə də islam Peyğəmbərinin dəyərini şərh edir. Şair deyir ki, O yaranışın başlanğıcında ilk əqli-xilqətdir. Hz. Nizami nətlərində və meracnamələrində islam Peyğəmbərini təqdim edərkən Onun yaradılmış ilk varlıq olduğunu bildirmişdir:

«Mən peyğəmbər idim…» bayrağını bütün peyğəmbərlərdən öncə qaldırmışdı»,[995] «Bütün peyğəmbərlərdən ön və son olmuş»,[996] «Beytin əvvəli sənin adınla bağlandığı kimi, Sənin adın da qafiyə kimi onun axırındadır».[997]

Təsəvvüfdə «əqli-əvvəl» uluhiyyət mərtəbəsidir. Vücud bu mərtəbədə özündəki sifət və adları tam olaraq bilir. Bu mərtəbəyə «vəhdəti-həqiqi», «təəyyüni-əvvəl», «elmi-müt-

---

[994] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, 34.
[995] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 25.
[996] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 26.
[997] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 39.

ləq», «təcəlliyi-əvvəl», «qabiliyyəti-əvvəl», «aləmi-vəhdət», «həqiqəti-Məhəmmədiyyə» kimi adlar verilir.[998]

«Həqiqəti-Məhəmmədiyyə» həm də «Nuri-Məhəmməd» adlanır. Bu anlayışa görə, uca Allahın (c.c) yaratdığı ilk varlıq hz. Məhəmmədin (s.a.s) nurudur. Başqa bütün varlıqlar Onun nurundan yaradılmışdır.

Hz. Nizami beytin ikinci misrasında hz. Məhəmmədin (s.a.s) sonuncu Peyğəmbər olduğuna işarə etmişdir: «Dövranın axırında da sonuncu ayə sənsən».

ما كان محمد أبا أحد من رجالكم ولكن رسول الله وخاتم النبيين وكان الله بكل شيء عليماً

(əl-Əhzab, 33/40)

«Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Ancaq O, Allahın Rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir».

## ÜÇ YÜZ ON DÖRDÜNCÜ ADDIM: HƏR İKİ ALƏMİN SEÇDİYİ SƏNSƏN

گزین کردهٔ هر دو عالم توئی
چو تو گر کسی باشد آن هم توئی

***Hər iki aləmin seçdiyi Sənsən,***
***Əgər Sənin kimi biri də varsa, o da Sənsən.***[999]

Beytin birinci misrasındakı «iki aləm» anlayışı bu dünya və axirəti ifadə edir. Şairə görə, həm bu dünyanın, həm də axirətin seçilmiş insanı hz. Məhəmməddir (s.a.s). Sən «birinci əqli-xilqətsən», «sonuncu ayəsən», «iki aləmin seçilmişisən». Şair, hz. Məhəmmədlə (s.a.s) müqayisə edi-

[998] «Tasavvuf terimleri ve deyimleri sözlüğü», göstərilən qaynaq, s. 45.
[999] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, 34.

ləcək bir varlığın olmadığını bildirir, o, təkrarolunmazdır. Şair bu fikri ifadə etmək üçün belə deyir: «Əgər sənin kimi biri varsa, o da sənsən».

## ÜÇ YÜZ ON BEŞİNCİ ADDIM: XƏZİNƏLƏR QIFILININ AÇARI SƏNSƏN

تو‌ئی قفل گنجینه‌ها را کلید
در نیک و بد کرده بر ما پدید

***Xəzinələr qıfılının açarı Sənsən,***
***Bizim önümüzdə xeyir və şər qapılarını***
***açan Sənsən.***[1000]

Hz. Nizami öncəki beytlərdə islam Peyğəmbərinin yaradılış və yaradılmışlar tarixində yerini göstərmişdir. Bu beytdə isə Ona olan ehtiyacı ifadə etmişdir. O, xəzinələr qıfılının açarıdır. Misradakı «xəzinə sözü» elm, iman, əxlaq, doğru yol mənalarında işlədilmişdir. Yəni ancaq Onun əlindən tutmaqla elm, iman, əxlaq xəzinəsinə qovuşmaq olar. O, bağlı qapıların açarıdır. Bizim önümüzdə xeyir və şər qapılarını açan Sənsən. «Xeyir qapısını açmaq», yəni doğru olanları göstərmək, «şər qapısını açmaq», yəni yanlış olanları göstərməkdir. Şairə görə, hz. Məhəmməd (s.a.s), Onun əxlaqı, dini bir ölçüdür. İnsan və cəmiyyət davranışını Ona baxaraq nizamlamalıdır.

## ÜÇ YÜZ ON ALTINCI ADDIM: «MƏNİM ÜMMƏTİM» MÖHRÜNÜ BİZƏ VURDU

به شب روز ما را به بی ذمتی
سجل بر زده کامتی امتی

[1000] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, 34.

***Bu yaxşı gündə bizi günahsız etmək naminə,***
***«Mənim ümmətim, mənim ümmətim», -***
***deyə öz möhrünü bizə vurdu.***[1001]

Hz. Nizami bu beytdə islam Peyğəmbərinin xilaskar obrazını yaratmışdır. O, hər zaman ümmətini düşünmüşdür. Ona inananlara «ümmətim» deməklə onları qorumuşdur. Bizim üzərimizdəki «ümmətim» möhrü günahlarımızın bağışlanacağının təsdiqidir. Ümmət eyni bir dinə mənsub, bir Peyğəmbərə inanan insanların birliyidir. Qurani-Kərimdə fərqli ümmətlərin olduğu bildirilmişdir:

تِلْكَ أُمَّةٌ قَدْ خَلَتْ لَهَا مَا كَسَبَتْ وَلَكُم مَّا كَسَبْتُمْ وَلاَ تُسْأَلُونَ عَمَّا كَانُواْ يَعْمَلُونَ

(əl-Bəqərə, 2/141)

«Onlar bir ümmət idilər ki, keçib getdilər, onların qazandıqları özlərinə, sizinki isə özünüzə aiddir. Onların əməlləri haqqında sizdən sorğu-sual olunmaz».

Hz. Məhəmmədin (s.a.s) ümməti ədalətlidir, onlar başqa ümmətlərə şahid olacaqlar:

وَكَذَلِكَ جَعَلْنَاكُمْ أُمَّةً وَسَطاً لِّتَكُونُواْ شُهَدَاء عَلَى النَّاسِ وَيَكُونَ الرَّسُولُ عَلَيْكُمْ شَهِيداً

(əl-Bəqərə, 2/143)

«(Ey müsəlmanlar!) Beləliklə də, sizi (ədalətli və seçilmiş) bir ümmət etdik ki, insanların əməllərinə (qiyamətdə) şahid olasınız, Peyğəmbər də sizə şahid olsun…»

---

[1001] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, 34.

Hz. Məhəmmədin (s.a.s) ümməti doğru olanları əmr edər, yanlışlardan çəkindirər:

كُنتُم خَيرَ أُمة أُخْرِجتْ لِلناسِ تَأْمرون بِالْمعروف وتَنْهون عن الْمنكَرِ وتُؤْمنُون بِاللّه ولَو آمن أَهلُ الْكتَابِ لَكَان خَيراً لهم منْهم الْمؤْمنُون وأَكْثَرهم الْفَاسقُون

(Ali-İmran, 3/110)

«(Ey müsəlmanlar!) Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz, (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız. Əgər kitab əhli də (sizin kimi) iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların da içərisində bəzi iman gətirən şəxslər var, ancaq çox hissəsi haqq yoldan çıxanlardır».

Hz. Nizaminin təfsirində hz. Məhəmmədin (s.a.s) ümməti demək uca Allahın (c.c) varlıq və birliyini tanıyan, Peyğəmbərini çox sevən, ədalətli, insanlara örnək, çalışqan, fədakar bir toplum deməkdir. Üzərində, əxlaq və ruhunda hz. Məhəmmədin (s.a.s) möhürü olmaq günahsızlıq və bağışlanma əlamətidir.

## ÜÇ YÜZ ON YEDDİNCİ ADDIM: ONA AFƏRİNLƏR OLSUN

ز ما بر جان چون او نازنینی
پیاپی باد هر دم آفرینی

***Bizdən elə bir nazəninin canına,***
***Hər an dalbadal afərinlər olsun!***[1002]

Hz. Nizami bu beytdə islam Peyğəmbərinə olan sevgisini ifadə etmişdir. Şair sevgini ifadə etmək üçün öncə

[1002] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, 341.

islam Peyğəmbərinə «nazənin», «ruhumuz», «sevgimiz» deyir. Onun merac gecəsi insanlıq üçün gətirdiyi nemətləri sadalayır: «bağışlanmaq xəzinəsinin müjdəsini gətirdi», «ümmətin müqəssirlərinə dua etdi», «həqiqi məhəbbət xəzinəsi gətirdi», «insanlara sevinc müjdəsi gətirdi», «cəhənnəmdən azad olmaq vəsiqəsi gətirdi». Bu əziz Peyğəmbəri kim sevməz ki? Ona görə də şair Onu «ruhumuz», «nazənin» adlandırır, Onun sevgisi ilə ruhu qanad açır və dili belə deyir: «Hər an Ona dalbadal afərinlər olsun!»

## ÜÇ YÜZ ON SƏKKİZİNCİ ADDIM: ÖZ SƏXAVƏTİNİN DÖVRƏSİNİ AXIRA ÇATDIR

دور سخا را به تمامی رسان
ختم سخن را به نظامی رسان

***Öz səxavətinin dövrəsini axıra çatdır,***
***Öz sözlərini axıra çatdırmağa Nizamiyə imkan ver.***[1003]

Hz. Nizaminin nət və meracnamələrinin üslub göstəricilərindən biri də odur ki, şair bu əsərlərin sonunda uca Allaha (c.c) və islam Peyğəmbərinə müraciət edir. O, uca Allahdan (c.c) yardım istəyir, hz. Məhəmmədin (s.a.s) şəfaət etməsini arzulayır. Şair deyir ki, hz. Məhəmməd (s.a.s) səxavət sahibidir, O, uca Allahın (c.c) verdiyi bütün nemətləri insanlığa çatdırdı, merac nemətini əsirgəmədən ümmətinə verdi, hər şeyini uca Allah (c.c) yolunda fəda etdi. Şair, Peyğəmbərə müraciət edir, Ondan səxavətinin dövrəsini axıra çatdırmağı istəyir. Şair uca Allahın (c.c) dinini, bu dinin ölməz dəyərlərini təbliğ edir, bunu özünün başlıca işi sayır. Misrada «səxavət dövrəsi» deyilərkən ömür, iradə, doğru yoldan ayrılmamaq, düşüncə açıqlığı, doğru sözü

[1003] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 32.

yazmaq gücü və cəsarəti nəzərdə tutulur. Onun inancına görə bu nemətləri ancaq uca Allah (c.c) verə bilər.

## ÜÇ YÜZ ON DOQQUZUNCU ADDIM: SƏNİN ÜMMƏTİNDƏN MƏN ALÇAQ TORPAĞINAM

من از امتان کمترین خاک تو
بدین لاغری صید فتراک تو

***Sənin ümmətindən mən alçaq torpağınam,***
***Bu arıqlığımla sənin tərkbəndindən asılmışam.***[1004]

Hz. Nizami islam Peyğəmbərinin ümməti olduğunu bildirərkən «mən Onun torpağıyam» fikrindən çox istifadə etmişdir. Şair həm də uca Allahın (c.c) dərgahının qapısında torpaq olduğunu bildirmişdir: «Cana (ruha) qohumluğu çatıb paklıq edən ürək də Onun dərgahının qapısında torpaqdır»,[1005] «Onun dərgahının torpağından bitənlər elə bir dəndir ki, onun (dənin) bağının gülünün yanında İrəm (bir boş) əfsanədir»,[1006] «Onun köməyi ilə yaşayan Nizaminin torpağı Onun tövhid dənəsindən (becərilmiş) tarladır»,[1007] «Bu qul Nizami Sənin təkliyini tərənnüm edir, hər iki dünyada Sənin səri-kuyinin torpağıdır»,[1008] «Mənə bir təzə, bir nicat sübhü bəxş et, Sənin torpağınam, mənə abi-həyat ver»,[1009] «Sənin torpağın mənim canımın behiştidir, Sənin behiştin isə mənim canım və cahanımdır»,[1010] «Mən can kimi pak

[1004] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, 34.
[1005] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 19.
[1006] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 19.
[1007] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 19.
[1008] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 22.
[1009] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 41.
[1010] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 41.

olan Sənin bağının ətrafında külək kimi əsib toz kimi yerə oturacağam»,[1011] «Sənin torpağını (sürmə kimi) Nizaminin gözlərinə çəkim»,[1012] «Dərdli beynimə dərman et, onun dərmanını Mustafanın ayağının torpağından et»,[1013] «Mən Onun o qəmli susuzuyam ki, O mənim suyum, mən Onun torpağıyam».[1014]

Hz. Nizami «Xosrov və Şirin» dastanında özünü torpağa bənzətmişdir:

***... Zəhmət çəkməkdə əsl torpağam,***
***Ki, bir arpadan bir çox xəzinə yetirirəm.***
***Əvvəldə bir ovuc dən yesəm də,***
***Biçində bir xırman əvəz verirəm.***
***O torpağa minlərlə afərinlər olsun ki,***
***Bir ovuc arpa yeyir, bir anbardan artıq verir...***[1015]

Şairin təfsirində uca Allahın (c.c) dərgahının torpağı olmaq Ona itaətin, Ona olan sevginin göstəricisidir. İslam Peyğəmbərinin ayağının torpağı olmaq da Onun yolu ilə getməkdir, Ona olan sevgidir. **Şairin təqdimində torpaq təvazökarlığın, bərəkət və səxavətin, itaət və qulluğun simvoludur. Nizamiyə görə, uca Allahın (c.c) insanı torpaq kimi bərəkətləndirməsinin şərti insanın Ona itaət etməsidir. Torpaq olmaq fədakar olmaqdır, öncə bir ovuc dən yeyib, əvəzinə xırman verməkdir.**

---

[1011] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 41.
[1012] Nizami Gəncəvi, «Sirlər xəzinəsi», göstərilən qaynaq, 41.
[1013] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, 31.
[1014] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, 33.
[1015] Nizami Gəncəvi, «Xosrov və Şirin», göstərilən qaynaq, 345.

## ÜÇ YÜZ İYİRMİNCİ ADDIM: NİZAMİNİN QƏLBİNİN QÜVVƏTİ SƏNDƏNDİR

ای کار مرا تمامی از تو
نیروی دل نظامی از تو

***Ey bütün işləri Səndən asılı olan,***
***Nizami qəlbinin gücü Səndən olan.***[1016]

Hz. Nizami meracnamələrinin son bölümünü müraciət üzərində qurmuşdur. O, hz. Məhəmmədə (s.a.s) müraciət edir, Ona yalvarır, Ona sevgisini bildirir. Ona deyir ki, bütün işləri Peyğəmbərdən asılıdır, yəni Ona möhtacdır. Nizaminin qəlbi gücünü islam Peyğəmbərindən alır, Onun sevgisi ilə döyünür, Onun sevgisi olmasa, qəlbi dayanar. O, bütün işlərini islam Peyğəmbərinin adı ilə, Ona layiq icra etmişdir.

## ÜÇ YÜZ İYİRMİ BİRİNCİ ADDIM: ALLAH XATİRİNƏ MƏNƏ ŞƏFAƏT ET

زین دل به دعا قناعتی کن
وز بهر خدا شفاعتی کن

***Bu qəlbdən bir duaya qane ol,***
***Allah xatirinə mənə şəfaət et.***[1017]

Şəfaət islam dinində yeri olan bir anlayışdır. Şəfaət «önünə düşüb işini görmək», «bir araçı ilə müraciət etmək» deməkdir. Şəfaət bir insanın günahının bağışlanması, diləyinin yerinə yetirilməsi üçün edilən vasitəçilikdir. Dini termin olaraq isə uca Allahdan (c.c) bir şəxsin bağışlanmasını istəməkdir. İmam Əbu Hənifə deyir ki, peyğəmbərlərin və

---

[1016] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, 28.
[1017] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, 28.

hz. Məhəmmədin (s.a.s) günahkar möminlərə, böyük günah sahibi olan insanlara şəfaəti haqdır. Bu, hənəfi alimlərinin görüşüdür. Bir sıra məzhəblərə görə, şəfaət yoxdur.

Qurani-Kərimdə şəfaət sözündən on üç dəfə istifadə olunmuşdur. Bu sözdən müxtəlif formaları ilə birlikdə otuz iki dəfə istifadə edilmişdir.

Qurani-Kərim buyurur ki, uca Allahın (c.c) icazəsi olmadan bir kimsə şəfaət edə bilməz:

اللّه لا إِلَـه إِلا هو الْحي الْقَيوم لا تأْخُذُه سنَةٌ ولا نَوم له ما في السماوات وما في الأَرض من ذَا الذي يشْفَع عنْده إِلا بِإِذْنه يعلَم ما بين أَيديهِم وما خَلْفَهم ولا يحيطُون بِشَيء من علْمه إِلا بِما شَاء وسع كُرسيه السماوات والأَرض ولا يؤُوده حفْظُهما وهو الْعلي الْعظيم

(əl-Bəqərə, 2/255)

«Allahdan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allahın elmindən Onun özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!»

Qurani-Kərim buyurur ki, bir sıra insanlar axirətdə şəfaət istəyəcəklər:

هلْ ينظُرون إِلا تأْوِيلَه يوم يأْتي تأْوِيلُه يقُولُ الذين نَسوه من قَبلُ قَد جاءت رسلُ ربنَا بِالْحق فَهل لَّنَا من شُفَعاء فَيشْفَعواْ لَنَا أَو نُرد فَنَعملَ غَير الذي كُنا نَعملُ قَد خَسرواْ أَنفُسهم وضل عنْهم ما كَانُواْ يفْتَرون

(əl-Əraf, 7/53)

«Onlar (kafirlər) ancaq aqibətimi gözləyirlər? Onun xəbər verdiyi aqibət (qiyamət) gəlib çatdığı gün əvvəllər onu unutmuş olanlar deyəcəklər: «Doğrudan da, Rəbbimizin elçiləri (bizə) haqqı gətirmişlər. İndi bizdən ötrü şəfaət edəcək bir kimsə varmı? Yaxud geri (dünyaya) qaytarıla bilərikmi, etdiyimiz əməllərdən başqasını edək?» Onlar özlərinə ziyan etdilər. Uyduqları (bütlər də) onlardan uzaqlaşıb qeyb oldu».

Ancaq uca Allahın (c.c) rizası olmadan kimsə şəfaət edə bilməyəcək:

يعلَم ما بين أَيديهم وما خَلْفَهم ولا يشْفَعون إِلا لِمن ارتَضى وهم من خَشْيته مشْفقُون

(əl-Ənbiya, 21/28)

«Allah onların önlərindəkilərini də, arxalarındakını da bilir. Onlar yalnız (Allah) razı olduğu (izin verdiyi) kəslərdən ötrü şəfaət edə bilər və Onun heybətindən qorxarlar».

Uca Allah (c.c) buyurur ki, inkarçılara şəfaətçilərin şəfaətləri fayda verməz:

فَما تَنفَعهم شَفَاعةُ الشافعين

(əl-Muddəssir, 74/48)

«Şəfaət edənlərin şəfaəti onlara fayda verməz».

Hədislərə görə, hz. Peyğəmbər (s.a.s) ilk şəfaətçi olacaq,[1018] Quran şəfaət edəcək,[1019] hz. Məhəmmədin (s.a.s) şəfaəti böyük günah sahibi olan və səmimi olaraq şəhadət kəlməsini söyləyənlərə aid olacaq.[1020]

«… Şəfaətə layiq ola bilmək üçün mütləq mömin olmaq zərurəti var. Mömin olmayanların isə şəfaətə layiq ol-

---

[1018] Müslim, «İman», s. 332.
[1019] Müslim, «Müsafirin», s. 252.
[1020] Əbu Davud, «Sünnət», s. 31; Əhməd bin Hənbəl, 3/307.

madıqları aydındır. Mömin olmaq asan, fəqət mömin kimi yaşamaq çətindir. Şəhadət kəlməsini söyləyən mömin olur. Ancaq bu imanı qorumaq zəruridir. Bu da ancaq əməllə mümkündür. Allah insanlar üçün bir sıra qayda və prinsiplər müəyyən etmişdir. İnsanlar bu qaydalara tabe olmalıdırlar. Ona görə də mömin Onun əfvinə sığınaraq tənbəllik etməməli və vəzifəsini yerinə yetirməlidir. Şəfaət ümidi ilə tənbəllik etmək sonda insanı peşman edər. Çünki mütləq ümid də, mütləq ümidsizlik də küfr sayılır…»[1021]

Hz. Nizami islam Peyğəmbərinə üz tutur. Uca Allah (c.c) xatirinə Ona şəfaət etməsini istəyir. Bu da şairin uca Allahın (c.c) izni ilə hz. Məhəmmədin şəfaətinin mümkünlüyünə inandığını göstərir.

## ÜÇ YÜZ İYİRMİ İKİNCİ ADDIM: QOY PƏRDƏNİ BİZƏ ÇOX GÖRMƏSİNLƏR

تا پــرده مــا فرو گـــذارند
وین پرده که هست بر ندارند

***Qoy pərdəni bizə çox görməsinlər,***
***Və olan pərdəni götürməsinlər.***[1022]

Hz. Nizami əsərlərində «pərdə» sözündən müxtəlif mənalarda istifadə etmişdir. «Pərdə» örtük mənasında: «Niqabda nə qədər qalacaqsan», «pərdə» yuxu mənasında: «Yuxu örtüyündə nə qədər olacaqsan», «pərdə» sirrin qoruyucusu mənasında: «şahsan iki-üç sirri üzə çıxart, bu süfrəni yükün üstündən götür», «pərdə» uca Allahın (c.c) dərk edilməzliyi mənasında:

[1021] «İslami kavramlar», göstərilən qaynaq, s. 646-647.
[1022] Nizami Gəncəvi, «Leyli və Məcnun», göstərilən qaynaq, 28.

***Səninlə mənim aramda çox mənzillər var,***
***Səni ancaq sənin qüdrətinlə tapmaq olar.***

***Asimanda və yerdə olan sirlər,***
***İnsan düşüncəsinin əndazəsindədir.***

***Düşüncə əndazəsindən qabağa düşmək istəsə,***
***Başını əndazənin sərhəddindən kənara***
***çıxara bilməz.***

***Hər bir səviyyəyə o qədər çata bilər,***
***Ki, o səviyyənin sərhədi sona yetir.***

***Kainatın həddi sona çatanda,***
***Düşüncədə cəhətlərdən əsər qalmaz.***

***Düşüncə bundan artıq düşünə bilmir,***
***Sən varlıq deyilsən, onun fövqündəsən!***

Hz. Nizami bu beytdə «pərdə» sözünün hörməti, sevgini ifadə edən mənasından istifadə etmişdir. Hörməti ifadə etmək üçün «aramızda pərdə var», «aradan pərdəni götürmək olmaz» kimi ifadələrdən istifadə olunur. Şair öncəki beytdə deyir ki, şəfaət üçün hz. Məhəmmədə (s.a.s) ürəkdən bir dəfə dua edir. O, bu duanı çox təkrar edib aradakı pərdəni götürmək istəmir: «Bu qəlbdən bir duaya qane ol, Allah xatirinə mənə şəfaət et!»

Şair deyir ki, pərdəni bizə çox görməsinlər, aramızdakı pərdəni götürməsinlər. O, bu yolla islam Peyğəmbərinə olan sevgisini ifadə etmişdir.

## ÜÇ YÜZ İYİRMİ ÜÇÜNCÜ ADDIM: NİZAMİ SƏNİN «SALAMINDAN» FAYDASIZ QALMASIN

نظامی که در گنجه شد شهربند
مباد از سلام تو نابهرمند

***Gəncədə əsir olan bu Nizami,***
***Qoy Sənin «salamından» faydasız qalmasın!***[1023]

Şair bu beytdə hz. Məhəmmədə (s.a.s) olan sevgisini gözəl ifadə etmişdir. O, bunun üçün iki vasitə seçmişdir. Öncə Gəncədə əsir olduğunu bildirmişdir. Nizami islam Peyğəmbərinin sevgisi ilə yanır, O, sevgisinə qovuşmaq istəyir, ancaq Gəncədə əsirdir. Əsir olmaq istəmədiyi bir yerdə məcbur qalmaqdır. O, Peyğəmbərə qovuşa bilməsə də, Onun salamından bərəkətlənmək istəyir. Salam da sevginin, dəyərin göstəricisidir.

## ÜÇ YÜZ İYİRMİ DÖRDÜNCÜ ADDIM: EY NİZAMİ, YÜKSƏKLƏRƏ UCAL

ای نظامی جهان پرستی چند
بر بلندی برای پستی چند

***Ey Nizami, nə qədər dünyapərəstlik olar?***
***Yüksəklərə ucal, nə qədər alçaqlarda***
***qalmaq olar?***[1024]

Şair bu beytdə özünə müraciət edir, özünü bu dünya bağından xilas etmək istəyir. Onun ürəyindəki tək arzusu

---

[1023] Nizami Gəncəvi, «İsgəndərnamə», göstərilən qaynaq, 34.
[1024] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, 24.

Peyğəmbərə qovuşmaqdır. Şairə görə, dünyapərəstlik alçaq məkanlarda qərar tutmaqdır. O, ruhunu dünya bağlarından, dünya qəfəsindən azad edib, yüksəklərə ucalmaq istəyir. O, «Nizaminin meracını» gerçəkləşdirmək arzusundadır. «Gəncədəki əsirlikdən» qurtarıb Peyğəmbərə qovuşmaq duyğusu Onu rahat buraxmır.

## ÜÇ YÜZ İYİRMİ BEŞİNCİ ADDIM: ÇALIŞ Kİ, ƏBƏDİYYƏT MÜLKÜNÜ TAPASAN

کوش تا ملک سرمدی یابی
وان ز دین محمدی یابی

***Səy elə ki, əbədiyyət mülkünü tapasan,***
***Onu isə Məhəmmədin dinindən taparsan.***[1025]

Hz. Nizami bu son beytlərdə öz axirət inancını ifadə etmişdir. Şairin təfsirində «əbədiyyət mülkü» axirətdir. Dünyapərəstlikdən əl çəkməyə çağırışın, yüksəkliyə ucalmaq istəyinin («nə qədər dünyapərəstlik olar?», «nə qədər alçaqlarda qalmaq olar?») məqsədi də axirəti, əbədi cənnəti, əbədiyyət mülkünü qazanmaq istəyidir. Bu istək dünyapərəstliklə üst-üstə düşmür. Əbədi mülkü qazanmaq dünyapərəstlikdən əl çəkməklə olar.

Şair beytin ikinci misrasında «əbədiyyət mülkünü» qazanmağın yolunu da göstərmişdir. Bu, hz. Məhəmmədin (s.a.s) dininin-islam dininin göstərdiyi yoldur. Bu din insana deyir ki, əbədi axirət var, ağıllı insan bütün işlərini axirət ölçülərinə uyğunlaşdırandır.

[1025] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, 24.

## ÜÇ YÜZ İYİRMİ ALTINCI ADDIM: ƏZABDAN XİLAS OLMAĞI ŞƏRİƏT İŞIĞINDA GÖR

عقل را گر عقیده دارد پاس
رستگاری به نور شرع شناس

*Əgər ağıl etiqadı qorusa,*
*(Əzabdan) xilas olmağı şəriət işığında gör.*[1026]

Hz. Nizami öncəki beytdə əbədiyyət mülkünü qazanmağın yolunu göstərmişdir. Bu yol islamın yoludur. Nizamiyə görə, insanın inamı, etiqadı olmalıdır. Əbədiyyət mülkünü qazanmağın birinci şərti budur. Uca Allahın (c.c) varlıq və birliyinə inanmaq, Onun peyğəmbərinə iman etmək etiqadın əsasıdır. Etiqadı qoruyan da ağıldır.

Şair deyir ki, ağıl etiqadı qorusa, əzabdan xilas olmağı şəriət işığında gör. O, «əzabdan xilas olmaq» deyəndə cəhənnəm odundan qurtulmağı nəzərdə tutur. Əzabdan xilas olmağın, əbədiyyət mülkünü qazanmağın ikinci şərti də hz. Məhəmmədin (s.a.s) şəriətinə bağlanmaqdır. «Şəriət», ərəbcə açıq və geniş yol, insanların bulaqdan, quyudan «su daşıyarkən istifadə etdiyi yol» deməkdir. «Şəriət» sözü bir termin olaraq «uca Allahın Peyğəmbər vasitəsi ilə təbliğ etdiyi ilahi ehkam» mənasındadır. «… Dini hökmlərə şəriət deyilməsi dini ehkamın insanların ictimai, mənəvi dəyərini təmin edən feyz və həqiqəti göstərdiyinə bağlıdır».[1027]

Quranda şəriət sözündən bu şəkildə bir yerdə istifadə edilmişdir:

ثُمَّ جَعَلْنَاكَ عَلَى شَرِيعَةٍ مِنَ الْأَمْرِ فَاتَّبِعْهَا وَلَا تَتَّبِعْ أَهْوَاءَ الَّذِينَ لَا يَعْلَمُونَ

(əl-Casiyə, 45/18)

---

[1026] Nizami Gəncəvi, «Yeddi gözəl», göstərilən qaynaq, 24.
[1027] «İslami kavramlar», göstərilən qaynaq, s. 652.

«Sonra (ey Rəsulum!) Səni də dində şəriət sahibi etdik. Sən ona tabe ol və (haqqı) bilməyənlərin nəfslərindən gələn istəklərə uyma».

Təsəvvüfdə şəriət dinin təməl və zahiri ehkamını təsdiq və tətbiq anlamında istifadə edilir və həqiqətə çatmağın başlıca şərtlərindən biri sayılır.

Çağdaş islam hüququnda şəriət daha çox islamın hüquq sistemi mənasını daşıyır.

Hz. Nizami deyir ki, müsəlmanın vəzifəsi uca Allahın (c.c) razılığını qazanaraq «əbədiyyət mülkünə» qovuşmaqdır. Şair bu ən böyük ilahi neməti əldə etməyin yolunu da göstərir: hz. Məhəmmədin (s.a.s) dininə sarılmaq, uca Allahın (c.c) varlıq və birliyinə inanmaq, tövhidə bağlı bu inancı (etiqadı) ağıl ilə qorumaq, islam şəriətinə əməl etmək.

## HZ. NİZAMİNİN UĞUR QAZANMAQ ÖLÇÜLƏRİ: HALAL TİKƏ, ZƏHMƏT, SƏXAVƏT

***Haramım olsun, əgər bir xam su içsəm,***
***Bir halal bişmişi ağzımdan çıxartmasam.***

***Bir xəzinə yaratmasam, gecə yatmaram,***
***Mədən xəzinəmin qapısı qıfılsızdır.***

***Zəhmət çəkməkdə əsl torpağam,***
***Ki, bir arpadan bir çox xəzinə yetirirəm.***

***Əvvəldə bir ovuc dən yesəm də,***
***Biçində bir xırman əvəz verirəm.***

## MERAC GÖRMƏ HADİSƏSİDİR

Merac hadisəsi islam tarixində önəmli yer tutur. Merac hz. Məhəmmədin (s.a.s) ən böyük möcüzələrindən biridir. Bu hadisə uca Allahın (c.c) ilahi həqiqətləri insanlara çatdırmaq, təqdim etmək yollarından biridir. Uca Allah (c.c) ən böyük nemətlərindən birini möcüzə yolu ilə vermişdir. Qurani-Kərimin veriliş şəkli də bir möcüzədir.

Bizcə, islam dininin ən önəmli dəyərlərindən biri olan namazın merac möcüzəsi şəklində təqdim olunmasının başlıca səbəbi namazın tövhid inancının insanların düşüncə və əxlaqına yerləşməsi, bu inancın qorunmasındakı çox böyük önəmi ilə bağlıdır. Şairlərin əsrlər boyu meraca önəm verərək meracnamələr yazmasının, islam tarixində bu hadisənin təqvimləşməsinin səbəbi də budur.

**Əslində, namaz islam dini deməkdir. Bu dinin mahiyyəti, hədəfi, insana, kainata baxışı namaz ibadətində toplanmışdır. Buna görə də əziz Peyğəmbər (s.a.s) belə buyurur: «Namaz dinin dirəyidir». Yəni islam dininin namaz dirəyi qırılsa, bu ibadət sistemi pozulsa, islam dini çökər. Deməli, namazın qoruyuculuq vəzifəsi var. O, insanı pisliklərdən qoruyar.**

Merac neməti olan namaz ibadətinin uca Allahın (c.c) razı olduğu, mömin insan yetişdirilməsində (keyfiyyətli, inanclı insanın inşa edilməsində) önəmi çox böyükdür. Namaz sağlam insan tərbiyə edər, onu islam xəmirində yoğurar, onun ruh, düşüncə və əxlaqını tövhid inancını pozacaq mikroblardan qoruyar. Namazına sadiq olan, onu təslimiyyət, itaət ruhu ilə qılan insan uca Allaha (c.c) verdiyi sözü yerinə yetirmişdir, o, uca Allaha (c.c) vəfa və şükür borcunu ödəmişdir. Bir fərdin və cəmiyyətin çöküşü də na-

maza xəyanətlə başlayar. Bir fərdin və cəmiyyətin namaza olan münasibəti onun dəyərinin ölçüsüdür.

Merac görmə hadisəsi olduğu kimi, merac neməti olan namaz da görmə və göstərmə hadisəsidir. Namaz doğru olanı insana göstərər. Ona görə də əziz Peyğəmbər (s.a.s) belə buyurur: «Namaz gözümün nurudur», «Namaz möminin meracıdır». Yəni namazı olmayan mənəvi kordur. O, ilahi gerçəkləri görə bilməz.

**Merac öz nəfsini məğlub etmə, dünyaya, kainatın axışına ruh mərtəbəsindən baxma hadisəsidir. Namaz da nəfsi məğlub etmə yoludur, sistemidir. Bu baxımdan uca Allahın (c.c) ölçüləri ilə namaz qılmaq fatehlikdir, ruh məqamını fəth etmə halıdır, uca Allahın (c.c) rəhmət, bərəkət və nurunun axış yolunun açılışıdır.**

Namaz möminin xilas nemətidir. Hz. Nizami namazı-merac nemətini belə dəyərləndirmişdir: «Namaz uca Allahın (c.c) xüsusi nemətidir»,[1028] «Namaz ümmət üçün xilas fərmanıdır»,[1029] «Namaz həqiqi məhəbbət xəzinəsidir»,[1030] «Namaz insanlığın sevinc müjdəsidir»,[1031] «Namaz cəhənnəmdən azad olmaq vəsiqəsidir»[1032].

Hz. Nizaminin təfsirində merac görmə, bilmə, tanıma, öyrənmə hadisəsidir. O, bu görmə hadisəsini mahiyyətini təqdim etmək üçün əlvan bədii boyalardan istifadə etmişdir: O, bu gecə uca Allahın (c.c) qüdrət nişanələrini gördü, yeddi göyün dargöz oğlanı, əlində hələ olan mübarək mələk Cəbraili (c.c) gördü, şimşək sürətli, ərəb atı kimi olan, şahin qanadlı, ucalarda süzən kəklik, tavuz qanadlı, ayaqları rəqs

---

1028 Nizami Gəncəvi, «Yeddi gözəl», s. 24.
1029 Nizami Gəncəvi, «Yeddi gözəl», s. 24.
1030 Nizami Gəncəvi, «Yeddi gözəl», s. 24.
1031 Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 341.
1032 Nizami Gəncəvi, «Xosrov və Şirin», s. 341.

edən, nurdan yaranmış, üzü gül üzü kimi olan, yüyənsiz, kəklik yerişli göyərçin, neysan buludundan daha çox inci səpən, bostan küləyindən daha ətirli, yəhəri gövhərdən olan bir dəniz, güclü, ağır nallı, yüngül qaçışlı, hündür axurlu Rəxş, gözü iti, dırnağı inci, göbəyi müşklə dolu, yüyəni yumşaq olan, kamandan çıxmış oxdan da sürətli, mələk kimi, aləmçəkən, gecə rəngli, ayağının sürəti baxışın sürətindən iti olan, xüttəli at Buraqı gördü.

**Hz. Məhəmməd (c.c) bir mübarək gecə gördü:** O gecə göylər məclis parıldatmışdı, o gecə parıldaması ilə gündüzlük iddia edirdi, gecə qara bayrağını qaldırmışdı, **bu gecə Onun qədr gecəsi idi,** bu gecə əbədiyyət bəzəyidir, bu gecə hz. Məhəmmədin (s.a.s) merac gecəsidir, o, xoşbəxt gecədir, çünki Onun dünyanı işıqlandıran qədəmi ilə gündüzə döndü, Onun gəlişindən gecə vəcdə gəldi, o ənbər ətirli gecə idi, gecə günorta çağlı gündüzə çevrilmişdi, dua gecəsi idi, Onun sürətindən gecə təpik yedi, yer üzünə rəhmət enən gecə idi, hz. Məhəmmədin (s.a.s) qonaq olduğu gecə idi.

Hz. Məhəmməd (s.a.s) merac gecəsi nur gördü: zavalı olmayan o nur ayəsini sezdi, Onun alnında nar gülü (ilahi nur) var idi, nurani ərşdən daha yüksəklərə baş vurub, ilahi sirrin heybətli səhnəsinə daxil oldu, elə ki min nur pərdəsini yırtdı, ruhani aləmdəkilərə nur bağışladı, onun gözü nuru pərdəsiz gördü.

Hz. Məhəmməd (s.a.s) merac gecəsi al-əlvan bəzənmiş, bütün gözəlliyi ilə Onu qarşılayan göy üzünü gördü: O gecə göylərdə məclis var idi, yeddi sultanın qəsrindən asılmış pərdənin üstü gövhərlərlə bəzədilmişdi, bu pərdə Çin ipəyindən idi, behişt bağının yaşıl don geyinənlərinin başçısı bütün çəmənlikləri yaşıllıqla bəzəmişdi, asiman Onun əlindən təzə xirqə (don) geyindi, qaranlıq göylər gülşənə çevrildi, göylər dəniz idi, yollarına addım-addım fərş döşənmişdi, gecənin göbəyi Onun dodaqlarından tökülən

müşklə doldu, O, göylərin firuzə rəngli fərşləri üstündə gül kimi əldən-ələ verilərək Ərşin ayaqlarına yetişdi, Sidr Onun qolsuz köynəyi oldu, Ərşin yaxası Onun ətəyinə toxundu, mələklərin xalılarını təzələdi, Ərşin payəsindəki taxtda öz çadırını qurdu, Ərşin gözlərini nurla işıqlandırdı, okeandan damla-damla keçdi, yeddi göyün qapısını açdı, dörd gövhərə qədəm basdı, Ərşin xəlvətxanası Onun yeri oldu, göy Onun qulluğuna hazır idi, o bağın qırmızı və ağ bəhəri Onun baxışından parlaqlıq aldı, aləmin yeddi damının zirvəsində nə tas qoydu, nə də bayraq, həm fələyin bayrağının qotazını qırdı, həm də Ayın tasını böldü.

Hz. Məhəmməd (s.a.s) merac gecəsi Onun üçün bəzənmiş, Onun yollarına işıq saçan səma cismlərini gördü: Utaridin dəftərində Onun adının hərfləri ilə dəvətnamənin rəmzi yazılmışdı, Zöhrə hədiyyə tabağını başında tutub gözləyir ki, Onun nuru şərqdən nə vaxt görünəcək, Günəş hilal şəklinə düşərək Onun yolunu maneələrdən təmizləmişdir, Mərrix gözətçilərindən biridir, Müştəri haləli nuru ilə Onun gözünü görəndə «yaman gözdən iraq» demişdir, Keyvan qara bayraq çiynində qulağı halqalı kölə kimi Sənin qulluğundadır, yüksəkliyindən Müştəriyə tac bağlamış, Günəşdən üzüyünü çəkib almışdı, Cəbədən Cövzaya bir ox bağışlamışdı, Yusif kimi Dəlvdə şərbət içmiş, Yunis kimi Balıqda bir qədər dayanmışdı, Onun yolunda göy cədvəlindən Semak gah Ramih göründü, gah da Əzəl, Ayın həmail xəttinə öz fəzilətindən təravət bəxş etdi, O, Utaridə öz əlinin gümüş işlərindən, öz qalay kürəsindən rəng bağışladı, Zöhrənin başına Ay işığından civə rəngli örtük saldı, Günəşin başına qızıl tac qoydu, gecənin xəlifəsinə yaşıl geyindirib, qırmızı paltarı Mərrix üçün saxladı, Müştərinin başına səndəl sürtdü, Keyvanın tacı Onun qədəmini öpdü, Səratanın tacını, Cövzanın kəmərini aldı, Xuşə təzə sünbül düzəldib, Sünbüləni şirin üstünə atdı, Zöhrə Tərəzi əlində qulluğa

durmuşdu, Əqrəbin quyruğuna şərbət tökdü, bir Ox atdı, Günəş kimi Dolçanın Yusifi oldu, su Dolçası kimi Balığın Yunisi oldu, O, Sürəyya taxtını həməldə qurdu, Yeddi səyyarənin dənizinə çatdı, Aya yuxu beşiyi verdi, Utaridin qələmini qırdı, təbiətin talağını Nahidə verdi, öz qəzəbinin atəşini Mərrixə verdi, təkəbbürü Müştəriyə verdi, onun üzüyünə yeni bir qaş taxdı, bu qaralan səyyar gəmini Keyvana tapşırdı…

**Hz. Məhəmməd (s.a.s) merac gecəsi mələkləri gördü:**

Cəbrail (ə.s) Buraq yedəyində Onun yanına gəldi, Cəbrail (ə.s) Onunla danışdı və dedi: «yerlərdən göylərə ucal», «xüsusi qəsrin keşiyini çəkmək üçün bu gecə xilas keşikçisi sənsən», «bu gecə keşik sənindir», «keşik çəkmək iqbalını Sənə gətirmişəm», «öz kəcavəni çərxə sür», «Sən Aysan», «ulduzlara çap, çünki şah sənsən», «altı cəhəti yeddi kökündən qopar», «doqquz fələyi çarmıxa çək», «mələklərin başını öz kəməndinə sal», «gecənin ətir saçanları Sənə hazırlıq görürlər», «yaşıl geyimlilər Səni gözləyirlər», «bu pərgarın Misir nazəninləri Yusif kimi Sənə aşiq olublar», «durr, qoy onlar bir dəfə Sənə tamaşa etsinlər», «həm əllərini, həm də turuncu kəssinlər», «öz ayaqlarının altında göyün türrələrini öz sayənin zülfü ilə təzələndir», «öz atını uca göydən keçir», «mələklərin eyvanını öz kəməndinə çək», «gecə səyyahlarını çıraq kimi işıqlandır», «üzün isə bağ çiçəkləri kimi təzə-tər olsun», «gecə sənin gecəndir, vaxt dua vaxtıdır», «Sən ondan hər nə istəsən, onu alacaqsan», «mələklərin xalılarını təzələ», «Ərşin payəsindəki taxtda öz çadırını qur», «ərşin gözlərini nurla işıqlandır», «Fərşin (Yerin) sinəsindən uzaqdan atlanıb keç», «Tacı al ki tacdar sən oldun», «başıucalıq ilə başını yüksəlt», «hər iki cahanı cövlan üçün özünə xas et», «öz yolunu tozlardan təmizlə», «O əbədinin dərgahına yönəl»… Cəbrailə (ə.s) əmr

olunmuşdu ki, qoyulan səddi keçməsin, O, Mikayılın (ə.s) kəcavəsindən baş vurub çıxdı, İsrafilin (ə.s) surunun rəsəd-xanasına daxil oldu, o yolda Cəbrailin (ə.s) qanadı töküldü, İsrafil bu dəhşəti görərkən qorxmuşdu, Cəbrail atlanıb geri qayıtdı, O, Mikaili keçdi, İsrafil gəlib Onu qanadına aldı, Cəbrail (ə.s) geri qaldı, «Allah səninlə olsun dedi», İsrafil ayaqlarına döşəndi, Ərşdə məqamı «subbuh» olan (Allahı (c.c) öyən mələklər) Sənin nurunda kölgə qüslü etdilər.

**Hz. Məhəmməd (s.a.s) merac gecəsi Ərşi gördü:**

Ərşin başı Onu qarşılamağa gəldi, Rəfrəf Səni Sidrə-gahın taxtına apardı, Sidrəgahın hüdudunu keçdin, Ərşin darısqal qülləsinə çatdın, Ərşin gərdək qapısından keçdin, Ərşin sahəsinə çatanda ürək və canın işi ürək və cana yetişdi, Onun varlığı özünü əsl gövhərxanasına yetirdi, Ərşə çatdı, dua etdi, nurani Ərşdən daha yüksəklərə baş vurdu.

**Hz. Məhəmməd (s.a.s) merac gecəsi cəhətsizliyi, sonsuzluğu, məkansızlığı, ruhun dinclik sahəsini gördü:** aşağı, yuxarı, ön, arxa, sağ, sol bir cəhətə çevrildi, altı cəhət aradan qalxdı, altı cəhət onun önündə nə dil çıxara bilər, həm cəhət, həm də cahan Ondan qaçarlar, cəhətsiz olanın cəhətlə işi olmaz, bu cəhətdən o pərgar cəhətsiz oldu, Onun nəzəri cəhətin üzünə niqab salmayınca ürəyi təşviş və iztirabdan azad ola bilməzdi, cəhət gözdən itdi, cəhətlərin bazarını pozdu, üst və alt zəhmətindən xilas oldu, orada məkan və zaman yox idi, altı cəhətin zülfünü alnında sındırdı, məkanın üzünə örtük çəkdi, qədimlik üzündən örtüyü açdı, dinclik məkanına daxil oldu.

**Hz. Məhəmməd (s.a.s) merac gecəsi məkansız, cəhətsiz, zamansız yerdə uca Allahı (c.c) gördü:**

Məhəmməd məkansız məkanda nişansızlığın nişanını gördü, ilahi kəlamı vasitəçisiz eşitdi, cahan padşahını cəhətsiz gördü, O, Tanrını gördü və Tanrı görülməlidir, Onu görməyin məkanı və zamanı yoxdur, O, məkan və zaman-

dan çox ucadır, «Onu görmək mümkün deyil» deyənlərin özləri kordur, ibadət etdiyimizi görmək səadətdir, O, görülməli, görülməli və görülməlidir, O, vardır, ancaq bir yerdə qərar tutmayıb, Məhəmməd o varlıq çeşməsini başqa gözlə deyil, yalnız idrak gözü ilə gördü, cəhətsizi cəhət olan məkanda görmək olmaz, həm zülcəlalı gördün, həm də haqq kəlamının sirrini eşitdin.

**Hz. Məhəmməd (s.a.s) merac gecəsi peyğəmbərləri gördü:**

Peyğəmbərlərin canı Onun ayağının torpağı oldu, Onlardan hər biri yəhərinin qunzuğuna əl çəkirdi, Musa və Xızır qasid kimi qaçırdı, Məsiha atının qabağında yüyürdü, bir quş kimi Mədinədən uçub son məqsəd olan Əqsaya çatdı, peyğəmbərlər onu özləri üçün qiblə etdilər. O, imamlıq fəziləti irəli getmişdi, peyğəmbərlərə rəhbərlik etdiyinə görə Allahın yolunu qarşısına qoymuşdu.

O, merac gecəsi ilahi həqiqətləri gördü, Onun buyruqlarını vasitəsiz eşitdi, uca Allahın (c.c) insanlıq üçün hazırladığı namaz mesajını aldı, bağışlanmaq müjdəsi ilə geri döndü.

Hz. Nizami bütün bu qeyri-adi hadisələri qeyri-adi, son dərəcə gözəl, məzmuna tam uyğun olan bədii biçimdə təqdim edib:

**Şairin təqdimində merac gecəsi göy üzü gül dənizidir, sonsuz səma bir ümmandır,** güllər ordusu öz çadırını Həməl səhrasında qurmuşdur, o yüksək cənnətəbənzər bağın güllərindən yer üzü bahar rənginə boyanmışdır, gecə gündüzə çevrilmiş, sərv gül açmışdır (təbiətin möcüzəsi ilə merac möcüzəsi bir-birini tamamlamışdır).

Dəyər zamana və məkana görə dəyişməyən, insanlıq tarixinə yön verən, fərdi və cəmiyyəti hər zaman diri saxlayan, onları doğru olana yönəldən bir nemətdir. Dəyər doğrunu doğru olmayandan ayıran ölçüdür. Hz. Nizamiyə

görə, meracla bağlı dəyərlər islam və insanlıq tarixinin ən önəmli dəyərləri sırasında yer tutur. Merac dəyərləri islamın dəyərlər toplusudur, özünü, həyatı, uca Allahı (c.c) tanımağın yolu, üsulu və ölçüsüdür. O, uca Allahın (c.c) razı olduğu insan yetişdirmək adlı cihadın mübarizə ideologiyasının təməlidir. İmanlı, ağıllı, elmli, fədakar insanın və cəmiyyətin tükənməz güc qaynağıdır. Hz. Nizaminin merac hadisəsinə, meracla bağlı dəyərlərə geniş yer verməsinin səbəbi də budur.

Hz. Nizamiyə görə, uca Allahın (c.c) yaratdığı ən dəyərli varlıq insandır. Şairə görə, insan azad olmalıdır, onun dəyəri azadlığına bağlıdır. İnsana bu azadlığı verən də uca Allahın (c.c) dinidir, iman, iradə və ağıl nemətidir. İslam mədəniyyəti qaynağı uca Allaha (c.c) bağlı olan, məqsədi insanın fitrətinə uyğun yaşamasını təmin edən, iman, azadlıq ədalət mədəniyyətidir. Bu ölməz mədəniyyətin ən önəmli dəyərlərindən biri də merac nemətidir.

## HZ. NİZAMİNİN TƏVAZÖKARLIĞI

***Kim ki Nizamiyə paxıllıq edir,***
***Nəfəsi ahsız gələ, gözü yaşsız ola.***

***Gəl gecə mədən qazmağımı gör,***
***Mədən qazmaq deyil, öz canımı qazmağımı gör.***

***Hər dürrü ki, ağzımdan çıxartmaq istəyirəm,***
***Neçə vuruşla döş-döşə gəlirəm.***

***Yüz dəfə odlanıb beynimi yandırmaqla,***
***Gecələr bir şəbçıraq ələ gətirirəm.***

## *D U A*

***Ey qüdrət, hökm və hikmət sahibi olan Allahım! Sənin şanına, mübarək elçin hz. Məhəmmədin (s.a.s.) şərəfinə, uca Allaha(c.c.) imanla bağlı olan hz.Nizaminin adına layiq bir əsər yazmağa çalışdım. Qüsurlarıma görə məni bağışla! Keçmiş və gələcək günahlarımı əfv et! Sənin uca adına layiq yeni əsərlər yazmaq üçün mənə güc ver!***

# Q A Y N A Q L A R

## Azərbaycan türkcəsində


1. *Abbasov Ə.* Nizami Gəncəvinin «İsgəndərnamə» poeması. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1966.
2. *Ağayev Ə.* Nizami və dünya ədəbiyyatı. Azərbaycan dövlət nəşriyyatı, Bakı, 1964.
3. *Araslı H.* Şərqdə «Leyli və Məcnun» əsərləri. Nizami, Birinci kitab, Azərnəşr, Bakı, 1940.
4. *Araslı H.* Nizami əsərlərinin el variantları. Müqəddimə, Azərnəşr, Bakı, 1941.
5. *Araslı H.* «Yeddi gözəl» və «Yeddi cam» əsərlərinin müqayisəsi. Nizami, Üçüncü kitab, Azərnəşr, Bakı, 1941.
6. *Araslı H.* Nizami Gəncəvi. Azərnəşr, Bakı, 1947.
7. *Araslı H.* Nizami və Azərbaycan xalq ədəbiyyatı. Nizami, Məqalələr məcmuəsi, Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1947.
8. *Araslı H.* Nizami və Vətən. Azərnəşr, Bakı, 1948.
9. *Araslı H.* Şairin həyatı, «Gənclik» nəşriyyatı, Bakı, 1967.
10. *Araslı H.* Nizami Gəncəvi. «Sirlər xəzinəsi». Filoloji tərcümə. Giriş, «Elm» nəşriyyatı, Bakı, 1981.
11. *Araslı H.* Nizamidə xalq sözləri, ifadə və zərb-məsəlləri. Azərbaycan SSR EA-nın «Xəbərlər»i, Bakı, 1942, № 8.
12. *Araslı H.* Nizami Gəncəvi. Qəzəllər. Bakı, 1956.
13. *Araslı N.* Nizami və türk ədəbiyyatı. «Elm» nəşriyyatı, Bakı, 1980.
14. *Araslı N.* Nizaminin poetikası, Bakı, «Elm», 2004.
15. *Arif M.* «Yeddi gözəl», Nizami Gəncəvi. «Yeddi gözəl», Azərnəşr, Bakı, 1941. (Ön söz əvəzi).
16. *Arif M.* «Yeddi gözəl», Nizami Gəncəvi. «Yeddi gözəl». Filoloji tərcümə, Müqəddimə, Bakı, 1983. (Ön söz əvəzi).
17. *Azadə R.* Nizami Gəncəvi (həyatı və sənəti), «Elm» nəşriyyatı, Bakı, 1979.
18. *Azadə R.* Nizami və onun poeziya sələfləri, Bakı, «Elm», 1999.
19. *Azadə R.* Azərbaycan epik şeirinin inkişaf yolları, Bakı, «Elm», 1975.
20. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. Birinci cild. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1960.
21. *Babayev X. B.* Nizaminin «Xəmsə»sində Quran ayələri və qissə motivləri, Bakı, 1999.

22. *Beqdeli Q.* Şərq ədəbiyyatında «Xosrov və Şirin» mövzusu, «Elm» nəşriyyatı, Bakı, 1971.
23. *Bertels Y. E.* Nizami və Firdovsi. Nizami, İkinci kitab. Azərnəşr, Bakı, 1940.
24. *Bertels Y. E.* Nizaminin «Leyli və Məcnun» poemasının mənbələri Nizami, Birinci kitab, Azərnəşr, Bakı, 1940.
25. *Bertels Y. E.* Böyük Azərbaycan şairi Nizami. SSRİ EA-nın Azərbaycan filialı. Bakı, 1940.
26. *Bertels. Y.E.* Nizami və bədii yaradıcılıq, «Nizami», Bakı, 1947.
27. *Cahani Q.* Azərbaycan ədəbiyyatında Nizami ənənələri, «Elm» nəşriyyatı, Bakı, 1979.
28. *Əbu Əli Həsən İbn Əli Xacə Nizamülmülk.* Siyasətnamə, «Elm» nəşriyyatı, Bakı, 1987.
29. Əbu Bəkir əl-Valibi və onun «Əxbarul-Məcnun va əşaruhu» əsəri, (Tədqiqat, filoloji tərcümə, şərhlər və izahlar f.e.n. İmamverdi Həmidovundur), Bakı, 1999.
30. *Ələkbərov M.* Nizami və xalq yaradıcılığı. Namizədlik dissertasiyası, Bakı, 1947. (Əlyazması).
31. *Əliyev R.* Nizami (qısa biblioqrafik məlumat). «Yazıçı» nəşriyyatı, Bakı, 1982.
32. *Əlizadə L.* Mücirəddin Beyləqaninin lirikası, Bakı, 2001.
33. *İbrahimov M.* Günəş kimi parlaq. Nizami Gəncəvi. «Leyli və Məcnun». Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1983.
34. *Hacı S.* «Həzrət Hizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)», I kitab, «Nafta-Press», Bakı, 2006.
35. *Hacı S.* «Həzrət Hizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)», II kitab, «Nafta-Press», Bakı, 2008.
36. *Hacı S.* «Həzrət Hizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s.)», III kitab, «Nafta-Press», Bakı, 2009.
37. *Hüseynov X.* Nizaminin «Sirlər xəzinəsi», «Elm» nəşriyyatı, Bakı, 1983.
38. *Xalisbəyli T.* Nizami Gəncəvi və Azərbaycan şifahi xalq ədəbiyyatı. APİ-nin nəşri. Bakı, 1988.
39. *Xalisbəyli T.* Nizami Gəncəvi və Azərbaycan qaynaqları, Bakı, 1991.
40. *Köçərli F. B.* Şeyx Əbu Məhəmməd İlyas ibn Yusif ibn Müəyyəd Nizami. Azərbaycan ədəbiyyatı. İki cilddə. Birinci cild. Bakı, 1978, (səh. 129-133)

41. *Qətran Təbrizi.* Divan, Azərbaycan SSR EA nəşriyyatı. Bakı, 1967 (fars dilindən çevirəni və çapa hazırlayanı Q. Beqdeli).
42. *Quliyeva M.* Klassik Şərq bəlağəti və Azərbaycan ədəbiyyatı, Bakı, 1999.
43. *Quluzadə M. Y.* Nizami Gəncəvi. Həyat və yaradıcılığı. Azərnəşr, Bakı, 1953.
44. *Levkiyevski İ. V.* «Məxzənül-əsrar» əsəri. Nizami. İkinci kitab. Azərnəşr, Bakı, 1940.
45. *Məmməd C.* Nizaminin fikir dünyası. «Yazıçı» nəşriyyatı, Bakı, 1982.
46. *Məmmədov Z. C.* Azərbaycanda XI-XII əsrlərdə fəlsəfi fikir, «Elm» nəşriyyatı, Bakı, 1978.
47. *Mir Cəlal* «Yeddi gözəl»dəki hekayələr haqqında. Nizami, Məqalələr məcmuəsi. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1947.
48. *Mirzəyev A.* Füzulinin «Hədiqətüs-süəda» əsəri orta əsrlər tərcümə abidəsi kimi. «Avropa» nəşriyyatı, Bakı, 2001.
49. *Mirzəyev A.* Azərbaycan bədii tərcümə tarixi və Füzuli. «Avropa» nəşriyyatı, Bakı, 2009.
50. *Mübariz Ə.* Nizami Gəncəvi. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. Birinci cild. Azərbaycan SSR EA nəşriyyatı. Bakı, 1960.
51. *Nəvai Ə.* Yeddi Səyyarə. Bakı. 1979.
52. *Nizami Gəncəvi.* Sirlər xəzinəsi. Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1981.
53. *Nizami Gəncəvi.* Xosrov və Şirin. Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1982.
54. *Nizami Gəncəvi.* Leyli və Məcnun. Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1983.
55. *Nizami Gəncəvi.* Yeddi gözəl. Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1983.
56. *Nizami Gəncəvi.* İsgəndərnamə. Bədii tərcümə. «Yazıçı» nəşriyyatı, Bakı, 1982.
57. *Nizami Gəncəvi.* Sirlər xəzinəsi. Filoloji tərcümə. «Elm» nəşriyyatı, Bakı, 1981.
58. *Nizami Gəncəvi.* Xosrov və Şirin. Filoloji tərcümə. «Elm» nəşriyyatı, Bakı, 1981.
59. *Nizami Gəncəvi.* Yeddi gözəl. Filoloji tərcümə. «Elm» nəşriyyatı, Bakı, 1983.
60. *Nizami Gəncəvi.* Leyli və Məcnun. Filoloji tərcümə. «Elm» nəşriyyatı, Bakı, 1981.

61. *Nizami Gəncəvi.* İsgəndərnamə. Filoloji tərcümə. «Elm» nəşriyyatı, Bakı, 1983.
62. *Nizami Gəncəvi.* Məqalələr məcmuəsi. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1947.
63. *Nizami Gəncəvi.* Xosrov və Şirin. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1947.
64. *Nizami Gəncəvi.* Leyli və Məcnun. Azərbaycan «Mədəni rabitə» cəmiyyəti. Bakı, 1947.
65. *Nizami Gəncəvi.* Yeddi gözəl. Azərnəşr, Bakı, 1941.
66. *Nizami Gəncəvi.* İsgəndərnamə. Azərnəşr, Bakı, 1941.
67. *Nizami Gəncəvi.* Lirika. «Gənclik»nəşriyyatı, Bakı, 1980.
68. Nizami Gəncəvi almanaxı. Birinci kitab. «Elm» nəşriyyatı, Bakı, 1984.
69. Nizami Gəncəvinin həyat və yaradıcılığında ümumtəhsil məktəblərində tədrisi məsələləri. Bakı, 1987.
70. *Nizami.* Birinci kitab. Azərnəşr, Bakı, 1940.
71. *Nizami.* İkinci kitab. Azərnəşr, Bakı, 1940.
72. *Nizami.* Üçüncü kitab. Azərnəşr, Bakı, 1941.
73. Nizami əsərlərinin el variantları. Azərnəşr, Bakı, 1941.
74. Nizaminin müasirləri. Azərnəşr, Bakı, 1940.
75. Nizami və Şərq ədəbiyyatı. (Elmi əsərlərin tematik məcmuəsi) S. M. Kirov adına Azərbaycan Dövlət Universitetinin nəşri, Bakı, 1983.
76. *Ordubadi M. S.* Nizaminin dövrü və həyatı. Nizami, Birinci kitab, Azərnəşr, Bakı, 1940.
77. *Paxamov Y. A.* Nizami epoxasında Şirvan qalası, Nizami, Birinci kitab. Azərnəşr, Bakı, 1940.
78. *Paşayev S.* Nizami və folklor. Azərbaycan SSR «Bilik» cəmiyyəti, Bakı, 1976.
79. *Paşayev S.* Nizami və xalq əfsanələri. «Gənclik» nəşriyyatı, Bakı, 1983.
80. *Rəfili M.* Nizami, həyatı və yaradıcılığı, Bakı, 1939.
81. *Rəfili M.* Nizamiyə qədər Azərbaycan kulturası. Nizami. İkinci kitab. Azərnəşr, Bakı, 1940.
82. *Sasani Ç. S.* Nizaminin «Leyli və Məcnun» poeması. «Elm» nəşriyyatı, Bakı, 1985.
83. *Səfərli Ə., Yusifov X.* Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, «Maarif» nəşriyyatı, Bakı, 1982.

84. *Sultanlı Ə.* «İsgəndərnamə» və Qərbi-Avropa ədəbiyyatı, Nizami Gəncəvi. Məqalələr məcmuəsi. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1947.
85. *Şirvani Y. Z.* «Leyli və Məcnun» əsərinin meydana gəlməsi məsələsinə dair. Nizami, Üçüncü kitab. Azərnəşr, Bakı, 1941.
86. *Yusifov X.* Nizaminin lirikası. Azərbaycan SSR EA nəşriyyatı. Bakı, 1968.
87. *Yusifov X.* Şərqdə intibah və Nizami Gəncəvi. «Yazıçı» nəşriyyatı, Bakı, 1982.

## Türkiyə türkcəsində

88. *Abdurrahman Azam.* Rasuli-Ekremin Örnek Ahlakı (türkceye çeviren, Hayreddin Karaman), İstanbul, 1978.
89. *Prof.* Dr. Abdullah Kahraman. İslamda ibadetlerin değişmezliği, İstanbul, 2002.
90. *Prof.* Dr. Abdullah Kahraman. Klassik fıkhı literatüründe kadının cemaatle ibadeti konusundakı yaklaşımlarda fitne söyleminin rolü, «Maarife», yıl, 4, sayı :22, Konya, 2004.
91. *Ahmed Kabaklı*. Türk Edebiyyatı Tarihi, c. I, İstanbul, 1980.
92. *Ahmet Aymutlu.* Süleyman Çelebi ve Mevlidi-Şerif, İstanbul, 1958.
93. *Ahmet Ateş.* Vesiletün Necat, Ankara, 1957.
94. *Ayverdi Samiha.* Edebi ve Manevi Dünyası içinde Fatih, İstanbul, 1968.
95. *Avni Konuk.* Fususul-Hikem Tercüme ve Şerhi, c. IV, İstanbul, 1992.
96. *Abdülbakı Gölpınarlı.* Mesnevi Şerhi, İstanbul, 1973.
97. *Ağırakça Mustafa.* Asri-Saadette Ordu ve Savaş Stratejisi, Bütün Yönleriyle Asri-Saadette İslam, İstanbul, 1994.
98. *Ağırman Mustafa.* Hz. Muhammed (s.a.s.) Devrinde Mescid ve Fonksiyonları, İstanbul, 1997.
99. *Ağırman Mustafa.* Hz. Peyğamberin Savaş Stratejisi, Erzurum, 1992.
100. *Ahmed Cevdet Paşa.* Tarihi-Cevdet, İstanbul, 1972.
101. *Akbulut Ahmet.* Sahabe Devri Siyasi Hadiselerinin Şekillendirdigi Kelam Meseleleri, İstanbul, 1992.
102. *Arnold T.* İntişari-İslam Tarihi (çeviren Halil Halid), Ankara, 1982.
103. *Atalar Münir.* Osmanlı Devletinde Sure-i Humayun ve Sure Alayları, Ankara, 1991.

104.*Atar Fahrettin.* İslamda Adliye Teşkilatı, Ankara, 1978.
105. *Asim Efendi.* Kamus, c. I-IV, İstanbul, 1305.
106.*Abdurrahman Güzel, Mustafa Tatçı.* Yunus Emre, Ankara, 1991.
107.*Ahmed bin Hanbel.* El-müsned, c. I-IV, İstanbul, 1992.
108.*Attar Feridüddin.* Mantikut-Tayr (çevireni A. Gölpınarlı), c. III, İstanbul, 1962.
109.*Attar Feridüddin.* Tezkiretül-Evliya, Tahran, 1346.(çeviren Mehmet Kanar, Tasavvufta insan Meselesi), İstanbul, 1990.
110.*Annemaria Schimmel.* Tasavvufun Boyutları, (çevireni Yaşar Keçeci), İstanbul, 2000.
111.*Annemaria Schimmel.* Çağın Mevlanası Muhammed İkbal, (çevireni, Seneil Özkan), İstanbul, 2001.
112.*Abdülbaki Gölpınarlı.* Yunus Emre ve Şiirleri, İstanbul, 1938.
113.*Abdülbaki Gölpınarlı.* Yunus Emre ve Tasavvuf, İstanbul, 1961.
114.*Aristoteles.* Metafizik, (çevireni, Ahmet Arslan), İstanbul, 1996.
115.*Aynı M. Ali.* Hacı Bayram Veli, İstanbul, 1986.
116.*Ahmet Cevizçi.* Felsefe sözlügü, Ankara, 1996.
117.*Ahmed Yesevi.* Divani-Hikmet Seçmeler, (hazırlayan Kemal Ersalan), Ankara, 1991.
118.*Abdülkadir Geylani.* İlahi Armağan (çeviren, Abdülkadir Akçiçek), Ankara, 1962.
119.*Abdülbaki Gölpınarlı*. Melamilik ve Melamiler, İstanbul, 1992.
120.*Abdülkerim Kuşeyri*. Kuşeyri Risalesi (hazırlayan, Süleyman Uludağ), İstanbul, 1991.
121.*Ahmed Naim-Kamil Miras.* Sahihi-Buhari Muhtasarı Tecridi-Sarih Tercemesi, 12 cild, Ankara, 1970-1973.
122.*Atay Hüseyn.* Kurana Göre İman Esasları,Ankara, 1961.
123.*Akar, Metin.* Türk Edebiyatında Manzum Miracnameler, Ankara, 1987.
124.*Alkan Naim.* Türk-halk edebiyatı, Ankara, 1973.
125.*Arat Reşid Rahmeti, Edib Ahmed b.* Mahmud Yükneki, Atabetül-Hakayık, İstanbul, 1951.
126.*Arat Reşid Rahmeti, Yusuf Has Hacib.* Kutadqu Bilig I, Metin, 2, bsk. Ankara 1979.
127.*Arat Reşid Rahmeti, Yusuf Has Hacib*. Kutadqu Bilig II, Çeviri, 2, bsk. Ankara 1974.
128.*Arat Reşid Rahmeti.* Kutadqu Bilig III,İndeks. Haz.Kemal Eraslan, O.Sertkaya, N.Yüce, İstanbul 1979.
129.*Armutçuoğlu İlhan.* Kaside-i bürde, Konya, 1983.

130.*Arslan Ahmet Turan.* «Asr-ı Saadet Arefesinde İslami Edebiyata Basamak Olan Arap Edebiyyatı» İslami Edebiyat, S. 1, Mayıs 1988.
131.*Arslan Ahmet Turan.* «Asr-ı Saadette Edebiyat» İslami Edebiyat, S. 3, Kasım-Aralık-Ocak 1988-1989.
132.*Asya Arif Nihat.* Dualar ve Aminler, İstanbul, 1967.
133.*Ateş Süleyman.* Yüce Kuranın Çağdaş Tefsiri, İstanbul, 1988.
134.*Ayan Hüseyin.* Fuzuli Leyla vü Mecnun, İstanbul, 1981.
135.*Ayan Hüseyin ve dig.* «XVII Yüzyıl Divan Nazim ve Nesri» maddesi, Büyük Türk Klasikleri, C. V, İstanbul, 1987.
136.*Bakir Abdulhalik.* Hz. Ali Dönemi, Ankara, 1991.
137.*Banarlı Nihad Sami.* «Türklerde Peyğamber Sevgisi», Yeşilay, s. 420, Kasım 1968.
138.*Barthold-Köprülü.* İslam Medeniyeti Tarihi, Ankara, 1977.
139.*Can Şefik.* Mesnevi Tercümesi, I-VI, İstanbul, 1997.
140.*Canan İbrahim.* Hadis Ansiklopedisi, I-XVIII, İstanbul.
141.*Coşan M. Esad.* «Türk Edebiyatında Natlar», Hakses (Hicret Özel Sayısı), Eylül-Ekim 1979.
142.*Cerrahoğlu İsmail.* Tefsir Tarihi, Ankara, 1988.
143.*Cunbur Müjgan.* «Şemail-i Şerife ve Hilye-i Nebeviler», Diyanet Dergisi Özel Sayı, Ankara, 1970.
144.*Cunbur Müjgan.* «Hilye», Türk Ansiklopedisi, I-XIX, Ankara, 1971.
145.*Çağatay Saadet.* «Türkce Dini Tabirler», Necati Luqal Armağanı, Ankara. 1968.
146.*Çağatay.* Neşet, İslam Öncesi Arap Tarihi ve Cahiliyye çağı, Ankara, 1971.
147.*Çelebioğlu Amil.* «Türk Edebiyatında Manzum Dini Eserler», Şükrü Elçin Armağanı, Ankara. 1983.
148.*Derman.* Türk Hat Sanatının şaheserleri, İstanbul, 1982.
149.*Derveze İzzet.* Kurana Göre Hz. Muhammedin Hayatı, I-III, (çev. Mehmet Yolçu), İstanbul, 1989.
150.*Devalibi.* Maruf, islamda Devlet ve İktidar, (çev. Mehmed S. Hatiboğlu), İstanbul, 1985.
151.*Devellioğlu Ferrit.* Osmanlıca-Türkçe Ansiklopedik Lügat, Ankara, 1990.
152.Diyanet Dergisi Peyğamberimiz (s.a.s.) Özel Sayısı, Aralık 1989.
153.*Eraslan Kemal.* Ahmed-i Yesevi, Divan-i Hikmetten Seçmeler, Ankara, 1983.

154.*Ethem Cebecioğlu.* Tasavvuf terimleri ve deyimleri sözlüğü, İstanbul, 2005.
155.*Fayda Mustafa.* Allahın Kılıcı Halid b. Velid, İstanbul, 1992.
156.*Fayda Mustafa.* «Hz. Ömerin Divan Teşkilatı», Doğuştan Günümüze Büyük İslam Tarihi (II cild), İstanbul, 1986.
157.*Fığlalı.* Ethem Ruhi: İmamiye Şiası, Ankara, 1984.
158.*Fığlalı.* Çağımızda İtikadi İslam Mezhepleri, İstanbul, 1980.
159.*Gölpınarlı Abdülbaki.* Mevlevi Adab ve Erkanı, İstanbul, 1963.
160.*Gölpınarlı Abdülbaki.* Divan-ı Kebir Tercümesi, C. IV, İstanbul, 1962.
161.*Gölpınarlı Abdülbaki. Mevlana müzesi Yazmalar Kataloqu, C. I-III, Ankara, 1967-1972.*
162.*Gölpınarlı Abdülbaki.* Mevlanadan Sonra Mevlevilik, İstanbul, 1953.
163.*Gölpınarlı Abdülbaki.* Tasavvuftan Dilimize Geçen Deyimler ve Atasözleri, İstanbul, 1977.
164.*Gülşehri, Mantıkut-Tayr.* Yay.: Agah Sırrı Levend, Ankara, 1957.
165.*Günaltay M. Şemseddin.* İslamda Tarih ve Müverrihler, İstanbul, 1991.
166.*Hacıtahiroğlu Abdullah Öztemiz.* Hazret-i Payğambere Şiirler Antolojisi (Natlar), İstanbul, 1966.
167.*Hamidullah Muhammed.* İslam Müesseselerine Giriş, trc. İhsan Süreyya Sırma, İstanbul, 1984.
168.*Hamidullah Muhammed.* Hazreti Peyğamberin Savaşları, (çev. Salih Tuğ), İstanbul, 1962.
169.*H. İbrahim Şener.* Kaside-i bürde Kaside-i Bür-e ve Su Kasidesi, İzmir, 1995.
170.*Hüseyn Algül.* İslam Tarihi, c. I-III, İstanbul, 1986.
171.*Hüseyn Algül.* Akabe Hadisesi-Hicret ve Getirdikleri, Diyanet Dergisi Hicret Özel sayısı, 1981.
172.*İmam Rabbani.* Mektubat, İstanbul, 1963.
173.*İpekten Haluk.* Eski Türk Edebiyatı Nazim Şekilleri, Ankara, 1985.
174.*İpekten Haluk ve dig.,*Tezkirelere Göre Divan Edebiyatı İsimler Sözlügü, Ankara, 1988.
175.İslam Ansiklopedisi «Bürde» maddesi, C.II, İstanbul,t.y.s.837.
176.*Kabaklı Ahmet.* Türk Edebiyatı, İstanbul, 1973.
177.*Kandemir, M. Yaşar.* Örneklerle İslam Ahlakı, İstanbul, 1980.
178.*Kapar M. Ali.* Hz. Muhammedin Müşriklerle Münasibeti, İstanbul, 1987.

179.*Kara Mustafa.* Din, Hayat, Sanat Acısından Tekkeler, Zaviyeler, İstanbul, 1980.
180.*Karaman Hayrettin.* «Adalet», DİA, I, 343-344, İstanbul, 1988.
181.*Karaman Hayrettin.* Anahatlarıyla İslam Hukuku, Ensar Neşriyat, İstanbul, 1984.
182.*Kazıcı Ziya.* İslam Medeniyeti ve Müesseseleri Tarihi, İstanbul, 1999.
183.*Kazıcı Ziya.* Hz. Muhammedin (s.a.s.) Eşleri ve Aile Hayatı, İstanbul, 1991.
184.*Kitapçı Z.* Yeni İslam Tarihi ve Türkistan, İstanbul, 1986.
185.*Kocatürk Sadettin.* Gülşehri ve Felek-Name, Ankara, 1982.
186.*Kocatürk Vasfi Mahir.* Tekke Şiri Antolojisi, 2, Ankara, 1968.
187.*Köksal M. Asim.* İslam Tarihi, I-III, İstanbul, 1981.
188.*Köprülü Mehmed Fuad.* «Fuzuli maddesi» İslam Ansiklopedisi, C. IV, İstanbul, 1977.
189.*Köprülü Mehmed Fuad.* Edebiyat Araştırmaları, Ankara, 1986.
190.*Köprülü Mehmed Fuad.* Türk Edebiyatında İlk Mutasavvıflar, Ankara, 1966.
191.*Köse Ali.* Neden İslamı Seçiyorlar, İstanbul, 1997.
192.*Kürkçüoğlu Kemal Edib.* Fuzuli, Beng ü bade, İstanbul, 1955.
193.*Kürkçüoğlu Kemal Edib.* Seyid Nesimi Divanından Seçmeler, Ankara, 1985.
194.*Levend.* Agah Sırrı, Divan Edebiyatı, 1980.
195.*Lewis Bernard.* Tarihte Arablar, çev. H.D. Yıldız, İstanbul, 1979.
196.*Lings Martin.* Hz. Muhammedin (s.a.s.) Hayatı, İstanbul, 1988.
197.*Mazıoğlu (Çatbaş), Hasibe.* Fuzuli, Farsça Divan, Ankara, 1962.
198.*Mehmed Doğan.* Büyük Türkçe Sözlük, İstanbul, 1994.
199.*Mevlana Celaleddin-i Rumi.* Mesnevi (trc. Veled İzbudak), I-VI, İstanbul, 1956-1957.
200.*Mevlana Celaleddin er- Rumi.* Fihi Ma Fih, (trc. A.Avni Konuk), İstanbul, 1994.
201.*Nihat Keklik.* Muhyiddin-i Arabının Eserleri ve Kaynakları, İstanbul, 1974.
202.*Nizami.* Hüsrev ü Şirin, (Ter.: Sabri Sersevil), İstanbul, 1955.
203.*Nizami.* Leyla İle Mecnun, (Çev.: Ali Nihad Tarlan), İstanbul, 1985.
204.*Osman Nuri Topbaş.* Hazret-i Muhammed Mustafa, cild, I, İstanbul, 2005.

205. *Osman Nuri Topbaş.* Hazret-i Muhammed Mustafa, cild, II, İstanbul, 2005.
206. *Ömer Çelik.* Kuran ayetlerinin Bilimsel ve Teknolojik Gelişmelerle İlişkisi, İstanbul, 2001.
207. *Önkal Ahmet.* Resullahın Davet Metodu, Konya, 1994.
208. *Önkal Ahmed.* Resulüllahın İslama Davet Metodu, Konya, 1995.
209. *Resulzade M. E.* Azerbaycan şairi Nizami, Ankara, 1951.
210. *Şapolyo Enver Behnan.* Mezhepler, Tarikatler Tarihi, İstanbul, 1964.
211. *Tahirul-Mevlevi.* Edebiyat Lügati, haz. Kemal Edib Kürkçüoğlu, Enderun Kitabevi, İstanbul, 1973.
212. *Tahirul-Mevlevi.* Müslümanlıkta İbadet Tarihi, Ankara, 1998.
213. *Tarlan Ali Nihad.* Mevlana, İstanbul, 1974.
214. *Tarlan Ali Nihad.* Divan Edebiyatında Tevhidler, İstanbul, 1936.
215. *Tarlan Ali Nihad.* İran Edebiyatı, İstanbul, 1944.
216. *Tarlan Ali Nihad.* «Natlar Arasında», Hilal, C. III, Ankara, 1962.
217. *Tarlan Ali Nihad.* «Natlar Arasında», Hilal, C. IV, Ankara, 1963.
218. *Tarlan Ali Nihad.* «Natlar Arasında», Hilal, C. IV, Ankara, 1964.
219. *Tarlan Ali Nihad.* «Natlar Arasında», Hilal, C. IV, Ankara, 1964.
220. *Tarlan Ali Nihad.* «Fuzuliye Göre Hz.Peyğamber», Yeni Asya Qazetesi, 7 Mart 1975.
221. *Tarlan Ali Nihad.* Fuzuli Divanı Şerhi, C. III, Ankara, 1985.
222. *Timurtaş Faruk Kadri.* Yunus Emre, Divan, İstanbul, 1972.
223. *Timurtaş Faruk Kadri.* Şeyhi ve Hüsrev ü Şirini, İnceleme-Metin, İstanbul, 1980.
224. *Togan Z.* Velidi, Tarihte Usul, İstanbul, 1969.
225. *Türk Dilive EdebiyatıAnsiklopedisi.*«Nat» maddesi, C. VI, istanbul, 1986.
226. *Uçman Abdullah.* «XVI. Yüzyıl Tekke Şiiri» maddesi, Büyük Türk Klasikleri, C. II, İstanbul, 1986.
227. *Uçman Abdullah.* «XV. Yüzyıl Tekke Şiiri» maddesi, Büyük Türk Klasikleri, C. III, İstanbul, 1986.
228. *Uçman Abdullah.* «XVI. Yüzyıl Tekke Şiiri» maddesi, Büyük Türk Klasikleri, C. IV, İstanbul, 1986.
229. *Uçman Abdullah.* «XVII. Yüzyıl Tekke Şiiri» maddesi, Büyük Türk Klasikleri, C. VI, İstanbul, 1987.
230. *Uçman Abdullah.* «XVIII. Yüzyıl Tekke Şiiri» maddesi, Büyük Türk Klasikleri, C. VII, İstanbul, 1988.
231. *Uludağ Süleyman.* İslam Açısından Musikı ve Sema, İstanbul, 1976.

232. *Watt M.* Modern Dünyada İslam Vahyi, trc. Mehmet S. Aydın, Ankara, 1982.
233. *Watt M.* Hz. Muhammed Mekkede, çev. A. Yüksel, R. Ayas, Ankara, 1986.
234. *Yazır Elmalılı Muhammed Hamdi.* Hak Dini Kuran Dili, C. I-X, İstanbul, 1982.
235. *Yeniterzi Emine.* Türk Edebiyatında Natlar, Ankara, 1993.
236. *Zebidi Zeynuddin Ahmed.* Tecrid-i sarih Tercümesi, trc. Ahmed Naim-Kamil Miras, İstanbul, 1991.
237. *Ziya Nur Aksun.* Osmanlı Tarihi, İstanbul, 1994.

## Rus dilində

238. *Азаде Р.* Низами Гянджеви. Издательство «Элм», Баку, 1981.
239. *Алиев Г. Ю.* Легенда о Хосрове и Ширин в литературах народов Востока. Москва, 1960.
240. *Алиев Г.* Из истории возникновения Фархада в литературах народов Востока – «Краткие сообщения Института востоковедения», Т-27, Москва, 1968, с. 50-58.
241. *Алиев Г. Ю.* Темы и сюжеты Низами в литературах народов востока. Издательство «Наука», Москва, 1985.
242. *Алиева Т. А.* Основной сюжет поэмы «Семь красавиц» Низами и его связь с восточными преданиями. АГУ, 1958, № 5.
243. *Антокольский П. Г.* Низами. Выдающиеся русские ученые и писатели о Низами Гянджеви. Издательство «Язычы», Баку, 1981.
244. *Арзуманова И. Г.* Изучение творчества Низами в англоязычном литературоведении, автореф. дисс. к филол. наук. Баку, 1984.
245. *Бертельс Е. Э.* Низами, Изд. АН СССР. Москва, 1956.
246. *Бертельс Е. Э.* Низами. Творческий путь поэта. Москва, 1956.
247. *Бертельс Е. Э.* История персидской-таджикской литературы, Москва, 1960.
248. *Бертельс Е. Э.* Избранные труды. Низами и Физули, Москва, Издательство Восточной литературы. Москва, 1962.
249. *Болдырев А. Н.* Хагани, Низами, Руставели. М.- Л.,1935.
250. *Болдырев А. Н.* Два ширванских поэта Низами и Хагани. В сб. «Памятники эпохи Руставели», Ленинград, 1938.
251. Выдающиеся русские ученые и писатели о Низами Гянджеви. Издательство «Язычы», Баку, 1981.

252. *Гусейнов Х. М.* Идейно-художественные особенности «Сокровищницы тайн» Низами Гянджеви. Автореф. канд. дисс. Баку, 1970.
253. *Додхудаева Л. Н.* Поэмы Низами в средневековой литературной живописи, изд. «Наука», Москва, 1985.
254. *Кязимов М. Д.* «Хафт пейкар» Низами и традиция в персоязычной литературе XIV-XVI вв., Баку, 1987.
255. *Крачковский И. Ю.* Ранняя история повести о Меджнуне и Лейли в арабской литературе. Изб. соч., том II, М-Л., 1956.
256. *Крачковский И. Ю.* Ранняя история повести о Меджнуне и Лейли в Арабской литературе. Выдающиеся русские ученые и писатели о Низами Гянджеви. Издательство «Язычы», Баку, 1981.
257. *Крымский А. Е.* Низами и его современники. Издательство «Элм», Баку, 1981.
258. *Крымский А. Е.* Низами и его изучение. Выдающиеся русские ученые и писатели и Низами Гянджеви. Издательство «Язычы», Баку, 1981.
259. *Маковельский А. О.* Мысли Низами о силе и о художественном творчестве. Выдающиеся русские ученые и писатели о Низами Гянджеви. Издательство «Язычы», Баку, 1981.
260. Материалы научной конференции, посвященной проблеме «Азербайджанская культура XI-XII векрв и творчества Низами Гянджеви». Издательство «Элм», Баку, 1980.
261. *Мустафаев Дж.* Философские и эстетические воззрения Низами, Баку, 1962.
262. *Рафили М.* Низами и Азербайджанская культура XII века, Низами сборник статей. Азернешр, Баку, 1947.
263. *Рубинчик Ю. А.* Персидско-русский словарь. Москва, 1983.
264. *Самойлова Д.* Сказание о Меджнуне из племени Бену Амир, Москва, 1976.
265. *Сасаниян Ч.* С. Поэма «Лейли и Меджнун», Низами. Автореф. канд. дис. Баку, 1970.
266. *Семенов А.* Великий азербайджанский поэт Низами, Литература и исскуство Узбекистана, кн. 3, 1939.
267. *Тагирджанов А. Г.* О происхождении, повести «Лейли и Меджнун» НАА. 1977, № 2, с. 37-39.
268. *Тихонов Н. С.* Низами, выдающиеся русские ученые и писатели о Низами Гянджеви. Издательство «Язычы», Баку, 1981.

**Fars dilində**
269. آذر بیگدلی. آتشکده. تهران، 1340.
270. بدیع الزمان فروزانفر. سخن وسخنسرایان. ج 2 تهران، 1312.
271. بهروز ثروتیان. بیان در شعر فارسی، تهران، 1369.
272. برات زنجانی. تأثیر نظامی از دیگران. فروغ آزادی. تبریز، 1375، تیرماه.
273. برات زنجانی. صور خیال در خمسه نظامی. تهران، 1377.
274. جلال الدین هماتی. فنون بلاغت وصناعات ادبی. تهران، 1377. (بکوشش حسین نخعی)، تهران، 1336
275. دکتر خیامپور فرهنگ سخنوران. تبریز، 1340.
276. دیوان خاقانی شروانی بکوشش حسین نخعی، تهران، 1336.
277. دیوان خاقانی شروانی به کوشش دکتر ضیاءالدین سجادی، 1374.
278. دولتشاه سمرقندی، تذکرة الشعرا، بمبی، 1318.
279. ذبیح الله صفا. تاریخ ادبیات درایران 11 ج تهران، 1336.
280. زین العابدین موتمین. تحول شعر فارسی. تهران، 1339.
281. رضازاده شفق. تاریخ ادبیات ایران، اصفهان، 1338.
282. شبلی نعمان. شعر العجم یا تاریخ شعرا وادبیات ایران. تهران، 1338.
283. شهابی علی اکبر. نظامی شاعر داستانسرا. تهران، 1338.
284. شمس الدین محمد بن قیس الرازی. کتاب العجم فی معایر اشعار العجم بتصحیح محمد بن عبدالوهاب قزوینی، تهران، 1314.
285. فخر الدین اسعد گرگانی. ویس و رامین. بکوشش محمد جعفر محجوب، تهران، 1339.
286. فخر الدین اسعد گرگانی. ویس و رامین. بتصحیح مالکی تودا وآلکساندر گواخاریا تهران، 1369.
287. فردوسی. شاهنامه. 1-8، مسکو، 1960/1970 .
288. فلکی شیروانی. دیوان به اهتمام و تصحیح تحیره شهاب طاهری، تهران، 1345.
289. گنجینه گنجوی. یادگار هفتم. یادگار وارمغان وحید دستگردی، تهران، 1331.
290. محمد رضا شفیعی کدکنی. صور خیال در شعر فارسی. تهران 1366.
291. نظامی گنجوی. مخزن الاسرار. بکوشش وحید دستگردی،

تهران، 1313.
292. خسرو و شیرین یادگار وارمغان وحید نظامی گنجوی. دستگردی، تهران، انتشارات ارمغان، 1313.
293. نظامی گنجوی. لیلی و مجنون. یادگار وارمغان وحید دستگردی، تهران، 1313.
294. نظامی گنجوی. نامه هفت پیکر. یادگار وارمغان وحید دستگردی، تهران، 1315.
295. نظامی گنجوی. شرفنامه. یادگار وارمغان وحید دستگردی، تهران، 1313.
296. نظامی گنجوی. اقبالنامه. یادگار وارمغان وحید دستگردی، تهران، 1318.
297. نظامی گنجوی. قصائد و غزلیات با مقدمه وحواشی وبکوشش سعید نفیسی، تهران، 1338
298. نظامی گنجوی. مخزن الاسرار، متن علمی وانتقادی بسعی واهتمام ع.ع.علی زاده،باکو، 1960.
299. نظامی گنجوی. خسرو وشیرین. ترتیب دهندۀ متن علمی وانتقادی له و الکسندرویچ خه تاقوروف. باکو، 1960.
300. نظامی گنجوی. لیلی و مجنون. متن علمی و انتقادی بسعی واهتمام اژدر علی اوغلی اصغرزاده و ف. بابایف، باکو، 1965.
301. نظامی گنجوی. شرفنامه. ترتیب دهندۀ متن علمی وتدقیقی ع.ع.علی زاده، باکو، 1947.
302. نظامی گنجوی. اقبالنامه. ترتیب دهندۀ متن علمی وتدقیقی. ف. بابایف، باکو، 1967.
303. نظامی گنجوی. هفت پیکر. متن علمی وانتقادی مقدمه وحواشی بقلم طاهر احمداوغلی محرم اوف، مسکو، 1987.
304. ولی الله ظفری. حبسیه درادب فارسی (از آغاز شعر فارسی تا پایان زنیده)، تهران، 1375.
305. خرابات. ادیب مشهور ضیاء بک. مطبعه عامر، 1393.
306. قسطمونلی لطیفی. تذکرۀ الطیفی. اقدام مطبعه سی، 1312.

**SİRACƏDDİN HACI**

# HƏZRƏT NİZAMİ GƏNCƏVİNİN MERACNAMƏLƏRİNİN ŞƏRHİ

4-cü kitab

Bakı – 2010

*Nəşriyyatın direktoru:* **Hafiz Abıyev**
*Kompüter tərtibçisi:* **Qabil Xeyrullaoğlu**
*Korrektoru:* **Xəlil Nəbiyev**
*Operator:* **Vəfa İbrahimova**

Çapa imzalanmışdır: 12.07.2010. Sifariş № 20. Həcmi 48 ç.v.
Formatı 84x108 1/32. Tirajı 200 nüsxə. Qiyməti müqavilə ilə.

*Azərbaycan MEA Geologiya İnstitutu «Nafta-Press» nəşriyyatının mətbəəsi. Bakı, H.Cavid pr. 29A. Tel.: 5103914*